**BAKI DÖVLƏT UNİVERSİTETİ**
**TARİX FAKÜLTƏSİ**

**Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrası nəzdində “Dünya azərbaycanlıları: tarixi-demoqrafiya” Elmi-tədqiqat laboratoriyası**

# DÜNYA AZƏRBAYCANLILARI: TARİX VƏ MÜASİRLİK
## (Elmi-nəzəri toplu)

## IX BURAXILIŞ

***“Şuşa ili”nə həsr edilir***

*Toplu BDU-nun Tarix fakültəsi Elmi Şurasının 16 dekabr 2022-ci il tarixli qərarı ilə çap edilir.*

**BAKI – 2022/2023**

**REDAKSİYA HEYƏTİ**

akad. Yaqub Mahmudov (BDU)
prof. Anar İsgəndərov (BDU)
prof. İbrahim Zeynalov (BDU)
prof. Qüdrət İsmayılzadə (BDU)
t.e.d. Tarix Dostiyev (BDU)
dos. Mehman Abdullayev (BDU)
dos. Kəmalə Nəcəfova (BDU)
dos. İlqar Niftəliyev (AMEA)
dos. Arzu Məmmədova (BDU)
dos. Səidə Əli qızı (BDU)
dos. Səidə Quliyeva (BDU)
dos. Sevinc Qasımova (BDU)
dos. Elvira Lətifova (BDU)
dos. Boran Əziz (BDU)
dos. Rövşən Hətəmov (BDU)
t.ü.f.d.Asəf Hacıyev (BDU)
t.ü.f.d. Hicran Mahmudova (BDU)
t.ü.f.d. Zəhra İslamova (BDU)
b.e.i. Ulduz Paşayeva (BDU)
müəl. Kəmalə Məmmədova (BDU)

**Dünya azərbaycanlıları: tarix və müasirlik**. (Elmi-nəzəri toplu). IX buraxılış. Bakı, "Füyuzat" nəşriyyatı, 2022/2023, 212 səh.
***Ünvan:*** Bakı şəhəri, Z.Xəlilov küçəsi, 23 Bakı Dövlət Universiteti, Tarix fakültəsi, III tədris binası, 9-cu mərtəbə, otaq 904
***Əlaqə:*** 012-537-04-61; dunya.azerbaycanlilari.etl@gmail.com

0501000000-68
2022

© "Füyuzat", 2022/2023

# MÜNDƏRİCAT

## I BÖLMƏ

## AZƏRBAYCANIN TARİXİ TORPAQLARI: ƏRAZİ VƏ ƏHALİ MƏSƏLƏLƏRİ

**Tarix Dostiyev**
Ərəb işğalı ərəfəsində Albaniyada etnik-mədəni durum .............................. 5
**Zəhra İslamova**
Teymurilər dövründə Qarabağın siyasi mövqeyi
(Ruy Qonsales De Klavixonun "Səyahətnamə"si əsasında)......................... 13
**Bəymirzə Şabiyev**
Çuxur - Səəd əhalisinin sosial tərkibi ......................................................... 21
**Nurlana Cavanşir**
Rusların Azərbaycana yumşaq-güc siyasəti ilə müdaxiləsinin
bəzi ənənələri haqqında.................................................................................. 35
**Elşən Aslanov**
Qarabağın tarixi coğrafiyası A.A.Bakıxanovun
"Gülüstani-İrəm" əsərində ............................................................................ 40
**Asəf Hacıyev**
XIX əsrdə Bakı şəhərinin inzibati-ərazi bölgüsü .......................................... 52
**Rövşən Hətəmov**
İkinci dünya müharibəsi dövründə Azərbaycanda hərbi
səfərbərlik tədbirləri haqqında ...................................................................... 61
**Aydın Məmmədov**
XIX əsrdə Azərbaycanın tarixi demoqrafiya problemləri
Vətən tarixşünaslığında
(XX əsrin II yarısı-XXI əsrin əvvəllərində) ................................................ 72
**Ulduz Paşayeva**
Şamaxı bölgəsi üzrə ailə-nikah məsələlərinə dair
(1999-2009-cu illərin statistik məlumatları əsasında)................................... 80

## II BÖLMƏ

## AZƏRBAYCAN TARİXİNİN ÜMUMİ MƏSƏLƏLƏRİ

**Hicran Mahmudova**
Qarabağın son tunc-erkən dəmir dövrü abidələri ........................................ 88
**Nigar Həmidova**
Azərbaycan dövlətçilik tarixində Eldəniz Atabəyliyinin rolu ............................................................................. 95
**Səidə Əli qızı**
Həsən bəy Zərdabinin davamçısı Məhəmməd Ağa Şahtaxtlı və onun “Şərqi-Rus” qəzeti .............................................................. 108
**Sevinc Qasımova**
Azərbaycan maarifçilik hərəkatında milli mətbuatın önəmi ......................... 117
**Aygün İsmayılova**
Azərbaycan Xalq Cümhuriyyətinin Xüsusi Xidmət Orqanı: Əks-inqilabla mübarizə təşkilatı ................................................... 126
**Kəmalə Məmmədova**
Azərbaycan legionerlərinin yaradıcılığında Vətən sevgisi .......................... 132
**Səidə Quliyeva, Sultan Seyidov**
Karibinin “Qırmızı kitab”ı erməni saxtakarlığını ifşa edən mənbə kimi .................................................................................... 139
**İradə Vəzirova, Günay Çatalkaya**
Şimali Azərbaycanda Cənubi Azərbaycan mühacirlərinin klassik Azərbaycan ədəbiyyatına təsiri ................................................................ 155
**İqbal Ağayev, Qənbər Ağayev**
Çinin “Bir kəmər Bir yol” təşəbbüsü və Azərbaycan: mövcud vəziyyət və reallıqlar ................................................................... 169
**Murad Əsədov**
Cənubi Qafqazda təhlükəsizliyin və sabitliyin yaranmasında Azərbaycan-Gürcüstan-Türkiyə əməkdaşlığı ....................... 179
**Əsgər Zeynalabdinov**
ABŞ-Azərbaycan münasibətlərini şərtləndirən amillər (1991-2022)........................................................................................... 196
**Mətanət Məmmədova**
Tarixin tədrisində aktual problemlər: İkinci Qarabağ müharibəsi .................................................................................................. 201

# I BÖLMƏ

# AZƏRBAYCANIN TARİXİ TORPAQLARI: ƏRAZİ VƏ ƏHALİ MƏSƏLƏLƏRİ

**UOT 94 (479.24)**

## ƏRƏB İŞĞALI ƏRƏFƏSİNDƏ ALBANİYADA ETNİK – MƏDƏNİ DURUM

**TARİX DOSTİYEV**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, tarix elmləri doktoru*
*dostiyev.tarikh@mail.ru*

*Məqalə V-VII əsrin ilk qərinəsində Albaniyada cərəyan edən etnik-mədəni proseslərin araşdırılmasına həsr olunub. Albaniyanın qərarlaşdığı ərazi onun Yaxın Şərqi Cənub-Şərqi Avropa ilə birləşdirən əsas körpü olmasını, iqtisadi və mədəni əlaqələrin intensivləşməsini, mütəmadi miqrasiyaları şərtləndirmişdi. İlk orta əsrlərdə Albaniya polietnik tərkibə malik idi və burada türk, Şahdağ qrupu xalqları, İran mənşəli xalqlar, yəhudilər yaşayırdılar. Albaniya həm də konfessional rəngarəngliyi ilə fərqlənirdi. Çoxsaylı artefaktlar hərbi-siyasi, etnik-mədəni proseslərin mədəniyyət komplekslərinə əhəmiyyətli dərəcədə təsir göstərməsini təsdiqləyir. Bölgədə oturaq və köçəri dünyasının ənənələrini sintez edən mürəkkəb etno-mədəni proseslər etnik-mədəni transformasiyaya, konsolidasiyaya zəmin yaradırdı. Sasani şahlarının şimaldan türk tayfalarının Albaniyaya axınının qarşısını almaq, köçürmə siyasəti ilə burada irandilli tayfalarının məskunlaşma xəritəsini genişləndirmək üzrə cəhdləri uğursuz olmuş, artıq ərəb işğalı ərəfəsində Albaniyada türk etnosu üstünlük təşkil etmiş və türk dili ünsiyyət dilinə çevrilmiş, konsolidasiya prosesində əhəmiyyətli rol oynamışdı.*

***Açar sözlər**: Albaniya, etnik-mədəni proseslər, köçürmə siyasəti, xristianlıq, zərdüştlük, bütpərəstlik.*

### *THE ETHNO-CULTURAL SITUATION IN ALBANIA ON THE EVE OF THE ARAB INVASION*

*The article is devoted to the study of the ethno-cultural processes taking place in Albania at the beginning of the 5th-7th centuries. The territory where Albania was located made it the main bridge connecting the Middle East with Southeast Europe, the intensification of economic and cultural relations, and regular migrations. In the early Middle Ages, Albania had a poly-ethnic composition, and consisted from Turks, peoples of the Shahdag group, peoples of Irani-an origin, and Jews. Albania was also distinguished by its confessional diversity. Numerous artifacts confirm the significant influence of military-political, ethno-cultural processes on cultural complexes. Complex ethno-cultural processes synthesizing the traditions of the seden-tary and nomadic worlds in the region laid the foundation for ethno-cultural transformation and consolidation. The attempts of the Sassanid shahs to prevent the invasion of Turkic tribes from the north to Albania, and to expand the settlement map of Iranian-speaking tribes here with the resettlement policy, failed. Already on the eve of the Arab invasion, the Turkic ethnos dominated in Albania and the Turkic language became the language of communication and played an important role in the consolidation process.*

***Keywords**: Albania, ethno-cultural processes, resettlement policy, Christianity, Zoroas-trianism, paganism.*

**Giriş**. Albaniyanın coğrafi şəraiti onun nəinki Qafqaz, eləcə də Yaxın Şərq və Cənub-Şərqi Avropa üçün önəmli bir məkan, əlaqələndirici körpü olmasını şərtləndirmişdi. Qafqaz dağları Xəzər və Qara dəniz arasında qərarlaşmaqla şimal-cənub istiqamətdə hərəkəti üçün - miqrasiyalar, tacir karvanlarının, eləcə də istilaçı orduların hərəkəti üçün təbii maneə idi. Təbii coğrafi şərait Xəzər dənizinin qərb sahili boyunca uzanan dəhlizin və Dəryal keçidin əhəmiyyətini müstəsna dərəcədə artırırdı. Xəzər dənizinin qərb sahili boyunca uzanan dəhlizin ən dar keçidi Böyük Qafqaz dağlarının Xəzər dənizinə daha sıx yaxınlaşdığı Dərbənd və Beşbarmaq keçidləri idi. Bu keçidlərə nəzarət uğrunda qədim dünyanın fövqəl dövlətləri: Roma imperiyası və Parfiya dövləti, Sasani dövləti və Türk xaqanlığı rəqabət aparırdı. Bu da təsadüfi deyildi, hərbi-siyasi və iqtisadi maraqlarla bağlı idi.

Ümumiyyətlə, ilk orta əsrlər Qafqaz regionunda, o cümlədən Albaniyada mürəkkəb hərbi-siyasi və etnik-mədəni proseslərin cərəyan etməsi ilə əlamətdar oldu. Sasanilərin köçürmə siyasəti, şimaldan köçəri tayfalarının axınları, Bizans imperiyasının Cənubi Qafqazı öz nüfuz dairəsinə daxil etmək cəhdləri regionda etnik prosesləri mürəkkəbləşdirmişdi. İlk orta əsrlərdə Albaniya həm də dini rəngarəngliyi ilə fərqlənirdi.

**İpək Yolu və regionun etnik-mədəni durumuna təsiri.** Erkən orta əsrlərdə hərbi-siyasi və iqtisadi durumun formalaşmasında köçərilərlə oturaq əhali arasında qarşılıqlı əlaqənin aspektləri xüsusi əhəmiyyətə malik idi. Bu dövrdə köçəri və oturaq tayfalar arasında qarşılıqlı münasibətləri tənzimləyən güclü xarici iqtisadi amil diqqətdən kənarda qalmamalıdır. Müxtəlif xalqların və tayfaların məskunlaşdığı geniş ərazilər vasitəsilə əmtəələrin daşınmasını təmin etmək üçün ticarət yollarına nəzarət etmək lazım idi. Köçəri imperiyaların oturaq əkinçi cəmiyyətlərlə inteqrasiyası ticarət yollarının fəaliyyəti üçün mühüm şərtlərdən biri idi. Döyüşkən köçərilərin ərazilərindən keçən ticarət yollarında əmtəələrin və tacirlərin təhlükəsizliyinin təminatında imperiyaların rolu böyük idi [9, s. 112; 24, s.329].

Hindistandan Mərkəzi Asiya və Xəzər vasitəsilə Kürün mənsəbinə, oradan Kür çayı boyunca bütün Albaniya ərazisindən, daha sonra İberiyadan və Rioni çayından keçib Kolxidanın Qara dəniz sahillərinə qədər uzanan “Strabon yolu” Antik dövrdə, eləcə də III-IV əsrlərdə beynəlxalq ticarətdə əhəmiyyətli rola sahib idi. Hələ Antik dövrdə ərazisindən İpək Yolunun əsas cənub magistral xəttinin keçdiyi Atropatena dövləti kimi, ərazisindən “Strabon yolu”nun keçdiyi Albaniya da əlverişli coğrafi mövqeyindən istifadə edərək, Roma və Parfiya arasında daim tarazlıq yaratmağa çalışır, müxtəlif diplomatik vasitələrlə müstəqilliyi qoruyub saxlamağa çalışırdı. Parfiya Albaniyada mövqelərini möhkəmləndirmək, “Strabon yolu”nun Albaniya hissəsində gedən ticarət əməliyyatlarına nəzarət etmək məqsədi ilə Parfiyanın müxtəlif bölgələrindən ayrı-ayrı tayfaları buradakı strateji əhəmiyyətli ərazilərə köcürərək yerləşdirirdi. Roma da öz növbəsində Albaniyada möhkəmlənmək, İpək Yolunun Xəzəryanı marşrutunun

başlıca məntəqəsi olan Dərbənd keçidini ələ keçirməyə səy göstərirdi. Tədqiqatçıların fikrincə bu beynəlxalq ticarət yolu hələ skif-sarmat dövründə formalaşıb fəaliyyət gostərmişdir [1, s. 84-87; 14, s. 97]. “Strabon yolu”nun artıq IV-V əsrlərdə əhəmiyyətini itirməsi ilə İpək yolunun Xəzər dənizinin qərb sahili boyunca olan marşrutu mühüm rol oynamağa başladı. İlk orta əsrlərdə Böyük İpək yolunun Xəzər dənizinin qərb sahili boyunca olan marşrutuna nəzarət etmək istəyi Sasani dövləti, Bizans imperiyası və Türk xaqanlığı arasında rəqabəti daha da dərinləşdirdi. III-VI əsrlərdə Yaxın Şərqlə Çin arasındakı ticarət Sasani dövlətinin (224−651) inhisarında idi. Sasanilərin ipək parcaları öz ərazilərindən qərbə doğru aparmağı qadağan etməsi alternativ marşrutların axtarılması, İpək yolunun şimal qolunun fəaliyyətinin intensivləşməsini şərtləndirdi. İpək Yolunun şimal qolu Çinin mərkəzindən Mərkəzi Asiyaya, Xarəzmdən Aşağı Volqaya (İdilə, İtilə), daha qərbdə Sarkelə, Don boyunca Azov və Kuban ətrafı bölgələrə (Taman və Krıma), Qara dənizə gedirdi. V-VI əsrlərdə Dərbənd şəhərinin rolu və əhəmiyyəti artdı. Dərbənd İpək Yolunun şimal və cənub qollarını birləşdirən məntəqəyə cevrildi [1, s. 89-91]. İpək Yolu üzrə beynəlxalq ticarət Albaniyaya ipək parcalar və geyimlər, qliptika nümunələri, torevtika məhsulları, şüşə məmulatı, müxtəlif bəzək əşyaları və s. gətirilməsini təmin edirdi. İpək Yolu təkcə əmtəə və sənətkarların, tacirlərin hərəkəti ilə məhdudlaşmırdı, həm də bilik, ideya, texnologiya, mədəniyyət və dinlərin yayılmasının generatoru olub, etnik-mədəni proseslərə güclü təsir göstərir, qapalılığı, tədricliyi aradan qaldırırdı, bununla da, İpək Yolu dəhlizləri boyunca mədəni komponentlərin unifikasiyası baş verirdi [3, s. 311]. Müəyyən bir bölgədə ortaya çıxan ixtiralar qısa müddətdə ümumi mülkiyyətə cevrilir, qabaqcıl xalqların əldə etdiyi nailiyyətləri mənimsəməyə hazır olan ölkə və xalqların tərəqqisinə kömək edirdi [19, s. 42].

Sözü gedən beynəlxalq ticarətdə rəvac əmtəə olan ipək məmulatı V-VI əsrlərdə Alban maddi mədəniyyətində özünə layiqli yer tutdu. Tədqiq olunan dövrdə ipək dəyər ölçüsü idi. O ən cox təqdim edilən diplomatik hədiyyə formasına cevrilmişdi. Təxminən 3 min il Çinin inhisarında qalmış ipəkçilik və ipək toxuma V əsrdə Xotana, daha sonra V-VI əsrlərdə Mərkəzi Asiyaya, İrana, Qafqaza və Bizansa gətirildi. Bu dövrdə ipəktoxuma sadə sənət sahəsindən əsl dekorativ tətbiqi sənətə çevrilmiş və Albaniyada geniş yayılmışdı. O qədər parça istehsal olunurdu ki, hətta əhalinin yuxarı zümrələrinin evlərinin divarları və qapıları ipəklə bəzədilirdi [28, s. 139].

**Sasanilərin köçürmə siyasəti və onun nəticələri**. İlk orta əsrlər Qafqaz regionunda, o cümlədən Albaniyada mürəkkəb hərbi-siyasi və etnik-mədəni proseslərin cərəyan etməsi ilə əlamətdar oldu. Sasanilərin köçürmə siyasəti, şimaldan köçəri tayfalarının axınları, Bizans imperiyasının Cənubi Qafqazı öz nüfuz dairəsinə daxil etmək cəhdləri regionda etnik prosesləri mürəkkəbləşdirmişdi. İlk orta əsrlərdə Albaniya həm də dini rəngarəngliyi ilə fərqlənirdi.

Sasani şahları Albaniyanın böyük strateji əhəmiyyət kəsb edən Xəzərboyu dəhlizi, Albaniyada dağ keçidlərini nəzarətdə saxlamaq məqsədi ilə fəal köçürmə siyasəti aparır, İranın daxili rayonlarından irandilli tayfaları bu ərazilərə köçürürdülər. Həmin tayfalar hərbi-strateji əhəmiyyətli, müdafiə sədlərinin qərarlaşdığı ərazilərdə yerləşdirilimişdi. Yazılı mənbə məlumatının arxeoloji dəlillərlə müqayisəli tədqiqi Dərbənd şəhərində köçürmə siyasətinin nəticələrini daha aydın izləməyə imkan verir.

Sasani şahlarının Dərbənd keçidini nəzarət altında saxlamaq məqsədi ilə İranın müxtəlif bölgələrindən etibar etdikləri tayfaları Dərbənd bölgəsinə köçürməsindən bəhs edən "Dərbəndnamə" xəbər verir ki, "... Qubad və Ənuşirəvan Fars vilayətindən (Qafqaza) çoxlu hökmdar müttəfiqlərini gətirdilər və bu hüdudlarda şəhərlər saldılar" [20, s. 302]. Həm də salnamə İranın müxtəlif bölgələrindən birbaşa Dərbənd şəhərinə köçürülənlərin sayına aydınlıq gətirir. Belə ki, köçürülən 3.000 ailə sasanilərin sosial və etnik dayağı olmalı idi [17, s. 168].

Sasani hökmdarları döyüşkən türk tayfalarının cənuba doğru irəliləməsinin qarşısını nəhəng istehkam tikililəri ucaltmaqda almaq istəyirdilər. Albaniyanın şimal-şərqindəki dar keçidlərdə V-VI əsrlərdə beş müdafiə səddi salınmışdı. Onlardan üçü - Beşbarmaq, Gilgilçay, Dərbənd sədləri xüsusilə böyük əhəmiyyətə malik idi. Müdafiə sədlərinin inşaatında Sasani hərb memarlığının inşaat texnikası və üsulları tətbiq edilmiş, inşaatın gedişatına sasani məmurları nəzarət etmiş, amma bu nəhəng tikintinin bütün ağırlığı yerli əhalinin üzərinə düşmüşdü.Təsadüfi deyildir ki, Dərbənd istehkamları üzərində orta fars dilli kitabələrlə yanaşı həm də xristian xaçları, təbii ki, Albaniyanın işarə sistemini təmsil edən işarələr də vardır [15, s. 81–114]. Söz yox ki, həmin işarələr yerli alban əhalisinin Dərbənd istehkamlarının ucaldılmasında iştirakını sənədləşdirir. Tədqiqatçılar Dərbəndin əsasən şimal qala divarında və narınqala divarında orta fars dilində həkk edilmiş 30-dan artıq inşaat kitabəsi aşkar etmişlər. Onların əksəriyyətində Dərbənd qalasının tikintisinə cavabdeh olan məmurların, o cümlədən maliyyə idarəsinin başçısı Dariuş, memarlardan Adurguşnasp, Moşıq, Rəşnu adları qeyd olunub [16, s. 35-86].

**Şimal köçəriləri və Albaniyada etnik-mədəni proseslər.** Bir tərəfdən sasani şahlarının köçürmə siyasəti, digər tərəfdən şimal köçərilərinin tədrici oturaq həyat tərzinə keçməsi Albaniyanın sıx məskunlaşmasını şərtləndirmişdi. V-VI əsrlərdə Albaniya əhalisinin xeyli hissəsini oturaq həyat tərzinə keçən köçərilər təşkil edirdi. Yeni salınan bəzi şəhərlərin sakinlərinin əksəriyyətini oturaq həyat tərzinə keçən keçmiş köçərilər və onların varisləri təşkil edirdi. Belə şəhərlərdən biri Şabran idi. Yazılı qaynaqların məlumatının arxeoloji materiallarla müqayisəli təhlili V-VI əsrlərdə bölgədə məskunlaşan sabirlərin Şabran şəhərinin təşəkkül tapmasında fəal iştirak etdiyini təsdiqləyir [2, s. 218; 8, s.188; 21, s. 59].

Ərəb işğalı ərəfəsində Albaniyada, xüsusilə onun şimal bölgələrində türk etnosunun mövqelərinin güclənməsində xəzərlərin rolu əhəmiyyətli olmuşdu. Ərəb işğalı ərəfəsində Tiflisə qədər Albaniyanın əksər bölgələri, xüsusilə də

onun şimal bölgələri xəzərlərin nəzarəti altında idi [4, s.62-63 ]. Yazılı mənbə məlumatı və tədqiqatçıların araşdırmalarını təhlil edən şərqşünas, xəzərlərin tarixinin görkəmli tədqiqatçısı Fərda Əsədov yazır ki, "Sasani ekspansiyasına qədər, çar Firuzun və ya onun oğlu Qubadın hökmranlığınadək müəyyən müddət ərzində xəzərlər ən azından Cənubi Qafqazın şimal hissəsinə hökmran ola bilərdilər, lakin onun üzərində hakimiyyətini itirdikdən sonra onlar bura qayıtmağa müvəffəq olmuşdular" [4, s.61-67]. Dərbənd şəhərinin əhalisinin xeyli hissəsini xəzərlər təşkil edirdi. Ərəb işğalı dövründə şəhərin etnik tərkibində müəyyən dəyişikliklər baş vermiş, Xilafət etnik dayaq yaratmaq üçün Suriya ərəblərindən 24 min nəfəri burada yerləşdirmiş, ərəb-xəzər müharibələri nəticəsində xəzərlərin bir qismi isə şəhəri tərk etməyə məcbur olmuşdu. Ərəb sərkərdəsi Məsləmə Dərbəndi xəzərlərdən təmizləmək üçün 1.000 xəzər ailəsini şəhərdən zorla köçürmüşdü. Bununla belə  şəhərdə xeyli xəzər dilində danışan sakinlər yaşamaqda idi [27, s.56]. Ərəb istilası ərəfəsində Albaniyanın qədim paytaxtı Qəbələ şəhəri xəzərlərin inzibati mərkəzi idi [9, s.113].

Ərəb istilası ərəfəsində Albaniyanın polietnik tərkibdə türk, Şahdağ qrupu xalqları, İran mənşəli xalqlar, yəhudilər yaşayırdılar. Türk etnosu üstünlük təşkil edirdi.

**Konfessional durum  və onun etnik-mədəni proseslərə təsiri**. Albaniya təkcə polietnik tərkibi ilə deyil, həm də konfessional rəngarəngliyi ilə fərqlənirdi. Eramızın I minilliyinin ortalarından başlayaraq Sasani dövləti və Bizans imperiyası siyasi məqsədlər üçün dini amillərdən fəal istifadə etməyə başlayırlar [18, s.250]. Sasani şahları ideoloji təsir məqsədi ilə yerli əhali arasında zərdüştlüyün yayılması, hakim ideologiyaya çevrilməsinə böyük səylər göstərirdi. Sasanilərin zərdüştlüyü yaymaq siyasəti uğursuzluğa düçar olsa da, Albaniyaya köçürdükləri irandilli tayfalar zərdüşt dininin daşıyıcıları idilər. Dərbənd istehkamları üzərində zərdüşt rəmzlərinə, xüsusilə dairə və iki lentşəkilli şüadan ibarət işarəyə rast gəlinməsi, söz yox ki, sasanilərin İrandan buraya köçürdüyü əhali, Sasani hərbçilərinin mövcudluğunun və fəaliyyətinin nəticəsidir. Dərbənd yaxınlığında aşkarlanmış, V-VII yüzilliklərə aid "daxma" tipli zərdüşt qaya dəfn kompleksi də, görünür sasani hərbçilərinə məxsusdur [13, s.51–63].

Zərdüştlüklə bağlı tapıntılar arasında Sasani istehsalı olan qliptika məmulatı daha çoxdur. Onlar materialına, rəng, forma, ölçülərinə görə fərqlənirlər və təsvirlər, muxtəlif nəbati və həndəsi naxışlarla bəzədiliblər. Sasani möhürlərində təsviri motiv və süjetlər müxtəlifliyi ilə çox da seçilmir. Onların üzərində əsasən heyvan, quş təsvirləri, dini süjetlər, atəşdan, əqrəb və fantastik canlılar təsvir edilməsi ilə yanaşı, muxtəlif işarə və monoqramlara da təsadüf olunur. Ayinlərlə bağlı süjetlər: kahinlərin çicəklə, altıguşəli ulduzla və ya qurbangahın qarşısında dua edərkən şəkilləri, bəzən isə üstündə yanar atəşli və ya sadə qurbangah təsvirləri geniş yayılmışdır [10, s. 49-5611, s. 31-45; 25, s. 24-25]. Hesab edilir ki, ideoloji yükə malik bu möhur - gemmalar şəxsi möhürlərdən daha çox gözmuncuğu, hifzedici kimi istifadə edilirdi [25, s. 27]. Zərdüştlüyün öz

əksini tapdığı ilk orta əsrlərə aid artefaktlar arasında üzərinə qızıl suyu çəkilmiş gümüş kuzəni də qeyd etmək olar. Kuzə son Sasani incəsənəti üçün səciyyəvi olan, Zərdüşt dini rəmzləri ilə bədii tərtibata malikdir. Onun gövdəsində rombvari xonçalarda xoruz, qırqovul, qartal və Simurq quşu təsvir edilib. Zolaqların kəsişdiyi yerlərə gül təsvirləri işlənmişdir. “Avesta”ya görə, Simurq quşu dənizin ortasında bitən ağacda yaşayır və xeyirxahlığın rəmzidir. Xoruz obrazı “Sraoşin”in simvoludur və o insanları bəd ruhlardan qoruyur [12, s. 76].

Arxeoloji tədqiqatlar bu dövrdə Sasani dövlətində meydana çıxan intellektual oyunlardan biri - nərd oyununun Albaniyada da geniş yayıldığını təsdiqləməyə imkan verir. Qazıntılar zamanı tapılan, nərd oyununda istifadə olunan V-VI yüzilliklərə aid zərlər - oyun daşları kub şəkillidirlər, səthlərində uyğun olaraq səliqə ilə qazılmış bir, iki, üc, dörd, beş və altı nöqtəvari oyuq var. Nərd taxtasının iki yarısı yer və səmanı, oyun daşlarının cəmləşdiyi dörd hissə fəsilləri, oyun daşları ucun 24 xanə-yuva günün 24 saatını, 30 oyun daşı ayın otuz gününü simvolizə etdiyi və zərlərin altı səthi isə aləmin əsas tərəflərini əks etdirildiyi bildirlir [1, s. 106; 28, s. 206].

Tədqiqatçıların fikrincə Qafqazda xristianlığın yayılıb möhkəmlənmə vasitələri və yolları məhz Albaniya ilə bağlıdır, Şəki rayonunun Kiş kəndində yerləşən, təməli I əsrdə qoyulmuş kilsə Qafqazın xristianlıq tarixində ən qədim məbəddir [23, s. 44; 29, s. 157]. IV əsrdən, 326-cı ildən xristianlıq Albaniyada rəsmi din statusu almışdı [29, s. 157]. Alban hökmdarları xristianlığın geniş yayılmasında, alban kilsəsinin mövqelərinin möhkəmlənməsində maraqlı idilər. Alban kilsəsi avtokefal idi, kilsə-inzibati quruluş etibarı ilə yepiskopluqlara – yeparxiyalara bölünürdü. Tədqiq olunan dövrdə 15 yeparxiyanın fəaliyyət göstərdiyi bildirilir. Bərdə arxiyeparxiyası bir neçə kilsə məclisini təşkil etmişdi. Hun yeparxiyası da Alban kilsəsinə tabe idi [22, s. 122-133]. Kilsə xidməti və mərasimlərinin alban dilində aparılması yazılı mərasim abidələrinin - alban liturgiya (leksionar) mətninin tapılması ilə təsdiq olunmuşdu [7]. 1996-cı ildə IV-VII əsrlərdə alban əlifbasında tərtib edilmiş yüz səhifədən çox alban liturgiya (leksionar) mətninin Sinayda Müqəddəs Yekaterina monastırında tapılması Alban kilsəsində ana dilində Müqəddəs Kitabın və Əhdi-Cədidin mövcud olduğunu sübut etmişdir [26, s. 88-105].

Albaniyanın Xəzəryanı bölgəsində iudaizmin yayılması təxminən 1500 il bundan öncə baş vermişdir. Belə ki, V əsr və daha əvvəlki dövrlərin yazarlarının əsərlərində Qafqazda yəhudilərin məskunlaşmasına dair məlumata rast gəlinmir. Görünür, Albaniyaya yəhudilərin miqrasiyası VI əsrin əvvəllərindən tez baş verməmişdir. Bu hadisə Sasani şahlarının köçürmə siyasəti ilə əlaqədar Mesopotamiyadan yəhudilərin bir qisminin Albaniyaya, xüsusilə də strateji əhəmiyyətli şimal-şərq bölgəsinə köcürməsi ilə bağlı olmuşdur. 627-ci ildə Albaniyanın paytaxt şəhəri Bərdə sakinləri arasında yəhudilər qeyd olunur [2, s. 235].

Albaniyada bütpərəstlik kifayət qədər böyük təsirə malik idi. Arxeoloq Mübariz Xəlilov erkən orta əsr alban bütpərəst mədəniyyətində məhəlli vari-

antların olmasını bildirir və şimal köçərilərinin güclü təsiri altında təşəkkül tapmış Dərbənd-Şamaxı məhəlli variantını müəyyənləşdirib [5, s. 46-47]. Alban kilsəsinin mövqelərinin kifayət qədər güclü olduğu Qarabağ bölgəsində də bütpərəstlik müəyyən dərəcədə qalmaqda idi. Bunu Qarabağda IV-VII əsrlərə aid daş bütlərin aşkarlaması təsdiqləyir [30]. Sığnaq yaşayış yerində isə daş bütlərin hazırlandığı emalatxana üzə çıxarılmışdır. Monolit daşdan stela formasında yonulmuş alban bütləri üçün ayaqların və boynun bildirilməməsi, əllərin isə əksinə qabarıq diqqətə çatdırılması səciyyəvidir. Görünür, bu qanuniləşdirilmiş xüsusiyyətlər kultun ideoloji xüsusiyyətləri ilə bağlı olmuşdur. Qarabağ heykəlləri ikonoqrafiya və yonulma üslubuna görə qədim türk heykəllərinə bənzəyirlər [30, s. 102]. Albaniyanın Şimal-Şərq vilayətlərində, xüsusilə hazırkı Quba-Xaçmaz bölgəsinin qəbir abidələrində yerli oturaq və Şimal köçəri mədəniyyətlərinin sintezi izlənilmişdir [6].

**Nəticə.** Arxeoloji qazıntılar nəticəsində əldə olunan çoxsaylı artefaktlar hərbi-siyasi, etnik-mədəni proseslərin mədəniyyət komplekslərinə əhəmiyyətli dərəcədə təsir göstərməsini təsdiqləyir. Bu təsir bədii sənət sahələrində özünü daha qabarıq göstərir və mədəni komponentlərin tədricən uyğunlaşması baş verirdi. Yerli sənətkarlar Sasani incəsənətinin süjet və motivlərindən bəhrələnir, bəzən onlara bənzətmələr hazırlayırdılar. Qliptika və torevtika sənətlərində belə bənzətmələr xüsusilə geniş yayılmışdı. Yerli mədəniyyətin inkişafında hun tayfalarının təsiri də əhəmiyyətli dərəcədə idi. Mədəniyyətlərin qarşılıqlı təsiri qəbir abidələrində özünü büruzə verirdi.

Türk tayfalarının irandilli və qafqazdilli tayfalarla sıx təması, onların qarşılıqlı təsiri etnik transformasiyaya, konsolidasiyaya güclü təkan verirdi. Köçərilərin miqrasiyası, Albaniyada oturaq həyata keçməsi və böyük passionar potensiallı türk etnosunun sayının artmasını və türk dilinin artıq erkən orta əsrlərdən tayfalararası ünsiyyət dili rolunu ifadə etməsini şərtləndirmişdi.

V-VI əsrlərdə Sasani şahlarının şimaldan türk tayfalarının Albaniyaya axınının qarşısını almaq, köçürmə siyasəti ilə burada irandilli tayfalarının məskunlaşma xəritəsini genişləndirmək üzrə cəhdləri uğursuz olmuş, artıq ərəb işğalı ərəfəsində Albaniyada türk etnosu üstünlük təşkil etmiş və türk dili ünsiyyət dilinə çevrilmiş, vasitəçi rol oynamışdı.

## Ədəbiyyat siyahısı


1. *Azerbaycan on the Silk Road (Edited by S.Mustafayev). Baku: "Tahsil" Publishing House, 2020, 344 p.*
2. *Dostiyev T.M. Şimal-Şərqi Azərbaycan IX-XV əsrlərdə. Bakı: Bakı universiteti nəşr., 2001, 396 s.*
3. *Dostiyev T.M. Arxeologiya. Dərslik. Bakı: "Elm və təhsil", 2021, 396 s.*
4. *Əsədov F. Xəzərlər və Azərbaycan. Bakı: "Elm və təhsil", 2018, 240 s.*
5. *Xəlilov M.C. Albaniyanın ilk orta əsr maddi mədəniyyəti //Azərbaycan arxeologiyası, 2007, №1-2, s. 38-54.*
6. *Xəlilov M.C. Albaniyanın qəbir abidələri (IV-X əsrlər). Bakı,"Nafta-Press" nəşr.,2009, 180 s.*

7. *Gippert J., Schulze W., Aleksidze Z., Mahé J.P. (eds) The Caucasian Albanian Palimpsests of Mount Sinai. 2 vol. Turnhout: Brepols, 2009, 530 p.*
8. *Артамонов М.И. Очерк древней истории Хазар. Ленинград, Соцэкгиз, 1936, 136 с.*
9. *Асадов Ф. Арабы, ислам и Албания: взаимодействие и трансформация культурной среды в VII–X вв. //Этнокультурное наследие Кавказской Албании (сборник статей), № 2. Баку, 2021, с. 112-121.*
10. *Бабаев И.А. К вопросу о взаимосвязях Кавказской Албании с Сасанидским Ираном (по материалам глиптики и нумизматики) //Искусство и археология Ирана. Доклады Всесоюзной конференции (1969). Москва, 1971. с. 49-56.*
11. *Борисов А.Я., Луконин В.Г. Сасанидские геммы. Ленинград: Изд-во Государственного Эрмитажа, 1963.*
12. *Велиев Э. Следы зороастризма в образцах материальной культуры III–V веков (торевтика, ритон, грифон) на территории Кавказской Албании // Этнокультурное наследие Кавказской Албании (сборник статей), № 2. Баку, 2021, с. 74-80*
13. *Гаджиев М.С. Зороастрийский погребальный комплекс близ Дербента // Российская археология. 2007, № 4. С. 51–63*
14. *Гаджиев М.С. Между Европой и Азией. Махачкала. 1997*
15. *Гаджиев М.С. Опыт интерпретации знаков строителей Дербента // Степи Восточной Европы в средние века. Сборник статей памяти С.А. Плетневой. Москва: ИА РАН, 2016. С. 81–114*
16. *Гаджиев М.С., Касумова С.Ю. Среднеперсидские надписи Дербента VI в. Москва, 2006. – 128 с.*
17. *Гаджиев М.Г., Давудов О.М., Шихсаидов А.Р. История Дагестана с древнейших времен до конца XV в. Махачкала, 1996. – 464 с.*
18. *Гошгарлы Г.О. «Поликонфессиональность» древнего Азербайджана по данным археологии // Milli Azərbaycan Tarixi Mezeyi – 2014. Bakı: "Ziya", 2014, с. 244-262.*
19. *Даркевич В.П. Художественный метал Востока вв. Москва: Наука, 1976*
20. *«Дербенд-наме» на языках народов Дагестана: тексты и комментарии. Махачкала, 2012, 408 с.*
21. *Достиев Т.М. Этнокультурные процессы в Северо-Восточной Албании в раннем средневековье // Вестник Бакинского Университета, 2013, №2, с. 56-62*
22. *Игумен Алексий (Никоноров). Епархии Албанской Церкви к VI века // Этнокультурное наследие Кавказской Албании (сборник статей), № 2. Баку, 2021, с. 122-133*
23. *Китинов Б.У. Взаимодействие цивилизаций в Каспийско-Центральноазиатском регионе: Учеб. пособие. Москва: РУДН, 2008, 208 с.*
24. *Крадин Н.Н. Кочевники, мир-империи и социальная эволюция // Альтернативные пути к цивилизации. Москва: Логос, 2000, с.314-335*
25. *Луконин В.Г. Искусство Сасанидского Ирана. Москва: Наука, 1969*
26. *Майсак Т.А. К публикации кавказско-албанских палимпсестов из Синайского монастыря (Рец.: Gippert J., Schulze W., Aleksidze Z., Mahe J.P. (ed.) The Caucasian Albanian Palimpsests of Mt. Sinai. 2 vols. Turnhout: Brepols, 2009.) // Вопросы языкознания, 2010 № 6. с. 88-107*
27. *Магарамов Ш.А. Этно-конфессиональная картина города Дербента в VI-XIX вв.//История, археология и этнография Кавказа, 2020, т.16, №1,с.50-75.*
28. *Нуриев А.Б. Ремесло Кавказской Албании (III-VIII вв.). Баку, 2009, 434 с.*
29. *Халилов М.Дж. Христианские памятники Албании IV-X веков //Религии Центральной Азии и Азербайджана. Т. IV. Христианство. Самарканд: МИЦАИ, 2018, с. 157-227*
30. *Халилов М. Антропоморфные каменные изваяния Карабаха //Археология Азербайджана, 2004, № 1-4, с. 100-104*

**UOT 94 (479.24)**

# TEYMURİLƏR DÖVRÜNDƏ QARABAĞIN SİYASİ MÖVQEYİ (RUY QONSALES DE KLAVİXONUN "SƏYAHƏTNAMƏ"Sİ ƏSASINDA)

**ZƏHRA İSLAMOVA**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, tarix üzrə fəlsəfə doktoru*
*zahraislamova@bsu.edu.az*

*Osmanlı sultanlarının XIV əsr boyunca öz hakimiyyətlərini genişləndirmək məqsədilə apardıqları birləşdirmə siyasəti, Kiçik Asiyada yerləşən bir çox bəylikləri öz hökmranlıqlarına tabe etmələri, ardınca Avropanın içərilərinə doğru Osmanlı ordularının irəliləməsi Avropanın xristian dünyasını qorxuya salmışdı. Bu dövrdə Avropanın hakim dairələri və kral sarayları Osmanlı türklərinin qarşısını almaq məqsədilə şərqdə osmanlılardan daha üstün qüvvə axtarmağa başlamışdılar. XIV əsrin sonu - XV əsr ərzində Azərbaycana bir çox Avropalı gəlmiş və onların hər birinin tərtib etdiyi gündəliklərdə, yol qeyd dəftərlərində ölkə haqqında ətraflı məlumatlara rast gəlirik. Dövrün siyasi, iqtisadi və mədəni tarixinin öyrənilməsində bu raport və gündəliklərin əvəzsiz rolu vardır. XIV-XV əsrlərdə Cənubi Qafqaza gəlib bölgənin təsvirini vermiş diplomatlardan biri ispan mənşəli Ruy Qonsales de Klavixo olmuşdu. Tədqiqat zamanı 1859-cu ildə Klements R. Markham tərəfindən ingilis dilində çap edilmiş tərcümədən, eləcə də İ.S.Mirokova tərəfindən 1990-cı ildə rus dilində olan tərcümədən və Ömer Rıza Doğrul tərəfindən Osmanlı türkcəsində edilmiş tərcümələrdən istifadə olunmuşdur. İspan səfiri Klavixonun Qarabağ bölgəsi ilə bağlı məlumatları əsasında Qarabağ bölgəsinin Əmir Teymur üçün həm təhlükəsizlik, həm də strateji əhəmiyyəti olduğu qənaətinə gəlirik. Əsas yolların qovşağında yerləşən Qarabağ Teymuri qoşunlarının yerdəyişməsi zamanı istənilən fasildə əlverişli şəraitə malik olmasına görə mühüm əhəmiyyət kəsb edirdi. Teymurilər üçün Qarabağın həm də siyasi igamətgah rolunu oynaması məsələsi digər məxəzlərdəki məlumatlarla da təsdiqlənir. Səfirin verdiyi daha bir əhəmiyyətli məlumata əsasən, Beyləqan şəhəri Teymur tərəfindən salınmış və Qarabağın mərkəzi şəhəri elan edilmişdi. Şərqin ən böyük fatehlərindən biri olan Əmir Teymur və onun xələfləri Azərbaycanın qədim yurdu olan Qarabağa strateji və siyasi, eləcə də iqtisadi mərkəz kimi baxmış və xüsusi həssaslıqla yanaşmışdılar.*

***Açar sözlər:*** *XV əsrin ilk illəri, diplomat, Klavixo, Azərbaycan, Qarabağ, Əmir Teymur, Ömər Mirzə, Teymurilər, strateji mövqe*

## *THE POLITICAL POSITION OF KARABAKH DURING THE PERIOD OF THE TEIMURIDS (BASED ON THE "TRAVEL" OF RUI GONZALES DE CLAVIXO)*

*During the 14th century, the Ottoman sultans pursued a policy of unification in order to expand their power and subjugated many principalities located in Asia Minor to their rule. After that, the advance of the Ottoman armies into the interior of Europe frightened the Christian world of Europe. During this period, the ruling circles and royal palaces of Europe began to look for a force superior to the Ottomans in the east in order to prevent the Ottoman Turks. At the end of the 14th century - during the 15th century, many Europeans came to Azerbaijan, and we find detailed information about Azerbaijan in the diaries and travel notebooks compiled by each of them. These reports and diaries have an invaluable role in the study of the political, economic and cultural history of the period. Ruy González de Clavijo of Spanish origin was one of the diplomats who came to the South Caucasus in the 14th and 15th centu-*

*ries and described the region. During the research, the translation published in English by Clements R. Markham in 1589, as well as the Russian translation by I.S. Mirokova in 1990 and the translations made in Ottoman Turkish by Ömer Riza Doğrul in 2016 were used. Based on Spanish Ambassador Clavijo's information about the Karabakh region, we come to the conclusion that the Karabakh region has both safe and strategic importance for Amir Teymur. Karabakh, located at the junction of the main roads, was of great importance due to the fact that it had favorable conditions in any season for Timur's troops. The issue of Karabakh playing the role of a political residence for the Timurids is also confirmed by information from other sources. Another important information which provided by the ambassador, about the city of Beylagan. He said, this city was founded by Teymur and declared the central city of Karabakh. One of the greatest conquerors of the East, Amir Teymur and his successors viewed Karabakh, the ancient region of Azerbaijan, as a strategic and political as well as an economic center and treated it with special sensitivity.*

***Keywords:*** *the first years of the 15th century, diplomat, Clavixo, Azerbaijan, Karabakh, Amir Teymur, Omar Mirza, Timurids, strategic position*

**Giriş.** Zənginliyi ilə seçilən Şərq ölkələri bütün tarixi dövrlərdə Avropanın diqqət mərkəzində olmuş və daim müxtəlif təbəqələrdən olan şəxsləri cəlb etmişdi. Bu siyasi və iqtisadi maraq orta əsrlər dövründə Avropanı lərzəyə salan Osmanlı işğalları dövründə daha da artmışdı. Osmanlı sultanlarının XIV əsr boyunca öz hakimiyyətlərini genişləndirmək məqsədilə apardıqları birləşdirmə siyasəti, Kiçik Asiyada yerləşən bir çox bəylikləri öz hökmranlıqlarına tabe etmələri, ardınca Avropanın içərilərinə doğru Osmanlı ordularının irəliləməsi Avropanın xristian dünyasını qorxuya salmışdı. "Türkü ancaq türk məğlub edə bilər" sınanmış məsəlindən irəli gələrək, Avropanın hakim dairələri və kral sarayları Osmanlı türklərinin qarşısını almaq məqsədilə şərqdə osmanlılardan daha üstün qüvvə axtarmağa başlamışdılar. Məhz Osmanlıların qarşısını almaq məqsədilə Şərqin daha dərindən öyrənilməsinə səy göstərilir və bunun üçün ayrı-ayrı səyyah, tacir, diplomat və səfirlər şərqə kəşfiyyata göndərilirdilər. Onların qarşısında qoyulan əsas məqsəd və vəzifə Şərqdə daha üstün qüvvəyə və nüfuza malik olan sülalə və dövləti müəyyən etmək idi. Həmin dövrdə Cənubi Qafqaza, əsasən də Azərbaycana gələn hər bir xarici nümayəndə dövlətlərinin onlara verdiyi gizli təlimata əsasən bölgənin siyasi, hərbi vəziyyətini öyrənmək ilə yanaşı, həm də iqtisadi və coğrafi təsvirini də öz hökumətlərinə raport və ya məktub şəklində göndərməli idilər.

XIV əsrin sonu - XV əsr ərzində Azərbaycana bir çox Avropalı gəlmiş və onların hər birinin tərtib etdiyi gündəliklərdə, yol qeyd dəftərlərində ölkə haqqında ətraflı məlumatlara rast gəlirik. Dövrün siyasi, iqtisadi və mədəni tarixinin öyrənilməsində bu raport və gündəliklərin əvəzsiz rolu vardır. İlkin qaynaq olan bu yol qeydlərində bir tərəfli münasibətlər özünü açıq şəkildə göstərsə də, bu mənbələrdən əldə etdiyimiz faktların dövrün öyrənilməsində mühüm əhəmiyyəti vardır.

**İspan səfiri Ruy Qonsales de Klavixo.** XIV-XV əsrlərdə Cənubi Qafqaza gəlib bölgənin təsvirini vermiş diplomatlardan biri ispan mənşəli Ruy Qonsales de Klavixo olmuşdu. İspan diplomatı və səyyahı olan Klavixo Teymurun Sə-

mərqənddəki sarayında olmuş, yol boyu gördüklərini öz gündəliyində qeyd etmişdi. Klavixonun səyahətnaməsinə sadəcə yol gündəliyi kimi baxmaq, əslində, düzgün olmazdı, belə ki kifayət qədər diqqətli, ünsiyyətcil, diplomatik yolla gizli məlumat toplamaq bacarığına malik səfir öz qeydlərində elə məsələlərə toxunmuşdu ki, dövrün digər mənbələrində bunu izləmək mümkün deyil. Siyasi, iqtisadi, sosial və əlalxüsus da etnoqrafik, toponimik, linqvistik baxımdan səyahətnamədə verilən məlumatlar Azərbaycanın XV əsr tarixinin öyrənilməsi baxımından xüsusi əhəmiyyətlidir. Dövrün tarixi mənbəsi kimi burada toplanmış siyasi, iqtisadi və sosial məlumatlar dövrün öyrənilməsində ilkin mənbə rolunu oynaya bilər. Digər tərəfdən Klavixonun şərqə səyahəti zamanı beynəlxalq vəziyyətin mürəkkəbliyi, siyasi hadisələrin zənginliyi, Əmir Teymur ilə İldırım Bəyazidin siyasi mübarizəsi və bu münaqişə ətrafında bölgə hakimlərinin, xüsusilə Anadolu bəyliklərinin, Baharlıların, Bayandurluların fəaliyyəti və siyasi addımlarını bu səyahətnamə əsasında izləmək mümkündür.

İspan kralının göstərişi ilə Ruy Klavixo 1403-cü ildə Madriddən yola düşür və səfirə verilmiş gizli təlimata əsasən o, keçdiyi bölgələrdə diqqətli olmalı, yerli əhali ilə münasibətlər yaratmalı, onların mövqeyini müəyyən etməli, Osmanlılara və Teymurilərə olan münasibəti aydınlaşdırmalı, Əmir Teymura aid olan torpaqları və buradakı siyasi-iqtisadi və sosial vəziyyəti müəyyən etməli idi. Səfirə xas mühüm xüsusiyyətlərə malik olan Klavixo yad mühitə tez öyrəşə bilir, ünsiyyətcil olduğu üçün qarşı tərəfdə etimad yarada bilir, asan əlaqəyə girmək qabiliyyətinə malik olmaqla yanaşı, həm də kifayət qədər diqqətli olub, lazımi məlumatları toplaya bilmişdi. Səfir İspan kralının xüsusi məktubu ilə 22 may 1403-cü ildə İspaniyanı Madriddən tərk edib 1404-cü ilin sentyabr ayında Səmərqəndə çatmışdı, lakin 1405-ci ilin 19 fevralında Əmir Teymurun ölümü Klavixonun qarşısına qoyulmuş ilkin planı alt-üst etmiş və o, buradakı siyasi fəaliyyətini yarımçıq qoyub geri qayıtmağa məcbur olmuşdu. 1406-cı ildə Kastiliyaya yetişən Klavixo xoş təəssüratlarla qayıtmışdı, belə ki o, hesab edirdi ki, qarşısına qoyulan məqsədə nisbətən nail ola bilmişdi. Lakin Klavixonu Səmərqənd sarayına göndərmiş İspan kralı III Henrinin ölümü (1406), eyni zamanda Klavixonun artıq yaşlanması onun 1407-ci ildə dövlət işlərindən uzaqlaşmasına səbəb oldu. Bundan sonra o, Teymur sarayına gedərkən qeydə aldığı yol gündəliyini daha da zənginləşdirmiş, hiss və təəssüratlarını da buraya əlavə etmişdi. Səfirin gündəliyi ilk dəfə 1582-ci ildə Arqote de Malina tərəfindən Sevilyada İspan dilində çap olunmuşdu. Tədqiqat zamanı 1859-cu ildə Klements Robert Markem tərəfindən ingilis dilində çap edilmiş tərcümədən, eləcə də İ.S.Mirokova tərəfindən 1990-cı ildə rus dilində olan tərcümədən və Ömer Rıza Doğrul (1893-1952) tərəfindən Osmanlı türkcəsinə edilmiş tərcümələrdən istifadə olunmuşdur.

XIV-XV əsr Azərbaycan tarixinin ilkin mənbələr əsasında öyrənilməsi, dövrün siyasi və iqtisadi tarixinin araşdırılması xüsusi əhəmiyyət kəsb edir. Belə ki, mənfur qonşularımızın torpaqlarımıza olan iddialarını nəzərə alaraq Vətə-

nimizin hər qarışına diqqətlə yanaşmalı və bölgələrin tarixini daha dərindən araşdırmalıyıq. Bugün tarix elminin qarşısında duran əsas vəzifələrdən biri Azərbaycan tarixinə dair ilkin qaynaqlarda olan məlumatların müəyyən edilməsi və daha dərindən araşdırılmasını hesab edirik. Bu səbəbdən ilkin mənbə əsasında bölgənin siyasi tarixini, etnoqrafiyasını, iqtisadiyyatını və mədəniyyət abidələrini öyrənmək mütləqdir. Onu da qeyd etmək istərdik ki, tədqiqata cəlb etdiyimiz səyahətnamədə kifayət qədər toponimik materiallar vardır ki, XV əsrin ilk illərində Azərbaycan ərazisindəki oykonim və digər yer adlarının öyrənilməsində mühüm əhəmiyyət kəsb edir. Xarici diplomat tərəfindən türk mənşəli yer adlarının çəkilməsi, həmin yaşayış məskənlərinin təsvirinin verilməsi tarixi araşdırma zamanı səyahətnamənin çəkisini daha da artırır.

Səyahətnaməni Azərbaycan tarixi üçün vacib edən cəhətlərindən biri əsərdə Qarabağın adının çəkilməsi və bu bölgənin siyasi mərkəz olaraq Əmir Teymur və onun sülalə üzvləri üçün mühüm əhəmiyyət kəsb etməsini sübut edən məlumatların verilməsidir. İspan mənşəli xristian diplomatın olduğu və məlumat verdiyi digər bölgələrin adlarını bir neçə variantda göstərsə də, qədim türk yurdu olan bölgəni məhz "Qarabağ" olaraq adlandırması [7, 25, 62] və xarici səfir tərəfindən bunun söylənilməsi əlbəttə ki, bizim üçün vacibdir.

XIV əsrin sonu - XV əsrin ilk illərində Qarabağın siyasi tarixinə nəzər salaq. 1358-ci ildən Sultan Üveys Cəlairinin Azərbaycanda öz hakimiyyətini bərqərar etməsi, Şirvanşah Kavusun 1367-ci ildə Sultan Üveysə tabe edilməsi ilə Kürdən şimaldakı Azərbaycan torpaqları da Cəlairilərin hakimiyyətinə tabe edildi. Bütün Azərbaycan torpaqları üzərində hökmranlığını yaradan Cəlairilər Qarabağa əsas siyasi mərkəz olaraq diqqət etmişdilər. Cəlairilərin sələfləri olan Hülakülər sülaləsinin nümayəndələri Qazan xan (1295-1304), Arpa xan (1335-1336) və Ənuşirəvan xan (1344-1356) Qarabağda taxta oturmuş və hökmdar elan edilmişdilər. Eləcə də, Arqun xan (1284-1291) və Əbu Səid Bahadur xanın (1317-1335) Qarabağda vəfat etməsi Azərbaycanın bu bölgəsinin Hülakülər dövründə siyasi iqamətgah rolunu oynadığını göstərir. Hülakülərin davamçısı hesab edilən Cəlairilər sülaləsinin nümayəndələri bu ənənələri saxlamağa çalışırdılar. XIV əsrin son onilliklərində Şirvanşahlar, Cəlairi və Baharlı sülalələrinin hər birinin Azərbaycanın siyasi mərkəzi olan Təbriz uğrunda mübarizə aparması və əsas hərbi qüvvələrin bu şəhər ətrafında toplaşması Əmir Teymurun Qarabağa yönəlməsinə və burada möhkəmlənməsinə səbəb olmuşdu. Qarabağın coğrafi mövqeyinə və təbiətinə nəzər salsaq, görərik ki, çoxsaylı ordunun toplanması, atların yemlənməsi və təhlükəsizliyi təmin etmək baxımından bölgənin yeri əvəzsizdir. Əlbəttə ki, Qarabağa xas mülayim iqlimin olması da mühüm əhəmiyyət kəsb edir və həlledici rol oynayırdı. Şimaldan cənuba, şərqdən qərbə və əks istiqamətdə gedən yolların kəsişməsində yerləşən Qarabağ həm gələn orduları izləmək, qoşunların yerdəyişməsini müşahidə etmək, hər hansı təhlükənin qarşısını almaq, həm də ətraf yerlərə yürüş etmək üçün əlverişli mövqeyə malik idi.

**Qarabağın strateji əhəmiyyəti.** İspan səfiri Klavixonun Qarabağ bölgəsi ilə bağlı məlumatları əsasında bu bölgənin Əmir Teymur üçün həm təhlükəsizlik, həm də strateji əhəmiyyəti olduğu qənaətinə gəlirik. Klavixo "Teymurbəyin Ərzincana olan yürüşünə Qarabağdan başla"masını göstərmişdi [4, 74; 7, 67]. Bildiyimiz kimi, Əmir Teymur üçün Ərzincan səfəri mühüm əhəmiyyət kəsb edirdi, böyük sərkərdənin yürüşə başlamazdan əvvəl Qarabağda olması, ordunu burada toplaması, ordugahın məhz Qarabağda yerləşməsi bölgənin mahiyyətini göstərir. Dövrün mötəbər mənbələrindən hesab edilən "Əhsən-üt təvarix" əsərində Əmir Teymurun qışı Qarabağda keçirməsi və yazın əvvəllərində Təbrizə yürüşə buradan yönlənməsi qeyd edilmişdi [3, 31]. Şahruh Mirzənin 1420-ci ildə Ərdəbildə Həzrət Şeyx Xoca Əli ilə görüşdükdən sonra qışlamaq üçün Qarabağa getməsi, Mirzə Baysunqurun Baba Hacı bəyi itaət altına aldıqdan sonra Qarabağa gəlməsi Həsən bəy Rumlu tərəfindən qeyd edilmişdir [3, 130-131]. Gördüyümüz kimi, Qarabağ bölgəsi Əmir Teymur və digər Teymuri hökmdarları, şahzadələri üçün siyasi və strateji baxımdan mühüm əhəmiyyət kəsb etmişdi. Qeyd edək ki, nəinki Teymuri, eləcə də Baharlı və Bayandurlu sülalə üzvləri üçün də Qarabağ təhlükəsiz iqamətgah rolunu oynayırdı. Həsən bəy Rumlunun məlumatlarına əsasən, Təbrizdə vəba xəstəliyi yayıldığına görə, 1490-cı ildə Ağqoyunlu Yaqub padşah qışı Qarabağda keçirmişdi [3, 592].

Əsas yolların qovşağında yerləşən Qarabağ Teymuri qoşunlarının yerdəyişməsi zamanı istənilən fəsildə əlverişli şəraitə malik olmasına görə mühüm əhəmiyyət kəsb edirdi. Həsən bəy Rumluya əsasən, Əmir Bistam Şirvan üzərinə yürüş edərkən məhz Qarabağdan keçmişdi [3, 38]. Gördüyümüz kimi, Qarabağ həm də Azərbaycanın digər bölgələrinə hərəkət etmək və yürüş etmək üçün əlverişli mövqeyə malik idi.

**Qarabağın siyasi əhəmiyyəti.** Teymurilər üçün Qarabağın həm də siyasi iqamətgah rolunu oynaması məsələsi digər məxəzlərdəki məlumatlarla da təsdiqlənir. Əbu Bəkr Tehraninin verdiyi məlumata əsasən, 1392-ci il Bağdad döyüşündən sonra Sahibi Qıran (Əmir Teymur) Qarabağa geri qayıtdıqdan sonra Osmanlı hökmdarı İldırım Bəyazidin elçisi buraya gəlmiş, sevgi və tabeliliyini bildirmiş və Teymur tərəfindən əsas tələb Osmanlı sarayına sığınmış Qara Yusifin təhvil verilməsi olmuşdu [2, 45]. Buradan da görürük ki, şərqi yönəldən iki böyük türk sülaləsi arasında siyasi danışıqlar və razılaşmalar Qarabağda aparılmışdı.

İspan diplomatı Ruy Klavixonun gündəliyində verilmiş məlumata əsasən, Əmir Teymurun ölümündən sonra hakimiyyətə keçən Mirzə Ömər də Qarabağı özünə iqamətgah seçmiş, hətta diplomatik missiyaları və xarici səfirləri burada qəbul etmişdi. Klavixonun bu məlumatı, Qarabağın Teymurilər sülaləsi üçün sıradan bir bölgə deyil, iqamətgah olması, Azərbaycana isə metropoliya olaraq yanaşılmasının bir sübutu hesab edirik. Həsən bəy Rumlu 1429-cu il hadisələrini təsvir edərkən onun Qarabağa gəlməsi və Azərbaycanın Əmir Əbu Səid bin Qara Yusifə həvalə etməsini qeyd etmişdi [3, 199]. Əsas dövlət işlərinin Qara-

bağda Teymuri Şahrux tərəfindən həll edilməsi bu bölgənin Teymuri hökmdarlar üçün dövlət əhəmiyyətli mərkəz olaraq mühüm əhəmiyyət kəsb etməsini göstərir. Daha bir məsələyə diqqət edək: Cuka Mirzə Ərzincan bölgəsini Bayandurlu ailəsinə həvalə etdikdən sonra "Qarabağa Şahruh padşahın qarşısında yeri öpmə şərəfinə layiq görülür [3, 216; 2, 86]. Əlavə olaraq onu bildirək ki, Həsən bəy Rumlunun verdiyi məlumata əsasən Hörmüzün vergisini Şeyx Nurəddin Məhəmmədi Qazeruni Qarabağa Şahruhun hüzuruna gətirmişdi, eyni zamanda Şahruh padşah həmin şəxsi Osmanlı sarayına Qara İsgəndərin həbs edilərək Teymuri sarayına göndərilməsi və təhvil verilməsi xəbəri ilə göndərmişdi [3, 222]. Deməli, Şahruhun dövlət iqamətgahı Qarabağda yerləşmiş və siyasi əhəmiyyətli görüşlər məhz burada həyata keçirilmişdi. Həsən bəy Rumlunun qeydlərini nəzərə alsaq, belə bir nəticəyə gəlmək olar ki, istər Əmir Teymur, istərsə də ondan sonra hakimiyyətə gələn Cığatay hökmdarları Azərbaycan istiqamətində Qarabağı siyasi mərkəz olaraq qəbul etmiş, onların hakimiyyət dövrü ilə bağlı bütün siyasi hadisələr demək olar ki, Azərbaycanın bu bölgəsi ilə bağlı olmuşdu. İlkin qaynaqlar əsasında görürük ki, Qarabağ sonrakı hakim sülalələr dövründə də siyasi mərkəz olaraq öz əhəmiyyətini qoruyub saxlaya bilmişdi.

Türkiyə tarixçisi Musa Şamil Yüksel Teymurun 1404-cü ildə Anadolu səfərindən geri dönərkən Qarabağda uğurlu yürüşlə əlaqədar şən məclislər, toylar keçirildiyini qeyd edir [6, 101]. Gördüyümüz kimi, Qarabağ Teymuri sarayı üçün bütün istiqamətlərdə xüsusi əhəmiyyət kəsb etmişdi.

**Qarabağın iqtisadi əhəmiyyəti.** Səfir Qarabağ bölgəsini belə təsvir etmişdir: "şəhərin yaxınlığındakı yüksək bir dağın üstündən keçərək vadiyə daxil olduq. Burada əhali sıx məskunlaşmış, çoxlu meyvə və üzüm bağları var, bu torpaq çox isti və gözəldir, meyvələrlə zəngindir. Vadidən böyük bir çay axırdı. (Araz çayı nəzərdə tutulur-Z.İ.) Bu vadi vasitəsilə bağlar və kəndlər arasında dörd gün gəzdikdən sonra bir çox yaşayış məskənləri və şəhərlərin olduğu böyük bir düzənliyə gəldik. Bu tarlalara düyü və adi darı əkilirdi. Burada düyü o qədər çoxdur ki, hətta atlara da yedizdirirlər, amma buğda və arpa yoxdur. Bu ərazidə hakimin (Mirzə Ömərin-Z.İ.) çoxlu mal-qara sürüsü olan və çadırlarda yaşayan adamları vardı" [7, 150]. İspan səfirindən fərqli olaraq Həsən bəy Rumlu daha çox siyasi məsələlərin işıqlanmasına diqqət etsə də, əsərin bir hissəsində Sultan Əbu Səidin qoşunlarının Qarabağda ərzaq çatışmazlığından Mahmudabada hərəkət etməsini, ərzaq qıtlığının olmasından, bir men arpanın 5 təngəyə qalxmasına baxmayaraq yenə də taxılın tapılmadığını qeyd etmişdi [3, 461]. Dövrün etibarlı hesab edilən hər iki qaynağında Qarabağın təbiəti ilə bağlı verilən bu məlumatlar təzad təşkil etsə də, hesab edirik ki, verilən məlumatlar müxtəlif illərə baş aiddir ki, bu da təbii haldı. Bu bölgədə ayrı-ayrı dövrlərdə qıtlıq və ya bolluğun olması tarixən izlənilən təbii proses olub, iqlim ilə birbaşa əlaqədar hesab edirik.

Diplomat Qarabağda olarkən, 45 minlik ordusu olan Cahan Mirzə və Ömər Mirzə arasında siyasi mübarizənin getdiyinə, hətta məğlub olan Cahan Mirzənin edam edilməsi əmrinin verildiyinə şahid olmuşdu. Klavixonun Teymuri şahzadələrinin Qarabağdakı siyasi mübarizə haqqında verdiyi məlumatlar, eləcə də Teymuri sülalə üzvünün burada edam edilməsi Azərbaycanın bu bölgəsinin siyasi mərkəz rolu oynadığını bir daha göstərir.

**Qarabağın mərkəzi Beyləqan şəhəri.** Səfirin verdiyi daha bir əhəmiyyətli məlumata əsasən, Beyləqan şəhəri Teymur tərəfindən salınmış və Qarabağın mərkəzi şəhəri elan edilmişdi [5, 231]. "Teymur bəy hər il qışlamaq üçün Qarabağ bölgəsinə gəldiyindən burada yeni şəhər salmağı əmrini vermişdi ki, hal-hazırda burada 20 min ev vardı" [7, 150]. Hər evdə 5-6 nəfər olduğunu hesablasaq, şəhərdə 100 mindən çox adam olduğunu müəyyən edə bilərik. Bu orta əsrlər dövründə Şərqin iri şəhərlərinə xas olan rəqəmdir. Səfir Əmir Teymurun Beyləqan şəhərini bərpa etməsi, bölgəyə və şəhərə xüsusi diqqət ayırması haqqında eşitmiş və belə bir qənaətə gəlmişdi ki, Beyləqanın əsası Əmir Teymur tərəfindən qoyulmuş və Qarabağın siyasi mərkəzi rolu oynamışdı. Hesab edirik ki, Teymuri sülalə üzvləri tərəfindən Qarabağa və onun əsas şəhəri olan Beyləqana verilən dəyərdən irəli gələrək səfir belə bir nəticəyə gəlmişdi. Onu da qeyd edək ki, 1221-ci ildə birinci Moğol yürüşü zamanı müqavimət göstərdiklərinə görə, Beyləqan şəhəri tamamilə dağıntıya məruz qalmış və həqiqətən, Əmir Teymur tərəfindən yenidən bərpa edilərək dirçəldilmişdi. Şəhərin tarixinə nəzər salsaq, arxeoloji qazıntılar nəticəsində şəhərdən tapılmış olan maddi mədəniyyət nümunələri şəhərin erkən tunc dövründən yaşayış məskəni kimi mövcud olduğunu sübut edir. X əsrdə yaşayıb yaratmış ərəb coğrafiyaçısı Əbu Duləf Araz çayının axıb keçdiyi Balasakan düzündə Beyləqan və Varsan şəhərləri ilə yanaşı, "5000 və ya daha çox xaraba qalmış kənd olduğunu" yazırdı [1, 226]. Müxtəlif dövrlərdə Azərbaycan tarixi ilə bağlı qaynaqlara baxsaq, demək olar ki, hər birində Beyləqan şəhəri iri siyasi-iqtisadi mərkəz olaraq qeyd edilmişdi.

**Nəticə.** Orta əsrlər dövrünün öyrənilməsi məqsədilə tədqiqata cəlb etdiyimiz ispan səfiri, diplomat Ruy de Klavixonun "Səyahətnaməsi"ndə Qarabağa dair verilən məlumatların elmi dövriyyəyə cəlb edilməsi mühüm əhəmiyyət kəsb edir. Səfirin qeydləri əsasında Qarabağın Əmir Teymur və Teymurilər sülaləsinin digər üzvləri üçün mühüm strateji, siyasi, coğrafi və iqtisadi mövqeyə malik olduğunu görürük. Eyni zamanda, tədqiqat zamanı Qarabağa dair dövrün başqa qaynaqlarında verilmiş məlumatlara nəzər salınmış və müqayisəli təhlillər aparılmışdı. Müəyyən təzadlara rast gəlinsə də, ümumilikdə ispan diplomatın verdiyi məlumatları etibarlı hesab edirik. Araşdırma zamanı dövrün siyasi hadisələrinin digər qaynaqlardakı qeyd və məlumatlarla müqayisəli təhlillər aparılması tədqiqatın aktuallığını təmin edir. Araşdırma zamanı belə bir nəticəyə gəlmişik ki, Şərqin ən böyük fatehlərindən biri olan Əmir Teymur və onun xələfləri Azərbaycanın qədim yurdu olan Qarabağa strateji və siyasi mərkəz kimi baxmış və xüsusi həssaslıqla yanaşmışdılar. Belə ki, Təbriz uğrunda müba-

rizə diqqətin Qarabağa yönəlməsinə səbəb olmuşdu. Qarabağ nəinki Teymurilər üçün, eyni zamanda Azərbaycanda hakim mövqeyi ilə seçilən digər sülalələr üçün də bu bölgə mühüm əhəmiyyət kəsb etmişdi.

## Ədəbiyyat siyahısı


1. *Azərbaycan tarixi (uzaq keçmişdən 1870-ci illərə qədər). Bakı: "Azərbaycan" nəşriyyatı, 1996. 872 səh.*
2. *Ebu Bekr-i Tihrani. Kitab-ı Diyarbekriyye. Çeviren Mürsül Öztürkş – 1. Baskı. – Ankara: Türk Tarih Kurumu, 2014. 418 seh.*
3. *Hasan-i Rumlu Ahsenüt tevarih. Çeviren Mürsül Öztürkş – 2. Baskı. – Ankara: Türk Tarih Kurumu, 2020. 652 seh.*
4. *Narrative of the Embassy of Ruy Gonzalez De Clavıjo to the court of Timour, at Samarcand, A.D. 1403-6 . Translated , for the first tıme, with notes, a preface , and an introductory life of Timour beg, by Clements R. Markham , F.R.G.S. London: Printed for the Hakluyt Society, 1859. 278 pp.*
5. *Ruy Gonzales de Clavijo. Teymur devrinde Kadisten Semerkanta Seyahat. Çeviren Ömer Rıza Doğrul. İstanbul: Körpü Kitap, 2016. 252 s.*
6. *Yüksel, Musa Şamil. Timurlularda din-devlet ilişkisi. – 2. Baskı. – Ankara: Türk Tarih Kurumu, 2021. 252 seh.*
7. *Клавихо, Руи Гонсалес де. Дневник путешествия в Самарканд ко двору Тимура (1403—1406). Пер. со староиспанского, предисл. и коммент. И.С. Мироковой. — М.: Наука. Главная редакция восточной литературы, 1990. — 211 с.*

**UOT 94 (479.24); 930:314**

# ÇUXUR-SƏƏD ƏHALİSİNİN SOSİAL TƏRKİBİ

**BƏYMİRZƏ ŞABİYEV**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, dosent*
*azerbaycantarixi@yandex.ru*

*Məqalədə Azərbaycan Səfəvilər dövlətinin Çuxur-Səəd bölgəsinin əhalisinin sosial tərkibi təhlil olunmuşdur. Müəllif XVI-XVIII əsrlərə aid ilkin yazılı mənbələrə əsaslanaraq Çuxur-Səəd əhalisinin sosial tərkibini qruplaşdırmış və təhlilini aparmışdır. Araşdırmaya əsasən belə nəticəyə gəlinmişdir ki, XVI-XVIII əsrlərdə Çuxur-Səəd bəylərbəyliyi əhalisi sosial tərkibinə görə, əsasən kənd, qismən isə şəhər əhalisindən ibarət olmuşdur. Həm şəhər, həm də kənd əhalisi içərisində imtiyazlı təbəqəni hərbi əyanlar (qızılbaş, qeyri-qızılbaş, qulam əsilzadələri), ali ruhanilər və mülki əyanlar təşkil etmişlər. Kənd əhalisinin mütləq əksəriyyəti müxtəlif kateqoriyalardan (hampa, rəncbər, elat, qara və s.) olan kəndlilərdən ibarət olmuşdur.*

***Açar sözlər:*** *XVI-XVIII əsrlər, Azərbaycan Səfəvilər dövləti, Çuxur-Səəd bəylərbəyiliyi, əhali, sosial tərkib*

***SOCIAL COMPOSITION OF CHUKHUR-SAAD POPULATION***

*The article deals with the social composition of the population of the Chukhur-Saad region of the Azerbaijan Safavid state. The author grouped and analyzed the social composition of the Chukhur-Saad population based on the primary written sources of the 16th-18th centuries. Based on the research, it was concluded that in the 16th-18th centuries, the population of Chukhur-Saad principiality (Baylarbey) was mainly rural and partly urban, due to its social composition. Among the urban and rural population, the privileged class was made up of military nobles (gızılbash, non-gızılbash, ghulam nobles), high clergy and civil dignitaries. The absolute majority of the village population consisted of villagers from different categories (Hampa, Ranjbar, Elat, Kara, etc.).*

***Keywords:*** *XVI-XVIII centuries, Azerbaijan Safavids state, Chukhur-Saad principiality, population, social composition*

Azərbaycan Səfəvilər imperatorluğu dövründə Çuxur-Səəd bəylərbəyliyi ərazisində sosial münasibətlər sisteminin mühüm komponentlərindən birini də əhalinin sosial tərkibinin müəyənləşdirilməsi təşkil edir. Bu problemin öyrənilməsi bir sıra çətinliklərlə bağlıdır. İlk növbədə onu qeyd etmək lazımdır ki, dövrün əsas mənbə bazasını təşkil edən salnamə tipli qaynaqlarda əhalinin sosial tərkibi haqqındakı məlumatlar həm azlığı, həm də dağınıq xarakteri ilə seçilir. Digər tərəfdən, XVI əsrin 90 və XVIII əsrin 20-ci illərinə aid Osmanlı sayım materialları istisna olmaqla, Çuxur-Səəd tarixi üzrə heç bir siyahıyaalma materiallarının dövrümüzə gəlib çatmaması, yaxud hələlik aşkarlanmaması qeyd olunan problemin ətraflı araşdırılmasına imkan vermir. Bütün bunlara rəğmən həm salnamə tipli, həm memuar xarakterli, həm də sənədli qaynaqlarda (əsasən də fərmanlar) əksini tapmış məlumatlar əsasında bölgə əhalisinin sosial tərkibi haqqında müəyyən təsəvvür yaratmaq mümkündür.

Tarixşünaslıqda Çuxur-Səəd bəylərbəyliyində sosial münasibətlər sistemi, o cümlədən əhalinin sosial tərkibi ayrıca tədqiqat obyektinə çevrilməsə də, Səfəvilər

dövlətinin tarixini araşdıran tədqiqatçıların bir çoxu ümumimperiya miqyasında əhalinin sosial tərkibi məsələsini də diqqətdən kənarda qoymamışlar. S. Aşurbəyli, M. Heydərov, S. Onullahi, O. Əfəndiyev, S. Məmmədov, Ş. Fərzəliyev, Y. Mahmudov, Z. Bayramlı, İ. Petruşevski, A. Papazyan və s. kimi tədqiqatçılar bütövlükdə Səfəvi əhalisinin sosial tərkibi məsələsinin araşdırılması istiqamətində müəyyən xidmətlər göstərmişlər.

XVI-XVIII əsrlərə aid müxtəlif səpgili qaynaqlarda Çuxur-Səəd bəylərbəyliyi ərazisində bəylərbəyi, hakim, şeyxülislam, katalikos, mütəvəlli, məlik, kələntər, darğa, rəiyyət, tacir, sənətkar və s. kimi sosial terminlərə yer verilsə də, əhalinin sosial tərkibinə görə qruplaşdırılması hallarına çox nadir hallarda rast gəlmək mümkündür. Bu mənada XVII əsr Fransa səyyahı və taciri olmuş J. B. Tavernyenin "Səyyahətnamə"si müəyyən istisna təşkil edir. Səyyah Səfəvi əhalisinin sosial struktur baxımından Fransada, həmçinin Avropada olduğu kimi üç qrupdan ibarət olduğunu göstərmişdir. J. B.Tavernye Səfəvi əhalisinin birinci- şəmşir əhli adlandırdığı qrupa baş vəzir, nazir, xan, sultan, asəf, mehtərbaşı, miraxurbaşı, mirşikarbaşı, zindarbaşı (yəhər və yaraqların mühafizıçisi), zənkənqorçu (şah mehtərlərinin - cilovdarların rəisi), vaqiyənəvis, xəzinədarbaşı, eşikağasıbaşı, mehmandarbaşı, həkimbaşı, münəccimbaşı, divanbəyi, darğa, süfrəçibaşı, şərbətçibaşı, məliktüccar, mirşəb, nəqqaşbaşı, nəccarbaşı, anbardarbaşı, sipəhsalar, qullarağası, tüfəngçibaşı, topçubaşıları, ikinci - qələm əhli adlandırdığı qrupa sədrül - xass, sədrül - mövqufat, şeyxülislam, qazı, mütəvəlli, pişnamaz, mustovfi əl-məmalik, mustoufilər, dəftərxana darğalarını, üçüncü-qrupa isə tacir, sənətkar və zəhmətkeşləri daxil etmişdir [1, 571].

Göründüyü kimi, J. B.Taverrnyenin təqdim etdiyi bölgü əslində Səfəvi dövlətinin əhalisinin imtiyazlı təbəqə və aşağı zümrədən ibarət olduğunu söyləməyə imkan verir. Dövrün digər səyyah gündəliklərində -A.Olearinin, J.Şardene və s. səyyahətnamələrində də oxşar mənzərəyə rast gəlmək mümkündür. Səfəvilər tarixinin araşdırıcılarının tədqiqatları göstərir ki, imtiyazlı təbəqə və aşağı zümrə də öz növbəsində bir neçə hissədən ibarət olmuşdur. Tanınmış şərqşünas İ. P. Petruşevski Səfəvilər dövründə hakim təbəqənin dörd qrupdan ibarət olduğu qənaətinə gəlmişdir:

1. Köçəri və yarımköçəri qızılbaş və digər tayfaların hərbi əyanları;
2. Ali müsəlman ruhaniləri (qismən də xristian ruhanilər);
3. Qədim yerli əyan nəslindən olan feodallar (qismən erməni feodalları);
4. Mərkəzi və yerli idarəetmə aparatında çalışan əyanlar [2, 89].

Təqribən oxşar bölgü sistemini qəbul edən Ə. Rəhmani İ. P. Petruşevskidən fərqli olaraq hakim təbəqənin birinci qrupuna Şah I Abbasın dövründən başlayaraq yaradılmağa başlamış qulam təbəqəsinə aid olan əyanları da daxil etmişdir [3, 137]. İ. P. Petruşevski və Ə. Rəhmanidən fərqli olaraq O. Əfəndiyev Səfəvilər dövründə hakim təbəqənin beş qrupdan ibarət olduğunu göstərmişdir:

1. Şah və hakim sülalə üzvləri;
2.Yarımköçəri qızılbaş tayfalarının hərbi əyanları;
3. Ali şiə ruhaniləri;
4. Mülki bürokratiyanın yuxarı təbəqəsi;

5. Qədim oturaq əyanlar [4, 215].

Göründüyü kimi, O. Əfəndiyev şah və ailə üzvlərini hakim təbəqənin ayrıca bir qrupu kimi vermiş, qeyri-qızılbaş əyanlarını isə, hakim təbəqə kateqoriyasına daxil etməmişdir. Ə. Rəhmani hakim təbəqənin birinci qrupunun da üç hissədən ibarət olduğunu, birinci hissəyə qızılbaş əyanlarının, ikinci hissəyə qızılbaş olmayan Azərbaycan əyanlarının, üçüncü hissəyə isə şah qulamlarının daxil olduğunu qeyd etmişdir [3, 138]. S. Məmmədov XV-XVIII əsrlərdə sosial tərkibinə görə Azərbaycan və Ermənistan əhalisinin feodal torpaq sahibləri və kəndlilərdən ibarət olduğunu qeyd edərək yazır ki, dünyəvi və ruhani feodallarla birlikdə hökumət məmurları, həmçinin sənətkar və tacirlərin yuxarı təbəqəsi istismar edən təbəqəni təşkil edirdilər [5, 92].

Çuxur-Səəd bəylərbəyliyi ərazisində əhalinin sosial tərkibinin şərhinə keçməzdən öncə, Səfəvişünas alimlərin bu məsələ ilə bağlı bəzi fikirlərinə münasibət bildirməyə ehtiyac duyulur. İlk növbədə onu qeyd etmək lazımdır ki, Səfəvilər dövründə bəzi tədqiqatçıların Ermənistan ifadəsi işlətməsi ilə razılaşmaq mümkün deyildir.

Məlum olduğu kimi, bəhs olunan dövrdə müasir Ermənistan Respublikasının da daxil olduğu ərazilər Səfəvilər dövlətinin mühüm inzibati ərazi vahidlərindən biri olan Çuxur-Səəd və ya İrəvan vilayəti adı altında tanınırdı. Dövrün qaynaqlarında bəzi hallarda işlədilən Ermənistan ifadəsi anoxranizm kimi qəbul olunmalıdır və bu anlayış xilafət dövründə mövcud olmuş inzibati ərazi vahidinin göstəricisidir.

Digər tərəfdən, bəzi tarixçilərin Səfəvilər dövründə hakim təbəqənin tərkibində köçəri, yarımköçəri və oturaq feodalları ayrıca qrup şəklində təqdim etməsi də bizim fikrimizcə düzgün yanaşma deyil və bu Sovet hakimiyyəti dövründə mərkəzin Azərbaycan xalqının etnogenezisi ilə bağlı diktə etdiyi qondarma konsepsiyadan qaynaqlanır. Hamıya bəllidir ki, həmin konsepsiyaya əsasən, köçəri türklər Azərbaycanın aborigen əhalisi olmamış, erkən orta əsrlərdə, xüsusilə də Səlcuqilər dövründə gələrək, yerli əhalini türkləşdirmişlər. Məlum olduğu kimi, tarixən Azərbaycan əhalisinin əsas məşğulluq sahələrindən birini əkinçilik və maldarlıq təşkil etmişdir. Azərbaycanın hakim təbəqəsi də tarixən eyni zamanda həm əkinçilik, həm də maldarlıq təsərrüfatı ilə məşğul olmuşlar. Bölgənin təbii-çoğrafi şəraitinə uyğun olaraq tarixən formalaşmış yarımköçəri (yaylaq-qışlaq) həyat tərzi günlərimizə qədər qalmaqdadır. Müxtəlif dövrlərdə Azərbaycan ərazisinə miqrasiya etmiş köçəri həyat tərzi keçirən türk oymaqları isə artıq Səfəvilər dövründə yarımköçəri həyat tərzinə keçərək bölgənin iqlim şəraitinə uyğunlaşmışdılar. Məhz bu səbəbdən hakim təbəqənin tərkibində köçəri, yarımköçəri və oturaq feodalları bir-birindən fərqli kateqoriya kimi təqdim etməyə heç bir lüzüm yoxdur. Beləliklə, fikrimizcə, Səfəvilər dövründə hakim təbəqəni hərbi, ali ruhani və mülki əyanlar kateqoriyasına bölmək daha düzgün olardı. Hərbi əyanlar təbəqəsində yer almış əyanları hakim sülalə üzvləri, qızılbaş əyanları, qızılbaş olmayan türk əyanları, qulamlar kimi qruplara, mülki əyanlar təbəqəsini isə mülk sahibi olan türk və qeyri-türk, həmçinin mərkəzi və yerli idarə orqanlarında mülki vəzifə tutan əyan qruplarına da bölmək olar. Araş-

dırmalar göstərir ki, Səfəvilər dövründə Çuxur-Səəd bəylərbəyliyi ərazisində qeyd olunan hakim təbəqə təmsilçilərinin demək olar ki, əksəriyyəti mövcud olmuşdur. Araşdırdığımız qaynaqlarda və tədqiqat əsərlərində yalnız hakim sülalə üzvlərinin Çuxur-Səəd bəylərbəyliyi ərazisində fəaliyyəti ilə bağlı heç bir məlumata təsadüf olunmamışdır.

Mənbə materiallarının təhlili göstərir ki, XVI əsrdə Çuxur-Səəd bəylərbəyliyinin hakimi vəzifəsini əsasən rumlu və ustaclı qızılbaş hərbi əyanlarının təmsilçiləri tutmuşdular. 1527-ci ilə qədər Çuxur-Səəd bəylərbəyi vəzifəsini Div Sultan Rumlu, ondan sonra Süleyman bəy Rumlu [6, 174-175], XVI əsrin 40-cı illərinin sonu-50-ci illərinin əvvəllərində isə Hüseyn xan Rumlu icra etmişdi [7, 548; 8, 172 a]. XVI əsrin 50-ci illərinin əvvəllərindən etibarən Çuxur-Səəd hakimi vəzifəsi Ustaclı tayfasının əmirlərinə həvalə olunmuşdu. Belə ki, XVI əsrin 80-ci illərində bölgənin Osmanlı tərəfindən işğalına qədər Çuxur-Səəddə bəylərbəyi vəzifəsini Şahqulu Sultan Ustaclı [9, 197], sonra isə onun oğlu Toxmaq ayamalı Məhəmməd xan Ustaclı tutmuşdu [10, 235; 9, 126]. Bir qayda olaraq vilayətlərə hakim təyin olunan qızılbaş əyanları və həmin tayfanın digər təmsilçilərinə də bölgədə tiyul və ulkalar bağışlanırdı. Təəssüflər olsun ki, XVI əsrdə Çuxur-Səəd ərazisində rumlu və ustaclı tayfasının digər əyanlarına tiyul və ulkaların verilməsi ilə bağlı qaynaqlarda tutarlı məlumatlara rast gəlinmir.

XVII əsrin əvvəllərində Şah I Abbas İrəvan qalasını Osmanlı işğalından azad etdikdən sonra bölgədə yeni təyinatlar həyata keçirmişdi. İsgəndər bəy Münşi yazır ki, İrəvan qalasının fəthindən sonra o vilayətin idarəsi Əmirgünə xana, Naxçıvan ülkası Maqsud Sultan Kəngərliyə tapşırıldı [11, 1193]. Əmirgünə xan aparıcı qızılbaş tayfalarından olan Qacarların, Maqsud Sultan Kəngərli isə Ustaclı elinin nüfuzlu əyanlarından biri idi. 1625-ci ildə Əmirgünə xanın ölümüündən sonra 1635-ci ilə qədər Çuxur-Səəd bəylərbəyi onun oğlu Təhmasibqulu xan Qacar olmuşdu [11, 1031; 12, 84-85].

1656-1663-cü illərdə Çuxur-Səəd bəylərbəyi vəzifəsini aparıcı qızılbaş tayfalarından olan şamlı elinin təmsilçisi Nəcəfqulu xan Şamlı tutmuşdu [13, 506; 10, 115-119]. Nəcəfqulu xandan sonra Çuxur-Səəd hakimi vəzifəsi yenidən Qacar tayfasının təmsilçisi Əmirgünə xanın oğlu Abbasqulu xana verilmiş, XVII əsrin sonunda yenidən bu vəzifəyə Fərzəli xan Qacar təyin edilmişdi [13, 506; 12,224]. Sonuncunu Fəzləli xan kimi təqdim edən Kənəkirli Zəkəriyyə onun Əmirgünə xanın nəvəsi olmasını göstərmişdir [12, 224]. Göründüyü kimi, Çuxur-Səəd bəylərbəyliyi ərazisində ali hakimiyyət XVI əsrdə qızılbaş əyanlarından rumlu və ustaclı, XVII əsrdə isə əsasən, qacar və qismən də şamlı əyanlarının əlində cəmlənmişdi. Bəzi dövrlərdə Çuxur-Səəd bəylərbəyi vəzifəsini qeyri-qızılbaş tayfalarının əyanları da icra etmişdilər. 1639-1646-cı illərdə bu vəzifə Məhəmmədqulu xan Cağataya həvalə olunmuşdu [12, 131; 14, 115-119].

XVI əsrin sonlarında Şah I Abbas tərəfindən qızılbaş hərbi əyanlarına müvazinət məqsədilə yaradılmış qulamlar təbəqəsi içərisindən çıxmış nüfuzlu əyanlar da XVII əsrdə müxtəlif vilayətlərdə, o cümlədən Çuxur-Səəd bəylərbəyliyində yüksək

vəzifələrə təyinat alırdılar. Mənbələrin məlumatına görə, 1646-cı ildə Çuxur-Səəd bəylərbəyi vəzifəsinə yüzbaşı Keyxosrov bəy Çərkəz təyin olunmuşdu [15, 112; 12, 138; 14, 115-119]. Qulam təbəqəsinə mənsub olan Keyxosrov bəy Çərkəz 1656-cı ilə qədər bu vəzifədə qalmışdı. 1679-cu ildə Səfiqulu xandan sonra Çuxur-Səəd bəylərbəyi təyin olunan gürcü mənşəli Zal xan da qulam təbəqəsinə mənsub əyanlardan olmuşdu [12, 194].

Çuxur-Səəd bəylərbəyliyinin idarə olunmasında Bayat tayfasının əyanları da yaxından iştirak edirdilər. İsgəndər bəy Münşi Şah I Abbasın hakimiyyəti dövründə Çuxur-Səədin bəzi mahallarının idarəçiliyində bayat tayfasına mənsub əyanların iştirakı haqqında bəzi məlumatlar vermişdir. Salnaməçinin yazdığına əsasən, Yarəli Sultan Bayat Bəyazid qalasının, Gəda Əli Sultan Bayat Maku hakimi olmuşdular [11, 1919]. İsgəndər bəy Münşi həmin dövr hadisələrindən bəhs edərkən Bədr Sultan Bayatın da Çuxur-Səədin bəzi vilayətlərinin hakimi olmasını xatırlatmışdır [11, 1919].

Çuxur-Səəd bəylərbəyliyinin idarə olunmasında qızılbaş olmayan türk tayfalarından səədli əyanlarının iştirakı haqqında da bəzi məlumatlara rast gəlinir. XIV-XV əsrlərdə səədli oymağının əsas yurd yerlərindən olan Çuxur-Səəd ərazisində bu tayfa əyanlarının nüfuzu Səfəvi sülaləsinin hakimiyyəti dövründə də qorunub saxlanılırdı. H.1015-ci il (1606-1607) hadisələrindən bəhs edərkən İsgəndər bəy Münşi yazır ki, Əliqulu Sultan Səədlinin oğlu Mehdiqulu bəy şahsevənlik istəyi ilə İrəvana gəldi, Çuxur-Səəd bəylərbəyliyində xidmətə başladı, ona məvacib və tiyul verildi [11, 1337]. Məlum olduğu kimi, Mehdiqulu xanın atası Əliqulu Sultan Səədli vaxtilə Çuxur-Səədin Kağızman mahalının hakimi olmuş, XVI əsrin sonlarında bölgə Osmanlı işğalı altına düşərkən Osmanlı hakimiyyətini qəbul etmişdi. Şah I Abbas Çuxur-Səədi azad edərkən onun oğlu Mehdiqulu bəy şahsevənlik izhar edərək Səfəvilərin hakimiyyətini qəbul etmiş, atası isə Osmanlı hakimiyyətinə sadiq qalmışdı. İsgəndər bəy Münşi bu məqama toxunaraq qeyd edir ki, Əliqulu sultan indiyədək rumilər arasında etibar sahibidir [11, 1337-1338].

Bölgənin idarə olunmasında Səədli tayfasının digər bir təmsilçisi Nəfəs Sultanın iştirakı haqqında da məlumatlara rast gəlinir. İsgəndər bəy Münşi yazır ki, İrəvan qalasının fəthindən sonra Şah I Abbas Əmirgünə xan Qacar və Maqsud Sultan Kəngərliyə vəzifə verməklə yanaşı, Kağızman və onun ətraf yerlərinin idarəsini Nəfəs Sultan Səədliyə tapşırmışdı [11, 1193].

Çuxur-Səəd bəylərbəyliyinin ayrı-ayrı mahallarının idarə olunmasında qızılbaş-türk əyanları ilə yanaşı, qeyri-türk əyanları da iştirak edirdilər. Şah I Təhmasibin hakimiyyəti dövründə talış tayfasının nüfuzlu əyanlarından olan Qara xan Şurəgöl və Çuxur-Səəd Ələşkerdinnin hakimi olmuşdu [10, 268]. Şah I Təhmasibin hakimiyyəti dövründə Səfəvi dövlətinin idarə olunmasında iştirak edən nüfuzlu əyanlar haqqında məlumat verən İsgəndər bəy Münşi yazır ki, kürd tayfasından olan Qılınc Xəlifə Baruki Çuxur-Səəd əmirlərindən idi [10, 269].

Qeyd etmək lazımdır ki, Səfəvi dövləti ilə Osmanlı arasındakı sərhəd bölgələrində məskunlaşan kürd tayfa əmirləri mütəmadi seperatizmlə məşğul olaraq, gah o, gah da bu tərəfin hakimiyyətini qəbul etməklə, yaranmış vəziyyətdən istifadə

edərək tərəflərdən müəyyən imtiyazlar qoparmağa cəhd göstərirdilər. H.1015-ci il (1606-1607) hadisələrindən bəhs edən İsgəndər bəy Münşi yazır ki, Əmirgünə xan Qacar Vana, Adilcivəzə hücum edərək həmin əraziləri qarət etdi, sərhədlərdə yaşayan mahmudi kürdlərinin əmirlərini, o cümlədən Maku hakimi Mustafa bəyi Naxçıvan yaxınlığında Şah Abbasla görüşdürdü və onlar şaha itaət bildirərək vəzifələrində saxlandılar [11, 1300].

İrəvan qalasının fəthindən sonra şahsevənliyi qəbul etmiş kürd əmirləri ali saraya gəlmiş və onlara tiyullar paylanmışdı. İsgəndər bəy Münşi həmin kürd əmirləri sırasında Şahqulu Bəlilan Həkarinin oğlanları Qazi bəy və Qorçi bəyin, Qılınc bəy Dünbulinin, Cəmşid Sultan Dünbulinin, Mənsur bəy Mahmudinin adlarını çəksə də, onlara Çuxur-Səəd bəylərbəyliyinin hansı mahallarında tiyullar bağışlanmasını göstərməmişdir [11, 1193].

Çuxur-Səəd bəylərbəyliyi əhalisinin sosial tərkibində hərbi əyanlarla yanaşı ali ruhanilər təbəqəsi də özünəməxsus yer tutmuşdur. Şərqin bütün orta əsrlər dövlətlərində olduğu kimi, Azərbaycan Səfəvi imperatorluğunda da din və din xadimləri mühüm mövqeyə sahib idilər. Dinin və din xadimlərinin əhali arasında geniş nüfuza malik olmasını nəzərə alan Səfəvi şahları da din xadimlərinə böyük ehtiram göstərir, geniş imtiyazlar verirdilər. Əhalisinin mütləq əksəriyyətini müsəlmanlar təşkil edən Səfəvi imperatorluğu ərazisində az da olsa xristian kilsələri və monastrları, həmçinin xristian din xadimləri də fəaliyyət göstərirdilər. Səfəvi hökmdarlarının qeyri-müsəlmanlara qarşı tolerant siyasət yeritməsini Çuxur-Səəd bəylərbəyliyi ərazisində xeyli sayda kilsə, monastr və xristian din xadimlərinin azad fəaliyyət göstərməsi faktı bir daha təsdiq edir. Dövrün qaynaqlarında Çuxur-Səəd ərazisində mövcud olan müsəlman dini idarələri, came, məscidlərin olması ilə bağlı məlumatlara rast gəlmək mümkündür. Çox maraqlıdır ki, XVI əsrin sonlarına aid olan Osmanlı qaynaqlarında İrəvan şəhərində came və məscidlərin olması qeydə alınmamışdır. Ö. Çələbinin yazdığına görə, İrəvanın qədim şəhər hissəsində və Xan bağında cümə məscidi mövcud olmuşdur [16, 54-55].

XVII əsrə aid mənbələrdə İrəvan şəhərində böyük bir camenin olması göstərilmişdir. XVIII əsrin 30-cu illərində isə İrəvan bəylərbəyi İbrahim paşa İrəvan qalasında Sultan I Mahmudun (1730-1735) şərəfinə came inşa etdirmişdi [17, 22; 16, 155]. İrəvan şəhərindən fərqli olaraq, XVI əsrin sonlarına aid Osmanlı dəftərlərində Naxçıvan şəhərində xeyli sayda came və məscidlər qeydə alınmışdır. Belə ki, 1590-cı ildə Naxçıvan şəhərində üç came - Cameyi Qızıl Arslan, cameyi Məhməd kətxuda, cameyi Şərif və 10 məscid – Ağa məscidi, Hacı Xəlil məscidi, Keçəçi məscidi, Molla Əhməd məhəlləsinin məscidi, Sultan Mahmud məscidi, Hacı Canı məscidi, Bəsri məscidi, Şeyx Əminəddin məscidi, Ətməlik məscidi, İsmayılan məscidi olmuşdu [18, 24-28; 100-108]. Ö. Çələbiniin XVII əsrin ortalarında Naxçıvan şəhərində 70 came, 40 məscid olmasını qeydə alması bir qədər şübhəli görünür [16, 12]. 1727-ci ilin məlumatına görə isə, Naxçıvanda Sultan Murad, Həzrətpaşa və Xaçaparaq cameləri, Ordubadda Böyük came fəaliyyət göstərirdi [19, 24; 31]. Bu camelərlə yanaşı, Naxçıvan nahiyəsində seyid Qasım zaviyəsinin, Əlincə nahiyəsində Sultan Murad ca-

mesinin, Azadciran nahiyəsində Mirzə İbrahim mədrəsəsinin vəqfləri, Naxçıvan şəhərində Seyid Haşimin zaviyəsinin vəqfləri də mövcud olmuşdur [19, 24].

Çuxur-Səəd bəylərbəyliyi ərazisində XVI-XVIII əsrlərdə çoxlu sayda xristian kilsə və monastrları da qeydə alınmışdır. Üçkilsə katalikosluğu ilə yanaşı, Qarnı mahalında Qeqard (Ayrivanik), Amenaprkiç (Qızılvəng), Xor-Viran [20, 349-358], Karpi mahalında Aqcots, Qetarqel (Dzaqavank və ya Çayqaytaran), Müqəddəs Apostal (Karenıs), Keçaris [20, 358-360], Qeqarkuni mahalında Makenyats, Xutavəng, Xayrevəng, Şquak (Müqəddəs Qriqori), Sevan [20, 360-361], Şirak mahalında Qıpçaq, Niq mahalında Koş (Müqəddəs Qeorği), Teqer, Saqmosavəng, Ovannavəng, Surp-Sarkis, Müğnı [20, 364-369], İrəvan şəhərində Apostal Anani monastrları mövcud idi [20, 370]. A. P. Novoseltsev J. Şardenə istinad edərək yazır ki, XVII əsrin II yarısında təkcə İrəvan şəhərində hər birində 5-6 rahib olmaqla 23 kişi, 5 qadın monastrı fəaliyyət göstərirdi [21, 93].

Dövrün erməni qaynaqlarında, həmçinin müsir erməni tarixi ədəbiyyatlarında İrəvan, həmçinin  Naxçıvan, Qarabağ və Azərbaycanın digər ərazilərində mövcud olan bu kilsə və monastrların hamısının ermənilərə məxsus olması göstərilir. Erməni və erməniyönlü tarixçilər ciddi cəhdlə vaxtilə xristian albanlara məxsus olan, sonralar erməni din xadimlərinin nəzarəti altına düşərək qriqoryanlaşmaya məruz qalmış bu kilsə və monastrları erməniləşdirməyə çalışırlar. Çox maraqlıdır ki, onlar bu kilsə və monastrların adlarının (Üçkilsə, Qızılvəng, Çayqaytaran, Qıpçaq, Müğnı və s.) erməni qaynaqlarının özündə belə türk dilində olması faktının üstündən sükutla keçirlər. Səfəvilər dövründə Naxçıvan ərazisində fəaliyyət göstərən iri monastrlardan biri Əylisdəki Müqəddəs Foma (və ya Tovma) monastrı idi [22, 82].

Tavernyenin məlumatına görə, Naxçıvanla Culfa arasında bir-birindən 2-3 mil məsafədə yerləşən  on xristian erməni monastrı var ki, bu monastrlar Roma papasına bağlı olmuşlar və burada uşaqlar latınca, italyanca təhsil alırdılar. Yalnız dualar və ayinlər erməni dilində icra olunurdu. Səyyahın yazdığına əsasən, bu monastrların baş yepiskopu seçildikdən sonra Romaya göndərilir və papa tərəfindən təsdiq olunurdu [22, 80-81]. Tavernye yazır ki, Naxçıvanla Culfa arasındakı Abarener, Abraqhonneks, Kerna, Soletak, Kuşkaşen, Jaik, Şiabunez, Araqbuş, Kauruk, Kisuk adlanan bu katolik monastrlarına ibadət məqsədi ilə hətta müsəlmanlar da gəlirdilər [22, 81].

Aydın məsələdir ki, bu monastrlar dominikançı ordenin təmsilçiləri olan missionerlər tərəfindən katolikliyi qəbul etmişdilər. Bu monastrlarda duaların və ayinlərin erməni dilində aparılmasının qeyd olunması onların erməniləşmə təsirinə məruz qalması və yaxud Tavernyeni müşayiət edənlərin erməni mənşəli olması ilə bağlı olmuşdur. Səyyahın həmin monastrlara ibadət məqsədilə müsəlmanların gəlməsini vurğulaması dolayısı ilə bir vaxtlar bu monastrların xristian albanlara məxsus olmasının göstəricisidir. Çuxur-Səəd bəylərbəyliyi ərazisində yerləşən məscid və camelər, kilsə və monastrların rəhbərləri bölgənin ali ruhani təbəqəsinə daxil idilər. Səfəvilər dövründə iri şəhərlərdə bir qayda olaraq, şeyxülislamlar fəaliyyət göstərirdilər. Təssüflər olsun ki, XVI-XVIII əsrlərdə İrəvan və Naxçıvan şəhərlərində şeyxülislam vəzifəsini icra

edən tarixi şəxsiyyətlərin kimliyini müəyyənləşdirmək üçün dövrün qaynaqlarında yetərincə məlumatlar yoxdur. Kənəkirli Zəkəriyyənin məlumatına görə, XVII əsrin 30-cu illərində İrəvan şəhərinin şeyxülislamı vəzifəsini Mehmed adlı bir şəxs icra etnişdi [12, 117].

Səfəvilər dövründə ali ruhani təbəqəsinə qazılar da daxil idilər. Qazılar adətən şəriət məhkəməsinin hakimi vəzifəsini icra edirdilər. Çuxur-Səəd ərazisində şeyxülislama nisbətən qazı mənsəbi haqqında məlumatlara daha çox təsadüf olunur. A. D. Papazyanın nəşr etdiyi Matenadaran seriyasına daxil olan sənədlərdən aydın olur ki, hələ XV əsrdə belə Çuxur-Səədin ərazisində qazı fəaliyyət göstərirdi. 1431-ci il tarixli 5 saylı qəbalə sənədində Çuxur-Səədin qazısı Zəmanəddin Ənsarinin, 1489-cu il tarixli 9 saylı qəbalə sənədində isə həmin vilayətin qazıları Əminəddinin oğlu Məhəmməd əl-Sədi və Əbdül Əvvəl Xənifətin adları göstərilmişdir [23, №5, 262, №9, 284].

1504-cü il tarixli 11 saylı qəbalə sənədində Naxçıvan tüməninin Azadciran nahiyəsinin qazısı Əfzəlullanın adının xatırlanması göstərir ki, Səfəvilər dönəmində vilayətlərlə yanaşı, mahal və nahiyələrdə də qazılar fəaliyyət göstərirdi [23, №11, 289]. Çuxur-Səəd bəylərbəyliyinin Qarni mahalında bağ alqı-satqısını əks etdirən 1525-ci il tarixli qəbalə sənədi qazı Məhəmməd Sədinin oğlu Məhəmməd tərəfindən tərtib olunmuşdur [23, №15, 302-303]. 1526-cı il tarixli 16 saylı qəbalə sənədində Çuxur-Səəd qazısı Məhəmmədin, 1575-ci il tarixli 23 saylı qəbalə sənədində isə Çuxur-Səəd qazısı Məhəmməd Şərifin oğlu Əbu Səid Sədinin adları çəkilmişdir [23, №16, 304; №23, 322]. Şah II Abbasın 1644-cü il tarixli fərmanında Çuxur - Səəd vilayətinin şəriət məhkəməsinin hakimi vəzifəsi xatırlansa da, hakimin kim olması göstərilməmişdir [24, sənəd №26, 344-345].

Çuxur-Səəd bəylərbəyliyi ərazisində mövcud olan kilsə və monastr rəhbərləri, xüsusilə də Üçkilsə katolikosları və iri monastrların vardapet və yepiskopları da imtiyazlı ruhani kateqoriyasına daxil idilər. Səfəvi hökmdarları tərəfindən Üçkilsə katolikosları və Əylis monastrının vardapetlərinə verilmiş çoxsaylı imtiyazlar bunu təsdiq edir.

Azərbaycan Səfəvi imperatorluğu dövründə hakim təbəqənin üçünçü qrupunu mülki əyanlar təşkil edirdilər. Dövrün qaynaqlarında Çuxur-Səəd bəylərbəyliyi ərazisində mülki əyanlar, mülki vəzifələrdə çalışan məmurlar haqqında da bəzi məlumatlara təsadüf olunur. Səfəvilər dövründə bütün bəylərbəyliklərdə olduğu kimi, Çuxur-Səəd bəylərbəyliyində də vəzirlər fəaliyyət göstərirdi. Əyalət vəzirləri şah tərəfindən təyin edilir və mülki-maliyyə məsələlərinə nəzarət edirdilər. Dövrün qaynaqlarında Çuxur-Səəd bəylərbəyliyinin vəzirlərinin adlarına çox nadir hallarda təsadüf olunur. Ö. Çələbi XVII əsrin ortalarında Naxçıvan şəhərində vəzir (etimadüddövlə) vəzifəsinin olduğunu qeyd etsə də, onun adını çəkməmişdir [16, 11].

Məhəmməd Tahir Vəhidin yazdığına əsasən, Şah II Abbasın hakimiyyəti dövründə (1642-1666) İrəvan vəziri Mirzə Məhəmməd Tağı İsfahana vəzir göndərilmiş, onun qardaşı oğlu Mirzə Məhəmməd Yəhya isə İrəvana vəzir təyin olunmuşdu [14, 318].

Çuxur-Səəd bəylərbəyliyində mülki əyanlar təbəqəsinə daxil olan məmurlar sırasında mustovfi, kələntər, darğa mənsəbləri haqqında da bəzi məlumatlara rast gəlmək mümkündür. Kənəkirli Zəkəriyyə yazır ki, Çuxur-Səəd bəylərbəyi Təhmasibqulu xan Qacar (1625-1635) Osmanlıya xəyanət edərək İrəvana gəlmiş Murad bəyi özündən sonra ikinci şəxs, onun qardaşı Aslan ağanı isə vergi yığan məmurların rəhbəri (mustovfi - B. Ş.) vəzifəsinə təyin etmişdi və Aslan ağa böyük qəddarlıqla əhalini və onların bütün əmlakını siyahıya almışdı [12, 87-88].

XVI-XVIII əsrlərdə mülki əyanlar təbəqəsinə kələntər də daxil idi. Kələntər vəzifəsi adətən şəhərlərdə təsis olunurdu. Mənbələrdə bütün XVI-XVIII əsrlər boyu olmasa da, bəzi dövrlərdə İrəvan şəhərinin kələntəri vəzifəsini tutmuş tarixi şəxslərin adlarına rast gəlinir. Belə ki, XVII əsrin 30-cu illərində İrəvan şəhərində Məsum adlı bir şəxs kələntər vəzifəsini tutmuşdu [12,90]. İrəvanın kələntəri olan Məsum ağa Çuxur-Səəd bəylərbəyi Təhmasibqulu xan Qacarla birlikdə 1635- ci ildə osmanlılar tərəfindən əsir alınaraq İstanbula aparılmışdı [12, 122]. Kənəkirli Zəkəriyyənin məlumatına əsasən, kələntər Məsum ağa Çuxur-Səəd hakimi Təhmasibqulu xanın əmri ilə hərbçilərin başçısı kimi Qars mahalına yürüş təşkil etmişdi [12, 91-92]. Qaynaqların məlumatına əsasən, Şah I Səfi 1636-cı ildə İrəvan şəhərini azad etdikdən sonra Qara Qubadı İrəvan vilayətinin kələntəri təyin etmişdi [12,140-141]. Şah I İsmaylın 1505-ci il tarixli fərmanında Çuxur-Səədin kələntəri ifadəsinə rast gəlinir [23, sənəd №9, 174-175]. Iri şəhərlərlə yanaşı, xırda, qəsəbə tipli şəhər və ya yaşayış məntəqələrinə də kələntər təyin olunurdu. Hatəm bəy Ordubadinin ölümündən sonra Şah I Abbasın əmri ilə baş vəzir vəzifəsinə təyin olunan onun oğlu Əbu Talib Mirzə eyni vaxtda Ordubad şəhərinin kələntəri vəzifəsini də öz əlində saxlamışdı [25, 1118-122; 21, 92]. XVI-XVII əsrlərdə iri yaşayış məntəqəsinə çevrilən Əylisdə də kələntər vəzifəsi təsis olunmuşdu. Şah Məhəmməd Xudabəndənin 1585-86-cı il, Şah I Abbasın 1621-ci il tarixli fərmanlarında Əylis kələntəri anlayışına rast gəlinir [24, sənəd №22, 193; 267, sənəd №17, 332-333].

Bəhs olunan dövrdə mülki əyanlar təbəqəsinə darğa mənsəbi də daxil idi. Şəhərlərə, iri yaşayış məntəqələrinə təyinat alan darğalar əsasən asayişin təminatına cavabdehlik edirdilər. Şah I İsmayılın 1505-ci il tarixli fərmanında Çuxur-Səədin hakimi, kələntəri ilə yanaşı darğası ifadəsi də işlənmişdir [24, sənəd №9, 174-175]. Şah I Təhmasibin 1544-cü il, Şah Məhəmməd Xudabəndənin 1585-86-cı il, Şah I Abbasın 1606 və 1621-ci il tarixli fərmanlarımda Əylislidə də darğa vəzifəsinin olması göstərilmişdir [24, №10, 178, sənəd №22, 193; 267, sənəd №6, 315-316; sənəd №17, 332-333].

Səfəvilər dövründə Çuxur-Səəd bəylərbəyliyi ərazisində yaşayan hakim təbəqənin bir qismi daşınar və daşınmaz əmlak sahibi olan əyanlardan ibarət olmuşdur. İ. P. Petruşevski yazır ki, yerli oturaq əyanlar XVI-XVII əsrlərdə Azərbaycanın cənub hissəsi və Qafqaz Ermənistanında demək olar ki, tamamilə məhv edilmiş, onların bir qismi isə Qarabağda və Şirvanda qalmışdı və onlar bir qayda olaraq məlik titulu daşıyırdılar [2, 111]. İ. P. Petruşevskinin bu mülahizəsi ilə razılaşmaq mümkün deyildir. Belə ki, dövrün qaynaqlarında Çuxur-Səəd bəylərbəyliyi ərazisində yerli

əyanlar, məliklər haqqında kifayət qədər məlumatlar vardır. Yeri gəlmişkən, onu da qeyd etmək lazımdır ki, İ. P. Petruşevski haqlı olaraq məlik istilahının mənbələrdə iki - yerli mülk sahibləri və kəndxuda vəzifəsini icra edən məmur anlamında işlədilməsini vurğulamışdır [2,112]. T.Musəvi tərəfindən nəşr edilən sənədli qaynaqlarda məlik istilahının kəndxuda vəzifəsini icra edən dövlət məmuru mahiyyəti daşımasını sübut edən kifayət qədər faktlar vardır [26, 67, 75-76 və s.].

XVII əsrdə Naxçıvan ərazisində böyük nüfuza malik olan yerli əyan nəslinin nümayəndəsi olan Musabəylər ailəsi Əylis şəhərində tanınmış nəsil hesab olunurdular [25, 118-122, 21, 92]. Bölgənin yerli əyanlar nəslinin görkəmli nümayəndələrindən biri XIII əsrin məşhur ensiklopedik alimi N. Tusi nəslinin varisləri olan Nəsriyyə ailəsinin təmsilçiləri olmuşdur. Ordubad bölgəsində böyük əmlak sahibi olan bu nəslin nümayəndələri şəhərin irsi kələntəri mənsəbini öz əllərində saxlayırdılar. Bu nəslin nümayəndələrindən olan Hatəm bəy Ordubadi və onun oğlu Əbu Talib Mirzə bir müddət hətta Səfəvilər dövlətində baş vəzir vəzifəsini də icra etmişdilər [11, 1302-1303; 21, 42]. Çuxur-Səəd ərazisində mülk sahibi olan erməni mənşəli məliklər haqqında məlumatlar da vardır. Alqı-satqı vasitəsilə İrəvan vilayətinin türk-müsəlman əhalisindən torpaq, bağ, üzümlük və s. sahələri satın alan ermənilər bölgədə getdikcə öz mövqelərini gücləndirməyə çalışırdılar. Bu qəbildən olan erməni mənşəli məliklər müxtəlif yollarla Çuxur-Səədi idarə edən Səfəvi məmurlarına yaxınlaşmaqla bölgədə nüfuz sahibinə çevrilmək istəyir və bir çox hallarda buna müvəffəq də ola bilirdilər. Bu işə mənəvi, dini - ideoloji dəstək Üçkilsə katalikosları tərəfindən həyata keçirilirdi. Kənəkirli Zəkəriyyənin Çuxur-Səəd bəylərbəyi Əmirgünə xan və onun oğlu Təhmasibqulu xanın erməni məliki Davudla əlaqələri haqqındakı məlumatları bunu bir daha təsdiq edir [12, 71, 90].

Bütün orta əsrlərdə olduğu kimi, XVI-XVIII əsrlərdə də Çuxur-Səəd bəylərbəyliyi əhalisinin mütləq əksəriyyətini aşağı zümrə təşkil edirdi. Aşağı zümrəyə J. B.Tavernyenin üçüncü təbəqə hesab etdiyi tacirlər, sənətkarlar və zəhmətkeşlər daxil idi [1, 571]. XIII-XIV əsrlərin görkəmli elm adamı və ictimai-siyasi xadimi F. Rəşidəddin oğlu Şihabəddinə məktubunda dövlətin mədaxil xəzinəsinə rəiyyətin aid olduğunu, həmin xəzinənin onların halal zəhməti və qənaətçilliyi hesabına doldurulduğunu xüsusi olaraq vurğulayırdı [27, 194]. XVI-XVIII əsrlərdə Çuxur-Səəd bəylərbəyliyi əhalisinin mütləq əksəriyyətini kənd əhalisi təşkil edirdi. Bölgənin şəhərlərinin də yarımaqrar səciyyə daşıdığı nəzərə alınarsa, bəylərbəyliyin şəhər əhalisinin də bir qismini kəndlilərin təşkil etdiyini söyləmək olar. Kənd əhalisinin təsərrüfat həyatının aparıcı sahəsi əkinçilik və maldarlıqdan ibarət olduğu üçün kəndlilər də əkinçi və maldar olmaqla iki hissəyə bölünürdülər. Səfəvi dövrünə aid olan mənbələrdə kənd əhalisinin ümumiləşdirici adı "rəiyyət" istilahı ilə ifadə olunmuşdur. XIII-XVIII əsrlərdə Şərq ölkələrində aqrar münasibətlər probleminin görkəmli tədqiqatçısı İ. P. Petruşevski kəndlilərin üç kateqoriyaya - varlı kəndlilər, azad kəndlilər və yardarlara bölündüyünü göstərmişdir [28, 308-310]. Müəllifin fikrincə, varlı kəndlilər xırdamalik adlanırdılar və onlar öz məhsullarını əlverişli şərtlərlə şəhər bazarlarında satmaq, ticarət, sələmçiliklə məşğul olmaq, kənddə kiçik inzibati

vəzifələri ələ keçirmək hesabına varlanırdılar. Azad icmaçı kəndlilər isə iri feodallardan asılı deyildilər və torpaq sahibi kimi divana torpaq vergisi ödəyirdilər. XVI-XVIII əsrlərdə ilk iki qrupa aid olan kəndlilərin sayı əvvəlki dövrlərə nisbətən xeyli azalmışdı [3, 144]. Səfəvilər dövründə kəndlilərin əksəriyyətini feodallara məxsus torpaqlarda işləyərək torpaq sahibinə çoxsaylı vergi və mükəlləfiyyətlər ödəyən az-torpaqlı və ya torpaqsız yardarlar təşkil edirdilər. Bu kateqoriyadan olan kəndlilər mənbələrdə dehqan və barzqan adlanırdı [3, 144]. Ə. Rəhmaninin fikrincə, yardar kəndlilər özləri də müxtəlif təbəqələrə bölünür, özünün iş heyvanları, əmək alətləri və toxumu olanlar hampa adlanır, qoşqu heyvanlarının sayına münasib olaraq müxtəlif bölgələrdə daha xırda qruplara bölünürdülər [3, 144]. Özünün əmək alətləri, istehsal vasitələri olmayan, sahibkarın torpaqlarını əkib-becərən, istehsal olunan məhsulun az bir qismini götürməklə yaşayan yardar kəndlilər "rəncbər" adlanırdılar. Təsərrüfatı olmayıb, yardımçı kənd təsərrüfatı işlərində (qarovulçu, çoban, bağban, xidmətçi və s.) çalışan ən kasıb kəndlilər Azərbaycanın müxtəlif bölgələrində qara, qərib, bekar, xoşnişin və s. adlar altında tanınırdılar [3, 144].

Ə. Əlizadə belə hesab edir ki, torpaqsız kəndlilərin əksər hissəsini təşkil edən əkərlər becərdikləri məhsulun 30% - dən artığını ala bilmirdilər [29, 76-77].

Çuxur-Səəd bəylərbəyliyi ərazisində oturaq həyat tərzi sürən kəndlilərlə yanaşı, heyvandarlıqla məşğul olan elatlar da özünəməxsus yer tuturdular. Yaylaq-qışlaq heyvandarlığının geniş yayıldığı bu bölgədə, Səfəvi dövlətinin digər ərazilərində olduğu kimi elatlar oturaq kəndlilərə nisbətən daha az vergi və mükəlləfiyyətlər ödəyirdilər. Digər kəndli kateqoriyalarından fərqli olaraq elatlar hərbi mükəlləfiyyət daşıyırdılar və hərbi səfərlər zamanı məlum sayda süvari qoşunla şahın xidmətinə gəlməyə borclu sayılırdılar.

Çuxur-Səəd bəylərbəyliyi əhalisinin bir hissəsini də şəhər əhalisi təşkil edirdi. Səfəvilər dövründə Azərbaycan və Şirvan bəylərbəylikləri ilə müqayisədə Çuxur-Səəd ərazisində şəhərlərin sayı o qədər də çox deyildi. XVI-XVIII əsrlərə aid qaynaqlarda Çuxur-Səəd ərazisində İrəvan, Naxçıvan, Ordubad, Culfa (XVII əsrin əvvəllərinə qədər), Əylis, Qarabağlar, Azadciran (Əsədabad, Yəzdabad - B. Ş.). kimi şəhərlərin olması qeydə alınmışdır. İrəvan və Naxçıvandan fərqli olaraq digər şəhərlər kiçik, qəsəbə tipli yaşayış məntəqələri kimi fəaliyyət göstərmişlər. Kənd əhalisindən fərqli olaraq, şəhər əhalisi sosial strukturuna görə rəngarəng olmuşdur. Osmanlı imperatorluğu ilə sərhəd bölgəsində yerləşdiyindən Çuxur-Səəd bəylərbəyliyinin şəhərləri  Səfəvi-Osmanlı müharibələrindən daha çox əziyyət çəkmiş, mütəmadi davam edən bu müharibələr, epidemiya və təbii fəlakətlər də şəhər əhalisinin sosial tərkibinə təsirsiz ötüşməmişdi.

Araşdırmalara görə, XVI-XVIII əsrlərdə şəhər əhalisi sosial tərkibinə görə beş qrupdan ibarət olmuşdur: 1). Hərbi, mülki bürokratiya, ali ruhani, iri və xırda torpaq sahiblərindən ibarət olan hakim təbəqə, əyanlar; 2). İri, orta və xırda təbəqədən ibarət olan tacirlər; 3). Sənətkarlar; 4). Şəhər ətrafında maldarlıq və əkinçiliklə məşğul olanlar; 5). Günəmuzdçular, qul əməyi və xidmətçiliklə məşğul olanlar [3, 170-171; 2, 252].

Ö. Çələbi XVII əsrin ortalarında Naxçıvan və İrəvan şəhərləri əhalisinin sosial tərkibi içərisində müxtəlif kateqoriyadan olan hakim təbəqə haqqında maraqlı məlumatlar vermişdir. Səyyahın yazdığına əsasən, Naxçıvan şəhərinin idarə olunmasında etimadüddövlə, kələntər, münşi, daruqə, dizçökən ağası, çiyyiyən ağası, qazı, şeyxülislam iştirak edirdilər [16,71]. Həmin dövrdə İrəvan şəhərində qazı, molla, şeyxülislam, kələntər, darğa, münşi, yasavullarağası, qorçubaşı, eşik ağası, dizçökən ağası, mehmandar və kəndxuda vəzifələri mövcud olmuşdur [16, 54].

Çuxur-Səəd ərazisində hakim təbəqə, əkinçilik və heyvandarlıqla məşğul olan kəndlilər haqqında məlumat verildiyindən şəhər əhalisinin sosial strukturunda bu təbəqələrin əlavə şərhinə ehtiyac yoxdur. Şəhər əhalisinin sosial strukturunda iqtisadi çəkisinə görə tacirlər xüsusi yer tuturdular. Daxili və xarici ticarət dövlətin əsas gəlir mənbələrindən birini təşkil etdiyindən dövlət səviyyəsində ticarətə böyük qayğı göstərilirdi. Səfəvi dövlətindən Osmanlı ərazisi istiqamətində uzanan ticarət yolları Çuxur-Səəd ərazisindən keçdiyindən bölgədə daxili və xarici ticarət mühüm əhəmiyyət kəsb edirdi. Şəhər tacirlərinin ən mühüm hissəsini iri, topdansatışla məşğul olan sövdəgərlər və yaxud xocalar təşkil edirdi. Bu təbəqədən olan tacirlər istehsal prosesi ilə məşğul olmurdular və onların yeganə gəlir mənbələrini məhz ticarət təşkil edirdi [21, 100].

Tacirlərin digər kateqoriyasına daxil olanlar bu və ya digər formada sənətkarlıq və ya əkinçiliklə bağlı olub istehsal etdikləri məhsulların satışı ilə də məşğul olurdular. Xırda ticarətlə məşğul olan tacirlərin çoxluğu ticarətin sənətkarlıqdan ayrılma prosesinin ləng getməsinin nəticəsi idi [21, 101]. Bu kateqoriyadan olan tacirlər əsasən daxili bazarlarda fəaliyyət göstərir, yaxud səyyar ticarətlə məşğul olurdular.

Şəhər əhalisinin sosial strukturunda say baxımından ən əhəmiyyətli mövqe sənətkarlara məxsus olmuşdur. XVI-XVIII əsrlərdə Səfəvi dövlətində sənətkarlığın növləri haqqında ətraflı məlumatlar olduğu halda, şəhərlərdə sənətkarların sayı ilə bağlı dəqiq məlumatlar demək olar ki, yoxdur. Yalnız dövrün səyyah gündəliklərində - xüsusi ilə də A. Oleari, J. B. Tavernye, Rafael dyu Man, J. Şardenin və digərlərinin səyyahətnamələrindəki məlumatlardan aydın olur ki, Səfəvi ərazisində sənətin 40 - dan çox növləri mövcud olmuşdur [21, 102]. XVI əsrin 90-cı və XVIII əsrin 20-ci illərinə aid Osmanlı dəftərlərində isə Çuxur-Səəd bəylərbəyliyi ərazisindəki şəhərlərdə sənətkarlığın az bir qismi haqqında məlumatlara təsadüf olunur [18, 35; 74, 51-52; 30, 236].

M. Heydərovun araşdırmalarına görə, Səfəvilər dövründə sənətkarlar üç qrupdan ibarət olmuşdur: 1). Sənətkar təşkilatlarında (əsnaf) işləyənlər; 2). Fərdi sənətkarlar; 3). İri feodal emalatxanalarında (karxanalar) işləyənlər [31, 100]. Erməni sənətkarlarının birləşdiyi sənətkar birlikləri "xamkarutyan" (amkar) adlanırdı [21, 104-105]. Şəhər əhalisinin sosial tərkibində yer alan günəmuzdçular, qul əməyi ilə məşğul olanlar və xidmətçilər şəhər gəlirlərinin formalaşmasında ciddi rol oynamırdılar və dövrün mənbələrində Çuxur-Səəd şəhərlərində bu təbəqənin fəaliyəti ilə bağlı tutarlı məlumatlara demək olar ki, təsadüf olunmur.

Beləliklə, araşdırmalar göstərir ki, XVI-XVIII əsrlərdə Çuxur-Səəd bəylərbəyliyi əhalisi sosial tərkibinə görə, əsasən kənd, qismən isə şəhər əhalisindən ibarət olmuşdur. Həm şəhər, həm də kənd əhalisi içərisində imtiyazlı təbəqəni hərbi əyanlar (qızılbaş, qeyri-qızılbaş, qulam əsilzadələri), ali ruhanilər və mülki əyanlar təşkil etmişlər. Kənd əhalisinin mütləq əksəriyyəti müxtəlif kateqoriyalardan (hampa, rəncbər, elat, qara və s.) olan kəndlilərdən ibarət olmuşdur. Şəhər əhalisinin sosial strukturunda sənətkarlar və tacirlər aparıcı yer tutmuşdular. İri, topdansatış ticarətlə məşğul olan tacirlər (sövdəgər və ya xocalar) əsasən xarici ticarətlə məşğul olmuş, xırda tacirlər isə daxili bazarlarda fəaliyyət göstərmişlər. Şəhər əhalisinin böyük əksəriyyətini təşkil edən sənətkarlar fərdi, əsnaf və iri - karxana tipli emalatxanalarda işləmişdilər. Şəhər əhalisinin tərkibində qeydə alınan əkinçi və maldarlar şəhərin ərzaqla təminatında mühüm rol oynamış, günəmuzdçu və xidmət sahəsində fəaliyyət göstərən təbəqənin isə şəhərin iqtisadi həyatında xüsusi çəkisi o qədər də nəzərə çarpmamışdır.

## Ədəbiyyat siyahısı


1. *Jan Battist Tavernye. Səfərname-ye Tavernye.Tərcüme-ye Əbuturab Nuri, İsfahan, h.1336.*
2. *Петрушевский И. П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI - начале XIX веках. Л., Из-во ЛГУ, 1949, 383 с.*
3. *Рахмани А. А. Азербайджан в конце XVI и в XVII веке (1590-1700 гг.): Баку Элм, 1981, 237 с.*
4. *Эфендиев О. А. Азербайджанское государство Сефевидов в XVI веке. Баку, Из-во . Элм, 1981, 307 с.*
5. *Мамедов С. А. Азербайджан по источникам XV- первой половины XVIII вв. Баку, "Элм", 1993, 237 с.*
6. *Шараф-хан ибн Шамсаддин Бидлиси; Шараф-наме. Т. II.Пер., предисл.примеч. и прил. Е. И. Васильевой. Москва: Наука, 1976.351 с.*
7. *Həsən bəy Rumlu. Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı) fars dilindən tərcümə və şərhlər O. Əfəndiyev, N. Musalı, Kastamonu, Uzanlar, 2017, 661 s.*
8. *Məmmədova Ş."Xülasət ət - təvarix" Azərbaycan tarixinin mənbəyi kimi.Bakı,Elm,1987, 211 s.*
9. *Xacə Zeynalabdin Əli Əbdi bəy Şirazi.Təkmilatül-əxbar. (Səfəvi dövrü-Şah İsmayıl və Şah Təhmasib dövrlərinin tarixi). Fars dilindən tərcümə, müqəddimə və şərhlər.Ə. H. Rəhmanınindir. Bakı, Elm,1996,200 s.*
10. *İsgəndər bəy Münşi Türkman. Tarixi Alamarayi Abbasi.(Abbasın dünyanı bəzəyən tarixi) I cild. Farscadan tərcümənin, ön sözün, şərhlərin və göstəricilərin müəllifi O. Əfəndiyev, N. Musalı, Bakı, Təhsil, 2009,792 s.*
11. *İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi (Tarixe – alamaraye-Abbasi) II kitab, fars dilindən çevirən: Şahin Fazil, Bakı, Şərq-Qərb, 2014, 1400 s.(1111-2505 s).*
12. *Закарий Канакерци. Хроника. Перевод с армянского. Предисловие и комментарии М.О. Дарбинян-Меликян. Издательство. М.,Наука.1969,320 с.*
13. *Аракел Даврижеци. «Книга Историй». Перевод с армянского, предисловие и комментарий Л.А. Ханларян. М., Из-во «Наука». Главная редакция Восточной литературы, 1973,623 с.*
14. *Məhəmməd Tahir Vəhid. Abbasnamə ya şərhe zindəqani-yi 22 sale-yi Şah Abbas Sani (1052-1073). Ərak, h.1329.*

15. *Do ketabe nəfis 27 mədarake əvvəliyyə. Tarix-i Səfəviyyan. Xülasət-ət-təvarix. Tarix-i Molla Kamal, Ərak, h.1334.*
16. *Evliya Çələbi. Səyahətnamə.(türk dilindən işləyəni və şərhlərin müəllifi S. M. Onullahidir). Bakı, Azərnəşr, 1997,92 s.*
17. *Şarden Jan. Səyahətnamə. Fransız dilindən tərcümə edən Vaqif Aslanlı. Bakı, Elm, 1994, 96 s.*
18. *İrəvan əyalətinin müfəssəl dəftəri- İstanbul,Başbakanlıq arxivi, № 633.*
19. *Naxçıvan sancağının müfəssəl dəftəri. Araşdırma, qeyd və şərhlərin müəllifi: H. Məmmədov, tərcümə edən: Z.Bünyadov, H. Məmmədov. Bakı, Elm, 2001, 374 s.*
20. *Симеон Ереванци. Джамбр. памятная книга, зерцало и сборник всех обстоятельств св. престола Эчмиадзина и окрестных монастырей. Перевод С. Малхасянца. Под. ред.и с предисловием П.Т. Артюнян. М., Из-во Восточной литературы, 1958,399 с.*
21. *Новосельцев А. П. Города Азербайджана и Восточной Армении в XVII-XVIII вв. //История СССР,1959, № 1,с.87-108.*
22. *Tavernier J. B. Tavernier Seyahetnamesi. Hazırlayan: Ali Berktay, çev.Teoman Tunçdoğan, İstanbul, Kitap Yayınları, 2010, 343 s.*
23. *Персидские документы Матенадарана. II. Купчие, вып.I. (XIV-XVI вв). Составил А. Д. Папазян. Ереван, Из-во Арм. ССР,1968,640 с.*
24. *Персидские документы Матенадарана. I, Указы. — Вып. II. (1601-1650 гг). Составил А.Д.Папазян. Ереван, Из-во АН.Арм.ССР,1959,593 с*
25. *Закария Акулийский. Дневник. Ереван: Арм Фан лит-ра,1939,159 с.*
26. *Musəvi T. M. Bakı tarixinə dair orta əsr sənədləri, Bakı, 1967*
27. *Azərbaycan tarixi üzrə qaynaqlar. İkinci nəşrin tərtibçisi və redaktoru, t.e.d.prof., əməkdar elm xadimi S.S.Əliyarlı, Bakı, Çıraq, 2007, 400 s.*
28. *Петрушевский И. П. Земледелие и аграрные отношения в Иране в XIII-XIV вв.-М.-Л, 1960*
29. *Ализаде А. А. Социально-экономическая и политическая история Азербайджана в XIII—XIV вв. Баку, 1956, 420 с.*
30. *Morcen V.B. The Persecution of İranian Jews during the Reign of Shah Abbas II (1642-1666)/ Hebrew Union Annul.Vol.52,1981,pp,275-309.*
31. *Гейдаров М.Х. Социалъно-экономические отношения и ремесленные организации в городах Азербаиджана в XIII-XVII вв. Баку, Элм,1987, 211 с.*

**UOT 94 (479.24)**

# О НЕКОТОРЫХ ТРАДИЦИЯХ НЕСИЛОВОГО ПРОНИКНОВЕНИЯ РУССКИХ В АЗЕРБАЙДЖАН

**НУРЛАНА ДЖАВАНШИР**
*Бакинский Государственный Университет,*
*Исторический факультет, старший преподаватель*
*nurlanac@gmail.com*

## *RUSLARIN AZƏRBAYCANA YUMŞAQ-GÜC SİYASƏTİ İLƏ MÜDAXİLƏSİNİN BƏZİ ƏNƏNƏLƏRİ HAQQINDA*

*XVI əsrdən başlayaraq Rusiya özünün Qafqazda hakimiyyətini təmin etmək üçün yumşaq-güc siyasətindən istifadə etmişdir. Bu siyasət Qafqaz hakimləri ilə imzalanan fərmanlar, qətnamələr, andlı öhdəliklər və nəhayət müqavilələr vasitəsi ilə reallaşdırılırdı. Rus-Qafqaz münasibətləri əsrlər boyunca toplanmış - andlı öhdəliklər, əmanətlərin verilməsi, xidmətə görə məvacib, sənədlərin mətnlərinin tərtibi, imzalanma yeri və təsdiqlənmə nümunləri kimi davamlı ənənələrin əsasında qurulurdu.*

*Bu protokol qaydaları XVIII əsrin sonu – XIX əsrin əvvəllərində ruslarla Azərbaycan hakimləri arasında bağlanmış ikitərəfli razılaşmalarda da demək olar ki, eynilik təşkil edirdi.*

***Açar sözlər:*** *şərt, əmanət, vəd, mügavilə, nizamnamə, ənənə*

## *ON SOME TRADITIONS OF NON-POWER PENETRATION RUSSIANS TO AZERBAIJAN*

*Since the 16th century, Russia has been using non-force methods to assert its dominance in the Caucasus. This was carried out by concluding shert letters, decrees, oaths and, finally, agreements with the Caucasian rulers. Over the centuries, the conditions, such as taking an oath, issuing amanats, salaries for service, compiling the text of the document, the place of signing and the form of approval, on which Russian-Caucasian relations were built, evolved, turning into a stable tradition. These almost protocol rules were present in the drafting and formalization of bilateral agreements concluded between the Azerbaijani rulers and the russians in the late 18th and early 19th centuries.*

***Keywords:*** *shert, amanat, oath, contract, regulations, tradition*

Кавказ, в том числе Азербайджан, всегда привлекали внимание русских в силу своих богатых ресурсов, выгодного военно - стратегического положения и торгово - экономических возможностей. В разное время и в зависимости от ситуации русская администрация прибегала к различным способам утверждения здесь своего господства. На вооружении долгое время были т.н. «несиловые» методы проникновения, когда с местными правителями заключались «шертные грамоты», «постановления», «условия», «договоры» о службе, покровительстве, вассалитете и подданстве. Использование несиловых методов Россией объяснялось нехваткой военных сил, сопротивлением кавказских правителей и нежеланием ввязы-

ваться в конфликты с Ираном или Османской Турцией. Подобные документы давали России «законное право» присутствовать на Кавказе или, по крайней мере, установить здесь свое влияние [9; 10].

Некоторые кавказские владетели, в том числе азербайджанские ханы, сами искали юридически оформленных отношений с Россией, за которыми скрывалось желание получить войска для охраны собственных владений и участия в междоусобных войнах, формального подтверждения великим государством своей власти и использование авторитета этого государства, отсрочки возможной агрессии с его стороны и т.д. [11, с.332-333].

Еще с XVI века Россия строила свои отношения с кавказскими народами на основе шертных (условных, т.е. содержащих определенные условия) грамот, заимствованных русскими из ордынской политической практики [5, с.26]. Причем, этой традиции следовали и сами кавказские народы и строили свои отношения на основе шертов и с Османами, и с Сефевидами, и между собой. В этих шертных грамотах, по форме напоминающих клятву (неслучайно их называли также присяжными грамотами), определялись условия службы шертодателя, например, не совершать набеги, обеспечивать безопасную торговлю, движение послов. При этом шертная грамота могла включать в себя **двусторонние обязательства и шертодателя, и принимающую клятву сторону, и по сути являлась «договором о службе»**. Таким образом, начиная с XVI века, закладывались основы и традиции несиловых методов проникновения русских на Кавказ. Они касались как содержания, так и правил подписания и утверждения подобного рода документов: «приветчи - к шерти…жалованьем пожаловали, а пожаловав заклад у их взяли» [2, с.80].

Со временем шертные грамоты, их содержание, оформление, стали меняться, часто в сторону увеличения их статуса. Появились «постановления», «клятвенные обязательства», «просительные пункты» и, наконец, договоры. Однако, такие архаичные институты, как аманатство (заклад), клятвоприношение, жалованье за службу и др., ставшие устойчивой и неизменной традицией, будут продолжать присутствовать в русско-кавказских отношениях вплоть до XIX века.

В конце XVIII века Екатерина II за «непременное условие предполагала оставить отчасти в непосредственном владении нашем, отчасти же под покровительством нашим области при Каспийском море лежащие и весь край адербижанский…и дозволено было начальствовавшим у Кавказа принимать под верховную власть и покровительство российской державы всех владельцев приморских и к западу в Азербайджане лежащих» посредством принятия присяжных грамот [3, с.155].

В действительности, в конце века прикаспийские ханы Дербентский, Бакинский, Губинский и Ленкоранский, в условиях острой междоусобной борьбы, принимали участие в процедуре оформлении подданнических

отношений с Россией, обсуждали вопросы предоставления аманатов и жалованья, а также военных чинов, но так и не дошли до стадии принятия клятвы [1, с.642].

В духе шертных, присяжных грамот составлены «просительные пункты», подписанные между Россией и Бакинским ханом в марте 1803 года, а также «Клятвенное обязательство» Джаро-Белоканских джамаатов от апреля 1803 года. Эти документы, как и шертные присяжные грамоты, содержали в себе и условия (обязательства, причем двух сторон), и присягу.

Со временем, условия вступления под покровительство или подданство и сама клятва становятся двумя разными документами, несут отличную друг от друга нагрузку и оформляются (принимаются ) по разному.

Давней традицией в отношениях Кавказских народов с Россией было клятвоприношение, как подтверждающего и закрепляющего отношения документа и обряда. Как говорилось выше, клятвой был сам шерт. Со временем, как это было с Куракчайскими и Чартмийским договорами 1805 года, клятва как таковая становится отдельным документом и действом под названием «Клятвенное обещание». В исторической литературе указанные договоры ошибочно называют «клятвенными обещаниями», тогда, как сами договоры являются полноценными юридическими документами, включающими в себя обязательства двух сторон. Даже такой статусный договор, как Георгиевский трактат 1783 года, который нередко характеризуют как союзный, сопровождался «клятвенным обещанием» Картли-Кахетинского царя Ираклия II.

Текст шертной присяжной грамоты составлялся самими русскими. Так было и для крымских татар, и для кавказских правителей. Текст писал Посольский приказ, потом он переводился на местные языки. Часто шертные записи отправлялись «в запас», т.е. безымянными, с целью занесения туда нужных имен [2, с.107]. Эта традиция сохранится, и позже будет применяться в отношении азербайджанских ханов. Так, Фатали хану Губинскому русскими были переданы готовые присяжные листы для оформления покровительства [6, с.221].

«Просительные пункты» Бакинского хана также были написаны русскими и представлены на подпись. Следуя этой традиции, Цицианов сам составил текст договоров с азербайджанскими ханами и отправил к ним под строгим наказом «ничего в нем не править, равно как и текст присяги» [1, с.590].

На Кавказе обязательным было одаривание шертодателя в виде постоянного жалованья и подарков за службу. Это было главным обязательством российской стороны. В случае несвоевременных выплат служба шертодателя могла прерваться. Не обошла эта традиция и азербайджанских ханов. Хотя вопрос «жалованья за службу» не вошел в текст

договоров, но этот вопрос был предметом обсуждения. В результате, Ибрагим хан, его сыновья Мухаммедгасан ага, Мехтикули ага, Ханлар ага должны были получать жалованье за счет собираемой с ханства дани. Такая весьма абсурдная схема позволяла все же сохранить традицию службы на «государевом жалованье». Позже русские объясняли невыплаты жалованья несвоевременной уплатой ханами дани. Из записки, предъявленной Мехтикули ханом осенью 1806 года на имя Гудовича указывалось на полностью невыплаченное жалованье покойного Ибрагим хана с «составления высочайшей грамоты по день кончины его» [4, л.219].

Предоставление аманата, в силу сложившихся на Кавказе и тоже связанных с ордынцами традиций, было более значимым в плане подтверждения своей преданности, нежели подписанная бумага. Нередко Цицианов в знак преданности предлагал ханам просто прислать аманата. При заключении договоров с азербайджанскими ханами Цицианов добивался от ханов «крепкого заклада» (заложника), т.е. самых близких людей в качестве аманатов. Так, этот вопрос очень долго обсуждался с Шекинским и Шемахинским ханами, не имевшими на тот момент взрослых детей. Главнокомандующий пытался сам составить список аманатов из числа отпрысков влиятельных особ этих ханств. Напротив, ханы предлагали в аманаты детей беков средней руки и никак не ханзаде. Приверженность некоторых азербайджанских беков к каджарам заставили Цицианова брать дополнительных аманатов, сверх указанных в договорах [1, с.843].

В Гянджу дополнительно к внуку Ибрагим хана Гарабахского Шукруллаху, который являлся аманатом по Куракчайскому договору, были отправлены дети бунтующих Фейзи бека и Мирза Али бека. Ибрагим хан весной 1806 года, начав борьбу против русских, первым делом ставил задачу вывести своих аманатов из Гянджи [7, с.204; 4, л.257].

Принципиальным в русско-кавказских отношениях был вопрос о месте заключения шертной присяжной грамоты. Место встречи участников шерта демонстрировало характер их отношений и степень зависимости. Если присяга принималась на территории подконтрольной русским, то это означало более высокую степень зависимости от них. Понятно, что принятие присяги на собственной территории шертодателя не могло быть принято самими русскими. Поэтому, приемлемой считалась нейтральная территория. Азербайджанские ханы – Ибрагим хан Гарабахский, Шекинский Селим хан и Мустафа хан Шемахинский, следуя этой традиции, долго вели переговоры по вопросу места подписания договоров и принятия присяги с русскими [8, с.90; 1, с. 659, 701—702]. В результате пограничье между Гянджинским и Гарабахским ханствами, берег реки Куракчай, стал местом встречи для ханов с главнокомандующим русской армии, а Мустафа хану ничего не оставалось сделать, как подписать договор на горе

Чартма в пределах своих владений, т.к. оно было оккупировано русскими войсками во главе с Цициановым.

Подписанные с азербайджанскими ханами «постановления», «обязательства», наконец, договоры, по своему формату были более статусными, чем предшествующие фиксирующие двусторонние русско-кавказские отношения документы (за исключением Георгиевского трактата). В тоже время они содержали в себе выработанные веками на Кавказе традиции, умело использованные Россией в ее несиловом проникновении в Азербайджан.

## Список литературы

*1. Акты, собранные Кавказской Археографической комиссией. Том II. Тифлис, 1868*
*2. Белокуров С.А. Сношение России с Кавказом. М.,1889*
*3. Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 гг., ч.1. СПб., 1869*
*4. Государственный исторический архив Грузии. Фонд 2, опись 1, дело 118.*
*5. Магарамов Ш.А. Институт аманатства во взаимоотношениях дагестанских политических элит с российскими властями // Вопросы истории 12 (2). М., 2019*
*6. Маркова О.П. Россия, Закавказье и международные отношения в XVIII веке, М., 1966*
*7. Mir Mehti Xəzani. Kitabi-Tarixi-Qarabag. Garabagnamələr. II Kitab. Bakı, 2006,*
*8. Мирза Джамал Джеваншир. История Гарабага, Баку, 1959*
*9. Русско-дагестанские отношения в XVII-первой половине XVIII в. Документы и материалы. Махачкала, 1958*
*10. Русско-дагестанские отношения в XVIII-XIX вв. Сборник документов. М., 1988*
*11. Цагарели А.А. Грамоты и другие исторические документы XVIII века, относящиеся к Грузии. Том 1. СПб, 1891*

**UOT 94 (479.24)**

# QARABAĞIN TARİXİ COĞRAFİYASI A.A.BAKIXANOVUN "GÜLÜSTANİ-İRƏM" ƏSƏRİNDƏ

**ELŞƏN ASLANOV**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, tarix üzrə fəlsəfə doktoru*
*tarixmənbə@mail.ru*

*XVIII əsrdən Qafqaz regionunda mənafeləri toqquşan Rusiya imperiyası, Qacarlar İranı və Osmanlı dövlətlərinin planlarında Cənubi Qafqazın işğalı önəmli yer tuturdu. Osmanlı dövlətinin burada nüfuzunun güclənməsindən qorxan Rusiya imperiyası buna yol verməmək üçün Azərbaycan xanlıqlarını ələ keçirməyə can atır və eyni zamanda, bölgədə xristian dini amilindən istifadə etməklə özünə siyasi dayaq yaratmağı planlaşdırırdı. Bu məqsədlə XIX əsrin əvvəllərindən çar məmurları tərəfindən Cənubi Qafqaz, o cümlədən Azərbaycan haqqında tarixi, topoqrafik, etnik, toponomik və s. məlumatlar toplanılmağa başlandı. Çar məmurları tərəfindən Qarabağ bölgəsinin tarixinin yerli müəlliflər tərəfindən işıqlandırılmasına diqqət çəkilir və bununla əlaqədar onlara sifarişlər verilirdi. Belə əsərlərdən biri də XIX əsrin I yarısında Azərbaycan tarixşünaslığının banisi A.A.Bakıxanovun yazdığı "Gülüstani-İrəm" əsəridir. Əsərin beşinci fəsli Azərbaycan xanlıqlarının XVIII əsrin II yarısındakı tarixinə və XIX əsrin əvvəllərində onların Rusiya tərəfindən işğalına həsr edilmişdir. Bu fəsildə, həmçinin Qarabağ xanlığının yaranmasından, onun tarixi-coğrafi hüdudlarından və zaman-zaman bu hüdudların genişlənməsindən bəhs edilir.*

*"Gülüstani-İrəm"də Sisiyanovla İbrahimxəlil xan arasında Gəncə yaxınlığındakı Kürəkçay sahilində 1805-ci il mayın 14-də bağlanan sülh müqaviləsindən də bəhs edilir.*

*"Gülüstani-İrəm" əsərində Qarabağ ərazisində yaşayan əhalinin münaqişələrdən sonra İran ərazisinə köçürülmələrindən bəhs edilir. Ümumiyyətlə, əsərdə qismən də olsa, Qarabağda demoqrafik vəziyyət haqqında, Qarabağ bölgəsinin mədəni mühiti ilə bağlı məlumatlar əldə etmək mümkündür ki, bu baxımdan xanlıqlar dövründə Qarabağın tarixi coğrafiyasının araşdırılmasında bu əsər mənbə kimi mühüm əhəmiyyətə malikdir.*

***Açar sözlər:*** *A.A.Bakıxanov, Qarabağ xanlığı, Rusiya imperiyası, ərazi, əhali, Qacarlar, mədəni mühit*

## *HISTORICAL GEOGRAPHY OF KARABAKH IN THE WORK "GULUSTANI-IRAM" by A.A. BAKIKHANOV*

*The invasion of the South Caucasus occupied an important place in the plans of the Russian Empire, Qajar Iran and the Ottoman states, whose interests collided in the Caucasus region since the 18th century. Fearing the strengthening of the influence of the Ottoman state here, the Russian Empire sought to seize the Azerbaijani khanates in order to prevent this, and at the same time, it planned to create a political base for itself by using the Christian religious factor in the region. For this purpose, from the beginning of the 19th century, Tsarist officials conducted historical, topographical, ethnic, topographical, etc. information about the South Caucasus, including Azerbaijan. data has begun to be collected. The Tsar officials paid attention to the coverage of the history of the Karabakh region by local authors, and they were given orders in this regard. One such work is "Gulustani-Iram" written by A.A. Bakikhanov, the founder of Azerbaijani historiography in the first half of the 19th century. The fifth chapter of the work is dedicated to the history of Azerbaijani khanates in the second half of the 18th century and their occupation by Russia at the beginning of the 19th century. This chapter also*

*talks about the creation of the Karabakh Khanate, its historical and geographical boundaries and the expansion of these boundaries from time to time. "Gulüstani-Iram" also mentions the peace treaty signed between Sisiyanov and Ibrahimkhalil khan on May 14, 1805 on the bank of Kurekchay near Ganja. The work "Gulustani-Iram" talks about the resettlement of the population living in the territory of Karabakh to the territory of Iran after the conflicts. In general, it is possible to obtain information about the demographic situation in Karabakh and the cultural environment of the Karabakh region in the work, and from this point of view, this work is important as a source in the study of the historical geography of Karabakh during the khanate period.*

***Keywords:** A.A. Bakikhanov, Karabakh khanate, Russian Empire, territory, population, Gajars, cultural environment*

Azərbaycan tarixinin son dərəcə maraqlı və mühüm mərhələlərindən biri xanlıqlar dövrüdür. Nadir şahın ölümündən sonra XVIII əsrin ortalarından Azərbaycanın həm şimalında, həm də cənubunda xırda dövlətlər – xanlıqlar meydana gəldi. Azərbaycan ərazisi İranın çoxəsrlik əsarətindən, Qacarlar dövlətinin tərkibindən vahid dövlət kimi deyil, ayrı-ayrı xanlıqlar şəklində qurtuldu.

Azərbaycan xanlıqları əsasən türklərin məskunlaşdığı ərazilərdə meydana gəldiyi üçün Azərbaycan türklərinin sırf milli dövlətçiliyi məhz bu ərazilərdə formalaşmağa başlamışdı. Azərbaycan tarixində xanlıqların yaranması, "əsasən yekcins etnik tərkibə malik dövlət quruluşlarının meydana çıxması faktının özü dini mənsubiyyətin əsas rol oynadığı sülalə dövlətlərinin təməlində etnik dəyərlərin durduğu milli dövlətə keçidin bünövrəsini qoymuş oldu" [6, s.148]. Həmin dövrdə Qafqaz regionunda mənafeləri toqquşan Rusiya imperiyası, Qacarlar dövləti və Osmanlı dövlətinin planlarında Cənubi Qafqazın işğalı önəmli yer tuturdu. Osmanlı dövlətinin bölgədə nüfuzunun güclənməsindən qorxan Rusiya imperiyası buna yol verməmək üçün Azərbaycan xanlıqlarını ələ keçirməyə can atırdı. Xanlıqlar arasında baş verən fasiləsiz qarşıdurmalar etnik konsolidasiya proseslərini əngəllədi ki, bu da xristian dini amilindən istifadə etməklə özünə siyasi dayaq yaratmağı planlaşdıran Rusiyanın maraqlarına uyğun idi. Bu məqsədlə XIX əsrin əvvəllərindən çar məmurları tərəfindən Cənubi Qafqaz, o cümlədən Azərbaycan haqqında tarixi, topoqrafik, etnik, toponomik və s. məlumatlar toplanmağa başlandı ki, sonrakı mərhələdə bu məlumatlar əsasında Azərbaycan əleyhinə köçürmə, inzibati, müsəlman feodallarına qarşı və s. siyasətlər həyata keçirildi.

Çar məmurları tərəfindən Azərbaycanın müxtəlif bölgələrinin tarixinin yerli müəlliflər tərəfindən işıqlandırılmasına diqqət çəkilir və bununla əlaqədar onlara sifarişlər verilirdi. Belə əsərlərdən biri də XIX əsrin I yarısında yerli ali zümrənin nümayəndəsi, Azərbaycan tarixşünaslığının banisi A.A.Bakıxanovun Azərbaycan və Dağıstan tarixinin ən qədim zamanlardan 1813-cü il tarixinədək olan dövrü əhatə edən, "Tarixi hadisələri işıqlandırmaq baxımından elmi axtarış xarakteri" daşıyan "Gülüstani-İrəm" əsəridir. A.A.Bakıxanov bu əsərini milliyyətcə erməni olan Dağıstan hərbi dairəsinin rəisi Moisey Zaxaroviç Arqutinski-Dolqorukovun sifarişi ilə yazmışdır.

A.A.Bakıxanovun əsərləri öz yazılış tərzi, söykəndiyi qaynaqların zənginliyi və mötəbərliliyi, müəllif araşdırmalarının dərinliyi və s.-yə görə bu günkü çağdaş tarixşünaslıq üçün əvəzsiz örnək olaraq qalmaqdadır. Bu məqalədə A.Bakıxanovun "Gülüstani-İrəm" əsəri əsasında Qarabağ xanlığının tarixi-coğrafiyası ilə bağlı, yəni onun siyasi, demoqrafik və mədəni tarixinə dair bəzi məsələlər nəzərdən keçirilmişdir. Qeyd edək ki, Qarabağ xanlığı tarixinin müxtəlif aspektləri tədqiqatçılar tərəfindən araşdırma obyektinə çevrilsə də, xanlığın tarixi coğrafiyasının kompleks şəkildə öyrənilməsi Azərbaycan tarixşünaslığında yeni istiqamətlərdəndir.

"Gülüstani-İrəm"in beşinci fəsli Azərbaycan xanlıqlarının XVIII əsrin II yarısındakı tarixinə və XIX əsrin əvvəllərində onların Rusiya tərəfindən işğalına həsr edilmişdir. Burada XVIII əsr Rusiya-Azərbaycan münasibətləri, Azərbaycanın şimal torpaqlarının Rusiya tərəfindən tutulmasının gedişi haqqında geniş məlumat verilir.

Nadir şah Əfşar imperiyasının süqutundan sonra müstəqillik qazanmış Azərbaycan xanlıqlarından biri də Qarabağ xanlığı idi. Qarabağ xanlığı Şimali Azərbaycan xanlıqları içərisində siyasi, iqtisadi və mədəni inkişafının xüsusiyyətlərinə görə seçilirdi. Digər tərəfdən isə Azərbaycanın XVIII əsrin II yarısı – XIX əsrin əvvəllərini əhatə edən mürəkkəb tarixi dövrün tam və obyektiv mənzərəsini Qarabağ xanlığının sosial-iqtisadi və siyasi həyatını öyrənmədən yaratmaq mümkün deyildir [5, s.10].

1747-ci ildə Nadir şah öldürüldükdən sonra, 1748-ci ildə Pənahəli xan Qarabağ xanlığının əsasını qoydu. A.A.Bakıxanov "Gülüstani-İrəm" əsərində Pənahəli xanın Qarabağ xanlığında hakimiyyətə gəlməsini, Qarabağ xanlığının yaranmasını belə təsvir edir: "Nadir dövrünün axırlarında qaçıb Şəki və Şirvan ölkələrində keçinən Pənah bəy İbrahim Xəlil oğlu Cavanşir, ardıcıl davam edən müharibələr nəticəsində xanlıq ləqəbilə Qarabağda hökmranlıq bayrağını yüksəltdi" [2, s.184]. "Nadir dövrünün axırlarında" Pənahəli xanın "qaçıb Şəki və Şirvanda" keçinməsi haqqında Mirzə Camal Cavanşir Qarabaği də "Qarabağ tarixi"ndə qeyd edirdi ki, Nadir şah Qarabağ, Gəncə, Tiflis və Şirvan vilayətlərini aldıqdan sonra, ellər arasında şöhrət tapmış Pənahəli bəy Sarıcalı Cavanşiri öz yanına aparır, bir necə il keçir, Nadir şahın ona qarşı olan mərhəməti ilə bütün tay-tuşlarından üstün rütbə və mənsəbə yüksəlir. Lakin şahın evində və ellər arasında olan bir para qəlbiqara və paxıl adamlar adəti üzrə, açıqda və gizlində Pənah xanı mərhum Nadir şahın yanında o qədər pisləyirlər ki, mərhum şahın ona qarşı olan məhəbbətini ədavətə çevirirlər.

İşin qorxusundan agah olan Pənah xan, canının qorxusundan, şah Xorasanda olduğu zaman, fürsət tapıb bir neçə qohumu və yaxın adamı ilə 1150/1737/1738-ci ildə Qarabağ vilayətinə qaçır. Şah onun tutulub hüzuruna gətirilməsi haqqında fərman verir. Daha sonra Mirzə Camal Cavanşir yazır: "Pənah xan Qarabağ torpağına çatıb vaxtını yaxın adamları ilə birlikdə gah Qarabağın dağlarında, gah da Şəki vilayətinin Qəbələ mahalında keçirirdi" [10, s.110-111].

Əslində isə Pənah bəyin Nadir şahdan qaçışının əsas səbəbi, tarixi tədqiqatlarda da qeyd olunduğu kimi, 1736-cı ildə keçirilən Muğan qurultayında Nadir özünü şah elan edən zaman ziyadoğullar, İyirmi dörd, Otuz iki, Cavanşir, Kəbirli və digər tayfa başçılarının buna etirazı ilə əlaqədar qurultaydan sonra Nadir şahın onun hakimiyyətini qəbul etmək istəməyən qarabağlılara divan tutması ilə əlaqədar idi. O, bu tayfalardan bir çoxunu ailəsi ilə birlikdə Xorasanın Sərəxs mahalına köçürdü. Bu tədbirə etiraz etdiyinə görə Pənahəli bəyin qardaşı Fəzləli xan edam olunmuşdu [7, s.25]. Mirzə Yusif Qarabağinin yazdığına görə isə Fəzləli bəy Nadir şahın apardığı müharibələrdən birində döyüş meydanında həlak olmuşdur [11, s.75].

Nadir şahın Qarabağ bəylərbəyinə qarşı gördüyü cəza tədbirlərindən biri də Qarabağın beş xristian məlikliyinə daxili idarəetmədə müstəqillik verərək Qarabağ bəylərbəyliyinin tabeçiliyindən çıxarıb, birbaşa Azərbaycan vilayəti hakiminə tabe etməsi olmuşdu [11, s.76].

Xanlıq geniş bir ərazini – cənubdan Araz çayı, şimaldan Gürcüstan sərhədində Sınıq körpü, şərqdən Kür çayı, qərbdən isə indiki Ermənistanla həmsərhəd olan torpaqları əhatə edirdi [1, s.532]. Qarabağ xanlığı şimal-qərbdə Kürəkçay və Qaraçay boyunca Gəncə xanlığı ilə, cənub-şərqdə Naxçıvan, qərbdə İrəvan, şimalda Şəki və Şamaxı, cənubda Ərdəbil və Qaradağ xanlıqları ilə həmsərhəd idi [11, s.79].

Qarabağ xanlığı yaradılandan sonra başlıca vəzifə onun möhkəmləndirilməsinə nail olmaq idi. Pənahəli xanın bu sahədə ilk tədbirlərindən biri Qarabağın Nadir şah tərəfindən sürgün olunmuş türk-müsəlman əhalisini geri – doğma torpağa qaytarmaq oldu. Köçkünlərin geri qaytarılması və dədə-baba torpaqlarında yerləşdirilməsi Qarabağ xanlığını gücləndirdi. Sürgündən ilk qayıdanlar içərisində Qarabağın gələcək xanı, 15 yaşlı İbrahimxəlil də var idi [7, s.25].

Azərbaycan xanlıqlarının meydana gəlməsində mövcud olan qanunauyğunluqlar Qarabağ xanlığı üçün də eyni idi, lakin siyasi-iqtisadi mərkəz məsələsində vəziyyət bir qədər fərqli idi. Belə ki, Qarabağ bəylərbəyliyinin ərazisində 2 xanlıq - Qarabağ və Gəncə xanlıqları təşəkkül tapır. Qarabağ ərazisi əvvəlcə Qarabağ bəylərbəyliyinin, XVIII əsrin ortalarından isə Qarabağ xanlığının tərkibində olmuş və onların əsas ərazisini təşkil etmişdir [12, s.101]. Bu iki xanlıq yarandığı dövrdə Qarabağ bəylərbəyliyinin mərkəzi olan Gəncə şəhəri Gəncə xanlığının siyasi-inzibati mərkəzinə çevrildiyindən, Qarabağ xanlığında siyasi-inzibati mərkəz kimi bir şəhər mövcud deyildi. Bu səbəbdən Pənahəli xan hərbi-siyasi işlərlə yanaşı, Qarabağda quruculuq işlərinə və 1748-ci ildə Kəbirli mahalında, bu ərazidə yaşayan qədim türk tayfalarından olan bayatların adı ilə Bayat qalasının inşasına başlayır. Qısa vaxtda tikilən qalaya xan bütün ailəsini, Qarabağ əyanlarını köçürür. Ətraf kəndlərin əhalisi, habelə Təbriz və Ərdəbildən də xeyli sənətkar da buraya yerləşir. Bayat qalasının inşası həmin dövrlərdə Pənahəli xana tabe olmayan Qarabağın xristian məliklərini və Qarabağı özünə tabe etmək niyyətində olan şəkili Hacı Çələbi xanı narahat edirdi.

1748-ci ildə baş verən savaşda Şəki və Şamaxı xanlıqlarının birləşmiş hərbi qüvvələri bir ay Bayat qalasını mühasirədə saxlasalar da, onu ələ keçirə bilməyib geri çəkildilər. Bayat qalasının strateji mövqeyi zəif, iqlimi isti olduğu üçün burada uzun müddətə böyük hərbi qüvvə saxlamaq mümkün olmadığını görən Pənahəli xan 1752-ci ildə Tərnəkütdə Şah bulağı qalasını inşa etdirir. İgamətgahını Bayat qalasından Şah bulağa köçürür. A.Bakıxanov da xanlıq ərazisində Pənahəli xan tərəfindən inşa edilən qalalardan bəhs edərkən əvvəlcə Bayat və daha sonra Tərnaut qalasının bina edildiyini qeyd edir [2, s.184].

Bu dövrdə Qacarlar dövlətində şah taxtı uğrunda kəskin mübarizə gedirdi. Bu mübarizədə isə ən çox fərqlənənlərdən biri Astrabad və Mazandaran hakimi Məhəmmədhəsən xan Qacar, Urmiya xanı Fətəli xan Əfşar və Şiraz hakimi Kərim xan Zənd fərqlənirdi. Pənahəli xan onların Qarabağı rahat buraxmayacaqlarını dərk edirdi. O, daha çox Məhəmmədhəsən xan Qacarın Qarabağa yürüşündən ehtiyat edirdi. Bu məqsədlə düşmənin basqınına duruş gətirəcək daha möhkəm bir sığınacaq yaratmaq məqsədilə Pənahəli xan “bir neçə vaxtdan sonra erməni məliklərilə düşmənçilik edən Məlik Şahnəzər Vərəndənin xahişinə görə, indiki Şuşanın yerində Pənahabad qalasını bina etdi” [2, s.184]. Təəssüf ki, A.Bakıxanovun bu əsərdə Şuşa şəhəri və Pənahabad qalası ilə bağlı məlumatı sadəcə bundan ibarətdir. Qeyd edək ki, Pənahabad adı ilə Şuşada 15 qəpik qiymətində olan gümüş pul kəsilmişdi. Güman edilir ki, əvvəlki əsrlərdə bu yerdə mövcud olmuş və monqollar tərəfindən dağıdılmış Şuşa şəhərinin adı ilə yeni qala sonralar Şuşa adlandırılmışdır.

Pənahəli xanın dövründə Şuşa Azərbaycanın inzibati, ticarət və sənətkarlıq mərkəzlərindən biri oldu. Şuşadan Aran vasitəsilə Ön Qafqazı İran və digər ölkələrlə birləşdirən karvan yolu keçirdi.

Pənahəli xan, Nadir şaha itaətə görə məliklik rütbəsi əldə etmiş iri feodal hakimləri olan məlikləri müxtəlif yollarla özünə tabe etmişdi. O, Gülüstan və Çiləbörd məlikləri arasında nifaq salmışdı. Vərəndə məliyi Şahnəzər qızı Hürzəti Pənahəli xanın oğlu İbrahimxəlilə verərək onun hakimiyyətini, Xaçın və Dizaq da xanın hakimiyyətini qəbul etmişdilər. Pənahəli xan tərəfindən Qarabağ məliklərinin tabe edilməsindən bəhs edən A.Bakıxanov onları milliyyətcə erməni adlandıraraq yazır: “Erməniləri özünə tabe edərək, gündən-günə qüvvətləndi” [2, s.184]. Əslində burada o, yanlışlığa yol verir. Verilən məlumatdan da məlum olur ki, Pənahəli xan Qarabağın beş məlikliyini asılı vəziyyətə salmışdı ki, bunlardan yalnız Vərəndə məliyi özü Pənahəli xanın hakimiyyətini qəbul etmişdi. Dörd məliklik (Xaçın, Dizaq, Çiləbörd, Gülüstan) isə zorla tutulmuşdu.

İranda Nadir şahın xələfləri arasında ara müharibələrinin genişlənməsindən istifadə edən Pənahəli xan Gəncə, İrəvan, Naxçıvan xanlıqlarını, xüsusən Ərdəbil xanlığını ələ keçirməyə çalışırdı. Pənahəli xanın hakimiyyəti dövründə Qarabağ xanlığının tarixi-coğrafi hüdudlarından və zaman-zaman bu hüdudların genişlənməsindən bəhs edən A.Bakıxanov yazır ki, Pənahəli xan günü-gün-

dən güclənərək "Xudafərin körpüsündən başlayaraq Kürək çayına və Bərgüşad mahalına qədər yerləri ələ keçirdi. Bundan əlavə, Qaradağa aid Mığrı və Güney mahallarını, Naxçıvana aid Tatif və Sisyanı, İrəvana aid Tərtər Kolanını və Təbrizə aid olan Zəngəzur və Qapanı tutdu. O bəzən Ərdəbil və sair kimi qonşu ölkələri də özünə tabe edirdi" [2, s.185]. Buradan da məlum olur ki, öz ərazisini cənub-qərbə doğru genişləndirən xanlığın sərhədləri şimaldan Gəncə xanlığına, şərqdən Kür-Arazın birləşdiyi yerə, cənubdan Araz çayına, qərbdən isə Mehri, Sisiyana qədər çatırdı. Əsərdə xanlığın bəzən Ərdəbil və sair kimi qonşu ölkələri də özünə tabe etməsindən bəhs edilir.

Pənahəli xanın 1752-ci ildə Şəki xanlığına qarşı naxçıvanlı Heydərqulu xan, qaradağlı Kazım xan, gəncəli Şahverdi xan və Kartli çarı II İrakli ilə ittifaqa girərək Qızılqaya xəyanətində iştirakı ilə əlaqədar Bakıxanov yazırdı: "Gürcüstan valisi İrakli xan, Hacı Çələbinin dəf'i xüsusunda məşvərət və məsləhət bəhanəsilə, gəncəli Şahverdi xan, qarabağlı Pənah xan, qaradağlı Kazım xan, irəvanlı Hüseynəli xan və naxçıvanlı Heydərqulu xanla Gəncənin yaxınlığında görüşüb, hamısını bir yerdə yaxaladı və əsir etdi. Hacı Çələbi bu xəbəri eşidən kimi, şücaət və igidliyilə Sərgar xanədanının hökmranlığına vasitə olan Ağa Rəzi bəylə ittifaq edib, Gürcüstan valisinin üzərinə hücum etdi. Gəncənin yarım ağaclığında, Qızıl Qaya adlı yerdə onu məğlub edərək, həmin xanları xilas etdi" [2, s.186].

Cənubi Azərbaycan xanlıqlarının cənubunda hakimiyyətdə olan və öz hakimiyyətini Azərbaycanın şimal xanlıqlarına da yaymağa qərar verən Fətəli xan Əfşar ilk növbədə mühüm strateji əhəmiyyət kəsb edən Qarabağ xanlığını ələ keçirməyə cəhd etdi və Pənahəli xanın yanına elçilər göndərərək tabe olmasını tələb etdi. Rədd cavabı aldıqdan sonra məliklərin də yardımı ilə Şuşanı mühasirəyə alaraq, öz planını həyata keçirməyə çalışdı. Altı aylıq mühasirədən sonra Pənahəli xan böyük oğlu İbrahim Xəlil ağanı girov kimi Fətəli xanın yanına göndərib, şəhərin mühasirəsinin götürülməsinə nail oldu ki, bununla əlaqədar A.Bakıxanov yazır: "1762-ci ildə Nadir şahın böyük əmirlərindən Fətəli xan Əfşar Azərbaycanı aldı, hökmranlıq iddiası ilə Gəncə və Qarabağa hərəkət etdi. Pənah xan onunla itaət edər kimi sazişə girdi, oğlu İbrahim Xəlil ağanı ona girov verdi" [2, s.188].

1761-1762-ci illərdə Kərim xan Zəndin Azərbaycana hücumunu oğlunun xilası üçün fürsət bilən Pənahəli xan onunla birləşdi və Fətəli xan Əfşara qarşı mübarizədə iştirak etdi. 1763-cü ildə Fətəli xan Əfşar məğlub oldu. Kərim xan Zəndin fərmanı ilə Qarabağ xanı təyin edilən İbrahim Xəlil xan Qarabağa göndərildi. Pənahəli xan isə fəxri girov kimi Şirazda saxlanıldı. 1763-cü ildə elə orada müəmmalı şəkildə vəfat etdi və cənazəsi Qarabağa gətirilib, Ağdamda dəfn edildi. Hadisələri qələmə alan A.Bakıxanov bununla əlaqədar yazır: "Bu zaman, Vəkil Kərim xan Azərbaycanı istila etmək məqsədilə gəldi. Qarabağlı Pənah xan öz oğlunu xilas etmək üçün ona qoşuldu və Urmu şəhərini almaqda, həmçinin Fətəli xanı öldürməkdə çox yardım göstərdi. Vəkil, Pənah xanın oğlu İbrahim Xəlil

ağanı xanlıq ləqəbilə Qarabağa göndərdi, özünü isə, həmişə yanında saxlayırdı. Pənah xan Şirazda vəfat etdi, nəşi də Qarabağa göndərildi" [2, s.188].

A.Bakıxanovun fikrincə, Pənahəli xanın təhsili olmasa da, o, "cəsarətli, sadə, xoşrəftar və tədbirli bir əmir olmuşdur".

İranda baş vermiş feodal ara müharibələrində Kərim xan Zəndin ölümündən sonra mənşəcə türk-qızılbaş Qacar sülaləsindən olan Ağa Məhəmməd xan Qacar hakimiyyətə gəldi. 1795-ci ilin iyunun sonunda Ağa Məhəmməd şah 85 minlik ordu ilə Qarabağ xanlığına hücum edib, Şuşa qalasını mühasirəyə aldı. Şuşanı 33 gün mühasirədə saxlayıb, heç bir müvəffəqiyyət qazana bilməyən Ağa Məhəmməd şah Qacar Tiflisə gedir. Ağa Məhəmməd şah Qacarın Cənubi Qafqaza, o cümlədən Qarabağ ərazisinə basqınları "Gülüstani-İrəm" əsərində belə təsvir edilir: "Cənubi Qafqaz ölkələri iğtişaş və inqilab məhəlli olmuşdu. Belə qarışıq bir zamanda, İran ölkəsinin hökmranlığı şövkətli Qacar sülaləsinə keçdi. Ağa Məhəmməd xan bu ölkəni almağa hərəkət etdi...[2, s.203].

Hicri 1209-cu (1795) ildə Qarabağı fəth etmək məqsədilə Xudafərin körpüsünü təmir edib, Pənahabad (Şuşa qalası) üzərinə yürüş etdi. İbrahim xan İran qoşununun bu tərəfə keçməsinə yol verməmək üçün bu körpünü xarab etmişdi. Ağa Məhəmməd xan Topxana mənzilində yerləşib, qalanı mühasirəyə almağa başladı. Təqribən bir aydan sonra Gürcüstana hərəkət etdi" [2, s.205]. Ağa Məhəmməd şahın Gürcüstan üzərinə yürüşü ilə bağlı M.Adıgözəl bəy də öz səlnaməsində məlumat verərək yazır ki, İbrahim xan çapar vasitəsilə Gürcüstan valisinə xəbər verdi ki, Ağa Məhəmməd şah Şuşa şəhərini almaqda aciz qalıb Tiflisə hərəkət etmişdir [9, s.52]. Qeyd edək ki, "Qarabağnamələr"in demək olar ki, bütün müəllifləri tərəfindən Ağa Məhəmməd xan Qacarın Gürcüstana yürüşü qələmə alınmışdır və bu yürüşün təfərrüatı ilə bağlı məlumatlar eyniyyət təşkil edir.

Gəncə və Qarabağ hakimlərinin məskunlaşdığı ərazilərlə bağlı A.Bakıxanov yazır: "Gəncə və Qarabağ hakimləri də Ziyad oğlu ləqəbi ilə, Xudafərin körpüsündən başlayaraq Sınıq körpüdən yuxarı olan Şülaver kəndinə qədər hökmranlıq edirdilər. Bunlar, Muğanın böyük şurasında Nadir şahın səltənətinə razılıq verməyib Səfəviyyə dövlətinin bərqərar olmasını tələb edirdilər. Buna görə, Nadir şah İran səltənəti taxtına oturunca, onların əzəmət və iqtidarını qırmaq istəyərək, Qarabağ əhalisinin bir çoxunu Xorasana köçürdü. Bərgüşat və Xəmsə məliklərini onların ixtiyarından çıxarıb, Azərbaycan sərdarına tapşırdı... Qazax və Borçalı mahalı əhalisini Gürcüstan valisinin ixtiyarına verdi. Bu səbəblə həmin xanlar çox zəif düşüb, ancaq Gəncə ətrafının hökmranlığı ilə kifayətlənirdilər".

"Gülüstani-İrəm" əsərində Qacar tayfasından bəhs edən müəllif Əbdürrəzzaq bəyin «Məasiri-sultaniyyə» əsərinə istinad edərək bu tayfaların məskunlaşdırılması ilə əlaqədar olaraq bildirir ki, Əmir Teymur Qacar tayfasından olan 50.000 ailəni gətirib İrəvan, Gəncə və Qarabağ nahiyələrində yerləşdirmişdir. Eyni zamanda əsərdə onların gündən-günə artıb, cah və cəlal sahibi olmaların-

dan, Qacar əmirlərindən bir çoxunun Səfəvilər dövründə etibarlı hökumət adamları olmalarından, Ermənistan və Şirvanda yüksək iqtidara malik olmalarından, İrəvan hakimlərinin də həmin nəsildən olmalarından bəhs edilir [2, s.203-204]. Daha sonra müəllif yazır: "Eyni zamanda İrəvan, Gəncə və Qarabağ əhalisi və əmirlərinin çoxu, Qacar nəslindən olduğu üçün, onlar çox vaxt Şirvan ölkəsində sakin və hökmran olmuşlar" [2, s.204].

Rusiya imperiyası Azərbaycan xanlarının Rusiya təbəəliyinə keçməsi planının reallaşdırılmasını general V.Zubova həvalə etmişdi. Rus qoşunlarının 1796-cı ildə general V.Zubovun başçılığı ilə Azərbaycana etdiyi istilaçılıq yürüşündə Şimali Azərbaycan xanlarının itaəti əslində öz hakimiyyətlərini Qacar təhlükəsindən qorumaq məqsədi güdürdü. Bununla əlaqədar A.Bakıxanov "Gülüstani-İrəm" əsərində yazır: "Qraf Zubov Kür çayı kənarında qışladı, oradan Gəncəyə bir dəstə qoşun göndərdi. ...Qarabağlı İbrahim xan və şəkili Səlim xan da, elçilər və məktublar göndərməklə ixlas və itaət göstərdilər Şirvan, Şəki, Qarabağ və Gənçə xanları Qraf Zubov gəldiyi zaman himayə xahiş etmişdilər" [2, s.209]. Belə ki, Ağa Məhəmməd şah 1797-ci ildə yenidən "Şuşa qalasını almaq və Şirvan ölkəsini fəth etmək qəsdilə 100.000 qoşunla səfərə çıxdı. Araz çayını keçəndən sonra, İbrahim xan Car nahiyəsinə qaçdı. Şuşa qalası maneəsiz və zəhmətsiz zəbt edildi [2, s.211]. Elə həmin il Ağa Məhəmməd şah Qacarın qətlindən sonra Qarabağda baş verən siyasi hadisələrlə bağlı əsərdə qeyd edilir ki, "Ağa Məhəmməd şah öldürüləndən sonra, Şuşada Pənah xanın nəvəsi Mehrəli bəyin oğlu Məhəmməd bəy bir neçə gün hökmranlıq iddiasında oldu. Lakin o, İbrahim xan gələn kimi Şəkiyə qaçdı. Şəki hakimi Məhəmmədhəsən xan onu həbsə alıb, şirvanlı Mustafa xanın yanına göndərdi. Məhəmməd bəy qubalı Fətəli xanın əmrilə, onun atasını və qardaşlarını Bakıda öldürmüşdü. Buna görə, o da Məhəmməd bəyi intiqam məqsədilə öldürdü. İbrahim xan şahın cənazəsini böyük ehtiram və alimlərin (ruhanilərin) müşayiətilə yola saldı. Səmimiyyət və ixlas tərzilə yeni şahın hüzuruna bir ərizə yazdı və nəvazişə nail oldu. Oğlu Əbülfəth ağanı da padişahın hüzurunda qalmaq üçün göndərdi" [2, s.212].

1797-ci ildə general Zubov vəzifədən kənarlaşdırıldı, A.Bakıxanovun da qeyd etdiyi kimi "imperator Aleksandr bu böyük və mühüm işlərin sərəncamını əslən gürcü olub, Rusiyada yaşayan general-anşef knyaz Sisiyanova tapşırdı" [2, s.217]. Əsərdə həmçinin qeyd edilir ki, 1804-cü ildə Sisiyanovun başçılığı altında ruslar tərəfindən hücumla Gəncə alınan zaman Gürcüstan valisi "İrakli, qarabağlı İbrahim xan və şəkili Səlim xan qoşunla Gəncənin xaricinə gəlmişdilər.

Çox keçmədi ki, "Azərbaycan xanları rus silahı qarşısında aciz qalaraq birbirinin ardınca, zorla, danışıqsız tabe edilməyə başladılar" [4, s.12]. Gəncənin işğalından sonra ruslar üçün Qarabağa yol açıldı. "İran dövləti bu cür fütuhatdan qorxuya düşüb" "İrəvan və Qarabağı mühafizə etməyi Abbas Mirzəyə tapşırdı". 1805-ci ildə "şahın vəliəhdi Abbas Mirzə, Naibüssəltənə ləqəbi ilə Azərbaycan hökmranlığına təyin edildi [2, s.220]. "Gülüstani-İrəm" əsərində Sisiyanovla İbrahim Xəlil xanın Gəncə yaxınlığındakı Kürəkçay sahilində 1805-ci il

mayın 14-də bağlanan sülh müqaviləsindən bəhs edən müəllif yazır: "Rus sərdarı Kürəkçayı kənarında, qarabağlı İbrahim Xəlil xan ilə görüşdü. İbrahim Xəlil xan, bağlanan əhdnamə mucibincə, Rusiya dövlətinin himayəsinə daxil oldu və xərac olaraq hər il 10.000 əşrəfi verməyi öhdəsinə aldı. Özünü qorumaq üçün 50 soldat götürüb Şuşa qalasında yerləşdirdi. İmperator tərəfindən onun özünə general-leytenant rütbəsi, oğlanları Məhəmmədhəsən ağa və Mehdiqulu ağaya general-mayorluq və Xanlar ağaya da polkovniklik rütbəsi verildi" [2, 220-221].

Daha sonra A.Bakıxanov yazır:"Digər tərəfdən, Naibüssəltənə (Abbas mirzə) Qarabağı almaq qəsdilə, damğanlı İsmayıl bəyi və Şahsevən Əliqulu xanı 10.000 nəfər qoşunla Xudafərin körpüsündən göndərdi. Məhəmmədhəsən ağa rus qoşunu ilə onların qarşısına çıxdı. Cəbrayıllı bağlarında döyüşə başladı və Şuşaya qayıtdı.

Şah özü Qarabağın Təxti-Tavus adlı yerinə və Naibüssəltənə də Ağoğlan və Çanaxçı yolundan Əsgəranın aşağısına gəldi. Naibüssəltənə Gəncədən bir dəstə soldatla Şuşaya gedən polkovnik Karyagin ilə döyüşə başladı. Polkovnik qayıdıb Şah bulağı yanında olan Tərnaut qalasına gəldi. Buradan da gedib, Tərtər çayı kənarında yerləşmiş və 2.000 soldatla şahın müharibəsinə gedən knyaz Sisiyanov ilə birləşdi.

Şahın oradan qayıtması xəbərilə əlaqədar olaraq rus sərdarı Şuşa qalasına gəldi. Naibüssəltənə də Gəncəyə getdi. Orada olan ruslar ermənilərin bir hissəsilə qalaya çəkildilər" [2, s.221].

Kürəkçay müqaviləsinin Rusiya imperiyası üçün əhəmiyyətindən bəhs edərkən Qafqaz qoşunlarının baş komandanı general Sisiyanovun 1805-ci il 22 may tarixli 19 saylı məlumatındakı fikrini qeyd etmək yerinə düşər. O, Qarabağı coğrafi mövqeyinə görə Azərbaycanın, eləcə də İranın qapısı adlandırır və buna görə də onun əldə saxlanılması və möhkəmləndirilməsinə daha çox səy göstərilməsini bildirirdi.

N.F.Dubrovin 1803-1806-cı illərdəki hadisələrdən bəhs edən əsərinin iyirmi birinci fəslində Qarabağ və Şəki xanlıqlarının Rusiya tabeliyinə keçməyə məcbur olmalarını təsvir edir, xanlıqlarla Rusiya arasında bağlanmış müqavilənin şərtlərini şərh edir. N.F.Dubrovin qeyd edir ki, müqavilə Rusiya və Qarabağ xanlığı arasında bağlanmış, bir neçə gün sonra Şəki xanı tərəfindən də imzalanmışdır [3, s.38].

Sisiyanovun ölümündən sonra baş verən və İbrahim xanın ölümü ilə bağlı hadisələrdən bəhs edən A.Bakıxanov yazır: "Qarabağlı İbrahim xan bir çox ərizə göndərməklə İran dövlətinə ixlas göstərdi. Onun xahişinə görə, oğlu Əbülfəth xan bir dəstə qoşunla Qapan yolundan Şuşa qalasının yanına gəldi. Naibüssəltənə özü də Xudafərin körpüsündən keçdi. Şuşada sakin olan rus qoşununun komandiri mayor Lisaneviç, hicri 1221-ci (=1806) ildə, həziran (iyun) ayının 2-də gecə yarısı qalanın xaricində köç və külfətilə yerləşən İbrahim xanın üzərinə basqın edib onu arvadı, oğlu, qızı və bir çox əyan və xadimlərilə bir

yerdə öldürdü. İbrahim xan hünərli, ədalətli, bərk ürəkli və sadə rəftarlı bir əmir idi. Həmin gün Əbülfəth xan geri qayıtdı. İbrahim xan nəvəsi Cəfərqulu ağa Məhəmmədhəsən ağa oğlu Ordubadın yaxınlığına qədər onu təqib edərək, çoxlu qətl və qarət etdi. Mehdiqulu ağa atasının yerinə Qarabağ hökumətinə təyin edildi. Neçə vaxtdan sonra, Əbülfəth xan Şahsevən Ətaulla xanın köməyilə cəbrayıllı tayfasını və Qarabağın sair elatını köçürüb Qapan ətrafına getdi. Bu zaman, ruslar və Cəfərqulu ağa cəbrayıllı elinin üsyan qaldırmasından istifadə edərək, iranlıları çətin keçilən və meşəlik yerlərdə məğlub etdilər. İranlılardan bir çoxu qarət edildi, elat da öz məskəninə qayıtdı. Bu zaman, Naibüssəltənə Aslandüz və Qarabağ yolu ilə Şirvana hərəkət etdi [2, s.222-223].

Ruslara xidmət göstərən polkovnik Cəfərqulu ağa Məhəmmədhəsən ağa oğlundan İran tərəfdarı olması ilə əlaqədar şübhələnən rus hökuməti tərəfindən onun həbsə alınıb, Tiflisə göndərililməsinə qərar verir. Ruslardan bir dəstə piyada və bir neçə nəfər kazakla Tərtər çayından keçərkən, Cəfərqulu ağa Cəbrayıllı elinə qaçmağı bacarır. Baş verən hadisə ilə bağlı Qarabağ ərazisində yaşayan əhalinin münaqişələrdən sonra İran ərazisinə köçürülmələrindən bəhs edən müəllif yazır: “Bu xəbər Naibüssəltənəyə çatan kimi Qarabağa gəldi. Əmir xan Qacarı, Cəfərqulu ağa ilə Cəbrayıllı elini və Qarabağın sair elatını köçürməyə məcbur etdi. Özü isə, topxana və sərbazla Sultan Bud səngəri üzərinə gəldi. Burada qarabağlı Mehdiqulu xanla bir rus batalyonu var idi. Bunları məğlub edib bir çoxunu öldürdü və sağ qalanlarını əsir aldı. Mehdiqulu xan isə qaçıb qurtardı.

Əmir xan və Cəfərqulu ağa beş-altı min ailəni Arazdan keçirib, Naibüssəltənə ilə birləşdilər. Naibüssəltənə Qarabağ elatını yerbəyer edib, Qarabağ kəndlərinin hökumətini xanlıq ləqəbilə Cəfərqulu ağaya verdi [2, s.229]. Daha sonra 1812-ci ildə baş verən hadisələri təsvir edən zaman da müəllif Qarabağ əhalisinin demoqrafik vəziyyətinə toxunur və qeyd edir ki, Abbas Mirzə ilə Rusiyanın yeni sərdarı Rtişşev arasında danışıqlar baş tutmur və Naibüssəltənə “Sadıq xan Qacarı və Cəfərqulu ağanı, eli köçürtmək üçün Qarabağa göndərdi” [2, s.231], lakin “general Kotlyarovski Muğana gedib, burada olan Qarabağ elatını geri qaytardı” [2, s.231]. Təəssüflə qeyd etmək lazımdır ki, əsərdə Qarabağ xanlığının etnik tərkibi, demoqrafik vəziyyəti ilə bağlı məlumatlar yetərli şəkildə öz əksini tapmayıb.

Qarabağ xanlığının, eləcə də digər xanlıqların Gülüstan sülh müqaviləsi ilə Rusiya tərəfindən işğalından bəhs edən müəllif bu problemlə bağlı sadəcə bunları yazır: “Qarabağın Gülüstan adlı yerində, hicri 1228-ci (=1813) ildə, təşrini əvvəl (oktyabr) ayının 12-də, Rusiya ilə İran dövlətləri arasında əhdnamə bağlandı. Bu əhdnaməyə görə İran dövləti Gəncə, Qarabağ, Talış, Şəki, Şirvan, Bakı, Quba, Dərbənd xanlıqlarını, bütün Dağıstanı, Gürcüstanı və ona həmhüdud olan ölkələri Rusiya dövlətinə tərk etdi” [2, s.231].

A.Bakıxanov “Gülüstani-İrəm” əsərinin nəticə hissəsində “təlifat sahibi və ya başqa bir məziyətə malik şəxslərin tərcüməyi halları haqqında” məlumat verərkən özü də qeyd edir ki, “ölkənin vilayətlərini müstəqil surətdə öz ixtiyarla-

rına keçirmiş olan xanlar da mütəmadi müharibə nəticəsində maarifi inkişaf etdirməyə və rəiyyətlərinin halını yaxşılaşdırmağa müvəffəq ola bilmədilər" [2, s.233]. Lakin bununla yanaşı müəllifin əsərdə verdiyi məlumatar əsasında Qarabağın bir sıra görkəmli şəxsiyyətləri, mədəni mühiti haqqında da müəyyən biliklər əldə etmək mümkündür. Məsələn, Gəncə şəhərində N.Gəncəvinin türbəsinin "Qarabağnamələr"in müəlliflərindən biri olan Mirzə Adıgözəl bəy tərəfindən təmir edilməsindən bəhs edən müəllif yazır: "Gəncənin yaxınlığında gözəl bir türbəsi vardır. Xarabalığa üz tutmş olan bu türbənin bəzi yerlərini, Qarabağda yaşayan qazaxlı Mirzə Adıgözəl indi təmir etməkdədir" [2, s.236].

Mövlana Şeyx Molla Yusif Müskürünin babalarının Qubanın Müskür nahiyəsinə Qarabağdan gəldikləri haqqında məlumat verən müəllif, eyni zamanda onun ərəb dilində yazılan "Bəyanül əsrar" əsərinin bir müqəddimə, 24 fəsildən ibarət olmasını və geniş mövzuları müxtəsər surətdə izah etməsini bildirir [2, s.246].

"Divan"ı günümüzə gəlib çatmayan Müsahib Gəncəvədən bəhs edən müəllif onun Gəncə və Qarabağ bəylərbəyi Ziyad oğlu Kəlbəli xan olduğunu qeyd edir [2, s.248-249].

A.Bakıxanov "Elm aləmində görkəmli yer tutan" fəzilət sahibləri arasında "ülamə sinfindən: bərdəli Sədulla, qarabağlı Hənifə"dən bəhs edərkən onların elm və təqrirdə çox tanınmış simalardan" olduqlarını, "şairlərdən Molla Pənah Vaqif, qarabağlı mirzə Məhərrəm Məriz" barəsində "təblərinin gözəlliyi ilə məşhur" olduqlarını [2, s.253] qeyd edir.

Bələliklə, yekun olaraq bildiririk ki, ölkədə başlanan hərbi-siyasi tənəzzül dövründə meydana gəlmiş Azərbaycan xanlıqları əsrin sonlarından özlərinin siyasi varlıqlarını qorumaq üçün çətin bir mübarizəyə qoşuldular. Bir tərəfdən daxili siyasi çəkişmələr, digər tərəfdən yadelli hücumları Azərbaycan xanlıqlarının siyasi mövcudluğunu təhlükə altına aldı. Xanlıqlar arasında gedən mübarizələr ölkədə iqtisadiyyatın çökməsinə gətirib çıxartdı ki, bütün bunlar son nəticədə Azərbaycan ərazisinin coğrafi baxımdan Qacarlar dövləti və çar Rusiyası arasında parçalanması ilə nəticələndi.

Qacarlar İranı və Rusiya imperiyası Azərbaycanı öz aralarında qanlı müharibələr meydanına çevirdilər. Gülüstan və Türkmənçay müqavilələrinə əsasən Azərbaycan iki imperiya arasında bölüşdürüldü: Ölkənin şimali (Şimali Azərbaycan) Rusiyaya, cənubu (Cənubi Azərbaycan) isə Qacarlar İranına qatıldı. Bununla Azərbaycan torpaqları kimi, Azərbaycan xalqı da iki hissəyə parçalandı. Nəticədə Azərbaycan xalqının şimalda ruslaşdırılması, cənubda isə farslaşdırılması dövrü başlandı. Xalq həm şimalda, həm də cənubda işğalçılara qarşı azadlıq mübarizəsi tarixinə qədəm qoydu [8, s.15]. Təəccüblü görünməsə də, təəssüflə qeyd etmək lazımdır ki, tarixi torpaqlarımız olan Qarabağ uğrunda Azərbaycanın bu gün də davam edən haqq savaşında bu dövlətlər hələ də ikili standart yeridir və əsasən erməni tərəfindən çıxış edirlər. Bu isə xalqımızın işğalçılara qarşı milli azadlıq mübarizəsi əzmini daha da qüvvətləndirir.

## Ədəbiyyat siyahısı


1. *Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək). Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1994, s.532, 687 s.*
2. *Bakıxanov A.A. Gülüstani-İrəm., Bakı, 2001, s.184*
3. *Əliyev M. Şimali Azərbaycanın Rusiya tərəfindən işğalının tarixşünaslığı. B., 2001. Adiloğlu, 316 s.,s.38*
4. *Əsədov F., Kərimova S. Çaarizmi Azərbaycana gətirənlər. Bakı, "Gənclik", 1993, 144 s., s.12*
5. *Hüseynov Y. Qarabağ tarixi mənbələrdə. Bakı, "Şuşa" nəşriyyatı, 2012, 248 s., s.10*
6. *Исмаилов Э. Очерки по истории Азербайджана. М., 2010, с.148*
7. *Qarabağ. Real tarix, faktlar, sənədlər. Təhsil nəşriyyatı, Bakı, 2009, 144 s., s.25*
8. *Mahmudov Y. Azərbaycanlılar (etnik-siyasi tarixə ümumi baxış). Bakı, 2008, "Azpoliqraf", 64 s.*
9. *Mirzə Adıgözəl bəy. Qarabağnamə // Qarabağnamələr. I kitab, Bakı, "Yazıçı", 1989, s.52*
10. *Mirzə Camal Cavanşir Qarabaği. Qarabağ tarixi // Qarabağnamələr. I kitab,. Bakı, "Yazıçı", 1989, 192 s. s.110-111).*
11. *Mustafazadə T. Azərbaycan xanlıqlarının qısa tarixi. Bakı, 2011, 388 s., "Victori nəşriyyat-poliqrafiya mətbəəsi", s.75*
12. *Piriyev V. Azərbaycanın tarixi-siyasi coğrafiyası. Bakı, 2002, "Araz" nəşriyyatı, 152 s., s.101*

**UOT 94 (479.24); 930:314**

# XIX ƏSRDƏ BAKI ŞƏHƏRİNİN İNZİBATİ-ƏRAZİ BÖLGÜSÜ

**ASƏF HACIYEV**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, tarix üzrə fəlsəfə doktoru*
*asafhajiyev@rambler.ru*

*Məqalədə XIX əsrdə Bakı şəhərinin inzibati-ərazi bölgüsü ilə yanaşı. 1806-cı ildə Rusiyanın Bakı xanlığını işğal etməsindən sonra çarizmin idarəçilik sistemində apardığı dəyişikliklər nəticəsində xanlıq idarə üsulunun ləğv edilməsi və nəticədə komendant idarə üsulunun yaradılması araşdırılır. Məqalədə, həmçinin 1840-cı ildə komendant idarə-üsulunun ləğvindən sonra Şamaxı quberniyasının yaradılması, Bakı qəzasının bu quberniyanın tərkibinə daxil edilməsi, 1859-cu ildə mərkəzi Bakı şəhəri olmaqla Bakı quberniyasının yaradılması, eyni zamanda çar Rusiyasının Azərbaycana, xüsusilə Bakı şəhərinə "özünə xristian dayağı" yaratmaq məqsədi ilə ermənilərin və rusların köçürülməsi məsələsinə də toxunulur.*
***Açar sözlər:*** *Azərbaycan, Rusiya, Bakı, şəhər, qəza, quberniya, köçürmə*

## *THE ADMINISTRATIVE-TERRITORIAL DIVISION OF THE CITY OF BAKU IN THE 19th CENTURY*

*The article deals with the administrative-territorial division of the city of Baku in the 19th century. After Russia's occupation of the Baku Khanate in 1806, as a result of the changes made by the Tsarism in the management system, the cancellation of the khanate ruling system and the creation of the commandant management method are investigated. The article examines the creation of Shamakhi governorate after the abolition of the commandant administration in 1840, the inclusion of Baku district into this governorate, and the creation of Baku governorate in 1859 with Baku as its center. At the same time, the issue of resettlement of armenians and russians in order to create a "Christian support" for Tsarist Russia in Azerbaijan, especially in the city of Baku, was studied.*
***Keywords:*** *Azerbaijan, Russia, Baku, city, district, governorate, resettlement*

**Giriş.** Bakı şəhərinin XIX əsrdə inzibati-ərazi bölgüsünü işıqlandırmaqla yanaşı, şəhərin salınma tarixi, onun adının meydana gəlməsi, XVIII əsrdə Bakı xanlığının yaranması və süqutu, Azərbaycanın Rusiya və Qacarlar İranı tərəfindən işğalı və ölkə ərazisinin iki hissəyə parçalanması, həmçinin işğaldan sonra özünə "xristian dayağı" yaratmaqla çar Rusiyasının həyata keçirdiyi köçürmə siyasəti nəticəsində rusların və ermənilərin Azərbaycana, xüsusilə Bakıya köçürülməsi məsələsinə aydınlıq gətirilmişdir. Abşeron yarımadasının cənubunda, Xəzər dənizinin qərb sahilində, Avropa və Asiyanın kəsişməsində yerləşən Bakı təkcə Azərbaycanın deyil, həm də bütün Yaxın Şərqin qədim şəhərlərindən, siyasi, iqtisadi və mədəniyyət mərkəzlərindən biri hesab edilir. Sahəsi 2,14 kv. km, əhalisi isə 2022-ci ilin əvvəlinə olan məlumata əsasən, 2.303.100 nəfər (1.144.325 nəfər kişi, 1.158.775 nəfər qadın) olan Bakı şəhərinin tərkibinə 12 inzibati rayon, o cümlədən 59 kənd və qəsəbə daxildir. Bakının əhali sayına görə ən böyük rayonu Xətai (289.900 nəfər), Pirallahı isə ən kiçik inzibati rayonu hesab edilir (20.600 nəfər).

Bakı şəhərinin yaranması barədə məlumatın azlığı onun arxeoloji baxımdan, həmçinin mənbələrin qıtlığı səbəbindən indiyədək zəif öyrənilməsi ilə bağlıdır. Ərəb və fars coğrafiyaşünasları (X-XIV əsrlər) Azərbaycanın bir sıra şəhərlərinin əsasının qoyulmasını V-VI əsrlər Sasani şahlarının adına yazsalar da, Bakının yaranması barədə demək olar ki, heç bir məlumat vermirlər. Sonrakı müəlliflər - XVII əsrin Osmanlı səyyahı Övliya Çələbi heç bir mənbəyə istnad etmədən Bakı şəhərinin təməlinin qoyulmasını Əhəməni şahı Daranın, XVIII əsrin sonu XIX əsrin əvvəllərində yaşamış Azərbaycan səyyahı Zeynalabdin Şirvani (1780-1838) isə Sasani şahı Ənuşirəvanın (VI əsr) adına yazırlar [1, səh. 38]. Lakin Bakı şəhərinin yaranma tarixini araşdırarkən Abşeron yarımadasının qədim zamanlardakı həyat şəraiti və məskunlaşmanın, həmçinin arxeoloji materialların əhəmiyyətinin böyük rol oynadığını görürük. Belə ki, Bayılda aşkara çıxarılan Tunc dövrünə aid qaya rəsmləri, İçəri şəhər ərazisində tapılmış tunc balıq fiquru, Şirvanşahlar sarayındakı qayada Qobustandakı oyuqlara bənzər oyuqlar və içərisinə saxsı qablar qoyulmuş qəbirlər olan islamaqədərki çoxtəbəqəli qəbirstanlıq Bakı ərazisində Tunc və antik dövrlərdə yaşayış məskəninin mövcud olduğunu göstərir. İçəri şəhərdə antik dövrün böyük şəhər binalarının sütun bazarlarına oxşayan iki altlığın tapılması da köhnə Bakı qalasını antik dövr şəhəri hesab etməyə və onun yaşını iki min ildən çox müəyyənləşdirməyə imkan verir [1, səh. 40]. Lakin hesab etmək olar ki, Bakının daha erkən yaranma tarixi var və bu tarixi dəqiqləşdirmək üçün isə bu ərazidə arxeoloji tədqiqatların davam etdirilməsi çox vacibdir.

Bakı şəhərinin adının meydana gəlməsi ilə bağlı məlumatı diqqətə çatdırarkən əvvəla onu qeyd etmək lazımdır ki, şəhərin adına ilk dəfə V-VIII əsr mənbələrində Baqavan, Atli (Atşi), Baqavan və Atşi (Atəşi)-Baquan kimi rast gəlirik. Bir sıra müəlliflərin fikrincə bu ad altında Bakı nəzərdə tutulur. “Baqavan” toponimi Hind-Avropa dillərinin bir çoxunda “allah”, “günəş” mənalarını bildirən “baqa” kökündən ibarətdir və Sanskrit dilində “bhaqa”- günəş, ay, Siva (ilahə) mənalarını verir. Avesta və qədim İran dillərində “baqa” allah mənasında işlənilir. “Baqa” sözünə “allah” mənasında e.ə. VI əsrdə Bisitun mixi kitabələrində, həmçinin böyük, ilahə, allah mənalarında qədim türk dillərində də rast gəlinir [7, səh. 43-44].

Cənubi Qafqaz ölkələrinin ərəblər tərəfindən istilasından sonra, IX-X əsrlərdə ərəb müəlliflərinin istila olunmuş ölkələrdən bəhs edilən və ən mühüm şəhərlərinin siyahısı verilən bir sıra tarixi-coğrafi əsərləri meydana gəldi. Digər orta əsr mənbələrinin tədqiqi zamanı ərəb müəlliflərinin Bakının adını düzgün ifadə etdiklərini təsdiqləyir. Bakının X əsrə aid ən erkən yazılış formasında əl-İstəxri 930-cu ildə - Bakuh, əl-Məsudi 943-944-cü ildə - Bakuyə, əl-Müqəddəsi 985-ci ildə Bakuh kimi qeyd edirdilərsə, XI əsrdə əl-Biruni - Bakuh, XII əsrdə Xaqani Şirvani, XIII əsrdə Nəsirəddin Tusi, XIV əsrdə Rəşidəddin Baku kimi, XV əsrdə Bakuvi - Bakuyə kimi, XVII əsrdə Həsən bəy Rumlu, Övliya Çələbi isə - Baku kimi göstərirlər [7, səh. 48-49]. XVI-XVII əsrlərdən etibarən bir sıra yerli və fars mənbələrində “Baku”nun qədim formasından fərqlənən yeni yazı-

lışı - “Badukubə” meydana çıxır [7, səh. 48]. “Badukubə” sözü fars dilində bad-külək, kubə-vurmaq, döymək sözündən əmələ gəlib ki, bu da külək döyən, külək tutan yer anlamını verir. Bu adın Bakının şimal küləyinə (xəzri) məruz qalması ilə bağlı meydana gəldiyi bildirilir. Rus mənbələrində isə Bakının adı “Baka” kimi göstərilir. Nəhayət azərbaycanlılar, o cümlədən Abşeron əhalisi öz şəhərlərini Bakı (i) adlandırırlar. X-XVII əsrlər ərəb, Qərbi Avropa, rus coğrafiyaşünas və səyyahlarının əsərlərinə diqqət yetirərkən Bakı şəhərinin adının - Bakuh, Bacu, Bachu, Bakhov, Baca, Bakuie və Backu kimi yazılışını görürük [7, səh. 49].

Beləliklə, yazılı mənbələr, xəritələr, kitabələr və numizmatik tapıntılar göstərir ki, “Bakı” sözünün ən erkən və geniş yayılmış forması (Baku) və onun tez-tez xüsusi adlara və vilayət, şəhər yaxud yaşayış məntəqəsi anlamını bildirmək üçün mücərrəd mənalı isimlər əlavə edilən (yə) və (h) şəkilçiləri qoşulmaqla əmələ gələn variantlardır-məsələn Baku-Bakuyə. Bakı-Baku adının çağdaş yazılışı özünün qədim formasına tam uyğun olaraq - Baqavan toponimindən Atşi-Baqavan, Atşi-Baquan, Baku, Bakuh, Bakuyə, Badukubə, Badku, Baku, Bakı toponimilərinədək dəyişmə yolu keçərək xalq etimologiyasıinın təsiri altında yeni, indiki Bakı formasını almışdır.

XVIII əsrin ortalarında Nadir şahın ölümündən sonra Azərbaycan ərazisində 19 xanlıq yarandı ki, onlardan biri də Bakı xanlığı idi. Eni 30-40, uzunluğu 75 verst olan [5, səh. 42] xanlığın əsasını Dərgahqulu bəyin oğlu 1727-ci ildə Bakıda anadan olan Mirzə Məhəmməd xan (1747-1768) qoyur [7, səh. 274]. I Mirzə Məhəmməd xanın dövründə mərkəzi Bakı şəhəri olan Bakı xanlığına 39 kənd daxil idi (Maştağa, Nardaran, Bilgəh, Buzovna, Mərdəkan, Türkan, Kürkənd, Zirə, Qala, Hövsan, Ramana, Zabrat, Məhəmmədi, Digah, Fatmayi, Görədil, Pirşağı, Kürdəxanı, Keşlə, Əhmədli, Zığ, Əmircan, Bülbülə, Sabunçu, Binəqədi, Masazır, Novxanı, Şağan, Saray, Corat, Şüvəlan, Güzdək, Qobu, Xocahəsən, Biləcəri, Pirəkəşkül, Suraxanı, Balaxanı, Bibiheybət). İnzibati, maliyyə, hərbi və məhkəmə xanın əlində cəmləşirdi. Azərbaycanın digər xanlıqlarında olduğu kimi, Bakı xanlığında da divan və yaxud divanxana fəaliyyət göstərirdi. Divanxanada qeyri-məhdud hüquqa malik olan yüksək vəzifəli şəxslər rəhbərlik edirdilər. Vəzir xanın yaxın köməkçisi olmaqla, ən yaxın, sədaqətli və inanılmış adamlardan təyin edilirdi. Xanlıqda kəndxudaların və yüzbaşıların tabe olduğu naib vəzifəsindən əlavə qalabəyi, darğa və başqa vəzifələr mövcud idi. Bakı xanlığında bütün hakimiyyət, torpaqlar, yeraltı və yerüstü sərvətlər xana və onun ailə üzvlərinə məxsus idi.

1768-ci il oktyabrın 17-də Bakıda vəfat edən I Mirzə Məhəmməd xanın Hacı Əliqulu ağa, Hacı Məlik Məhəmməd xan və Məhəmmədqulu xan adlı üç oğlu vardı. I Mirzə Məhəmməd xandan sonra xanlıq taxtı onun ikinci oğlu Hacı Məlik Məhəmməd xana (1768-1784) keçdi [7, səh. 275]. (Qeyd: A.Bakıxanov Gülüstani-İrəm əsərində (səh.69) Məlik Məhəmməd xanın hakimiyyətinin sonunu səhvən 1781-ci il hesab edir). Məlik Məhəmməd xanın hakimiyyəti dövründə Bakı xanlığı Şimal-Şərqi Azərbaycan torpaqlarını Quba xanlığı ətrafında

birləşdirmək uğrunda mübarizə aparan Fətəli xan tərəfindən asılı vəziyyətə düşdü və müstəqilliyini itirdi. Fətəli xan məqsədinə çatmaq üçün bacısı Xədicə Bikəni Bakı xanı Məlik Məhəmməd xana ərə verdi. Məlik Məhəmməd xanın vəfatından sonra onun oğlu II Mirzə Məhəmməd Bakı xanı oldu (1784-1791) [2, səh. 69]. 1789-cu ildə Fətəli xanın ölümündən sonra Quba xanlığına birləşdirilmiş Bakı xanlığı müstəqilliyini bərpa edir. Bundan sonra xanlıqda hakimiyyət uğrunda II Mirzə Məhəmməd xanla əmisi Məhəmmədqulu xan arasında mübarizə başlayır. Quba xanlığından kömək alan Məhəmmədqulu xan qalib gələrək özünü xan elan edir (1791-1792). Onun ölümündən sonra (1792) Bakı xanlığında hakimiyyət uğrunda yenidən mübarizəyə başlandı. Bu mübarizədə qalib gələn Məhəmmədqulu xanın qardaşı oğlu Hüseynqulu xan hakimiyyəti ələ aldı (1792-1806) [7, səh. 280]. Hüseynqulu xanın dövründə Azərbaycanın beynəlxalq vəziyyəti çox mürəkkəb idi. Belə ki, Ağa Məhəmməd şah Qacar Azərbaycana hücuma hazırlaşdığı bir vaxtda çar Rusiyası da Xəzərsahili vilayətləri, o cümlədən Bakı xanlığını tutmağa çalışırdı. Belə bir şəraitdə hakimiyyətini qorumağa çalışan Hüseynqulu xan Rusiyanın himayəsini qəbul etdi və II Yekaterina 1793-cü il aprelin 19-da bu barədə fərman verdi. II Yekaterinanın general Qudoviçə verdiyi bu fərmanında Rusiyanın təbəəliyinə keçmək istəməyən xanlar barədə təhdid ifadə olunurdu. II Yekatrina I Pyotr kimi Cənubi Qafqaz ölkələrindən keçən karvan ticarəti yollarına yiyələnmək və Astrabad vasitəsilə İran və Hindistanla birbaşa ticarət əlaqələri yaratmaq məqsədilə Azərbaycan xanlıqlarını, xüsusilə Bakı xanlığını zəbt etmək istəyirdi [7, səh. 281]. Lakin Ağa Məhəmməd şah Qacarın 1795-ci ildə Azərbaycana yürüşü zamanı bu əlaqələr kəsildiyindən Bakı xanı bir müddət sonra Rusiyanın təbəəliyini qəbul etmək üçün öz elçisini yenidən bu buraya göndərir. Xanın xahişini nəzərə alan II Yekaterina 1796-cı ildə Rusiya qoşunlarını Azərbaycana göndərir və Hüseynqulu xan yenidən Rusiyanın himayəsini qəbul edir. Onun rus təbəəliyinə qəbul edilməsi haqqında bəndlərdə deyilirdi: 1. Xanın və onun varislərinin xanlıq rütbəsi imperator Əlahəzrətləri tərəfindən təsdiq olunmalıdır. 2. Rusiya tacirlərinə yüksək imtiyazlar verilməlidir. 3. O, Rusiyanın təbəəsi olmayan qonşu məliklərlə Qafqaz xəttinin baş komandanı ilə əvvəlcədən razılaşdırılmadan heç bir mühüm məsələdə əlaqəyə girməməlidir və s. [1, səh. 292]. Lakin II Yekaterinanın 1796-cı ilin noyabrın 6-da ölümündən sonra onun oğlu I Pavel (1796-1801) taxta çıxan kimi rus qoşunlarının Cənubi Qafqaza yürüşünü dayandırdı. Rus qoşunlarının Azərbaycandan çıxmasından xəbər tutan Ağa Məhəmməd şah Qacar 1797-ci ilin yazında Qarabağa və Gürcüstana yürüşə başladı [1, səh. 295]. Şuşa qalasını maneəsiz tutan şah Qacar Bakı xanını Şuşaya çağırdı. Lakin Ağa Məhəmməd şah Qacar gəlməkdən boyun qaçıran Hüseynqulu xanın arxasınca çapar göndərərək onu zorla yanına gətizdirdi. O, Bakını rus qoşunlarına tabe etməsinə görə Hüseynqulu xanı həbs etdirərək Tehrana göndərməyi və Bakının Şeyxəli xanın tabeliyinə verilməsi barədə fərman hazırlamağı tapşırdı. Ertəsi gün, yəni 1797-ci ilin mayın 12-də Ağa Məhəmməd şah Qacar qətlə yetirildi. Bu hadisədən sonra Bakı xanı Hüseynqulu xan Bakıya qayıdaraq haki-

miyəti yenidən ələ aldı. Ağa Məhəmməd şah Qacarın 1797-ci ildə ölümündən sonra hakimiyyəti ələ alan Fətəli şah və Rusiya çarı I Aleksandr (1801-1825) Azərbaycanı, o cümlədən Bakı xanlığını tutmağa çalışırdı. Rusiyanın daha güclü olduğunu nəzərə alan Hüseynqulu xan 1803-cü ildə Rusiyanın himayəsini qəbul etdi [1, səh. 299]. Lakin çox keçmədən Bakı və Şamaxı əyanlarının təzyiqi ilə Hüseynqulu xan Rusiyanın himayəsindən boyun qaçırmağa məcbur oldu. Vəziyyətin bu cür davam etdiyini görən General Sisiyanov Bakı xanlığının Rusiyanın tabeliyinə keçməsi haqqında müqavilə layihəsini Hüseynqulu xana göndərdi. Bu layihəyə görə, xanlığın ərazisi Rusiyaya birləşdirilməli, xanlığın bütün gəlirləri çar xəzinəsinə göndərilməli, xan özü isə ildə 10 min manat maaş almalı idi. Müqaviləyə görə şəhərin xüsusi qaydalar əsasında idarə olunması ilə yanaşı, xarici siyasət və hərbi məsələlərdə də xan Qafqazdakı rus qoşunlarının baş komandanlığının sərəncamlarına tabe olmalı idi. Hüseynqulu xan Sisiyanovun şərtlərini qəbul etdiyini və Sisiyanovla görüşmək, şəhərin açarlarını ona təqdim etmək niyyətində olduğunu bildirdi. 1806-cı il fevralın 8-də Hüseynqulu xan şəhərin açarlarını Sisiyanova təqdim edərkən Sisiyanov xanın bibisi oğlu İbrahim bəy tərəfindən öldürülür [2, səh. 77]. Bundan sonra rus qoşunları Bakıdan çıxarılır. Lakin 1806-cı il iyunun 21-də Dərbənd işğal edildikdən sonra rus qoşunları general Bulqakovun başçılığı ilə yenidən Bakıya hücum edir. Müqavimətin mənasız olduğunu görən Hüseynqulu xan əvvəl Qubaya, oradan da İrana getməyə məcbur oldu. 1806-cı il oktyabrın 3-də isə Bakı rus qoşunları tərəfindən işğal olundu. Azərbaycanın şimal torpaqları, o cümlədən Bakı xanlığı Rusiyanın hakimiyyəti altına düşdü [8, səh. 8].

XVIII əsrin sonlarında Azərbaycan ərazisinin Rusiya və Qacarlar İranının hücumuna məruz qalması ölkənin gələcək taleyinə və tarixi-siyasi coğrafiyasına çox ciddi mənfi təsir göstərmiş oldu. Məhz bu dövrdə hökm sürən feodal pərakəndəliyi son nəticədə Azərbaycan torpaqlarının parçalanmasına-Rusiya ilə Qacarlar İranı arasında bölünməsinə gətirib çıxardı [5, səh. 44]. Belə ki, XIX əsrin əvvəllərində Qacarlar İranı ilə Rusiya arasında gedən 1-ci müharibə (1804-1813) 1813-cü il oktyabrın 12-də Gülüstan müqaviləsi ilə başa çatdı. 1814-cü ilin sentyabrın 15-də qüvvəyə minmiş həmin müqavilənin şərtlərinə görə, Azərbaycanın 7 xanlığının ərazisi - Qarabağ, Gəncə, Quba, Şəki, Şirvan, Lənkəran və Bakı xanlıqlarının, həmçinin Şərqi Gürcüstan və Dağıstan əraziləri Rusiya tərəfindən işğal edildi. Eyni zamanda Rusiya Xəzərdə hərbi donanma saxlamaq hüququna yiyələndi. Rus tacirləri isə İranda daxili gömrükdən azad olundu. Həmçinin bu müqaviləyə görə, Rusiyaya 20 mln. gümüş pulla təzminat verildi, Abbas Mirzə vəliəhd kimi tanındı, dövlətlər arasında isə səfarətxanalar açıldı. Rusiya və Qacarlar İranı arasında bağlanmış Gülüstan müqaviləsi ilə Azərbaycan torpaqlarının parçalanmasının əsası qoyulmaqla yanaşı, Azərbaycan xalqı iki yerə bölündü [5, səh. 52]. Azərbaycanın iki yerə ayrılması tarixi ədəbiyyatlarda şərti olaraq Cənubi Azərbaycan (İran Azərbaycanı) və Şimali Azərbaycan (Rusiya Azərbaycanı) kimi terminlərin işlədilməsinə səbəb oldu. 1826-1828-ci illərdə gedən 2-ci Qacarlar İranı ilə Rusiya müharibəsi isə 1827-

ci il noyabrın 7-də Təbriz yaxınlığında Türkmənçay kəndində bağlanmış və 1828-ci il fevralın 10-da eyni adla qüvvəyə minmiş müqavilə Azərbaycan torpaqlarının iki yerə parçalanmasını bir daha qanuniləşdirdi. Belə ki, bu müqavilə ilə 1813-cü il Gülüstan müqaviləsinin şərtləri təsdiq olunmaqla yanaşı Naxçıvan xanlığı, Ordubad dairəsi və İrəvan xanlığının əraziləri də Rusiya tərəfindən işğal edildi. Həmçinin Xəzər dənizi Rusiyanın daxili dənizi hesab edildi. Beləliklə, Gülüstan və Türkmənçay müqavilələri nəticəsində Azərbaycanın təxminən 400 min kv.km ərazisinin 280 min kv.km-dən çox hissəsi Qacarlar İranı, 114 min kv.km ərazisi isə Rusiya tərəfindən ilhaq edildi [5, səh. 52]. Bundan sonra Azərbaycanın cənub və şimalında müxtəlif inzibati-idarə üsulu tətbiq edilərək həmin dövlətlərin idarə üsuluna uyğun dəyişikliklər aparıldı.

Türkmənçay müqaviləsinə görə, Qacarlar İranının işğalı altına düşən Cənubi Azərbaycanın ərazisi ölkənin 4 əyalətindən birini təşkil edirdi. Azərbaycan əyalətinə ilk vaxtlarda cənubda Həmədan, cənubi-şərqdə Zəncan və Qəzvin mahalları da daxil idi. Sonralar Azərbaycan əyalətinin inzibati sərhədləri kiçildilmiş və 1905-ci ildə qəbul olunmuş nizamnaməyə görə, bu əyalət Təbriz, Urmiya, Xoy, Deyləman, Maku, Marağa, Binab, Miyandaab, Savucbulaq, Dehxarqan, Mərənd, Əhər, Ərdəbil, Mişkin, Astara, Xalxal, Sarab, Miyanə və Sainqala mahallarını birləşdirirdi. Daha sonralar isə yəni, 1984-cü ildə qəbul olunmuş Qacarlar İranının rəsmi inzibati - ərazi bölgüsünə əsasən, Cənubi Azərbaycan adlandırdığımız əraziyə Şərqi Azərbaycan (mərkəzi Təbriz), Qərbi Azərbaycan (mərkəzi Urmiya) və Zəncan (mərkəzi Zəncan) ostanları daxil edilir (Ostan - İranın ən böyük inzibati-ərazi vahididir. Vilayət və ya böyük ərazi mənasında işlənir). Qeyd edək ki, 142.350 kv.km sahəni tutan Cənubi Azərbaycan ərazisi Qacarlar İranı ərazisinin təxminən 9%-ni təşkil edirdi [5, səh. 53]. XIX əsrin sonlarında Qacarlar İranında azərbaycanlıların sayı 2 mln.-a yaxın idi. Bu da azərbaycanlıların bu ərazidə say etibarilə farslardan sonra ikinci yerdə olmalarını göstərirdi. Onların 1 mln.-u kənd əhalisindəm, 500 mini şəhər əhalisindən, 500 mini isə yarımköçərilərdən ibarət idi. XX əsrin ortalarında Qacar İranındakı azərbaycanlıların sayı 16-18 mln. (ümumi əhalinin 32-33%-i) təşkil edirdi ki, bunlarında 7-9 mln.-u Cənubi Azərbaycan ərazisində məskunlaşmışdır. XX əsrin 90-cı illərində aparılmış siyahıyaalmalara görə, İranda 28.315 min azərbaycanlı yaşamışdır. Onların təxminən 20 mln.-u Cənubi Azərbaycanda, qalanı isə İranın digər ərazilərində məskunlaşmışdır [5, səh. 53].

Çar Rusiyası tərəfindən işğal edilmiş Azərbaycan xanlıqlarının bəzilərində - Qarabağ, Şəki və Şamaxı xanlıqlarında xanlıq idarə üsulu bir müddət saxlanılsada, digər Gəncə, Quba və Bakı xanlıqlarında isə xanlıq idarə üsulu ləğv edildi. Keçmiş xanlıq və sultanlıqlar ilk dövrlərdə əyalətlərə və dairələrə çevrildi. Belə ki, Bakı 1808-ci ildə, Quba 1810-cu ildə, Şəki 1819-cu ildə, Şirvan 1820-ci ildə, Qarabağ 1822-ci ildə, Talış 1826-cı ildə əyalətə, Yelizavetpol 1804-cü ildə, Car-Balakən 1812-ci ildə dairəyə, Qazax və Şəmşəddil isə 1812-ci ildə distansiyaya çevrildi. Əyalət və dairələr çar zabitləri tərəfindən idarə olunduğundan bu komendant idarə üsulu adlanırdı. Əyalətlər xanlıqlar dövrün-

də olduğu kimi, mahallara bölünürdü və naiblər tərəfindən idarə edilirdi [5, səh. 53].

1840-cı ildə komendant idarə-üsulu ləğv edilərək əvəzinə qəzalar təşkil edildi. Ön Qafqaz Gürcüstan-İmeretiya quberniyasına və Kaspi vilayətinə bölündü. Şimali Azərbaycan torpaqlarının əksəriyyəti - Bakı qəzası (Bakı əyaləti) ilə yanaşı, Şamaxı (keçmiş Şirvan əyaləti), Şuşa (Qarabağ əyaləti), Nuxa (Şəki əyaləti), Lənkəran (Talış əyaləti), Dərbənd (Dərbənd, Tabasaran və Qaraqaytaq əyalətləri) və Quba (Samur dairəsi ilə birlikdə Quba əyaləti) olmaqla 7 qəza yaradılaraq 1841-ci il yanvarın 1-də təsis edilmiş Kaspi vilayətinə (mərkəzi Şamaxı şəhəri) daxil edildi. Qəzalar isə öz növbəsində nahiyələrə bölünürdü. Qeyd edək ki, həmin dövrdə Azərbaycanda cəmi 32 nahiyə yaradılmışdı. Beləliklə Bakı qəzaya çevrilir.

Kaspi vilayəti 1846-cı ilin dekabrında ləğv edilir və Şamaxı quberniyası yaradılır. Bakı qəzası isə bu quberniyanın tərkibinə daxil edilir. 1859-cu ildə quberniyanın mərkəzi şəhəri olan Şamaxıda güclü zəlzələ baş verdiyindən bu quberniya mərkəzi Bakı olmaqla Bakı quberniyası adlandırılır. Bakı quberniyasına həmçinin Xəzər dənizindəki adalar- Böyük Zirə (Nargin), Daş Zirə (Vulf), Pirallahı (Artyom), Çilov (Jiloy) adaları da daxil edilir. 1860-cı ildə Dərbənd quberniyası ləğv edildiyindən Quba qəzası da Bakı quberniyasının tərkibinə qatılır. 1867-ci ildə Şuşa və Nuxa qəzaları Bakı quberniyasından çıxarılaraq Yelizavetpol quberniyasının tərkibinə daxil edilir. Həmçinin Bakı quberniyasının tərkibində 1867-ci ildə Göyçay, 1868-ci ildə isə Cavad qəzaları yaradılır. 1888-ci il 10 may tarixli qərara əsasən Bakı qəzası üç məntəqəyə - Balaxanı-Sabunçu, Maştağa, və Saray məntəqələrinə bölünür [5, səh. 54]. Sonralar, yəni 1906-cı ildə Bakı qəzasının ərazisi 2 yerə ayrıldı. Bakı qəzasının tərkibində yalnız kənd icmaları qaldı. Şəhərdaxili ərazilər isə müstəqil inzibati vahidə çevrildi. Bakı qəzası 1929-cu ildə, Bakı quberniyası isə bundan öncə, yəni 1920-ci ildə ləğv edilmişdir.

Beləliklə, XIX-XX əsrin əvvəllərindəki inzibati - ərazi bölgüsünü 4 mərhələ üzrə ümumiləşdirmək olar [5, səh. 54]:

1.Azərbaycanın XIX əsrin əvvəllərindəki inzibati bölgüsü.

2. Azərbaycanın 1840-cı ildəki inzibati bölgüsü.

3. Azərbaycanın 1846-1860-cı illərdəki inzibati bölgüsü.

4. Azərbaycanın 1868-1917-cı illərdəki inzibati bölgüsü.

XIX əsrin ilk rübündəki Qacarlar İranı ilə Rusiya arasında gedən müharibələr (1804-1813, 1826-1828) Azərbaycanın təsərrüfat həyatına ziyan vurmaqla yanaşı, əhalinin azalmasına və eyni zamanda ölkəyə erməni-rus axınının baş verməsinə səbəb oldu. Lakin Bakı şəhər əhalisinin sayı XIX əsrin ikinci yarısından etibarən daha sürətlə artmağa başladı ki, bu da XIX əsrin birinci yarısında aparılmış köçürmələrin hesabına baş verdi.

Belə ki, XIX əsrdə Bakıda 40-a yaxın millətin nümayəndələri yaşasada, əsasən Azərbaycan türkləri çoxluq təşkil edirdilər. XIX əsrin sonlarına doğru isə ruslar və ermənilər çarizmin köçürmə siyasəti nəticəsində say etibarı ilə üs-

tünlük təşkil etməyə başladılar. Yüz il ərzində Bakıda yerli əhali olan azərbaycanlı türklərin, gəlmə əhali olan rusların və ermənilərin artım dinamıkasına diqqət etsək Azərbaycan türklərinin 1809-cu ildə 4.341 nəfər, 1810-cu ildə 2.154 nəfər, 1816-cı ildə 5.164 nəfər, 1832-ci ildə 3.493 nəfər, 1849-cu ildə 5.597 nəfər, 1860-cı ildə 12.989 nəfər, 1886-cı ildə 37.530 nəfər, 1897-ci ildə isə 40.341 nəfər təşkil etdiyini, ermənilərin 1810-cu ildə 55, 1816-cı ildə 239, 1832-ci ildə 333, 1849-cu ildə 273, 1860-cı ildə 665, 1886-cı ildə 24.490, 1897-ci ildə isə 19.099 nəfər, rusların isə 1860-cı ildə 541, 1886-cı ildə 21.390, 1897-ci ildə isə 38.965 nəfər təşkil etdiyini açıq aşkar görürük [3, səh. 26: 4, səh. 130: 6, səh.3]. (cədvəl 1).

**Cədvəl 1**

**1810-1897-ci illərdə Bakı şəhər əhalisinin etnik tərkibi**

| İllər | Azərbaycanlılar | Ermənilər | Ruslar |
|---|---|---|---|
| **1810** | 2.154 | 55 | - |
| **1816** | 5.164 | 239 | - |
| **1832** | 3.493 | 333 | - |
| **1849** | 5.597 | 273 | - |
| **1860** | 12.989 | 665 | 541 |
| **1886** | 37.530 | 24.490 | 21.390 |
| **1897** | 40.341 | 19.099 | 38.965 |

**Mənbə:** 1. Обзор Бакинской губернии за 1886 год. Баку, 1887, 51 с.
2. Обзор Бакинской губернии за 1897 год. Баку, 1898, 130 с.
3.Первая всеобщая перепис население Российской Империи в 1897 г. Бакинская губерния, Санкт-Петербург,1905, 167 с.

Cədvəldən göründüyü kimi, 1810-cu ildən 1897-ci il də daxil olmaqla yerli əhali olan Azərbaycan türkləri 2.154 nəfərdən 40.341 nəfərədək artdığı halda, ermənilər 55 nəfərdən 19.099 nəfərədək, ruslar isə 1860-cı ildən 1897-ci ilə qədər 541 nəfərdən 38.965 nəfərədək artmışdır ki, bu da yuxarıda qeyd etdiyimiz çarizmin köçürmə siyasətinin bariz nümunəsi idi. Özünə "xristian dayağı" yaratmaq məqsədilə çar Rusiyasının həyata keçirdiyi köçürmə siyasəti, erməni və rusların ölkəyə axını Azərbaycan əhalisinin tərkibinə müəyyən təsir göstərdi və XX əsrdə baş verəcək erməni hərəkatı üçün zəmin yaratmış oldu.

Biz həmçinin Bakı quberniyası üzrə həm ermənilərin, həm də rusların köçürülməsini izləyərkən görürük ki, 1873-cü ildə Bakı quberniyası üzrə əhalinin ümumi sayı 539.383 nəfər olduğu halda, ermənilərin sayı 13.133 nəfər və ya 2,4% təşkil edib.1886-cı ildə Bakı quberniyasının əhalisinin sayı 712.703 nəfər təşkil etdiyi halda, ermənilərin sayı bu ildə 56.591 nəfər və ya 7,9% təşkil edirdi [10, səh. 317]. 1897-ci ildə isə Bakı quberniyasının ümumi əhalisinin sayı 826.716 nəfər idi. Ermənilərin sayı isə bu il üçün 52.233 nəfər və ya 6,4% idi [10, səh. 318].

1859-cu il məlumatına əsasən, Bakı quberniyasında 12.604 nəfər və ya 2,7% rus yaşayırdı. 1868-ci ildə isə Bakı quberniyasının 486.228 nəfər ümumi əhalisinin 22.691 nəfərini və ya 4,6%-ni, 1886-cı ildə ümumi əhalinin 42.444

nəfərini və ya 0,59%-ni, 1897-ci ildə isə ümumi əhalinin 78.002 nəfərini və ya 9,4%-ni ruslar təşkil edib [10, səh. 321-325].

**Nəticə.** Bayılda aşkara çıxarılan Tunc dövrünə aid qaya rəsmləri, İçəri şəhər ərazisində tapılmış tunc balıq fiquru, Şirvanşahlar sarayındakı qayada Qobustandakı oyuqlara bənzər oyuqlar və içərisinə saxsı qablar qoyulmuş qəbirlər olan islamaqədərki çoxtəbəqəli qəbirstanlıq Bakı ərazisində Tunc və antik dövrlərdə yaşayış məskəninin mövcudluğu Bakının antik dövr şəhəri və onun yaşının iki min ildən çox olması qənaətini vermişdir.

Yazılı mənbələr, xəritələr, kitabələr və numizmatik tapıntılar Bakının adının çağdaş yazılışı özünün qədim formasına tam uyğun olaraq - Baqavan toponimindən Atşi-Baqavan, Atşi-Baquan, Baku, Bakuh, Bakuyə, Badukubə, Badku, Baku, Bakı toponimlərinədək dəyişmə yolu keçərək xalq etimologiyasının təsiri altında yeni, indiki Bakının yazılış formasını almışdır.

XIX əsrdə - 1804-1813-cü və 1826-1828-cı illərdə Qacarlar İranı ilə Rusiya arasında gedən müharibələr nəticəsində Azərbaycan torpaqlarının iki yerə parçalanması başa çatmış oldu. Çar Rusiyası tərəfindən işğal edilmiş Azərbaycan torpaqlarında komendant idarə üsulu yaradıldı. 1840-cı ildə komendant idarə-üsulu ləğv edilərək əvəzinə qəzalar təşkil edildi.

XIX əsrin əvvəllərində Qacarlar İranı ilə Rusiya arasında gedən müharibələr Azərbaycanın təsərrüfat həyatına ziyan vurmaqla yanaşı, eyni zamanda özünə "xristian dayağı" yaratmaq məqsədini güdən çar Rusiyasının həyata keçirdiyi köçürmə siyasəti nəticəsində rusların və ermənilərin Azərbaycanda, xüsusilə Bakıda kifayət qədər çoxalmasına gətirib çıxardı.

## Ədəbiyyat siyahısı


1. *Ашурбейли Сара. История города Баку. Баку-Азернешр,1992,408 стр.*
2. *Bakıxanov A. Gülüstani-İrəm. Bakı: Minarə, 2000, 224 s.*
3. *Обзор Бакинской губернии за 1886 год. Баку, 1887, 51 с.*
4. *Обзор Бакинской губернии за 1897 год. Баку, 1898, 130 с.*
5. *Piriyev V.Z. Azərbaycanın tarixi-siyasi coğrafiyası. Bakı, "Müəllim " nəşriyyatı, 2006, 148 səh.*
6. *Первая всеобщая перепись население Российской Империи в 1897 г. Бакинская губерния, Санкт-Петербург,1905, 167 с.*
7. *Sara Aşurbəyli. Baki şəhərinin tarixi (orta əsrlər dövrü). Bakı, "Avrasiya press", 2006, 416 səh.*
8. *Тагиев. Ф.А. История города Баку в первой половине XIX века (1806-1859). Баку, Элм, 1999, 195 ст.*
9. *Verdiyeva H.Y. XIX əsrin birinci yarısında Şimali Azərbaycan əhalisi. Bakı, 1993,133 s.*
10. *Вердиева Х.Ю. Переселенческая политика Российской империи в Северном Азербайджане: XIX- начале XX вв. Историко-демографическое исследование. Издательство "Ecoprint", Баку, 2016, 420 ст.*

**UOT 94 (479.24)**

# İKİNCİ DÜNYA MÜHARİBƏSİ DÖVRÜNDƏ AZƏRBAYCANDA HƏRBİ SƏFƏRBƏRLİK TƏDBİRLƏRİ HAQQINDA

**RÖVŞƏN HƏTƏMOV**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, dosent*
*rovshanhatamov@bsu.edu.az*

*Təqdim edilən məqalədə İkinci Dünya müharibəsi illərində sovet ordusunun şəxsi heyətinin formalaşdırılması prosesində Azərbaycan respublikasının iştirakı məsələsinə həsr edilmişdir. Bu faşizm üzərində qələbədə azərbaycanlıların töhfəsi haqqında elmi mülahizənin əsaslandırılması üçün aktual məsələdir. Qeyd edilmişdir ki, Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra Azərbaycan respublikası ilk dəfə idi ki, hərbi əməliyyatların geniş miqyas aldığı bir şəraitdə orduya kütləvi səfərbərlik tədbirlərini həyata keçirirdi. Sovet ordusunun hərbi əməliyyatlarda çoxsaylı insan itkiləri səbəbindən hərbi mükəlləfiyyətlilərin və çağırışçıların orduya cəlb edilməsi işi son dərəcə vacib məsələ idi. Bununla bağlı müharibə ərəfəsində bu sahədə həyata keçirilmiş tədbirlərin əksəriyyəti ilə bağlı dəyişikliklər və düzəlişlər edilməsi zərurəti yarandı. Səfərbərlik işinə bilavasitə cavabdeh olan hərbi komissarlıqların fəaliyyəti təkmilləşdirildi. Bu sahədə respublika partiya-sovet orqanlarının fəaliyyəti gücləndirildi.*

*Sovet hərbi səfərbərlik orqanları bir sıra hallarda Azərbaycan respublikası üzərinə səfərbərlik tapşırığı qoyarkən mövcud səfərbərlik potensialını nəzərə almır və daha yüksək tələblər irəli sürürdü. Bununla bağlı respublika rəhbərliyinin haqlı iradına qarşı əks arqument kimi Azərbaycanda hərbi mükəlləfiyyətlilərin qeydiyyatında qüsurların olması irəli sürülürdü. Hərbi səfərbərliyə cəlb olunanların hazırlığı məsələsi da vacib məsələ idi. Müharibə cəbhələrində yaranan şəraitlər ilə əlaqədar səfərbərlik tapşırıqlarında düzəlişlər edilirdi.*

*Ümumilikdə, Azərbaycan respublikası müharibə illərində sovet ordusu sıralarına hərbi səfərbərlik tapşırığını tam yerinə yetirməyə müvəffəq oldu. Respublika əhalisinin hər beş nəfərindən biri ordu sıralarında xidmət edirdi ki, bu göstərici bir sıra Avropa ölkələri ilə müqayisədə xeyli yüksəkdir.*

***Açar sözlər:*** *Azərbaycan, II Dünya müharibəsi, SSRİ-Almaniya müharibəsi, hərbi səfərbərlik, hərbi mükəlləfiyyətli, sovet ordusu*

## *ON MILITARY MOBILIZATION MEASURES IN AZERBAIJAN DURING THE SECOND WORLD WAR*

*The presented article is devoted to the issue of the participation of the Republic of Azerbaijan in the process of formation of the staff of the Soviet army during the World War II. This is a topical issue for substantiating a scientific opinion about the contribution of Azerbaijanis to the victory over fascism. It was noted that after the establishment of Soviet power in Azerbaijan, the Republic of Azerbaijan for the first time carried out a mass mobilization of the army in the context of large-scale military operations. In connection with the numerous losses of the Soviet army in the fighting, the work of recruiting conscripts and conscripts into the army was extremely important. In this regard, it was necessary to make changes and corrections regarding most of the activities carried out in this area on the eve of the war. The activities of the military commissariats directly responsible for mobilization work were improved. In this area, the activity of the Republican Party and Soviet bodies was strengthened.*

*In a number of cases, the Soviet military mobilization authorities, while assigning mobilization tasks to the Republic of Azerbaijan, did not take into account the existing mobilization*

*potential and put forward higher demands. In this regard, defects in the registration of military personnel in Azerbaijan were put forward as a counterargument against the fair remarks of the leadership of the Republic. An important issue was the training of those involved in military mobilization. Adjustments were made to the mobilization tasks in connection with the conditions that arose on the fronts of the war.*

*In general, the Republic of Azerbaijan managed to fully fulfill the task of military mobilization into the ranks of the Soviet Army during the war years. Every fifth inhabitant of the Republic served in the army, which was much higher than in some European countries.*

***Keywords:*** *Azerbaijan, World War II, USSR-Germany War, Military mobilization, Military service, Soviet army*

**Giriş.** XX əsrin ortalarında baş vermiş II Dünya müharibəsi bəşəriyyətin tarixində miqyasına, insan itkilərinə və vurduğu maddi zərərin miqdarına görə misli bərabəri olmamışdı. Nəhəng insan itkiləri ilə müşayiət olunan II Dünya müharibəsi dövründə hər il orta hesabla 8,5 mln. nəfər hərbi və mülki şəxs həlak olurdu. Müəyyən səbəblərdən və fəlakəti şərtləndirən amillərə görə, bu ümumbəşər faciəsində ən çox zərər görən dövlət Azərbaycanın da tərkibində olduğu SSRİ oldu. Müharibədə həlak olanların təqribən yarısı – 27 mln nəfər, onun payına düşürdü.

Müharibə dövründə dövlət hakimiyyət orqanlarının qarşında duran əsas vəzifələrdən biri döyüşən ordunun zəruri sayda canlı qüvvə ilə təmin edilməsi idi. Böyük Vətən müharibəsinin başlanması ilə sovet ordusuna səfərbərliyin miqyası xeyli artdı. Baş Qərargahın ordu sıralarına canlı qüvvənin səfərbərliyi ilə bağlı müharibədən əvvəl müəyyən edilmiş qaydaları 1941-ci ilin yayı və payızında aparılan hərbi əməliyyatların fəlakətli nəticələri səbəbindən yenidən nəzərdən keçirildi. Əgər sovet ordusu sıralarında 1938-ci il yanvarın 1-də orduda 1,6 mln nəfər xidmət edirdisə, 1940-cı il yanvarın 1-də bu rəqəm 3,9 mln nəfər, 1941-ci il iyunun 22-də isə 5,1 mln nəfər olmuşdu [1; 292, 294-295].

SSRİ Ali Soveti Rəyasət Heyətinin "Hərbi mükəlləfiyyətlilərin səfərbərliyi haqqında" 1941- ci il iyunun 22-də verdiyi fərman ertəsi gündən etibarən həyata keçirilməyə başlandı. Fərmana əsasən 1905-1918-ci illər təvəllüdlü hərbi mükəlləfiyyətlilərin səfərbərliyi nəzərdə tutulmuşdu. 1941-ci il iyulun 1-nə kimi ordu sıralarına 5,3 mln nəfər hərbi mükəlləfiyyətli göndərildi [2; 257]. Lakin çoxsaylı döyüş itkiləri səbəbindən SSRİ DMK 1941-ci il avqustun 10-da "1890-1904-cü illər təvəllüdlü hərbi mükəlləfiyyətlilərin və 1922-1923-cü illər təvəllüdlü çağırışçıların səfərbərliyi haqqında" qərar qəbul etdi [3; 66]. Ümumilikdə, müharibənin ilk 6 ayı ərzində sovet ordusu sıralarına 12 mln nəfərə qədər kişi səfərbər olundu [4; 99].

Böyük Vətən müharibəsinin 4 ili ərzində sovet ordusu sıralarına 29,6 mln nəfər səfərbər olunmuşdu [5]. Müharibənin sonlarında ordu və donanmada 11,5 və yaxud 12.839.800 nəfər qalmışdı. Müharibənin gedişində 9.692.800 nəfər müəyyən səbəblərə görə ordu sıralarından çıxarılmışdı. Onların sırasına yaralandıqları üçün istefaya göndərilənlər, sənaye müəssisələrinə ezam edilənlər,

yaxalanmamış fərarilər və s. qruplar daxil idilər. Beləliklə, sovet ordusunun müharibədə qaytarılmaz itkiləri 11.944.100 nəfər olmuşdur [6].

Müharibədən sonra sovet ordusunun insan itkilərinin sayı haqqında məlumatlar bir neçə dəfə dəyişdirilmişdir. 1960-cı illərə kimi qaytarılmaz itkilərin sayı 7 mln nəfər hesab edildiyi halda, sonrakı dövrlərdə SSRİ-nin itkiləri 20 mln nəfər hesab edildi. 1990-cı illərdən etibarən müharibənin tarixinə yeni baxışların meydana çıxması ilə itkilərin sayı getdikcə artırılmağa başladı. Bir sıra müəlliflər bu itkilərin sayının 26-27 mln. nəfərdən 50 mln. nəfərə qədər olduğunu iddia edirdilər. Halbuki bu rəqəmlər nəinki müharibə dövründə ordu və donanmada xidmət etmiş insanların ümumi sayından, hətta müharibənin ilk dövründə SSRİ-nin əmək qabiliyyətli əhalisinin sayından çoxdur. 1993-cü ildə general-polkovnik Q.F.Krivoşeyevin rəhbərliyi ilə hərbi tarixçilər kollektivinin dərc etdiyi statistik tədqiqatda SSRİ-nin Almaniya ilə müharibədə 26,6 mln nəfər insan itirdiyi qeyd edilmiş və ilk dəfə döyüş itkilərinin 8.668.400 nəfər olduğu göstərilmişdi. Lakin Q.F.Krivoşeyevin redaksiyası ilə 2001-ci ildə həmin kitab başqa adla yenidən nəşr olunduqda Böyük Vətən müharibəsi dövründə SSRİ-nin silahlı qüvvələrinin qaytarılmaz itkiləri 11.285.057 nəfər qeyd edilmişdi [7;252].

**1.Azərbaycanda hərbi mükəlləfiyyətlilərin sayı haqqında.** 1939-cu il sentyabrın 1-də SSRİ Ali Soveti Rəyasət Heyətinin qəbul etdiyi “Ümumi hərbi mükəlləfiyyət haqqında” qanuna əsasən qoşun növlərindən və hərbi vəzifələrdən asılı olaraq həqiqi hərbi xidmətin müddəti 2 ildən 5 ilədək davam edirdi. 14-cü maddəyə əsasən həqiqi hərbi xidmətə çağırış ilində 19 yaşı tamam olmuş və ya orta məktəbi və ona müvafiq təhsil müəssisəsini bitirmiş 18 yaşında vətəndaşlar çağırılırdılar. Həqiqi hərbi xidməti başa vurduqdan sonra hərbi qulluqçular I kateqoriyalı ehtiyata daxil edilirdilər. Ordu və Donanmanın komplektləşdirilməsi tapşırığı yerinə yetirildikdən sonra artıq qalan, ailə vəziyyətinə görə imtiyaz alan, həmçinin müharibə dövründə qeyri-döyüş xidmətinə yararlı olan çağırışçılar II kateqoriyalı ehtiyata daxil edilirdilər. Sıravi və kiçik rəis heyəti 50 yaşa kimi Ordu və Donanmanın ehtiyatında qalırdılar. I və II dərəcəli ehtiyat yaş əlamətinə görə 3 dərəcəyə bölünürdülər: 1) 35 yaşa kimi, 2) 45 yaşa kimi, 3) 50 yaşa kimi. Hərbi mükəlləfiyyətlilərin qeydiyyatı şəhərlərdə Milis şöbələri nəzdində, kənd yerlərində və qəsəbələrdə isə kənd və qəsəbə sovetləri nəzdində təşkil olunmuş hərbi-qeydiyyat masasında aparılmalı idi [8].

İkinci Dünya müharibəsi ərəfəsində Azərbaycanda hərbi mükəlləfiyyətlərin sayına aydınlıq gətirilməsi məqsədi ilə 1939-cu ildə SSRİ-də keçirilmiş əhalinin siyahıyaalınmasının göstəricilərinə nəzər yetirmək lazımdır. 1939-cu ildə keçirilmiş əhalinin siyahıyaalınmasına görə Azərbaycan SSR-də hərbi mükəlləfiyyətli yaşında (18-50) olan 702.083 nəfər kişi əhalisi var idi. Böyük Vətən müharibəsində səfərbər olunmuş “vuruşan nəsillər” 1890-1926-cı illər təvəllüdlü kişilər idilər.1939-cu ilin yanvarında ölkə əhalisinin siyahıyaalınması keçirilərkən onlar 12-48 yaşlarında idilər.1941-ci il iyunun 22-də ümumi səfər-

bərlik elan edildiyi zaman respublikada hərbi mükəlləfiyyətlilərin sayı 732.578 nəfər olmuşdu. 1939-cu ildə aparılan siyahıyaalınma zamanı 16-17 yaşlarında olmuş gənclər (51.784 nəfər) 1941-ci ildə artıq hərbi çağırışçı kateqoriyasına daxil idilər [9].

Qeyd etmək lazımdır ki, 1926-cı ilin əhali siyahıyaalınmasından sonra Azərbaycanda əhalinin artım dinamikası 1935-ci ilə kimi sabit qalmışdı. 1935-ci ildə əhalinin sayı azalsa da, 1936-1940-cı illərdə yenidən sabit dinamika ilə müşayiət olunmuşdur. 1941-ci ildən etibarən əhalinin sayında yenidən kəskin azalma baş verdi. 1939-cu illə müqayisədə 1941-ci ildə əhalinin sayı 114.700 nəfər azalmışdı. 1941-ci il yanvarın 1-ə olan məlumata görə Azərbaycan SSR-nin əhalisi 3.331.800 nəfər olmuşdur. 1941-ci ilin iyulun 1-nə olan məlumata görə, Azərbaycan SSR-nin əhalisi (hərbi qulluqçular nəzərə alınmadan) 3.301.100 nəfər idi.

Böyük Vətən müharibəsinin başlanmasından sonra respublika əhalisi azalmaqda davam edirdi və 1943-cü ildə bu azalma 1941-ci illə müqayisədə 380.400 nəfər təşkil edirdi [10].

Azərbaycanda sovet hakimiyyəti bərqərar olana kimi əhalinin yaşı ilə bağlı dəqiq məlumat yox idi. Sovet hakimiyyətinin ilk illərində də respublikanın kişi əhalisinin vətəndaşlıq vəziyyətinin qeydiyyatı aparılmırdı. Belə bir şəraitdə kişi əhalisinin hərbi mükəlləfiyyətlilərin qeydiyyatı zamanı onların təvəllüdlərini özlərinin şifahi bildirdikləri tarixlə təsdiq edirdilər. Əksər hallarda bu gerçək təvəllüd ilə bəyan edilən təvəllüd arasında 5-10 il fərqin yaranmasına gətirib çıxarırdı. Hərbi komissarlıqların nəzdində fəaliyyət göstərən hərbi-tibb komissiyaları da onların yaşlarını müəyyən edərkən 1-3 il qədər fərq yaranırdı [11].

**2.Azərbaycanlı hərbi mükəlləfiyyətlilərin sovet ordusuna cəlb edilməsi.** 1939-cu il sentyabrın 15-dən etibarən respublikada 1919-cu il təvəllüdlü çağırışçıların orduya səfərbər olunmalarına başlanılmışdı. 1939-cu və 1940-cı illərdə 66.861 nəfər, 1941-ci ildə isə 19.636 nəfər hərbi çağırışçı ordu sıralarına (cəmi 86.497 nəfər) göndərilmişdi [12].

1941-ci il iyunun 22-dən sentyabrın 15-nə kimi Azərbaycan SSR Hərbi komissarlığı SSRİ Xalq Müdafiə Komissarlığının 136.858 nəfər hərbi mükəlləfiyyətli göndərilməsi tapşırığı qarşılığında 133.066 nəfər göndərə bilmişdi. Alman qoşunlarının SSRİ-nin daxili rayonlarına doğru sürətli hücumu, ölkə paytaxtının və mühüm strateji məntəqələrin itirilməsi təhlükəsinin artmasını diqqətə alan sovet rəhbərləri sərəncamlarında olan insan resurslarından düşmənin irəliləməsinə mane olmaq üçün canlı sipər kimi istifadə etməyə qərar verdilər. Bu məqsədlə ittifaq hökuməti milli respublikalardan, xüsusilə, Cənubi Qafqaz respublikalarından, hərbi çağırışçıların, hətta hərbi təlim keçməmiş və ya az təlimli hərbi mükəlləfiyyətlilərin dərhal orduya göndərilmələri tələb olunurdu. 1942-ci ilin yanvarın 1-ə kimi onların 16.121 nəfəri səfərbərlik haqqında tapşırığa əsasən, orduya göndərildikdən sonra ehtiyatda 25064 nəfər qalmışdı. Buna baxmayaraq, 1942-ci il yanvarın 1-dən sonra respublika hərbi komissarlığına

27 min nəfərin orduya səfərbər olunmaları barəsində XMK-dan sifariş gəlmişdi. Halbuki, respublikada qeydiyyata alınmış 25.064 nəfər hərbi mükəlləfiyyətlinin bəziləri vəfat etmiş və ya xəstələnmişdilər. Siyasi-mənəvi mülahizələrə görə təqribən 1600 nəfər hərbi mükəlləfiyyətli orduya çağırıla bilməzdilər.

Azərbaycanda səfərbərlik tədbirlərinin həyata keçirilməsinin vəziyyətini yoxlamaq məqsədi ilə Zaqafqaziya cəbhəsinin nümayəndələri 1941-ci il oktyabrın 20-27-də respublika hərbi komissarlığının fəaliyyətini təftiş etdilər. Komissiya hərbi komissarlığın fəaliyyətini ümumən qənaətbəxş hesab etsə də, bir sıra rayonlarda hərbi mükəlləfiyyətlilərin qeydiyyatlarının düzgün aparılmamasını, əsassız möhlət verilməsi hallarının olduğunu nöqsan kimi qeyd etmişdi.

1940-cı il oktyabrın 10-da SSRİ Ali Sovetinin fərmanı ilə "Ümumi hərbi mükəlləfiyyət haqqında qanun"a edilmiş əlavəyə əsasən, hərbi çağırışçılar hərbi hissələrə yararlı geyimləri ilə gəlməli idilər. Onlar özləri ilə bir cüt alt paltarı, 1 ədəd köynək və ya üst gödəkcə, 1 ədəd şalvar, səliqəli ayaqqabı, isti palto, baş geyimi və öz əşyalarını yerləşdirmək üçün çuval gətirməli idilər [14].

Bu problemin həllinin tezləşdirilməsi xüsusi siyasi əhəmiyyət kəsb edirdi. Belə ki, soyuq hava şəraitində uzun məsafə qət etməli olan azərbaycanlı hərbi mükəlləfiyyətlilər səfər üçün zəruri ləvazimata əhəmiyyət vermədiklərindən hərbi hissələrə bir çox hallarda sağlamlıqlarında ciddi problemlər ilə gəlirdilər. Sovet ali hərbi komandanlığının bir çox nümayəndələri əksər hallarda bunu azərbaycanlıların cəbhədən yayınmaq məqsədi ilə qəsdən etdiklərini düşünürdülər. Bu isə müvafiq olaraq hərbi hissələrdə bütün səviyyədə olan rus komandirləri tərəfindən azərbaycanlı döyüşçülərə qarşı mənfi rəyin formalaşmasına zəmin yaradırdı. Azərbaycandan orduya səfərbər olunan şəxslərin hərbi hissələrə göndərildiyi zaman zəruri ehtiyaclarının təmin olunmaması bir çox hallarda onların arasında böyük itkilərə səbəb olurdu.

1942-ci ilin əvvəlində Zaqafqaziya cəbhəsi komandanlığının Azərbaycan üçün hərbi mükəlləfiyyətli tapşırığı 12.278 nəfər olduğu halda respublikanın bunu tam halda yerinə yetirməsi üçün 3938 nəfər ehtiyatı çatmırdı [15]. 1942-ci ilin fevralında Respublikanın hərbi komissarı mayor Nəcəfəliyev respublika rəhbərliyinə məlumat verdi ki, XMK-nın bütün səfərbərlik tapşırıqlarının yerinə yetirilməsindən sonra ehtiyatda 35 yaşına kimi hərbi mükəlləfiyyətli ehtiyatı qalmamışdır.

SSRİ XMK-nin səfərbərlik tapşırığından əlavə, respublika komissarlığının qarşısında qoyulmuş əsas vəzifələrdən biri də yeni yaradılan Azərbaycan diviziyalarının canlı qüvvə sahəsində komplektləşdirilmələrini yerinə yetirmək idi. Ehtiyatda olanların bir hissəsi xəstə, fiziki cəhətdən kifayət qədər inkişaf etməmiş olduqlarından respublikanın səfərbərlik imkanları xeyli məhdud idi. Mövcud səfərbərlik resursları əsasən 40-50 yaşlarında, az savadlı və savadsız, 75%-i rus dilini bilməyənlər idilər. Səfərbər olunanlar arasından savadlı və rus dilini bilənlər hərbi məktəblərə göndərilirdilər.

1942-ci il martın 18-də SSRİ DMK-nin formalaşdırma baş idarəsinin siyasi rəhbəri R.S.Qayfullin Azərbaycan hakimiyyətinə hərbi mükəlləfiyyətlilərin qeydə alınmasında ciddi problemlərin olması barəsində xəbərdarlıq etdi. Bu sahədə bir sıra rayonlarda 1938-ci ildən etibarən səlahiyyətlərin kənd və qəsəbə zəhmətkeşləri deputatları sovetinin icraiyyə komitələrinin səlahiyyətlərindən alınaraq milis şöbələrinin hərbi qeydiyyat masalarına verilməsi nəticəsində qeydiyyat işlərində ciddi dolaşıqlıqların yaradıldığı bildirilirdi. Nəticədə, bir sıra rayonlarda onların verdikləri rəqəmlər ilə hərbi komissarlıqların məlumatları arasında ciddi fərqliliklər aşkar edilmişdi. Lakin Azərbaycan SSR Hərbi komissarlığı Baş idarənin fikirləri ilə tam razılaşmırdı. Respublika hərbi komissarı mayor Nəcəfəliyevin 1942-ci il martın 19-da respublika rəhbərliyinə təqdim etdiyi arayışda bildirilirdi ki, Azərbaycanda hərbi mükəlləfiyyətlilərin qeydiyyata alınmaları 1939-cu ildə qəbul olunmuş ümumi hərbi mükəlləfiyyət haqqında qanuna müvafiq olaraq, şəhərlərdə - milis orqanlarında, kənd rayonlarında isə kənd sovetlərinin katibləri tərəfindən aparılırdı. Müharibənin başlanmasından sonra kənd sovetlərinin katiblərinin əksəriyyəti müharibəyə səfərbər olunduqlarından onların yerinə təyin olunan əsasən, qadınların bu işə hazırlıqları kifayət etmirdi. Sovet ordusunun Baş idarəsindən göndərilən bütün təlimatların və normativ sənədlərin rus dilində olduqlarından və yeni təyin olunanların rus dilini bilməmələri ciddi problemə çevrilmişdi. Respublika hərbi komissarı Baş idarənin məsul işçisinin təqdim etdiyi faktların bir çoxunun dəqiqləşdirilmiş olmadığını qeyd edirdi. Belə ki, müharibənin 8 ayı ərzində Azərbaycandan orduya 300 min nəfərdən çox hərbi mükəlləfiyyətli göndərilmiş və bu zaman səfərbərlik tapşırığının pozulması ilə bağlı heç bir fakt qeydə alınmamışdı [16].

Müharibənin başlanmasından 1942-ci il aprelin 1-ə kimi Azərbaycan SSR-dən orduya 320.124 çağırışçı və hərbi mükəlləfiyyətli göndərilmişdi. 1942-ci il aprelin 1-ə olan məlumata görə, respublika üzrə ehtiyatda olan hərbi mükəlləfiyyətlilərin sayı 118. 364 nəfər idi [17].

Bir sıra hallarda rayon hərbi komissarlıqları onlardan tələb olunan çağırışçı planını yerinə yetirmək və ya kimlərin isə əvəzinə başqalarını göndərmək məqsədi ilə cinayətə əl atırdılar. Bu bir sıra şəxslərə əsassız olaraq səfərbərlikdən azad edilmə və ya möhlət verilmə haqqında qanunsuz sənədlərin verilməsində, səfərbərliyə yaramayan xəstələrin, hətta əlil şəxslərin cəlb edilməsində, rüşvətxorluqda və digər neqativ hallarda əks olunurdu.

Səfərbərlik tapşırıqlarının yerinə yetirilməsində yaranmış çatışmamazlıq ordu komandanlığının kəskin narazılığına səbəb oldu. Zaqafqaziya hərbi Dairəsinin Hərbi şurası 1942-ci il aprelin 24-də Azərbaycanın, Gürcüstanın, Ermənistanın, Dağıstanın və Naxçıvanın hərbi komissarlıqlarının fəaliyyətinin yarıtmaz olması barəsində qərar qəbul etdi. Qərarda hərbi komissarlıqlardan hərbi mükəlləfiyyətlilərin qeydiyyatı və səfərbərliyi işinin gücləndirilməsi tələb edilirdi.

1942-ci ilin yayında alman ordularının cənub istiqamətdə sürətli hücumlarının gözlənilməzliyi ilə əlaqədar sovet ordusunun canlı qüvvə cəhətdən xeyli itkilərə məruz qalması səfərbərlik planının yerinə yetirilməsində qəti addımların atılmasını tələb edirdi. 1942-ci il sentyabrın 5-də SSRİ Xalq Daxili İşlər komissarının müavini Kruqlov mənəvi-siyasi mülahizələr baxımından orduya səfərbərlikdən kənarlaşdırılmış hərbi mükəlləfiyyətlilərin şəxsi işlərinə yenidən baxılması və onların bir qisminin səfərbər olunanlar kateqoriyasına daxil edilməsi ilə bağlı yerli komissarlıqlara göstəriş göndərdi. 1942-ci il sentyabrın 1-ə kimi siyasi-mənəvi mülahizələrə görə səfərbərlikdən kənarda saxlanılan 7950 nəfər hərbi mükəlləfiyyətlinin sayı noyabrın 15-ə kimi azaldılaraq 1895 nəfər olmuşdu.

1942-ci ilin sentyabr-noyabr aylarında respublika hərbi komissarlığı ordunun hərbi çağırışçı tapşırığını nəzərdə tutulduğundan da çox yerinə yetirmişdi. 1942-ci il noyabrın 1-nə olan məlumata görə, respublikada ehtiyatda 45 yaşına kimi xidmətə yararlı olan 15.947 nəfər hərbi mükəlləfiyyətli və 19.516 nəfər hərbi çağırışçı var idi [18]. Hərbi mükəlləfiyyətlilərin 50 yaşa kimi həqiqi hərbi xidmətə və qeyri-nizami hərbi xidmətə yararlı olanların sayı 64.828 nəfər idi.

SSRİ DMK-nin 12 noyabr 1942-ci il tarixli 0882 saylı əmri ilə ölkədə 51-55 yaşlarında hərbi mükəlləfiyyətli kişilərin yenidən hərbi qeydiyyatı aparılması qərara alındı. Buna müvafiq olaraq, Zaqafqaziya cəbhəsi komandanlığının noyabrın 17-də verdiyi sərəncam ilə Cənubi Qafqaz respublikalarında bununla bağlı tədbirin keçirilməsini hərbi komissarlıqlara tapşırdı.

1943-cü il aprelin 24-də SSRİ DMK-nin verdiyi əmrə əsasən, Azərbaycanda orduya səfərbərlikdən və hərbi çağırış qeydiyyatından yayınan hərbi mükəlləfiyyətlilərin müəyyən edilməsi məqsədilə 18-50 yaşlarında olan kişilərin sənədlərinin təkrar yoxlanılması tədbirləri keçirildi. Yoxlama qeydiyyatı Bakı və Kirovabad şəhərlərində iyunun 1-dən, digər şəhər və rayonlarda isə iyunun 5-dən başlamış və iyunun 28-də başa çatdırılmışdı. Yoxlama ehtiyatda müəyyən olunmuş 59.514 nəfəri əhatə etməli olduğu halda, 71.283 nəfər yoxlamadan keçdilər. Yaranmış fərqin əsas səbəblərindən biri yeni yaradılmış sənaye müəssisələrinə hərbi hissələrdən hərbi mükəlləfiyyətlilərin göndərilməsi ilə bağlı idi. Yenidən qeydiyyat tədbirlərinin məqsədlərindən biri də təvəllüdü 1922-1925-ci illərdə olan çağırışçıların dəqiq sayının müəyyən edilməsi idi.

Təkrar yoxlama qeydiyyatının aparılmasının yekununda hərbi çağırışçılar və ehtiyatda olan hərbi mükəlləfiyyətlilərin sayı 25.879 nəfər artaraq 61.636 nəfərdən 87.515 nəfərə çatdı. Əgər yoxlamalara kimi ehtiyatda 50 yaşa kimi hərbi mükəlləfiyyətlilərdən döyüş hərbi birliklərində xidmətə yararlı 19.817 nəfər olduğu müəyyən edilmişdisə, yoxlamalardan sonra onların sayı 15.113 nəfər artaraq 34.930 nəfərə, qeyri-döyüş hərbi birliklərində xidmətə yararlı olanlarda isə 8.706 nəfər artaraq 24.766 nəfərdən 33.472 nəfərə, hərbi xidmətə yararsız olanların sayı isə 1421 nəfər artaraq 2.894 nəfərdən 4315 nəfərə çatdı.

1922-1925-ci il təvəllüdlü hərbi çağırışçılarda isə artım 639 nəfər müəyyən edilərək sayı 14.159 nəfərdən 14.798 nəfərə çatdı [19].

Səfərbərlik planının tam həcmdə yerinə yetirilməsi üçün sovet hakimiyyət orqanları müxtəlif cinayətlərə görə məhkum olunmuş şəxslərin cəzalarının ağırlıq dərəcələrinin yenidən qiymətləndirilməsinə qərar verdilər. 1942-ci il yanvarın 22-də keçirilən SSRİ Ali Məhkəməsinin plenumunun qəbul etdiyi qərara müvafiq olaraq, törətdikləri cinayət əməllərinə görə 2 il müddətinə azadlıqdan məhrum edilən və hüquqlarından məhrum edilməmiş məhkumlar orduya və hərbi donanmaya hərbi səfərbərlikdən azad edilmirdilər. SSRİ XDİK və Prokurorluğu 1942-ci il martın 13-də birgə verdikləri əmr ilə 2 il müddətinə azadlıqdan məhrum edilmiş və hüquqlarından məhrum edilməmiş məhkumların hərbi çağırış və səfərbərlik qaydalarını təsdiq etmişdi. Qeyd edilən məhkumların cinayət işləri barəsində məhkəmələrin müvafiq qətnamələri dərhal yerli hərbi komissarlıqlara göndərilməli idi.

1943-cü il iyulun 9-12-də Bakı şəhərinin, iyulun 12-20-də Bakı rayonlarının hərbi komissarlıqların 1943-cü ilin I yarısında əmrin icrası sahəsində fəaliyyətlərinin təftiş edilməsi zamanı müəyyən edildi ki, bu dövrdə məhkəmələr tərəfindən hərbi komissarlıqlara göndərilmiş 154 qətnamədən yalnız bir hissəsi icra olunmuş və 53 nəfər məhkum cəbhəyə göndərilmişdir. SSRİ DMK-nin 1942-ci il dekabrın 20-də qəbul etdiyi 2640 saylı qərarı ilə SSRİ XDİK məişət və əmlak məsələləri zəminində törətdikləri cinayətlərə görə məhkum olunmuş şəxslərin 1943-cü il yanvarın 1-20-də vaxtından əvvəl cəza çəkmələrindən azad edilməsi və onlardan hərbi xidmətə yararlı olan 40 yaşına kimi vətəndaşların orduya göndərilmələrini təmin etmişdi [20].

SSRİ DMK vuruşan ordunun canlı qüvvə ilə təmin olunmasındakı çətinliyin aradan qaldırılması məqsədilə alman əsirliyində və alman qoşunlarının mühasirəsində olmuş sovet ordusunun sabiq hərbi qulluqçularından istifadə olunmasını mümkün hesab edirdi. Cəbhələrin komandanlıqlarına bu sahədə əməli tədbirlərin həyata keçirilməsi azadlığı verilmişdi. Xüsusi şöbələr qısa müddətdə qeyd edilən kontingentin sıralarında Vətən xainlərini, casusları və digər şübhəli ünsürləri aşkar etməli idi. Bu məqsədlə Xanlar rayonunda XDİK-nin xüsusi düşərgəsindən başqa Zaqafqaziya cəbhəsinin qoşunlarının Şimal və Qara dəniz qruplaşmaları üçün 2 filtrasiya düşərgəsinin yaradılması qərara alınmışdı. Zaqafqaziya cəbhəsinin sərəncamında olan bu kateqoriya kontingentinin sayı 17 min nəfərə çatırdı və onların əksəriyyəti Cənubi Qafqaz xalqlarının nümayəndələri idilər.

1943-cü il martın 7-də keçirilən Zaqafqaziya Hərbi dairəsinin Hərbi şurasının müşavirəsində 1942-ci ilin noyabrından 1943-cü ilin fevralına kimi olan dövrdə cəbhənin tabeliyində olan hərbi hissələrdə döyüşçülər arasında ölüm, xəstəlik və taqətdən düşmə hallarının artdığı qeyd edildi. Bunun səbəblərindən biri kimi hərbi komissarlıqların hərbi çağırış və orduya səfərbərlik tədbirlərinə ciddi diqqət yetirməmələri və hərbi hissələrə bir sıra hallarda xəstə və taqətdən

düşmüş hərbi mükəlləfiyyətliləri göndərmələri ilə bağlı idi. Lakin hərbi hissələrə gəlmiş sağlam hərbi mükəlləfiyyətlilər də burada sanitar-məişət şəraitinin yarıtmaz olması səbəbindən bir çox hallarda sağlamlıqlarını itirirdilər. Döyüşçülərin geyim əşyalarının və ayaqqabılarının oğurlanaraq yerli əhaliyə ərzaq müqabilində satılması hallarının geniş yayılması da şəxsi heyətin səhhətinin vəziyyətinə ciddi təsir göstərirdi. Əsgərlərin ərzağının oğurlanması halları, onlara müəyyən edilmiş norma həcmində ərzağın verilməməsi nəticəsində döyüşçülər arasında dilənçilik və oğurluq faktları artmışdı.

**3. Respublikanın əhalisinin sayının dəyişməsində hərbi səfərbərlik amili.** Ümumilikdə, 1941-ci ilin iyunundan 1944-cü ilin yanvarına kimi 553.910 nəfər respublikanı tərk etmişdi. 1941-ci ilin iyunundan 1943-cü ilin noyabrın 1-ə kimi respublikadan 473.043 nəfər orduya səfərbər olunmuşdu. Onlardan 352.166 nəfəri Zaqafqaziya cəbhəsinin tapşırığından kənar olaraq göndərilmişdi. Zaqafqaziya cəbhəsinin tapşırığına müvafiq olaraq, 1922-1925-ci illər təvəllüdlü hərbi çağırışçılardan 80.266 və ehtiyatda olan hərbi mükəlləfiyyətlilərdən isə 40611 nəfər (cəmi 120.877 nəfər) göndərilmişdi. Bundan əlavə olaraq, 1939-1940-cı illərin hərbi çağırışçılarından 96.314 nəfər ordu sıralarında saxlanılmışdılar. Deməli, ümumilikdə, 1939-1943-cü illərdə Azərbaycan SSR-dən sovet ordusu sıralarında 569.357 nəfər xidmət etmişdi ki, onun 368.276 nəfəri azərbaycanlılar idilər [21]. 1946-cı il martın 2-də Respublika hərbi komissarlığının ölkə rəhbərliyi üçün hazırladığı arayışa əsasən, 1941-ci il iyunun 22-dən 1946-cı il fevralın 25-nə kimi respublikadan ordu sıralarına 482.581 nəfər sıravi hərbi mükəlləfiyyətli və 21.043 nəfər ehtiyatda olan zabit heyəti səfərbər olunmuşdu. Müharibənin başlanması səbəbindən sovet ordusu sıralarında saxlanılmış 1939-1940-cı illərdə və 1941-ci ilin I yarısında hərbi xidmətə göndərilmiş 75.579 nəfər çağırışçıları da nəzərə aldıqda arayışa görə Azərbaycandan sovet ordusu sıralarında müharibə dövründə 579.203 nəfər xidmət etmişdir.

Bundan başqa, SSRİ-nin şərqindəki və digər yerlərdə istismar olunan neft rayonlarına 12.283 nəfər (ailə üzvləri ilə birlikdə cəmi-25.000 nəfər) göndərilmişdi [22]. Onların sırasında 8626 nəfər müxtəlif peşə sahibi olan fəhlələr, 639 nəfəri qulluqçu, 1549 nəfəri ali və orta ixtisaslı neft sahəsi üzrə mütəxəssislər, 33 nəfəri rəhbər partiya işçiləri idilər. Dağıstana 13 nəfər rəhbər partiya, 4 nəfər sovet, 7 nəfər təsərrüfat işçiləri göndərilmişdi [23].

1941-ci ilin iyunundan 1943-cü il noyabrın 1-ə kimi respublikadan 22.534 nəfər məhbus SSRİ XDİK-nin müxtəlif həbs düşərgələrinə göndərilmişdi. Sosial təhlükəli və cinayətkar ünsürlər hesab edilən 25.851 nəfər SSRİ-nin digər respublikalarına və diyarlarına sürgün edilmişdi. Onlardan 21.031 nəfəri alman, 2.590 nəfəri antisovet ünsürlər, 711 nəfər Vətən xainlərinin ailə üzvləri və s. idilər. Azərbaycan ərazisindəki həbsxanalarda, koloniyalarda və müvəqqəti saxlama kameralarında 16.707 nəfər saxlanılırdı. Qeyd edilən müddətdə res-

publikada 107.578 nəfər vəfat etmişdi. 1940-1943-cü illərdə respublikada 253.137 nəfər uşaq doğulmuşdu.

1941-1944-cü illərdə respublika əhalisinin sayında baş verən dəyişiklik aşağıdakı cədvəldə verilmişdir:

| İllər | Əhalinin sayı | Dəyişiklik |
|---|---|---|
| 1939-cu il | 3.205.150 | - |
| 1 yanvar 1941-ci il | 3.331.800 | +126.650 |
| 1 yanvar 1942-ci il | 3.157.100 | -174.700 |
| 1 yanvar 1943-cü il | 2.918.100 | -239.000 |
| 1 yanvar 1944-cü il | 2.879.400 | -38.700 |

**Nəticə.** Beləliklə, müharibə dövründə Azərbaycanda hərbi səfərbərlik tədbirləri İttifaq hakimiyyət orqanlarının qəbul etdiyi qərarlar əsasında həyata keçirilirdi. Bu sahədə müharibə ərəfəsində mövcud olmuş nöqsanların dərhal aradan qaldırılması üçün qəti addımlar atıldı. Respublikadan orduya göndərilən hərbi mükəlləfiyyətlilərin sayı döyüş meydanlarındakı vəziyyətə uyğun olaraq dəyişmişdi. SSRİ-nin qərb ərazilərinin alman orduları tərəfindən işğalı dövründə Azərbaycanda hərbi səfərbərlik tədbirləri daha geniş miqyas almışdı. Hərbi səfərbərlik zamanı hərbi mükəlləfiyyətlilərin hərbi təlimə cəlb olunmaları, rus dilini mənimsəmələri, səhhətlərinin qaydasında olmaları ilə yanaşı, onların nəzərdə tutulmuş məntəqəyə kimi aparıldığı dövrdə zəruri şərtlərin təmin edilməsinə diqqət artırılmışdı. Azərbaycanın hakimiyyət orqanları fəaliyyətləri dövründə ilk dəfə geniş miqyaslı hərbi səfərbərlik tədbirləri həyata keçirsələr də, onun öhdəsindən əsasən uğurla gəlməyi bacarmışdı.

## Ədəbiyyat siyahısı

1. *Мельтюхов М.И. Упущенный шанс Сталина. Советский Союз и борьба за Европу: 1939 – 1941 гг. (Документы, факты, суждения). Москва: Вече. 2002*
2. *50 лет Вооруженных сил СССР. Москва: Воениздат. 1968*
3. *Мохоров Г.А. (1995). Защищая Родину (создание стратегических резервов на территории Российской Федерации в годы войны 1941 – 1945 гг.). Санкт-Петербург: ТОО ТК «Петрополис», 1995.*
4. *Михалев С. Н. Людские потери в Великой Отечественной войне 1941 – 1945 гг. Красноярск: РИО КГПУ. 2000*
5. *С.Б. Еременко. K voprosu o poterəx protivoborstvuöhix storon na sovetsko-qermanskom fronte v qodı Velikoy Oteçestvennoy voynı: pravda i vımısel./ http://mil.ru/ winner_may/ history/ more.htm?id =11359251 @cmsArticle*
6. *Евгений Норин. Гекатомба. Потери Советского Союза в Великой Отечественной войне. //https://sputnikipogrom.com/history/ 29399/hecatomb/#. XvmsKW0zbIV*
7. *Россия и СССР в войнах XX века. Потери вооруженных сил: Статистическое исследование. Москва, "Олма-пресс", 2001*
8. *Закон СССР от 1.09.1939 о всеобщей воинской обязанности. /https://ru. wikisource.org/wiki/ Закон СССР от 1.09.1939 о всеобщей воинской обязанности/Исходная редакция*

9. *Анатолий Вишневский. Демографические последствия Великой Отечественной войны./ https://cyberleninka.ru/article/n/demograficheskie-posledstviya-velikoy-otechestvennoy-voyny*
10. *Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi İctimai-siyasi sənədlər arxivi (ARPİİ İSSA),f.1,siy.30, iş 129, v.115*
11. *ARPİİ İSSA,f.1,siy.30, iş 700, v.192*
12. *ARPİİ İSSA,f.1,siy.26, iş 320, v.104*
13. *ARPİİ İSSA,f.1,siy.27, iş 287, v.27*
14. *Указ Президиума Верховного Совета СССР от 4 октября 1940 года «О дополнении Закона о всеобщей воинской обязанности». /https://ru.wikisource.org/wiki/*
15. *ARPİİ İSSA,f.1,siy.27, iş 287, v.96*
16. *ARPİİ İSSA,f.1,siy.27, iş 275, v.156*
17. *ARPİİ İSSA,f.1,siy.27, iş 287, v.204*
18. *ARPİİ İSSA,f.1,siy.27, iş 287, v.324*
19. *ARPİİ İSSA,f.1,siy.28, iş 30, v.311*
20. *ARPİİ İSSA,f.1,siy.28, iş 163, v.30*
21. *ARPİİ İSSA,f.1,siy.29, iş 685, v.2*
22. *ARPİİ İSSA,f.1,siy.29, iş 685, v.2*
23. *ARPİİ İSSA,f.1,siy.29, iş 685, v.7*

**UOT 94 (479.24); 930:314**

# XIX ƏSRDƏ AZƏRBAYCANIN TARİXİ DEMOQRAFİYA PROBLEMLƏRİ VƏTƏN TARİXŞÜNASLIĞINDA (XX ƏSRİN II YARISI-XXI ƏSRİN ƏVVƏLLƏRİNDƏ)

**AYDIN MƏMMƏDOV**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, dosent*
*aydin.mmmdov.67@mail.ru*

*Demoqrafiyada geriyə dönüşü olmayan, yaxud geri dönməz miqrasiya dedikdə əhalinin kütləvi surətdə bir yaşayış məntəqəsindən digərinə müvəqqəti olaraq köçməsi deyil, həm də əvvəlki yaşayış yerinin daimi olaraq dəyişdirilməsi nəzərdə tutulur. Tarixən əhalinin kütləvi surətdə öz yaşayış yerini həmişəlik olaraq dəyişməsi çox ciddi ictimai-siyasi, sosial-iqtisadi səbəblərlə əlaqədar baş vermişdir. Hələ ən qədim dövrlərdə bu və ya digər yerləri ələ keçirən dövlətlər ilk növbədə həmin ərazilərdə özlərinə möhkəm sosial dayaq yaratmaq məqsədilə, həm öz, həm də münasib bildikləri digər ölkələrdən əhalini oraya köçürmüşlər. Təsadüfi deyildir ki, geri dönməz miqrasiya dedikdə, həm də köçürülmə siyasəti nəzərdə tutulur. Bu zaman daimi məskunlaşma üçün yeni əraziyə köçürülənlər burada qısa zamanda möhkəmlənmək üçün həmin ərazinin yerli sakinlərinin təkcə sosial-iqtisadi maraqlarına deyil, demoqrafik vəziyyətinə də mənfi təsir göstərirdilər. Mühüm siyasi proseslərlə zəngin olan XIX əsrdə, xüsusən də Rusiya-Qacarlar İranı və Rusiya-Türkiyə müharibələrindən sonra Cənubi Qafqazın, o cümlədən Azərbaycanın demoqrafik vəziyyətinə də təsirsiz ötüşmədi.*

***Açar sözlər:*** *əhali məksunlaşması, əhali artımı, köçürmə siyasəti, tarixi demoqrafiya, Azərbaycan tarixşünaslığı.*

## *HISTORICAL DEMOGRAPHY PROBLEMS OF XIX CENTURY AZERBAIJAN IN THE HISTORIOGRAPHY OF THE MOTHERLAND (II HALF OF XX CENTURY - BEGINNING OF XXI CENTURY)*

*Irreversible migration in demography is understood not only as a mass temporary migration of the population from one place of residence to another, but also as a permanent change of the former place of residence. Historically, the massive permanent change of residence of the population occurred due to very serious socio-political, socio-economic reasons. Even in the most ancient times, the states that captured this or that place, first of all, in order to create a solid social base for themselves in those areas, resettled the population there, both from their own countries and from other countries that they considered suitable. It is no coincidence that irreversible migration also means resettlement policy. At that time, those resettled to a new area for permanent residence in order to gain a foothold here in a short time, had a negative impact not only on the socio-economic interests of local residents, but also on the demographic situation. In the XIX century, which was rich in important political processes, especially after the Russian-Iranian and Russian-Turkish wars, the demographic situation in the South Caucasus, as well as in Azerbaijan, did not remain unaffected.*

***Keywords:*** *population settlement, population growth, resettlement policy, historical demography, Azerbaijani historiography.*

**Giriş.** XIX əsr Azərbaycan tarixinin daxili və xarici siyasi vəziyyətinin mürəkkəbliyi ilə seçilən müxtəlif siyasi hadisələrlə sıx bir dövrdür: “Hələ I Py-

otr dövründə başlamış, II Yekaterina zamanı davam etdirilmiş Azərbaycanı ələ keçirmək üçün etdikləri cəhdlərdən sonra XIX yüzilliyin lap başlanğıcında çar Rusiyası bütün Zaqafqaziyanı tutmaq planlarını həyata keçirməyə hazırlaşırdı" [14, 206]. Elə, Azərbaycan əhalisinin təbii və mexaniki artım, ölüm, miqrasiya, məskunlaşma kimi demoqrafik göstəricilərinə ciddi təsir göstərən I və II Rusiya-Qacarlar İranı, Rusiya-Türkiyə müharibələri də bu planların, bu hazırlıqların məntiqi nəticəsindən irəli gəlirdi. Rusiya üçün Azərbaycan kimi geostrateji və geosiyasi ərazidə möhkəmlənmək son dərəcə vacib idi. Azərbaycanın ayrı-ayrı xanlıqları arasında demək olar ki, mövcud olduqları ilk vaxtlardan başlayan daxili çəkişmələr təəssüf ki, XVIII əsrin sonu – XIX əsrin əvvəllərində də davam edirdi.

**Azərbaycan Rusiyanın geostrateji maraqlarında.** Yaranmış vəziyyətdən istifadə etməyə çalışan çar Rusiyası ayrı-ayrı xanları öz tərəfinə çəkməklə bərabər, fəal hərbi əməliyyatlardan da istifadə edir, ələ keçirdikləri ərazilərdə mövcud olan dövlət institutlarını ləğv edərək hərbi-siyasi, sosial-iqtisadi dayaqlarını hər vəchlə möhkəmləndirməyə, eyni zamanda fəal demoqrafik siyasət yeridərək buraya imperiyanın içərilərindən əhalinin köçürülməsini geniş miqyasda həyata keçirməyə çalışırdı. Qeyd etmək yerinə düşərdi ki, 1828-ci il martın 21-də Azərbaycanın əzəli torpaqları olan İrəvan və Naxçıvandan ibarət "erməni vilayəti" yaradıldı. 1801-ci ildən işğal olunmuş Borçalı və Sığnaq torpaqları Tiflis quberniyasının, 1860-cı ildə Dərbənd şəhəri Dağıstan vilayətinin tərkibinə qatılmaqla Azərbaycandan "uzaqlaşdırıldı" [4, 264]. XIX əsrdə Azərbaycanda əhalinin sayı, milli-etnik tərkibi və bir çox bu və ya digər demoqrafik proseslər tarixşünaslığımızda geniş şəkildə öz əksini tapmışdır.

**XIX əsrdə Rusiyanın Azərbaycanda möhkəmlənmək cəhdləri.** Sənaye istehsalının coşğun inkişafı, o cümlədən yeni xammal mənbələri, satış bazarlarının əldə olunması uğrunda mübarizənin daha kəskin forma və məzmunu ilə xarakterizə olunan XIX əsrin siyasi prosesləri Azərbaycandan da təsirsiz ötmədi. Sözügedən dövrün ən güclü dövlətləri, həmçinin Rusiya istər geostrateji, istərsə də sərvətlərinin zənginliyi baxımından diqqət çəkən Cənubi Qafqaz regionunda, o cümlədən Azərbaycanda hər vəchlə möhkəmlənməyə cəhd edirdilər. Birinci və İkinci Rus-Qacarlar İranı müharibələrindəki qələbəsindən sonra Rusiya regionda siyasi nüfuzunu daha da gücləndirmək və Şimali Azərbaycan torpaqlarında möhkəm sosial dayaq yaratmaq üçün burada köçürmə siyasətinə başladı. Elə Azərbaycana ermənilərin köçürülməsi də yeni demoqrafik mənzərənin formalaşdırılması məqsədlərini güdürdü.

Tarixçi A.İsgəndərov bu məqama diqqət yetirərək yazır: "XIX əsrin birinci yarısında Şimali Azərbaycanın müxtəlif bölgələrində başlanmış qaçqınçılıq və köçkünlük çar Rusiyasının müstəmləkəçilik siyasətinin, milli ədavətin, aramsız müharibələrin bilvasitə nəticəsi idi. Azərbaycanlı əhalinin məcburiyyət üzündən Şimali Azərbaycanı tərk etməsi xristianlaşdırma siyasətinin gerçəkləşməsinə daha geniş imkanlar açırdı" [13, 335].

Azərbaycan tarixşünaslığında bu məsələyə bir çox tarixçilərimiz xüsusi həssaslıqla yanaşmışlar. Məsələn, sözügedən problemə dair sanballı monoqrafiyaları ilə tarixşünaslığımıza böyük töhvələr verən A.Paşayev "Açılmamış səhifələrin izi ilə" adlı kitabında yazır: "Hələ XIX əsrin əvvəllərində ruslar erməniləri bu yerə (Qarabağ bölgəsinə – A.M.) köçürdükdən sonra əsasən gəlmə ermənilər həmişə azərbaycanlılara qarşı hiylə və məkr yuvası olan erməni məlikliklərindəki ermənilərlə birləşərək xalqımıza qarşı əsl təhlükəyə çevrilməkdə idi.

Həmişə "Yersiz gəldi, yerli qaç" prinsipi ilə hərəkət edən ermənilər çar hakimiyyət orqanlarının onlara qarşı himayəçilik siyasətindən məharətlə istifadə edərək yerli azərbaycanlıları getdikcə sıxışdırmağa başlayırlar" [17, 269].

Azərbaycan tarixçisi D.İsmayılzadənin fikrincə: "Rusiya tərəfindən Zaqafqaziya ərazisinin ilhaqından sonra (1828-1829), regionun ayrı-ayrı rayonlarının (məsələn, Şərqi Zaqafqaziyanın) iqtisadi təsərrüfat əhəmiyyəti əsasən hərbi-strateji nöqteyi-nəzərindən qiymətləndirilərək hələ nə mərkəzi hökumət orqanları, nə də hökumət siyasətində mühüm rol oynayan yerli Qafqaz inzibati orqanları tərəfindən tam dərk edilməmişdir. ...Artıq ilk dövrdən başlayaraq çar inzibati orqanları tərəfindən Zaqafqaziyaya əsasən, aqrar xammal mənbəyi kimi yanaşılır, burada koloniyalar salınmasına, o cümlədən xarici kolonistlərin yerləşdirilməsinə böyük əhəmiyyət verilirdi" [21, 24-25].

Ümumiyyətlə, Rusiyanın daxili quberniyalarından əhalinin Azərbaycana köçürülməsi prosesi XX əsrin əvvəlləri də daxil olmaqla bütün XIX əsr boyu davam etmiş, bu isə əhalinin sosial-iqtisadi, maddi durumuna, həmçinin milli - etnik say tərkibinə və artım dinamikasına da ciddi təsir göstərmişdir. Bütün bu prosesləri D.İsmayılzadə çoxsaylı statistik göstəricilər əsasında tədqiq etmişdir. Onun tərtib etdiyi cədvəllərdən bəlli olur ki, Azərbaycan ərazisinə XIX əsrin ikinci yarısında köçürülən rusların 3,4%-i Bakı, 1,5%-i Yelizavetpol quberniyasının payına düşmüşdür [21, 57].

M.Gülmalıyev XIX əsrin əvvəllərində tərtib olunmuş "Şirvan əyalətinin təsvirinə" dair siyahıyaalınma materiallarına əsasən hətta ayrı-ayrı torpaq sahiblərinin (Məsələn, Qasım bəyin 314 rəiyyət və 91 rəncbər ailəsini özündə birləşdirən 15 kəndi var idi. – A.M.) malik olduqları kəndlilərinin sayı haqqında məlumat verir [9, 57].

Müstəqillik illərində sovet ideologiyasının təsirindən qurtulan tarixçilərimiz sözügedən dövrün sənədlərinə istinadən XIX əsrdə Vətənimizin ərazi və əhalisi ilə bağlı prosesləri kifayət qədər tədqiq edərək tarixşünaslığımıza misilsiz töhfələr bəxş etməkdədirlər. 2010-cu ildə Y.Mahmudovun redaktorluğu ilə kollektiv müəlliflər tərəfindən nəşr olunmuş "İrəvan xanlığı" kitabında dövrün mənbələrinə istinadən yazılır: "İrəvan xanlığında 521 yaşayış məskəni və 310 tərk edilmiş kənd var idi. Əgər bu kəndlərin hər birində orta hesabla 25 ailə və hər bir ailədə minimum 5 nəfərin olduğunu nəzərə alsaq, onda hər kənddə 125 nəfərin yaşadığını və tərk edilmiş 310 kəndin əhalisini də nəzərə alsaq, təqribən 38.750 nəfərin yaşamış olduğunu qeyd etmək olar" [12, 77]. Sözügedən əsərdə

müəlliflər məntiqi-analiz, müqayisəli təhlil apararaq qənaətbəxş elmi nəticələr çıxarmışlar: "Beləliklə, İrəvan xanlığının Rusiya tərəfindən işğalı ərəfəsində bu diyarın müsəlman-türk əhalisinin sayı azı 107.750 nəfər olmuşdur. Rusiya işğalı ərəfəsində erməni əhalinin sayı isə ümumi əhali sayının 18%-ə qədərini təşkil etmişdir" [12, 77].

Bu halla XXI əsrin əvvəllərində yazılmış digər tədqiqat əsərlərində də rastlaşırıq: "A.P.Yermolovun göstərişi ilə tərtib olunmuş "Təsvir"ə görə, Qarabağ əyalətində 20.095 ailədən 15.729-u azərbaycanlı (1.111-i şəhərdə, 14.618-i kənddə), 4.366-sı erməni, o cümlədən alban idi (421-i şəhərdə, 3.945-i kənddə)". Kitabda həmçinin 1828-1830-cu illər arasında Şimali Azərbaycana, o cümlədən Qarabağa Qacar dövləti və Osmanlı imperiyasından köçürülən erməni əhalisinin sayı haqqında da məlumat verilmişdir [16, 32].

**XIX əsrdə cərəyan edən hadisələr və demoqrafik vəziyyət.** XIX əsrin əvvəllərində Cənubi Qafqazda, o cümlədən Şimali Azərbaycanda cərəyan edən hadisələr Qarabağ bölgəsinin və Şuşanın sonrakı ictimai-siyasi taleyinə, o cümlədən demoqrafik vəziyyətinin yeni səviyyəsinə ciddi təsir göstərdi. Belə ki, XIX əsrin birinci yarısında baş vermiş Rusiya-Qacarlar İranı (1804-1813, 1826-1828) və Rusiya-Osmanlı (1806-1812, 1828-1829) müharibələrində əldə etdiyi qələbələrdən sonra Rusiya Cənubi Qafqazda öz sosial-siyasi dayaqlarını regionun demoqrafik vəziyyətini öz xeyrinə dəyişmək yoluyla da gücləndirmək barədə düşünür və bu işdə erməni amilindən yetərincə faydalanmağa çalışırdı: "Rusların Azərbaycanda geniş işğalçılıq siyasəti əsasən ermənilərin sayəsində mümkün olmuşdur. Daha doğrusu, ruslar Qafqaza gəldikləri vaxt yalnız ermənilərə bel bağlamış, onların qüvvəsindən hərtərəfli istifadə etmişlər" [8, s.88].

K.Şükürov "Rusiya ilə Azərbaycanın Qarabağ xanlığı arasında 1805-ci il Kürəkçay müqaviləsi: sistemli analiz" adlı məqaləsində Rusiyanın əslində Kürəkçay müqaviləsinin şərtlərinə görə Qarabağ xanlığında irsi hakimiyyəti təmin etməsi öhdəliyini öz üzərinə götürməsinə baxmayaraq, 1822-ci ildə Qarabağ xanlığını ləğv etməsilə, bu müqavilənin də qüvvədən düşdüyünü xüsusi olaraq vurğulayır: "Tarixi təcrübə göstərir ki, Rusiya İmperiyası həmişə Cənubi Qafqaz hakimlərilə bağladıqları müqavilələri, o cümlədən Kürəkçay müqaviləsinin şərtlərini pozmuşdur" [22, 226]. Məhz bu mənada qeyd etmək olar ki, ermənilərin yeni məskunlaşdıqları ərazilərdə çox tez bir zamanda özlərini güvənli hesab etmələrində Rusiyanın XIX əsrin əvvəllərindən başlayaraq Azərbaycan torpaqlarını ələ keçirərkən hərbi və diplomatik metodlardan ermənilərin xeyrinə yararlanması amili heç də az rol oynamamışdır. Çünki, Azərbaycanda dövlətçilik və siyasi idarəetmə ənənələrinin ləğvinə hesablanmış bu tədbirlər, ermənilərin özgə torpaqları hesabına "Böyük Ermənistan" qurmaq istəyini daha da artırırdı: "Çarizm Şimali Azərbaycan torpaqlarını işğal etdikcə, bu torpaqlarda möhkəmlənmək üçün həm də əhalinin erməniləşdirilməsi siyasətini də həyata keçirirdi" [13, s.31].

A.Paşayev XIX əsr Azərbaycanın demoqrafik vəziyyətini belə təsvir edir: "1886-cı ildə Yelizavetpol quberniyasına daxil olan Zəngəzur qəzasının 326

kəndindən 149-u (45,7%) Azərbaycan kəndi olmuşdur. 91-i kürd (27,9%), yalnız 81-i (24,8%) erməni olmuşdur. A.Paşayev Qafqaz təqviminin illik buraxılışlarında nəşr olunan statistik göstəricilərə əsasən, yazır ki, indiki Ermənistan Respublikasının ərazisində azərbaycanlı əhalinin sayı ermənilərdən dəfələrlə çox olmuşdur. Müəllif fikrinə davam edərək yazır ki, 1889-cu ildə Zəngəzur qəzasının azərbaycanlı əhalisi ermənilərin sayından 1,5 min nəfər çox idi. 1891-ci ildə İrəvan quberniyasında yaşayan 661.6 min nəfərdən 270.4 min nəfərini (41%-ni) azərbaycanlılar təşkil etmişdir, onların sayı sürətlə artaraq artıq 1893-cü ildə 276 min, 1897-ci ildə isə, təqribən 313 min nəfərə çatmışdır. Sözügedən dövrdə - 1892-ci ildə nəşr olunan Qafqaz təqvimindəki demoqrafik göstəicilərə əsaslanaraq müəllif yazır ki, Zəngəzur qəzasında yaşayan 142 min nəfərin 71.2 min (50,1%-ni) azərbaycanlılar, 63.6 min nəfərini (44,8%-ni) ermənilər təşkil etmişdir [24, 72].

H.Verdiyeva "Rusiya imperiyasının Şimali Azərbaycanda köçürmə siyasəti (XIX – XX əsrin əvvəli)" adlı kitabında ilk dəfə olaraq, müəllifin təbirincə desək: "çarizmin Şimali Azərbaycanda XIX – XX əsrin əvvəllərində köçürmə siyasəti ilə bağlı məsələləri kompleks şəkildə tədqiq etmiş, bununla da ölkənin tarixi demoqrafiyasının öyrənilməsində mühüm boşluqlardan birini doldurmuşdur" [20, 7]. Müəllif sözügedən əsərində Rusiyanın rəsmi dairələrini yerli əhaliyə qarşı münasibətdə təkəbbürlü, şovinist, aşağılayıcı münasibət bəsləməsinə və xristianlaşdırma siyasətinə görə tənqid edir: "Xristianlaşdırma siyasəti öz ifadəsini azərbaycanlıların maraqlarına zidd olaraq, erməni əhalisini himayə etməkdə göstərirdi" [20, 40]. Müəllif yazır ki, Azərbaycanda xanlıqlara son qoyulandan dərhal sonra azərbaycanlıların öz yurdlarını kütləvi şəkildə tərk etməsi prosesi başlandı: "1804-cü ildə Gəncənin süqutundan dərhal sonra Yelizavetpol qəzasında kütləvi miqrasiyalar başladı. 200 ailə şəhəri tərk etdi. 1813-cü ildə isə, 187 ev Yelizavetpoldan baş götürərək Arazdan cənuba köç etdi. ...Eyni proses Şirvan xanlığında da baş verdi. XIX əsrin ilk illərində 2000 ailə oranı tərk edərək Talış, Şəki və Qarabağ xanlıqlarında məskunlaşdılar [20, 46].

Müəllif azərbaycanlıların öz yurdlarını tərk etməsində çar generallarının yerli əhali və xanlar ilə son dərəcə kobud münasibətində görür, o cümlədən I və II Rus - Qacarlar İranı müharibələrində Rusiyanın qələbəsindən sonra Şimali Azərbaycan torpaqlarında yeni demoqrafik mənzərənin formalaşdırmaq istəyində görür: "Əgər I Rus- Qacarlar İranı müharibəsindən sonra Pəmbək distansiyasında 950 ailə var idisə, 1813-cü ildən sonra burada cəmi 466, yəni iki dəfə az ailə qalmışdı. 1854-cü ildə isə, burada cəmi 166 azərbaycanlı ailəsi qalmışdı [20, 47]. Müəllifin sözügedən monoqrafiyasında belə misalların sayı həddən ziyadə çoxdur. Müəllif yazır ki, XIX əsrin birinci yarısında ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürüldüyü 20 il ərzində onların burada xüsusən də, Qarabağ bölgəsində sayı 2 dəfə artdı. Türkmənçay sülh müqaviləsindən sonra ermənilərin Qarabağ bölgəsinə axını sonrakı illərdə də davam etdi [20, 228-229]. Müəllifin sözügedən kitabında Birinci və İkinci Rus-Qacarlar İranı müha-

ribələrindən sonra xristian əhalinin vətənimizə köçürülməsi ilə bağlı demoqrafik göstəriciləri əks etdirən konkret rəqəmləri, o cümlədən sxemləri yerləşdirməsi diqqət çəkən məqamlardandır [20, 107-108, 109-110].

XXI əsrdə Azərbaycan tarixşünaslığında sözügedən problemə dair bir sıra maraqlı tədqiqat əsərləri, o cümlədən Azərbaycan tarixi üzrə kitablar nəşr olundu. Bu baxımdan, ilk növbədə 7 cildlik "Azərbaycan tarixi" kitabının girişdən, 9 fəsildən və nəticədən ibarət olan IV cildinin "Şimali Azərbaycanın Rusiya tərəfindən istilası" adlanan I fəsli Birinci və İkinci Rus-Qacarlar İranı müharibələrindən sonra çarizmin köçürmə siyasəti ilə bağlı Cənubi Qafqazda, o cümlədən Azərbaycanda yaranan yeni demoqrafik mənzərə konkret faktlarla kifayət qədər işıqlandırılmışdır: "İki il ərzində 1828-ci ildən 1830-cu ilədək, Zaqafqaziyaya 40 mindən çox İran və 84000 Türkiyə ermənisi köçürüldü və onlar erməni əhalisinin cüzi olduğu Yelizavetpol və İrəvan quberniyalarının ən yaxşı torpaqlarında yerləşdirildi, onlara 200.000 desyatindən çox xəzinə torpağı ayrıldı" [3, 52].

Bu baxımdan, XIX əsrin birinci yarısında ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsindən sonra Cənubi Qafqazda, o cümlədən ölkəmizdə yaranan yeni demoqrafik mənzərəni əks etdirən əsərlərdən biri də Azərbaycan Milli Ensiklopediyasının 2007-ci ildə nəşr etdirdiyi "Azərbaycan" adlı kitabıdır. Yurdumuz haqqında ümumiləşmiş ensiklopedik informasiyaya malik bu unikal kitabda Azərbaycanın ən qədim zamanlardan çağdaş dövrədək olan tarixi də öz əksini tapmışdır. Burada "Tarix" adlı bölmənin "Azərbaycan XIX əsrin 30-cu illərində - XX əsrin əvvəllərində" adlı yarımbölməsində Birinci və İkinci Rus - Qacarlar İranı müharibələrindən sonra, xüsusən də Türkmənçay müqaviləsindən sonra ermənilərin yurdumuza kütləvi şəkildə köçürülməsi ətraflı şəkildə işıqlandırılmışdır. Burada diqqətçəkən məqamlardan biri Türkmənçay traktatının XV maddəsinin öz əksini tapmasıdır [4, 264].

S.Əliyarlının redaktorluğu ilə 2009-cu ildə nəşr olunan "Azərbaycan tarixi" kitabının ön sözdən və 20 bölümdən ibarət irihəcmli kitabı "Güney Azərbaycan Türkmənçay müqaviləsindən sonra" adlı XVIII bölümü Rus-Qacarlar İranı müharibələrinin Cənubi Qafqazda, o cümlədən vətənimizdə yaratdığı sosial-iqtisadi çətinliklərdən, ağır siyasi durumdan və demoqrafik problemlərdən bəhs edir. Belə ki, burada Türkmənçay müqaviləsinin XV maddəsi və kitabın təbirincə desək: "O taydan ermənilərin köçürülməsi; erməni köçürülməsinin say göstəriciləri" və digər bu kimi başlıqlar altında I və II Rus-Qacarlar İranı müharibələrindən sonra meydana gələn yeni demoqrafik vəziyyət statistik faktlarla kifayət qədər işıqlandırılmışdır [7, 669-672].

E.Süleymanovun V.Süleymanovla birgə yazdıqları "Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü və işğalın ağır nəticələri" adlı kitabda bədnam qonşularımızın tarix boyu xalqımıza bəslədiyi düşmənçilik münasibəti öz əksini tapmışdır: "Əvvəlcə çar Rusiyasının Türkmənçay müqaviləsində uzağagedən geosiyasi oyunların və gələcək fəlakətin əsası qoyulmuş oldu. Belə ki, həmin müqavilə imzalandıqdan sonra 1828-ci ildən başlayaraq İran və Türkiyədə

yaşayan ermənilərin Rusiyanın işğal etmiş olduğu Zaqafqaziyaya (Cənubi Qafqaza) kütləvi köçürülməsinə başlanmışdır. Müharibədən sonrakı iki il ərzində 1828-ci ildən 1830-cu ilə kimi Cənubi Qafqaza İrandan 40.000-dən, Türkiyədən isə 84.000-dən çox erməni köçürüldü. ...Bu da regionda demoqrafik vəziyyətə ciddi təsir göstərmiş və ermənilərin gələcək ərazi iddialarının əsasını qoymuşdur" [18, 6-7]. Müəllif ermənilərin daha çox Qarabağ ərazisinə köçürülməsini düşmənin gələcək planları ilə əlaqələndirir. Birinci və İkinci Rus-Qacarlar İranı müharibələrindən sonra ermənilərin daha çox Qarabağ ərazisinə köçürülməsini və bu prosesin demoqrafik vəziyyətə təsirini Y.Hüseynovun "Azərbaycanın Qarabağ bölgəsinin tarixi" adlı kitabında da izləyə bilirik. Bu məsələ ilə bağlı Y.Hüseynov yazır: "Erməni ünsürlərinin Qacar məmləkətindən Qarabağa və başqa ərazilərimizə köçürülməsi işinə erməni ünsürü X.E.Lazarev rəhbərlik edirdi" [10, 81]. Müəllif fikrinə davam edərək, Qarabağda yaranan yeni demoqrafik vəziyyətlə bağlı yazır: "1823-cü ildə Qarabağda yaşayan əhalinin böyük hissəsini Azərbaycan türkləri təşkil edirdi. 1823-cü ildə Azərbaycanın Qarabağ əyalətində 20.095 ailənin yaşadığı qeyd olunur. Həmin ilin kameral təsvirində göstərilir ki, Qarabağda yaşayan 20.095 ailənin 15.729-u (78,3 faizi) azərbaycanlı, 4.366 ailə isə müxtəlif xalqlara (21,7 faiz) məxsus olmuşdur. Paskeviç göstəriş vermişdir ki, Qacarlar məmləkətindən gətirilən erməni ünsürləri üçün yeni kəndlər salınsın. Bu iş həyata keçirilərkən azərbaycanlıların sıx yaşadıqları kəndlər nəzərə alınsın" [10, 81]. Birinci və İkinci Rus - Qacarlar İranı müharibələrindən sonra ölkəmizdə meydana gələn yeni demoqrafik mənzərəni təhlil edən müəllif belə bir qənaətə gələrək: "XVIII əsrin sonuna və XIX əsrin əvvəllərinə aid olan qaynaqlarda və mənbələrdə göstərilir ki, bu dövrlərdə Qarabağ xanlığında və onun mərkəzi şəhəri olan Şuşa qalasında əhalinin 90-95 faizini Azərbaycan türkləri təşkil edirdi. Bu köçürmələrin nəticəsi olaraq XIX əsrin 80 ili ərzində Cənubi Qafqazda erməni ünsürlərinin sayı 4,5 dəfə artmışdı" – deyə, yazır [11, 42].

Birinci və İkinci Rus-Qacarlar İranı müharibələrindən sonra ölkəmizdə meydana gələn yeni demoqrafik mənzərə M.İsmayılovun "Azərbaycan tarixi" [14, s.206-212]; Z.Bünyadov və Y.Yusifovun redaktəsi ilə nəşr olunan "Azərbaycan tarixi" [2, 572-580], F.Abbasovun "Qarabağ xanlığı" [19, 234], N.Bayramovanın "Şamaxı xanlığı" [5, 46-58], F.Əsədov, S.Kərimovanın "Çarizmi Azərbaycana gətirənlər" [8], E.Muradəliyevanın "XIX əsrin əvvəllərində Şimali Azərbaycan şəhərləri" [23], B.Budaqov və Q.Qeybullayevin redaktorluğu ilə nəşr olunmuş "Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası" [6], İ.Ağasiyevin "XVIII əsrin sonu – XX əsrin əvvəllərində almanların Qafqazda məskunlaşması" [1], Y.Mahmudov və K. Şükürovun "Qarabağ: real tarix, faktlar, sənədlər" [16], M.İsmayılov və F.Məmmədovun "Gəncə" adlı elmi məcmuədə nəşr etdirdikləri "Gəncə XIX-XX əsrin əvvəllərində" adlı məqaləsində [15] və bir çox tədqiqat əsərlərində öz əksini tapmışdır.

**Nəticə.** Beləliklə, XX əsrin ikinci yarısında Azərbaycan tarixçiləri XIX əsrdə Azərbaycanın ərazi və əhali məsələlərinə dair məskunlaşma, nəsil artımı və s. bu

kimi proseslərin inkişaf dinamikasını əks etdirən sanballı monoqrafiyalar ərsəyə gətirməklə xalqımızın tarixi demoqrafik həyatını elmi-obyektiv müstəvidə təsvir etməyə nail olmuşlar. XIX əsrdə Cənubi Qafqazda cərəyan edən siyasi proseslərdən, o cümlədən Gülüstan və Türkmənçay müqavilələrindən sonra ermənilər köçürüldükləri Azərbaycan torpaqlarında, çox qısa zaman kəsiyində say çoxluğuna nail olduqdan sonra onlar özlərini bu yerlərin əsil sahibləri kimi aparmağa, soydaşlarımıza qarşı düşmənçilik əməlləri yeritməyə başladılar. Məhz bu mənada istər həmin dövrdə, istərsə də XX əsrin əvvəllərində və sonlarında ermənilərin xalqımıza qarşı törətdikləri soyqırımlarının səbəblərini XIX əsrin birinci yarısında Cənubi Qafqazda cərəyan edən siyasi proseslərdə axtarmaq gərəkdir.

### Ədəbiyyat siyahısı


1. *Ağasiyev İ. XVIII əsrin sonu – XX əsrin əvvəllərində almanların Qafqazda məskunlaşması. Bakı, "Təhsil", 2009, 304 s.*
2. *Azərbaycan tarixi. Bakı, "Azərnəşr", 1994, 680 s.*
3. *Azərbaycan tarixi. Yeddi cilddə. IV cild (XIX əsr). Bakı, "Elm", 2007, 504 s.*
4. *Azərbaycan. Azərbaycan Milli Ensiklopediyası. Bakı, "AMEA" Elmi Mərkəzi, 2007, 884 s.*
5. *Bayramova N. Şamaxı xanlığı. Bakı, "Təhsil", 2009, 396 s.*
6. *Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, "Gənclik", 1995, 464 s.*
7. *Əliyarlı S. Azərbaycan tarixi. Bakı, "Çıraq", 2009, 872 s.*
8. *Əsədov A, Kərimova S.Çarizmi Azərbaycana gətirənlər. Bakı,"Gənclik",1983,138 s.*
9. *Gülmalıyev M. XVIII əsrin son rübü – XX əsrin I yarısında Azərbaycan kəndinin sosial-iqtisadi strukturu. Bakı,"Elm", 1989, 280 s.*
10. *Hüseynov Y.Azərbaycanın Qarabağ bölgəsinin tarixi. Bakı,"Afpoliqraf",2019,207 s.*
11. *Hüseynov Y. Şuşa şəhərinin tarixi Bakı, "Şuşa", 2013, 156 s,*
12. *İrəvan xanlığı. Bakı, "Azərnəşr", 2010, 620 s.*
13. *İsgəndərov A. Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı (1918-1920). Bakı, "Adiloğlu", 2006, 396 s.*
14. *İsmayılov M. Azərbaycan tarixi. Bakı, "Azərnəşr", 1993, 271 s.*
15. *İsmayılov M., Məmmədov F. Gəncə (tarixi oçerk). Bakı, "Elm", 1994, 152 s.*
16. *Mahmudov Y., Şükürov K. Qarabağ: real tarix, faktlar, sənədlər. Bakı, "Təhsil", 2005, 380 s.*
17. *Paşayev A. Açılmamış səhifələrin izi ilə. Bakı, "Azərbaycan", 2001,536 s.*
18. *Süleymanov E., Süleymanov V. Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü və işğalın ağır nəticələri. Bakı, "CBS", 2013, 176 s.*
19. *Абасов Ф. Гарабагское ханство. Баку, "Тахсил", 2007, 278 с.*
20. *Вердиева Х.Ю. Переселенческая политика Российской империи в Северном Азербайджане (XIX – начале XX вв.). Баку, "Алтай", 1999, 300 с.*
21. *Исмаил-заде Д.И. Русское крестьянство в Закавказье. 30-е гг. XIX в. – начало XX в. Москва, "Наука", 1982, 310 с.*
22. *Карабах: история в контексте конфликта.СПб, Изд-во «Вестник» 2014,404 с.*
23. *Мурадалиева Э. Города Северного Азербайджана во второй половине XIX века. Баку, Изд-во Бакинского университета, 1991, 172 с.*
24. *Пашаев А. Что это было: геноцид или депортация? // Исторические факты о деяниях армян на азербайджанской земле. Бишкек, Магамедиа, 2009, 304 с.*

**UOT 94 (479.24); 930:314**

# ŞAMAXI BÖLGƏSİ ÜZRƏ AİLƏ-NİKAH MƏSƏLƏLƏRİNƏ DAİR (1999-2009-CU İLLƏRİN STATİSTİK MƏLUMATLARI ƏSASINDA)

**ULDUZ PAŞAYEVA**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, böyük elmi işçi*
*star.miri@bsu.edu.az*

*Məqalədə müstəqillik illərində keçirilən 1999 və 2009-cu illər əhali siyahıyaalmalarının statistik materialları əsasında Şamaxı rayonu üzrə ailə-nikah məsələləri, şəhər və kənd yerləri üzrə onların say tərkibi təhlil edilir.*

*Həmçinin, məqalədə Dağlıq Şirvan iqtisadi rayonuna daxil olan rayonların əhalisinin demoqrafik göstəriciləri də araşdırılır.*

***Açar sözlər:*** *Şamaxı, əhali siyahıyaalınması, şəhər, kənd, ailə, nikah, boşanma, doğum, ölüm, təbii artım.*

## *ON FAMILY-MARRIAGE MATTERS of SHAMAKHI REGION (BASED ON 1999-2009 STATISTICAL DATA)*

*The article analyzes the family-marriage issues of Shamakhi region, their numerical composition in urban and rural areas, based on the statistical materials of the 1999 and 2009 population censuses conducted during the years of independence. Also, the article examines the demographic indicators of the population of the regions included in the Nagorno-Karabakh economic region.*

***Keywords:*** *Shamakhi, population census, city, village, family, marriage, divorce, birth, death, natural increase*

**Giriş:** Azərbaycanda böyük ailələr haqqında ilk məlumat XIX əsrin birinci yarısına aiddir. Şirvan əyaləti icmalçılarının yazdığına görə, bu əyalətdə vahid təsərrüfatı olan böyük ailələrə rast gəlmək mümkündür. XIX əsrin sonlarında mövcud vergi sisteminə görə vergilər qoyularkən kənd icmalarında ailə üzvlərinin sayı deyil, tüstülərin sayı nəzərə alınırdı. Ona görə də icmada ailələrin (tüstülərin) sayının çoxalması icma üzərinə qoyulan vergilərin və mükəlləfiyyətlərin də artmasına səbəb olurdu. Vergilərin miqdarı isə heç də əhalinin bu vergiləri ödəmək imkanlarına uyğun deyildi. Kəndlilərin ödədikləri vergilər - hər tüstünün və icmanın xəzinə torpağından istifadə etməsinə görə verdiyi vergilərdən ibarət idi. Odur ki, icmalar imkan daxilində ailələrin parçalanmasına və deməli, yeni tüstülərin əmələ gəlməsinə mane olurdular. Belə nəticəyə gəlmək olur ki, XIX əsrin sonu və XX əsrin axırlarına qədər Azərbaycanda böyük ailələr qalmaqda davam edirdi.

**Araşdırma:** 1840-cı il 10 aprel qanununa görə. Ümumrusiya qanunları əsasında quberniya, vilayət, qəza və dairə məhkəmələri yaradıldı və məhkəmələr rus dilində aparılırdı. Şəriət məhkəmələri yalnız kəbin-talaq və vərəsəlik məsələlərinə baxırdılar [7, s.188].

Sovet hakimiyyəti illərində - 1930-cu ildə Şamaxıya rayon statusu verilmişdi. Şamaxı rayonu Azərbaycan Respublikasında inzibati-ərazi vahidi olaraq Baş Qafqaz silsiləsinin cənub-şərq ətəklərində, Bakı şəhərindən 118 km. məsafədə yerləşir. Qədim tarixə malik şəhərlərdən olan Şamaxının ərazisi 1.670 kv.km., əhalisi isə 2020-ci ilin məlumatına əsasən 106.400 nəfər təşkil edirdi.

1999-cu ildə Şamaxı rayonunda əhalinin sıxlığı (1 kv.km. nəfər) 50, əhalisinin sayı 80.625 nəfər, 2009-cu ildə isə Şamaxı rayonunda əhalinin sıxlığı 56, 9, sayı isə 91.605 nəfər olmuşdur.

**Cədvəl 1**

**1999-2009-cu illərdə Şamaxı rayonu üzrə daimi əhalinin yaş, cins və nikah[1] vəziyyətinə görə tərkibi (16 və yuxarı yaşlı əhalinin cəmi)**

| | 1999-cu il | | | 2009-cu il | | |
|---|---|---|---|---|---|---|
| | kişi | qadın | hər iki cins | kişi | qadın | hər iki cins |
| **Şamaxı rayonu üzrə daimi əhalinin sayı: onlardan** | **39484** | **41141** | **80625** | **44726** | **46879** | **91605** |
| **16 və yuxarı yaşlı əhali - cəmi** | 24250 | 27168 | 51418 | 31724 | 34247 | 65971 |
| Nikahda olmayanlar | 7166 | 6425 | 13591 | 10494 | 9565 | 20059 |
| Nikahda olanlar | 16541 | 17106 | 33647 | 20455 | 20648 | 41103 |
| Boşananlar | 81 | 354 | 435 | 212 | 603 | 815 |
| Dullar | 462 | 3283 | 3745 | 563 | 3431 | 3994 |
| **Şəhər əhalisi** | 10282 | 11458 | 21740 | 14536 | 15794 | 30330 |
| Nikahda olmayanlar | 3088 | 2815 | 5903 | 4222 | 4092 | 8314 |
| Nikahda olanlar | 6979 | 7150 | 14129 | 10107 | 10172 | 20279 |
| Boşananlar | 31 | 115 | 146 | 38 | 191 | 229 |
| Dullar | 184 | 1378 | 1562 | 169 | 1339 | 1508 |
| **Kənd əhalisi** | 13968 | 15710 | 29678 | 17188 | 18453 | 35641 |
| Nikahda olmayanlar | 4078 | 3610 | 7688 | 6272 | 5473 | 11745 |
| Nikahda olanlar | 9562 | 9956 | 19518 | 10348 | 10476 | 20824 |
| Boşananlar | 50 | 239 | 289 | 174 | 412 | 586 |
| Dullar | 278 | 1905 | 2183 | 394 | 2092 | 2486 |

**Mənbə:** Azərbaycan Respublikası əhalisinin siyahıyaalınması 1999-cu il. I hissə. Bakı, “Səda” nəşriyyatı, 2000, səh.147, 522-524; Azərbaycan Respublikası əhalisinin siyahıyaalınması 2009-cu il. I cild. Bakı, “9 saylı kiçik müəssisə”, 2010, səh. 194, 593– 595

[1] Azərbaycan Respublikası Konstitusiyasının 34-cü maddəsinə əsasən 18 yaşına çatmış hər bir şəxsin nikaha daxil olmaq hüququ vardır. Nikah könüllü razılıq əsasında bağlanır və heç kəs zorla evləndirilə (ərə verilə) bilməz. Nikah hər kəsin təbii və ayrılmaz hüququdur. Nikah və ailə münasibətləri Azərbaycan Respublikasının 1999-cu il 28 dekabr tarixli Ailə Məcəlləsinə görə tənzimlənir.

Cədvəl 1-dən aydın olur ki, 1999-cu ildə Şamaxı rayonunun əhalisinin sayı 51.418 nəfər olmuşdur ki, onların da 27.168 nəfəri qadın, 24.150 nəfəri isə kişi cinsinə mənsub idi. Əhalinin 21.740 nəfəri şəhərdə, 29.678 nəfəri isə kənddə yaşayırdı. Ümumi əhalinin nikahda olmayanları 13.591 nəfər, nikahda olanların sayı isə 33.647 nəfər təşkil edib. Əhalinin 435 nəfəri ailə qurduqdan sonra boşanmış, 3.745 nəfəri ümumiyyətlə ailə qurmamışdır. Şəhər əhalisinin 5.903 nəfəri kənd əhalisinin isə 7.688 nəfəri nikahda olmayıb. Nikahda olan şəhər əhalisinin sayı 14.129 nəfər, kənd əhalisinin sayı 19.518 nəfər, boşanan şəhər əhalisi 146 nəfər, kənd əhalisi isə 289 nəfər təşkil etmişdir. Şəhər əhalisinin 1.562 nəfəri, kənd əhalisinin isə 2.183 nəfəri, demək olar ki, ailə qurmamışdır.

2009-cu il siyahıyaalınmasına görə isə Şamaxı rayonunun əhalisinin sayının 65.971 nəfər təşkil etmişdir ki, bunların da 34.247 nəfəri qadın, 31.724 nəfəri kişi cinsinə mənsub olmuşdur. Bu əhalinin 30.330 nəfəri şəhərdə, 35.641 nəfəri isə kənddə yaşamışdır.

2009-cu ildə əhalinin 20.059 nəfəri nikahda olmayıbsa, 41.103 nəfəri nikahda olub, 815 nəfəri boşanıb, 3.994 nəfəri isə ailə qurmayıb. Nikahda olan ümumi 41.103 nəfər əhalinin 20.279 nəfəri şəhər, 20.824 nəfəri isə kənd sakini olmuşdur. Şəhər əhalisinin 229 nəfəri boşanmış, 1.508 nəfəri isə ailə qurmamışdır. Bu göstərici kənd əhalisində 586 və 2486 nəfər təşkil etmişdir.

Beləliklə Şamaxı rayonunda 1999-2009-cu illər ərzində daimi əhalinin nikah vəziyyətinə görə ümumi sayı 14.553 nəfər təşkil etmişdir. Onlardan şəhər əhalisi 8.590 nəfər, kənd əhalisi isə 5.963 nəfər olmuşdur.

**Cədvəl 2**

**Şamaxı rayonu üzrə qadınların nikah vəziyyəti və doğulan uşaqların ümumi sayına görə bölgüsü**

| **Şamaxı rayonu üzrə** | **1999-cu il** | | | | **2009-cu il** | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Qadınların sayı, cəmi | O cümlədən doğanlar | Doğulan uşaqların ümumi sayı | Doğulan uşaqların orta sayı (hər 1000 qadına) | Qadınların sayı, cəmi | O cümlədən doğanlar | Doğulan uşaqların ümumi sayı | Doğulan uşaqların orta sayı (hər 1000 qadına) |
| **16 və yuxarı yaşlı qadınların sayı** | 27168 | 17711 | 66692 | 2455 | 34247 | 22965 | 70661 | 2063 |
| Şəhər əhalisi | 11458 | 7454 | 25683 | 2241 | 15794 | 11092 | 30558 | 1935 |
| Kənd əhalisi | 15710 | 10257 | 41009 | 2610 | 18453 | 11873 | 40103 | 2173 |
| **Heç vaxt nikahda olmayanlar** | 6425 | 16 | 31 | 5 | 9565 | - | - | - |
| Şəhər əhalisi | 2815 | 5 | 10 | 4 | 4092 | - | - | - |
| Kənd əhalisi | 3610 | 11 | 21 | 6 | 5473 | - | - | - |
| **Nikahda olanlar** | 17106 | 14905 | 54563 | 3190 | 20648 | 19325 | 57344 | 2777 |
| Şəhər əhalisi | 7150 | 6303 | 21087 | 2949 | 10172 | 9684 | 26226 | 2578 |
| Kənd əhalisi | 9956 | 8602 | 33476 | 3362 | 10476 | 9641 | 31118 | 2970 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **Boşananlar** | 354 | 187 | 365 | 1031 | 603 | 361 | 700 | 1161 |
| Şəhər əhalisi | 115 | 63 | 124 | 1078 | 191 | 107 | 214 | 1120 |
| Kənd əhalisi | 239 | 124 | 241 | 1008 | 412 | 254 | 486 | 1180 |
| **Dullar** | 3283 | 2603 | 11733 | 3574 | 3431 | 3279 | 12617 | 3677 |
| Şəhər əhalisi | 1378 | 1083 | 4462 | 3238 | 1339 | 1301 | 4118 | 3075 |
| Kənd əhalisi | 1905 | 1520 | 7271 | 3817 | 2092 | 1978 | 8499 | 4063 |

**Mənbə:** Azərbaycan Respublikası əhalisinin siyahıyaalınması 1999-cu il. III.I hissə. Bakı, "Səda" nəşriyyatı, 2000, səh.81; Azərbaycan Respublikası əhalisinin siyahıyaalınması 2009-cu il, IV cild. Bakı, "9 saylı kiçik müəssisə", 2010, səh. 89

2 saylı cədvəlin təhlilində məlum olur ki, Şamaxı rayonu üzrə 1999-cu ildə nikahda olan qadınların cəmi 17.106 nəfər, onlardan şəhərdə 7.150 nəfər, kənddə 9.956 nəfər təşkil etmişdi. Lakin 2009-cu ildə bu göstərici 20.648 nəfər, onlardan şəhərdə 10.172, kənddə 10.476 nəfər olmuşdur. 2009-cu ilin statistik göstəricilərinə əsasən rəsmi nukahda olan qadınların sayı isə 20.506 nəfər (şəhərdə 10155 nəfər, kənddə 10351 nəfər) olmuşdur. Yəni 2009-cu ildə 20.648 qadından 142 nəfəri (şəhərdə 17 nəfər, kənddə 125 nəfər) dini nikah ilə ailə quranlardır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 11 fevral 2004-cü il tarixli "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında" fərmanı ilə Şamaxı rayonu Dağlıq Şirvan iqtisadi rayonuna daxil edilmişdir. İqtisadi rayon 4 inzibati rayondan – Ağsu, İsmayıllı, Qobustan və Şamaxı rayonlarından ibarətdir. Bu iqtisadi rayonda 4 şəhər, 4 rayon, 8 qəsəbə, 106 kənd inzibati-ərazi dairəsi və 275 kənd yaşayış məntəqəsi vardır. Statistik məlumatlara əsasən Dağlıq Şirvan iqtisadi rayonunun əhalisi 292 min nəfər və ya ölkə əhalisinin 3,2% təşkil etmişdir. İqtisadi rayonun əhalisinin 31,3%-i şəhərlərdə, 68,7%-i isə kəndlərdə yaşayır [6].

**Cədvəl 3**

**Azərbaycan Respublikasının iqtisadi rayonları və inzibati ərazi vahidləri üzrə daimi əhalinin sayı**

*(min nəfər)*

| İqtisadi rayonların və inzibati ərazi vahidlərinin adları | 1979 | 1989 | 1999 | 2009 |
|---|---|---|---|---|
| **Şəhər və kənd yerləri üzrə - cəmi** | | | | |
| **Azərbaycan Respublikası** | **6026,5** | **7021,2** | **7953,4** | **8922,4** |
| **Dağlıq Şirvan iqtisadi rayonu - cəmi** | **194,3** | **209,8** | **249,3** | **281,5** |
| *o cümlədən:* | | | | |
| Ağsu rayonu | 48,3 | 53,7 | 62,3 | 70,5 |
| İsmayıllı rayonu | 55,2 | 61,1 | 72,2 | 79,3 |
| Qobustan rayonu | 29,5 | 30,6 | 34,2 | 40,1 |
| **Şamaxı rayonu** | 61,3 | 64,4 | 80,6 | 91,6 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika komitəsi. https://stat.gov.az/ source /demoqraphy/ap/

Bu cədvəldən aydın olur ki, Dağlıq Şirvan iqtisadi rayonu üzrə əhalinin ümumi sayı 1979-cu ildə 194,3 min nəfər, 1989-cu ildə 209,8 min nəfər, 1999-cu ildə 249,3 min nəfər və 2009-cu ildə 281,5 min nəfər olmuşdur. Əhalinin sayı rayonlar üzrə: Ağsu rayonunda 1979-cu ildə 48,3 min nəfər, 1989-cu ildə 53,7 min nəfər, 1999-cu ildə 62,3 min nəfər, 2009-cu ildə 70,5 min nəfər, İsmayıllı rayonunda 1979-cu ildə 55,2 min nəfər, 1989-cu ildə 61,1 min nəfər, 1999-cu ildə 72,2 min nəfər, 2009-cu ildə 79,3 min nəfər, Qobustan rayonunda 1979-cu ildə 29,5 min nəfər, 1989-cu ildə 30,6 min nəfər, 1999-cu ildə 34,2 min nəfər, 2009-cu ildə 40,1 min nəfər, Şamaxı rayonunda 1979-cu ildə 61,3 min nəfər, 1989-cu ildə 64,4 min nəfər, 1999-cu ildə 80,6 min nəfər, 2009-cu ildə isə 91,6 min nəfər idi. Araşdırdığımız illər üzrə Azərbaycan Respublikası əhalisinin sayı isə 1979-cu ildə 6.026,5 min nəfər, 1989-cu ildə 7.021,2 min nəfər, 1999-cu ildə 7.953,4 min nəfər, 2009-cu ildə 8.922,4 min nəfər olmuşdur. Bu cədvəlin təhlilindən aydın olur ki, hər 10 il ərzində keçirilən siyahıyaalmalarda Azərbaycanın Dağlıq Şirvan iqtisadi rayonuna daxil olan 4 rayonda yaşayan əhalinin sayında dəyişikliklər olmuş, ən çox əhali sayının artması Şamaxı rayonunda qeydə alınmışdır.

**Cədvəl 4**

**Azərbaycan Respublikasının Dağlıq Şirvan iqtisadi rayonu üzrə əhalinin təbii artımı, doğulanlar və ölənlərin say tərkibi**

| Dağlıq Şirvan İqtisadi rayonu | İllər | Nəfərlə | | |
|---|---|---|---|---|
| | | Təbii artım | Doğulanlar | Ölənlər |
| **Ağsu rayonu** | **1990** | 1456 | 1890 | 434 |
| | **2000** | 858 | 1283 | 425 |
| | **2009** | 750 | 1225 | 475 |
| | **2019** | 881 | 1344 | 463 |
| **İsmayıllı rayonu** | **1990** | 1493 | 1956 | 463 |
| | **2000** | 716 | 1321 | 605 |
| | **2009** | 867 | 1494 | 627 |
| | **2019** | 780 | 1315 | 535 |
| **Qobustan rayonu** | **1990** | 369 | 474 | 105 |
| | **2000** | 535 | 765 | 230 |
| | **2009** | 540 | 779 | 239 |
| | **2019** | 651 | 905 | 254 |
| **Şamaxı rayonu** | **1990** | 1886 | 2522 | 636 |
| | **2000** | 1018 | 1517 | 499 |
| | **2009** | 1116 | 1693 | 577 |
| | **2019** | 1200 | 1782 | 582 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika komitəsi. https://stat.gov.az/ source /demoqraphy/ap/

Dağlıq Şirvan iqtisadi rayonları üzrə əhalinin doğum, ölüm və təbii artımını 2000-ci il və 2009-cu illərə görə araşdırarkən Ağsu rayonunda 2000-ci ildə 1.283 nəfər uşaq doğulduğu, 425 nəfər uşağın öldüyü məlum olur. Təbii artım

bu il üzrə Ağsu rayonunda 858 nəfər təşkil etmişdir. 2009-cu ildə isə Ağsu rayonunda bu göstəricilər 1.225, 475 və 750 nəfər təşkil edir. İsmayıllı rayonu üzrə 2000-ci ildə doğulanların sayı 1.321 nəfər, ölənlərin sayı 605 nəfər olub. Bu il üçün İsmayıllı rayonunun təbii artımı 716 nəfər təşkil etmişdir. Qobustan rayonu üzrə 2000-ci ildə doğulanların sayı 765 nəfər, ölənlərin sayı 230 nəfər olmuşdur. Təbii artım bu rayon üzrə 2000-ci ildə 535 nəfər təşkil etmişdir. 2009-cu ildə isə bu rayonda doğulanların sayı 779 nəfər, ölənlərin sayı 239 nəfər olmuşdur. Təbii artım isə Qobustan rayonunda 2009-cu il üçün 540 nəfər təşkil etmişdir.

Eyni illər üzrə Şamaxı rayonunun göstəriciləri isə aşağıdakı kimi olmuşdur. Belə ki, 2000-ci ildə Şamaxı rayonunda doğulanların sayı 1.517 nəfər, 2009-cu ildə 1693 nəfər, ölənlərin sayı 2000-ci ildə 499 nəfər, 2009-cu ildə 582 nəfər olmuş, bu illərə görə rayonda təbii artım 2000-ci ildə 1.018 nəfər, 2009-cu ildə isə 1.116 nəfər təşkil etmişdir.

**Cədvəl 5**

**Dağlıq Şirvan iqtisadi rayonu üzrə şəhər və kənd yerləri üzrə uşaqların sayı**

| Dağlıq Şirvan iqtisadi rayonu | İllər | Rəsmi qeydə alınmamış nikahda olan qadınlar tərəfindən doğulan uşaqların sayı, nəfər | | | 1 yaşadək ölən uşaqların sayı (nəfərlə) | | |
|---|---|---|---|---|---|---|---|
| | | Şəhər | Kənd | Cəmi | Şəhər | Kənd | Cəmi |
| **Ağsu rayonu** | **1990** | 5 | 9 | 14 | | | |
| | **2000** | 9 | 8 | 17 | | | |
| | **2009** | 29 | 67 | 96 | 2 | 7 | 9 |
| | **2019** | 38 | 138 | 176 | 13 | 11 | 24 |
| **İsmayıllı rayonu** | **1990** | - | 14 | 14 | | | |
| | **2000** | 8 | 15 | 23 | | | |
| | **2009** | 29 | 173 | 202 | 5 | 9 | 14 |
| | **2019** | 21 | 73 | 94 | 9 | 9 | 18 |
| **Qobustan rayonu** | **1990** | 1 | 11 | 12 | | | |
| | **2000** | 3 | 33 | 36 | | | |
| | **2009** | 57 | 231 | 288 | 3 | 8 | 11 |
| | **2019** | 47 | 183 | 230 | 12 | 11 | 23 |
| **Şamaxı rayonu** | **1990** | 7 | 11 | 18 | | | |
| | **2000** | 6 | 11 | 17 | | | |
| | **2009** | 105 | 130 | 235 | 8 | 15 | 23 |
| | **2019** | 113 | 157 | 270 | 14 | 6 | 20 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika komitəsi. https://stat.gov.az/ source /demoqraphy/ap/

Cədvəl 5-dən məlum olur ki, 1990-cı illərdə rəsmi qeydə alınmamış nikahda olan qadınlar tərəfindən doğulan uşaqların sayı şəhər yerlərində üstünlük təşkil edirdisə, 2009-cu ildən etibarən bu göstərici kənd yerlərində daha çox olmuşdur. Şamaxı rayonunda isə 2009-cu ildə şəhərdə 105, kənddə isə 130 nəfər olmuşdur.

**Cədvəl 6**

**Azərbaycan Respublikasının Dağlıq Şirvan iqtisadi rayonu üzrə rəsmi qeydə alınmış nikah və boşanmaların sayı (şəhər və kənd yerləri üzrə)**

| Dağlıq Şirvan iqtisadi rayonu | İllər | Nikahların sayı | | | Boşanmaların sayı | | |
|---|---|---|---|---|---|---|---|
| | | şəhər | kənd | cəmi | şəhər | kənd | cəmi |
| **Ağsu rayonu** | **1990** | 209 | 528 | 737 | 67 | 7 | 74 |
| | **2000** | 129 | 337 | 466 | 13 | 22 | 35 |
| | **2009** | 196 | 475 | 671 | 29 | 30 | 27 |
| | **2019** | 153 | 391 | 544 | 32 | 79 | 111 |
| **İsmayıllı rayonu** | **1990** | 158 | 671 | 829 | 30 | 10 | 40 |
| | **2000** | 79 | 335 | 414 | 14 | 23 | 37 |
| | **2009** | 185 | 607 | 813 | 20 | 44 | 66 |
| | **2019** | 212 | 387 | 599 | 37 | 63 | 100 |
| **Qobustan rayonu** | **1990** | 14 | 131 | 145 | - | - | - |
| | **2000** | 16 | 132 | 148 | 4 | 5 | 9 |
| | **2009** | 70 | 284 | 351 | 7 | 12 | 9 |
| | **2019** | 91 | 269 | 360 | 7 | 31 | 38 |
| **Şamaxı rayonu** | **1990** | 226 | 633 | 859 | 62 | 16 | 78 |
| | **2000** | 116 | 279 | 395 | 13 | 11 | 24 |
| | **2009** | 362 | 471 | 870 | 41 | 10 | 51 |
| | **2019** | 347 | 341 | 688 | 73 | 71 | 144 |

**Mənbə:** Azərbaycanın demoqrafik göstəriciləri. Statistik məcmuə. Bakı, 2022, səh.379-380, 407-409, 436-437

Cədvəl 6-da Ağsu rayonu üzrə 1990-cı ildə 737, 2000-ci ildə 446, 2009-cu ildə 671, 2019-cu ildə 544 nikah qeydə alınmışdırsa həmin illərə görə boşanmaların sayı 74, 35 27 və 111 olmuşdur. İsmayıllı rayonu üzrə 1990-cı ildə 829, 2000-ci ildə 414, 2009-cu ildə 813, 2019-cu ildə 599 nikah qeydə alınmış, boşanmaların sayı isə 40,37,66, və 100 olmuşdur. Qobustan rayonunda isə 1990-cı ildə 145, 2000-ci ildə 148, 2009-cu ildə 351, 2019-cu ildə isə 360 nukah bağlanmışdır. Burada boşananların sayı isə 9, 9, 38 olmuşdur. 1990-cı ildə isə Qobustan rayonunda boşanmalar barədə məlumat verilmir. Şamaxı rayonu üzrə 1990-cı ildə qeydə alınmış nikahların sayı 859 olduğu halda, həmin ildə boşanmaların sayı 78 olmuşdur. 2000-ci ildə 395 nikah, 24 boşanma, 2009-cu ildə 970 nikah, 51 boşanma, 2019-cu ildə isə 688 nikah, 144 boşanma qeydə alınmışdır.

Belə bir nəticəyə gəlirik ki, Dağlıq Şirvan iqtisadi rayonu üzrə rəsmi qeydə alınmış nikah və boşanmaların sayı həm şəhər, həm də kənd yerlərində fərqli olmuşdur. Belə ki, 1990-cı ildə nikahların sayı artmış, 2000-ci ildə isə azalmışdır. Boşanmaların sayı 1990-cı ildə artmış, 2000-ci ildə isə azalmışdır. 2009-cu ildə isə Şamaxı rayonunda nikahların sayı çox olmuş, 2019-cu ildə isə boşanmaların sayı artmışdır.

Onu da qeyd edək ki, 2019-cu ilin statistik məlumatına əsasən Şamaxı rayonunda əhalinin hər min nəfərinə düşən nikahların sayı 7,0 %-ə, boşanmaların sayı 1,5%-ə bərabər olmuşdur [5].

**Nəticə:** Məqalədə 1999-2009-cu illərdə Şamaxı rayonu üzrə əhalinin ailə-nikah, doğum-ölüm göstəriciləri araşdırılmış, rayonda baş verən demoqrafik dəyişikliklərdəki vəziyyət, Azərbaycan Respublikası Statistika Komitəsinin nəşr etdirdiyi məlumatlara əsaslanaraq təhlil edilmişdir.

Aparılmış təhlillər nəticəsində məlum olmuşdur ki, nikahların bağlanması və pozulması prosesinin özü də əhalinin təbii artımına daha çox təsir edən amillərdən biridir.

Tədqiqat nəticəsində məlum olur ki, son illərdə Azərbaycanın bir çox regionlarında, o cümlədən Şamaxı rayonunda ailə-nikah münasibətlərində qeyri-müəyyənlik halları artmaqdadır. Bunları başlıca olaraq aşağıdakı kimi qruplaşdırmaq olar: 1) boşanma hallarının çoxalması; 2) erkən nikahların artması; 3) məktəb yaşlı qızlara dini kəbin kəsdirilməsi; 4) yaxın qohumlar arasında olan nikahlar və onların mənfi nəticələri; 5) problemli ailələrin sayının artması; 6) ailədə uşaqların sayının azalması; 7) ailənin uşaqların tərbiyəsi ilə bağlı üzərlərinə düşən öhdəlikləri yerinə yetirə bilməməsi; 8) ailə qurmaq istəməyən gənclərin sayının artması və s.

Tədqiqatımızın xronoloji çərçivəsinə aid olmasa da 2019-cu ilə aid olan siyahıyaalınmanın statistik rəqəmlərinin müqayisəli təhlilini də apardıq. Azərbaycan Respublikasında 2019-cu ilin 6 ayı ərzində Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 29.391 nikah və 8.257 boşanma halları qeydə alınmışdır. Onlardan Dağlıq Şirvan iqtisadi rayonu üzrə 393 boşanma, o cümlədən Qobustan rayonunda 38, İsmayıllı rayonunda 100, Ağsu rayonunda 111, Şamaxı rayonunda 144 boşanma halları qeyd edilmişdir. Əgər 2009-cu ildə boşanmaların sayı 7.784 idisə, 2019-cu ildə 17.148 boşanma qeydə alınmışdı. Beləliklə 10 il ərzində boşanan ailələrin sayı artaraq 9.364-ə çatmışdır.

## Ədəbiyyat siyahısı


1. *Azərbaycan Respublikası Dövlət Statistika komitəsi. https://stat.gov.az/ source /demoqraphy/ap/*
2. *Azərbaycanın demoqrafik göstəriciləri. Statistik məcmuə. Bakı, 2022*
3. *Azərbaycan Respublikası əhalisinin siyahıyaalınması 1999-cu il I hissə. Bakı, "Səda" nəşriyyatı, 2000, 567 səh.*
4. *Azərbaycan Respublikası əhalisinin siyahıyaalınması 2009-cu il I cild. Bakı, "9 saylı kiçik müəssisə", 2010, 630 səh.*
5. *Azərbaycanda boşanmalar ən çox bu rayonlarda baş verir- https://www.yeniavaz.com/az/news/index/131154/azerbaycanda-bosanmalar-en-cox-bu-rayonlarda-bas-verir-tam-siyahi*
6. *Paşayeva Ulduz. Şamaxı rayonu əhalisinin say dinamikası və yerləşməsi (1999-2009-cu il əhalinin siyahıyaalma məlumatları əsasında). Bakı, "Bakı Universitetinin Xəbərləri" (humanitar elmlər seriyası), № 2, səh.135-144*
7. *Azərbaycan tarixi. Dərslik. Bakı, "Bakı Universiteti" nəşriyyatı, 2014, 380 səh.*


***Rəyçi:dosent Səidə Əli qızı***

## II BÖLMƏ
## AZƏRBAYCAN TARİXİNİN ÜMUMİ MƏSƏLƏLƏRİ

**UOT 94 (479.24)**

# QARABAĞIN SON TUNC-ERKƏN DƏMİR DÖVRÜ ABİDƏLƏRİ

**HICRAN MAHMUDOVA**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, tarix üzrə fəlsəfə doktoru*
*hicranmahmudova@mail.ru*

*Arxeoloji abidələrin tədqiqi Azərbaycanın qədim dövr tarixini, bu ərazidə baş verən mədəni-tarixi prosesləri öyrənmək üçün mühüm əhəmiyyətə malikdir. Tarixi Azərbaycan ərazisindəki qədim yaşayış məskənlərinin, nekropolların, müdafiə istehkamlarının tədqiqi, ərazimizdə yaşamış qədim tayfaların məişət və təsərrüfat həyatlarının öyrənilməsi Azərbaycan arxeologiya elminin qarşısında duran vacib problemlərdən biridir. Son tunc və erkən dəmir dövründə ortaya çıxan və arxeoloji ədəbiyyatda Xocalı-Gədəbəy mədəniyyəti adlandırılan mədəniyyət, boz və qara rəngli cilalı keramika ilə xarakterizə edilir. Qonşu ölkələrlə iqtisadi-mədəni əlaqələrin bu mədəniyyətin inkişafına müəyyən təsir etməsinə baxmayaraq, o, yerli zəmin əsasında inkişaf etmişdir. Tədqiqatçılar Xocalı-Gədəbəy arxeoloji mədəniyyətinin Kür-Araz mədəniyyəti ilə bağlı olduğunu qeyd etmişlər. Araşdırmalar Xocalı-Gədəbəy mədəniyyətinin Azərbaycanın şimalında meydana çıxdığını və e.ə. II minilliyin sonlarına yaxın cənub rayonlara yayıldığını göstərir.*

***Açar sözlər:*** *arxeologiya, yaşayış yeri, qəbir abidəsi, Xocalı-Gədəbəy mədəniyyəti, son tunc dövrü*

### *MONUMENTS OF KARABAKH OF THE LATE BRONZE-EARLY IRON AGE*

*The study of archaeological sites is of great importance for the study of the ancient history of Azerbaijan, the cultural and historical processes taking place in this area. The study of ancient settlements, necropolises, fortifications in the historical territory of Azerbaijan, the study of the household and economic life of the ancient tribes living on our territory is one of the important tasks facing the archaeological science of Azerbaijan. The culture that arose in the Late Bronze Age and the Early Iron Age and is referred to in the archaeological literature as the Khojaly-Gedabey culture is characterized by gray and black polished ceramics. Despite the fact that economic and cultural ties with neighboring countries had a certain influence on the development of this culture, it developed based on local conditions. The researchers note that the Khojaly-Gedabey archaeological culture is related to the Kura-Araz culture. Studies show that the Khojaly-Gedabey culture originated in the north of Azerbaijan and spread to the southern regions towards the end of the 2nd millennium bc.e.*

***Keywords:*** *archeology, settlement, grave monument, Khojaly-Gadabey culture, late bronze age.*

**Giriş:** Son Tunc və Erkən Dəmir dövründə ortaya çıxan və arxeoloji ədəbiyyatda Xocalı-Gədəbəy mədəniyyəti adlandırılan mədəniyyət, boz və qara rəngli cilalı keramika ilə xarakterizə edilir. Qonşu ölkələrlə iqtisadi-mədəni

əlaqələrin bu mədəniyyətin inkişafına müəyyən təsir etməsinə baxmayaraq, o, yerli zəmin əsasında inkişaf etmişdir. Tədqiqatçılar Xocalı-Gədəbəy arxeoloji mədəniyyətinin Kür-Araz mədəniyyəti ilə bağlı olduğunu qeyd etmişlər. Araşdırmalar Xocalı-Gədəbəy mədəniyyətinin Azərbaycanın şimalında meydana çıxdığını və e.ə. II minilliyin sonlarına yaxın cənub rayonlara yayıldığını göstərir. Bu dövrdə Xocalı-Gədəbəy mədəniyyəti boyalı qabların xarakterik olduğu Naxçıvan ərazisində də yayılmış və onu təsiri altına almışdır.

**Araşdırma.** Azərbaycanda son tunc və erkən dəmir dövrü abidələrinin böyük qrupu Xocalı-Gədəbəy mədəniyyətinə aid olduğundan, bu dövrə aid arxeoloji abidələrə Qarabağ ərazisində də rast gəlinmişdir. Qarabağın son tunc dövrünə aid yaşayış yerləri içərisində Üçtəpə, Rəsultəpə, Böyüktəpə, Göytəpə, Qaratəpə və digər abidələr özünəməxsus yer tutur.

Üçtəpə yaşayış yeri Üçtəpə kurqanları olan sahədə qeydə alınmış, 2 və 3 saylı kurqanların arasında yerləşmişdir. Bu abidə A.A.İessen tərəfindən Mil düzündə tədqiq edilmiş ən iri məskənlərdəndir. Üçtəpə yaşayış məskənində qazıntılar 1957-1960-cı illərdə aparılmışdır [8,104-127]. A.A.İessenin apardığı araşdırmalar zamanı qazma tipli, düzbucaqlı və ya oval formalı yaşayış evlərinin qalıqları aşkar olunmuşdur. Üçtəpədən çoxlu maddi-mədəniyyət nümunələri toplanmışdır. Bunların sırasına keramika, daş və sümük alətlər, qismən metal əşyalar daxildir. Burada kiçik tunc lövhə parçası və A.A.İessenin qeyd etdiyi kimi e.ə. X-VIII əsrlər üçün xarakterik olan tunc xəncərin tiyəsinin bir parçası tapılmışdır. Sümükdən olan əşyalar içərisində isə iki ədəd sümük biz qeydə alınmışdır. Üçtəpənin keramikası fraqmentlər şəklində təmsil olunsa da, tədqiqatçı keramika materiallarını iki qrupa bölmüşdür. Birinci qrupa müxtəlif tipli və quruluşlu bütün saxsı qab nümunələrini, ikinci qrupa isə onun şərti olaraq "manqallar" adlandırdığı keramika məmulatını daxil etmişdir. A.A.İessenin məlumatına görə manqalların divarı şaquli, quruluşu isə planda oval olub, yastı oturacağında uzununa açılmış deşiyi var. Bu tip manqallar hələ orta tunc dövründən Üzərliktəpədə istifadə olunmuşdur. Oxşar manqallar son tunc dövründə Qazax rayonundakı Sarıtəpə və Şəmkirdə Bitdili yaşayış yerində tapılmışdır [3, 62-65].

Namazalıtəpə yaşayış yeri Ağdam rayonunun Kəbləhüseynli kəndindən 300 m şərqdə yerləşir. Buradan toplanılmış saxsı kolleksiyası neolit və son tunc-erkən dəmir dövrlərinə aiddir. Son tunc dövrü materialları müxtəlif tipli qara və boz cilalı, dulus çarxında hazırlanmş keramika nümunələrindən ibarətdir. Onları iki qrupa ayırmaq olar. Birinci qrupa qalın divarlı, ağzının kənarı köbələnib yana əyilmiş küpələr daxildir. Əksər qablar sayadır, bəzilərinin səthi qabarıq paralel xətlərlə naxışlanmışdır. İkinci qrup keramika nazik divarlı, təmiz gili olan qara və boz cilalı qab nümunələrinin fraqmentləridir. Onların səthi üfüqi, şaquli, maili, çarpazlaşan və üçbucaq əmələ gətirən xətlərlə naxışlanmışdır [3, 65].

Ağdam rayonu ərazisində yerləşən Qaratəpə yaşayış yeri H.F.Cəfərov tərəfindən qeydə alınaraq tədqiq edilmişdi. Qaratəpədən əldə olunmuş arxeoloji

materiallar əsasən keramika, qismən daş alətlərdən ibarət olub son tunc və ilk dəmir dövrü üçün xarakterikdir. Keramika nümunələri içərisində müəyyən qədər manqal parçalarına da təsadüf olunmuşdur. Manqallar Üçtəpə yaşayış məskənindən tapılmış nümunələrlə bir tiplidir. Üçtəpə yaşayış yeri materialları ilə oxşarlıq səthi naxışlı başqa qablarla da təsdiq olunur. Qaratəpə keramikasının bir qrupu, xüsusilə alt qat küpələrinin bəziləri Qarabağ kurqanının (Bəyimsarov) dirsəkvari qulplu kuzələri ilə eyniyyət təşkil edir. Qaratəpədən tapılmış daş məmulatları içərisində dən daşları, sürtgəclər, həvəngdəstələr üstünlük təşkil edir. Ümumiyyətlə, daş alətlər say etibarilə başqa maddi-mədəniyyət nümunələrindən geri qalır. Bu da təbiidir, çünki, metallurgiya və metalişləmənin inkişafı ilə metal alətlərin istehsalı kütləvi xarakter daşıyırdı ki, bu da nəticə etibarilə daş alətlərin aradan çıxmasına səbəb olurdu [3, 67-69].

Quruçay və Köndələnçay vadisində tunc dövrunün sonu və dəmir dövrünün əvvəllərinə aid böyük yaşayış yerlərindən biri Zərgərtəpədir. Füzuli şəhərindən şimal-qərbdə yerləşən Zərgərtəpə abidəsi 1965-ci ildə qeydə alınmışdır. Həmin il təpənin üstündən qədim əkinçilik mədəniyyətinə məxsus çoxlu maddi-mədəniyyət nümunəsi toplanmışdı. Əldə olan bu tapıntıların bir qismini gil məmulatı təşkil edir. Onlar dulus çarxında və əldə hazırlanmış müxtəlif formalı qabların qırıqlarından ibarət olmaqla Cənubi Qafqaz ərazisində tunc dövrünün sonu və dəmir dövrünün əvvəlləri üçün xas olan dulus məmulatının xüsusiyyətlərini özlərində cəmləşdirmişdir. Əsasən boz və qara rəngli bu qırıqların üzərində üfüqi batıq zolaqlarla, kəsmə xətt və çərtmələrlə, həmçinin şüyrələnmə üsulu ilə çəkilmiş müxtəlif naxışlar vardır. Eyni formalı və naxışlı qab nümunələri Azərbaycanın son tunc dövrünə məxsus digər qədim yaşayış yerlərində və qəbir abidələrində də geniş yayılmışdır. Oxşar qablar Cənubi Qafqazın mərkəzi və şərqində qeydə alınmış həmdövr abidələrindən də tapılmışdır [7, 65].

Zərgərtəpə abidəsindən hər iki üzü və ucu qəlpələnib itiləşdirilmiş toxalar tapılmışdır. Belə toxalar uzunsov düzbucaqlı şəkildə olmaqla həm ağır, həm də ölçücə böyükdür. Onların orta hissəsi hər iki üzdən qabarıq şəkildə saxlanılmışdır. Qeyd etmək lazımdır ki, belə toxaların başqa nümunələri Qaraköpəktəpə, Yumrutəpə, Göytəpə, Kültəpə kimi abidələrin özündən və onların ətrafındakı geniş əkin sahələrindən tapılmışdır.

Zərgərtəpə ilə Qaraköpəktəpə arasındakı qədim əkin sahəsindən formasına görə fərqlənən bir ədəd başqa toxa nümunəsinə təsadüf olunmuşdur. Yaşımtılboz rəngli bazaltdan düzəldilmiş bu toxa öz forması ilə bir növ isgənəni xatırladır. Onun ağız hissəsi enli və düz olub iri qəlpələr qopardılmaqda bir üzdən itiləşdirilmişdir. Yuxarı hissəsi isə ensiz, yarımdairəvi şəkildədir. Qeyd etməliyik ki, Azərbaycan ərazisində daş toxalara tunc dövrünün sonu, dəmir dövrünün əvvəllərinə aid bir sıra abidələrdə təsadüf olunmuşdur. İlk dəfə belə alətlər Göygöl yaxınlığındakı qədim yaşayış yerində aşkar edilmişdir. Sonralar onların ayrı-ayrı nümunələri Alazan və Ağstafa çaylarının vadilərindəki abidələrindən tapılmışdır [6, 32-33].

Borsunluda tədqiq edilən son tunc dövrü kurqanlarının biri qəbilə başçısına aid edilmişdir. Bu kurqanın altında sahəsi 256 $m^2$ olan böyük qəbir kamerası qeydə alınmışdır. Arxeoloji qazıntılardan kurqanın qarət edildiyi ehtimal olunur. Qəbirdə dünyəvi və dini hakimiyyəti əlində cəmləşdirən tayfa başçısı dəfn edilmişdir. Tayfa başçısı tunc və qızıl mıxlarla, tunc lövhələr bərkidilmiş ağac döşəmə üzərində dəfn edilmişdir. Onun doqquz nəfərdən ibarət qul və kənizləri olmuşdur [1, 197]. Xatırladaq ki, tayfa başçısı ilə yanaşı onun qul və kənizlərinin dəfn olunmasına Azərbaycanın Muğan (Morqanın qazıntıları), Gəncəçay (E.Resler və Y.Hümmelin qazıntıları), habelə Qarabağ (Dovşanlı, Axmaxı kurqanları) abidələrində dəfələrlə təsadüf edilmişdir.

Borsunlu kurqanı keramikası içərisində boşqablar xüsusi yer tutur. Boşqablar içərisində qırmızı rəngli, səthi qırmızı şüyrə ilə dalğalı, torşəkilli, yolkavari, habelə içərisi nöqtəli basma dairələrlə bəzənmiş bir qab başqalarından seçilir. Xocalı-Gədəbəy və ümumiyyətlə Azərbaycan abidələrində qırmızı şüyrəli naxışlı qabın varlığı məlum olmasa da, bütövlükdə təsvir olunan boşqablar müəyyən qədər Xocalı-Gədəbəy mədəniyyəti abidələri materiallarına daxil olan xeyrələrdən kəskin surətdə fərqlənir. Bu fərq həm boşqabların formasında, həm də naxışlamanın özünəməxsusluğunda özünü biruzə verir. Şüyrəli, dalğavari, xaçşəkilli, yolkavari, habelə ştamplama "sirkul naxışları" nın müxtəlif variantlarına Qarabağın dağlıq hissəsinin son tunc dövrü materiallarına da təsadüf edilmişdir. Boşqabların birbaşa analogiyasına nə qədər qəribə görünsə də, məşhur Troya abidəsinin müvafiq təbəqəsində təsadüf edilmişdir. Maraqlıdır ki, Troya boşqabları həm forma, həm də naxışlama, xüsusilə şüyrəli enli xətlərin yaratdığı xaç nişanı ilə Borsunlu boşqablarını xatırladır. Troyanın boşqablar tapılmış təbəqəsi e.ə. 1240-1170-ci illərə aid edilir ki, bu da böyük Borsunlu kurqanı dövrünə uyğun gəlir. Keramika nümunələrindən biri ümumi saxsı qablar qrupundan qətiyyətlə seçilir. Ağ rəngli gildən hazırlanıb səthinə göy rənglə boya vurulmuş bu qab "assuriya tipli" şirli qablar sırasına daxildir. Qab sınmışdır və onun bir hissəsi qalmışdır. Qeyd etmək lazımdır ki, şirli qablara Azərbaycanın Lənkəran, Xocalı, Naxçıvan (II Kültəpə), Mingəçevir və son illərin məlumatına görə Xaçbulaq abidələrində təsadüf edilmişdir. Həmin tip qabların mədəni-iqtisadi əlaqələr vasitəsilə gətirilməsi şübhəsizdir [3, 98-105].

Bəyimsarov kurqanı Tərtər rayonunun Bəyimsarov və Sarov kəndləri arasında yerləşir. Borsunlu kurqanında olduğu kimi Bəyimsarov kurqanı da qarət edilmişdir. Qəbrin qərb hissəsi daha çox dağıntıya məruz qalmışdır. Bu hissədə varlı tayfa başçısı və onu "axirət dünyasına" müşayiət edən daha beş nəfər dəfn edilmişdir. Onların dəfnedilmə vəziyyəti həmin şəxslərin vaxtilə tayfa başçısının xidmətçiləri və kənizləri olmasını söyləməyə imkan verir. Belə ki, tayfa başçısının dəfn edildiyi yerə bilavasitə yaxın dəfn edilmiş üç ölü oturdulmuş vəziyyətdə, başı qərbə doğru, qalan ikisi isə şərq divarı önündə bükülü vəziyyətdə qoyulmuşdur. Maraqlıdır ki, axırıncı iki ölünün yanında avadanlıq (saxsı qablar, əqiq, pasta və balıqqulağından bəzəklər), habelə heyvan sümükləri ol-

duğu halda birincilərin yanında heç bir materiallara təsadüf edilməmişdir. Görünür oturdulmuş vəziyyətdə dəfn edilənlər cəmiyyətin ən aşağı nümayəndələri "qullar" olmuşlar. Qulların ağaları ilə dəfn edilməsinə məlum olduğu kimi Qarabağ (Dovşanlı, Axmaxı) və Borsunlu kurqanlarında da təsadüf edilmişdir.

Bəyimsarov kurqanı kompleksi materiallarının bir hissəsini metal əşyalar, tunc məmulatı təşkil edir. Şaxəli buynuzlu və sifəti çox aydın verilmiş tunc maral başı fiquru reallığı və forma bitkinliyi ilə diqqəti cəlb edir. Görünür, o tayfa başçısı dəfn edilmiş taxt-çarpayının üst 4 qolunu bəzəmiş maral başı fiqurlarından biri olmuşdur. Şübhəsiz başqa fiqurlar talançılar tərəfindən oğurlanmışdır. Xatırladaq ki, Alaca-höyük kurqanında tapılmış taxt-çarpayının dörd üst qolu məhz dörd tunc maral fiquru ilə bəzədilmişdir. Oxşar maral fiquru əzəli Azərbaycan yurdu olan Zəngəzur mahalının Tolors kurqanında da tapılmışdır. Yeri gəlmişkən qeyd edək ki, e.ə. XI-X əsrlərə aid həmin kurqanın bir çox materialları, o cümlədən səthi konnelyurlu, şüyrəli naxışlı, dirsəkli tək qulplu keramika nümunələri də həm Bəyimsarov, həm də Qarabağın dağlıq hissəsinin (Dovşanlı-Ballıqaya) həmdövr abidələri materialları ilə çox yaxındır [3, 109-114].

Xocalı-Gədəbəy mədəniyyətinin öyrənilməsində Xocalı abidələrinin böyük əhəmiyyəti vardır. Xocalı abidələri kompleksi yaşayış yerlərindən, daş qutu qəbirlərdən, müxtəlif tipli kurqanlardan, siklop tikililər, kromlexlərdən və menhirlərdən ibarətdir. Xocalı abidələri içərisində kurqanlar xüsusi yer tutur. Bu kurqanlarda tək və kollektiv dəfnlər olmuşdur. Xocalı kompleksində arxeoloji qazıntı işləri aparılmış qəbir abidələrini 4 tipə ayırmaq olar: 1. Kiçik ölçülü torpaq kurqanlar, 2. Böyük ölçülü torpaq kurqanlar, 3. Böyük ölçülü daş örtüklü kurqanlar, 4. Daş qutu qəbirlər.

I tip kurqanlara həm əsas "kurqan çölündə", həm "valin çölündə", həm də İlisu çayının sol sahilində təsadüf edilmişdir. Onlardan üçünü E.Resler, bir ədədini İ.Cəfərzadə, dördünü K.Kuşnaryeva qazıb öyrənmişdir. E.Reslerin qazdığı torpaq kurqanlardan yalnız 5 saylı kurqanda azacıq avadanlığa təsadüf olunmuşdur. İ.Cəfərzadənin qazdığı 5 saylı kurqanın ətəyi bir cərgə çay daşı ilə əhatələnmişdir. Qəbir kamerasına dolmuş çay daşlarının ağırlığından insan skeleti qalıqları ilkin quruluşunu dəyişmiş, buna görə də onun ilkin vəziyyətini tutmaq mümkün olmamışdır. Qəbir avadanlığı bərpası mümkün olmuş 7 saxsı qabdan, tunc sancaqdan, dəvəgözü və çaxmaqdaşından hazırlanmış ox ucluqlarından və əqiq muncuqdan ibarət olmuşdur. Saxsı qablar şar gövdəli, alçaq boğazlı, səthi naxışlı küpələr, qoşa qulplu bərni tipli qab və tək qulp bardaqla təmsil olunmuşdur. Bəzi küpələr şüyrəli naxışları, basma dairələri və göbələkvari çıxıntıları ilə Borsunlu kurqanı keramikasını xatırladır. K.Kuşnaryevanın qazdığı 2 saylı kurqanda sağ yanı üstə, bükülü halda dəfn olunmuş insan skeleti qalıqları aşkar olunmuşdur. Qəbirin qərb hissəsində əldə hazırlanmış, kobud formalı 3 saxsı qab tapılmışdır [2, 48-50].

Xocalının II tip kurqanlarında ölüyandırma adətinin varlığı izlənilmişdir. 1 saylı kurqanda kül qatı aşkar olunmuşdur. Kül qatı içərisində yanmış ağac qa-

lıqlarına və sümüklərə rast gəlinmişdir. Ağac yanıqlarına, kömür parçalarına və kül qatına təsadüf olunması, görünür burada vaxtilə dəfn olunmuş şəxsin yandırılması mərasimi ilə əlaqədardır. 2 saylı kurqanda tək dəfn olunmuş insan sümükləri ilə yanaşı, burada saxsı qab sınıqları və əqiq muncuqlar tapılmışdır. 1 saylı kurqanda olduğu kimi burada da kül təbəqəsi, yanmış ağac qalıqları, insan və heyvan sümükləri aşkar olunmuşdur.

III tip kurqanlar müxtəlif ölçülü olub, yalnız çay daşlarından qurulmuşdur. 11 saylı kurqan Xocalı abidələri içərisində ən çox fərqlənəni və diqqəti cəlb edənidir. Qəbirdən insan sümükləri, quş başı fiquru, dəmir əşya parçaları, qızıl əşyalar tapılmışdır. Bu kurqandan üzərində mixi yazısı olan bir ədəd kiçik muncuq tapılmışdır. İ.Meşşaninov müəyyən etmişdir ki, bu muncuğun üzərində e.ə. VIII əsrdə yaşamış Assuriya çarı Adadnirarinin adı yazılmışdır. Bu yazı təkcə Qarabağın deyil, eləcə də bütün Azərbaycanın siyasi-iqtisadi tarixinin öyrənilməsində böyük əhəmiyyətə malikdir [5,11]. Eyni zamanda Dovşanlı, Xocalı, Borsunlu və Bəyimsarov abidələrindən əldə olunmuş pasta və şüşə muncuqlar Misir, Mesopotamiya, Suriya, Fələstin və Finikiya ilə Qarabağ arasında olan mübadiləni göstərir [4, 44-48].

IV tip daş qutu qəbirləri A.İvanovskiy, E.Resler, İ.Meşşaninov və H.Cəfərov tərəfindən qazılmışdır. A.İvanovskinin tədqiq etdiyi 83 saylı daş qutu qəbirdə oturmuş vəziyyətdə tək adam dəfn olunmuşdur. Tapıntılar saxsı qab nümunələrindən, tunc qolbaq və üzükdən, muncuqlardan ibarətdir. Bütöv qalmış saxsı qab geniş ağızlı, enli yastı oturacaqlıdır, gövdəsi stilizə edilmiş heyvan fiqurlarından ibarət naxışla bəzədilmişdir. Bu qab həm formasına, həm də naxışlama texnologiyası ilə A.İvanovskinin qazdığı Dəmqolu və Gülyatağın ağ maddə ilə inkrustasiya edilmiş keramikası ilə bir tiplidir. İ.Meşşaninovun tədqiq etdiyi daş qutu qəbirlərdə qara cilalı saxsı qab qırıqlarına, tunc üzük parçalarına və tuncdan muncuqlara təsadüf edilmişdir [3, 92-94].

Xocalı, Dovşanlı, Borsunlu, Bəyimsarov, Sarıçoban kurqanlarından, Üçtəpə, Qaratəpə yaşayış yerlərindən iri buynuzlu mal-qara, davar, at sümükləri, Qarabulaq kurqanından isə dəvə skeleti tapılmışdır. At sümükləri və skeleti Dovşanlı, Borsunlu (8 baş), Bəyimsarov (6 baş), Sarıçoban (16 baş) kurqanlarından çox sayda əldə olunmuşdu. Qədim Qarabağda qoşqu və minik vasitəsi olan xüsusi cins atlar yetişdirilmişdi. Varlı icma üzvlərinə aid kurqanlarda dəfn mərasimlərində axirət dünyaya inamla və qurban kimi qəbirlərə qoyulmuş at skeletləri və onlara məxsus zəngin avadanlıqlar-əsləhələr (gəm, qantarğa və s.) bunu sübut edir.

**Nəticə**. Son tunc-erkən dəmir dövrü bəşər tarixində, eləcə də Azərbaycan tarixində fərqli inkişaf mərhələsinin başlanğıcı kimi yadda qaldığından, qeydə alınan yaşayış yerləri və qəbir abidələri də özünəməxsusluğu ilə seçilir. İnsanların ən qədim məskunlaşma arealında daxil olan Qarabağ bölgəmiz də bu baxımdan abidələrin, maddi mədəniyyət nümunələrinin zənginliyi ilə seçilir. Qarabağın qeyd olunan tapıntıları Şərqi Anadolu, Zəngəzur, Cənubi Qafqazın

mərkəzi və şərq əraziləri arasında iqtisadi-mədəni əlaqənin sıx olduğunu, eyni zamanda daha əvəlki dövrün mədəniyyətləri əsasında inkişaf etdiyini göstərir.

## Ədəbiyyat siyahısı


1. *Baxşəliyev V.B. Azərbaycan arxeologiyası. I cild. Bakı:" Elm", 2006, 236 s.*
2. *Cəfərov H.F. Xocalı arxeoloji abidələr kompleksləri: I qrup kurqanlar // Azərbaycan arxeologiyası. Bakı: Xəzər Universiteti, 2016, cild 19, say 1, 46-54 s.*
3. *Cəfərov H.F. Azərbaycan e.ə. IV minilliyin axırı-I minilliyin əvvəllərində (Qarabağın Qarqarçay və Tərtərçay hövzəsinin materialları əsasında). Bakı: "Elm", 2000, 187 s.*
4. *Əliyev V.H. Qarabağ (Qədim dövr). Bakı: Çaşıoğlu- Multimedia, 2010, 204 s.*
5. *Göyüşov R.B. Qarabağın keçmişinə səyahət. Bakı: "Azərnəşr", 1993, 49 s.*
6. *İsmayılov Q.S. Quruçay və Köndələnçay vadisində qədim mədəniyyət izləri. Bakı: "Elm", 1981, 31 s.*
7. *İsmayılov Q.S. Zərgərtəpə abidəsi və Azərbaycanda qədim toxa əkinçiliyinin bəzi məsələlərinə dair // Azərbaycan SSR EA Xəbərləri (Tarix, fəlsəfə və hüquq seriyası). 1968, №1, 65-73 s.*
8. *Иессен.А.А. Поселение Учтепе (1958-1960) // МИА СССР. 1965,№ 125, с. 104-127*

**UOT 94 (479.24)**

# AZƏRBAYCAN DÖVLƏTÇİLİK TARİXİNDƏ ELDƏNİZ ATABƏYLİYİNİN ROLU

**NİGAR HƏMİDOVA**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, doktorant*
*nigaribrahimova555@gmail.com*

*Hər bir xalqın özünəməxsus dövlətçilik ənənələri tarixi vardır ki, türk dövlətçilik tarixinin araşdırılması zamanı bu cəhət xüsusilə nəzərə çarpır. Tarix boyu türklər orduda, hərbi işdə öndə olduqlarından onların dövlətçiliyində hərbi demokratiya üstünlük təşkil etmişdir. Buna baxmayaraq, türklər təkcə hərb sahəsində deyil, dövlətin bütün sahələrində önəmli rol oynamış, mədəni irsimizin inkişafında misilsiz xidmətlər göstərmişdilər. Türklər ilk çağlardan Orta Asiyadan başlayaraq Hindistana, Ön Asiyaya, Orta Avropaya və Balkanlara böyük köçlər etmişdilər. Müsəlman olmadan öncə və müsəlman olandan sonra qərbə və cənuba doğru irəliləyən türklərin müxtəlif boyları siyasi və idari sistemlər qurmuş və dünya tarixində özünəməxsus rolu və yeri ilə seçilən dövlətlər yaratmışdılar. Tarixən türklərin yaşadığı və bir çox türk axınlarının şahidi olan Azərbaycanda hakimiyyətlər və hakim sülalələr dəyişsə də, dövlət dəyişməz olaraq qalmışdır. Azərbaycan xalqı tarixi Azərbaycan torpaqlarında zəngin və özünəməxsus bir mədəniyyət, o cümlədən dövlətçilik ənənələri yaratmışdır. Bu yazımızda Azərbaycanın türk dövlətlərindən biri olan və dövlətçilik tariximizdə önəmli rol oynayan Azərbaycan Atabəyləri dövləti tarixindən bəhs edəcəyik.*

***Açar sözlər:*** *dövlətçilik anlayışı, Böyük Səlcuqlu imperatorluğu, Azərbaycan Atabəyləri dövləti, Şəmsəddin Eldəniz, İraq Səlcuq sultanlığı*

## *THE ROLE OF ATABEY ELDENIZİDS IN THE HISTORY OF AZERBAIJANI STATEHOOD*

*Each nation has its own history of statehood traditions, which is especially noticeable when studying the history of Turkic statehood. Throughout history, military democracy has dominated on the statehood of the Turks, as they excelled in the army and military work. Nevertheless, the Turks played an important role not only in the military sphere, but in all spheres of the state, and rendered unparalleled services in the development of our cultural heritage. From the earliest times, the Turks migrated from Central Asia to India, the western Asia, the Central Europe, and the Balkans. Before and after becoming Muslims, the Turks, who moved west and south, established various political and administrative systems, and created states which played unique role in world history. Although governments and ruling dynasties had changed in Azerbaijan, which had historically been inhabited by Turks and witnessed many Turkic flows, the state has remained unchanged. The people of Azerbaijan have historically created a rich and unique culture in the lands of Azerbaijan, including the traditions of statehood. In this article, we will talk about the history of the Azerbaijani Atabeks state, which is one of the Turkic states of Azerbaijan and plays an important role in the history of our statehood.*

***Keywords:*** *The concept of statehood, the Great Seljuk Empire, the Atabey state of Azerbaijan, Shamsaddin Eldaniz, the Seljuk sultanate of Iraq*

**Giriş.** Böyük Səlcuq imperiyasının yaranması, çiçəklənməsi və parçalanması Yaxın və Orta Şərqin gələcək tarixi həyatında əhəmiyyətli rol oynadı. 1040-cı ildə Dandanakanda Qəznəviləri məğlubiyyətə düçar edərək qısa müddətdə Şərqi İslam dünyasını əllərinə keçirən Səlcuqlular Abbasilərdən sonra ilk dəfə olaraq islam dünyasını türklərin rəhbərliyində birləşdirdilər. İslam dünyasını öz hakimiyyəti altında birləşdirən, böyük fəthlər həyata keçirən Səlcuq imperiyası idarəetmə və quruluş baxımından bir o qədər möhkəm və qüvvətli birləşmə deyildi. İmperiyaya daxil olan ölkə və əyalətlərin iqtisadi və etnik əlaqələr baxımından ümumiliyi çox az idi. Səlcuqluların tabeliyində olan ərazilər onların nəslinin şəxsi mülkiyyəti sayılırdı və sultanın yaxın qohumlarının taxt-tac uğrunda qaldırdığı qiyamlar dövləti zəiflədirdi.

İmperiyanın tənəzzülünün siyasi, sosial səbəbləri ilə bərabər həm də, hələ Səlcuqlulardan əvvəl mövcud olmuş, Səlcuqlular dövründə öz inkişafının ən yüksək dövrünü yaşamış atabəylik müəssisəsini göstərmək olar. Qaynaqların Səlcuqluların idarə sistemi haqqında verdiyi məlumata görə, sultanlar kiçik yaşda olan şahzadələrə tərbiyəçi olaraq atabəylər təyin edirdilər. Atabəylər böyük vəzifədə çalışan nüfuzlu oğuz bəyləri arasından və yaxud sultanın məmlüklərindən olub, öz xidmətləri ilə sədaqət və qüdrətlərini göstərmiş və əmirlik dərəcəsinə yüksəlmiş şəxslər arasından seçilirdi. İmperiyada böyük sultanın, yəni mərkəzi idarənin nüfuzu davam etdikcə atabəylərin açıqdan-açığa istiqlal mübarizəsi aparmayacaqları, sultanın yüksək hakimiyyətini tanıyacaqları təbii hal idi. Xüsusilə, Sultan Səncərin ölümündən sonra atabəylərin bir çoxu atabəyləri olduqları Səlcuq şahzadələrinin yerinə hakimiyyətlərini öz xeyirlərinə icra etməyə başladılar, yəni çoxdan bəri davam edən feli hakimiyyətlərinə hüquqi şəkil verdilər. Beləcə, orta əsr İslam tarixində Səlcuq sülaləsinə xələf olaraq ümumi sürətdə Atabəylər deyilən müxtəlif sülalələr təşəkkül etdi. Şam Atabəyləri (Börilər), Mosul Atabəyləri (Zəngilər), Azərbaycan Atabəyləri (Eldənizlilər) belə təşəkkül etmiş dövlətlər idilər.

**Atabəy Şəmsəddin Eldəniz və Azərbaycan Atabəyləri dövləti.** Mövcud olan yeni vəziyyət Orta Şərqdəki türk hakimiyyətinin ikinci dövrünün başlaması idi. Yəni, Səlcuqlularla birlikdə böyük bir türk imperatorluğu hakimiyyətdən çəkilir, onun yerinə daha kiçik və bölgəsəl türk dövlətlərinin hakim olduğu yeni bir dövr başlayırdı. Elə bu dövrdə ortaya çıxan türk dövlətləri içərisində Qafqaz bölgəsinin hakimi Azərbaycan Atabəylər dövləti önəmli rol oynayırdı. Bu dövlət 75 il yaşayaraq həm qərbi İran, həm də Azərbaycanda güclü bir hakimiyyət quracaq, bununla bərabər artıq süquta doğru gedən İraq Səlcuqluları dövlətinin 25 ildən çox yaşamasına kömək edəcək, Abbasi xəlifələrinin yenidən Orta Şərqdə hakimiyyətlərini qurmağa yönələn siyasətlərini önləyəcəkdi. Və bütün bunları bacaran Səlcuqlu əmiri Atabəy Şəmsəddin Eldəniz idi.

Orta əsr mənbələri Eldənizin ailəsi, uşaqlığı və soyu haqqında geniş məlumat verməmişdir. Ancaq mənbələr Eldənizin qıpçaq əsilli məmlük olduğunu və Dəşti Qıpçaqdan gəldiyini xəbər verməkdədir. XV əsr müəllifləri olan Mirxond

(1433-1498) "Rövzət əs səfa" və onun nəvəsi Xondəmir (1475-1536) "Həbib əs-siyar" əsərində Eldənizin gəncliyi haqqında bir qədər ətraflı məlumat vermişlər [3, s.48]. Mirxond öz əsərində yazır: Məlumatlı tarixçilər xəbər verirlər ki, qıpçaq ölkəsində qədim çağlarda belə bir adət var idi: əgər hər hansı bir tacir bir dəfəyə 40 qul alsaydı, onları satan ondan yalnız otuz doqquz qulun pulunu alır, qırxıncını pulsuz verirdi. Belə olmuşdu ki, Sultan Mahmudun hakimiyyəti dövründə (1118-1131) bir qul alverçisi 39 qulu satıb, qırxıncı qul üçün pul götürməmişdi. Həmin qul da yöndəmsiz və çirkin Eldəniz olmuşdur [3, s.48]. İraqda bu qulları sultanın vəziri Əbu Hamid Əli ibn Əhməd əs-Süməyrəmi tacirdən satın almış və Eldəniz onun əmrində sarayda xidmətə başlamışdır [6, s.46]. Süməyrəminin 9 may 1122-ci ildə Bağdadda Batinilər tərəfindən bir sui-qəsd nəticəsində öldürülməsindən sonra bütün sərvəti Sultan Mahmud tərəfindən müsadirə edilincə, Eldənizin də yeni əfəndisi İraq Səlcuqluları sultanı oldu [10, s.46]. Onun hakimiyyəti zamanı Eldənizin qulamxanada yetişdirildiyi məlumdur. Ziya Bünyadov yazır ki, Sultan onun bacarığını görüb onun tərbiyəsini əmir Əmir Nəsrə tapşırdı [3, s.49]. Qısa müddətdə Əmir Nəsrin yanında özünün igidlik və ləyaqətini nümayiş etdirən Eldəniz hər kəsin rəğbətini qazandı və onu sultan mətbəxinə başçı qoydular. Sultan Mahmudun 1131-ci ildə ölümündən sonra İraq əmirləri bu zaman Təbrizdə olan Davuda xəbər göndərdilər və onun hakimiyyətini qəbul etdilər [15, s.134]. Davudun hakimiyyəti uzun sürmədi. Belə ki, Sultan Səncər II Toğrulu vəliəhd təyin edərək onu İraq Səlcuq Sultanlığı taxtına oturtdu [10, s.149; 16, s.70; 12, s. 201]. Sultan II Toğrulun hakimiyyəti zamanı Eldəniz sultanın şəxsi məmlükləri sırasına keçirildi. Sultanın məsləhətçisi olan xanımı Mömünə xatunun təşəbbüsü sayəsində Eldəniz qısa müddətdə sultanın rəğbətini qazandı və Sultan II Toğrul onun sadiqliyini qiymətləndirərək, onu əmir rütbəsinə qədər yüksəltdi [6, s.47]. Mənbələr Eldənizin ağıllı, səbrli və zəki olması haqqında məlumat verirlər. Eldəniz başqaları onu sultana şikayət etməsinlər deyə çox diqqətli hərəkət edir, heç vaxt saray münaqişələrinə qarışmır və bir-birilə kəskin ədavət aparan əmirlərin hər hansı bir dəstəsinin tərəfini saxlamırdı [5, s.13; 3, s.49]. Göründüyü kimi, Eldəniz uzaqgörən siyasəti nəticəsində vəzifə pillələrində sürətlə irəliləyirdi. Çox keçməmiş Sultan II Toğrul Eldənizi kiçik yaşlı oğlu Arslan şahın atabəyi vəzifəsinə təyin etdi [3, s.49]. Böyük Səlcuq imperatorluğunda yüksək bir vəzifə olan atabəylik, əsasən, yüksək məqam sahiblərinə verilirdi.

Sultan II Toğrulun hakimiyyəti uzun sürməmiş, 1135-ci ildə Həmədanda vəfat etmişdir. Onun ölümündən sonra Bağdadda olan Sultan Məsud İraq əmirlərinin dəvəti ilə Həmədana gələrək İraq Səlcuqlu Sultanlığı taxtına oturmuşdur [12, s.217-218; 16, s.74; 10, s.160]. Sultan Məsud hələ özünün qısamüddətli hakimiyyəti zamanı Eldənizi sultan mətbəxinin nəzarətçisi vəzifəsindən qoşun başçısı vəzifəsinə təyin etmişdir [5, s.12; 3, s.190]. İbn əl-Cözviyə istinadən Z.Bünyadov Sultan Məsudun 1132-ci ildə Eldənizi Bağdadın şihnəsi vəzifəsinə təyin etməsi haqqında məlumat vermişdir [3, s.190]. Sultan Məsud II Toğrulun

ölümündən sonra Eldənizi 1136-cı ildə mərhum II Toğrulun dul qadını Mömünə xatınla evləndirdi və onu iqamətgahı Gəncə olan Arranın valisi təyin etdi. Eldənizin Arrana vali təyin olunaraq Azərbaycana göndərildiyi tarix mənbələrdə dəqiq olaraq göstərilməmişdir. Bu da tarixçilər arasında fikir ayrılığına səbəb olmuşdur. İranlı tarixçi Hüseyn Əlyari öz əsərində Eldənizin Sultan Məsud tərəfindən Azərbaycana və Arrana vali təyin edilməsini 1146-cı il olaraq qeyd etmişdir. Türk tarixçisi Hüseyn Kayhan Azərbaycan Atabəyləri dövləti haqqında yazmış olduğu məqaləsində dövlətin yaranma tarixinin mənbələrdə dəqiq göstərilmədiyini əsas gətirərək dəqiq tarix göstərməmişdir. Bununla yanaşı, müəllif Eldənizin Azərbaycana atabəy olaraq göndərildiyi tarixin 1146-cı ildən əvvəl olduğunu qeyd etmişdir [6, s.47]. İslam ensiklopediyasında Eldəniz və Eldənizlilər dövləti haqqında məqalə yazan Gülay Bezer dövlətin yaranma tarixini 1148-ci il olaraq bildirmişdir [7, s.82]. Zənnimizcə, Eldənizin atabəy olaraq Azərbaycana göndərilməsi və dolayısı ilə dövlətin yaranması 1136-cı ildə olmuşdur. Belə ki, İbn əl-Əsir öz əsərində yazır ki, "sultanlıq Məsuda keçəndə o, Eldənizi Arrana vali təyin etdi. Arrana gedəndən sonra Eldəniz nə Sultan Məsudun, nə də başqalarının xidmətinə qayıtmadı. Sonra Eldəniz Azərbaycanın böyük hissəsinə, əl-Cibal ölkəsinə, Həmədana və onun torpaqlarına, İsfahana, Reyə və başqa yerlərə malik oldu və bu yerlərdə arvadının oğlu olan Arslan şah ibn Toğrula xütbə oxutdurdu" [9, s.116]. Fəzlullah Rəşidəddin "Cami ət-təvarix (Zikr-i Tarix-i Al-i Səlcuq)" adlı əsərində Eldənizə Sultan Məsud tərəfindən Arranın iqta olaraq verilməsini qeyd etmişdir [15, s.164]. Sultan Məsud hakimiyyətə 1135-ci ildə gəldiyi üçün 1136-cı ildə Eldənizi Arrana vali təyin etməsi məqbul hesab olunur. Yenə İbn əl-Əsir əsərinin başqa bir yerində 1148-1149-cu il hadisələrindən bəhs edərkən Eldənizi "Azəbaycanda Gəncə və Arranın sahibi" kimi qeyd etmişdir [9, s.110].

Eldənizin gəldiyi zaman Azərbaycan və Arran torpaqlarının valisi olan Qara Sunqur gürcü basqınlarına qarşı mübarizə aparırdı. Qara Sunqurun ordusu ilə birlikdə Fars və Xuzistanda olduğu vaxt gürcü komandir Yovane zəlzələ nəticəsində dağılmış Gəncəyə hücum etmiş, minlərlə insanı öldürmüşdü. Həyat yoldaşı və uşaqları da ölənlər arasında olan Qara Sunqur gürcülərin geri çəkilməsinə müvəffəq olsa da, ailəsinin ölümünə dayana bilməyib Ərdəbildə vəfat etmişdi (1140-1141) [6, s.47]. Onun ölümündən sonra Sultan II Toğrulun kölələrindən olan Çavlı Candar bölgənin idarəsini öz əlinə aldı və bu vəziyyət Sultan Məsud tərəfindən təsdiq olundu [9, s.48]. Çavlı Candarın 1146-cı ildə ölümündən sonra iqtaları olan Gəncə və Arran torpaqları Hacib Əbdürrəhman Toğan Yürəyə atabəy adı ilə iqta edildi [3, s.39]. Bu əmirin üsyançı hərəkətlərini görən Sultan Məsud Əmir Xass-bəy və Zəngi Candarın əli ilə gürcülər üzərinə yürüşə hazırlanan Toğan Yürəyi öldürtdü [6, s.48]. Bu güclü əmirlərin ortadan qaldırılmasından sonra bütün Azərbaycanın idarəsi 50 minlik güclü orduya sahib olan Atabəy Şəmsəddin Eldənizin idarəsi altında oldu. Sultan Məsudun Azərbaycanda canişini olan Çavlının ölümündən (1146) sonra Eldəniz yaran-

mış qarışıqlıqdan istifadə edərək, Naxçıvan vilayətini də öz torpaqlarına birləşdirdi [9, s.110].

1145-1146-cı illərdə Farsın türk hakimi Boz Aba və Rey valisi Abbas aralarında ittifaq quraraq Sultan Məsudun qardaşı oğullarından Məhəmməd və şahzadə Məlikşahı İsfahana gətirdilər [12, s.223; 15, s.138]. Sultan Məsudun hacibi Əbdürrəhman Toğan Yürək də onlarla sultana qarşı birləşdi [15, s.138]. Sultanın yanında çox əsgəri olmadığından, qullarından ən itaətlisi olan Atabəy Eldənizə müraciət edərək Azərbaycandan hərəkət edib sürətli şəkildə yanına gəlməsini istədi [12, s.224; 15, s.138]. Atabəy böyük bir ordu ilə təcili olaraq yola çıxıb Sultan Məsudla birlikdə Kaşan ətrafında qiyamçıların qarşısına çıxdı. İlk çarpışmalardan sonra qiyamçılar sultan ilə atabəyin gücləri qarşısında geri çəkilməyə başladılar. Göründüyü kimi, bu hadisə Atabəy Eldənizin sultanın sadiq əmirlərindən olduğunu, İraq Səlcuqlu sultanlığı nəzdində nüfuzunun artdığını göstərməkdədir. İraq Səlcuqlu dövləti qulamların və dövlətdə əsgəri xidmətdə olan türkmən bəylərinin basqı və təhdidi altında qalmaqda idi. Bu qulam və türkmən bəyləri Abbasi xəlifələri ilə, həmçinin türklərin Orta Şərqdə varlığına son qoymağı özünün milli siyasəti halına gətirmiş bir qrup insanlarla ortaqlıq etməkdən çəkinmirdilər. Bütün bunlar Səlcuqluların bölgədə nüfuzuna zərbə vururdu. Ancaq Eldəniz uzaqgörən siyasəti nəticəsində bu əmirlərdən fərqlənirdi. O, Sultan Məsuddan sonra taxta çıxan hökmdarların yanlış idarəetmələri nəticəsində İraq Səlcuqluları dövlətinin süquta doğru getdiyini görmüş, dövləti idarəsi altına alaraq süqutunu gecikdirmişdi. Səlcuqlu xanədanı çökərkən onların hakim olduqları torpaqlar üzərində mərkəzi hakimiyyət quraraq, türklərin hakimiyyətini qorumağa çalışmış və oğullarını bu yöndə yetişdirmişdi [6, s.49]. Həyat yoldaşı vasitəsilə Səlcuqlu sarayına qohum olması ona bu istiqamətdə böyük kömək etmişdi. Mənbələrdən görünür ki, Şəmsəddin Eldəniz bu həyəcanlı dövrdə irəli getməsinə kömək edən döyüşçü və siyasətçi keyfiyyətlərinə malik idi. Mənbələr onun fəaliyyətinin birinci dövründən danışarkən sultana və onun ailəsinə sədaqətliliyini qeyd edirlər.

1152-ci ildə Sultan Məsud Həmədanda vəfat etdi, qardaşı oğlu Məlikşah ibn Mahmud taxta çıxdı. Vəzir Xass bəy Bələncəri qısa müddət sonra onu həbs edib yerinə qardaşı Məhəmmədi taxtda oturtdu. Ancaq yeni sultan hakimiyyətə keçdikdən sonra onu hakimiyyətə gətirən Bələncərini edam etdirib başını Atabəy Şəmsəddin Eldəniz və Marağa hakimi Əmir Nüsrətəddin ibn Ağsunqura göndərdi [15, s.149, 152]. Sultan bu hərəkəti ilə onların itaətdə sadiq olacaqlarını, üsyana cəhd etməyəcəklərini zənn edirdi. Ancaq onun bu hərəkəti bu əmirləri qorxutmadı, əksinə onlar ordu toplayaraq sultanın Fərrazin qalasında həbsdə olan əmisi Süleyman şahı Zəncandan gətirib Həmədanda taxtda oturtdular [12, s.251-252]. Beləcə, Süleyman şah yanında Arran hakimi Şəmsəddin Eldəniz, Marağa hakimi Nüsrətəddin Arslan Apa, Alp Quş Gün-qur, Fəxrəddin Zəngi Həmədana doğru irəlilədilər. Sultan Məhəmməd şəhəri tərk edərək İsfahana qaçdı [10, s.211; 15, s.153]. Hakimiyyəti ələ keçirdikdən sonra Süleyman

şah içki məclislərinin aludəçisi oldu. Bunu görən müttəfiqləri ondan ayrıldılar, Şəmsəddin Eldəniz gürcülərin Arrana hücumunu, İbn Bələncərinin əmisi oğlu Rəvvadinin Arranda yaranmış qarışıqlıqdan istifadə edərək qiyam etmək fikrində olduğunu bilərək öz ölkəsinə geri döndü [10, s.212]. Mənbələr Süleyman şahın Həmədanda birinci hakimiyyətinin 27 gün davam etdiyini xəbər verirlər [15, s.154]. Süleyman şah ordunun ona qarşı baş qaldırdığını və Sultan Məhəmmədi hakimiyyətə gətirmək istəmələrini bilib, xəzinədən bir miqdar pul götürərək Həmədanı tərk etdi. Xorasan, Mazandaran və İsfahana getsə də, heç bir yardım ala bilmədən Bağdadda xəlifənin himayəsinə sığındı [15, s.154; 12, s.253]. Xəlifə tərəfindən tam təchizatlı ordu ilə təmin olunan Süleyman şah Azərbaycan tərəfinə gəlmiş və Atabəy Şəmsəddin Eldənizlə qüvvələrini birləşdirmişdir. Sultan Məhəmməd onların hazırlıqlarından xəbərdar olunca, Həmədandan hərəkət edərək onların üzərinə yürüş etmiş, Araz çayı sahilində Beyləqan yaxınlığında döyüşə başlamışdır. Bu döyüşdə Süleyman şahın ordusu dağılmış, özü isə Mosula qaçmışdır [15, s.156; 12, s.256]. Şəmsəddin Eldəniz yenə də uzaqgörən siyasəti nəticəsində sultandan üzr istəyərək onun könlünü xoş tutmuşdur [15, s.156; 16, s.100]. Sultan onun üzrxahlığını qəbul edib onun Arrandakı hakimiyyətini təsdiq etmişdir. Ancaq onun itaətindən əmin olmaq üçün oğlu Məhəmməd Cahan Pəhləvanı sarayda girovda saxlamışdır.

Sultan Məhəmmədin İraq və Bağdadda adına xütbə oxunması istəyinin bir neçə dəfə xəlifə tərəfindən rədd edilməsindən sonra sultan 30 minlik ordu ilə Bağdad üzərinə yürüş etdi [16, s.94; 6, s.51]. Xəlifə Səlcuq əmirlərinin arasındakı ziddiyyətlərdən istifadə edərək, Eldənizi dilə tutdu ki, uzun müddətdir Bağdadı mühasirədə saxlayan Sultan Məhəmmədə qarşı çıxış etsin. Xəlifənin vəziri ibn Hübeyrə bu barədə Eldənizə bir neçə məktub yazdı və Eldəniz Azərbaycan qoşunları ilə İraq sultanlığının paytaxtı Həmədan şəhərinə hərəkət etdi [3, s.192]. Sultan Məhəmməd dərhal Bağdadın mühasirəsindən əl çəkərək, Həmədana yollandı. Lakin Eldəniz gürcülərin Azərbaycana soxulması bəhanəsi ilə öz qoşunlarını dərhal Həmədandan geri çəkdi [3, s.192]. Sultan Məhəmmədin Bağdadı yenidən ələ keçirmək istəyi yarımçıq qaldı, 1160-cı ildə vəfat etdi. Sultan Məhəmmədin ölümündən sonra əmirlər aralarında məşvərət edərək Süleyman şahı Mosuldan gətirib 1160-cı ilin martında Həmədanda taxtda oturtdular. Yeni sultan Süleyman şah atabəy Eldənizin qüdrət və nüfuzunu, onun necə təhlükə yarada biləcəyini görüb, atabəyə oğulluğu Arslan şahın vəliəhd təyin edilməsi haqqında əmr göndərdi. Sultan Süleyman şah tədbirsiz, ağılsız və ifrat dərəcədə şərab içən idi. Əsgərlər onun əmirlərini yerinə yetirmir, əmirlər isə ondan şikayətçi idilər. Beləliklə, əmirlər Arranın və Azərbaycanın əksər yerlərinin sahibi Şəmsəddin Eldənizin yanına adam göndərib onu dəvət etdilər ki, onun yanında qalan Arslan şahın adına xütbə oxutsunlar [6, s.51]. 1161-ci ildə Eldənizin qoşunları Həmədanı tutdu və Sultan Süleyman şah taxtdan salındı, sonra isə qalaya salınaraq öldürüldü. İraq sultanlığının taxtına Eldənizin oğulluğu Arslan şah çıxarıldı. Arslan şahın adı xütbələrdə çəkilməyə, sikkələrdə ba-

sılmağa başladı [3, s.192; 9, s.111]. Arslan şah sultan elan olunduqdan sonra onun atabəyi "ulu atabəy" ləqəbini aldı [2, s.409]. Eldənizin oğlanları - Arslan şahın ana tərəfdən qardaşları da yüksək dövlət vəzifələrini tutdular. Əbu Cəfər Məhəmməd Cahan Pəhləvan böyük əmir hacib vəzifəsinə təyin olundu, Müzəffərəddin Qızıl Arslan Osman isə ali baş komandan oldu [4, s.279]. Beləliklə, Şəmsəddin Eldəniz İraq sultanlığının həqiqi başçısı oldu, Arslan şah yalnız sözdə dövlətin başçısı idi, atabəy Eldəniz "fərmanlar verir, torpaqları iqta şəklində paylayır, xəzinə anbarlarını ixtiyarında saxlayır, özü istədiyi kimi onları ölkənin hər hansı bir yerinə köçürürdü". Eldəniz dövlət işlərində həlledici səsə malik idi, o həm də, "məlik" titulunu daşımağa başladı ki, bu da onun hakimiyyətinin öz torpaqlarında irsi olduğunu göstərirdi. O, xarici siyasət üçün məsuliyyət daşıyır, müharibə elan olunması və qoşun toplanması məsələlərini həll edirdi. O, həmçinin öz adının sikkə üzərində zərb olunması və xütbələrdə xəlifə və sultan adları ilə yanaşı çəkilməsi hüququnu qazandı.

**Azərbaycan Atabəyləri dövlətinin çiçəklənməsi və inkişafı.** Atabəy Eldənizin Arslan şahı İraq Səlcuqlu taxtına oturtması və onun hakimiyyətini qoruması heç də asan olmadı. Arslan şaha qarşı taxtın iki iddiaçısı daha var idi: Marağa atabəyi nəzarətində olan Mahmud şah Məhəmməd və Fars hakiminin nəzarəti altındakı Mahmud şah Məlikşah. İraq Səlcuqlu sultanlığında baş verən hadisələri yaxından təqib edən xəlifənin vəziri İbn Hübeyrə İraqdakı mövcud vəziyyəti qorumaq və Səlcuqlu təhlükəsini Bağdaddan uzaq tutmaq məqsədilə Eldənizin sultan üzərindəki gücü və nüfuzu qarşısında narahatlıq yaşayan narazı əmirləri onlara qarşı üsyana cəlb etdi. O, Rey hakimi İnanca, Marağa hakimi Nüsrətəddin Arslan-Aba ibn Ağ Sunqur Əhmədiliyə, Fars hakimi Sunqur ibn Mədud Salquriyə, Qum hakimi Sökmən ibn Qaymaza, Ərdəbil hakimi Ağ Quşa, Qəzvin hakimi Alp Arquna məktub göndərdi [3, s.52; 12, s.273; 15, s.165, 16, s.103]. Xəlifənin təkidi ilə əmirlər və taxtın iki iddiaçısı Eldənizə qarşı hərəkətə keçdilər. Ancaq Eldəniz onların birləşməsinə imkan verməyib, 1161-ci ilin 2 avqustunda Rey ətrafında Mahmud şah ibn Məhəmmədin ordusunu darmadağın etdi [13, s.532; 15, s.165]. Eldəniz Reyi ələ keçirərək oranı Cahan Pəhləvana iqta kimi verdi. Rey hakimi İnanc, Sultan Arslan şahdan vassal asılılığını qəbul etdi və öz qızını Məhəmməd Cahan Pəhləvana ərə verdi [16, s.103-104; 3, s.53]. Reydən Qəzvinə hərəkət edən Eldəniz üsyan etmiş Alp Arqunu məğlub edərək Qəzvini də atabəy mülkləri sırasına qatdı. Eldəniz Marağa hakimi Nüsrətəddinə məktub yazaraq tabe olmasını əmr etsə də, rədd cavabı aldı. Qızılüzən çayı sahilində baş verən döyüşdə Məhəmməd Cahan Pəhləvan məğlub oldu, ancaq Nüsrətəddin bu zəfərinin arxasından yalnız Marağanın idarəsi ilə kifayətləndi. Eldəniz Marağadan sonra Fars hakimi Sunqur ibn Məduddan Arslan şah adına xütbə oxutmasını və pul kəsdirməsini tələb etdi. Fars hakimindən rədd cavabı alan Eldəniz Fars Atabəyləri Salqurlular üzərinə yürüş etməyə hazırlandığı zaman Sunqur ibn Mədud vəfat etdi. Qardaşı Zəngi ibn Mədud onun yerinə Farsın hakimi oldu və atabəy Eldənizdən vassal asılılığını qə-

bul etdi [16, s.110; 12, s.277]. Marağa hakimi Nüsrətəddin Ağ Quşun ölümündən sonra Eldəniz Ərdəbili və ətraf əraziləri aldı, onları oğlu Cahan Pəhləvanın mülklərinə qatdı, Məhəmməd ibn Ağ Quşa Bərucird əyaləti verildi [16, s.110]. 1167-ci ildə Atabəy Eldəniz Mosula elçi göndərib Arslan şah adına xütbə oxunmasını, sikkə basılmasını, Səlcuq sultanlarına göndərilən şeylərin indi sultana göndərilməsini tələb etdi. Onlar Eldənizin istəyini məmnuniyyətlə qəbul edib Sultan Arslan şah ibn Toğrul üçün Mosulda, Diyarbəkir və əl-Cəzirədə xütbə oxutmağa başladılar [16, s.115]. Atabəy Şəmsəddin Eldəniz Kirman və Xuzistan hakimlərini itaət altına aldı. Belə ki, Kirman məliki öldüyü zaman oğlanları arasında yaranmış hakimiyyət uğrunda qarışıqlığa son qoyaraq II Arslan şahı Kirman taxtına oturtmuşdur. Xuzistan hakimi Şimlə də Eldənizin vassalı idi. Beləliklə, Azərbaycan Atabəyləri Eldənizlilər İraq Səlcuqlularının bütün torpaqlarını əllərinə keçirdilər. Atabəyə tabe olan əyalətlər arasında Arran, Azərbaycan, Şirvan, Cibəl, Həmədan, Gilan, Mazandaran, İsfahan, Rey, Mosul, Kirman, Xuzistan, Fars, Axlat, Ərzurum və Marağa yer alırdı.

Atabəy Şəmsəddin Eldənizin Səlcuqlu dünyasında etibarlı və nüfuzlu hakim olaraq tanınmasında onun gürcü-qıpçaq hücumlarına qarşı mübarizəsi və "İslamın müdafiəçisi" olması önəmli rol oynayırdı. Eldənizin hələ İraq Səlcuqlu taxtını ələ keçirməsinin birinci ilində 1161-ci ilin avqustunda qıpçaq-gürcü birləşmiş orduları III Georginin dövründə Ani şəhərinə hücum etdilər. Sultanın vassalı Xilatın hakimi Şah Ərman Seyfəddin Bəy-Teymur mühasirəyə alınmış şəhərə kömək etmək istədi, ancaq gürcülər tərəfindən məğlub edildi [9, s.112]. 1162-ci ilin şaban ayında otuz minlik gürcü ordusu Azərbaycanın Dvin şəhərinə hücum edib, şəhərin ətrafında və özündə on minə qədər əhali qırdılar. Bu barədə xəbər Şəmsəddin Eldənizə çatanda o, əsgər toplayıb gürcü qoşunlarına qarşı hücuma hazırlandı. Xilatın hakimi Seyfəddin Bəy-Teymur, Marağa hakimi Nüsrətəddin Arslan-Aba, Ərzən ər-Rum hakimi Fəxrəddin, Əmir Səltuq və başqa əmirlər də öz qoşunları ilə Eldənizə qoşuldular [3, s.59; 9, s.113]. 50 minlik ordu ilə Eldəniz və əmirlərin birləşmiş qüvvələri 1163-cü ilin iyul ayında gürcüləri məğlub etdilər. Eldəniz Dvini gürcülərdən geri aldı və III Georgini ağır məğlubiyyətə uğratdı. Gürcü-qıpçaq birləşmiş qüvvələrinin Eldəniz tərəfindən məğlub edilməsi onların hücumlarını dayandırmadı. 1166-cı ildə çoxsaylı gürcü ordusu Gəncə şəhərinə hücum edərək qətl və talanlara başladılar. 1174-cü ilə qədər gürcü və Atabəylər dövləti arasında heç bir qarşıdurma yaşanmamış, 1174-cü ildə gürcülərin Azərbaycan və Şərqi Anadoluya hücumları ilə onlar arasındakı münaqişə yenidən alovlanmışdır. Bu zaman oğulları ilə bərabər Naxçıvanda olan Eldəniz Qurban bayramı günü Naxçıvandan gürcülərin üzərinə hücuma keçdi. Ancaq bu zaman taun xəstəliyi orduya böyük ziyan vurduğundan, atabəy yürüşü yarıda kəsib geri qayıtdı [12, s.284; 13, s.534]. 1175-ci ildə Atabəy Eldəniz Sultan Arslanşah, Xilat hakimi Ərmanşah və Diyarbəkir orduları ilə gürcülər üzərinə hücum etdilər. Onlar Lori Dmanisi düzənliyinə çatdılar, vilayəti yağmaladılar, Axalkalaki və Trialeti arasında yerləşən Ağşə-

hər mahalına girdilər, buranı yağma edib şəhəri atəşə verdilər [12, s.285; 3, s.65]. Eldəniz burada bir neçə gün qaldıqdan sonra Naxçıvana geri döndü.

Sultan Arslanşah ibn Toğrul zahirdə hakim görünürdü, əslində dövləti atabəy Eldəniz idarə edir, iqtaları o istədiyi yerə paylayırdı. Sultan Eldənizin işinə qarışmırdı, ancaq Eldənizin iqtaları istədiyi kəslərə paylaması onun xoşuna gəlmirdi. Bu xüsusda gileylənməyə başladığı zaman anası, yəni Atabəy Eldənizin zövcəsi və Nüsrəddin Məhəmməd Pəhləvan və Müzəffərəddin Osman Qızıl Arslan adındakı iki oğlunun anası belə dedi: " Bu adam sənin üçün öz həyatını təhlükəyə atmış, dəfələrlə döyüşlərə girmiş, ölümlə mübarizə aparmış, sənin uğrunda varını-yoxunu sərf etmiş, qulamlarını və silahdaşlarını itirmişdir. Nəhayət, səni Sultan etməyə müvəffəq olmuşdur. Səlcuq Sultanlarından nə qədər adam var ki, yaşca səndən böyük olduqları halda həbslərdə yatırlar. Halbuki, Atabəy Eldəniz özü və iki oğlu sənə xidmət edirlər, sənin düşmənlərin ilə mübarizə aparırlar. Atabəy birisinə nəsə bağışlayır və ya geri alırsa, o sənin dövlətinin və mülkünün möhkəmlənməsi üçün edir. Onun işlərinə qarışma, ondan sənə zərər gəlməsindən qorxma, o sənin məmlükündür" [16, s.117]. Beləliklə, Sədrəddin əl-Hüseyniyə istinadən verdiyimiz bilgidən də aydın olduğu kimi Eldənizin uzaqgörənliyi və siyasi gücü, Sultan hakimiyyətinin nüfuzundan bacarıqla istifadə etməsi, tədbirli xarici siyasəti bütün bunlar göstərir ki, Azərbaycan Atabəyləri dövlətinin yaradıcısı öz dövrünün nəhəng siyasi xadimi olmuş, sultanın qəyyumu kimi mövqeyindən istifadə edərək yaratdığı sülalənin torpaqlarını genişləndirmiş, digər tərəfdən isə, mərkəzi hakimiyyəti möhkəmləndirmişdir.

**Azərbaycan Atabəyləri dövləti Məhəmməd Cahan Pəhləvan və Qızıl Arslanın hakimiyyəti dövründə.** Atabəy Eldənizin ölümündən sonra oğulları Məhəmməd Cahan Pəhləvan (1175-1186) və Qızıl Arslan (1186-1191) hakimiyyətə gəldilər. Atabəy Eldəniz oğlu Məhəmməd Cahan Pəhləvanı vəliəhd təyin etmiş, Qızıl Arslana isə onun xidmətində durmağı əmr etmişdir. Eldəniz vəfat edən zaman Həmədanda olan Məhəmməd Cahan Pəhləvan Naxçıvana gəlmiş, dövlət xəzinəsini və atabəylik taxtını ələ keçirmişdir. Eldənizdən narazı bəzi əmirlər Sultan Arslan şahı Məhəmməd Cahan Pəhləvana qarşı yürüşə təhrik etmiş və bunun nəticəsində sultan böyük bir ordu ilə Azərbaycana doğru hərəkət etmişdir [16, s.118; 3, s.74; 13,s.536]. Ancaq Zəncanda xəstələnən sultan təcili Həmədana qayıtmış, Cahan Pəhləvanı yanına çağıraraq atasının bütün səlahiyyətlərini ona vermişdir. Arslan şahın ölümündən sonra Məhəmməd Cahan Pəhləvan sultanın yeddi yaşlı oğlu III Toğrulu taxta çıxardır, eyni zamanda onun atabəyi olur. Mənbələrin yazdığına görə, ölkədə əsl hakimiyyət Məhəmməd Cahan Pəhləvanın əlində idi, dövlət işlərini sultanın adından o idarə edirdi. Məhəmməd Cahan Pəhləvan qardaşı Qızıl Arslanı Azərbaycan və Arranın canişini təyin edir, özü isə Həmədanda oturaraq ətraf ərazilərin hakimlərinə məktub yazaraq III Toğrulun adına xütbə oxunmasını tələb edir. S. Hüseyni yazır: "Hakimlərin hamısı razılıq verdi və sultanın adı ilə xütbələr Mosul və onun

mahallarında, Ərməniyyədə, Xilatda, Farsda və onun mahallarında və bütün Xuzistanda oxunmağa başladı" [16, s.120-121].

Atabəy məqamını ələ keçirən Məhəmməd Cahan Pəhləvan ilk öncə narazı əmirlərlə mübarizəyə başladı. Xuzistan və Əhvaz hakimi Ay-Doğdu Şimlə ilə üz-üzə gəldi. Hələ Eldənizin sağlığında Şimlə Nəhavənd əyalətini istəmiş, lakin rədd cavabı almışdır. Eldənizin ölümündən sonra yaranan qarışıqlıqdan istifadə etməyə çalışan Şimlə Nəhavəndə hücum etmiş və əyaləti ələ keçirmişdir. Şimlənin hücumlarına qarşı türkmənlər Cahan Pəhləvandan yardım istəmişdilər. Böyük bir ordu ilə Şimlənin üzərinə hücum edən atabəy baş verən döyüşdə qalib gəldi. Döyüşdən bir neçə gün sonra Şimlə aldığı ox yarası nəticəsində öldü [9, s.117]. Məhəmməd Cahan Pəhləvan Marağa hakimi Arslan Aba ibn Ağsunqurun vəfatından sonra Marağını mühasirəyə aldı. Atabəyin qardaşı Qızıl Arslan isə Təbrizə hücum etdi. Ruin Dej qalasını mühasirəyə alan atabəyin ordusundan bir qrup Marağaya girsə də, şəhər xalqı tərəfindən əsir alındılar. Ancaq Marağanın qaziül-qüzatı əsirlərə xələt geydirib onları sərbəst buraxdı. Bu hadisədən sonra Cahan Pəhləvan sülhə razı oldu. Bağlanan sülhə görə Cahan Pəhləvan Təbrizə sahib olur, Marağa isə monqolların hücumlarına qədər Ağ Sunqur əl-Əhmədilinin nəslinə mənsub olur. Məhəmməd Cahan Pəhləvan Təbrizi qardaşı Qızıl Arslana iqta verir [9, s.117; 3, s.80; 13, s.537].

Məhəmməd Cahan Pəhləvanın hakimiyyəti zamanı dövlət ciddi bir xarici basqına məruz qalmamışdır. Belə ki, onun hakimiyyəti zamanı gürcülər onunla sülh bağlamış, onun tələblərini qəbul etmişlər. Atabəyin hakimiyyəti möhkəmləndikdən sonra atabəylə Xarəzmşah Təkiş (1172-1200) arasında dostluq münasibətləri qurulmuşdur. O, yaşadığı müddətcə onunla Xarəzmşah arasında dostluq və sülh davam etmişdir [16, s.121]. Məhəmməd Cahan Pəhləvanın Abbasi xəlifələri ilə yaratdığı yaxşı münasibət ona Bağdaddan asılı olmadan öz müstəqil siyasətini yeritməyə imkan verirdi. Məhəmməd Cahan Pəhləvan xəlifəyə sədaqət və itaətini bildirmək üçün daima Xilafətə elçilər göndərirdi. Ravəndi qeyd edir ki, bunun sayəsində xəlifə məmləkətləri qarışdıraraq, ətraf əmirləri aldadıb Məhəmməd Cahan Pəhləvanın hakimiyyəti üçün təhlükə yaratmırdı [12, s.309]. Mənbələrdə Cahan Pəhləvanın xəlifəyə göndərdiyi bir məktub haqqında məlumat verilir. Məktubda deyilir: " Əgər xəlifə imamdırsa, onun daimi məşğuliyyəti namaz qılmaq, saleh əməl işləmək olmalıdır. Çünki dinin əsası və işlərin ən gözəli namazdır. Allah qatında həqiqi padşahlıq budur. Xəlifə hökmdarlığı sultanlara buraxıb, cihan hakimiyyətini sultanlara verməlidir" [12, s.309]. Məhəmməd Cahan Pəhləvanın xilafətə münasibəti klassik türk hakimiyyət anlayışının bir nümunəsidir. Toğrul bəydən başlayaraq Səlcuqlu sultanları və atabəyləri xəlifələri dini işlərdən məsul şəxs kimi görmüşlər.

Məhəmməd Cahan Pəhləvandan sonra hakimiyyətə gələn Qızıl Arslan uzun müddət taxt-tacı ələ keçirmək uğrunda mübarizə aparan saray müxalifəti ilə mübarizə aparmalı olmuşdur. Məhəmməd Cahan Pəhləvan hələ sağlığında hakimiyyəti öz övladları arasında bölüşdürmüş, Azərbaycan və Arranın idarəsini

oğlu Əbu Bəkrə tapşırmış, qardaşı Qızıl Arslanı da onun atabəyi təyin etmişdir. Rey, İsfahan və İraqın idarəsi Qutluq İnanc ilə Əmir Əmirana, Həmədanı isə Özbəyə vermişdir [16, s.121]. Cahan Pəhləvanın vəsiyyətnaməsində Qızıl Arslanın Əbu Bəkrin tərbiyəçisi təyin edilməsi əslində onun hakimiyyətə namizəd olduğuna sübutdur. Digər tərəfdən isə, Cahan Pəhləvanın məmlüklər vasitəsilə dövləti idarə etmək üçün yaratdığı xüsusi rejim məmlük yuxarı təbəqəsinin yaranmasına səbəb olmuş, onun ölümündən sonra 30 il ərzində baş vermiş bütün tarixi hadisələrdə həlledici rol oynamaqlarına səbəb olmuşdur. Ordunun böyük hissəsi Qızıl Arslanın tərəfində idi. III Toğrul anlayırdı ki, əmirlərin əksəriyyətinin sədaqətinə əmin olmadan Qızıl Arslana qarşı qoşun çəkə bilməz. Elə bu səbəbdən də, əmirlər atabəy əl-əzəm məqamına Qızıl Arslanı gətirmək istədikdə Sultan III Toğrul Qızıl Arslana fərman göndərərək onu atabəy təyin etdi. Qızıl Arslanın mövqeyi möhkəmləndi, ordu onun tərəfinə keçdi. Qeyd etdiyimiz kimi, Məhəmməd Cahan Pəhləvanın dövləti məmlüklər vasitəsilə idarə etmək siyasəti onun ölümündən sonra dövlətin parçalanmasına, ayrı-ayrı əmirlərin hakimiyyət uğrunda mübarizəsinə səbəb olmuşdur. Ravəndi bu haqda yazır: “Məmləkətə öz qullarından altmış, yetmiş qədər şəxsiyyəti təyin edərək qulları olduqlarından övladlarını düşmənlərdən qoruyarlar ümidi ilə hər birinə bir şəhər və ya nahiyə verdi. Halbuki bu qullar dövləti atabəylə oğullarına haram etdilər. Hər bir qulam müstəqil hərəkət etməyə başladı, bunun nəticələri atabəyin ölümündən sonra meydana çıxdı” [12, s.310]. Qızıl Arslanın siyasətindən narazı olan əmirlərdən Cəmaləddin Ay-Aba ilə Seyfəddin Rus III Toğrulla birlikdə ittifaq quraraq atabəyə qarşı birləşdilər. Sultan ilə Qızıl Arslanın ordusu 1187-1188-ci ildə Həmədan yaxınlığında toqquşdular. İki gün davam edən vuruşmadan sonra Qızıl Arslanın ordusu geri çəkilmək məcburiyyətində qaldı. Sultan III Toğrulun atabəyin tərəfdarları Siracəddin Qaymaz, Bədrəddin Qaragöz, Fəxrəddini öldürtməsi Qızıl Arslanı qəti addımlar atmağa məcbur etdi [12, s.318]. Qızıl Arslan Bağdad xəlifəsi ən-Nasir Lidnillaha məktub yazaraq Bağdaddan ordu ilə ona köməyə gəlməsini xahiş etdi [16, s.124, 9, s.119]. Xəlifə 1188-ci ildə ordu hazırlayıb vəziri Cəlaləddin ibn Yunisin başçılığı ilə Qızıl Arslana köməyə göndərdi. Həmədan yaxınlığında Day-Mərgdə mayın 7-də Qızıl Arslanın gəlməsini gözləməyib döyüşə girən vəzirin başçılığındakı xəlifə orduları III Toğrul tərəfindən darmadağın edildi [9, s.119]. Bu məğlubiyyətdən sonra xəlifə III Toğrula qarşı öz cəsarəti və mətinliyi ilə seçilən Mücahidəddin Xalis əl Xassın başçılığı altında ikinci dəfə qoşun çəkdi [16, s.125; 3, s.92-93]. Xəlifə ordusunun yaxınlaşdığını, orduya tanınmış sərkərdənin başçılıq etdiyini xəbər alan Sultan Həmədandan İsfahana çəkildi. Xəlifə qoşunları Həmədana gələrək bir müddət orada qaldı. Mücahidəddin xəlifənin adından Qızıl Arslanın xəlifənin canişini təyin olunması barədə xəlifə fərmanını ona təqdim etdi. Xəlifə qoşunları Qızıl Arslanın tabeliyinə verildi və o, Həmədanda sultan taxtına çıxarıldı. Bağdadda Qızıl Arslanın adına hökmdar və möminlər əmirinin köməkçisi adıyla xütbə oxuduldu [13, s.542; 16, s.125].

**Nəticə.** Qızıl Arslanın Həmədanda taxta çıxmasından sonra Azərbaycanda İzzəddin Həsən ibn Qıpçaq başçılığında türkmənlərdən ibarət 50 minlik ordu toplayan III Toğrul Uşnu, Urmiyə, Xoy və Səlması işğal edərək Həmədana yaxınlaşdı. III Toğrul Qızıl Arslana qarşı Misirdə Əyyubilər dövlətinin qurucusu Səlahəddin Əyyubiyə məktub yazaraq ondan yardım istədi. Ancaq Səlahəddin xaçlılarla müharibə səbəbindən başının hərbi hazırlığa qarışdığını əsas gətirərək İraq Səlcuqlu sultanlığında baş verən hadisələrdən uzaq durdu. Qızıl Arslan isə qardaşı oğlanları ilə barışdı, Reydən gələn Qutluq İnanc ilə Əmir Əmiran Ömər Həmədanda onun xidmətinə girdilər. Cahan Pəhləvanın dul qadını İnanc Xatun da Qızıl Arslanla evləndi. Beləliklə, Qızıl Arslan İraq Səlcuqlu sultanlığında mütləq hakimiyyətə sahib oldu, sultan III Toğrula və türkmənlərə qarşı müharibə elan etdi. Əbu Bəkrin başçılığı ilə 1190-cı ildə baş verən döyüşdə III Toğrulun və İzzəddin Həsən Qıpçağın ordusu dağıdıldı, özləri isə Kərkük yaxınlığında Qarkın qalasına sığındılar. Bağdad xəlifəsinə məktub yazaraq ondan üzr istəyən III Toğrul xəlifədən istədiyi yardıma ala bilməyib Həmədana hücüm etdi. Həmədan yaxınlığında baş verən döyüşdə atabəy ordusu tərəfindən məğlub olub Qızıl Arslanın əmri ilə Naxçıvandakı Qəhrəm qalasında zindana atıldı. Qızıl Arslan həbsdə olan şahzadə Səncər ibn Süleymanı İraq sultanlığı taxtına oturtmaq istəsə də, xəlifənin məsləhəti ilə onu həbs edib sultanlıq taxtına özü oturdu. Həmədanda Qızıl Arslanın adına xəlifə tərəfindən "sultan, möminlər Əmirininköməkçisi, Müzəffər əd-Dünya vəd-Din" ünvanı ilə xütbə oxundu. Qızıl Arslan öz adından sikkə kəsdirməyə başladı. Beləliklə, hələ Şəmsəddin Eldənizin hakimiyyəti zamanından İraq Səlcuq Sultanlığını müstəqil idarə edən Azərbaycan Atabəyləri "sultan" titulunu ələ keçirərək öz inkişaflarının zivəsinə çatdılar.

## Ədəbiyyat siyahısı

1. *Azərbaycan tarixi (Uzaq keçmişdən 1870-ci illərə qədər). Prof. S.S.Əliyarlının redaktəsi ilə. Bakı, "Çıraq", 2009, 872 s.*
2. *Azərbaycan tarixi. Yeddi cilddə. II cild (III-XIII əsrin I rübü). Bakı, "Elm", 2007, 608 s.*
3. *Bünyadov Z. Azərbaycan Atabəylər dövləti (1136-1225-ci illər). Bakı, "Şərq-Qərb", 2007, 312 s.*
4. *Halit İbrahim Gök. Musul Atabegliği: Zengilər (Musul kolu: 1146-1233). Ankara, "T.C. Yüksek Öyretim Kurulu" 2001, 764 s*
5. *Hüseyn Alyari. Azerbaycan Atabegleri İl-deniz Oğulları (1146-1225). İstanbul, "İstanbul Üniversitesi Edebiyyat Fakültesi", 1966, 24 s.*
6. *Hüseyn Kayhan. Azerbaycan Atabegliğinin kuruluşu və Atabey İldeniz. "Türkiyyət Məcmuası", C.28/1, 2018, s.45-65.*
7. *İslam Ansiklopedisi. IV cilt. İstanbul, "Türkiye Diyanet Vakfı" 1991.*
8. *İslam Ansiklopedisi. İslam alemi Tarih, Coğrafya, Etnografya ve Biografya luğati. I cild. İstanbul, "Milli Eğitim Basımevi", 1967.*
9. *İzzəddin ibn Əl-Əsir. Əl-kamil-fi-t-tarix. Ərəbcədən tərcümə Z.Bünyadovundur. Bakı, "Şur" nəşriyyatı, 1996, 192 s.*

10. *Kıvameddin Burslan. İrak ve Horasan Selçukluları tarihi. İstanbul, "Maarif Matbaası"1943, 272s*
11. *M.A.Köymen. Büyük Selçuklu imperatorluğu tarihi. II cilt, İkinci imperatorluk devri. Ankara, "Türk Tarih Kurumu", 2017, 520 s.*
12. *Muhammed b. Ali b. Süleyman er-Ravendi. Rahat-üs-sudur ve Ayet-üs-sürur (Gönüllerin Rahatı ve Sevinç Alameti ). Cilt I-II. Ankara: "Türk Tarih Kurumu", 2020, 470s.*
13. *Nəcəf Ə.N. Səlcuqlu dövlətləri və atabəyləri tarixi (Oğuzların ortaya çıxmasından-XIV əsrə qədər). Bakı: "Qanun", 2010, 756s.*
14. *Osman Turan. Selçuklular tarihi ve Türk-İslam medeniyyeti. İstanbul: "Ötüken", 2020, 542s.*
15. *Rəşidəddin Fazlullah. Cami üt-Təvarih (Zikr-i Tarih-i Al-i Selçuk). Tercüme ve notlar Erkan Göksu, Hüseyin Güneş. İstanbul: " Bilge Kültür Sanat", 2014, 208s.*
16. *Sadruddin Ebul-Hasan Ali İbn Naşir İbn Ali El-Hüseyni. Ahbar üd-devlet is-Selçukiyye. Ankara, "Türk Tarih Kurumu", 1943, 150 s.*
17. *Turan O. Selçuklular tarihi ve türk-islam medeniyyeti. Ankara, "Turan Nəşriyyat Yurdu" 1969, 542 s.*

***Rəyçi: t.ü.f.d.Zəhra İslamova***

**UOT 94 (479.24)**

# HƏSƏN BƏY ZƏRDABİNİN DAVAMÇISI MƏHƏMMƏD AĞA ŞAHTAXTLI VƏ ONUN "ŞƏRQİ-RUS" QƏZETİ

**SƏİDƏ ƏLİ QIZI**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, dosent*
*saida_alikizi@mail.ru*

*Məqalə əsası görkəmli maarifçi Həsən bəy Zərdabi tərəfindən qoyulan milli mətbuatımızın təşəkkülü probleminə həsr olunub. "Əkinçi"nin davamçısı olan "Şərqi-Rus" qəzeti və onun təsisçisi Məhəmməd ağa Şaxtaxtlının milli mətbuatımızın tarixindəki rolundan bəhs olunur, çünki bu qəzet mətbuatımızın ənənələrinin davam etdirilməsində və inkişafında müstəsna rol oynamışdır. 1903-1905-ci illərdə Tiflisdə nəşr olunan, cəmi 392 sayı işıq üzü görmüş "Şərqi-Rus" Qərb standartlarında çap olunan Şərq qəzeti olub, əsas məqsədi türk-müsəlman əhalisini maarif və mədəniyyətə qovuşdurmaq idi. Qəzet Azərbaycanda ictimai fikir tarixinin inkişafında xüsusi rol oynamışdır.*

***Açar sözlər:*** *Həsən bəy Zərdabi, milli mətbuat, Şahtaxtlı, "Şərqi-Rus" qəzeti*

## *MOHAMMED AGA SHAKHTAKHTLY -SUCCESSOR OF HASSAN BEY ZARDABI AND HIS "SHARGI-RUS" NEWSPAPER*

*The basis of the article is dedicated to the problem of organizing our national press, which was laid by the outstanding enlightener Hasan bey Zardabi. The role of the "Shargi-Rus: newspaper, the successor of "Akinchi" and its founder Mohammad aga Shakhtakhtly, in the history of our national press is being discussed, since this newspaper played an exceptional role in the continuation and development of our press traditions. "Shargi-Rus", published in Tbilisi in 1903-1905 with a total circulation of 392 issues, was an eastern newspaper published according to Western standards, the main purpose of which was to introduce the Turkish-Muslim population to education and culture. The newspaper has played a special role in the development of the history of public opinion in Azerbaijan.*

***Keywords:*** *Hasan bey Zardabi, national press, Shakhtakhtly, "Shargi-Rus" newspaper.*

**Giriş:** Azərbaycanın ictimai həyatının ən mühüm hadisələrindən biri olan milli mətbuatın formalaşması XIX əsrin ortalarına təsadüf edir. Təkcə Azərbaycan üçün deyil, bütün Şərq aləmi üçün tamamilə yeni siyasi, mədəni və elmi ünsiyyət vasitəsi olan mətbuatın yaranması ölkədə gedən mühüm ictimai-siyasi, iqtisadi və mədəni proseslərlə, o cümlədən maarifçilik hərəkatının təşəkkül tapması ilə əlaqədar idi.

Milli mətbuatımızın bünövrəsi 1875-ci ildə iyulun 22-də "Əkinçi" qəzetinin ilk nömrəsinin nəşri ilə qoyuldu. Yalnız Qafqazda deyil, eyni zamanda Rusiyanın müsəlmanlar yaşayan bütün bölgələrində böyük əks-səda doğurmuş bu qəzeti ərsəyə gətirən Azərbaycan milli maarifçilik hərəkatının banilərindən biri, Moskva Dövlət Universitetinin ilk azərbaycanlı məzunu, təbiətşünas alim Həsən bəy Zərdabi olmuşdur. O, ana dilində qəzet nəşr etmək fikrinə hələ Qu-

bada mahal məhkəməsinin katibi işlədiyi dövrdə gəlmişdi. Abbasqulu ağa Bakıxanovun kiçik qardaşı, rus ordusunun general-mayoru Abdulla bəy Bakıxanov Həsən bəyin bu niyyətindən xəbər tutduqda qəzet üçün lazım olacaq bütün maliyyə xərclərini öz üzərinə götürəcəyini bildirmişdi [6, s. 114]. Həsən bəy qəzetin nəşrinə icazə almaq üçün Tiflisdə yerləşən Qafqaz Senzura Komitəsinin Şərq dilləri senzoru erməni S.Məlik-Mehrabova müraciət etdikdə, senzor buna hər vasitə ilə mane olmaq istəsə də iki ildən çox davam edən yazışmalardan sonra Həsən bəyə rəğbəti olan Bakı qubernatoru Staroselskinin işə qarışması ilə məsələ müsbət həll olunur. Nəticədə qəzetin senzurası quberniya idarəsinin dilmancı Nuhbəy Hüseynbəyova həvalə edilir, qubernator Staroselski isə bütün məsuliyyəti öz üzərinə götürür [6, s.114-115].

"Əkinçi"nin nəşrinin baş tutmasında həmçinin Mirzə Fətəli Axundovun, Seyid Əzim Şirvaninin, Nəcəf bəy Vəzirovun, Əsgər ağa Goraninin və b. böyük xidmətləri olmuşdur. "Əkinçi"nin əsas qayəsi elmi, maarifi, mədəniyyəti, ədəbiyyat və incəsənəti təbliğ etmək, bunların inkişaf etdirilməsi zərurətinə diqqət çəkmək, yeni tipli məktəblərin yaradılmasına nail olmaq idi. "Əkinçi" həmçinin qadın azadlığı, qadınların təhsil alması məsələlərini gündəmə gətirən ilk qəzet olmuşdur. Qəzetin başlıca proqram prinsipləri maariflənmə, müasirləşmə, məfkurə saflığı, ümummilli məqsəd və mənafelərin təbliği, bəşəri dəyərlərin milli ənənələrlə üzvi vəhdəti, ana dilinin saflığının qorunması kimi sistemləşdirilə bilər və əslində bu prinsiplərin həyata keçirilməsi cəhdləri Azərbaycanda milli demokratik mətbuatın gələcək inkişafı üçün bir təməl yaratmış oldu.

Qəzetin nəşri çox böyük əks-sədaya səbəb olmuşdu. Qəzeti təkcə Bakıda deyil, Dağıstanda, Volqaboyunda, Mərkəzi Asiyada və hətta Sibirdə belə oxuyurdular. "Əkinçi"nin sorağı Londona qədər gedib çatmışdı. Bakıya gələn bir fransız müxbiri isə Həsən bəyin təkbaşına qəzet çıxardığını bildikdən sonra onu görməyə gəlmiş və söhbət əsnasında demişdi: "Siz həqiqi qəhrəmansınız. Bizdə belə kasıb qəzetdə işləməyə heç bir nəfər də tapılmazdı. Sizin enerjinizə heyranam. Görünür, öz xalqınızı ürəkdən sevirsiniz" [Yenə orada, s.118].

Fransız müxbiri tamamilə haqlı idi. Həsən bəyin öz xalqına olan məhz bu ürəkdən gələn böyük sevgisinin nəticəsi idi ki, müxtəlif istiqamətlərdən – rus hakimiyyət dairələrindən, erməni donosçularından, senzura idarələrində yuva salmış erməni senzorlarından və ən nəhayət öz içimizdə olan qaragüruhçu, mürtəce din xadimlərindən gələn bütün təhdidlərə və təqiblərə baxmayaraq "Əkinçi"ni 2 il 2 ay ərzində qoruyub saxlamaq və 56 nömrəsini çıxarmaq mümkün oldu. 1877-ci ilin sentyabrında çar hakimiyyət orqanları rus-türk müharibəsinin başlanmasını bəhanə edərək "Əkinçi"nin fəaliyyətini dayandırdılar. Qəzetin bağlanmasında erməni Minasovun donosu ilə yanaşı, azərbaycanlı əhaliyə düşmən münasibətilə tanınan yeni Bakı qubernatoru Puzinin də xüsusi rolu olmuşdu.

XIX əsrin 70-ci illərinin sonunda Səid Ünsizadə və onun kiçik qardaşı Cəlal Ünsizadə tərəfindən "Əkinçi"nin işini davam etdirmək cəhdləri göstərilsə də, "Ziya" (1879-cu il dekabrın 6-dan 1880-ci il iyunun 25-dək, cəmi 30 nöm-

rə) və "Ziyayi-Qafqaziyyə" (1880-ci il dekabrın 9-dan 1884-cü il noyabrın 26-dək 110 nömrə) qəzetlərinin ömrü uzun olmadı [3, s. 76-77].

1883-1891-ci illərdə Tiflisdə Cəlal Ünsizadənin redaktorluğu ilə "Kəşkül" qəzeti nəşr olunmuşdur. Ayda bir dəfə çıxırdı. Onun ilk 19 nömrəsi jurnal, 112 nömrəsi isə qəzet kimi çıxmışdır. "Kəşkül" "Əkinçi"nin ənənələrini davam etdirməyə səy göstərmişdir. Onun səhifələrində ədəbi, ictimai-siyasi və mədəni həyatın bir sıra problemlərinə aid yazılar, müxtəlif yazıçıların əsərlərindən nümunələr, parçalar, tərcümələr dərc edilirdi. Bir çox mütərəqqi ziyalılar qəzetlə əməkdaşlıq edirdilər. Lakin bu qəzetin də ömrü uzun olmadı [3, s. 89-90].

"Kəşkül" bağlandıqdan sonra 12 il ərzində nə Bakıda, nə də Tiflisdə Azərbaycan dilində heç bir mətbu orqanı nəşr olunmadı. Bu illər ərzində milli ziyalılarımızın ana dilində qəzet və jurnal yaratmaqla bağlı müraciətləri hökumət idarələrinin sərt, mənfi münasibəti ilə üzləşir, çarizm hər vasitə ilə Azərbaycanda maarifin, o cümlədən də mətbuatın inkişafına mane olmağa çalışır, müxtəlif əngəllər törədirdi. Məlumdur ki, Məhəmməd ağa Şahtaxtlı o zaman Peterburq Baş Mətbuat İdarəsinə rəhbərlik edən şovinist Solovyova milli mətbuat orqanı təsis etmək üçün müraciət etdikdə Solovyov ona demişdi: "Tatar (Azərbaycan – S.Ə.) dilində qəzet nəşrinə icazə verə bilmərəm. Qəzet xalqın nəyinə lazımdır? Ziyalı tatarlar qoy rus dilində oxusunlar, sadə tatarlar isə gedib qoyunlarını otarsınlar" [6, s.242]. Bu sözlərdə əslində imperiyanın türk-müsəlman xalqlarına qarşı yeritdiyi antihumanist, qatı müstəmləkəçilik siyasəti öz tam ifadəsini tapmışdı.

Bütün bu çətinliklərə və çarizmin yaratdığı süni əngəllərə və maneələrə baxmayaraq azərbaycanlı alim, şərqşünas, dilçi, pedaqoq, fədakar maarifçi, bacarıqlı jurnalist, ictimai xadim Məhəmməd ağa Şahtaxtlı, çox boyük çətinliklə də olsa, "Şərqi-Rus" qəzetinin nəşrinə icazə ala bilir. XX əsrin ilk azərbaycandilli qəzeti olan bu qəzet 1903-1905-ci illərdə Tiflisdə nəşr olunurdu. Banisi, naşiri və redaktoru M.Şahtaxtlı idi.

Bəs Məhəmməd ağa Şahtaxtlı kimdir və tariximizdəki xidmətləri nədən ibarətdir? Bu suala qısa da olsa cavab verməyə cəhd edək.

Məhəmməd ağa Məhəmmədtağı oğlu Şahtaxtlı (1920-ci ilə qədər rəsmi sənədlərdə soyadı Şahtaxtinski kimi yazılırdı – S.Ə.) 10 iyun 1846-cı ildə Naxçıvanın Şahtaxtı kəndində anadan olmuşdur və Şahtaxtlılar nəslinin görkəmli nümayəndələrindən biridir.

Bir qədər haşiyəyə çıxaraq bildirək ki, Azərbaycanın milli dövlətçilik tarixində və taleyində ümumiyyətlə Şahtaxtlılar – Kəngərlilər nəslinin nümayəndələrinin böyük xidmətlər göstərdiyi danılmaz faktdır. Əvvəllər Atabəylər dövlətində, Səfəvilər və Osmanlı imperiyalarında, sonralar Naxçıvan və İrəvan xanlıqlarında, XIX əsrdə və XX yüzillikdə keçmiş Sovetlər İttifaqında, Avropanın bir çox ölkələrində hərbi, siyasi, elm, maarif, səhiyyə və b. sahələrdə müstəsna xidmətlər göstərmələrinə baxmayaraq, tarixşünaslığımızda və ədəbiyyatşünaslığımızda onların haqqında ətraflı tədqiqatlar aparılmamışdı.

Ümummilli lider Heydər Əliyev Azərbaycanda hakimiyyətə gəldikdən

sonra bu qədim sülalənin xalqımızın milli dövlətçilik tarixində xidmətləri və rolu öyrənilməyə başlandı və onların xatirəsi əbədiləşdirildi. Bu sahədə atılmış müsbət addımlardan biri AMEA Naxçıvan bölməsi Tarix, Etnoqtafiya və Arxeologiya İnstitutunun böyük elmi işçisi Musa Quliyevin 2010-cu ildə nəşr olnmuş "Şahtaxtinskilər tariximizdə və taleyimizdə" adlı monoqrafiyası oldu. Əsər geniş arxiv fondlarının – MDB məkanının, xüsusilə də XIX əsrdə - XX əsrin əvvəllərində Tiflisdə fəaliyyət göstərən Qafqaz Canişinliyinin və Dəftərxanasının arxivlərinin materialları əsasında yazılmışdır [13].

Müəllif qeyd edir ki, aparılan axtarışlar zamanı görkəmli publisist, filosof, naşir, pedaqoq, poliqraf, tərcüməçi, diplomat, maarifçi Məhəmməd ağa Şahtaxtlıya aid maraqlı sənədlər qovluğu aşkar edilmişdir. Qafqaz canişinliyinin və Canişin dəftərxanasının fondlarında Məhəmməd ağa haqqında maraqlı sənədlər saxlanılır.

"Qafqaz canişininin dəftərxanası" fondundakı sənədlər qovluğu 69 səhifəlikdir. Həmin qovluğun üzərində yazılıb: "İrəvan quberniyasının Naxçıvan şəhər sakini, hazırda Tiflisdə yaşayan Məhəmməd Sultanoviç Şahtaxtinskiyə "Şərqi-Rus" qəzetinin nəşri üçün icazə verilməsi haqqında". Buradakı sənədlərin tarixi 1902-1905-ci illərə aiddir [13].

Məlumat üçün deyək ki, sovet hakimiyyəti illərində "Şərqi-Rus" qəzetinin nəşri ilə bağlı bir sıra tədqiqatlar aparılmışdı. Tədqiqatçı alim Şövqi Novruzovun "Şərqi-Rus"la bağlı yazdığı monoqrafiya da təqdirəlayiqdir. Ədəbiyyatşünas - alim Əziz Şərif böyük yazıçımız Mirzə Cəlil haqqında yazdığı "Molla Nəsrəddin" necə yarandı?" kitabında "Şərqi-Rus" qəzetinin fəaliyyətindən də söhbət açmışdır. Müstəqillik illərində isə akademik İsa Həbibbəyli Məhəmməd ağa Şahtaxtlının "Seçilmiş əsərləri"ni nəşr etdirmişdir. AMEA-nın müxbir üzvü Əbülfəz Quliyevin "Məhəmməd ağa Şahtaxtlının publisistikası" adlı monoqrafiyası da şahtaxtlışünaslığa dəyərli töhfə kimi qiymətlidir.

Qədim nəslin davamçısı olan M.Şahtaxtlı 10 iyun 1846-cı ildə anadan olmuş, 1860-cı ildə Naxçıvan şəhər qəza ibtidai məktəbini bitirərək 14 yaşında ikən Tiflis klassik gimnaziyasında təhsilini davam etdirmişdir. 1863-cü ildə bu gimnaziyanı bitirib və elə həmin il Peterburqa gedərək müstəqil şəkildə alman dilini öyrənmişdir [11]. O, 1871-ci ildə Almaniyanın Leypsiq universitetinin Tarix, Fəlsəfə və Hüquq fakültəsində ali təhsil almışdır. M.Şahtaxtlı Avropada təhsil alan ilk azərbaycanlıdır. 1873–1875-ci illərdə Parisdə yaşayarkən həm Şərq Dilləri Məktəbində mühazirələr dinləmiş, həm də fransız dilini öyrənmişdir. Elə o zamandan etibarən o, müxtəlif dillərdə - Azərbaycan, rus, alman, fransız, ingilis, ərəb, türk və fars dillərində ilk elmi və bədii əsərlərini yazmağa başlamışdı. O, əsasən Şərq tarixinə həsr olunan ilk elmi əsərlərini hələ Almaniyada olarkən qələmə almışdı [11].

M.Şahtaxtlı 1875-ci ildən Tiflisdə nəşr olunan "Qafqaz", "Tiflisskiy listok", "Novoye obozreniye" qəzetlərinin əsas azərbaycanlı müəllifi kimi tanınmışdır. 1879-cu ildə rus dilində nəşr olunmuş "Təkmilləşdirilmiş müsəlman

əlifbası" kitabı Şahtaxtlının həyatının Tiflis dövrünün ən mühüm hadisələrindən biri kimi dəyərləndirilir. Qeyd edək ki, linqvist-şərqşünas kimi Şahtaxtlının bu əsəri Azərbaycanda yeni əlifba uğrunda mübarizə tarixində ilk irihəcmli əsər olub, xalqın qabaqcıl ziyalıları arasında böyük əks-səda yaratmış, əlifba islahatları sahəsində M.F.Axundovdan sonrakı dövr "Məhəmmədağa dövrü" adlandırılmışdır. Yeni əlifbanın əsas üstünlüyü isə ərəb əlifbasında mövcud olmayan sait səslərin xüsusi hərflərlə, hər samitin isə öz şəklini dəyişməyən xüsusi işarə ilə göstərilməsi idi.

Şahtaxtlı Rusiyada Türkiyənin səfiri vəzifəsində çalışmış general-adyutant Əhməd Şakir paşanın "Günəş təqvimi", Əhməd Cövdət paşanın 1200 səhifəlik "Peyğəmbərlər və xəlifələr" adlı kitablarını rus dilinə tərcümə etmişdir. 1891-ci ildə "Kaspi" qəzetinin müvəqqəti redaktoru olmuş Şahtaxtlı bu qəzetin əsas ideya xəttinə yenilik gətirə bilmiş, ilk dəfə olaraq "Zaqafqaziya müsəlmanlarını necə adlandırmalı?" adlı məqaləsində Azərbaycanlı sözünü işlətməyə cəsarət etmişdir.

Məhəmməd ağa Şahtaxtlı "Şərqi-Rus" qəzetini nəşr edənə qədər artıq Rusiyada, Avropada və Yaxın Şərq ölkələrində tanınmış bir mütəfəkkir idi. O, XIX əsrin sonunda və XX əsrin əvvəllərində çoxcəhətli fəaliyyət göstərən jurnalist idi. Və təsadüfi deyil ki, o, 1899-cu ildə Beynəlxalq Fonetika Cəmiyyətinin, 1900-cü ildə "Beynəlxalq Asiya Cəmiyyətinin" və 1903-cü ildə Rusiya İmperator Coğrafiya Cəmiyyəti Qafqaz Şöbəsinin həqiqi üzvü seçilmişdi [2, s. 362-363].

XIX əsrin 70-ci illərindən dövri mətbuatda çıxış edən Məhəmməd ağanın ədəbi-tənqidi məqalələrinin mövzu dairəsi çox geniş olub, Şərq xalqlarının tarixi və müasir həyatı, beynəlxalq əlaqələr, dil və mədəniyyət, maarif, din və fəlsəfə kimi sahələri əhatə edirdi. Məhəmməd ağanın taleyi həmişə Tiflis şəhəri ilə bağlı olmuşdur. XIX əsrdə və XX əsrin əvvəllərində Qafqazın mərkəzi olan Tiflis şəhərində klassik kişi gimnaziyasını bitirən Məhəmməd ağa Rusiyanın və Avropa ölkələrinin sayılıb-seçilən universitetlərində təhsil aldıqdan sonra yenidən Tiflisə qayıtmışdır. Tiflisin ədəbi və elmi mühitinin onun elmi dünyagörüşünün formalaşmasına böyük mənəvi təsiri olmuşdur. Onun ən böyük arzularından biri isə Azərbaycan dilində qəzet nəşr etdirmək idi. O, fasilələrlə müxtəlif illərdə Tiflisə dönmüş və Qafqaz canişinliyinin vasitəsilə Rusiya hökumətinə ərizələrlə müraciət etmişdir. Hələ 1896-cı ildə Məhəmməd ağa Şahtaxtlı Qafqaz Senzura Komitəsinə və Rusiya Daxili İşlər Nazirliyinə müraciət edərək ona Azərbaycan, türk, ərəb və fars dillərində "Tiflis" adlı qəzet nəşr etməyə icazə verilməsini xahiş etmişdi. O, ərizəsinə geniş bir proqram da əlavə etmişdi. İlk əvvəl ona rədd cavabı verilsə də, Məhəmməd ağa inadından dönməmiş, Peterburqa gedərək yüksək rütbəli çar məmurlarına da müraciətlər etmişdi.

1898-ci ildə Fransaya gedən Məhəmməd ağa 1902-ci ildə yenidən Tiflisə qayıtdıqdan sonra Azərbaycan dilində qəzet çıxarmaq üçün elə həmin il aprelin 2-də Rusiyanın Mətbuat İşləri üzrə Baş İdarəsinə xahişnamə ilə müraciət etmiş

və çox böyük çətinliklərlə üzləşməsinə baxmayaraq ana dilində "Şərqi-Rus" adlı qəzetin Tiflisdə nəşrinə icazə ala bilmişdi [5].

Məhəmməd ağa nəşr üçün tərtib etdiyi proqramda hakimiyyət orqanlarına bildirirdi ki, "Şərqi-Rus" qəzetinin nəşri Rusiya hökumətinə xeyir verə bilər. Ərizədə 50 yaşında olduğunu qeyd etsə də, lakin əslində bu zaman onun 56 yaşı vardı. Tiflisdə yaşadığı ünvanı da (Olqinski küçəsi, Qoqniyevlərin evi, № 16) göstərən Məhəmməd ağa öz ərizəsinin sonuna belə bir qeyd əlavə etmişdi: "Arzu edirəm ki, qəzetin həcmi "Svet" (İşıq) qəzetinin həcmində olsun". O, ərizədə qəzetin Libermanın mətbəəsində çap ediləcəyini də göstərirdi. Çox güman ki, bu mətbəə çar hökumətinin etibarını qazanmış mətbəə imiş. Amma sonralar Məhəmməd ağa doğulduğu Şahtaxtı kəndindəki ata mülkünü sataraq Tiflisdə öz adına müasir avadanlıqlı mətbəə açmışdı.

Böyük demokrat Cəlil Məmmədquluzadə "Xatiratım" adlı əsərində yazır: "...mənə, Məhəmməd ağanın vətəninin övladına bu məlumdur ki, o vaxtlar ədibimiz qəzet məşqinə düşəndə, mən eşitdim ki, Məhəmməd ağa atadanqalma mülkünün öz hissəsini satıb on səkkiz min manata və bu pulu alıb getsin Tiflisdə qəzet nəşr etsin.

Mən Tiflisdə Məhəmməd ağanın qəzetinin idarəsinə daxil olanda bildım ki, Naxçıvanda danışılan bu söhbət əsl həqiqətdir. Və o vaxt mən gördüm ki, bu on səkkiz min manat qəzet üçün xüsusi bir mətbəə saxlamağa sərf olunur" [13].

Nəhayət, 1903-cü il martın 30-da xalqımızın mədəniyyəti və mətbuatı tarixində əlamətdar hadisə baş verdi və ziyalılarımızın çoxdan həsrətlə gözlədikləri XX əsrin ilk milli mətbuat nümunəsi işıq üzü gördü. Qəzetin nəşri böyük əks-səda yaratmaqla bərabər, həm də xalqın böyük sevincinə səbəb olmuşdu.

M.Şahtaxtlı ona ünvanlanan təbriklərə cavab olaraq yazırdı: "Güman edirəm ki, bütün müsəlman ziyalıları, həmçinin, ümumiyyətlə, zəhmətkeş, tərəqqiyə can atan kiçik xalqımızın inkişafının insanpərvər dostları məni müdafiə edəcək və bu işin mədəni əhəmiyyətini layiqincə anlaya biləcəklər" [5].

"Şərqi-Rus" siyasi, ictimai, iqtisadi və ədəbi qəzet olub eyni adlı mətbəədə çap olunurdu. Əvvəllər həftədə üç dəfə - çərşənbə, cümə və bazar günlərində, sonradan gündəlik çıxmağa başladı. Cəmi 392 nömrəsi işıq üzü görmüşdür. 1903-cü ildə -115, 1904-cü ildə - 263, 1905-ci ildə isə 14 nömrəsi çapdan çıxmışdı [3, s. 89-90]. Son 45 nömrənin redaktoru Cəlil Məmmədquluzadə idi. Sonuncu nömrəsi 1905-ci il yanvarın 15-də çıxmışdı [3, s. 124].

"Şərqi-Rus" Azərbaycanda Qərb standartlarında çap olunan Şərq qəzeti idi. Bu qəzetin əsas məqsədi türk-müsəlman əhalisini maarif və mədəniyyətə qovuşdurmaq idi. Ümumiyyətlə bu qəzetin yaradılması Şahtaxtlının Azərbaycan mədəniyyəti tarixində ən böyük xidmətlərindən biri kimi yüksək qiymətləndirilir. Qəzetdə dünyəvi elmlər, ana dili, qadın azadlığı ilə bağlı mütərəqqi fikirlər öz əksini tapırdı. Rus yazıçısı Lev Tolstoydan Azərbaycan dilinə ilk tərcümələr məhz bu qəzetdə yer almışdır.

Ulu öndər Heydər Əliyev prezidentliyi dövründə 2020-ci il martın 27-də "Azərbaycanda milli mətbuatın yaradılmasının 125 illiyi haqqında" fərman imzalamışdı. Həmin fərmanda qeyd olunurdu ki, "XX əsrdə Azərbaycan dilində çıxan ilk qəzet Məhəmməd ağa Şahtaxtinskinin 1903-cü ildə Tiflisdə buraxdığı ictimai-siyasi, iqtisadi, elmi, ədəbi "Şərqi-Rus" qəzeti olmuşdur. Qəzetin Azərbaycanda ictimai fikir tarixinin inkişafında xüsusi yeri olmuşdur. Qəzetdə dünyəvi elmlər, ana dili, qadın azadlığı ilə bağlı mütərəqqi fikirlər öz əksini tapırdı.

"Şərqi-Rus" qəzeti Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Ömər Faiq Nemanzadə, Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, Əli Nəzmi kimi böyük maarıfçiləri öz ətrafında birləşdirə bilmişdi. Qəzetin ən böyük xidmətlərindən biri də Cəlil Məmmədquluzadəni bir jurnalist kimi üzə çıxarması oldu. O, mətbuatda demokratik cərəyanın bərqərar edilməsində mühüm rol oynayan peşəkar bir redaktor kimi məhz bu qəzetdə yetişmişdir.

Artıq "Şərqi-Rus" qəzeti ətrafında formalaşmış yaradıcı heyət Azərbaycanda mətbuatın inkişafının yeni mərhələsinin başlanması üçün zəmin yaratdı. Cəlil Məmmədquluzadənin təşəbbüsü, redaktorluğu və naşirliyi ilə 1906-cı il aprelin 7-də Tiflisdə həftəlik illüstrasiyalı ilk Azərbaycan satirik jurnalı - "Molla Nəsrəddin" işıq üzü gördü" [1].

M.Şahtaxtlı elmi və publisistik əsərlərində müstəmləkəçilik, irqçilik siyasətini, qadın hüquqsuzluğunu tənqid etmiş, dövlət quruculuğu, demokratiya, xalq hakimiyyəti, islam dini ilə bağlı bir sıra məsələlərə dair mütərəqqi fikirlər irəli sürmüşdür.

Azərbaycanın tanınmış ədəbiyyatşünas alimi, professor Əziz Mirəhmədovun "Əhməd bəy Ağaoğlu" adlı monoqrafiyasının "Milli mətbuatın tərəqqisi yolunda" adlı bölməsində M.Şahtaxtlı və onun "Şərqi-Rus" qəzetinin fəaliyyəti haqqında bəhs edilir [9, s.76-78].

Ə.Mirəhmədov yazır: "XX əsrin ilk illəri Ağaoğlunun qəzet nəşr etmək barədə köhnə arzularını təzələdi. Amma bu dəfə qəzeti təklikdə yox, şərikli buraxmaq məcburiyyəti qarşıya çıxmışdı. Onun şərik olmaq istədiyi qəzet M.Şahtaxtinskinin naşirliyi və redaktorluğu ilə Tiflisdə nəşr olunan "Şərqi-Rus" idi.

Danışıqları belə olmuşdu ki, Ağaoğlu redaktorlardan biri olmaq haqqını qazanmaq üçün Şahtaxtinski ilə bərabər ölçüdə pul qoyacaq və onlar qəzetin redaksiya və mətbəəsini Bakıya köçürəcəklər.

Azərbaycanın şöhrətli şərqşünas-alimi və publisisti Məhəmməd ağa Şahtaxtinski Ağaoğlunun bir çox cəhətdən sələfi və həmkarı idi. O, Naxçıvan əsilzadələrindən olub əvvəlcə doğma şəhərində qəza məktəbini, sonra Tiflis gimnaziyasını qurtarmış, Paris, Leypsiq, Peterburq şəhərlərində elmi işlə yanaşı jurnalistika sahəsində çalışmış, universitetlərdə sərbəst müdavim olmuş, Sorbonna professoru P.Passininin başçılıq etdiyi "Asiya fonetikası cəmiyyəti"ndə tədqiqat aparmışdı. Şərqə, onun tarixinə, müasir həyatına, beynəlxalq əlaqələrinə, dil, ədəbiyyat, din və fəlsəfəsinə dair əsərləri, xüsusilə Rusiya-Şərq, Rusi-

ya-Qərb münasibətlərinə dair mətbuat icmalları onu istedadlı, eyni zamanda mütərəddid, ziddiyyətli görüşlər sahibi kimi tanıtmışdı. Bir müddət M.F.Axundzadədən və rus inqilabi xalqçılığından ruhlanaraq bəzi demokratik təşəbbüslər edəndən sonra o, çar Rusiyasındakı mürtəce ideya cərəyanlarının təsiri altına düşmüş, M.Katkovun "Moskovskiye vedomosti" qəzetində əməkdaşlıq edib, öz etirafına görə hətta bu monarxist xadimin "sağ əli" olmuşdu [9, s. 76].

1905-ci il ərəfəsində Azərbaycan ziyalıları yeni ədəbiyyat və milli mətbuat uğrunda mübarizəni genişləndirdiyi bir dövrdə M. Şahtaxtlının da maarifçi demokratik meylləri güclənir. Bu zaman Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə və digər mütərəqqi ziyalılarla birlikdə Əhməd bəy Ağaoğlu da milli mənafe baxımından bu qəzetlə əməkdaşlıq etməyi lazımlı və zəruri hesab etmişdi. Lakin bu yaxınlıq bir o qədər də uzun sürmür. Məsələ burasında idi ki, bundan bir qədər əvvəl M.Şaxtaxtlı öz qəzetində H.Z.Tağıyevin əleyhinə məqalə çap etdirmişdi. Hacının qəzeti olan "Kaspi"nin əməkdaşları Ə.Ağaoğlu və Ə.Topçubaşov da M.Şahtaxtlının əleyhinə ifşa və çəkişmə kampaniyasına başlamışdılar. Qeyd edək ki, ümumiyyətlə belə hallar burjua jurnalistikasına xas olan xüsusiyyət idi, yəni burada qeyri-adi bir şey yox idi. Bu mübahisədə bəzən iki tərəf də həddini aşırdı. Məsələn, Şahtaxtlı yazırdı ki, "Mərdan bəy və Əhməd bəy kimilərdə prinsip və məslək nə gəzir?! Bunlar (...) ac qurdlardır ki, neft sayəsində dövlətlənən Bakıya yığılıb, Əlinin börkünü Vəlinin başına qoyub, ciblərini doldururlar. Məzəsi budur ki, belə çapovulçuların iddiası odur ki, mən bunları pişvayi-islam (pişvayi islam – millətin qabaqda gedən xadimi – S.Ə.) tanıyıb, bunların rəzalətini millət nəzərində fəzilət göstərim" [8, 9, s. 77].

Qeyd edək ki, belə xoşagəlməz ifadələr qarşı tərəfdən də səslənirdi. Lakin münaqişə uzun sürmədi və tərəflər az sonra razılığa gəldilər. Artıq 1904-cü ilin payızında M.Şahtaxtlı ilə Əhməd Ağaoğlu arasında şərik olmaq barədə razılıq əldə olunmuşdu. Cəlil Məmmədquluzadə yazır ki, "Əhməd bəyin qəzetə ("Şərqi-Rus"a – S.Ə.) daxil olmağına Qafqaz hökuməti izn verə bilmədi, onunçün də bu izni hasil etmək qəsdilə Məhəmməd ağa Peterburqa getməyə məcbur oldu və oradan icazəni də aldı" [Yenə orada, s.77-78].

İcazə alınmasına baxmayaraq Ə.Ağaoğlu ilə əməkdaşlıq baş tutmadı. Maddi çətinliklər üzündən M.Şahtaxtlı "Şərqi-Rus"un fəaliyyətini dayandırdı. Özünün yaratdığı eyni adlı mətbəəni isə 1906-cı ildə yaxın dostu və məsləkdaşı Cəlil Məmmədquluzadəyə bağışlamışdı [12]. Sonradan "Qeyrət" adlandırılan bu mətbəədə "Molla Nəsrəddin" jurnalı çap olunurdu.

M.Şahtaxtlı 1907-ci ildə Rusiyanın Dövlət Dumasına İrəvan quberniyasından millət vəkili seçilmiş, Duma buraxıldıqdan sonra "Rossiya" (Peterburq) qəzeti redaksiyasında jurnalistlik fəaliyyətini davam etdirmişdi. 1908-1918-ci illərdə, əsasən, xaricdə (xüsusilə Türkiyə, İran və İraqda) yaşamışdı.

1919-cu ildə Vətənə qayıdan M.Şahtaxtlı Bakı Dövlət Universitetinin yaradılmasında fəal surətdə iştirak etmiş, universitet fəaliyyətə başladıqdan sonra isə bir şərqşünas alım kimi şərq dilləri və ədəbiyyatından dərs demişdir. Bu sa-

hədəki fəaliyyətinə görə universitetin Elmi Şurası tərəfindən ona 1920-ci ildə professor elmi adı verilmişdi. O, BDU-nun ilk azərbaycanlı professoru idi. 1922-ci ildə ona fərdi pensiya təyin olunmuşdu [2. s. 363].

M.Şahtaxtlı 12 dekabr 1931-ci ildə Bakı şəhərində vəfat etmişdir [12].

**Nəticə:** Görkəmli maarifçi-pedaqoq Məhəmmədağa Şahtaxtlı təkcə mətbuat sahəsində deyil, həmçinin təhsil və tərbiyə sahəsində xüsusi xidmətlər göstərmiş, cəmiyyət həyatında və ictimai inkişafda onların rolunu müstəsna əhəmiyyət daşıdığına inanmış və ömrünün sonuna qədər bu yolda yorulmadan çalışıb mübarizə aparmışdır. Onun ideyalarının bu gün də müasir səslənməsi həm də bununla səciyyələnir ki, hazırda təhsilin məzmununun elmlər kompleksini əks etdirməsi, verilən biliyin həyati faydalılığının olması, təhsilin dünya təcrübəsinə inteqrasiya edilməsi, öyrədənlərin milli və beynəlxalq səviyyədə hazırlığının vacibliyi kimi tələblər irəli sürülür. Pedaqoq, publisist, şərqşünas, dilçi və ictimai xadim Məhəmmədağa Şahtaxtlı cəmiyyətin inkişafında mətbuatın, təhsilin, elmin mühüm əhəmiyyəti olduğunu konseptual şəkildə işləyən nəhəng şəxsiyyətlərdən olmuşdur.

## Ədəbiyyat siyahısı

1. *“Azərbaycanda milli mətbuatın yaradılmasının 125 illiyi haqqında”*
2. *Azərbaycan Respublikası Prezidentinin 27 mart 2000-ci il tarixli fərmanı. http://www.e-qanun.az > framework*
3. *Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. II clddə, II cild, Bakı, “Lider nəşriyyatı”, 2005, 469 s.*
4. *Azərbaycan dövri mətbuatı. 1832-1920. Biblioqrafiya. (Tərtib edəni Nazim Axundov), Bakı, 1987, 221 s.*
5. *Əziz Şərif. “Molla Nəsrəddin” necə yarandı?Bakı,“Yazıçı”, 1986, 38 s.*
6. *“Xalq” qəzeti, 14 iyul 2020-ci il.*
7. *Quliyev Vilayət. Tarixdə iz qoyan şəxsiyyətlər. Bakı, “Ozan” 2000, 583 s.*
8. *Quliyev Musa. Şahtaxtinskilər tariximizdə və taleyimizdə. Naxçıvan, Əcəmi, 2010. 104 s. // http: www.serqqapisi. az>m-d-niyy-t/inde.*
9. *Məmmədquluzadə C. Əsərləri. 3 cilddə, 3-cü cild, Bakı, 1967.*
10. *Mirəhmədov Ə. Əhməd bəy Ağaoğlu. Bakı, Ərgünəş, 264 s.*
11. *Şərqi-Rus”. Tiflis, 1903, 27 aprel.*
12. *Quliyev Əbülfəz. Məhəmməd ağa Şaxtaxtlının publisistikası. Bakı “Elm və təhsil” nəşriyyatı, 2016, 128 səh.*
13. *Quliyev Musa. Məhəmməd ağa Şahtaxtlı və onun "Şərqi-Rus" qəzeti haqqında yeni bilgilər. https://525.az/news/44252-mehemmed-aga-sahtaxtli-ve-onun-serqi-rus-qezeti-haqqinda-yeni-bilgiler*

**UOT 94 (479.24)**

# AZƏRBAYCAN MAARİFÇİLİK HƏRƏKATINDA MİLLİ MƏTBUATIN ÖNƏMİ

**SEVİNC QASIMOVA**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, dosent*
*qasimovasevinc@mail.ru*

*XIX yüzillik mürəkkəb, eyni zamanda ziddiyyətli hadisə və prosesləri ilə daha çox yadda qalmasına baxmayaraq, mütərəqqi düşüncəli milli ziyalılarımızın ilk təmsilçilərinin meydana çıxması baxımından əhəmiyyətlidir. Bu dönəm belə demək mümkünsə ən böyük mənəvi qazanc əldə etdiyimiz dövrdür. Ruhanilikdən qaynaqlanmış ilk maarifçilərimiz, eyni zamanda "aydınlanma məktəbi"nin meydana çıxmasında həlledici addımlar atmışlar. XIX yüzillikdə yaşayan bu maarifçilik məktəbinin nümayəndələri məhz yeni dövrün Azərbaycan mədəniyyətinin təməl daşını qoyanlar hesab edilir. Həm Şərq, həm də Avropa ədəbiyyat və mədəni mühitindən xəbərdar olan, Avropa təhsili görmüş, Avropa təhsil ocağıyla bağlı olmuş bu maarifçilər sözün həqiqi mənasında aydınlanma hərəkatının hərəkətverici qüvvələri hesab edilə bilər. Fədakarlıqları ilə seçilən bu fitri istedad sahibləri Azərbaycan elmi və mədəniyyətinə müxtəlif sahələrdə xidmət göstərmişlər. Yaşadıqları həyat mühiti onların dünyagörüşünə mühüm təsir göstərməyə bilməzdi.*

*Təqdim olunan məqalənin yazılmasında məqsəd XIX yüzillik və XX yüzilliyin əvvəllərində maarifçiliyin təməl daşlarını qoyan aydınlarımızın milli mətbuatın yaradılması vacibliyini vurğulamaq, bu yolda maarifçi aydınlarımızın mübarizəsini dövrün ictimai-siyasi proseslərinin təhlili ilə araşdırmaq, eyni zamanda tarixi-müqayisəli-analoji metoddan istifadə etməklə iki dövrün ictimai və siyasi kontekstində mövcud mətbu orqanlarının bu hərəkata necə təsir göstərdiyini və bunun nəticələrini müəyyənləşdirməkdən ibarətdir.*

***Açar sözlər:*** *milli özünüdərk, aydınlanma, "paqonlu maarifçilər", milli ziyalılarımız*

## *THE IMPORTANCE OF THE NATIONAL PRESS IN THE AZERBAIJANI EDUCATIONAL MOVEMENT*

*Although the nineteenth century is best remembered for its complex and controversial events and processes, it is important in terms of the emergence of the first representatives of our progressive national intellectuals. This period, so to speak, is the period when we gained the greatest spiritual gain. Our first spiritual enlighteners also took decisive steps in the emergence of the "school of enlightenment". Representatives of this school of enlightenment, living in the XIX century, are considered to be the founders of the Azerbaijani culture of the new era. These enlighteners, who were aware of both Eastern and European literary and cultural environments, were educated in Europe, and were connected to the European educational institution, could be considered the driving forces of the Enlightenment movement in the true sense of the word. These innate talents, distinguished by their selflessness, have served the science and culture of Azerbaijan in various fields. The environment in which they lived had a profound effect on their outlook.*

*The purpose of writing this article is to emphasize the importance of creating a national press of our intellectuals who laid the foundations of enlightenment in the XIX and early XX centuries, to study the struggle of our intellectuals in this way by analyzing the socio-political processes of the time in the political context, to determine how the existing press has influenced the movement and its consequences.*

***Keywords:*** *national self-awareness, enlightenment, "pagan enlighteners", ournational intellectuals*

XIX yüzilliyin ictimai-siyasi fikir tarixini öyrənərkən həmin dövrün mürəkkəb və ziddiyyətli hadisələrini araşdırmaq vacibdir. Belə ki, bəhs etdiyimiz dövr Şimali Azərbaycanın Rusiya tərəfindən işğal olunduğu dövr idi. Digər tərəfdən torpaqlarımızın istila edilməsinə baxmayaraq, o zaman mütərəqqi düşüncəli mütəfəkkirlərimiz Avropa və rus mədəniyyəti ilə yaxından tanış olma imkanını əldə etdilər. Məhz bu dövrdə milli ziyalılarımızın yeni nəsli yetişdi. O nəsil ki, millətinə etnik kimliyini tanımaqda hərtərəfli yardımçı oldu. Azərbaycanın maarifpərvər ziyalıları milləti cəhalət və xurafat girdabından xilas etmək, onun maariflənməsinə və mədəni tərəqqisinə nail olmaq üçün real yollar arayır, onları işıqlı gələcəyə çatmağa yönləndirirdilər. Maarifçi aydınlar yaxşı başa düşürdülər ki, özünü tanımayan millət öz hüququ uğrunda var qüvvəsi ilə çarpışa bilməz. Bunun üçün onlar milli dil, milli məktəb, milli mətbuat, milli ədəbiyyat və milli teatrın olmasının vacibliyini vurğulayır, bu yöndə səylərini əsirgəmirdilər. Almaniyada maarifçilik hərəkatının öndərlərindən biri olan Fridrix Şillerin teatrın vacibliyi haqqında "əgər milli teatra qədər yaşasaydıq, onda biz millət olardıq" fikri Azərbaycan maarifçilərinin fikriylə səsləşir.

Ümummilli lider Heydər Əliyev Dünya Azərbaycanlılarının həmrəylik günü münasibəti ilə həmvətənləri qarşısındakı çıxışında bu dövrün mütəfəkkirlərinin dünya qarşısındakı xidmətlərini xüsusi vurğulayırdı: "Azərbaycan xalqı dünya mədəniyyətində öz dəsti-xətti ilə seçilən xalqlardandır. Onun əsrlər boyu yaratdığı mədəniyyət və ədəbiyyat nümunələri həyat eşqı, azadlıq və müstəqillik duyğuları ilə aşılanmışdır. Xalqımızın dünya elminə bəxş etdiyi töhfələrlə fəxr etməyə haqqı var. ...Mirzə Fətəli Axundovun, Abbasqulu Ağa Bakıxanovun və digər mütəfəkkirlərin adları dünya elm aləminə yaxşı tanışdır. ... Keçən əsrdə milli maarifçilik ideyalarının gerçəkləşməsi sayəsində Azərbaycanda demokratik mətbuat, ana dilli məktəb, dünyəvi teatr yaranaraq milli şüurun formalaşmasına ciddi təkan verdi. Bakının qısa müddət ərzində dünyanın neft mərkəzinə çevrilməsi iqtisadiyyatla yanaşı, ictimai-siyasi və mədəni həyatda köklü dəyişikliklər üçün möhkəm zəmin yaratdı. Azərbaycanın görkəmli şəxsiyyətləri müstəqillik ideyası ətrafında birləşərək 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına nail oldular" [1, 10]. H.Əliyevin bu çıxışı Azərbaycan maarifçilərinin qısa zaman kəsiyində gördüyü işlərin və bunun məntiqi nəticəsinin, eyni zamanda maarifçi aydınlarımızın dünya elmi qarşısındakı xidmətlərini göstərmək baxımından böyük əhəmiyyət kəsb edir.

Maarifçilik anlayışı ilə bağlı Zümrüd Quluzadə yazırdı: "Maarifçilik ideologiyası mahiyyətini açmadan hansısa tədqiqatçıların A.A.Bakıxanovu (H.Hüseynov, Z.Göyüşov), yoxsa M.F.Axundzadəni (Ə.Əhmədov) Azərbaycan maarifçiliyinin banisi saymaması doğru deyildir. Bu məsələni yalnız maarifçilik meyarlarını və Azərbaycan maarifçiliyinin təzahür spesifikasını dəqiqləşdirməklə həll etmək olar" [2, 207].

XIX yüzillik və XX yüzilliyin yetişdirdiyi çoxsaylı mütəfəkkirlərinin xidmətlərini heç də azaltmadan Abbasqulu ağa Bakıxanov, Mirzə Kazım bəy, Mir-

zə Fətəli Axundov, Həsən bəy Zərdabi, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Məhəmməd Əmin Rəsulzadə və s. kimi fikir adamlarının aydınlanma hərəkatında milli mətbuatın vacibliyini irəli sürmələri xüsusi qeyd edilməlidir. Onlar xalqın xoşbəxt gələcəyini düşünür, onların azadlıq və istiqlala yetməsi üçün müxtəlif yollar axtarırdılar. Bu mütəfəkkirlər millətin gələcəyi naminə əllərindən gələni əsirgəmir və maarifçilik hərəkatında mətbuatın yaradılmasını çıxış yollarından ən vacibi hesab edirdilər.

Məlumdur ki, millətin oyanışında, xalqın maariflənməsində, vətəndaş hüquqlarının qorunmasında mətbuatın rolu misilsizdir. Aydınlanma hərəkatının bu xadimləri eyni zamanda o dövrün intellektləri idrak edirdilər ki, "mətbuat bir millətin lisanı (dili), samiəsi (qulağı), nəzəri (gözü), beyni deməkdir. Mətbuatsız millət söyləyəməz, eşidəməz, görəməz" [3].

Yuxarıda adlarını çəkdiyimiz maarifçilərin bu yolda əsas hədəflərindən biri də milli qəzet yaradılması idi. Fəqət, mövcud istibdad rejimi və onun müstəmləkə ucqarlarına "nəzarət" mexanizmi bunların həyata keçirilməsinə hər cür mane olurdu. Bu yolun nə qədər ağır və məşəqqətli olduğunu dərk edən maarifçi mütəfəkkirlərimiz usanmadan məqsədə doğru irəliləməyin vacibliyini əməldə göstərməyə başladılar.

Bu ideyanı həyata keçirmək istəyi olan aydınlarımızdan birincisi A.A.Bakıxanov idi. Onu ilk milli ideologiyamızın yaradıcılarından birincisi saysaq yanılmarıq. Elmi və maarifi insanın kamillik dərəcəsinin əsas daşıyıcısı hesab edən A.A.Bakıxanov xalqın rifahının yalnız elmlə yaxşılaşacağına ümid edirdi. O, xalqının təhsildən uzaq olma səbəbini İslam dinində deyil, riyakar din adamları və onlara arxa duran despotlarda görürdü. Eyni zamanda o dövrünün müasirlərindən olan M.Kazımbəy və M.F.Axundovdan fərqli olaraq, bu qurtuluş yolunu Qərbdə deyil, Şərqdə axtarmağı göstərirdi. Xalqın dünyəvi elmlərə yiyələnməsi ilə bu yoldan çəkinəcəklərinə inanırdı. Bununla da İslam mədəniyyətinə bu yolla çatacaqlarına ümid edirdi. Avropa mədəniyyətinin Şərq mədəniyyətindən heç də üstün olmadlığını göstərən A.A.Bakıxanovun qənaətinə görə Şərq xalqları öz çarələrini Qərb mədəniyyətində axtarmamalıdır [4, 168].

Yuxarıda qeyd etdik ki, maarifçi aydınlarımızdan ilk dəfə A.A.Bakıxanov qəzet çıxarmağa və milli məktəb yaradılmasına cəhd etmişdir. Bu işin vacibliyini dərk edən mütəfəkkir hətta "divar qəzeti"ni xatırladan bir neçə səhifəlik qəzetin yaranmasının təşəbbüskarı olmuşdu. Doğrudur o dövrün ideoloji tələblərinə cavab verəcək tərzdə, rus dilində tərtib edilməli idi. Təəssüf ki, onun qəzet çıxarmaq ideyası gerçəkləşmədi. Eyni zamanda onun "paqonlu maarifçi" kimi mövqeyi xalqın başa düşəcəyi şəkildə qəzetin yaradılmasına da imkan verirdi. Bütün senzura və təqiblərə baxmayaraq, A.A.Bakıxanov bu mövqeyində ardıcıl idi. Ona görə də 1828-ci ildə P.Sankovskinin rus dilində nəşr olunan və çarın müstəmləkəçilik siyasətini təbliğ edən "Tiflisskiye vedomosti", daha sonra Mirzə Əpriəm Yenikolopovun 1832-ci ildə azərbaycan dilində çıxan əlavəsi sayılan "Tiflis əxbarında" Azərbaycanın maddi mədəniyyətinə, folkloruna və

etnoqrafiyasına dair materialların dərc olunmasına şəxsən rəhbərlik edirdi. F. Qasımzadənin yazdığı kimi, "Tiflis əxbarı"nın azərbaycanca nəşrinə o zaman canişinlik dəftərxanasında tərcüməçi işləyən məşhur Azərbaycan alimi və yazıçısı A.A.Bakıxanov yaxından kömək göstərmişdir [2].

Yeni tipli milli məktəbin yaranması məsələsində də A.A.Bakıxanovun böyük səyi olduğunu da qeyd etmək lazımdır. O, Azərbaycan türklərinə xidmət edəcək milli ruhda məktəblərin açılmasına cəhd göstərir, bunun üçün xüsusi layihə hazırlayır, təəssüf ki, çar Rusiyası onun bu təşəbbüsünün də gerçəkləşməsinə mane olur. Məlumdur ki, XIX yüzilliyin ilk otuz ilində ruslaşdırma siyasəti həyata keçirmək məqsədi ilə rus-tatar məktəbləri açılmışdı. Baxmayaraq ki, A.A.Bakıxanov çar Rusiyasının polkovniki, bir zabiti olaraq həm də bədnam Türkmənçay müqaviləsinin bağlanmasının iştirakçısı idi o, xalqının kölə vəziyyətində olmasını heç cür qəbul etmirdi. Sonralar, hətta, əsərlərinə yüksək dəyər verilməsinə baxmayaraq, onun müxalif əhval-ruhiyyəsinə görə hakim dairələr əsərin nəşrinə icazə vermədi. Xalqının işıqlı gələcəyini hər zaman düşünən mütəfəkkir elmi irəli aparan əsəri olan "Gülüstani-İrəm" haqqında qeydlərində yazırdı:

Bir möhtərəm cənab üçün ələ aldım qələmi
Çox həvəslə yazmışam bu "Gülüstani-İrəmi"
Yazıldısa xahişilə Mixail Zaxariçin
Yaranası oldu lakin bu əsərim xalq üçün.

O, yaxşı başa düşürdü ki, çarizmin Azərbaycanda açdığı rus-tatar məktəbləri Rusiyaya yönəlik bir siyasət idi və gələcəkdə Rusiyaya xidmət edəcək kadr hazırlığını nəzərdə tuturdu. Millətinin gələcəyi naminə həm qəzet nəşrinə, həm də milli məktəbin yaranmasına doğru atdığı addımlar mütəfəkkirin milli ruhlu bir maarifçi-demokrat kimi yetişdiyinin bariz nümunəsi idi. A.A.Bakıxanovun ilk müsəlman məktəbinin yaradılması ilə bağlı çara təqdim etmək üçün hazırladığı layihəsi o dövrün ən cəsarətli addımlarından biri hesab edilə bilər. Milli-mənəvi dəyərlərimizi hər şeydən üstün tutan A.A.Bakıxanovun bu addımı əlbəttə çar Rusiyasını narahat etməyə bilməzdi. Təsadüfi deyil ki, 1832-ci il fevralın 20-də çar ordusunun Qafqaz korpusunda qulluq edən A.A.Bakıxanovun müsəlman məktəbləri barədə hazırladığı müsəlman uşaqları üçün dünyəvi məktəblərin açılmasını nəzərdə tutan layihəsi Rusiyanın Qafqaz hakimi baron Qriqori Rozenə təqdim edilsə də, nəticəsiz qalmışdı. Əlbəttə buna səbəb çar hökumətinin müsəlmanların maariflənməsində maraqlı olmamasından irəli gəlirdi. Həmin layihə illərlə baron Rozenin arxivində qaldığından, 1857-ci ildə Tiflis arxivində aşkar olunmuşdu. Böyük mütəfəkkirin təqdim etdiyi layihədə bu sətirləri yazır: "Maarifə doğru ilk addım məktəb təsis etməkdir. Mən həmvətənlərimin faydası üçün var qüvvəmi bu işə həsr edirəm və öz nəzarətim altında məktəb təsis etmək haqqında fikir irəli sürməyə cəsarət edirəm" [5, 136]. Bəhs

olunan dövrün digər maarif fədaisi, Azərbaycan aydınlanma hərəkatında böyük rolu olan M.Kazımbəy idi. Böyük mütəfəkkir mətbuatın vacibliyini düşünərək, Kazan universitetində çalışdığı müddətdə tələbəsi ilə birlikdə milli mətbuatın yaradılması yolunda uğurlu addımlar atmış və qəzetin milli hərəkatın oyanışında birinci dərəcəli rol oynamasını xüsusilə vurğulamışdır. Kazan Universitetində Kazımbəyin nüfuzu artdığından tələbə və professor heyəti hər bir məsələnin həllində Kazımbəylə hesablaşırdılar. 1834-cü ildə Kazan Universitetinin tələbəsi, Şərq bölməsi üzrə namizəd M.Nikolski Kazan təhsil dairəsinə "Море новостей" (Xəbərlər dəryası) adı altında qəzetin nəşri layihəsini hazırlayarkən məhz Kazımbəylə məsləhətləşmiş, onun təklif və rəylərinin vacibliyi göstərilmişdir. Kazımbəyin təklifilə qəzet "Bəhrül-əkra" ("Sir dənizi") adlandırılacaqdı. M.Kazımbəy qəzetin nəşri ilə bağlı bəzi vacib məqamları da diqqətə çəkdi. Qəzetin heyəti və dil məsələsinə önəm verərək bildirirdi ki, qəzetin redaksiyasında savadlı adamlar cəmlənməli və qəzetin dili tatar dilində yayınlanmalı idi [6, 47]. Mütəfəkkir xalqın öz ana dilində qəzetinin olmasını vacib sayır və bununla da onların dünyada baş verən hadisələrdən agah olacaqlarına və maariflənməsinə inanırdı.

Fransız ensiklopedistlərindən sonra ilk dəfə "millət" anlayışına müraciət edən M.F.Axundov milli kimliyimizə aydınlıq gətirmiş və bununla da yeni dövrdə Azərbaycançılıq ideologiyasının əsasını qoymuşdur. Mirzə Fətəli Axundov bütün islam Şərqində ilk səhnə əsərlərini yaratmaqla yanaşı milli mətbuat məsələsinə dair özünəməxsus fikirlər söyləmişdir.

XIX yüzilliyin 40-cı illərində M. F. Axundov və Mirzə Şəfi Vazeh birlikdə Azərbaycan dilində kitablar çap etmək üçün mətbəə yaratmağa təşəbbüs etmişdilərsə də, onların bu təşəbbüsü nəticəsiz qalmışdır. Lakin bu təşəbbüs Azərbaycan maarifpərvərlərinə milli mətbuat yaratmaq uğrunda mübarizənin zəruriliyini hiss etdirmişdi. Bəhs etdiyimiz "Tiflis əxbarı" və "Qafqazın bu tərəfinin xəbəri" ilə milli Azərbaycan mətbuatı yaranmasa da, bunlar mətbuatın yaradılmasının rüşeymi oldu. Ənvər Əhmədov "Azərbaycan maarifçilik fəlsəfəsi" adlı əsərində yazır: "M.F.Axundovun sosial-siyasi fəlsəfəsi özündə aşkar şəkildə humanizm, vətənpərvərlik, milli özünüdərk ideyalarını daşıyırdı" [7, 145]. Məhz bu özünüdərk prosesində mətbuat əsas təsiredici amillərdən biridir. M.F.Axundovun 1865-ci ildə yazdığı "Hindistan şahzadəsi Kəmalüddövlənin İran şahzadəsi Cəlalüddövləyə üç məktubu və Cəlalüddövlənin ona göndərdiyi cavab" adlı fəlsəfi-siyasi traktatında xalq kütlələrinin məruz qaldığı ağır zülmü və istismarı tənqid edərək, elm və maarifi tərəqqinin başlıca amili hesab edərək yazırdı: "İstibdad elə bir hökmdardır ki, öz hərəkətlərində heç bir qanuna tabe olmur, onlara əməl etmir, daim mülkiyyət və xalq üzərində hökmranlığını həyata keçirir, həmişə özünə münasib şəkildə hərəkət edir". O, məhz maarifçilik yolu ilə fanatizm üzərində qələbə çalmağı irəli sürürdü.

M.F.Axundovun çar idarəsində işləməsi onun bir çox həqiqətləri görməsinə imkan yaratmışdır. Hətta burada o, maarifçilik fəaliyyətini həyata keçirmək üçün imkanlar açırdı. M.F.Axundov irsinə diqqət çəkən F.Köçərli onu "milli

yazarlarımızın mənəvi atası", "ədəbiyyatımızın fəxri" saymış, onun bədii və fəlsəfi əsərlərindəki maarifçilik ideyalarına yüksək qiymət verərək dövrün eybəcərliklərini ifşa etmək və xalqın milli şüurunu oyatmaq uğrunda yorulmadan mübarizə aparmasından söhbət açmışdır" [8,22].

M.B.Məmmədzadə istiqlal məfkurəsinin inkişafında M.F.Axundovun müstəsna rol oynadığını xüsusi vurğulayaraq yazır: "Azərbaycan milli xartiyasının xülasəni istiqlal fikrinin təşkilində …Mirzə Fətəlidən Üzeyirə kimi, "Əkinçi"dən "Azərbaycan" və "Yeni Qafqaziya"yadək hər birinin olduqca böyük və dəyərli rolları olmuşdur. Siyasi – ictimai fikirlərimizin tərəqqi və təkamül tarixini təşkil edən bu dövr bu gün aydın və parlaq istiqlal məfkurəsinin təməlini təşkil edir. Hətta ən uzaq istiqlalımızı təyin etmək üçün belə keçirdiyimiz fikri-inkişaf tarixinə baxmaq və ondan milli hərəkatın ruh və mahiyyəti haqqında bir fikir almaq kifayət edər. …Zənnimcə, Mirzə Fətəli və Həsənbəy Zərdabi əlli il sonra dünyaya gəlsə idilər istiqlal fikri, Azərbaycan milli xartiyası da əlli il sonra meydana gələcəkdi. Bunların arasında sıx bir münasibət və rabitə vardır. …Özünün türkçülüyünü və azərbaycançılılığını dərk etməyən xalq belə bir bəyannaməni verə bilməzdi" [9, 139].

Maarifçilik hərəkatının siyasi anlama keçməsində rolu olan aydınlarımızdan biri də H.Zərdabidir. O, sələflərinin açdığı doğru çığırla böyük amallar uğrunda mübarizədə bir ilkə imza ataraq ana dilində mətbu orqanı yaratdı. Cəmiyyətdəki ictimai bəla və xurafata qarşı mübarizədə mətbuatın rolu haqqında H. Zərdabi yazırdı: "Qəzet dərviş kimi nağıl deyə bilməz; onun borcudur işləri-ni yaxşı və yamanlığa ayinə kimi xalqa göstərsin, ta xalq öz nikü-bədənindən xəbərdar olub əlacının dalıncan olsun" [10].

Həsən bəy Zərdabi isə bu mütəfəkkirlərin davamçısı kimi Rusiyada ilk türk qəzetinin nəşrini başlamış və həmçinin milli teatrımızın əsasını qoymuşdur. H.Zərdabi maarifçilik hərəkatında daha çox əngəllər və çətinliklərlə üzləşərək ruhanilərə, mövhumatçılara və hakim dairələrə qarşı eyni anda mübarizə aparmışdır.

Həsən bəy Zərdabiyə qarşı hücumlar hər tərəfdən yönəldilirdi. Mövhumatçılar onu "papağlı urus" adlandıraraq təqib edirdi. Onun müsəlmanlara üz tutub mənəvi birliyə çağırışları, türk xalqlarını dil baxımından yaxınlaşdırmaq səyi erməni millətçilərini hərəkətə gətirirdi. Ermənilərin "Mşak" qəzetində Zərdabiyə qarşı yönəlmiş düşmənçiliyi, türklərə, müsəlmanlara qarşı həqarətə, nifrətə çevrilirdi.

Maarifçilik hərəkatında qəzetin və mətbu orqanlarının önəmini vurğulayan H.Zərdabi 1905-ci ildə "Həyat" qəzetində çap etdirdiyi "Rusiyada əvvəlinci türk qəzeti" adlı məqaləsində ətraflı məlumat vermişdir. O, "Əkinçi"ni nə məqsədlə nəşr etdiyini, hansı çətinliklərin qarşıya çıxdığını qeyd edərək yazırdı ki, "camaaatı avamlıqdan, cəhalətdən qurtarmaq üçün çox çalışdım, çağırdım, gəlmədilər, göstərdim, görmədilər, dedim, qanmadılar. Axırda hiss etdim ki, qəzet çıxarmaqdan başqa əlac yoxdur [10].

H.Zərdabi inanırdı ki, hər il on nəfər adam oxuduğunu qanacaq, beləliklə maarif tərəfdarlarının sayı gün-gündən artacaqdır. O bənd ki, suyun qabağını kəsmişdi, yavaş-yavaş dağılacaq, sonra isə düşmənin düşmənliyi və dostun dostluğu bilinəcəkdir.

Azərbaycanda çıxan ilk rus qəzeti "Bakinski listok"un redaktoru Bakı real gimnaziyasının müəllimi Xristian Sink idi. Qəzetin ilk nömrəsi 1871-ci ilin martın 19-da çıxmış, iyun ayında bağlanmışdır. 1872-ci ilin yanvarında qəzetin nəşri yenidən bərpa olunmuş, həmin il iyunun 3-dək davam etmişdi. X. Sinkin qəzetdə Azərbaycan şöbəsi də açmaq istəyi baş tutmadı. Qəzetin birinci nömrəsində Azərbaycan şöbəsinin açılması barədə maraqlı məlumatlar vardır: "Sevinirik ki, bizim tatar dilində (Azərbaycan dilində) – ilk qəzet yaratmaq səylərimiz səmərəsiz qalmadı, bizim elanımız kütlə tərəfindən rəğbətlə qarşılandı: abunəçilərin miqdarı gözlədiyimizdən çox oldu; abunə hətta ucqar tatar kəndlərində yayılmışdır və biz tamamilə ümidvarıq ki, öz fəaliyyətimizi kiçik qardaşımızın rifahına həsr edəcəyik". "Bakinski listok" qəzetinin 1872-ci il 26 fevral tarixli nömrəsində Həsənbəy Məlikovun "Cəmiyyəti xeyriyyə" təşkilinə başlanması haqqında məqaləsi dərc olunmuşdur. Bu məqalə H. Zərdabinin bizə məlum olan ilk məqaləsi kimi tarixi və elmi əhəmiyyətə malikdir. Məqalədə əsasən xeyriyyə cəmiyyətindən, onun əhəmiyyəti və təşkilat məsələlərindən bəhs edilir, cəmiyyətin əsasnaməsi qısa şərh olunur. Yeri gəlmişkən, X.Sinklə H. Zərdabi arasında dostluq əlaqələri var idi. Real gimnaziyada birlikdə işlədikləri vaxt gənclərin mütərəqqi ideyalar ruhunda tərbiyələnməsində onların dostluğu əhəmiyyətli rol oynamışdır. X. Sink azərbaycanlıların maariflənməsinə kömək etməyi də özünün vicdani borcu hesab edirdi və bu məqsədlə o, "Bakinski listok" qəzetində Azərbaycan şöbəsi açmaq istəyirdi. Lakin o, bu məqsədə nail ola bilməmişdir. X.Sink sonralar Moskvada yaşadığı illərdə də H. Zərdabi ilə əlaqə saxlayır, onunla məktublaşırdı. 1880-ci ildə H. Zərdabi Bakıdan Zərdaba köçən zaman X.Sink Moskvadan ona yazmışdı: "Siz mənim nəzərimdə həmişə ləyaqətli qəhrəman kimi qalırsınız. Az -çox biz bir iş gördük, hələ ki, silahı yerə qoymamışıq. Burada dayanmalıyıqmı? Mən sizin portretinizi gördüm: saçlarınız ağarmışdır, əhli-əyal sahibisiniz. Mənim də artıq ailəm var. Özümüz haqda fikirləşməyin vaxtıdırmı? Yox, Əzizim Məlikov!". X.Sink adamlara maarif işığı bəxş etmək uğrunda mübarizəni axıradək aparmağı tövsiyə edirdi. Bu barədə ürək sözlərini öz dostu ilə bölüşürdü.

XIX yüzilliyin 90-cı illərindən Azərbaycan ziyalı nəsli milli mətbuat uğrunda mübarizənin yeni mərhələsinə daxil oldular. Dövrün mütərəqqi düşüncəli aydınları hakim dairələrə milli, anadilli mətbu yaratmaq istəklərini bildirdiklərində müxtəlif bahanələr irəli sürülür və ucqarlarda maarifi boğan III Aleksandrın "qoy onlar rusca oxusunlar" fikri xatırlanırdı. Demək olar ki, rus hakim dairələri "Kəşkül" qəzetinin nəşrindən "Şərqi Rus" qəzetinə qədərki müddətdə anadilli mətbuatın nəşrinə izin verməmişdilər. Ünsüzadə qardaşlarının, Ə.Ağaoğlunun bu yolda ciddi addımlar atmasına baxmayaraq, Baş Mətbuat işlər ida-

rəsi bunun qarşısını alırdı. Ə.Ağaoğluna "panislamist", "pantürkist" damğası vurmaqla qəzet nəşrinin yolverilməz olduğunu "əsaslandırırdılar". Kamal Ünsüzadənin mülki müşavir Georgi Klimovski ilə birlikdə 1896-cı ildə qəzet yaratmaq cəhdi də baş tutmur.

1881-ci ildən fəaliyyətə başlayan "Kaspi" qəzeti Azərbaycan tarixində yeni ruhlu mətbuat orqanı kimi xalqın milli intibah və istiqlal hərəkatında böyük rol oynadı. Baxmayaraq ki, onun ilk redaktoru rus millətinin nümayəndəsi V.Kuzmin idi, onun azərbaycanca "Çıraq" adlı əlavəsinin çıxmasına cəhd göstərirdilər. Lakin, buna da hakim dairələr mane ola bildilər. 1897-ci ilin sonlarından "Kaspi" mətbəəsi mesenat H.Z.Tağıyev tərəfindən 57 min rubla satın alındı və "Kaspi" qəzeti "müsəlman Kaspisi" nə çevrildi. Qəzetin nəşrində xüsusi xidmətləri olan Ə.Topçubaşov, H.Zərdabi, Ə.Ağaoğlu, Ə.Hüseynzadə maarifçiliyə, milli oyanışa çağırışa yönlənmiş və Azərbaycanın ictimai-siyasi həyatı ilə bağlı məqalələr dərc edirdilər. Məhz onların mübarizəsi nəticəsində maarifçilik hərəkatı siyasi mahiyyət daşımağa başladı.

1903-cü ilin mart ayının 30-dan Tiflisdə nəşr olunan "Şərqi-Rus" qəzeti xalqın maariflənməsi, savadlanması və qadın azadlığı uğurunda mübarizə aparması ilə yanaşı milli mənlik şüurunun oyanmasına və milli özünüdərkə xidmət etmişdi.

Beləliklə, XX yüzilliyin əvvəllərində maarifçi aydınlarımız dövrün mütərəqqi mətbuat vasitələrində - "Həyat", "İrşad" qəzetlərində, "Füyuzat" və "Molla Nəsrəddin" jurnallarında müntəzəm çıxışlar etməklə, milli şüurun güclənməsində və millətin formalaşmasında mühüm rol oynamışlar. Məhəmməd Hadinin ölməz misralarında ifadə olunduğu kimi: "Qoymuş miləl imzasını övraqi-həyatə, Yox millətimin xətti bu imzalar içində": Milli demokratları bu dövrdə ən çox düşündürən, narahat edən başlıca milli dərd məhz o dövrün mütərəqqi millətlərindən geridə qalmağımız idi. Dövrün milli elitası yaxşı başa düşürdü ki, Azərbaycan xalqının müasir dövlətlər içərisində layiqli yer tutması üçün milli şüurun, milli özünüdərkin, və milli təəssüb hissinin yüksəlişi başlıca şərtlərdən biridir. Azərbaycan maarifçilik hərəkatında Ömər Faiq Nemanzadə və Məhəmməd Əmin Rəsulzadənin millətçilik və dövlətçilik, Hüseyn Cavid və Cəlil Məmmədquluzadənin demokratizm və azərbaycançılıq ideyaları misilsiz təsir gücünə malik olmuşdur.

Göründüyü kimi, maarifçi mütəfəkkirlərin təməl qoyucu töhfələri olmadan mədəniyyətimizin, ədəbiyyatımızın, ictimai-siyasi fikrimizin, son nəticədə milli özünüdərkimizin XIX əsrin sonu XX əsrin əvvəlindəki inkişafını təsəvvür etmək mümkün deyil. Məhz bu təkamül 1918-ci ilin may ayında Şərqdə birinci olaraq Azərbaycan Xalq Cümhuriyyətinin – dünyəvi dövlətin yaradılmasına gətirib çıxardı.

## Ədəbiyyat siyahısı


1. *Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / – Bakı: Azərnəşr, – c. 14: dekabr 1997-fevral 1998. – 2005*
2. *Кулизаде З.А. Из истории Азербайджанской философии VII-XVI вв.. Баку, Азернешр, 1992, с.207*
3. *"Füyuzat", 1907, №29*
4. *F.Ələkbərli. Azərbaycan türk fəlsəfəsi və ictimai fikir tarixi (XIX-XX əsrlər). I hissə, Bakı: "Elm və Təhsil", 2018. s.168*
5. *Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı. Bakı: "Elm və təhsil", 2017. s.552*
6. *Qasımova S.B. Mirzə Kazımbəy: Şərq və Qərb arasında körpü. Bakı: "Elm və təhsil", 162s.*
7. *Ахмедов Э. Философия азербайджанского просвещения, Баку: Азернешр, 1982. с.291*
8. *Əliyeva Z. Azərbaycan maarifçiliyi və dünya ədəbi-nəzəri fikri (Mirzə Fətəli Axundzadə maarifçiliyi. Azərbaycan və dünya ədəbi-nəzəri fikrinin gözü ilə). Bakı: Səda, 2008, 113 s.*
9. *Məmmədzadə M.B.Azərbaycan milli xartiyası.Bakı:Azərbaycan jurnalı,1991, №:-4*
10. *Zərdabi H. "Rusiyada əvvəlinci türk qəzetəsi". "Həyat" qəzeti, 1905, № 129*

**UOT 94 (479.24)**

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN XÜSUSİ XİDMƏT ORQANI: ƏKS - İNQİLABLA MÜBARİZƏ TƏŞKİLATI

**AYGÜN İSMAYILOVA**
*Bakı Dövlət Universiteti,Tarix fakültəsi, doktorant*
*aygunismayilova13@gmail.com*
*aygun.ismayilova.vilayat@gmail.com*

*Məqalədə Azərbaycan Xalq Cümhuriyyətinin xüsusi xidmət orqanı – Əks- inqilabla Mübarizə Təşkilatının yaradılması və fəaliyyətindən bəhs edilir. Çətin tarixi-siyasi şəraitdə qurulmuş AXC daxili və xarici təhlükələrə qarşı mübarizə aparmaq üçün təhlükəsizlik orqanını təsis etdi. Kəşfiyyat xidməti ilk olaraq hərbi nazirliyin tərkibində təşkil edilsə də, sonradan müstəqil quruma çevrilmişdir. Fəaliyyət göstərdiyi müddət ərzində Azərbaycan dövlətçiliyinə qarşı olan və ola biləcək halların qarşısı alınmış, müvafiq tədbirlər görülmüşdür. Məqalədə ƏMT-nin kadr tərkibi, rəhbərliyi, həmçinin, L.Beriyanın burada bir müddət çalışması ilə bağlı faktlar qeyd edilmişdir. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra təhlükəsizlik orqanlarının təşkil edilməsi, hazırda fəaliyyət göstərən belə qurumların ƏMT-nin varisi olması əsaslandırılmışdır.*

***Açar sözlər:*** *Azərbaycan Xalq Cümhuriyyəti, Əksinqilabla Mübarizə Təşkilatı, təhlükəsizlik orqanları, Dövlət Müdafiə Komitəsi*

### *SPECIAL SERVICE AGENCY OF THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC: COUNTER-REVOLUTIONARY ORGANIZATION*

*The article deals with the establishment and activities of the Special Service body of the Azerbaijan Democratic Republic – The Counter-Revolution organization. Established in difficult historical and political conditions, the ADR established a security body to combat internal and external threats. Although the intelligence service was originally organized as part of the Military Ministry, it later became an independent body. During the period of its activity, cases against the statehood of Azerbaijan and possible circumstances were prevented and appropriate measures were taken. Facts about the fact that Beria worked here for some time are noted. After Azerbaijan regained its independence, it was justified to organize security agencies and to be the successor of such organizations operating at the moment.*

***Keywords:*** *Azerbaijan Democratic Republic, Counter-Revolutionary Organization, security agencies, State Defense Committee*

**Giriş.** Şərqdə, türk-müsəlman dünyasında ilk demokratik dövlət olan AXC 23 ay yaşamasına baxmayaraq bir çox sahədə ilklərə imza atmışdır. İlk ali məktəb, qadına ilk dəfə seçki hüququnun verilməsi, ilk parlamentin yaradılması kimi ilk təhlükəsizlik orqanlarının yaradılması da məhz AXC dövrünə aiddir. AXC yarandıqdan sonra onu baş verə biləcək daxili və xarici təhlükələrdən qorumaq üçün təhlükəsizlik orqanlarının yaradılması vacib idi. Belə ki, bəhs edilən dövrdə böyük dövlətlərin maraqlarının burada toqquşması, Denikin ordusunun, bolşeviklər və ermənilərin törətdikləri fitnəkarlıqlar AXC-nin möhkəmlənməsinə təhlükə törədirdi. Belə bir vaxtda Azərbaycan müstəqilliyini qoru-

yub saxlamaq, dövlətçiliyini möhkəmləndirmək, müdafiə qüdrətini artırmaq üçün silahlı qüvvələrinə bir də xüsusi xidmət və təhlükəsizlik orqanlarına arxayın olmalı idi. Bu istiqamətdə təxirə salınmaz tədbirlər görülürdü.

**Hərbi strukturun formalaşdırılması tədbirləri**. Ölkə parlamentinin 25 fevral 1919-cu ildə yekdilliklə qəbul etdiyi "Hərbi nazirliyin ştatları haqqında" qanununda nazirliyin 38 istiqamət üzrə ştatları müəyyən edilmişdi. Həmin istiqamətlərdən biri də əks-kəşfiyyat və kəşfiyyat xidməti üzrə idi [4, s.3]. Lakin arxiv materialları bu bölmənin 1918-ci ildə yaradılması barədə mülahizə yürütməyə əsas verir. Əks-kəşfiyyat və kəşfiyyat bölməsi Səməd bəy Mehmandarovun nazirlikdə rəhbər vəzifəyə təyin edilməsindən bir qədər sonra yaradılmışdı. Bunu deməyə əsas verən amillərdən biri S.Mehmandarovun 1919-cu il 29 mart tarixli 156 saylı əmridir. O, bu əmrində göstərirdi ki, 19 aprel 1917-ci ildə baş parutçik rütbəsi almış Ağalarova Nazirlər Şurasının sədri F.Xoyskinin 7 saylı sərəncamı ilə 28 avqust 1918-ci ildə əks-kəşfiyyat bölməsinin rəisi vəzifəsini müvəqqəti icra etmək tapşırılmışdı. Maraqlıdır ki, 1918-ci il noyabrın 15-də təsis edilən Ümumi qərargahın tərkibinə daxil olan 8 şöbədən biri General-kvartirmeyster şöbəsi adlanırdı. Bu şöbənin rəisi vəzifəsini müvəqqəti olaraq Vasili Nikolayeviç Sokolov icra etmişdi. Əks-kəşfiyyat və kəşfiyyat bölməsi General-kvartirmeyster şöbəsinin strukturu daxilində fəaliyyət göstərirdi. Bu bölmənin tarixi General-kvartirmeyster yarandığı vaxta təsadüf edir [1, s.34-35]. Göründüyü kimi, ilk xüsusi xidmət orqanı hələ 1918-ci ildə mövcud olsa da, AXC xüsusi xidmət və təhlükəsizlik orqanlarının təşəkkül dövrü 1919-cu ilə təsadüf edir. Bu, ölkədə nisbi sabitliyin yaradılması, dölət idarəçilik aparatlarının düzgün təşkili və ordu quruculuğu sahəsində həyata keçirilən islahatlarla bağlı idi.

Ordunun təlim-tərbiyəsini, döyüş hazırlığını daha da gücləndirmək, təsərrüfat və təminat qayğılarını həll etmək məqsədi ilə 1919-cu il mart ayının 26-da Ərkani-hərb (Baş qərargah) təsis edildi. Hərbi nazir S. Mehmandarovun fikrincə, indiyədək belə bir qurumun yaradılmamasının əsas səbəbi yüksək hazırlıqlı kadrlara ehtiyac ilə bağlı idi. S. Mehmandarovun dəvəti ilə Krımdan gəlmiş, milliyyətcə tatar olan general-leytenant Məmməd bəy Aleksandroviç Sulkeviç (əsl adı Maçeybəy idi - C.Q.) 26 mart 1919-cu il tarixli 147 saylı əmrlə Ərkanihərbin rəisi təyin olundu və həmin vaxtdan etibarən Hərbi Nazirliyin strukturunun yenidən formalaşdırılmasına başlandı [2, 24].

Daxili və xarici təxribatçılarla mübarizəni gücləndirmək məqsədi ilə 1919-cu il mart ayının 28-də S. Mehmandarovun və M. Sulkeviçin birgə imzaladıqları 157 saylı əmrdə göstərilirdi ki, mart ayının 26-da Hərbi Nazirlikdə Baş Qərargahın Baş İdarəsi yaradılıb. Həmin idarənin strukturuna daxil olan şöbələrdən biri General-kvartirmeyster adlanırdı. Bu şöbəyə daxil olan 4 bölmədən biri kəşfiyyat və əks-kəşfiyyat bölməsi idi [6, s.78].

**Təhlükəsizlik orqanlarının təşkili.** Əldə edilmiş materiallardan görünür ki, təhlükəsizlik orqanlarının əməkdaşları Cümhuriyyətimizin təhlükəsizliyi üçün əllərindən gələni əsirgəməmişlər. Lakin hərbi idarə çərçivəsində işləyən

bu struktur öz işini Azərbaycanın təhlükəsizliyinin yalnız hərbi aspektlərində məhdudlaşdırırdı. Əks-kəşfiyyatın strukturca bir nazirlikdə yaradılması, eləcə də bu sahə üzrə orada mütəxəssislərin məhdudluğu ictimai-siyasi fəaliyyətin bir çox sahələrində əks-kəşfiyyat fəaliyyətini genişləndirməyə imkan vermirdi. 1919-cu il aprelin 2-də Nazirlər Şurası sədrinin adına göndərdiyi məktubunda S. Mehmandarov yazırdı: "Hərbi əks-kəşfiyyatın başlıca vəzifəsi dövlət daxilində hərbi casuslarla mübarizədir, bolşevizmlə mübarizə ümumdövlət işi olduğundan tək hərbi idarə onun öhdəsindən gələ bilməz..." [5, s-8-9]. Beləliklə, 1919-cu il aprelin 13-də dövlət hakimiyyətinin bütün strukturları Azərbaycan hökumətinin ixtiyarına keçdikdən sonra mərkəzləşdirilmiş kəşfiyyat və əks-kəşfiyyat haqqında məsələnin müzakirəsi mümkünləşdi. Ölkə parlamentinin qərarı ilə iyun ayının 9-da Vətəni müdafiə sahəsində fövqəladə səlahiyyətlərə malik olan xüsusi orqan - Dövlət Müdafiə Komitəsi yaradıldı. Respublikanın daxilində və sərhədlərində vəziyyət daha da gərginləşdiyindən Dövlət Müdafiə Komitəsi 1919-cu il iyun ayının 11-də Azərbaycanda fövqəladə vəziyyət elan etdi və həmin gün Azərbaycan parlamenti Dövlət Müdafiə Komitəsi yanında Əksinqilabla Mübarizə Təşkilatının (ƏMT-in) yaradılması barədə qərar qəbul etdi. Həmin təşkilatın formalaşdırılması parlamentin "Müsavat" fraksiyasının üzvü Məmmədbağır Şeyxzamanlıya həvalə edilmişdir. Ona müavin isə sonralar naməlum şəxslər tərəfindən qətlə yetirilmiş sosialist Mirfəttah Musəvi təyin olunmuşdur. M.Şeyxzamanlı ƏMT-a həmin il avqustun 20-nə qədər başçılıq edir. Avqustun 20-də isə o, bu vəzifədən istefa verir və yerinə qardaşı Nağı bəy Şeyxzamanlı təyin olunur və o, bu vəzifədə ƏMT ləğv olunana qədər qalır. 1919-cu il noyabrın 19-da Mahmud bəy Səfikürdski təşkilat rəhbərinin müavini təyin olunur [6, s.79].

Hərbi Nazirliyin Baş Qərargahının Baş İdarəsinin kəşfiyyat və əks-kəşfiyyat bölməsinin əks-kəşfiyyat fəaliyyəti onun tabeliyindən çıxarılaraq ƏMT-yə tapşırıldı. Yalnız hərbi kəşfiyyatla məşğul olan bölmə hərbi idarənin ixtiyarında qaldı. Hərbi əks-kəşfiyyatın funksiyaları isə ƏMT-yə verildi. Bunu Baş Qərargahın Baş İdarəsindən 1919-cu il iyulun 27-də ƏMT rəisinin adına göndərilən "məxfi" qrifli 3421 saylı məktub da təsdiqləyir: "Pol" ləqəbli agentimizdən aldığımız məlumatlar əsasında toplanmış bir nömrəli raportu sizə göndərərək xəbər verirəm ki, əks-kəşfiyyat tamamilə sizin ixtiyarınıza keçəndən sonra adı çəkilən agent Sizə göndəriləcək, əgər lazım bilsəniz, ondan istifadə edərsiniz". Həmin məktubda həmçinin hərbi idarənin yeni yaradılmış Təşkilatın informasiyasından istifadə edilməsi üçün hərbi xarakterli əks-kəşfiyyat məlumatlarının onlara göndərilməsi xahiş olunurdu. Öz növbəsində Hərbi Nazirlik əks-kəşfiyyat tədbirlərində əhəmiyyəti olan kəşfiyyat xarakterli məlumatları ƏMT-yə göndərirdi [3, s.62].

**ƏMT və Beriya.** Vaxtilə ƏMT-nın rəisi olmuş, lakin sonradan Türkiyəyə mühacirət etməyə məcbur qalan Nağı bəy Şeyxzamanlı 1964-cü ildə İstanbulda çap etdirdiyi "Azərbaycanın istiqlal mücadiləsinin xatirələri" kitabında belə bir təşkilatın yaradılmasının səbəblərini aşağıdakı kimi izah edirdi: "Əks-inqilabla

Mübarizə Təşkilatının yaradılmasına səbəb Cümhuriyyətimizin ilk illərində çar generalı Denikinin mütəmadi olaraq bizi təhdid etməsi, tez-tez hüquqlarımızı pozması və müxtəlif hadisələr törətməsi olmuşdur. Ona görə də hökumətimiz Əks-inqilabla Mübarizə Təşkilatının layihəsini hazırlayıb parlamentə təqdim etdi. Layihə məclisdə böyük səs çoxluğu ilə qəbul olundu". Daha sonra, N. Şeyxzamanlı yazırdı ki, "...bolşeviklər Qafqazda general Denikin ordusunu darmadağın etdikdən sonra artıq bizim üçün ağ qvardiyaçı təhlükəsi qalmamışdı. Ancaq Denikinin yerinə arxasını Rusiyanın mərkəzi olan Moskvaya dayayan bolşeviklər kimi bir təhlükəli qüvvə də var idi. Artıq biz də fəaliyyətimizi bolşeviklər əleyhinə çevirmişdik" [7, s.83-86].

ƏMT-nın Əsasnaməsinə uyğun olaraq bu qurum tərəfindən Azərbaycan dövlətçiliyinə qarşı kəşfiyyat-pozuculuq və terror-təxribat aksiyaları keçirmək cəhdlərində, dövlət əhəmiyyətli obyektlərdə diversiyaların təşkilində, eləcə də hakimiyyətə qarşı silahlı müqavimət göstərməkdə, casusluqda və s. şübhəli bilinən şəxslərin həbsi zamanı yerli polis və əlaqədar orqanların nümayəndələri də dəvət olunurdu. ƏMT-nın başlıca vəzifələri əsasən aşağıdakılardan ibarət idi: dövlət quruluşunun devrilməsinə yönəlmiş, əhali arasında şifahi və ya mətbuat vasitəsi ilə hökumətə zidd təşviqat aparan şəxslərin, hökumətin fəaliyyəti və hərbi hissələrin əməliyyatlarına, milli təhlükəsizliyə dair yalan məlumat və şayiələr yayan, əhalinin ayrı-ayrı sinifləri arasında milli münaqişələr yaradanların; hakimiyyət dairələrinin xüsusi icazəsi olmadan təşkil edilmiş, siyasi xarakter daşıyan, hər cür toplantı və iclasların təşkilatçılarının, hər növdən olan odlu silah, döyüş sursatı və partlayıcı maddələrin anbar və gizli saxlanma yerlərinin aşkar olunması; şübhəli şəxsləri ilkin həbs etmək hüququna malik olması və s.

ƏMT-nın kadr tərkibi müxtəlif partiya və millətlərin nümayəndələrindən ibarət idi. Qeyd edək ki, ƏMT-ya əməkdaşların qəbulunda partiya prinsipi əsas götürülürdü. Belə ki, ƏMT-ın əməkdaşlarının üçdə ikisi "Müsavat", üçdə biri isə "Hümmət" partiyasından olmalı idi. Eyni zamanda təşkilatın rəhbəri "Müsavat"dan, müavini isə "Hümmət"dən təyin edilməsi nəzərdə tutulmuşdur. Bolşeviklərin Azərbaycan Cümhuriyyətinin xüsusi xidmət orqanlarına daxil olaraq gənc hökumətin əlyehinə faliyyət göstərmələri məsələsi də xüsusi maraq doğurur. Belə ki, ƏMT-da çalışan bolşevik xislətli əməkdaşlar Azərbaycanı Sovet Rusiyasız təsəvvür etmirdilər. Bu da gənc dövlətin möhkəmlənməsinə zərbə demək idi. Çox təssüflər olsun ki, ƏMT əməkdaşlarının hansının müsavata, yaxud da hümmətçi olmalarını müəyyənləşdirmək mümkün olmasa da, onlardan bəzilərinin məlum sənədlərə görə aydınlaşdırmaq mümkün olmuşdur. Bundan başqa təşkilatın əməkdaşları arasında partiya mənsubiyyətindən asılı olmayaraq müxtəlif siyasi cərəyanların nümayəndələrinə rast gəlmək olar. Molla Nəsrəddinçı şair Əli Razi Şəmçizadə, Əli Bayramov, İslam Əliyev, Məmməd bəy Mahmudbəyov, Qasım İsmayılov, Müzəffər Nərimanov və b. buna misal göstərmək olar. Təşkilatın agentləri siyahısında Lavrenti Beriyanın da adı var. Nağı bəy Şeyxzamanlı "Azərbaycanın istiqlal mücadələsinin xatiələri" kitabında

yazırdı: “Beriyanı “Hümmət” partiyasının tövsiyəsi ilə ƏMT-ya işə götürmüşdüm. O vaxt bizim sərhədlərimizə təhdid edən çar gernalı Denikin idi. General Denikin rus çarının saxlanması üçün vuruşurdu. Beriya sosilist kimi çar rejimin əlehidarı idi. Bizim işimizə yarayacağını bildiyimdən qəbul etmişdim. O, son dərəcə məsuliyyətli bir işçi kimi görünürdü. 21 yaşı vardı. Onu senzura şöbəsinə götürmüşdüm.Qısa müddət ərzində özünü çox çalışqan işçi kimi göstərdi. Mən də onu şöbənin rəisi təyin etdim...”[7, s.88-89].

L.Beriya bolşevik Rusiyasının Azərbaycanı işğal etməsindən sonra Tiflisə gəlmiş Nağı bəy Şeyxzamanlı ilə xəstəxanaların birində rastlaşmış və Nağı bəyə kömək etməkdən imtina edərək “bolşeviklər Qafqaza hüriyyət və sədaqət gətirirlər” demişdir. Çox sonralar Qafqaza “hürriyyət və sədaqət gətirənlər” Beriyanın özünü də məhv etdilər. Stalinin ölümündən sonra həbs olunan Beriya bir sıra ağır ittihamlarla üzləşdi ki, onlardan biri də Müsavat əks - kəşfiyyatının agenti olması idi. Belə ki, L.Beriya 1920-ci ilin 8 sentyabrında Bakıda Fövqəladə Komissiyanın əməkdaşları tərəfindən həbs edilmişdi ki, bu barədə DTX (MTN) arxivində PR-21842 saylı istintaq işi saxlanılır [3, s.72].

ƏMT-nın əməliyyat heyəti ştata uyğun olaraq agent və baş agent (yəni əməkdaş) vəzifələrindən ibarət idi. Fəaliyyət göstərdiyi 1919-cu il iyunun 11-dən 1920-ci il martın 6-dək olan dövrdə bu təşkilatda yüzdən çox əməkdaş çalışmışdı. Azərbaycanın milli təhlükəsizliyini müdafiə edən bu təşkilatda 6-7 millətin nümayəndəsi işləyirdi. Maraqlıdır ki, bunlar arasında erməni millətinin nümayəndələri yox idi. ƏMT əməkdaşları arasında qadınlar da var idi: Anaida Fatalova, Məryəm Məmmədova, Vera Kuzmina-Şaxtaxtaniskaya və Taisiya Şepeliova [2,34].

Dövlət arxivində ƏMT-nın hüquq və səlahiyyətlərini əks etdirən hər hansı bir hüquqi sənədə rast gəlinmir. ƏMT rəisinin 20 avqust 1919-cu ildə DMK-nə yazdığı bir məktubda ƏMT-nın hüquq və vəzifələri haqqında təlimatın təsdiqi üçün onlara göndərildiyi qeyd edilir. Lakin bu təlimatın təsdiq edilməsi barədə heç bir sənəd yoxdur. Sovet dövründə DSİ-XDİK orqanları tərəfindən repressiyaya məruz qalmış ƏMT əməkdaşlarının istintaq işlərində təşkilatın Əsasnaməsi saxlanılır. Bu sənəd 26 fevral 1932-ci ildə Dövlət Siyasi İdarəsinin əməkdaşı Brikmanın sorğusu ilə Azərbaycan Dövlət Arxivlər İdarəsindən göndərilmişdir. “Müsavat əks – kəşfiyyatı”nın işini araşdıran Brekman görünür bu təşkilatı daha dərindən öyrənməyə və təbii ki, dövlətin təhlükəsizliyi ilə məşğul olan əməkdaşların bilgilərindən bəhrələnməyə çalışırdı. Əsasnamə arxivin əməkdaşları tərəfindən təsdiq edilmişdir. Deməli, Əsasnamə ƏMT əməkdaşlarının fəaliyyətlərini, hüquq və vəzifələrini tənzimləyirdi. Bu sənəd həm də, AXC-nin demokratiyaya, vətəndaş hüquqlarına böyük töhfəsi idi. Sənəd bütövlükdə 22 maddədən ibarətdir. Dəqiq adı belədir: “Azərbaycan Respublikası əks-kəşfiyyat xidməti vəzifələrinin hüquq və vəzifələri haqqında” Əsasnamə [3; s.82-83].

Məmmədbağır və Nağı Şeyxzamanlı qardaşlarının başladıqları işi sona çatdırmaq yalnız Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra mümkün

oldu. Azərbaycan Respublikası 1991-ci ilin oktyabr ayında özünün dövlət müstəqilliyini bərpa etdikdən sonra, Dövlət Təhlükəsizlik Komitəsinin maddi-texniki və kadr bazası əsasında 1991-ci il noyabr ayının 1-dən Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi təsis edildi. 2015-ci ilin dekabrında isə prezident İ.Əliyevin fərmanı ilə MTN ləğv edildi, əvəzində Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti yaradıldı [8].

**Nəticə.** Əks-inqilabla Mübarizə Təşkilatı öz fəaliyyəti dövründə mümkün qədər Azərbaycan dövlətçiliyinə xidmət göstərməyə nail olmuşdur. Doğrudur bu sahədə peşəkar kadrlar az idi, lakin çətin günlərdə Vətənini dərin məhəbbətlə sevən, dövlətçiliyinə bağlı olan ƏMT rəhbərliyi və əksər heyəti əməli işlər görərək AXC hökumətinə təhlükə yaratmağa çalışan Denikin nümayəndələrinə, bolşevik, erməni kimi ünsürlərə qarşı inadlı mübarizə aparmışlar.

Milli təhlükəsizlik orqanlarının hazırki nəsli Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət quruculuğu prosesində danılmaz xidmətləri olmuş həmin şəxslərin xidmətlərini yüksək qiymətləndirir, xatirəsini əziz tutur. MTN-nin (DTX) "Müstəqilliyin, dövlətçiliyin və milli təhlükəsizliyin keşiyində" muzeyində Şeyxzamanlı qardaşlarına aid xüsusi stend yaradılması da buna əyani sübutdur.

## Ədəbiyyat siyahısı


1. *Qasımov C., Bağırov X. Azərbaycanın təhlükəsizlik orqanlarının qısa tarixi. Bakı, MTN nəşriyyatı, 2008. 492 səh.*
2. *Qasımov C. Əks-inqilabla mübarizə təşkilatı və siyasi represiya. Bakı, 1997,461 səh.*
3. *Qoca E. Azərbaycanın təhlükəsizlik və xüsusi xidmət orqanları (1918-1920).Bakı, "Şuşa" nəşriyyatı, 2000. 144 səh.*
4. *Qoca E. Tariximiz, taleyimiz. Bakı, "Şuşa" nəşriyyatı, 2001. 176 səh.*
5. *Cəfərov M. ADR-in xüsusi xidmət orqanları. Bakı, 1997. 247 səh.*
6. *Paşayev A. Açılmamış səhifələrin izi ilə. Bakı, "Azərbayan" nəşriyyatı, 2001. 536 səh.*
7. *Şeyxzamanlı N. Azərbaycan istiqlal mücadiləsi xatirələri. Bakı, "Azərbayan" nəşriyyatı, 1997. 176 səh*
8. *Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin və Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinin yaradılması haqqında. http://president.az/articles/17160*


***Rəyçi: prof. Anar İsgəndərov***

**UOT 94 (479.24)**

# AZƏRBAYCAN LEGİONERLƏRİNİN YARADICILIĞINDA VƏTƏN SEVGİSİ

**KƏMALƏ MƏMMƏDOVA**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, müəllim*
*menbetarix@mail.ru*

*1991-ci ildə Azərbaycanın yenidən öz milli müstəqilliyinə qovuşması başlıca ideoloji-siyasi, mənəvi-psixoloji dəyərlərə yeni obyektiv elmi baxışı zəruri etdi. Sovetlərə qarşı əks qütbdə dayanan mühacirət irsinin, hadisələrə mühacir baxışının öyrənilməsini zərurətə çevirdi. Bu baxımdan mühacirət ədəbiyyatının bir qolu olan legion ədəbiyyatı da zəngin elmi, ideoloji-siyasi baza olmaqla, Azərbaycan tarixinin, mədəniyyətinin, bütövlükdə milli-mənəvi sərvətimizin tərkib hissəsidir.*

*Zorla cəlb olunduqları müharibədə cəbhə dəyişdirən bu legionerlərin böyük bir hissəsi əldə silahla bolşevizm əsarətinə, qadağalara, repressiyalara qarşı çıxır, iyirmi il əvvəl itirdikləri istiqlalı qazanmaq uğrunda mübarizə aparır, həm də əldə qələmlə milli ruhu, xalqın azadlıq duyğularını ifadə edirdilər. Azərbaycan legion ədəbiyyatında milli müstəqillik və azadlıq uğrunda mübarizə, vətən sevgisi və vətən həsrəti özünəməxsus yer tutur. Bu səbəbdən legion yaradıcılığının əsas mövzusu Ana, Vətən, Millət üçlüyüdür.*

*Məhdud dairədə yaranan və yayılan legion ədəbiyyatı əslində legion həyatı yaşayan, özlərini ictimai mücadilənin mərkəzində hiss edən, Vətəni yadlardan xilas etmək haqqında düşünən vətənpərvərlərin ürək döyüntüləri, könül çırpıntıları olmaqla yanaşı, eyni zamanda xalqın, millətin Vətən, Ana, Torpaq, Azadlıq, Müstəqillik, milli şüur və düşüncə kimi ictimai ideallarının ifadəsidir Bu müəlliflərin amalı, ilk növbədə, alman ordusu sıralarında ruslara qarşı mücadilənin məqsədini anlatmaq, Azərbaycan istiqlalı ideyasını təbliğ etmək olmuşdur.*

*Məqalədə müharibənin talelərinə və hallarına acımadan yad ellərə atdığı və öz ürək ağrılarını ədəbi üslubun köməyi ilə ifadə edən legionerlərın bədii yaradıcılığı təhlil olunur və legion ədəbiyyatında Vətən sevgisindən bəhs edilir.*

***Açar sözlər:*** *II Dünya müharibəsi, Azərbaycan legionerləri, çoxjanrlı legion ədəbiyyatı, Vətən sevgisi, poeziya, ictimai ideallar*

## *LOVE OF HOMELAND IN THE LITERARY CREATIVITY OF AZERBAIJAN LEGIONARIES*

*Azerbaijan regaining its national independence in 1991 necessitated a new objective scientific view of the main ideological-political, moral-psychological values. It made it necessary to study the heritage of emigration, which stood at the opposite pole to the Soviets, and the emigrant perspective on events. From this point of view, the legion literature, which is a branch of emigration literature, is a rich scientific, ideological and political base and is a part of Azerbaijan's history, culture, and national-spiritual wealth as a whole. A large part of these legionnaires, who changed fronts in the war they were forcibly involved in, opposed Bolshevism's slavery, prohibitions, and repressions with weapons in hand, fought for the independence they lost twenty years ago, and also expressed the national spirit and the people's feelings of freedom with a pen. The struggle for national independence and freedom, love for the homeland and longing for the homeland occupy a special place in the literature of the Azerbaijan Legion. For this reason, the main theme of the legion's creativity is the trinity of Motherland, Motherland and Nation. The legion literature, created and spread in a limited circle, is actual-*

*ly the heartbeats and palpitations of the patriots who live the legion life, feel themselves at the center of the social struggle, and think about saving the Motherland from foreigners, but at the same time, it is also the people's, the nation's Motherland, Motherland, Land, Freedom, Independence, National it is the expression of social ideals such as consciousness and thought. The task of these authors was, first of all, to explain the purpose of the struggle against the Russians in the ranks of the German army, and to promote the idea of Azerbaijan independence.*

*The article deals with the artistic creativity of the legionnaires, who did not feel sorry for the fates and circumstances of the war and expressed their heartaches with the help of literary style, and the love of the Motherland is discussed in the legion literature.*

***Keywords:*** *World War II, Azerbaijani legionnaires, multi-genre legion literature, love of country, poetry, social ideals*

**Giriş:** Humanist düşüncənin məhsulu olan ədəbiyyat, janrından asılı olmayaraq, insanlara vətənpərvərlik tərbiyəsini, insani hissləri, zövqü və yaşamaq eşqini aşılayır. Bütün zamanlar üçün aktual olan müharibə isə bütün bəşəri dəyərləri məhv edir. Müharibə həm də sosial-ictimai yönləri ilə yanaşı, eyni zamanda mənəvi-psixoloji tərəfləri ilə diqqət çəkən hadisədir. Bu baxımdan ədəbiyyatda müharibə mövzusu daha çox mənəvi-psixoloji incəlikləri üzə çıxarmağa çalışır. Bəşəriyyətə fəlakət, insanlığa ölüm gətirən müharibələrdə döyüşənlər, şahid olanlar və onu kənardan seyr edənlərin aldıqları fiziki və mənəvi zərbələr də fərqli olur. Müharibədən keçmiş insan heç vaxt əvvəlki özünü tapa bilmir. Başının üstündən vıyıltı ilə keçən güllələrin hədəfinə çevrilən insan üçün həmin anda sağ qalmaq arzusu vacib olsa da, Vətən, torpaq sevgisi onu Vətənin azadlığı uğrunda döyüş meydanlarında qələbəyə ruhlandırır.

Məqalədə müharibənin talelərinə və hallarına acımadan yad ellərə atdığı və öz ürək ağrılarını ədəbi üslubun köməyi ilə ifadə edən legionerlərın bədii yaradıçılığında, legion ədəbiyyatında Vətən sevgisindən bəhs edilir.

Bədii düşüncə öz məzmununda xalqın taleyini, tarixi keçmişini, bugününü və gələcəyini əks etdirir. Azərbaycan bədii düşüncəsi də müxtəlif coğrafiyalarda yaranmasına rəğmən, aradakı siyasi qadağalar, ictimai-siyasi, coğrafi baryerlər onun geriyə - vətənə və xalqa dönməsinə mane ola bilməmişdir. Mühacirətdə yaranan ədəbi-bədii nümunələrin mövzu və problematikasında əsasən vətən, xalq, milli məfkurə, qürbətçilik, həsrət kimi duyğular və düşüncələr yer almışdır.

II Dünya müharibəsi dövründə azərbaycanlı döyüşçülərin bir qismi könüllü olaraq almanların ruslara qarşı vuruşmaq üçün təşkil etdikləri milli birliklərə (legionlara) daxil olmuş və bu birliklərin tərkibində rus əsarətinə, bolşevizmə, totalitar sovet rejiminə qarşı rəşadətlə vuruşmuşlar. Milli birliklərə qoşulmuş soydaşlarımızın nəzərində düşmən faşist Almaniyası deyil, onların vətənini işğal edərək, üçrəngli bayrağını endirmiş, millətini əsarət altına almış bolşevik Rusiyası idi. Məhz buna görə də onlar tarixi fürsətdən faydalanmaq, iki imperialist dövlət arasında gedən müharibədə almanların tərəfində vuruşmaqla rusların məğlubiyyətini sürətləndirmək, nəticədə yenidən Azərbaycanın müstəqilliyinə nail olmaq niyyətində idilər. Bu baxımdan yanaşdıqda, alman orduları

tərkibində ruslara qarşı vuruş milli istiqlal mücadiləsinin tərkib hissəsi kimi qavranılırdı [3, s.57-58].

İkinci Dünya müharibəsindən sonra da siyasi səbəblərlə əlaqədar (almanlara əsir düşdüklərinə, yaxud Vətənin qurtuluşu uğrunda milli hərbi birliklərin tərkibində sovet qoşunlarına qarşı döyüşdüklərinə görə) cəbhədən geriyə qayıda bilməyən soydaşlarımızın hesabına Azərbaycan mühacirətinin sıraları növbəti dəfə sıxlaşdı. Belə ki, Vətənə qayıdıb NKVD zindanının zirzəmisində edam olunmaqdan, yaxud Sibirə sürgün edilməkdənsə, xarici ölkələrdə qalmağı üstün tutan milliyyətçi azərbaycanlıların bir qismi mühacirətimizin siyasi qanadına qoşuldu və istiqlal savaşını bu yolla davam etdirməyə başladı. Hərb meydanından siyasi mühacirətin sıralarına qatılanlardan A.Dağlı, T.Atəşli, S.Təkinər 1950-1970-ci illərdə Azərbaycan mühacirət ədəbiyyatının və ədəbi-tənqidi fikrinin inkişafında mühüm xidmətlər göstərdilər [3, s.15].

Əslində legionerlər mühacirətdən deyil, sovet Azərbaycanından İkinci Dünya müharibəsinə qoşulsalar da yəni, müəyyən mənada sovet tərbiyə sistemindən çıxsalar da, Azərbaycan legion ədəbiyyatı nəzəri-ideoloji düşüncəsinə görə siyasi mühacirət dünyagörüşünün bədii ifadəsinin bir qoludur desək yanılmarıq. Uzun müddət ədəbi dövriyyədən kənarda qalmış bu əsərlər yalnız müstəqillik illərində sonra elmi-nəzəri fikrin tədqiqat obyektinə çevrildi, legion ədəbiyyatının böyük bir hissəsi ədəbi dövriyyəyə daxil edildi.

Zorla cəlb olunduqları müharibədə cəbhə dəyişdirən bu legionerlərin böyük bir hissəsi əldə silahla bolşevizm əsarətinə, qadağalara, repressiyalara qarşı çıxır, iyirmi il əvvəl itirdikləri istiqlalı qazanmaq uğrunda mübarizə aparır, həm də əldə qələmlə milli ruhu, xalqın azadlıq duyğularını ifadə edirdilər. Azərbaycan legion ədəbiyyatında milli müstəqillik və azadlıq uğrunda mübarizə, vətən sevgisi və vətən həsrəti mövzusu özünəməxsus yer tutur.

Məhdud dairədə yaranan və yayılan legion ədəbiyyatı əslində legion həyatı yaşayan, özlərini ictimai mücadilənin mərkəzində hiss edən, Vətəni yadlardan xilas etmək haqqında düşünən vətənpərvərlərin ürək döyüntüləri, könül çırpıntıları olmaqla yanaşı, eyni zamanda xalqın, millətin Vətən, Ana, Torpaq, Azadlıq, Müstəqillik, milli şüur və düşüncə kimi ictimai ideallarının ifadəsidir.

Azərbaycan legion ədəbiyyatında aparıcı janr olaraq poeziya önəmli yer tutur. Bu bir tərəfdən kiçik həcmdə böyük mətləblər, duyğu və düşüncələr ifadə etmək, şeir formasının populyarlığı ilə əlaqədar idisə, digər tərəfdən dərc olunan qəzetlərin, vərəqələrin həcminin kiçik olması ilə əlaqədar idi. Onlarla legionçunun şeirlərində qəriblik, yurd həsrəti, vətən məhəbbəti, tezliklə vətəni azad edib ona qovuşmaq həsrəti, ana yurdu ilə görüşə inam təsvir olunub. Bu şeirlərdə ana məhəbbəti ilə vətən məhəbbəti bir tutulurdu. Xarakterik cəhət budur ki, bu şeirlər cümhuriyyət dövrü poeziyasının yolunu davam etdirir, onun qanuni varisi kimi çıxış edərək azadlığa, müstəqilliyə, milli bayrağa həsr edilirdi. Legionçulardan Şirvanın "Ana Vətən", "Bakı", Məmmədvəlinin "Bahar", "Gül açacaq Azərbaycan", Məmmədin "Milli bayrağa", Miskinin "Ey Vətən", Mün-

zəvinin “Olsun”, Xaspoladın “Vətən”, Süngünün “Vətən”, “Gəncə”, Səyyarın “Vətən marşı” və digərlərinin poeziyasında vətənpərvərlik, Vətənə xidmət və Vətənə sevgi poetik çalarlarla öz əksini tapıb.

Vətən həsrəti, Vətən sevgisi, ana intizarı, Vətəndə qoyub gəldiyi sevgisinə qovuşmaq istəyi ilə yaşayıb, bolşevizm əsarətinə qarşı alman cəbhəsində döyüşən, lakin Vətəni Azərbaycana könüldən bağlanan legionçu Nəbinin duyğularını ifadə etdiyi bu sətirlərdə onun ürək çırpıntıları əks olunub:

Mən sənə qurbanam Vətən, sən nə qədər şirinsən,
El bilir, aləm bilir Fərhad mənəm, Şirin sən.
Oylağısan, yurdusan pələngin sən, şirin sən...
Sən mənim ürəyimsən, ürək bədənsiz olmaz.
Könül Vətənsiz olmaz!

Ana! Canım, ciyərim, ürəyimin sirdaşı,
Oğul deyib ağlama, axıtma gəl göz yaşı,
Xoşbəxt gələcək üçün aparırıq savaşı,
Gələr elə bir zaman düşmənlərdən iz olmaz.
Könül Vətənsiz olmaz!

Sən sə ey qara gözlüm, uca dağlar maralı,
Mən azadlıq yolunda düşdüm səndən aralı,
Dönəcəyəm azərim tapan gün istiqlalı.
Azadlıq, can azadlıq, ilhamım sənsiz olmaz,
Könül Vətənsiz olmaz! [2, s.202].

Legionçu Ə.Xaspoladov “Sənlə görüşəm gərək” şerində düşməndən qisas almaq istəyi, qəzəb, qorxu, intizar, döyüş əzmi ilə yanaşı, Vətən həsrəti və sevgisi ilə bağlı hisslərini və yaşantılarını, ümidini misralara köçürür, Azərbaycanın gözəlliklərini tərənnüm edir:

Biz istiqlal uğrunda candan keçən ərlərik.
“Aslan”larıq, “İgid”ik, “Qorxmaz” legionerlərik!
Yolumuzu kəsəməz nə dağ , dərə, nə də dik,
Azğın qırmızı tiran qursa da min bir kələk,
Bir gün ey ana yurdum, sənlə görüşəm gərək.

Döyüş [var] cəbhələrdə, qorxunc dəqiqələrdə,
Tərlan könlüm [çox] dözdü min bir əzaba, dərdə.
Ömrümün iki ili keçdi bu qərib yerdə
O xoş qoynundan məni ayrı salsa da fələk,
Bir gün ey ana yurdum, sənlə görüşəm gərək.

Mən ayrıldım bir axşam, ən vəfalı yarımdan,
Turaclı günlərimdən, marallı dağlarımdan,
And içmişəm, hazıram uğrunda verməyə can.
Qoy düşmənlər sanmasın məni kimsəsiz və tək,
Bir gün ey ana yurdum, sənlə görüşəm gərək.

Bir bolşevik kabusu qaplarkən torpağımı,
Ucaltdım göylərə [mən] üçrəngli bayrağımı.
Uçan quşlar aparsın Vətənə sorağımı,
Zəfər bizim olacaq – buna əmindir ürək,
Bir gün ey ana yurdum, sənlə görüşəm gərək [2, s.124].

Aşağıdakı bu misra legionçu Vulkanın "Ana" şerindəndir və bizcə bu misraların şərhə ehtiyacı yoxdur:

Mən səni sevmişəm, bir də Vətəni,
Sizlərdən uzaqlıq öldürür məni.

Vətənin ağır çağlarına işarə vuran və onun azadlığı uğrunda ölməyə hazır olan legionçu Rüstəmin "Mən də bir əsgər kibi" şerində Vətənə olan sevgi belə təsvir olunur:

Bu azadlıq yolunda ölənlərdən mən – biri,
Olmasa da çoxları Vətən qalsın qoy diri,
Mən də bir əsgər kibi, hərb deyib – hərb edəcəm,
Azərbaycan yolunda mən məzara gedəcəm [2, s.131].

Legionerlər arasında legionda təşviqat və təbliğat işləri ilə məşğul olmaqla yanaşı, "Qürbətzadə" imzası ilə yazan Mehdi Hüseynzadənin, "Daşqın" və "Aşıq Məzahir" təxəllüsləri ilə yazan Borsunlu Məzahir Axundovun şeirləri ədəbi ictimaiyyətə daha yaxşı məlumdur. Maraqlı cəhət ondan ibarətdir ki, sonralar M.Hüseynzadə Sovet İttifaqı Qəhrəmanı adı almış, M.Daşqın isə vətənə qayıtdıqdan sonra Sibirə sürgün olunmuş, sürgündən qayıtdıqdan sonra xalq arasında populyar şeirləri ilə tanınmışdır. Legionçu Daşqının "Vətən qəhrəmanına" şeri nikbin, qələbəyə inam hissi ilə köklənib, bütün Azərbaycanı bir ideya ətrafında birləşdirəcək dövlət səviyyəsinə yüksəltmək idealını mühüm amil kimi canlandırır və onun Vətənə, Vətənin azadlığına olan sevgisini nümayiş etdirir:

Vətən eşqi müqəddəsdir, hər kim olsa mübtəlası
Tarixlərdə əfşar olar sərgüzəşti, macərası.
Hər insanın əzəməti, iftixarı Vətənidir,
Vətənsiz bir namus sözü əfsanəni təsvir edir.

Vaxt yetişib, haqqımızı alaq vəhşi Moskvadan.
Namussuzdur kim çıxarsa qorxaqlıqla bu sıradan...
Gərək yetsin Azərbaycan məşuqəsi istiqlala,
Son qoyulsun göz yaşına, dil dərdinə, bu məlala.

Batan günəş qəhramanım! Yenə şərqdən doğacaqdır,
Əqrəb kibi qaranlığı yurdumuzdan qovacaqdır.
Heç bir zaman qul olmağa məhkum etməz tale bizi,
Almalıyıq, alacayıq qılınc ilə haqqımızı! [M.C.-]

Bu şerlər müəlliflərin bütün məhrumiyyətlərə rəğmən mənəvi dünyasını, insani hisslərini qoruyub saxlamalarının bariz nümunəsidir.

Legionerlər öz yaradıcılığında yalnız poetik formalardan istifadə etmir, nəsr əsərləri, felyetonlar, məqalələr də yazır, rəsm və karikaturalar çəkirdilər. Legionerlərdən Həmidovun "Qurban bayramını necə keçirdik", “S.L.” imzası ilə yazan müəllifin “Dil saflığı uğrunda mübarizə” adlı məqalələri, Tağıyev, Məmmədzadə, Əliyevin birgə yazdıqları “Günahsız qurbanlar”, Şuşalının"Azərbaycan adlı bir ölkə var" adlı hekayələri, N.Xaspoladın "İkimiz" adlı povesti bu qəbildəndir. Vətən sevgisinə həsr olunan maraqlı məqalələrdən biri də Cabbar Məmmədovun 1944-cü ildə “Azərbaycan” qəzetində “Gənc yazıçılarımızda Ana, Vətən və Millət hissi” adlı məqaləsidir. Məqalədə Ana və Vətən bir-biri ilə qarşılıqlı əlaqədə verilir: “Bilmək lazımdır ki, ana və övladlardan daha böyük olanı Vətəndir. Vətənsiz bir ana, anasız bir vətən uşağa bənzər. Ana məhəbbəti ilə Vətən məhəbbəti arasındakı birlik döyüş meydanındakı Azəri türk ümumi döyüşçülərinin düşmənə saldırdıqları birliyə oxşamalıdır. Vətəni qorumayan hər hansı bir döyüşçü anasını qorumadığını xatırlamalıdır” [2, s.45]. Eyni zamanda məqalədə qeyd edilir ki, Ana və Vətən sevgisi üzərində hakimlik edən daha böyük bir sevgi var ki, bu da millət sevgisidir.

Eyni zamanda legion mətbuatı olan “Azərbaycan” qəzetində legionerlər tərəfindən çəkilən müxtəlif məzmunlu karikaturalar legion ədəbiyyatının çoxjanrlı və müxtəlif formalı olduğunu təsdiq etməklə yanaşı, bu tip əsərlərdə də Vətənə bağlılıq motivlərini özündə ehtiva edir. Bu əsərlərin çoxunda Odlar ölkəsinin tarixi keçmişi, bu günü , təbiəti təsvir obyekti olur, azadlıq uğrunda apardığı mübarizəsi təqdir olunur [4, s.102].

Araşdırmamızdan da göründüyü kimi legion yaradıcılığının əsas mövzusu Ana, Vətən, Millət üçlüyüdür. Bu əsərlərin çoxunda vətənimizin təbiəti, tarixi keçmişi, yaşanan dövr, gələcəyə inam, bu günü təsvir edilir, azadlıq uğrunda aparılan mübarizə təqdir olunurdu. Bu gün də legionçiları “satqın”, “fərari” adlandıranlar, onların tariximizdən silinməsinin tərəfdarı olanlar var. Lakin biz tariximizi olduğu kimi yazmaq istəyiriksə, II Dünya müharibəsi illərində əsir düşərək həyatda qalmaq uğrunda mübarizə aparan bu insanların taleyinə biganə qala bilmərik.

Cünki, döyüş meydanlarında ölümlə üz-üzə duran bu insanlar ürəklərindən gələn kəlmələri vərəqlərə köçürməklə sanki Vətənlə, doğmaları ilə xəyalən əlaqə yaradır və nə vaxtsa Vətəndə qalan doğmalarının bu sətirləri oxuyacaqlarına ümid edirdilər.

Onların əsərləri tariximizin elə bir parçasıdır ki, onlar haqqında yazmaq və danışmaq uzun illər yasaq edilmişdi. Eyni zamanda, Azərbaycan legion ədəbiyyatı həm də "Azərbaycan ideya"sına xidmət edən bir təbliğat vasitəsi idi. Bu publisistika, bir tərəfdən, nəhəng sovet təbliğat maşını ilə döyüşən kəsərli vasitə, digər tərəfdən qürbətin ağır, acı problemləri ilə üz-üzə qalan, Vətən həsrəti ilə alışıb-yanan soydaşlarımızın yaralı qəlblərinə bir məlhəm idi [1, s.22].

Nəyahət ki, hər şeyə hakim olan zaman bu dəfə də öz hökmünü verdi: bolşevizm də, alman faşizmi də tarixin keçmişinə qovuşdu. Nəticədə “Azərbaycan ideya”sı uğrunda vətənpərvərlik hissi ilə yaşayan və bu yolda mübarizə aparan həmvətənlərimizin arzuları gerçəkləşdi. Azərbaycanın dövlət müstəqilliyi yenidən bərpa olundu. Uzun illərdən sonra Azərbaycan legion ədəbiyyatı xalqın ideya-estetik, düşüncə-məfkurə yaddaşına qaytarıldı, onların yaratdıqları zəngin irs unudulmayaraq gəlib bizim nəslə çatdı və Vətən sevgisinin əbədi yaşamaq haqqının daimi olduğunu bir daha təsdiq etdi.

## Ədəbiyyat siyahısı


1. *Tahirli Abid. Azərbaycan mühacirət mətbuatında publisistika (1921-1991). “SBS Polygraphic Production” nəşriyyatı, Bakı, 2005, 528 s.*
2. *Cəfərli Məmməd. Azərbaycan legion ədəbiyyatı. “Qapp-Poliqraf” Korporasiyası, Bakı, 2005, 371 s.*
3. *Cabbarlı Nikrup. Azərbaycan mühacirət nəşri. “Elm və təhsil” nəşriyyatı, Bakı, 2011, 140 s.*
4. *Əhmədli Bədirxan. Azərbaycan mühacirət ədəbiyyatı: təşəkkülü, problemləri, şəxsiyyətləri. “Elm və təhsil” nəşriyyatı, Bakı, 2017, 376 s.*


***Rəyçi: dosent Səidə Əli qızı***

**UOT 94 (479.24); 930:2**

# KARİBİNİN "QIRMIZI KİTAB"I ERMƏNİ SAXTAKARLIĞINI İFŞA EDƏN MƏNBƏ KİMİ

**SƏİDƏ QULİYEVA**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi,dosent*
*saidaquliyeva@bsu.edu.az*
**SULTAN SEYİDOVA**
*Bakı Dövlət Universiteti, Filologya fakültəsi, dosent*
*sultanseyidova@bsu.edu.az*

*Tədqiqatda Gürcüstan Demokratik Respublikasının ictimai xadımi Karibinin qələmə aldığı "Qırmızı kitab" əsəri tarixi mənbə kimi təhlil edilir. Əsər Azərbaycan tarixşünaslığında ilk dəfə tam halda təhlil edilir. XX əsrin əvvəllərində baş verən hadisələrin şahidi olan, həmçinin türk-müsəlman olmayan müəllifin 1920-ci ildə Tiflisdə qələmə aldığı əsər bir çox məsələlərə fərqli baxışı ortaya qoyur və ermənilərin Qafqaz xalqlarına qarşı düşmənçiliyini sübut etmək üçün dəyərli hesab edilir. Əsər sübut edir ki, erməni millətçiliyi bütün Qafqaz xalqları üçün qanlı tarixə, günahsız insanların qətlə yetirilməsi tarixinə malikdir.*

*Bu əsər erməni saxtakarlarının ifşası üçün vacibdir. Belə ki, türk-müsəlman müəllifləri ilə yanaşı, hadisələrin şahidi olan rus, gürcü və erməni müəlliflərin də əsərləri xüsusi diqqət çəkir.*

*Tədqiqat zamanı əsərdə Azərbaycan, Türkiyə və Gürcüstanla əlaqədar hadisələr, həmçinin regionun türk, gürcü, kürd və rus əhalisi barədə materiallar qruplaşdırılmışdır.*

*Yekunda belə qərara gəlmək olur ki, bu kimi tarixi mənbələrin elmi dövriyyə daxil etmək, xüsusilə ölkə xaricində dərc edilən elmi materiallarda belə əsərlərə üstünlük vermək və erməni saxtakarlarını ifşa etmək obyektiv yanaşmalarla nəticələnə bilər.*

***Açar sözlər:*** *Karibi, "Qırmızı kitab", erməni millətçiliyi, "Daşnaksütyun", tarixi saxtakarlıq, Qafqaz xalqları*

## *KARIBI'S RED BOOK AS A SOURCE FOR REVEALING ARMENIAN COUNTERFEIT*

*The study analyzes the work of the "Red Book" written by a public figure of the Democratic Republic of Georgia, Karibi as a historical source. In order to study the events that took place in the early twentieth century.This investigation is completely analyzed for the first time in Azerbaijan historiography. The work, written by the nonTurkish-Muslim author in Tbilisi (Georgia) in 1920, which witnessed the events, reveals a different point of view on many issues and is considered valuable for proving the hostility of Armenians to the peoples of the Caucasus. The work proves that Armenian nationalism has a bloody history for all the peoples of the Caucasus, the murder of innocent people.*

*This work is important for exposing Armenian falsifiers. Thus, along with Turkish-Muslim authors, the works of Russian, Georgian and Armenian authors, who witnessed the events, also attract special attention.*

*During the analysis of the work, materials on Azerbaijan, Turkey and Georgia, as well as the Turkish, Georgian, Kurdish and Russian population of the region were grouped.*

*Therefore, it can be concluded that by including such historical sources, which are not well known to the scientific community, we can objectively convey our true voice to the international community by exposing Armenian forgers, especially by preferring such works in scien-*

*tific materials published abroad. These materials do not only expose Armenian fascism, but also prove that the community is alien to the Caucasus.*
***Keywords:*** *Karibi, "Red Book", Armenian nationalism, "Dashnaktsutyun", historical counterfeit, Caucasian peoples*

**Giriş.** Qafqazda tarixən yaşayan və ya müxtəlif proseslər nəticəsində burada məskunlaşan əhali öz mədəni identifiklikləri ilə regionun mədəni və dini müxtəlifliyini zənginləşdirmişlər. Bu müxtəliflik heç bir zaman qarşı-qarşıya olmamış, əksinə, hər zaman qarşılıqlı əlaqədə olmuşdur. Lakin XIX əsrdə Rusiyanın Qafqazı işğalı ilə əlaqədar bura məqsədli köçürülən ermənilər regionda Rusiyanın maraqlarının icraçısı olurlar və məhz bu siyasətə uyğun olaraq nifaq salmaq, millətlər arası münaqişələr yaratmaq, türk-müsəlman əhalisinin sayını azaltmaq və digər prosesləri "böyük ustalıqla" icra edirlər. XX əsrin əvvəllərində erməni millətçilərinin fəaliyyəti genişlənir, I dünya müharibəsinin gedişində Qafqazda, Şərqi Anadoluda və Cənubi Azərbaycanda etnik təmizləmə və soyqırımı siyasəti həyata keçirirlər.

Bütün bu proseslər dövrün mənbələrində əks olunmuşdur. Bu mənbələr əsasən Rusiya Hərbi Tarix Dövlət Arxivində saxlanılır. Arxiv materialları ilə yanaşı bir sıra əsərlər də erməni saxtakarlarını ifşa etmək üçün mühüm əhəmiyyət daşıyır. Bu əsərlərin sırasında ermənilərin millətçilik siyasəti nəticəsində soyqırımı, terror və deportasiyanın bütün fəlakətlərini yaşamış türk-müsəlman müəllifləri ilə yanaşı hadisələrin şahidi olan rus, gürcü və erməni müəlliflərinin əsərləri də xüsusi diqqət cəlb edir [6; 14 v.s.]. Həmin mənbələrin təhlili sübut edir ki, soyqırımı və etnik təmizləmə əvvəlcə "Daşnaksütyun" partiyasının, 1918-1920-ci illərdə isə Ermənistanın dövlət siyasəti olmuşdur. Prosesdə dövlət qurumları ilə yanaşı sıravi ermənilər iştirak etdiyi üçün bu siyasəti etnik siyasət hesab etmək doğru olar. Çünki o, erməni kommunistləri tərəfindən də davam etdirilmişdir.

2013-cü ildə Heydər Əliyev Fondunun Azərbaycan Mədəniyyət və Türizm nazirliyinin birgə layihələrinə əsasən Azərnəşr tərəfindən erməni vəhşiliklərini obyektiv əks etdirən mənbələr, arxiv materialları və kitablar rus, ingilis, alman, fransız dillərində dərc edilmişdir. Bu əsərlərin ictimaiyyətə təqdim edilməsi əlçatmaz olan bir sıra materialları elmi dövriyyəyə daxil etməyə imkan yaradır. Biz bu tədqiqatımızda həmin əsərlərdən birini geniş təhlil edərək ictimaiyyətə təqdim edirik.

Erməni saxtakarlarını ifşa edən müəlliflərdən biri Pyotr Qoleşvilidir (Karibi). "Menşevik" partiyasının üzvü olan Karibi Gürcüstan Demokratik Respublikası dövründə Jordaniya hökumətində əkinçilik nazirinin müavini olmuş, sovetlərin işğalından sonra isə bolşeviklərə qoşulmuşdur. Onun "Qırmızı kitab" adlı əsərində erməni millətçiliyinin bütün Qafqaz xalqları üçün qanlı tarixə, günahsız insanların qətlinə səbəb olduğu faktlarla sübut edilir.

Araşdırmamızda əsər tam halda təhlil edilir, mənbə kimi dəyərləndirilir.

**1. Əsərin mənbə kimi tədqiqata cəlb edilməsi.** Əsərin elmi dövriyyəyə daxil edilməsini aydınlaşdırmaq üçün Azərbaycan dili, rus dili və Türkiyə türkcəsində elmi elektron bazalarda axtarışımız ciddi nəticə vermədi (Web of Sci-

ence, google scholar, academia.edu, dergipark). Əsərə istnad çox nadir hallarda qeydə alınmışdır.

Bununla yanaşı qeyd etmək lazımdır ki, əsər haqqında Azərbaycan ictimaiyyəti məlumatlıdır. Belə ki, əsərə həmin dövrdə yaşamış Mirzə Bala Məmmədzadə və Hüseyn Baykaranın əsərlərində istinad yer alır. H.Baykara “Azərbaycan istiqlal mübarizəsi tarixi” əsərində ermənilərin türk-müsəlmanlara qarşı soyqırımından bəhs edərkən “Daşnaksütyun” partiyasının Qafqazda milli ədavət yaratdığını bildirmişdir [1, 120]. Sonralar isə - 1990-cı ildə Ziya Bünyadovun elmi redaktorluğu ilə dərc edilən “Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə” toplusunda əsərin Azərbaycan ictimaiyyəti üçün maraqlı ola biləcək 6 fəslindən ixtisarlar təqdim edilmişdir. Bu tərcümədə əsərin əslində olan istinadlar göstərilməmişdir. Vətən tarixşünaslığında dövrün hadisələrindən bəhs edən tədqiqatçılar əsasən bu hissələrdən istifadə etmişdir [12; 10, 178; 16 v.d.]. Əsərin Azərbaycanda tam halda nəşrindən sonra Nazim Mustafanın əsərlərində mənbədən geniş istifadəyə rast gəlirik [9].

Karibinin əsərinin Türkiyə tarixçiləri üçün əhəmiyyət kəsb etməyinə və “Gürcü Devleti’nin Kırmızı Kitap’ı Ermeni İddialarına Yanıt” adı ilə 2007 və 2021-ci illərdə dərc edilməyinə baxmayaraq, elmi platformalarda axtarış nəticəsində bu əsərə istinad edən cəmi bir neçə əsərələ rastlaşdıq [2; 4; 5; 7]. Bu əsərlər də əsasən Mehmet Perinçekə aiddir. Lakin o da əsərdən müəyyən franqmentlərin tərcüməsini vermiş, əsərdən tədqiqatlarda mənbə kimi istifadə edilməmişdir. Əlavə edək ki, M.Perinçek “Erməni sənədləri ilə erməni soyqırımı yalanı” (“Ermeni belgeleriyle Ermeni soykırımı yalanı”) adlı layihə çərçivəsində Kaçaznuninin, Lalayanın, Karinyanın, Boryanın əsərlərinin də vacib hesab etdiyi hissələrini Türkiyə türkçəsinə tərcümə etmiş və təhlil etmişdir [6; 8; 15]. Beləcə, ermənilərin bir çox iddialarının yalan olduğunu sübut etmişdir.

Rus və Türkiyə türkcəsində gürcü müəlliflərinin əsərlərində Karibiyə və digər mənbələrə istinad edərək “Daşnaksütyun” partiyasının yaranmasını Qafqaz xalqları arasında düşmənçilik və nifrət yaradan qüvvə kimi qəbul edir, müasir Ermənistan dövlətini münaqişəsiz yaşaya bilməyən toplumun dövləti hesab edir [11].

**2. Əsərin yazılma səbəbləri və əsər haqqında ümumi məlumat.** Karibi əsərini ermənilərin yazdıqları “Qırmızı kitab”a cavab olaraq yazmışdır: Çalxuşian adlı jurnalistin və erməni müəllif kollektifi tərəfindən Paris sülh konfransında təbliğat məqsədilə Gürcüstan və Azərbaycana qarşı iftiralarının qələmə alındığı “Qırmızı kitab”a cavab olaraq yazıılmış bu əsər 1920-ci ildə Tiflisdə dərc edilmişdir. Dövrün şahidi olan dövlət xadiminin, xüsusilə tarixçi birinin yazdığı əsər həmin hadisələrin tədqiqi üçün maraqlıdır. Müəllif Girişi bütünlükdə bu əsərin yazılma səbəblərinə həsr etmişdir.

Ermənilərin “Qırmızı kitab”ı rus dilində 1919-cu ildə Rostovda dərc olunmuşdur [13, 10-12]. Kitab yunan diplomatı vasitəsilə Paris sülh konfransındakı

nümayəndə heyətinin başçısı Nübar paşaya[2] təqdim edilmişdir. Əsər fransız və ingilis dillərinə tərcümə edilərək məhdud sayda dərc edilmiş və Avropada vacib şəxslərə verilmişdir. Karibi əsərin Rostovda dərc edilməsinə baxmayaraq satışda və bu mövzu ilə maraqlı şəxslərdə tapılmadığı, hətta hələ də heç bir gürcü siyasi xadiminin əsəri görmədiyini bildirir. Əslində, əsər geniş ictimaiyyət üçün, həqiqətləri əks etdirmək, müzakirəyə təqdim edilmək üçün nəzərdə tutulmadığından satışa çıxarılmamışdır. Müəllif bunun səbəbi kimi əsərin məhz Paris sülh konfransında Avropa düşüncəsinə təsir etmək və ictimai fikri yanlış formalaşdırmaq məqsədilə yazıldığı fikrindədir. Əsərin Qafqaz şəhərlərindən birində dərc edilməsi yerli mətbuatda, ictimaiyyət arasında müzakirə olunduğu effektini verməkdir. Ermənilər qonşularına qarşı iftiralarla, hücumlarla dolu olan bu əsəri dərc etdikdən sonra gizlətmişdilər, çünki anlayırdılar ki, əsərdəki fikirləri yerli xalqların yanında açıqlamaq olmaz. Karibi yazır ki, həmin əsəri gürcülər və azərbaycanlılar əldə edə bilmədikləri və təkzib etmədikləri üçün avropalılar bizim həmin iftiralarla razılaşdığımızı düşünürlər [13, 11-13]. Karibi yazır ki, bizim diyarlarda yaşayan ermənilər Qafqazda bütün xalqların qardaşlığından və birliyindən danışdıqları halda Avropada gürcüləri barbar kimi qələmə verir, özlərini Cənubi Qafqazın və Kiçik Asiyanın yeganə mədəni xalqı kimi təqdim edirlər. Əsərin əsas məqsədlərindən biri gürcülərin, türklərin və tatarların (azərbaycanlıların) arasında özlərini Avropa mədəniyyətinin və dəyərlərinin yeganə daşıyıcısı kimi qələmə verməkdir [13, 14] .

Karibinin əsərinin strukturu giriş, iki hissə, 19 fəsil və nəticədən ibarətdir. Əsəri dəyərli edən xüsusiyyətlərdən biri Qafqaz Hərbi Dairəsinin Qərargahının arxivindən istifadədir. Eyni zamanda, V.T.Mayevskinin “Van və Bitlik vilayətlərinin hərbi-statistik təsviri” («Военно-статическое описание Ванского и Битлисских вилаетов», Тифлис, Изд.Шт. Кавказской Армии, 1904 г.), ermənilərin “Qırmızı kitab”, X.F.B.Linçin “Ermənistan”, uydurma “erməni soyqırımının” ideoloqlarından biri Toynbinin 1915-ci ildə London və Nyu-Yorkda nəşr etdirdiyi “Mavi kitab” (ermənilərə qarşı vəhşiliklər, xalqın məhv edilməsi), “Erməni-tatar qarışıqlığı erməni məsələsinin mərhələlərindən biri kimi” («Армяно-татарская смута, как один фазисов армянского вопроса») broşüruna və digər əsərlərə istinad etmişdir.

Əlbəttə ki, əsərin subyektiv tərəfləri də vardır. Məsələn, II hissənin VII fəslində Qafqaz tarixinə, xüsusilə müasir Gürcüstan və Ermənistan tarixlərinə dair fərqli təqdimatla qarşılaşırıq [13, 130-139]. Bu baxımdan əsərin təhlilinə diqqətlə yanaşmaq lazımdır.

Əsərdə diqqəti cəlb edən məqamlardan biri xalqların və şəhərlərin adının həmin dövrdə necə adlandırılmasıdır. Belə ki, müəllif azərbaycanlıları “tatarlar”, “İrəvan türkləri”, Osmanlı türklərini “türklər”, Osmanlı imperiyasını Türkiyə (biz tədqiqatımızda dövlətin adını rəsmi adı ilə - Osmanlı imperiyası kimi göstərəcəyik), Osmanlıda yaşayan erməniləri “Türkiyə erməniləri”, ermənilər

[2] Paris sülh konfransında ermənilərin iki nümayəndə heyətindən birinin rəhbəri.

yaşayan əraziləri isə “Türkiyə Ermənistanı”, Qafqazda yaşayan erməniləri “Rusiya erməniləri”, “Zaqafqaziya erməniləri” adlandırır.

Digər diqqət çəkən məqam isə Tiflis şəhərinin adı ilə bağlıdır. Müəllifin istifadə etdiyi qaynaqlarda və onlara verdiyi şərhlərdə, müxtəlif hadisələrdən bəhs edərkən şəhərin adını “Tiflis” olaraq yazır [13, 13, 43, 57, 58, 78, 83, 114, 118, 125, 156, 164, 169 v.s.]. Bu fakt şəhərin adının sonralar dəyişdirildiyini göstərir.

Qeyd edək ki, əsərin tədqiqi nəticəsində yaranan suallardan biri həmin dövrdə Paris sülh konfransında olan Azərbaycan nümayəndə heyətinin ermənilərin “Qırmızı kitab”ından xəbərdar olub-olmamaları, əsərə təkzib vermələri barədə fəaliyyətlərini aydınlaşdırmaqdır. Əlimərdan bəy Topşubaşovun, Ceyhun Hacıbəylinin və digər ziyalılarımızın əsərlərində bu mövzunun araşdırılması aktuallıq kəsb edir.

**3. Erməni millətçiliyinin yerli xalqlara qarşı düşmənçiliyi.** İlk olaraq demək lazımdır ki, erməni millətçiləri meydana çıxana qədər Cənubi Qafqazda bütün xalqlar əsrlərlə birlikdə sülh içində yaşamışlar və milli zəmində toqquşmalar baş verməmişdi. Erməni millətçilərinin siyasətinin Qafqazda yaşayan bütün xalqlara qarşı yönəldiyi, hər zaman milli ədavət yaratdıqları, insanlara və digər xalqlara qarşı nifrəti və şovinizmi təbliğ etdikləri əsas xətt kimi bütün əsər boyu önə çıxır [13, 40-42]. Karibi haqlı olaraq belə düşünür ki, erməni liderləri on illərlə öz xalqına, tatarlara və kürdlərə qarşı nifrət təlqin etmişdilər [13, 148].

Karibi gürcü partiyaları ilə erməni partiyalarının fəaliyyətinin fərqini göstərərək gürcü partiyalarının xalqı maarifləndirməsi, xalqlararası dostluğu təbliğ etməsi, hətta ermənilər və tatarlar arasında barışıq əldə edilməsi səyləri barədə yazır. Gürcülər arasında şovinizmin yayılmamasını “Daşnaksütyun” kimi partiyanın olmaması ilə əlaqələndirir. Karibi əsərdə təsdiq etməyə çalışır ki, ermənilərin həmin dövrdə bədbəxtliklərinin səbəbi daşnakların təsiri altına düşərək taleyini milli ədavəti qızışdıran şovinstlərin əlinə verməkləridir, azərbaycanlılar və kürdlər arasında yaşamaqları deyil [13, 18-20]. Hətta ermənilərin “Coqvardi” qəzetinin 1920-ci ildə yayımlanmış 140-cı nömrəsində millətçi partiyalar barədə verilən məqaləni təqdim edir. Həmin məqalədə göstərilir ki, Gürcüstanda və Azərbaycanda millətçilik hakim olsa da, Ermənistanda şovinizm rekord vurmuşdu. Heç bir ictimai hərəkat onlar qədər Cənubi Qafqaz xalqları arasında nifaq yaymırdı [13, 181-182].

Əsərin “İnqilabi fəaliyyətin Zaqafqaziyaya köçürülməsi” fəslində Rusiya ermənilərinin bütün vasitələrdən istifadə edərək Osmanlı ermənilərinin həyatına qızışdırıcı müdaxilələri əks olunmuşdur. Rusiya erməniləri Osmanlıdakı inqilabi fəaliyyətdə yerli ermənilərdən daha fəal olmuşdular. Maraqlı nüans ondadır ki, Osmanlı erməniləri bədii əsərlərində siyasətdən kənarda qaldıqları halda Rusiya erməniləri Osmanlı ermənilərinin vəziyyətini cəsarətlə qələmə alırdılar. Bununla da, milli zəmində emosiyaları qızışdırır, qonşuları olan türklərə və kürdlərə qarşı silahlı mübarizəyə səsləyirdilər. Müəllif nümunə olaraq

Raffinin romanlarını, Rafael Patkanyanın şeirlərini göstərir [13, 40-42].

Tarixin gedişində dövlətlərini itirmiş polyaklar, yunanlar və yəhudilərin dövlət qurmaq üçün səylərini nümunə gətirən müəllif heç bir xalqın erməni daşnakların seçdiyi yoldan getmədiyini yazır. Bu xalqların heç birinin ağlına gəlməyib ki, təbəəsi olduqları dövlətin düşmənləri ilə birgə siyasət aparıb hərbi dəstələr yaratsınlar [13, 20]. Məhz bu səbəbdən də, Osmanlı imperiyasında yaşayan digər xristian xalqlar, hətta Yunan müharibələri zamanı yunanlar ermənilərin adi zamanda qarşılaşdıqları vəziyyətlə qarşılaşmamışlar. Bütün bunların səbəbi erməni daşnakları idi.

Müəllif erməni inqilab liderlərini sadə üsyançılar hesab edirdi, çünki onların etirazları real vəziyyətə və faktlara əsaslanmırdı. Karibi belə adamların türk və kürdləri öldürüb aradan çıxdığını, nəticədə intiqam üçün gələn müsəlmanların qarşısında öz xalqını təhlükəyə atdığını yazır, erməni inqilab liderlərinin həm Osmanlıda, həm də Cənubi Qafqazda inqilab hərəkatı zamanı belə hərəkətini həmin liderlərin xarakterik xüsusiyyəti hesab edirdi [13, 35, 141]. Məhz bu səbəblərdən də Karibi əsərin bir fəslini "məhvedici separatizm" adlandırır.

Əsərdəki bu və digər fikirlər həqiqətən də I dünya müharibəsi dövründə və ondan sonra ermənilərin regionda sülhün pozulmasında bütün iştiraklarını açıq aydın ortaya qoyur.

Biz əsərin təhlili məqsədilə əsərdəki Azərbaycan, Türkiyə və Gürcüstanla əlaqədar, həmçinin regionun türk, gürcü, kürd və rus əhalisi barədə faktları ciddi hesab etdiyimiz üçün onları qruplaşdırmışıq. Belə qruplaşdırma materialları sistemli təhlil etməyə, prosesləri ardıcıl izləməyə imkan vermişdir.

**3.1. Mövzuların əsas hissəsi ermənilərin Gürcüstana** qarşı düşmən siyasətlərinin yanlış olmasına qarşı məsələlər təşkil edir. Müəllif ermənilərin onlara qarşı haqsızlıq etdiyini çoxsaylı faktlarla əsaslandırmışdır [13, 130-139, 140-182]. Bu materiallardan bizim üçün maraqlı olanlarına nəzər salaq.

Müəllifin fikirlərindən Qafqazda sülhün və sabitliyin Rusiyanın iştirakı ilə pozulduğu, Rusiyanın bu siyasətini həyata keçirtmək üçün ermənilərdən istifadə etdiyi, hər zaman ermənilər və azərbaycanlılar arasında qırğına nail olduğu, lakin gürcüləri bu dəhşətli işə qoşa bilmədiyi aydın görünür. Rusiya dövləti XVIII əsrin 80-ci illərindən başlayaraq Şərq yürüşləri ilə əlaqədar ermənilərin dövlət yaratmaq planlarına qoşulmaq barədə qərar verir [13, 16, 134].

Karibi yazır ki, ermənilər 1918-ci ilin may ayında dövlət qurduqları ilk gündən Gürcüstan haqqında iftiralara başlamış və xarici dövlətlər qarşısında gürcü xalqını alçatmağa çalışmışlar. Ermənilər öz problemlərində Gürcüstanı günahkar hesab etmiş və ona qarşı 3 əsas iddia ilə çıxış etmişdilər: **xəyanət; gürcülərin erməni qaçqınlarına bilərəkdən əziyyət vermək; sərhəd məsələləri.** Müəllif ermənilərin bu fikirlərinin yanlış olduğunu, ermənilərin iddialarında əks olunan hadisələrdə Gürcüstan hökumətinin deyil, məhz erməni liderlərinin cavabdeh olduğunu faktlarla əsaslandırmışdır. Erməni xalqı bəlalarının günahkarını axtardığı zaman məhz bu liderlərdən hesabat istəyirdi, onlar isə başqalarını göstərirdi.

İlk məsələ - **guya Gürcüstan hökumətinin ermənilərə qarşı satqınlıq etməsi** barədə Karibinin əsaslandırmasına nəzər salaq. I dünya müharibəsinin gedişatında Qafqaz cəbhəsində özbaşınalıq edən erməni dəstələri mülki əhaliyə qarşı qarətlərlə məşğul olur, soyqırımı həyata və həmin torpaqları gələcək dövlətləri üçün yerli sakinlərdən təmizləyirdilər. Lakin Osmanlı qoşunları həmin ərazilərə gəlmədən oradan qaçan ermənilər gürcülərin onlara xəyanət etdiyini və Brest-Litovsk müqaviləsi ilə A.Çxenkelinin əraziləri türklərə verdiyi iddiası ilə çıxış edirlər. Əslində isə üz-üzə döyüşdən qaçdıqları üçün özlərini təmizə çıxardaraq başqalarını günahlandırmağı üstün tuturdular [13, 141-154]. Məsələn, daha birinə nəzər salaq. Karibi "General-mayor Gerasimov tərəfindən Ərzurumun boşaldılması şəraitinin araşdırılması" adlı işə əsasən Andronikin başçılıq etdiyi erməni dəstələrinin fəaliyyəti barədə məlumatda qeyd edir ki, *biz gələcək tarixçilərə erməni hərbçilərinin Ərzuruma gələn gündən özlərini burada necə aparmaları aydınlaşdırmaq haqqında zəngin material saxlayırıq. Erməni publisistləri bu materiallarda öz milli qürurlara aid xoş olmayan faktlara rast gələcəklər, xüsusilə rus zabitlərinin ifadələrində. Onları hamısı öz ifadələrində eyni fikirlə göstərirlər ki, silahsız mülki əhali ilə döyüşən hərbi birləşmələrin tərkibində olaraq rus zabitinin adının biabır olmasını arzu etmirlər* [13, 146]. Bu fikirlər və faktlar ümumilikdə erməni hərbçilərinin simasını açıqlayır; onların üz-üzə döyüşlərdən qaçdıqlarını, silahsız mülki əhaliyə qarşı soyqırımını təsdiq edir. Karibi Ərzurum hadisələrindən bəhs edərkən erməni hərbçilərinin erməni qaçqınlara qarşı münasibətini də təqdim edir [13, 146-147]. Müəllif bu faktları göstərərək əslində ermənilərin cəbhədən qaçdıqlarını, o ərazilərin Türkiyəyə "verilməsində" Gürcüstanın iştirak etmədiyini sübut edir.

Karibi **qaçqınlar məsələsini** də hərtərəfli izah etməklə ermənilərin onlara olan iddialarının əsas olduğunu sübut edir. Gürcü hökuməti Osmanlıda və İrəvan quberniyasında müxtəlif millətlərdən olan qaçqınlara fərq qoymadan bacardığı qədər kömək edirmiş. Bununla yanaşı, Ermənistan hökuməti həmin dövrdə qaçqınlar məsələsinə ümumiyyətlə fikir vermirdi. Lakin Gürcüstanın müttəfiqi Almaniya müharibədə məğlub olduqdan sonra "Daşnaksütyun" partiyası öz mətbuat orqanlarında qaçqınlar mövzusunda iddialara başlamış və Gürcüstan hökumətini erməni qaçqınları fiziki məhv etməkdə günahlandırmışdılar [13, 155-156]. Uzun sürən danışıqlardan sonra Ermənistan hökuməti qaçqınları qəbul etməyə razı olmuşdur [13, 159-160]. Biz bu mövzudan belə qənaətə gəlirik ki, erməni qaçqınların Gürcüstan ərazisində yerləşdirilməsinə çalışmaqla həmin ərazilərin Ermənistan dövlətinə birləşdirilməsi nəzərdə tutulurdu. Bu fikrimizi XX əsrin sonlarında baş verən hadisələr və ahıska türkləri ilə əlaqədar tədqiqatlar sübut edir [ətraflı bax, 3, 143-165].

Üçüncü məsələ isə **sərhəd mövzusu** idi. Karibi yazır ki, mayın 26-da Gürcüstan dövləti Tiflis quberniyasının bütün ərazisini öz ərazisi elan etmişdi. Ermənilər həmin vaxt etiraz bildirməmişdilər. Onlar I dünya müharibəsində Gürcüstanın himayəçisi Almaniyanın məğlub olmasını ərazi iddiaları üçün fürsət kimi istifadə etmişdilər. Erməni hərbçiləri noyabrda Borçalı qəzasına hücuma

keçmiş, Lori və Borçalı qəzalarını Ermənistana birləşdirməyə çalışmışdılar. Karibi yazır ki, Gürcüstan tərəfi danışıqlar vasitəsilə Ermənistanın hərbi hərəkətlərinin qarşısını almaq mümkün olmadıqda hərbi yolla onları çıxartmışdı [13, 161-165].

Ermənilərin Avropada gürcülərin əleyhinə istifadə etdikləri digər məsələlər onların **Almaniya ilə olan əlaqələri** və **Türkiyə ilə razılaşmada** ittiham etmələri idi. Ermənilər almanları Qafqaza gürcülərin dəvət etdiyini iddia edirdilər. Müəllif ermənilərin fikirlərinin yanlış olduğunu sübut etmək üçün bir çox faktlar təqdim edir. Karibi yazır ki, əslində Almaniya ilə Osmanlı birlikdə Qafqaza düşmən kimi gəlmişdi, lakin Çxenkeli hökuməti müttəfiqləri parçalaya və Almaniyanı özlərinin və ermənilərin tərəfinə çəkə bilmişdi. Müəllif Batum konfransı zamanı çıxılmaz vəziyyətdə olduqları zaman Zaqafqaziya Seyminin 18 may tarixli iclasında ermənilərin almanlara müraciət etmək barədə təklif səsləndirdiklərini bildirir. Seymin Müsəlman fraksiyasının etirazına baxmayaq, qərar qəbul edilmişdi. Beləcə, Almaniya Qafqaza gəlmişdi [13, 166-171]. Həmin dövrdə Gürcüstanın dəmir yollarının Osmanlının nəzarətinə keçməsi məsələsi vardı, lakin dəmir yolları Almaniyanın nəzarətinə verilmişdir. Ermənilər "Qırmızı kitab"da göstərirdilər ki, Türkiyə Gürcüstanın müstəqilliyini tarixi torpaqları ilə tanımağa öhdəlik götürmüşdür. Lakin onlar özləri də bilirdilər ki, belə bir müqavilə yoxdur və olması da mümkün deyil. Ermənilər bu iki dövlətə qarşı iddia ilə Avropaya sadiq qaldıqlarını, gürcülərin isə Almaniya və Türkiyəyə meyl etdiklərini göstərməyə çalışırdılar [13, 172-174].

Karibi **tarixdən** bəhs edərkən Gürcüstanın əsrlərlə regionda xristianların qoruyucusu olduğunu, bu səbəbdən də ermənilərin gürcü dövlətlərinə ümid etdiklərini və məhz bu şəraitdə mədəni idendiklərini qoruya bildiklərini yazır. Çünki gürcülərdən başqa heç bir xalq ermənilərə qarşı belə qonaqpərvərlik göstərməmişdi: onlar özlərini evlərindəki kimi hiss etmişlər; gürcülər onları öz silahları ilə müdafiə etmişlər. Xüsusilə, Qurucu Davidin dövründə ermənilər üçün yeni məskənlər salınmış və bura çoxlu erməni köçürülmüşdü. Onlar öz kilsələrində ibadət edir, öz qanunları ilə yaşayırdılar. Gürcülər dövlət qanunları ilə mühakimə olunduğu halda, ermənilər öz qanunları ilə mühakimə edilirdilər. Karibi ermənilərə yaradılan bütün güzəştlərin onların yerli kəndlilərdən daha yaxşı yaşamalarına səbəb olduğunu bildirir [13, 132-137].

Karibi əsərdə belə faktları sadalayaraq ermənilərin düşmənləri arasında Gürcüstan Demokratik Respublikasının ilk sırada olmasını, ermənilərin tarixdə olanları unutduğunu, külli miqdarda maliyyə cəlb edərək gürcü xalqına və Gürcüstan dövlətinə qarşı əks-təbliğat apardıqlarını haqsızlıq hesab edir. "Daşnaksütyun" partiyasının Gürcüstan erməniləri arasında gürcü dilində, Türkiyə erməniləri arasında isə türk dilində yaşadıqları dövlətə qarşı nifrət yaratdıqları və təbliğatlarını onların erməni dilini bilməməsi ilə izah edir. Çünki ermənilərin yaşadıqları dövlətlərin mədəniyyəti daha güclü olmuşdur [13, 132-137]. İndi erməni liderlərinin bir çox çıxışları, iftiraları bu həqiqəti inkar edir.

Biz əsərin VII fəslində verilən tarixi hadisələri oxuduqda müəllifin baş ve-

rən hadisələrə həm gürcü olaraq, həm də istinad etdiyi qaynaqlara əsasən subyektiv yanaşdığını düşünürük. Çünki mənbələrdən və tədqiqatlardan məlumdur ki, Qafqazda erməni dövləti olmamışdır.

**3.2. Azərbaycanla əlaqədar hadisələr barədə.** Əsərdə ermənilərin müsəlmanlara qarşı silahlı basqınları, azərbaycanlılara qarşı düşmən münasibətinin əsasları obyektiv şəkildə əks olunur.

Karibinin əsərindəki ən vacib məqamlardan birinin milli zəmində hərbi qırğınların və terrorun daşnakların Cənubi Qafqaza gəlməsi ilə başladığını, o vaxta qədər burada belə hadisələrin heç vaxt olmadığını bildirməsidir. Erməni basqınlarına müsəlmanlar da cavab verincə toqquşmalar yaranırdı. "Daşnaksütyun" partiyası Qafqaza gələcək erməni dövlətində ancaq ermənilərin yaşayacağı barədə fikirlərlə gəlmişdi və digər xalqlara qarşı nifrət hisləri yaradırdı. Müəllif arxiv materialları sırasında Voronsov-Daşkovun erməni-müsəlman toqquşmaları barədə materialını da təqdim edir. Materialda 1905-ci ildə baş verən kiçik toqquşmaların Naxçıvan və İrəvan qəzalarında başladığı, daha sonra Yelizavetpol quberniyasına yayıldığı, Şuşa və Bakıda davam etdiyi göstərilir. Hadisələr elə baş verirdi ki, bir dəfə ermənilər, o biri dəfə azərbaycanlılar günahkar olurdu [13, 42-43]. Əsərdə göstərilir ki, azərbaycanlılar və ermənilər səpələnmiş halda qarışıq yaşayırlar. Bu səbəbdən də ermənilər və azərbaycanlılar özlərinə daha çox torpaq əldə etmək üçün bir-birini qırırlar [13, 43]. Əlbəttə ki, bu fikir müəllifin subyektiv fikridir. Çünki dövrün mənbələri təsdiq edir ki, azərbaycanlılar ermənilərin hücumlarına cavab verirdilər.

Ermənilər tərəfindən Qafqaz canişini Qoliçının öldürülməsindən sonra onun yerinə ermənilərlə yaxşı münasibətləri olan Voronsov-Daşkov təyin edilir. Bu hadisədən sonra ermənilər öz "problemlərinin" həllində yalnız Rusiyanın onlara kömək edəcəyi fikrinə düşürlər və siyasətlərində dəyişiklik edirlər.

1917-ci il inqilabından sonra Qafqazda baş verən hadisələri şərh edən Karibi bolşeviklərin getdikcə fəallaşmasını və bolşeviklərin fövqəladə komissarı Stepan Şaumyanın yara kimi peyda olmasını narazılıqla qələmə almışdır. Azərbaycanlıların silah əldə etmək məqsədilə Şəmkir stansiyasında Rusiyaya gedən əsgərləri tərksilah etməsindən ermənilər satqıncasına istifadə edirlər. Şaumyanın başçılıq etdiyi bolşeviklər əsgərləri Tiflisdə tutub öz məqsədləri üçün istifadə etmək istəyirdilər. Bu məqsədlə əsgərlərə müraciət ünvanlayırlar [13, 103-104]. Ermənilər cəbhədən qayıdan əsgərləri öz siyasətlərinə cəlb etməyə, onların köməyi ilə ərazilər ələ keçirtməyə çalışırdılar. Hadisələrin gedişatı göstərir ki, Qafqaz cəbhəsində olan Rusiya əsgərlərinin bir hissəsi bir müddət ermənilərə kömək etmişdir, lakin onlar getdikdən sonra erməni dəstələri Osmanlı ordusu ilə döyüşdən qaçırdılar. Çünki Osmanlı hökuməti bütün bu prosesləri diqqətlə izləyirdi və yaranan vəziyyətdən istifadə edib hərbi əməliyyatlara başlamış, öz ordusunu Rusiya ilə olan əvvəlki sərhədə hərəkətə keçirmişdi [13, 105, 143-154].

Karibi bu hadisələrin gedişində təşkil edilən Ərzurum konfransından bəhs edərkən Zaqafqaziya seyminin yarısının Osmanlıya meyl edən müsəlmanlardan

ibarət olduğunu, bu səbəbdən də Seymin konfransa göndərdiyi heyətin fəaliyyətinə inanmadığını qeyd etmişdir [13, 105]. Çünki Osmanlı Cənubi Qafqazı Rusiyanın bir hissəsi hesab edirdi və bu səbəbdən Brest-Litovsk müqaviləsini qəbul etməli, müqavilənin şərtlərinə əsasən Qars və Batum vilayətlərini azad etməyi tələb edirdi. Bu məsələ Seymdə müzakirə edildikdə müsəlman fraksiyası hökumətdən ayrılmağı elan etdilər. Karibi bunun səbəbini onların müstəqil Azərbaycan dövlətini elan etmək istəkləri ilə əlaqələndirir. Belə ki, İrakli Çereteli bütün fikir ayrılıqlarını bir tərəfə qoyaraq əldə silah döyüşməyi, hökumətin bütün partiyaları bu yolda birləşdirməyi doğru hesab edirdi. Lakin Müsəlman fraksiyası adından çıxış edən Rüstəmbəyov bütün Qafqaz müsəlmanları, "Müsavat" və "İttihad" partiyalarının müharibəyə qarşı olduqlarını və müharibənin qarşısının alınmasında bütün tədbirləri görəcəyini bildirir [13, 109-111].

**3.3. Türkiyəyə aid məsələlər.** Əsərlə tanışlıq artıq XXI əsrdə bir çox tədqiqatda sübut olunmuş ermənilərin Osmanlıda dövlət əleyhinə fəaliyyətlərinə və mülki insanlara qarşı qətliamlara aid fikirləri bir daha təsdiq edir. Dövrün dövlət xadimlərindən biri olan Karibinin yanaşması maraq doğurur və tarixi mənbə kimi mühüm dəyəri vardır. Əsərin bir neçə fəslində Osmanlı ərazisində yaşayan ermənilərin vəziyyəti, ermənilərin orada əmin-amanlıq şəraitində yaşadıqları, Avropa dövlətlərinin Rusiya və Osmanlı imperiyasını qarşı-qarşıya qoymaq üçün ermənilərdən istifadə etdikləri, ermənilərin təşkilatlanması, silahlanması və yaşadıqları dövlətə qarşı çıxmaları üçün Avropa dövlətlərinin köməyi ətraflı şərh edilmiş, həmin dövrdə bu məsələlərlə əlaqədar baş verən hadisələr təhlil edilmiş, həmçinin baş verənlərə münasibət bildirilmişdir. "Türkiyədə erməni məsələsi" adlı fəsildə Berlin konfransına (1878) qədər "erməni məsələsi"nin mövcud olmadığı, konfransın qərarlarına əsasən Avropa dövlətlərinin ermənilərdən istifadə edərək Osmanlının daxili işlərinə qarışmağı onu parçalamaq və ərazilərini bölüşdürmək məsələləri hərtərəfli açıqlanmışdır. Beləliklə, bu məsələni Avropa dövlətlərinin maraqlarına uyğun olaraq, süni yaradılmış və konfransdan sonra istiqamətləndirilmiş məsələ kimi qəbul etsək, yanılmarıq. Əsərdə göstərilir ki, erməni xalqının siyasi təcrübəsi və milli özünüdərk xüsusiyyətləri olmayan liderləri Avropa dövlətlərinin məhz **"Çoxlu qan tökün və beləliklə Avropa dövlətlərinin köməyi ilə arzu etdiyiniz hər şeyi ala bilərsiz!"** fikrini öz xalqı arasında yaymış, qızışdırılmış erməni millətçiləri təşkilatlanmağa və silahlı basqınlara başlamışdılar [13, 23-25]. Erməni terror təşkilatları da bu dövrdə yaranmışdır. XIX əsrin 90-cı illərində bu məqsədlə yaradılan "Daşnaksütyun", "Hnçak" və "Ermənistan" erməni inqilab partiyaları (bu partiyalar əslində terror təşkilatları idilər) bütün imperiya ərazisində təbliğata və silahlanmağa başladılar. Rusiya və Qacarlar dövlətlərindən gələn erməni silahlıları da yerli əhaliyə qarşı basqınlar törədirdilər. Dövlətin buna qarşı bütün cəhdləri faydasız oldu. Karibi əsərdə ermənilərin Osmanlı imperiyasının erməni silahlılarına qarşı siyasətini tamamilə doğru hesab edir və imperiyanın belə mövqeyini Rusiya, Almaniya və İngiltərə ilə müqayisə edir [13, 20-21, 23-60 v.s.]. Bununla yanaşı, Rusiya ermənilərinin Osmanlıdakı inqilabi hərəkatda

yerli ermənilərdən daha fəal olduqları, hərəkata “rus erməniləri”nin rəhbərlik etdiyi də məlum olur [13, 40].

Əsərdə Fransanın İstanbuldakı səfiri Kambonun erməni məsələsinə mövqeyi diqqəti cəlb edir. Belə ki, o, öz məqsədləri üçün istifadə etdikləri ermənilərin müstəqil dövlət yaratmaqlarını, hətta erməni məsələsinin həllini mümkünsüz hesab edirdi [13, 30-32]. Buradan görünür ki, Osmanlıya qarşı təşkilatlandırdıqları və silahlandırdıqları ermənilərin taleyi onları maraqlandırmırdı. Müəllif bu fikrini əsaslandırmaq üçün kürdlərin və ermənilərin qarışıq yaşadığı Boğazkəsən kəndində və Osmanlı bankında baş verən hadisələri ətraflı şəkildə xatırladır [13, 35-39]. Gürcü inqilab partiyalarının 1905-ci il inqilabından sonrakı təqiblər zamanı mübarizəsini ermənilərlə müqayisə edərək gürcü inqilabçıların günahsız əhalini qoruduğunu, inqilabi fəaliyyətlərinə görə məsuliyyət daşıdıqlarını, erməni liderlərinin isə sadəcə özlərini xilas etdiyini sübut edir.

1914-cü il yanvarın 26-da Osmanlı sultanının islahat layihəsinə əsasən ermənilər yaşayan 6 vilayətə iki general-inspektor təyin edilir. Bu hadisə ermənilərin siyasi muxtariyyət əldə etməsinə ümid yaradır. I dünya müharibəsinin başlaması ilə Üçkilsədə (Eçmiədzin) yerləşən bütün ermənilərin katolikosu V Georq Rusiyanın Qafqaz canişini Voronsov-Daşkova müraciət göndərir. Karibi tarixi əhəmiyyətli sənəd hesab etdiyi 5 avqust 1914-cü il tarixli müraciəti kitabında tam halda təqdim etmişdir. Müəllif, V Georqun Rusiyaya Türkiyə ermənilərini müdafiə etmək barədə müraciətinin onlar üçün hansı nəticələrə səbəb ola biləcəyini təxmin etməklə çox təhlükəli və təxribat xarakterli sənəd kimi qiymətləndirir. Türkiyə erməniləri və daşnaklar arasında bu məsələyə fərqli baxış var idi [13, 45-49]. Rusiya hökuməti də erməni liderlərini Türkiyə ermənilərinin ziyan çəkəcəyi bu addımdan çəkindirirdi [13, 50]. 1914-cü il sentyabrın 2-də Voronsov-Daşkov V Georqa cavab məktubu göndərir. Məktubda Türkiyə erməniləri üçün üsyanların təhlükəli ola biləcəyini, müharibənin Türkiyə tərəfindən başlanmasını doğru hesab etdiyini, onun göstərişlərini gözləməyi bildirir. Həmçinin keşişdən xahiş edir ki, müharibə başlayacağı halda nüfuzundan istifadə edərək həm Rusiya ermənilərinin, həm də Osmanlı ermənilərinin onun göstərişinə hazır olmalarına təsir göstərsin. Əslində Rusiya müharibə başlayanda Osmanlı ermənilərinin işğal zamanı köməklərinə ümid edirdi [13, 51, 56]. Ermənilər isə Osmanlı əleyhinə müharibə iştiraklarına cavab olaraq erməni muxtariyyətinin qurulacağını tələb etməyi düşünürdülər [13, 56-57]. Yaranan vəziyyətdən istifadə edən “Daşnaksütyun” partiyası erməni drujinalarının təşkilinə başlayır. Bu məqsədlə Tiflisdə Milli büro yaradılır. Bütün baş verənlərdən xəbərdar olan Hökumət Osmanlı ermənilərindən prosesin dayandırılmasını xahiş edəndə onlar Rusiya ermənilərinin hərəkətlərinə görə cavabdeh olmadıqlarını bildirirlər [13, 52-55]. Karibi yazır ki, Osmanlı və Rusiya erməniləri düşüncəsiz qərar qəbul edərək günahsız ermənilərin qətlinə səbəb oldular. Qanlı hadisələr baş verərkən bu qərarı verən erməni liderləri Tiflisdə çar II Nikolayın səfəri ilə əlaqədar əyləncələrdə iştirak edirdilər [13, 55].

Van dəstəsinin rəisi Voronsovun 10 sentyabr 1919-cu il tarixli hesabatında

Van vilayətinin işğalından sonra orada bütün təşkilatların ermənilərin əlində olduğunu, xeyriyyəçilik məqsədi adı altında erməni millətçilərinin ideyalarını həyata keçirtdiklərini, rusların pulu ilə əhaliyə edilən yardımların ermənilərin adından təqdim edildiyini, erməni siyasi partiyaları tərəfindən türklərin boş qalmış evlərinə yerləşmək üçün Rusiyadan ermənilərin köçürüldüyünü və digər mühüm məlumatlar əks olunmuşdur [13, 79]. Mənbədə əks olunan bu kimi faktları digər mənbə ilə müqayisə etməklə həqiqətdə nə baş verdiyini aydınlaşdırmaq olar.

Karibi Osmanlının 1918-ci ildə Qafqazda yaranan vəziyyətdən istifadə edərək əvvəlki sərhədlərini bərpa etməsi məsələsinə obyektiv yanaşmış və "Rusiyanın işğal etdiyi bütün vilayətləri demək olar ki, döyüşsüz geri qaytardı, hətta çoxlu hərbi təminat və müxtəlif əmlakı hərbi qənimət kimi əldə etdi" deyərək qələmə almışdır [13, 105]. Həmçinin Ərzurum konfransında Zaqafqaziya seyminin nümayəndələrə verdiyi tapşırıqlara münasibət bildirirək 3-cü və 4-cü bəndləri doğru hesab etmirdi. Belə ki, 3-cü bənddə Rusiya və Türkiyə sərhədlərinin müəyyən edilməsi, 4-cü bənddə isə Şərqi Anadoluda erməni muxtariyyətinin yaradılması məsələsi əks olunurdu [13, 105-106]. Əsərdə həmçinin Trabzon konfransında Osmanlının hərbi üstünlüyü Zaqafqaziya Seymini fakt qarşısında qoyduğu göstərilir. Gürcü nümayəndə heyəti Brest-Litovsk müqaviləsinin qəbul edilməsinə qarşı çıxdığı halda, azərbaycanlı və erməni nümayəndələr bu müqavilənin qəbul edilməsini istəyirdilər. Hətta Xatisov və Kaçaznuni müqaviləni qəbul etmək üçün israr edirdilər [13, 151-153]. Buna baxmayaraq, may ayında ilk dəfə dövlət kimi təşkil edilən Ermənistan hökuməti sonradan bu qərarın verilməsində gürcüləri satqın hesab edirlər. Aralarında fikir birliyi olmayan nümayəndə heyətinin bu iki mövzuda uğur əldə edəcəyi gözlənilmirdi və bu məsələlərin ermənilərin maraqlarına uyğun gündəliyə daxil edildiyi aydındır. Buna baxmayaraq ermənilər gürcü və azərbaycanlılara qarşı düşmən mövqe tutmuşdular.

**3.4.** Karibi kitabda ermənilərin **kürdlərə** qarşı qırğınlarını, kürdlər yaşayan kəndlərin qarət edilməsini və insanların öldürülməsini həyəcanla qələmə almış, kürdlərin bu qədər zülmə məruz qalmalarından Avropa dövlətlərinin xəbərsiz olmasını və onların problemləri ilə maraqlanmadıqlarını ermənilərlə müqayisə etmişdir [13, 66-67].

Müəllif Qacarlar İranının Osmanlı ilə sərhədlərində yaradılan inqilabçı erməni dəstələrinin XIX əsrin 90-cı illərində Osmanlıya keçdiklərini, burada müsəlman əhaliyə qarşı qanlı hücumlara başladıqlarını, ilk hücumun 1894-cü ilin avqustunda Sasunda baş verdiyini, burada kürdləri qətlə yetirdiklərini və beləcə erməni-kürd döyüşləri başladığını yazmışdır. Osmanlı hərbi birliklərinin məsələyə müdaxilə etməsi ilə ermənilər bu dəfə Osmanlı əsgərlərinə qarşı döyüşmüşdülər. Hər zaman yanaşı yaşayan ermənilər və kürdlər arasında yaranan bu qanlı hadisə ermənilərin Avropa dövlətlərinin diqqətini cəlb etmək üçün həyata keçirilmişdir [13, 25-26].

I dünya müharibəsində Qafqaz cəbhəsində ermənilərin ilk qırğınları da

məhz kürdlər yaşayan kəndlərdə həyata keçirdiyini, rus komandanlarının buna qarşı tədbirləri əsərdə təfərrüatı ilə əks olunmuşdur. Ermənilərin qətl və qarətləri Rusiya hərbçilərini belə dəhşətə gətirmişdir. Rusiya komandanlığının mülki insanları qarətlərdən və qətllərdən qoruması, kürdləri öz tərəfinə çəkmə siyasəti ermənilər tərəfindən qəzəblə qarşılanmışdır [13, 61-65]. Buna baxmayaraq, kürd kəndlərinə geri dönən qadın, qoca və uşaqların qətlinə çalışır və əraziləri gələcək dövlətləri üçün boşaltmağa çalışırdılar. Yəni dünya müharibəsinin Qafqaz cəhbəsində Rusiyanın Osmanlıya hücumu və Osmanlı ərazisindəki hərbi əməliyyatlarda ermənilər özlərini söz sahibi, regionun hakimi kimi aparır, Rusiya dövlətinin zabitlərinin qərarları ilə razılaşmırdılar.

Karibi əsərin bir fəslini statistik məlumatlara həsr etmişdir, ermənilərin sayı barədə verdiyi məlumatı Mayevskiyə istinad edir [13, 69-72]. Bu fəsildə Bitlis və Van vilayətlərində əhalinin etnik tərkibi əks olunmuşdu. Müəllif sübut etməyə çalışır ki, ermənilərin özlərinin hesab etdikləri bu ərazilərdə əslində kürdlərin sayı onlardan daha çoxdur. Hətta kürdlərin təsiri o qədər güclüdür ki, ermənilərin kürdlərin arasında öz dillərini unutduqlarını, əksər yerlərdə erməni dilini ancaq keşişlərin bildiyini yazır [13, 72]. Əlbəttə ki, həmin dövrdə baş verən prosesləri əks etdirmək üçün belə bir məlumatı bir mənbə əsasında təqdim etmək etibarlı hesab edilə bilməz.

**3.5.** Müəllif ermənilərin Osmanlının və Rusiyanın **rus** sakinlərinə və **Rusiya dövlətinə** qarşı siyasətinə də öz münasibətini bildirmişdir. Karibi bu mövzunu əhəmiyyətli hesab etdiyi üçün ayrıca bir fəsildə qələmə almışdır [13, 83-93]. Müəllif ilk olaraq ermənilərin, xüsusilə "inqilabi" "Daşnaksütyun" partiyasının Rusiyaya və rus məmurlarına, həmçinin inqilabçılara münasibətinin riyakarlığını, onlarla öz məqsədlərinə uyğun münasibət qurduqlarını yazır. Bu fəsildə təqdim edilən sənədlərin bir hissəsi şərh edilmədən fakt kimi təqdim edir və oxucunun nəticə çıxartmasını istəyir.

Təqdim edilən belə maraqlı sənədlərdən biri N.A.Stolıpinin Voronsov-Daşkova məktubudur. Stolıpin məktubda Varonsov-Daşkovun "Daşnaksütyun" partiyasının qarşısında "əriməyini" pisləyərək partiyanın ermənilərin böyük əksəriyyətini öz ətrafında birləşdirdiyini, 1907-ci il hadisələrində polis funksiyasını öz üzərinə götürdüyünü, ermənilər üzərində məhkəmə və inzibati hakimiyyətə malik olduğunu, tatarlara (azərbaycanlılara) qarşı mübarizə adı ilə pul toplayıb silah aldıqlarını və istehsal etdiklərini, öz həbsxanalarını yaratdıqlarini yazır. Bu məktub Rusiya məmurlarının da ermənilərin özbaşınalıqlarını və dövlətin daxilində öz hakimiyyətlərini qurduqlarını, yaranan vəziyyətin dövlətin əleyhinə olduğunu gördüklərini sübut edir [13, 85].

Karibi fikrinə davam edərək yazır ki, "Daşnaksütyun" partiyası ikiüzlü siyasət yeridir, bir tərəfdən üzünü Rusiya imperiyasına, digər tərəfdən ümumdünya fəhlə internasionalına tuturdu. Lakin artıq vəziyyət dəyişmiş və partiyanın Paris sülh konfransı zamanı öz həqiqi inqilabçı simalarını göstərməkləri münasib deyildir, çünki xalqların taleyi meydanlarda deyil, sülh konfransında həll edilirdi [13, 85]. Bu səbəbdən də, sülh konfransında təcili simalarını dəyi-

şir, "Biz Rusiya ilə ittifaqda olduğumuz üçün əziyyət çəkmişik və həmişə Rusiyanı və onun müttəfiqlərini sevmişik. Buna görə də indi sizin lütfünüzdən faydalanmağa icazə verin" xətti götürürlər [13, 86].

Ermənilər "Qırmızı kitab"da yazılar ki, gürcülər və tatarlar (azərbaycanlılar) öz aralarında ittifaq yaradıblar və bir-birini müdafiə edirlər. Onlar Rusiyaya və onun müttəfiqlərinə xəyanət ediblər. Təkcə ermənilər böyük müttəfiqlərinə sadiq qalmışlar [13, 15]. Bununla da, ermənilər özlərini Qafqazda Rusiyanın əsas tərəfdaşı kimi göstərir, digər xalqların düşmən olduğunu inandırmağa çalışırdılar.

Ermənilərin Rusiya dövlətinə, rus bürokratiyasına olan münasibət öz milli maraqlarına uyğun olmuşdur və bu münasibət rus xalqına aid deyildir. "Daşnaksütyun" partiyasının dünyada Rusiyaya olan sevgisini göstərdikləri dövrdə rus kəndliləri Ermənistanda sıxışdırılır, başqa ölkələrə üz tuturdular.

Ermənistandan başqa ölkələrə qaçan rusların bir hissəsi Qacarlar dövlətinə üz tuturdu. Karibi yazır ki, din, mədəniyyət, siyasi baxımdan ruslar üçün heç bir ümumi tərəfi olmayan ölkəyə getmələrinə səbəb rusların Azərbaycandakı vəziyyəti idi. Belə ki, müsəlman Azərbaycanda ruslar xristian Ermənistandan daha yaxşı yaşayırdılar. Müəllif nümunə kimi Lənkəran qəzasını göstərir [13, 91].

Karibi bu fikirlərinə sübut kimi Ermənistan Demokratik Respublikasında yaşayan rus əhalisinə münasibəti faktlarla təqdim edir. Bu faktlardan biri Zaqafqaziya Rus Milli Şurasının materiallarıdır. Həmin sənədlərdən birində rus kəndlilərinin vəziyyətinin Ermənistanda siyasi və iqtisadi sahədə ağır olduğu, millətçi ehtiraslara məruz qalması, bir çox rus kəndlərinin daşına qədər dağıdıldığı, ev təsərrüfatlarının, mal-heyvanlarının, qidaların, əkin sahələrinin ermənilər tərəfindən mənimsənilməsi göstərilir. Sənəddə qeyd edilir ki, erməni hərbi hissələri, xüsusilə Şuşa alayı tərəfindən rus əhalisinə böyük ziyan vurulmuşdur. Türklər yaşayan ərazilərdə isə ruslar daha az ziyan çəkmişlər [13, 87].

Bu mövzuda təqdim edilən digər material Cənubi Qafqazda yaşayan rusların II qurultayına aiddir. Materialda 1918-ci ildə Rusiya ordusunun Qafqaz cəbhəsindən çəkilməsi ilə eyni zamanda rus əhalisinin müdafiəsiz qaldığını görən ermənilərin onları sıxışdırmağa başladıqları, onlara aid torpaqları öz aralarında böldüklərini, mal-heyvanı mənimsədiklərini, qarətlərlə və təhdidlərlə rusları əllərində olanları dəyər-dəyməzə satmağa məcbur etdikləri, Ermənistan hökumətinin ruslara qarşı özbaşınalığı əks olunmuşdur.

1919-cu il 4 iyun tarixli qurultayın materiallarında 1918-ci ilin mart ayında Yeni Bəyazit qəzasında və Yeni Dilicanda yaşayan rus kəndlilərinə qarşı hücumlar və qarətlər rəqəmlərlə əks olunmuşdur [13, 88-89].

Rusların yaşadığı Mixaylovka kəndində kəndlilərin bağları, Borisi kəndində bağları və torpaqları əllərindən alınmış, Frezovo, Alekseevka, İ.İvanovka, İ.Saratovka, Yelizavetino, Fillipovka, Sunjinsko, Xankəndi, Vasilyevka kəndlərində bütün əhali qarət edilmiş, Slavyanka, İ.Qoreloe, İ.Spasovka, Mixaylovka kəndlərində mal-heyvan aparılmış, torpaqların bir hissəsi kəndlilərin əllərin-

dən alınmışdır [13, 89-90].

Karibi ermənilərin bu vəziyyətini Türkiyədə kürdlərin erməni kəndlərində etdikləri ilə eyniləşdirir. Kitabın həmin fəslində rusların Gürcüstandakı vəziyyətinin digər millətlərin vəziyyətindən fərqlənmədiyini, yəni milli ayrı-seçkiliyin olmadığını yazır.

Müəllif erməni-gürcü müharibəsi zamanı Borçalı qəzasında əhaliyə dəymiş ziyanın ödənilməsi üçün Gürcüstan hökumətinin fərmanının mətnini təqdim edir [13, 93]. Bu sənədin milli məsələlərlə əlaqədar göstərilməsi Borçalı qəzasında yaşayanların gürcü olmayan əhaliyə münasibəti göstərmək üçündür. Məlumdur ki, Borçalı tarixi Azərbaycan ərazisidir və həmin müharibənin səbəbi azərbaycanlılara aid torpaqların bölüşdürülməsi idi.

Maraqlıdır ki, müəllif hələ 1919-cu ildə qısa müddətdə Ermənistanın mono etnik dövlət olacağını görürdü.

**Yekun.** Yekunda belə qərara gəlmək olur ki, elmi ictimaiyyətə çox da bəlli olmayan bu kimi tarixi mənbələrin dövriyyəyə daxil edilməsi ilə, xüsusilə xaricdə dərc edilən elmi materiallarda belə əsərlərə üstünlük verməklə erməni saxtakarlarını ifşa edib beynəlxalq aləmə haqq səsimizi obyektiv şəkildə çatdıra bilərik. Araşdırma zamanı türk-müsəlman olmayan müəlliflərin əsərlərinin tarixşünaslığımızda elmi dövriyyəyə daxil edilməsi, xüsusilə xaricdə dərc edilən əsərlərdə onlara istinad edilməsi erməni millətçilərinin Qafqaz xalqlarına düşmənçiliyinə obyektiv yanaşmaq üçün əsas yaratdığı bir daha sübut olunur.

Bunlarla yanaşı, bu kimi əsərlərə tənqidi yanaşılmalıdır, digər mənbələrlə müqayisə edilməlidir.

Müəllifin verdiyi faktlar təsdiq edir ki, ermənilər onlarla yaşayan qonşu xalqlara qarşı düşmən münasibət bəsləyir, müsəlman əhaliyə - türklərə və kürdlərə qarşı soyqırımı keçirirdilər. Bu münasibət ermənilərin regiona gəlmə olduğunu sübut edir, çünki min illərlə birlikdə yaşayan xalqlar arasında bir-birinə qarşı belə münasibət görülməmişdir. Bu kimi əsərlər ermənilərin Osmanlıda və Qafqazdakı soyqırımı və terror siyasətinin arxasında Rusiya, İngiltərə, Fransa və Almaniya dövlətlərinin olduğunu sübut edir. Tarix boyu güclü dövlətlərdən asılı olan, başqa dövlətlərin maraqlarına xidmət edən ermənilər qonşu xalqlara qarşı düşmənçilik siyasətləri ilə öz xalqlarına qarşı ən böyük zərbə vurmuşlar. Bəzi erməni müəllifləri əsərlərində bu mövzunu hərtərəfli açıqlayırlar. Belə materialların əksəriyyəti Qafqaz Hərbi Dairəsinin arxivində saxlanan materiallar əsasında yazılmışdır və tarixçilər üçün bu mövzuların tədqiqi baxımından əhəmiyyətlidir. Düşünürük ki, bu hadisələrə Gürcüstan hökumətinin nümayəndəsinin baxışı tədqiqatçılar üçün maraqlı olar.

Bu materialların ictimaiyyətə çatdırılması təkcə erməni faşizmini ifşa etmir, eyni zamanda bu ideologiyanın Qafqaza yad olmasını sübut edir, erməni millətçilərinin etnik təmizləmə və soyqırımından əziyyət çəkən xalqların onlara qarşı mübarizəsini göstərir. Qafqaz xalqlarının dövlətçiliyini, mədəniyyətini, abidələrini və torpağını saxta sübutlarla mənimsəmək həmin toplumu bu torpaqların sahibi etmir. Sülh içində və başqalarına hörmətlə yaşayanlar, qurub

yaradanlar və bölgənin inkişafına töhfə verənlər bu torpaqların sahibləridir.

## Ədəbiyyat siyahısı


1. *Baykara H.. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, Azərnəşr, 1992. - 276 s.*
2. *Bolat M.A.. Yeni Türkiye İçin Kars Antlaşmasi'nin Önemi. 267-306 / Adam Academy Journal of Social Sciences, 9 (2), (2019). DOI: 10.31679/adamakademi.449827 // https://dergipark.org.tr/tr/download/article-file/925953*
3. *Esedov M. Cavahetiya'daki Ermeni azinlik sorununun Türkiye-Gürcistan ilişkilerine etkisi. // Türk-Ermeni İlişkilerinin Bölgesel Politikalara Etkisi (19.yüzyıldan Günümüze) Uluslararası Sempozyumu (2016:Bitlis). International Symposium on the Effects of Turkish-Armenian Relations on the Regional Policies (From 19th Century to Present Day) (2016:Bitlis). Ankara, Atatürk Araştırma Merkezi, 2017. S.143-165*
4. *Karibi. Gürcü Devleti'nin Kırmızı Kitap'ı Ermeni İddialarına Yanıt. İstanbul, Kaynak yayınları, 2007; 2021, 125 s.*
5. *Kop Y.. Tarihi Seyir ve Eğitimsel Bazda 1915 Ermeni Olaylarına İlişkin Literatür Üzerine Genel Bir Analiz . s.121-134 21. / Yüzyılda Eğitim Ve Toplum Eğitim Bilimleri Ve Sosyal Araştırmalar Dergisi, 5 (15) 2016. // https://dergipark.org.tr/tr/download/article-file/369215*
6. *Mehmet Perinçek. Boryan'in Gözüyle Türk-Ermeni Çatişması. İstanbul, Analiz Basım Yayın, 2012*
7. *Mehmet Perinçek. İki Gürcü Siyasetçinin Ermeniler ve Taşnaklara Bakışı. // https://turksandarmenians.marmara.edu.tr/tr/iki-gurcu-siyasetcinin-ermeniler-ve-tasnaklara-bakisi/ Müraciət tarixi: 05.08.2021*
8. *Mehmet Perinçek. The 1915 Events In The Light Of The Russian Archives And International Court Decisions. / Review of Armenian Studies. 2018, 117-148 // https://dergipark.org.tr/en/download/article-file/838751. Müraciət tarixi: 05.08.2021*
9. *Nazim Mustafa. Ruslara qarşı terror // https://genocide.preslib.az/az_c5.html Müraciət tarixi: 25.05.2022*
10. *Вердиева Х. Переселенческая политика Российской империи в Северном Азербайджане: XIX - начало XX вв.: историко-демографическое исследование. Баку, Ecoprint, 2016, 420 стр.*
11. *Изория Марина. Политика «Дашнакцутюна» в 1917-1920 гг. / International scientific journal "Law and Politology". N23. 2013. Стр.45-51 // https://ibn.idsi.md/sites/default/files/imag_file/45_51%20Politika%20_dashnaktsutyuna_%20v%201917-1920%20gg.pdf*
12. *История Азербайджана по документам и публикациям. Под ред. З.М.Буниятова. Баку, Элм, 1990,384 с.*
13. *Кариби. Красная Книга. Баку, Азернешр, 2013, 200 стр.*
14. *Качазнуни О. Дашнакцутюн больше нечего делать. Баку: Элм, 1990, 89 с.*
15. *Перинчек Мехмет. Армянский вопрос в документах из российских государственных архивов. Москва, Лаборатория Книги, 2011. - 256 с., ил. Pdf.*
16. *Ягуб Ягубов. Отношения между властью и политическими партиями, к организациям в Республике Армении на фоне внутриполитических процессов. с. 151-160 / Этносоциум №1 (67) 2014 //http://www.etnosocium.ru/sites/default/files/etnosocium_mag/201401-mag.01.pdf*

**UOT 82**

# KUZEY AZERBAYCAN'DA GÜNEY AZERBAYCAN MÜHACİRLERİNİN KLASİK AZERBAYCAN EDEBİYATINA ETKİSİ

**İRADƏ VƏZİROVA**
*Azerbaycan, AMEA Mehemmed Füzuli adına Elyazmalar İnstitutunun "Farsdilli Elyazmalarının Tatkiki" Şubesinin büyük elmi işçisi*
*irada_ff@mail.ru*

**GÜNAY ÇATALKAYA**
*Türkiye Cumhuriyeti, Marmara Üniversitesi, Türk Dili ve Edebiyatı Bölümü, Eski Türk Edebiyatı Bilim Dalı Doktora Öğrencisi*
*semsgasimova@gmail.com*

*Tarih boyunca Azerbaycan'ın defalarca parçalanması, Azerbaycan halkının maddi ve manevi ezilmesinin yanında Azerbaycan kültürünün de bütün dünyaya dağılmasına sebep olmuştur.*

*Azerbaycan toprakları bölündükçe, başka sınırlar içerisinde yer almaya başlayan Azerbaycan topraklarına doğru muhacirat yaygın hale gelmiştir. Bu topraklar Azerbaycan toprağı iken başka sınırlar içine dahil edildiği için ve Azerbaycan Türkleri başka bir sınıra geçtiği için muhacirat ve muhacir kavramları onlar için kendi toprakları içerisinde kullanılan bir kavram olmuştur.*

*Azerbaycan topraklarında muhacirat denilince akla gelen en büyük olay, Rusya ve Kaçarlar arasında meydana gelen savaşlar sonucu Gülistan (1813) ve Türkmençay (1828) antlaşmalarının imzalanmasıdır. Bu antlaşmalar sonucu Azerbaycan'ın kuzey'ı Rusya güney'i Kaçarlar arasında bölüşdürülmüştür. Geçen bunca yıla rağmen Güney ve Kuzey Azerbaycan, siyasi, iktisadi ve kültürel ilişkilerini devam ettirmiştir.*

*Çalışmamızda Klasik Azerbaycan tarihi, Gülistan Antlaşması'nın ardından Güney ve Kuzey Azerbaycan'da baş veren olaylar ve bu olayların doğurduğu sonuçlar ve aralarında var olan edebi ilişkiler incelenecek ve günümüzde klasik Azerbaycan edebiyatının güçlü altyapısına sahip olmasında Azerbaycan ediplerinin etkisi araştırılacaktır.*

*Çalışmanın devamında, Mir Celal, Gulam Memmedli, Gafar Kendli, Balaş Azeroğlu gibi edip, pedagog ve düşünürlerin Kuzey Azerbaycan edebiyatındaki etkisi ve onların bu edebiyata gösterdiği çabalar incelenecektir.*

***Anahtar Kelimeler:*** *muhacirat, Güney Azerbaycan, Kuzey Azerbaycan, klasik Azerbaycan edebiyatı, Güneyli aydınlar*

## *THE EFFECT of SOUTH AZERBAİJAN İNTELLECTUAL REFUGEES in NORTH AZERBAİJAN*

*Throughout the history of Azerbaijan, its territory was repeatedly divided, as a result, the country faced material and moral losses, and the Azerbaijani people suffered from these endurably.*

*As the Azerbaijani lands entered the borders of other states, and the Turks of Azerbaijan became citizens of other countries, the concepts of emigration and immigrant started to be ap-*

*plied to them at their own lands. With regards to the topic of emigration, the biggest event that comes to mind is the signing of the Treaties of Gulistan and Turkmanchay after the end of the war between Russia and Qajars. The result of this agreement was that the north of Azerbaijan went to Russia, and the south of Azerbaijan passed to Qajars. Despite this, for so many years, North and South Azerbaijan have continued political, economic and cultural cooperation.*

*In our study, the literary relations between South and North Azerbaijan after the Gulistan peace treaty will be examined and the influence of strong basics of Azerbaijani classic literature today will be investigated.*

*In the continuation of the study, the influence of edips, pedagogues and thinkers such as Mir Jalal, Ghulam Mammadli, Gafar Kendli, Balash Azeroglu in the literature of North Azerbaijan and their efforts in this literature will be examined.*

***KeyWords:** migration, South Azerbaijan, North Azerbaijan, Clasical Azerbaijani literature, Soutern intellectuals*

**Giriş.** Tarih boyunca Azerbaycan'ın defalarca parçalanması, Azerbaycan halkının maddi ve manevi ezilmesinin yanında Azerbaycan kültürünün de bütün dünyaya dağılmasına sebep olmuştur.

Orta asırlardan itibaren Azerbaycan halkının en görkemli zeka sahipleri hakim dairelerin kurbanı olmuştur. Farklı siyasi olaylar sebebiyle farklı ülkelere yüz tutan mutasavvıf ve mütefekkirlerimiz sırasında tarikat şairlerinin sayısı az olmamıştır. Allah'a olan alevli aşkını Azerbaycan'dan Şam'a kadar taşıyan Nesimi'nin ve Halvetiye tarikatının şeyhi İbrahim Gülşeni'nin Kahire'ye götürdüğü Halvetilik düşünceleri buna örnek olabilir.

Orta çağlardan bu yana Tebriz, Derbent, İrevan, Borçalı, Şamahı ve gibi önemli kültür merkezleri olan Azerbaycan şehirleri, bir zamanlar aynı sınır içinde iken günümüzde birbirinden ayrı düşerek farklı sınırlar içinde yer almaktadır. Bu durum, Azerbaycan Türklerinin toprak kaybının yanında, maddi ve kültürün de dağılmasına yol açmıştır. Yüzyıllardır Azerbaycan halkına yol gösteren Azerbaycan edip ve aydınlarının eserlerinin orijinallerinin elimizde olmaması (Nesimi, İbrahim Gülşeni vb. aydın ve şairlerimizin elyazmaları) ve bu elyazmaların dünyanın farklı kütüphane ve müzelerinde (Vatikan, Upsala, London,Topkapi v s.) yer alması bizim manevi kayıplarımıza örnektir.

Azerbaycan toprakları bölündükçe başka sınırlar içerisinde yer almaya başlayan Azerbaycan topraklarına doğru zorunlu göç yaygın hale gelmiştir. Bu topraklar, Azerbaycan toprağı iken başka sınırlar içine dahil edildiği için ve Azerbaycan Türkleri başka bir sınıra geçtiği için muhacirat ve muhacir kavramları onlar için kendi toprakları içerisinde kullanılan bir kavram olmuştur.

Muhacirat[1] dediğimiz zaman akla gelen en büyük olay, Rusya ve İran arasında olan savaşlar sonucu Gülistan antlaşmasının imzalanmasıdır. Bu antlaşma sonucu Azerbaycan'ın Kuzey'ı Rusya'ya, Güney'i Kaçarlar'ın hökmüne keçmiştir. Geçen bunca yıla rağmen Güney ve Kuzey Azerbaycan, siyasi, iktisadi ve kültür ilişkilerini devam ettirmiştir. Nitekim Abaskulu Ağa Bakıhanov-

[1] Muhaciratın sözlük anlamı ülkesinden göç etmek anlamındadır. Azerbaycan Türkçesinde muhacirat kavramı yaygın olduğu için makalede bu kavram tercih edilmiştir.

’un, Mirza Kazımbey’in Fars dilinin tatkiki ile ilgili yaptığı araştırmalar, M.F.Ahundov’un Mirza Mülküm Han Nizamüddevle ile kurduğu edebi ilişkileri, Mirza Ağa Tebrizi’nin M.F.Ahundov’un tavsiyeleri üzerine ve onun eserlerinin etkisiyle dram eserler yazması Güney ve Kuzey Azerbaycan’ın ayrılmaz bir bütün olduğunu göstermektedir. Gülistan antlaşması sonrası Meşrute Devrimi de Kuzey Azerbaycan’da kendine has yer tutmaktadır. M.A.Sabir’in yaratıcılığında Meşrute İnkilabı’nın yeri, Molla Nasreddin dergisinde bu devrime yer verilmesi Güney ve Kuzey Azerbaycan’ın sözde Gülistan Antlaşmasıyla ayrılmasından etkilenmediğini göstermektedir. Şüphesiz Hüseyn Cavid, Muhammed Ağa Şahtahtlı, Sıdki Ruhulla, Abbas Mirza Şerifzade, Memmedrza Vaizzade, Hidayet Bey Tarverdiyev gibi önemli düşünürlerin Azerbaycan Türkleri için inkar edilemez bir yeri vardır [19, s.8-9].

Bir bütün olarak kendi varlığını sürdürmek isteyen ve bu yüzden Güney’de İran, Kuzey’de Rusya’ya bağlı olan Azerbaycan, Gülistan Antlaşması sonrası kendi bütünlüğünü tekrar elde etmek için birçok harekata teşebbüs etse de maalesef bir sonuca ulaşamamış ve gerçekleşen bazı siyasi olaylar sonucunda birçok darbe almıştır. Bunun en bariz örneği, 1946 senesinde meydana gelen “21 Azer Hadisesi”dir. Bu politik olaylardan dolayı Güney Azerbaycan’dan Kuzey Azerbaycan’a göç başlamış ve Kuzey’e göç eden birçok muhacirin Kuzey Azerbaycan’da faaliyetleri özeliikle muhacir ediplerin Klasik Azerbaycan Edebiyatı’nda yeri tartışılmazdır. Zira bu durum; - Kuzey Azerbaycan, akademik edebiyat araştırmaları açısından her ne kadar edebi altyapısını elınde tutsa dagüneyden gelen yazarların ve aydınların bu altyapı uzerindeki dönüştürücü etkisi gözden kaçırılmayacak kadar önemlidir. Klasik Türk Edebiyatı alanına ait belagat, aruz ve dil bilgisine sahip Güneyli edipler, faaliyyetlerini Azerbaycan’da sürdürmüş ve Sovyet Rusyası boyunduruğu altında olan Kuzey Azerbaycan’ın kendi Klasik Türk Edebiyatı’nda var olan altyapısını unutturmayacak işler ortaya koymuşturlar.

Çalışmamızda Klasik Azerbaycan tarihine genel bakış, Gülistan Antlaşması’nın ardından Güney ve Kuzey Azerbaycan’da baş veren olaylar ve bu olayların doğurduğu sonuçlar ile aralarında var olan edebi ilişkiler incelenecek. Günümüzde Klasik Azerbaycan Edebiyatı’nın güçlü altyapısına sahip olmasında Güneyli Azerbaycan ediplerinin faaliyetleri sunulacaktır.

***Klasik Azerbaycan Edebiyatının Tarihi ve Gelişimi***. Klasik Türk Edebiyatının tarihi gelişimini düşündüğümüzde Türklerin İslamiyet’i kabülünden itibaren Türk Edebiyatında yeni bir dönem başladığını görebiliriz. Klasik Türk Edebiyatı dediğimiz bu dönem yaklaşık altı yüz yıllık bir zamanı kapsayarak Türk edebiyatındaki etkisini bugüne kadar sürdürmüş; Arap ve Fars edebiyatı etkisiyle halk edebiyatı kültüründen de tamamen kopmayarak kendine özgü çalışmalar ortaya çıkarmıştır.

İslamiyet’in kabülüyle VIII. yüzyıldan itibaren başlayan değişimler ve bu değişimlerin Türk edebiyatında zaman zaman ilerleyişi henüz hakkıyla incelen-

miş değildir. İslamiyet'in kabulünde ilk değişiklik inanç bazında olmuş ve fazla teferruata girilmeyen basit bir müslümanlık, Türk Edebiyatını yeni bir renge boyamıştır. Örneğin eski destanlar İslamiyet'in genel esaslarına göre yeniden yazıya geçirilmiş ve yeni yazılan eserlerde ise Müslüman inanış hakim olmaya başlamıştır. Müslüman inanışın hakim olduğu yeni eserlerde ise Farsça ve Arapça, Türk edebiyatında boy göstermeye başlamıştır [59, s.40].

İslamiyet etkisinde olan edebiyat tarihine baktığımız zaman, Türkler yaygın bir şekilde müslüman olmadan önce Araplar ve Farslar, İslamiyet'in kültür ve edebiyatını kurmuş ve onlar tarafından bu yönde eserler yazılmıştır. Abbasi Hilafeti, bu iki milleti ortak ülkülü bir imparatorluk haline getirmiş, Farslar, İslamiyet etkisiyle birçok dini ve entelektüal çalışmalarını, Müslüman toplumun din ve ilim dili olan Arapça ile yazmış ve hatta Farsça'yı da Arapça'nın yanında müslümanlığın ikinci bir dili haline getirmişlerdir. Türkler de İslamiyet'i kabülünden sonra müslümanlığın getirdiği dini ve kültürel birlik içine girerek ortak ülküyü kabul edince İslami-Arap ve Fars ilmi üzerine kurulmuş medreselerde eğitim gören Türk alimleri, dini-fikri ve edebi eserlerini ilk önce Arapça yazmaya başladılar. XI-XII. yüzyıldan itibaren ise kültür ve edebiyat dili olarak Arapça'yı gölgede bırakacak derecede gelişen Farsça ile de çeşitli fikri, dini ve edebi eserleri meydana getirmeye başladılar [59, s.43]. Böylece İslami Türk Edebiyatı tarihinde ilk eserlerini Arapça yazmaya başlayan Türk alimleri, zamanla Farsçaya üstünlük vermiş ve Arapça yerini tedricen Farsça'ya bırakmıştır. Arap ve Farsça'nın hakim olduğu Türk edebiyatında aruz vezni ve nazım şekilleri de kullanılmaya başlanmış ve Türkçe, bünyesinde yeni Arapça ve Farsça kelimeler barındırarak yeni bir dönem başlatmış. Bu yeni akımla Azerbaycan edebiyatı tarihine baktığımız zaman VII. yüzyıldan itibaren Araplar tarafından işgal olunan Azerbaycan topraklarında İslamiyet'in yayılmasıyla medreselerde eğitim Arapça olmuş ve bunun sonucunda bu topraklarda yetişen alimler ilmi ve bedii eserlerini Arapça yazmaya başlamıştır [52, s.26].

X ve XI. yüzyıllarda Selçuklu yönetimi altındaki Oğuzlar, Azerbaycan'a yaptıkları göç dalgalarıyla bölgede Türk nüfusunun güclenmesine neden olmuşlar. Bu süreç XV. yüzyıla kadar sürmüş ve sırasıyla İlhanlı, Karakoyunlu ve Akkoyunlu devletlerinin hükümranlık dönemlerinde de Orta Asya'dan bölgeye göçler devam etmiştir. Azerbaycan Türklerinin Fars kültürü ve edebiyatıyla karşılaşmaları da bizi söz konusu sürece götürmektedir [9, s.268]. Dolayısıyla yukarıda belirttiğimiz gibi XI. yüzyıla kadar Azerbaycan topraklarında Arapça ön planda iken X-XI. yüzyıllarda Selçuklu yönetimi altında başlayan göç dalgasıyla Arapça yerini büyük ölçüde Farsçaya bırakır.[2] Türkçe ise Azerbaycan sahasında İzzeddin Hasanoğlu tarafından XIII. yüzyılda kendini gösterir. Sonuç olarak Azerbaycan edebiyatı, Arapça, Farsça ve Türkçe olarak üç

---

[2] Kaynaklarda Azerbaycan sahasında ilk Farsça yazan şair Katran Tebrizi olarak geçmektedir. Ayrıntılı bilgi için bkz.: 52

dilde fikri, ilmi ve edebi eserleriyle kültürel bir bütünlük ve çeşitlilik içinde sonsuz bir derya haline gelir.

Cemil Doğaç İpek "Güney Azerbaycan Türklerinde Kimlik Sorunu" araştırmasında dil konusunu şöyle anlatıyor: *"Akkoyunlu Devleti ardından 1501 yılında Safevi Devleti'nin kurulmasıyla Azerbaycan topraklarında bölge halklarının kimliği büyük ölçüde değişime uğramıştır. Bugün Safevi Devleti, Azerbaycan Türkleri tarafından "Azerbaycan Hanedanı" olarak isimlendirilmekte ve kendi kimliklerinin önemli sembolü olarak görülmektedir. Ancak Safevi Devleti'nin başa geçmesinden yaklaşık iki yüz yıl süren Türk ve Türklük hükümranlığının son yıllarında bu devlette bürokratikleşme harekatı ve başkentin Tebriz'den Isfahan'a taşınması sebebiyle Türkmen özellikleri, yerini artık Farslaşmaya bırakmıştır. Hanedan ve saray yaşantısı, Türklük özelliğini korumasına rağmen devlet kademelerinde bürokrasiyi iyi bilen Fars asıllı memurlar yer almaya başlamış ve bu devlet içerisinde Türk-Fars geriliminin ilk tohumları atılmıştır.*"[9, s.269].

Sonuç olarak VII. yüzyıla Arapça ile XI. yüzyılda Farsça ve XIII. yüzyılda Türkçe ile başlayan İslami Dönem Azerbaycan edebiyatında yaklaşık bin iki yüz yıllık Arapça ve Farsça ve altı yüz yıllık İslami Türkçe ile etkisini XIX. yüzyıla kadar sürdürmüş ve XIX. yüzyılda bu dönem geride koca bir edebiyatı bırakarak sona ermiştir.

Geride bıraktığımız yüzyıllarda kültürel, dini, sosyal, tarihi ve edebi Arapça, Farsça ve Türkçe çalışmalarımız bize miras bırakılmıştır. Fakat yenilenme yahut Batılılaşma dönemi, Türkler; dil, alfabe ve kültürel olarak değişime gitmiş ve bu değişim, geride bırakılan metinlerin tozlu raflarda kalmasına sebep olmuştur.

Azerbaycan Türkçesi ve Edebiyatı tarihine baktığımız zaman bu süreci iki kolda incelemek gerekir. Şöyle ki Gülistan ve Türkmençay Antlaşmalarıyla ikiye bölünen Azerbaycan, sadece coğrafi olarak ikiye bölünmemiş, siyasi, tarihi, edebi ve kültürel olarak her bakımdan bu parçalanmadan etkilenmiş ve bu durum; Azerbaycan tarihini, edebiyatını ve kültürünü değerlendirme açısından da önemli rol oynamıştır. Bu sebepten asıl konumuz olan Güneyli soydaşlarımızın faaliyetlerini söylemeden önce Azerbaycan'ın parçalanma sürecine, Kuzeyde ve Güneyde yaşanan olaylara ve her iki cephede meydana gelen olayların birbiriyle bağlantısına göz atalım.

***Azerbaycan'ın ikiye bölünmesi.*** Nadir Şah'ın öldürülmesinden sonra Azerbaycan'da siyasi birlik kurulmamış ve bu birliğin olmaması sonucunda Azerbaycan'ın siyasi tarihinde "Hanlıklar Dönemi" olarak bilinen bir dönem başlamıştır. XIX. yüzyılın başlarında Azerbaycan coğrafyasına ve topraklarına hakim olma mücadelesini Rusya kazanmıştır. 1813 senesinde imzalanmış Gülistan antlaşmadan sonra toprak bütünlüğünü tekrar sağlamak sebebiyle yönetimde bulunan Kaçar Hanedanı, İngiltere ve Fransa ile işbirliği içine girmiş ve Rusya'ya karşı saldırıya geçmiştir. Saldırının ilk başlarında başarı kazanır gibi

görünen Kaçarlar, daha sonra mağlubiyete uğramış ve Rusya, Revan'ın ardından da Nahçıvan'ı da ele geçirmiştir. Yapılan yenilgiler ardından 1828 senesinde Türkmençay Antlaşması imzalanmıştır [44, s.188]. Fakat yapılan her iki antlaşma, Azerbaycan topraklarında olmasına rağmen, Azerbaycan Türklerinin antlaşmada hiçbir söz hakkı olmamıştır. Böylece Azerbaycan'ın etnik ve dini yapısının şekillenmesi ve bugünkü halini almaya başlaması Türkmençay Antlaşmasıyla olmuş ve bugüne kadar gelmiştir, diyebiliriz.

Aras Nehrinin kuzeyinde kalan kısmın Çarlık Rusya'sına, Azerbaycan nüfuzunun çoğunluğunu içeren bölgenin İran'a bırakılmasıyla oluşan bu parçalanma, her iki tarafta kalan Azerbaycan Türklerinin hafızalarında kötü bir yer teşkil etmiştir. Her şeye rağmen Kuzey ve Güney arasındaki sınır, iki grubun etkileşimde bulunmalarına engel olmamış, yaklaşık iki asırlık bir dönemde baş veren her bir olaya rağmen Tebriz ve Bakü arasında gerçekleşen ticari faaliyetlerin yanında kültürel alışveriş devam etmiştir [9, s.270].

***Kuzey Azerbaycan.*** Rusya'nın hakimiyeti altına geçen Kuzey Azerbaycan'da "Hanlıklar Dönemi" son buldu. Hanlıkların yerine eyalet ve daireler oluşturuldu. Oluşturulan eyalet ve dairelerin başına ise çar zabitleri getirildi. Devlet idarelerinde Rus dilinin aktif kullanılması gittikçe yaygın hale getirildi. Böylece Azerbaycan Türklerinin kendi dilli ve kimliği üzerinde hak sahibi olma gibi bir durum ortadan kalktı [4, s.11-12].

XX. yüzyılın başlarında Azerbaycan'ın kısa bir bağımsızlığının ardından tekrar Sovyetler Birliği adı altında Rusya tarafından işğali Azerbaycan Türklerinin yine aynı şekilde – dil ve kimlik üzerinde hak sahibi olamamasına neden olmuştur.

İlk önce Çarlık Rusyası ve peşinden gelen Sovyetler Birliğinde yürütülen siyaset, Kuzey'de Azerbaycan Türklerinin kendi kimliklerini unutturma sürecinin başlamasına neden olmuştur. Bu süreç; ilk başta dilde, edebiyatta ve kültürde kendi değişimini ortaya koymaktadır. Dilde sadeleşme ve harf devrimi adı altında geride kalan bir dönemi unutturmak amacı güden ve beraberinde getirdiği değişimlerle Azerbaycan tarihini, kültürünü ve edebiyatını nasıl etkileyeceğini düşünmeden yeni bir döneme geçmiştir. Gerçi bu değişimin de asıl amacı bin yıllık tarihimizi geride bırakmaktır. Bu tarihi geride bırakmak için ilk hedef harf inkılabı yapmaktı. Böylece devrimle bin yıllık bir dönemin harflerini ve dilde sadeleşme ile de Türkçede var olan Farsça ve Arapça geride bırakılmış ve yüzümüz Batı'ya dönmüştür.

Altı yüz yıllık büyük bir dönemin ardından siyasi gelişmelere baktığımızda sadece Azerbaycan değil; diğer Türk halkları da yeni bir sürece girer. Gelişen siyasi süreç her dönemde olduğu gibi edebiyatı da etkisi altına almıştır ve Türk Dünyasında XIX. yüzyılda yeni bir dönem başlamıştır. Öz Türkçeyi kullanma çabası ve harf devrimi bu durumun kökten değişimine sebep olmuştur. Şiir veya edebiyat tarihine baktığımızda devlet sistemi ile eşdeğer değişen bir düzen olduğunu görmekteyiz. Edebiyat dünyasında sadece alfabede değil; bunun ya-

nında vezin ve içerikte de değişimler olmuştur. Dolayısıyla dil ve alfabe üzerine yapılan her bir inkılap, köklü geçmişi unutturmaya sebep olmuştur.

XX. yüzyılda Azerbaycan Türkçesi, üç farklı alfabe (Arap, Latin ve Kiril) ile yazılmıştır. Bu alfabeler yukarıda değindiğimiz gibi dönemlerinin siyasal ve kültürel değişim söylemlerinin bir aracı olarak kullanılmıştır. Arap alfabesinden Latin alfabesine geçilmesi için yapılan tartışmalar, ulusal dil ve kimlik tartışmaları ile modernleşme ve ilerleme söylemleri ekseninde gerçekleşmiştir. Bu dönemde Türk Dünyasında bin yıl boyunca kullanılan Arap alfabesinin Türkçe kelimelerin doğru şekilde okunmasına engel olması, zor okunması gerekçe olarak sunulmuş ve bunun devamında Batılılaşma döneminde Azerbaycan Türklerini Doğu dünyasından koparmak amacıyla Latin alfabesine geçiş yapılmış ve Arap alfabesi, geri kalmışlığın bir simgesi olarak kabul edilmiştir.

Azerbaycan aydınları modernelşme safhasında eski alfabeyi ve onun yansıttığı İslami çerçeveyi değil; Batı'nın değerlerini almayı seçmiş ve Latin alfabesine geçmeyi savunmuşlardır. Bu durum kamoyunda ciddi bir şekilde tartışılmış ve dönemin siyasi seçkinlerinin ve aydınlarının uzlaşması sonucunda Latin alfabesine geçiş kabul edilmiştir [1, s. 140].

1921-1929 yılında Latin alfabesine geçiş ile Azerbaycan yeni bir döneme girse de Türkiye'nin Latin alfabesinin kabulüyle Sovyetler yeni bir politika yürütmüş ve Türk Dünyasında alfabe birliği olmaması düşüncesiyle Kiril alfabesi Azerbaycan ve diğer Türk devletlerinde farklı yöntemlerle kullanılmaya başlanmıştır.

Bin yıldır kullanılan Arap alfabesi yerine kısa bir süreyle Latin alfabesi getirilmiş ve onun da hemen ardından Kiril alfabesi ve daha sonrasında tekrar Latin alfabesi kullanmaya başlanmıştır. Bundan dolayı Azerbaycan, bir asırda üç alfabe kullanmıştır.

***Güney Azerbaycan.*** Kuzey'de Ruslaştırma politikasına parelel olarak Gülistan ve Türkmençay Antlaşmaları peşinden Farsların tam anlamıyla Güney Azerbaycan'ın başına geçmesi 1924 senesine delalet eder. 1924 yılından itibaren son bulan Azerbaycan Türklerinin yönetimi, tamamen Pehlevi rejimine geçmiş ve Rıza Han, İran Devletini ve milli kimliğini Fars Halkı ve Farsça ile birleştirerek İran milliyetçiliğini teşvik politikası izlemiştir. Bu politikanın bir gereği olarak Şah yönetimi de bu yönde yoğun bir faaliyete girişmiştir. Bu faaliyetlerden bir tanesi, Şah döneminde Güney Azerbaycan toprakları, Doğu ve Batı Azerbaycan olmak üzere ikiye bölünmüştür. Daha sonrasında bu eyaletlerin Türkiye ve Sovyet Azerbaycanı ile sınırlarının kapatılması, bölgede ciddi bir ekonomik durgunluğa yol açmış. Bu durum da Tebriz esnafının önemli bir kısmının Tahran'a göç etmesine sebep olmuştur [9, s.271].

Eski İran/Pers tarihini esas alan İran şahının söz konusu politikaları, Fars kimliğini daha çok ön plana çıkaran ve İslam'ı nispeten arkada bırakan modern bir ulus devlet inşa sürecini başlatmıştır. Azerbaycan Türklerinin pek çok açıdan İran içinde baskın unsur olmalarına karşılık, kimliklerinin dışlanmasıyla

Güney Azerbaycanlıları kimliklerini siyasal alanda kaybetmeye ve Fars rejimi altına girmeye itmiştir. Bu nedenle 1945-46[3] yıllarında Güney Azerbaycan'da kurulan yerel hükümet, kendi kimliklerinin korunması amacına yönelik bir adım olarak değerlendirilebilir [4, s.271]. Bu süreçte kurulan Azerbaycan Demokrat Partisinin asıl amacı, bağımsızlıktan ziyade kendi eyalet meclislerine sahip olmayı, eğitim kurumlarının tamamında Azerbaycan Türkçesinin kullanılıp öğretilmesini, çocuk isimlerinin ve coğrafi adların Türkçeden seçilebilmesinin ve ekonomik özgürlüklerinin tanınmasının benzerini yapmakla birlikte, taleplerini İran içinde özerk bir yapı çerçevesinde gerçekleştirmek istemiştir. Fakat yerel hükumet tecrübesi çok uzun sürmemiştir. İkinci Dünya Savaşından sonra hızlıca bağımsız ve özerk devletler yaranmaya başlandığında İran'ın Şah hükümeti Güney Azerbaycan'da demokratik harekatın elde ettiği başarıların esas itibarıyla korunması hakkında 1946 yılının Haziran ayında "Devlet ve Azerbaycan üyeleri arasında antlaşma"yı bozarak, bir sene süresinde faaliyet göstermiş Azerbaycan Milli Hükümetini 1946 yılının Aralık ayında ABD'ın ve Birleşik Krallığın politik ve askeri yardımı ile devrildi [5, s.9].

II. Dünya Savaşı sonrasında Sovyet ordusu, İran'ın kuzeyinden çekilmiş ve Aras Nehrinin kuzeyini kendine bağlamış fakat Tebriz ve çevresini İran'a bırakmıştır. Böylece Tahran yönetimi, Güney Azerbaycan'ı tekrar kendine bağlama imkanı bulmuştur [9, s.272]. Bu süreçte Güney Azerbaycan ahalisi İran istibdadına karşı üç defa mücadele etmiş fakat mağlup olmuştur. Özellikle 1946 senesinde Azerbaycan Türkçesini, kimliğini, kültürünü hatta Azerbaycan coğrafyasında var olan özel Azerbaycan isimlerini koruma pahasına verilen mücadele 21 Azer katliamıyla sonlanmış ve devamında Kuzey Azerbaycan'a geniş çaplı siyasi muhacirata sebep olmuştur [5, s.48-49].

Demokrat Azerbaycan Partisini döneminde alınan bütün kararlar iptal edilmiş ve binlerce Azerbaycan Türkçesi ile yazılmış kitaplar ateşe verilmiştir. Güney Azerbaycan'da Azerbaycan Türklerine dilini, kimliğini, kültürünü unutturma çabası başarıya ulaşmamıştır. Güney Azerbaycan Türkleri her ne pahasına olursa olsun sınırların kapatılmasına rağmen ne Kuzey ile kültürel ve ticari etkileşimini kesmiş ne de Türk kimliklerini unutmuşlardır.

***Güney'den Kuzey'e Muhacirat***. Güney Azerbaycanlıların Azerbaycan SSR'ye 1946 yılının Aralık ayının 11'de başlayan toplu muhaciratı İran ordusunun takiplerinden kurtulma amacı ve siyasi muhacirat hüviyeti taşımaktadır. Belgelerde Azerbaycan'ın ilk muhacirleri Pişeveri, Kavian, Badigan, Kebiri, Cahanşahlı, Gulam Danişyan, Ramti, Muhammedvendi, Mirrehim Vilayi ve

[3] Güney Azerbaycan; XX yüzyıl başlarında yetiştirdiği kadrolar yönünden Ortadoğu'da ve Kafkasya'da kültür seviyesi ileri olan coğrafyalardan birisiydi. İran'da gerçekleşen 1906 Meşrutiyet devrimi ve 1920 de kurulan yaklaşık beş aya kadar yönetimde kalabilen Azadistan hükumeti de bahsi geçen kadrolar eliyle hayata geçirilmiştir. Güney Azerbaycan Türkleri bu dönemde kuzeydiklerin aksine bir bağımsızlık amacı gütmüş, kültürel ve sosyal haklarını sağlamayı hedeflemişlerdir.

Aram Zadikyan olarak kaydedilmiştir [5, s.48]. Sonra 19 Aralık'da Sovyet hükümeti sınırları kapatsa da sonraki yıllarda da mühacirler küçük gruplar halinde Kuzey'e göç etmiştir. Muhaciratın sonraki göç dalgası 1950 senesinde İran'da başlayan açlıkla ilgili olmuş ve bu süreç 1954 yılına kadar devam etmiştir. 1953 yılından itibaren Sovyet hükümeti, İranlıların ülkeye girmesini yasaklamış ve bu tarihten sonra sınırı geçen kişileri İran'a geri gönderilmiştir. Fakat muhacirlerin Azerbaycan SSR'ye daha sonrası toplu göçü 1983 yılı Nisan ayında İran'da yeni hakimiyet tarafından muhalif kuvvetlere, aynı zamanda rejimi kabul etmeyen diğer insanlara karşı yapılan baskılar sonucu başlamış ve 1985 yılı Şubat ayına kadar devam etmiştir. Nihayetinde 1985 yılında Azerbaycan'-da İranlı muhacirlerin sayısı 18 bin kişiden fazlaydı [5, 50]. Gelen muhacirleri Gence, Mingeçevir, Alibayramlı, Şamahı, Ağdam, Lenkeran, Beylagan, Bilesuvar, Yalama ve Hudatda yerleştirdiler [5, 51]. Bu muhacirlerin çoğu okuma yazma bilmiyorlardı ya da çok az biliyorlardı. Eğitimlilerin ise tekrar öğrenime ihtiyacı var idi. Bunun sebebi Türkçe, Farsça ve Arapça bilen hemsoydaşlarımızın Sovyet sistemine geçmesi ve bu sebeple de kiril alfabesini, Azerbaycan edebi dilini ve Rusçayı öğrenmeleri zorunda kalmalarıydı. Bu sebeple muhacirlerin yerleştiği yerlerde bu konularda akşam kursları ve akşam okulları açılmıştır. Bunun yanı sıra mühacirler, üniversitelerde lisans, yüksek lisans ve doktorada öğrenim görmüşlerdir. Bu sayade muhacir akademisyenlerimiz farklı ilim dallarında kendilerini göstermeye başlamışlardır.[4]

Farsça ve Arapçayı yetkin olan ve Arap alfabeli kaynaklarla zorluk çekmeden çalışmayı başaran muhacir akademisyenlerimiz bin yıllık kaynaklarımız üzerinde çalışmaya başlamışlar ve yaptıkları bu çalışmalar sonucunda Azerbaycan'ın tarih ve şarkiyyar ilminin mevzu dairesi mühacir soydaşlarımız sayesinde gelişlemiştir.

***Muhacirlerin Klasik Türkçe ve Edebiyat Sahasında Faaliyetleri.*** Azerbaycan Edebiyat Tarihi kaynakları üzerinde çalışan soydaşlarımız bin yıllık tarihin ve edebiyatın tetkikatında önemli rol oynamış ve tarihimiz bunca baskı altında olmasına rağmen onun kaybolup gitmesine engel olmuşlardır. Bu çalışmaların başında Azerbaycan dilinin ve edebiyatının tatkiki gelir. Güneyde Farsça, Kuzeyde Rusça baskısıyla Azerbaycan Türkçemizin kaybolması için elinden gelen her şeyi yapan SSCB ve İran hükümeti bu nedenle bazı baskılar uygulamıştır. Buna rağmen bu baskıyı yaşayanlar her ne olursa olsun kendi kültüründen, kimliğinden, tarihinden ve dilinden vazgeçmemiş ve yaşadıkları korkulara, baskılara rağmen idealarını devam ettirmişlerdir. Bu şekilde yetişen,

---

[4] Üniversitelerde pedogoji faaliyetle meşgul olan muhacirlere de imtiyazlar verilmişti. Örneğin bu kurala göre, tarih ve felsefe ve siyasi iktidsadiyat fenlerini yalnız Sov. İKP üyesi olan kişiler tedris edebilirlerdi. Fakat Azerbaycan KP MK-nin birinci katibi İman Mustafayev'in 1956'da ağustosun 3'de Sov. İKP MK-ya gönderdiği mektuba Sov İKP MK-da bakılarak ADF üyesi olan muhacir alimlere hemin fenleri tedris etmek izni vermiştir. Ayrıntılı bilgi için bkz. 5

muhacirata maruz kalmış ve her açıdan kendini geliştirmiş muhacir soydaşlarımız Kuzey Azerbaycan'da farklı ilim sahalarında kendilerini ispat etmişlerdir. Özellikle bu soydaşlarımız konumuz olan Klasik Azerbaycan edebiyatı ve onun da etkilendiği Fars ve Arap edebiyatı sahasında akademik çalışmalar yapmışlardır. Onların sayesinde Kuzey Azerbaycan, Klasik Azerbaycan edebiyatı alanında var olan çalışmalarla bizlere yol göstermişlerdir. Aşağıda muhacir akademisyen soydaşlarımızın yaptığı çalışmalara değineceğiz.

**Abbas Penahi Makulu** (01.05.1900, Maku - 29.09.1971, Bakü) - 1946'da Milli Hükümet devrildikten sonra Bakü'ye gelmiş ve çalışmalarına burada devam etmiştir.

Azerbaycan Klasik Edebiyat sahası çalışmalarıyla kendine has yer tutan Makulu, Arap ve Fars alfabesiyle yazılan Farsça ve Türkçe tezkireler hakkındaki çalışmasıyla Klasik Türk Edebiyatı'nda gerekli olan kaynaklar hakkında geniş bilgi vermiş ve onlara ulaşmamızda ön ayak olmuştur.

Penah Makulu, "*Edebi Melumat Cetveli* (on meşhur şark menbeyi esasında)", yayınıyla Doğu kaynakları hakkında geniş bilgi vermiş ve Klasik Türk ve Fars Edebiyatı alanında önemli olan kaynaklardan bahsetmiştir. Penah Makulu'nun "*Edebi Melumat Cetveli"* [45] kitabında bahsettiği *Devletşah Tezkiresi*, Lutfali Bey Azer Bekdilli "*Tezkire-yi Ateşkede* (XVII. sonu)", Emir Ahmed Razi'nin "*Tezkire-yi Heft İklim"* (1593), Emir Kulamalihan Belkramin'in "*Tezkire-yi Hazane-yi Amire"* (1763), Rzakulu Han Hidayet'in "*Mecmu'l Füseha"*, Muahmmed Ali Terbiyet'in *Danişmendan-i Azerbaycan*, Şemseddin Sami'nin "*Kamusü'l-elam"*, Mir Muhsin Nevvab'ın "*Tezkire-yi Nevvab"*, Muhammed Müctehizidi'nin "*Riyazü'ş-Aşikin"*, Firudun Bey Köçerli'nin "*Azerbaycan Edebiyatı Tarihi Materialları"* isimli kaynaklar hakkında verdiği bilgiler Türk ve Fars Edebiyatı açısından önemlidir.[5]

**Ahmed Şefai** (1912, Güney Azərbaycan – 1993, İran) - 1946 senesinde Azerbaycana gelmiş, Azerbaycan Devlet Üniversitesinde[6] Fars Dilinin eğitimi üzerine çalışmış ve Fars Dilinin Gramari üzerine tezini savunarak dilbilimi alanında akademisyen olmuştur. Böylece Azerbaycanda Farsça eğitimi vererek tarihimizdeki Farsçanın yerini korunmasına katkı sağlamıştır. 1980 senesinde İran'a gitmiş ve 1993'te orada vefat etmiştir. Yayınlarından bazıları şunlardır: *Abdi Bey Şirazi, Fars Dili, Fars Dili [11; 13; 50].*

**Balaş Azəroğlu** (1921, Bakü – 2011, Bakü) - 1938 yılında Erdebil'e taşınmış ve burada eğitimini Farsça almıştır. 1941 senesinde Azerbaycan Demokratik Partisine katılan şair, daha sonra Azerbaycan'a gelmiş ve Azerbaycan Dev-

---

[5] Bu çalışmasında perakende halda isimleri çekilen edip, şair ve alimler hakkında materiallarını vahit bir biçimde tertip etmiştir. Bu çalışmada şair ve nasirin tam adı, atasının adı, eserlerinin dili, tevellüdü ve vefat yılları, yaşadığı yüzyıl ve bunların hangi kaynaklardan alındığı, hangi eserleri olduğu konusunda bilgiler olduğundan eser büyük önem taşımaktadır.

[6] Şimdi Bakü Devlet Üniversitesi

let Üniversitesi'nde filoloji eğitimi almıştır. "Azerbaycan Edebiyatı" kitap serisinin müelliflerinden biridir. Klasik Azerbaycan Edebiyatı alanında editörlüğünü yaptığı kitaplar da vardır. Çalışmalarından bazıları şunlardır: "*Emani Tebrizi. Mehr ve Müştəri"*, "*Hakani. Nizami. Füzuli. Seçilmiş eserleri*", "*Hakani Şirvani. Rübailer"*, "*Muhammed Emani"*, "*Mirze Şefi Vazeh. Şiirler Mecmuası"*, "*Nizami Gencevi. Seçilmiş Lirik eserleri"*, "*Yeddi Güzel*", "*Saib Tebrizinin sanat dünyası"*, "*Saib Tebrizi. Seçilmiş Eserleri", "Şahname" [2; 3; 154 26; 27; 36; 40; 41; 51; 57].*

**Ebülfez Hüseyni** (1925, Tebriz – 1987, Bakü) - 1946 senesinde Bakü'ye gelmiş. Bakü Tıp fakültesini bitirdikten sonra Azerbaycan Devlet Üniversitesi'nin Filoloji bölümünde öğretim görmüş ve Mirze Ağa Tebrizinin Hayat ve Yaradıcılığı tezini savunmuştur. Üniversiteyi bitirdikten sonra çeşitli görevlerde bulunan Hüseyni, daha sonrasında Azerbaycan Milli Bilimler Akademisinin Nizami adına Edebiyat Enstitüsünde çalışmıştır. Çalışmalarından bazıları şunlardır: "*Hafiz Şirazi. Seçilmiş Eserleri"*, "*Hatai. Seçilmiş Eserleri"*, "*Kul Ali. Kıssayi Yusuf*", "*Nizami Gencevi İsgendername İkbalname*", *Seyyid Ebülkasım Nebati. Secilmiş Eserleri*, "*Seyyid Ezim Şirvani. Eserleri" [22; 37; 39; 48; 53; 55].*

**Fethi Hoşginabi** (22.031922, Hoşginab – 1989, Moskova) - Yaşadığı koşulların zorluğu nedeniyle çocukluğunda iyi bir eğitim görmeyen Hoşginabi, 1946 senesinde Kuzey Azerbaycan'a gelmiştir. Azerbaycan'da eğitimine devam etmiştir. 1979'da Tebriz'e taşınmıştır. Bir sene sonra Moskova'ya giden yazar, 1989 senesinde burada vefat etmiştir. Z.Marağayi'nin *"İbrahim Beyin Seyahetnamesi*" adlı eserini Hamit Mehmetzade ile birlikte Azerbaycan edebiyatı literatürüne kazandırmıştır [60].

**Firuz Sadıkzade** (1931, Bakü – 1997, Bakü) - 1938 yılında Güney Azerbaycan'a taşınmıştır. Eğitimine orada başlayan Sadıkzade, 1946 yılında tekrar Bakü'ye göç etmiş ve orta okul eğitimine Bakü'de devam etmiştir. Ortaöğrenimini bitirdikten sonra Azerbaycan Devlet Üniversitesi'nin Filoloji Bömümü'nü başarıyla tamamlamıştır. Üniversitede doçentlik görevini yürüten Sadıkzade'nin tezi Klasik Azerbaycan şairi Katran Tebrizi hakkındadır. Katran Tebrizi, Hakani Şirvani, Nızamı Gencevi, Nesimi, Fuzuli hakkında yaptığı çalışmalar yetkin bir çalışma olup kendine has yer bulmaktadır. Çalışmalarından bazıları şunlardır: "*XIV-XVI asrlar Azerbaycan Edebiyatı ve Kuran kıssaları"*, "*Füzuli. Heyret ey büt"*, "*Nizami ve Muasirlik"* [17;42; 46].

**Gulam Məmmədli** (1897, Tebriz – 1994, Bakü) - Edebi faaliyete derlemeci olarak başlayan Gulam Memmedli, ilk olarak Tebriz'de Fedai'nin "*Bahtiyarname*" eserini yayınlamıştır. Azerbaycan Edebiyatı Tarihinde çalışmalarıyla kendine has yeri olan Memmedli, yazdığı tezkiresiyle Azerbaycan Edebiyatı Tarihi için bir kaynak oluşturmuştur. 1994'te Bakü'de vefat etmiştir. Çalışmalarından bazıları bunlardır: "*Klasik Azerbaycan Edebiyatı'nda Ateizm Motivleri"*, "*Fedai. Bahtiyar-name"*, "*Hayran Hanım. Seçilmiş Eserleri", "Aliağa Vahid. Seçilmiş Eserleri"* [12; 14; 25; 49].

**Gafar Kendli** (1925, Tebriz – 1997, Bakı) - Azerbaycan Bilimler Akademisi Nizami adına Edebiyat Enstitüsünü bitirmiş ve AMEA Edebiyat Enstitüsünü "*Kadim Devr Azerbaycan Edebiyatı*" bölümünün müdürü olmuştur. Akademik çalışmaları arasında Hakani Şirvani üzerine yaptığı incelemeler önemli yer tutmaktadır. Bazı çalışmaları: "*Hakani Şirvani", "Hatib Təbrizi'nin hayat ve yaradıcılığı", "Fuzuli yaradıcılğında Quran rivayətləri", "Xace Nasreddin Tusi. Tensuqname-yi Elxani Cevahirname", "Hakani Şirvani. Hayatı dövrü ve mühiti", "M.Terbiyet Danişmendan-i Azerbaycan"* [24; 32; 33; 38; 47; 58].

**Hamid Memmedzade** (1924, Tebriz – 1965, Almaniya) - 1946 senesinde Bakü'ye göç etmiştir. Bakü'de öğrenim gördükten sonra Klasik Azerbaycan Edebiyatı alanında çalışmalarına devam etmiştir. Alişir Nevai, Hafiz Şirazi, Mirza Ağa Tebrizi, M.Ş.Vazeh ve birçok şair ve yazarların belgelerini veya yazılaranı toplayip yayınlamıştır: "*Habibi", "Şebüsteri Gülşeni Raz", "M.Ş.Vazehin edebi irsi", "Gövsi Tebrizi", "Nizami Gencevi. Hüsrev ve Şirin", "Nizami Gencevi. İsgəndərname. Şerefname", "Nizamülmülk. Siyasetname", "M.Fuzuli. Eserleri", "M.Fuzuli. Matlaul etikad ve arapşa kasideleri"* [6; 16; 18; 23; 28; 30; 43; 54; 56].

**İsmail Şəms** (1918, Tebriz – 2008, Bakü) - İsmail Şems Azerbaycan'da Şarkiyyat özellikle de Arapşinaslık okulunun banisidir. Avesta'nın Farsça'dan Azerbaycan Türkçesine çevirisiyle Avesta'yı Azerbaycan kültürüne tanıtmıştır.

S**onuç.** Azerbaycan Klasik edebiyatı taihine baktığımız zaman bu durumu iki kolda; Güney ve Kuzey Azerbaycan şeklinde incelemek gerek. Nitekim Güney ve Kuzey olarak bölünen Azerbaycan toprakları Fars ve Rus boyunduruğunda iken iki taraflı siyasetin altında kendi klasik edebiyatını unutturmamaya çaba göstermiş ve bu bakımdan el birliği içinde çalışmalar yürütmüşlerdir.

Pehlevi Rejimi ve daha öncesinde Farslarla aynı kültür içerisinde yaşamanın sonucunda Güneyde sağlam bir Farsça ve Arapça'ya hakimiyet ve aruz vezni kullanımı öne çıkmıştır. Bunun yanı sıra Kuzeyde ise ilk başta öz Türkçeden Farsça ve Arapça kelimelerinin çıkarılması yönünde olan tartışmalar daha sonrasında Sovyetlerin hakimiyete gelmesiyle Türkçenin unutturulması yönünde yürütülen her şey Azerbaycan Türklerinin kaderinde önemli bir rol oynamıştır. Güney ve Kuzey Azerbaycan'a baktığımız zaman Güneyde Farslaşma, Kuzeyde Ruslaşma siyaseti ile Azerbaycan Türklerine öz Türkçeyi unutturma siyaseti başlamıştır. Fakat Azerbaycan Türkleri her şeye rağmen kendi kültürünü, dilini ve dinini unutmamış geleneklerine dinine ve diline sahip çıkmıştır. Güney Azerbaycan'da verilen Farsça eğitim sayesinde geriye dönük 600–1000 yıllık edebiyat unutulmamıştır. Unutturulmaya mahkum olan Azerbaycan Türkçesine, kendi ana diline her zaman sahip çıkan Azerbaycan Türkleri, gelişen olaylar içinde Azerbaycan tarihini, edebiyatını ve kültürünü belli sınırlar içerisinde (yasaklar siyasi gelişmeler) korumaya çalışmıştır. Kuzey Azerbaycan'da harf devrimi ile gelen yenileşme Arap alfabesi ile Farsça, Arapça ve eski Türkçe unutulması yönünde adım atılmıştır. Güneyde ise kullanılan alfabe

ile Farsça ve Arapça yürütülen siyasetle Güneyli soydaşlarımız bu iki dile hakim olmuştur. Bu durum, muhacirat olayında Güney Azerbaycan Türklerinin Kuzey Azerbaycan'a göç etmesi ile onların klasik Türk edebiyatında altı yüz yıllık etkisi olan Arap ve Farsça yazmış şairlerin edebiyatına hakim olmasına olanak sağlamıştır.Bu durumda Güney Azerbaycanlı soydaşlarımızın emeği gözrardı edilmeyecek kadar büyüktür.

## Kaynakça


1. *Ayça Ergün. Azerbaycan'da Bir Ulusal Kimlik Meselesi Olarak Alfabe Değişiklileri / Bilig, sayı 54: 139-160, yaz 2010, s. 140.*
2. *Balaş Azəroğlu. Məhəmməd Əmani. Bakı: Elm, 1977.*
3. *Balaş Azəroğlu. Saib Təbrizinin sənət dünyası. Bakı: Yazıçı, 1981.*
4. *Balayev X.. Azərbaycan dilinin dövlət dili kimi təşəkül tarixindən (XVI-XX əsrlər). Bakı: Elm və təhsil, Bakı 2002.*
5. *Balayev X.. Azərbaycanın sosial-siyasi həyatında cənublu mühacirlərin iştrakı (1947-1991). Bakı: Elm və təhsil, 2018.*
6. *Bayramov A.. Mirzə Şəfi Vazehin ədəbi irsi. Elm.red. H. Məmmədzadə. Bakı: Yazıçı, 1980.*
7. *Cabbarlı Nikpur Mühacirət və klassik ədəbi irs. Bakı: Elm, 2003, 172 s.*
8. *Cabbarlı Nikpur. Mühacirət və XX əsr Azərbaycan ədəbiyyatı məsələləri. Bakı: Elm və təhsil, 2015, 56 s.*
9. *Cemil Doğaç İpek. Güney Azerbaycan Türklerinde Kimlik Sorunu / Türk Dünyası İncelemeleri Dergisi, XII/1, yaz 2012, 267-283 s.*
10. *Cenubi Azerbaycan Yazıçılarının Edebi Mecmuası. Bakü, Azerb.ruznamesinin Neşri, 1961.*
11. *Əhməd Şəfai, Rzayeva A.Ə.. Fars Dili (6-cı siniflər üçün). Bakı: Azərtədrisnəşr, 1962.*
12. *Əliağa Vahid. Seçilmiş əsərləri.Tərt.ed. Qulam Məmmədli. Bakı: Lider, 2005.*
13. *Fars dili: ADU-nun şərqşünaslıq və filoloji fakultələrinin axşam şöbəsinin II kurs tələbələri üçün vəsait /Ə. M. Şəfai, H.Ş.Mahmudov; red. H. Əlizadə, R. Sultanov. Bakı: 1966.*
14. *Fədai Bəxtiyar-namə. Tərt.ed. Qulam Məmmədli. Bakı: ADU, 1957.*
15. *Firdovsi: Şahnamə. Tərc. Ed. M.Əlizadə, red. Balaş Azəroğlu, M.Sultanov, A.Sarovlu. Bakı: Öndər, 2004.*
16. *Füzuli. Əsərləri. Tərt.ed. H.Araslı, red. H. Məmmədzadə. Bakı: AzSSR EA. 1961.*
17. *Füzuli. Heyrət ey büt. Tərc.ed. F.Sadıqzadə. Bakı: Gənclik, 1989.*
18. *Füzuli. Mətləül Etiqad və ərəbcə qəsidələri. tərt.ed. H. Araslı, red. H. Məmmədzadə. Bakı: AzSSR EA, 1958.*
19. *Güney Azərbaycan (Bibliografik gösterici). Bakı: Alatoran, 2015, 208 s.*
20. *Güney Azərbaycan: tarixi, siyasi və kulturoloji müstəvidə / Məqalələr toplusu, tərtib edən, nəşrə hazırlayan və elmi redaktoru Sultanlı V. Bakı: Azərnəşr, 2010. – 169 s*
21. *Hacıyeva Y.. İran İslam İnqilabından sonra Cənubi azərbaycanlıların anadili uğrunda mübarizəsi. Bakı: 2017.*
22. *Hafız Şirazi. Seçilmiş əsərləri. çev. E.Hüseyni. Bakı: Azərnəşr, 1967.*
23. *Həbibi. Şeirlər. Tərt.ed. Ə. Məmmədov, red. H. Məmmədzadə. Bakı: Yazıçı. 1980.*
24. *Həmid Araslı. Xəqani Şirvani. red. Qafar Kəndli. Bakı: Yazıçı, 1982.*
25. *Heyran Xanım. Seçilmiş əsərləri. Tərt.ed. Qulam Məmmədli. Bakı: Azərnəşr, 1951.*
26. *Xaqani Şirvani. Rübailər, çev. M. Sultanov, red. B.Azəroğlu. Bakı: Yazıçı, 1980.*
27. *Xaqani, Nizami, Fuzuli və b. Seçilmiş əsərləri. Red. B.Azəroğlu, A. Zamanov, A. Rzayev. Bakı: Gənclik, 1987.*

28. *Xosrov və Şirin / Nizami Gəncəvi; tərc. R.Rza; elmi red. H.R.Məmmədzadə; ön söz. müəl. H.Araslı; qeyd. M.S.Sultanov. Bakı: Yazıçı, 1982.- 401 s; Bakı: Qanun, 2021*
29. *İbrahimli X. Azərbaycan mühacirət tarixi. Bakı: ADPU, 2012, 352 s.*
30. *İsgəndərnamə: Şərəfnamə /Nizami Gəncəvi; filol. tərc., izah. və qeyd. müəl. Q.Əliyev; red.H.Məmmədzadə. - Bakı: Elm, 1983.*
31. *Kafkasyalı A. İran Türkleri. Bilge, İstanbul 2010, 972 s.*
32. *Kəndli-Herisçi Qafar Əli. Xaqani Şirvani. Bakı: Elm, 1988.*
33. *Mahmudov M.. Xətib Təbrizi həyat və yaradıcılığı. red. Q. Kəndli. Bakı: Elm, 1972.*
34. *Mehdibəyova M. Cənubi Azərbaycan mühacirət nəsri: 1947-1990-cı illər. Bakı: Nurlan, 2007. 192 s.*
35. *Məmmədli P.. Cənubi Azərbaycan: ədəbi şəxsiyyətlər, portretlər. I hissə. Bakı: «Sabah», 2015, 200 səh.*
36. *Mirzə Şəfi Vazeh. Şeirlər Məcmuası. Tərt.ed. H.Məmmədzdə, tərc.edə. Balaş Azəroğlu. Bakı: Elm, 1987.*
37. *Nəbati Seyid Əbülqasim. Seçilmiş əsərləri. Tərtib edən. Əbülfəzl Hüseyni. Bakı: Şərq-Qərb, 2004.- 216 s.*
38. *Nəsirəddin Tusi. Tənsuqnameyi-Elxani. Tərc.edən Qafar Kəndli. Bakı: Elm, 1984.*
39. *Nizami Gəncəvi. İsgəndərnamə. İqbalnamə. Tərcüm.edib M.Rzaquluzadə. Red. Q.Qasımzade, E.Hüseyni. Bakı: AzSSR EA., 1967.*
40. *Nizami Gəncəvi. Yeddi Gözəl. Fars dilinden tərc. B.Azəroğlu. Bakı: Yazıçı, 1992, 280 s.*
41. *Nizami Gəncəvinin seçilmiş lirik əsərləri. Tərc.edən M.Sultanzadə, red. B.Azəroğlu. Bakı: Yazıçı, 1983.*
42. *Nizami və müasirlik. AzSSR Ali və Orta İxtisas Təhsil Nazirliyi. Red. F. Sadıqzadə. Bakı: ADU, 1982.*
43. *Nizamülmülk Əbu Əli Həsən ibn Əli Xacə. Siyasətnamə. tərc. ed.R.Sultanov; red.H.Məmmədzadə; AEA Şərqşünaslıq İn.tu. Bakı: Elm, 1987.- 207 s.*
44. *Okan Yeşilot. Türkmençay Antlaşması ve Sonuçları / A.Ü.Türkiyat Araştırmaları Enstitüsü Dergisi. Sayı 36, Erzurum 2008, 187-199 s.*
45. *Pənah Makulu. Ədəbi məlumat cədvəli.Bakı: AMEA, 1962.*
46. *Qasımova A.. XIV-XVI əsrlər Azərbaycan ədədbiyyatı ve Quran qissələri (Qazi Burhanəddin, Nəsimi, Xətai və Füzulinin ana dilində olan əsərləri əsasında. Elm.red. Firuz Sadıqzadə. Bakı: Bakı Universteti nəşriyyatı, 1998.*
47. *Qasımova A.Ş.. Füzuli yaradıcılığında Quran Rəvayətləri. Elm.red. Qafar Kəndli. Bakı: Bakı Universteti nəşriyyatı, 1995.*
48. *Qul Əli. Qisseyi-Yusif. Haz. Ə.Əlibəyzadə, E.Hüseyni. Bakı: Azərnəşr, 1995*
49. *Qulam Məmmədli. Klassik Azərbaycan ədəbiyyatında ateizm motivləri. Bakı: Bilik, 1958. 32.s.*
50. *Rəhimov Ə.. Əbdi Bəy Şirazi. Red. Ə. Şəfai. Bakı: Elm, 1970.*
51. *Saib Təbrizi. Seçilmiş əsərləri. Tərc.edən B.Azəroğlu. Bakı: Yazıçı, 1980.*
52. *Səfərli Ə., Yusifli X.. Azərbaycan ədəbiyyatı tarixi. Bakı: Ozan, 2008, s.26.*
53. *Seyid Əzim Şirvani. Əsərləri. Tərt.edən S.Rüstəm. Farsça çev. Ə.Hüseyni. Bakı: Elm, 1974.*
54. *Seyidov M.. Qövsi Seyidzadə. red. H. Məmmədzadə. Bakı: AzSSR EA, 1963.*
55. *Şah İsmail Xətai. Seçilmiş əsərləri. Tərt.ed. E.Məmmədov, red. E.Hüseyni. Bakı: Azərnəşr, 1976.*
56. *Şəbüstəri Gülşəni. Raz, tərt.ed. Q.Məmmədzadə, red. H.Məmmədzadə. Bakı: Elm, 1972.*
57. *Təbrizi E.. Mehr və Müştəri. Tərc.edən M.Sultanov. red. B.Azeroğlu. Bakı: Yazıçı, 1988.*
58. *Tərbiyət Məhəmmədəli. Danişməndani-Azərbaycan. Fars dilindən tərcümə edənlər: İsmayıl Şəms, Qafar Kəndli). Bakı: 1987, s.162*
59. *Vasfi Mahir Kocatürk. Türk Edebiyatı Tarihi (Başlangıçtan bugüne kadar Türk Edebiyatının tarihi, tahlili ve tenkidi). Ankara: Edebiyat Yayınevi, 1964.*
60. *Zeynalabdin Marağayi. İbrahim Bəyin Səyahətnaməsi və ya Təəssübkeşliyin bəlası. Tərc.edən H.Məmmədzadə, red. F. Xoşginabi. Bakı: Elm, 1982.*

**UOT 94 (479.24)**

# ÇİNİN "BİR KƏMƏR BİR YOL" TƏŞƏBBÜSÜ VƏ AZƏRBAYCAN: MÖVCUD VƏZİYYƏT VƏ REALLIQLAR

**İQBAL AĞAYEV**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, dosent*
*iqbalagayev@bsu.edu.az*

**QƏNBƏR AĞAYEV**
*Şanxay Fudan Universitetinin məzunu*
*ganbaragayev@gmail.com*

*Müasir dövrdə dünyada gedən proseslər bir-birilə ziddiyyət və vəhdət təşkil edən inteqrasiya və dezinteqrasiyanın təsiri altında inkişaf edir. Qərb ölkələri inteqrasiya prosesini dövlət maraqlarına tabe edərək mövcud infrastrukturu dağıtmaq və yenisi ilə əvəz etmək prizmasından çıxış etsə də, dünyanın mərkəzi hesab olunan Avrasiya (heartland) məkanında yerləşən dövlətlər olanları dağıtmaq yox, təkmilləşdirmək və yeniləri ilə əvəz etmək prinsipini əsas götürürlər. Bu prosesi yeni nəqliyyat infrastrukturunun yaranmasına da şamil etmək olar. 1991-ci ildən sonra yeni dünya düzəninin formalaşması prosesi bir-birinin ardınca İpək yolunun bərpası ilə bağlı müxtəlif layihələrin meydana çıxması ilə başladı. Bunlardan maştabına və maliyyəsinə görə ən nəhəngi XXI əsrdə Çinin bütün dünyaya bəyan etdiyi "Bir kəmər – bir yol" təşəbbüsüdür. Azərbaycan bu təşəbbüsü dəstəkləyən və ona qoşulan ilk ölkələrdən oldu. Məqalədə məhz bu məsələlərin araşdırılmasına cəhd edilmişdir. Müəyyən edilmişdir ki, Azərbaycan həm coğrafi, həm də siyasi mövqeyinə görə, Bir Kəmər – bir Yol" təşəbbüsünün İpək Yolu üzrə İqtisadi Zolaq layihəsinin əvəzedilməz iştirakçısıdır. Bəyan olunduğu gündən keçən 9 il göstərdi ki, Azərbaycanin təşəbbüsə qoşulması nəinki ölkə iqtisadiyyatının inkişafına, həmçinin Çinlə ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişafına da öz töhfəsini verməkdədi.*

***Açar sözlər:*** *Çin, Rusiya, Azərbaycan, Bir kəmər Bir Yol (BKBY), İpək Yolunun İqtisadi üzrə Zolaq (İYİZ), əməkdaşlıq, logistika, Zəngəzur dəhlizi*

## *CHINA'S ONE BELT ONE ROAD INITIATIVE AND AZERBAIJAN: CURRENT SITUATION AND REALITIES*

*In this contemporary era, the world affairs are developing under the influence of integration and disintegration processes which are contrasting and uniting with each other. In spite of the fact that the Western countries submit the integration process to state interests and implement policy of destroying existing infrastructure and replacing it with a new one; the states located in Eurasian heartland, which is considered the center of the world, carry out their policy towards improving and replacing existing infrastructure with new ones rather that destroying them. This process can also be applied to the emergence of new transport infrastructure. After 1991, the process of formation of the new world order began with the emergence of various projects related to the restoration of the Silk Road one by one. In the meanwhile, projects related to the restoration of the Silk Road began to appear one by one. Among them, the largest in terms of scale and funding "One Belt One Road" initiative that China announced to the world in the 21st century. Azerbaijan was one of the first countries to support and join this initiative. In the article, an attempt was made to investigate these issues. It was determined that Azerbaijan is an irreplaceable participant of the Silk Road Economic Corridor project of the*

*"One Belt - One Road" initiative due to its geographical and political position. The nine years that have passed since its announcement proved that, as Azerbaijan joined the initiative, it contributed not only to the development of country's economy, but also growth of bilateral and multilateral cooperation with China.*

***KeyWords:** China, Russia, Azerbaijan, One belt one road (OBOR), Silk Road Economic Belt (SREB), cooperation, logistics, Zangezur corridor*

**Giriş.** Qədim "İpək yolu" tarixin silinməz yaddaşında əbədi həkk olunsa da, XIX-XX əsrlərdə bir sıra obyektiv və subyektiv səbəblərdən iqtisadi əhəmiyyətini tamamilə itirmişdi. Onun bərpası haqqında ilk layihələr isə maraqlıdır ki, SSRİ-nin süqutundan sonra – yeni dünya düzəni şəraitində ortalığa çıxmağa başladı. Və yenə də maraqlıdır ki, bu layihələr Çindən deyil, Avropa məkanından irəli sürüldü. Səbəb SSRİ-nin süqutundan sonra yaranmış müstəqil dövlətlərin Avropa bazarı ilə bağlılığını artırmaq və onların bazarlarını Avropa malları üçün açmaq idi. Başqa sözlə desək, Qərb SSRİ məkanında olan respublikalar arasında zaman-zaman qurulmuş bağları kökündən qırmaq və postsovet məkanında müstəqillik qazanmış dövlətləri Rusiyanın iştirakı olmadan Avropa bazarına bağlamaq idi. Başqa sözlə, SSRİ-nin siyasi xəritədən qeyb olunmasından sonra yaranmış yeni geosiyasi reallıqlar şəraitində siyasi və iqtisadi vakuumu doldurmaq məqsədilə Qərb dövlətləri müxtəlif layihələrlə postsovet məkanına genişlənmək qərarına gəldilər. Qısa zamanda BMT-nin nəzarəti və maliyyələşdirməsi ilə hazırlanan layihələrə SSRİ-dən qopmuş bütün ölkələrin qoşulmasına hər cür şərait yaradıldı. 90-cı illərdə formalaşmış yeni dünya düzəni şəraitində Avrasiya nəqliyyat rabitəsi üzrə BMT-nin Avropa İqtisadi Komissiyası (AİK) və Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasının "ümumi strateji mövqeyi" hazırlandı. Azərbaycanın coğrafi mövqeyi ona "ümumi strateji mövqeyi"nin müəyyənləşdirdiyi 4 əsas nəqliyyat dəhlizindən ikisində (TRASEKA və Şimal-Cənub) önəmli mövqe tutmasına imkan verirdi [26, s.20]. Azərbaycan 35 Avropa dövləti ilə birgə "Beynəlxalq avtomagistrallar haqqında Avropa sazişi"nin üzvlüyünü qəbul etsə də, Zəngəzur dəhlizinin Ermənistan tərəfindən blokadaya alınması ona dəmiryolları haqqında analoji sazişin üzvü olmağa imkan vermədi.

Yeni müstəqillik əldə etmiş Mərkəzi Asiya dövlətləri və yeni geosiyasi reallıqlara hazır olmayan digər Asiya ölkələri həm də nəhəng maliyyə tələb edən belə alternativ layihələrlə Qərbə cavab verə bilmədilər. Bu dövrdə Çin Xalq Respublikası (ÇXR) Den Syao Pen tərəfindən başlanmış islahatlar dövrünü yaşayır və ABŞ-ın SSRİ-yə qarşı bir düşərgədə olmaq şərtilə ona verdiyi preferanslardan maksimum istifadə edərək iqtisadiyyatını gücləndirirdi. Hadisələrin sonrakı gedişi göstərdi ki, Çin Den Syaopinin "İmkanları gizlədib kölgədə durmaq" prinsipinə söykənərək dünya iqtisadi sisteminə tam inteqrasiya olunmaq məqsədilə ixracatda dünya ölkəri arasında özünün payının artırmaq üçün Ümumdünya Ticarət Təşkilatına üzv olmağı hədəf seçmişdi. Ekspertlərin fikrinə görə, ixracatının 90 faizini [20] hətta 2015-ci ilə qədər su yolu ilə həyata ke-

çirən Çin, eyni zamanda Qərbin təklif etdiyi nəqliyyat dəhlizlərindən də istifadədən imtina etmirdi.

Məhz belə anda 1991-ci ildə Avropa İttifaqının Yeni Müstəqil dövlətlər üçün hazırladığı TASİS proqramı çərçivəsində TRASECA layihəsi meydana çıxdı. Proyekt Orta Asiya və Cənubi Qafqazın yeni müstəqillik əldə etmiş dövlətlərinin razılığı ilə Avropa Şurasının 1993-ci ilin may ayında keçirilmiş Brüssel konfransında qəbul olundu. Onun həyata keçirilməsinin ilk addımlarından biri 1996-cı il mayın 13-də Orta Asiya və İranın dəmir yollarının Sarexsdə birləşdirilməsi oldu.

**Azərbaycanın İpək Yolunun ilk layihələrində iştirakı.** Müstəqilliyini yenicə bərpa etmiş Azərbaycan Respublikası layihələrdən kənarda qalmamaq məqsədilə TRASECA-da iştirak etmək qərarına gəldi. Amma eyni zamanda Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev Çinə ilk rəsmi səfəri zamanı rəsmilərlə keçirdiyi görüşlərdə Qədim İpək Yolunun bərpası təşəbbüsünün Çinə məxsus olduğu fikrini dəfələrlə təkrar etməklə Azərbaycanın məhz Çin layihəsində iştirak arzusunu bildirmişdi. Pekində çıxışlarının birində Heydər Əliyev söyləmişdi: *"Azərbaycan bütün Asiya ölkələri ilə, o cümlədən də Çinlə çoxdan əlaqələrə malikdir. Asiya ilə Avropanı birləşdirən bir növ körpü, o cümlədən, ticarət körpüsü olmuşdur. Biz burada olduğumuz günlərdə ipək yolunu da, hələ XII-XIII əsrlərdən başlayaraq Azərbaycanla Çin arasında mövcud olmuş digər ticarət-iqtisadi əlaqələri də təsadüfi yada salmadıq. Bir sözlə, tarix və coğrafiya Azərbaycanla Çin Xalq Respublikası arasında əlaqələrin daha da inkişaf etdirilməsi üçün çox əlverişli şərait yaratmışdır"* [8, s.471]. Azərbaycan Prezidentinin 1996-cı ildə TRASECA-nın növbəti beynəlxalq forumunun Bakıda keçirilməsinə nail olmasına baxmayaraq, Azərbaycanın Çin ilə Avropa arasında ticarətdə tranzit imkanlarını 2000-ci ildə ÇXR-in dövlət katibi Li Peni Bakıda qəbul edərkən nəinki təkrarlamış, hətta əsaslandırmışdı. ÇXR-in bu məsələdə passivliyinə baxmayaraq, Azərbaycan TRASECA-da iştirakından maksimum yararlana bildi. Ən əsası, Heydər Əliyev Bakı forumunda Ermənistanı işğalçı dövlət kimi layihələrdən kənarda saxlamağa nail oldu [13, s. 12]. Bundan sonra Azərbaycan Aİ-nin TRASECA üçün ayırdığı kreditlərdən maksimum yararlanaraq qısa müddətdə müasir tələblərə cavab verən nəqliyyat infrastrukturu yarada bildi. Təsadüfi deyil ki, Si Cinpin 2013-cü ildə Astanada "Bir kəmər Bir Yol" (BKBY) təşəbbüsünü elan edəndə Çinlə bu sahədə əməkdaşlıq etmək istəyən dövlətlərdən yalnız Azərbaycan beynəlxalq standartlara cavab verən nəqliyyat infrastrukturuna malik idi və bu faktor da Azərbaycanı ÇXR üçün daha cəlbedici edirdi.

**Azərbaycanın "Bir kəmər Bir yol" təşəbbüsünə qoşulması və iştirakı.** BKBY təşəbbüsünün ümumi prinsipləri haqqında sənədin [27] Çində nəşr etdirildiyi il, yəni 2015-ci ildə ÇXR sədri Si Cinpinin dəvətilə Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Pekinə səfər etdi. Sənəddə Si Cinpinin əməkdaşlığın əsas prioriteti kimi təklif etdiyi 5 prinsip: siyasi koordinasiya; infrast-

rukturun qarşılıqılı əlaqəsi; ticarətin liberallaşdırılması; kapitalın sərbəst hərəkəti; xalqlar arasında anlaşmanın gücləndirilməsi iki ölkə arasında BKBY təşəbbüsünün iki əsas layihəsindən biri olan İpək Yolu üzrə İqtisadi Zolaq (İYİZ) layihəsində əməkdaşlıq haqqında Memorandumun imzalanmasında əsas götürüldü [11]. ÇXR-in Azərbaycanda səfiri Vey Cinxua səfəri yüksək qiymətləndirmişdi: "2015-ci ilin dekabrında iki ölkə arasında nəqliyyat sektoruna dair bir sıra hüquqi sənədlər imzalanıb və Çin tərəfi Azərbaycanın bu təşəbbüsünü və birbaşa iştirakını yüksək qiymətləndirir" [22]. Səfərin nəticəsi olaraq Azərbaycan Respublikasının 2016-cı ilin yanvarında BKBY layihəsinə maliyyə dəstəyi vermək məqsədilə yaradılan Asiya İnfrastruktur İnvestisiyalar Bankının nəinki üzvü oldu, həmçinin əsas kapitalda payçı kimi iştirak etdi. Çinin Azərbaycana xüsusi marağının səbəbini rus ekspertləri belə dəyərləndirirlər: "Çin qəsdən BKBY-un əhatəsini genişləndirmək məqsədilə tərəfdaş ölkələrə investisiya təklifləri ilə təşəbbüs göstərmək və onu inkişaf etdirmək imkanı verir" [19].

Səfər iki ölkə arasında ticarət dövriyyəsinin sürətlənməsinə təkan verdi. Məhz 2016-cı il iki ölkə arasında ticarət dövriyyəsində dönüş ili kimi qiymətləndirilə bilər [4]. Tezliklə, Azərbaycanın yeri İYİZ-in mərkəzi dəhlizi hesab olunan "Çin-Orta Asiya – Qərbi Asiya – Aralıq dənizi" xəttində müəyyən olundu. Lakin sonrakı illərdə şimal və cənub qonşularımızın ekspertləri Çinin həm İranla, həm də Rusiya ilə yüksək səviyyədə qurulmuş əməkdaşlığına istinad edərək Azərbaycandan keçən kəmərin iqtisadi səmərəliliyinin əhəmiyyətini azaltmaq məqsədilə iki əsas maneənin – təbii maneə olan Xəzəri, süni maneə olan Azərbaycanın işğal altında olan 20 faiz torpaqlarında nəqliyyatın qeyri-mövcudluğunu diqqətə çəkirdilər. Onlara görə bu Si Cinpinin xarici siyasi kursunun əsas prinsipi olan Asiya regionunda sülh, stabillik və çiçəklənmənin təmin olunması uğrunda birgə səy göstərmək prinsipini pozmuş olurdu [14]. Bəlkə də, bu səbəbdən Azərbaycan Respublikası 2017-ci ildə keçirilmiş BKBY beynəlxalq iqtisadi forumunda prezident səviyyəsində təmsil olunmamışdı. Buna baxmayaraq Si Cinpin forumda Azərbaycanın yer aldığı "Mərkəzi Dəhlizin" Çin üçün xüsusi əhəmiyyətini vurğulamışdı: "Siyasi sferada Rusiya, Qazaxstan, ASEAN ölkələri, Türkiyə ("Mərkəzi koridor") kimi ölkələrlə koordinasiyanı həyata keçirmək mümkün olmuşdur" [23]. Bu bir daha sübut edir ki, Türkiyə və Azərbaycanın yer aldığı "Mərkəzi koridor" Pekinin planlarında xüsusi yer tuturdu. Beləliklə Azərbaycanın layihədə aktiv fəaliyyəti və müstəqil təşəbbüsü Çin tərəfindən layiqincə qiymətini aldı.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev isə daha uzaqgörən siyasət yeridərək göstərilən maneələrin aradan qaldırılması cəhdlərini 2007-ci ildə Azərbaycan-Gürcüstan-Türkiyə arasında "ev tapşırığı" hesab etdiyi Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolunun inşası ilə başladı və təzyiqlərə baxmayaraq Gürcüstan yolunun inşasını maliyyələşdirməklə 2017-ci ildə onu başa çatdırdı və yol oktyabrda istismara verildi [1]. O, həmçinin Xəzərin statusu haqqında danışıqların nəticəsini gözləmədən elə həmin il Pekində TransXəzər Beynəl-

xalq Nəqliyyat marşrutunun (TXBNM) layihəsinin təqdimatının keçirilməsi üçün sərəncam verdi və beləliklə hər iki maneəni aradan götürdü. Çinin TXBNM-nin yaradılmasında Azərbaycanın fəaliyyətinə verdiyi qiymət ÇXR-in Azərbaycandakı o zamanki səfiri Vey Cinxuanin BKBY iqtisadi forumunun açılışı ərəfəsində etdiyi çıxışlarda da layiqincə qiymətləndirilib: "2017-ci ilin fevralında Çin tərəfinin dəstəyi ilə Azərbaycan Pekində Bakı-Tbilisi-Qars dəmir yolu tranzit marşrutu layihəsinin və Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun təqdimatını təşkil edib" [22]. Beləliklə, Avropaya ixrac olunan əmtəələrin Qazaxstanın Aktau limanından TXBNM vasitəsilə Ələtə, oradan isə BTQ ilə Qarsa və oradan qısa zamanda Trans Anadolu xətti ilə Avropaya çatdırılması nəzərdə tutulurdu. "Şimal-Cənub" dəhlizində həyati marağı olan Rusiyanın TXBNM-in işində iştirakı Xəzərin statusu ilə bağlı danışıqların 2019-cu ildə müsbət sonluqla bitməsi ilə başa çatdı. Elə həmin il Sian şəhərindən 21 vaqondan ibarət yük qatarı çıxaraq "dəmir ipək yolu" adlanan BTQ vasitəsilə Avropaya çatdı [22]. Maraq üçün qeyd etmək olar ki, əgər 2017-ci ildə BTQ dəmir yolu ilə cəmi 2,5 ton yük daşınmışdısa, 2020-ci ildə bu rəqəm 252 min tona çatmışdı [24].

Bununla yanaşı, Azərbaycan torpaqlarının işğal altında olması regionun təhlükəsizliyi məsələsini şübhə altına alırdı ki, bu da BKBY prinsiplərinə uyğun gəlmirdi. Azərbaycanın yanında olan bəzi ekspertlər hətta məhz bu ərazilərdə nəqliyyat strukturunun normal fəaliyyət göstərməsində marağı olan dövlətlərin təsiri ilə problemin həllinin vacibliyini vurğulayırdılar. AR-in problemi diplomatik yollarla çözmək istəyini ATƏT-in Minsk qrupu düzgün qiymətləndirməyərək fəaliyyətini monitorinqlərin keçirilməsi ilə məhdudlaşdırmağa çalışırdı. Belə olduqda, 2020-ci ilin sentyabrın 27-də Azərbaycanın işğal altında olan ərazilərində yerləşən erməni silahlı birləşmələrinin ordumuzun mövqelərinə və mülki əhaliyə qarşı növbəti hücumu Azərbaycan Respublikasının Ali Baş Komandanı İlham Əliyevin bütün cəbhə boyu əks-hücum əmri ilə nəinki dayandırdı, cəmi 44 gün ərzində işğal altında olan torpaqlarımızı azad edərək noyabrın 10-da Ermənistanı kapitulyasiya etməyə məcbur etdi. Üçtərəfli razılaşmada Zəngəzur dəhlizinin açılması xüsusi əhəmiyyət kəsb edirdi. Dəhlizin açılması 30 il Azərbaycandan quru yolla ayrı düşmüş Naxçıvanın blokadasını yarmaqla yanaşı, bütün türk dünyasının tamlığını təmin etməlidir. İşğaldan azad torpaqların bərpası ilə birgə bu həm də "Şimal-Cənub", "Şərq-Qərb", "Şimal-Qərb" marşrutlarının fasiləsiz olaraq fəaliyyətində marağı olan dövlətlərin mənafeyinə uyğun gəlir. Beləliklə, dəhlizin açılması təkcə Azərbaycanın yox, Rusiyanın, Çinin və BKBY-un mərkəzi dəhlizində yer alan bütün dövlətlərin qələbəsi olacaq. Zəngəzur dəhlizi Ələtdən Qarsa gedən dəmir yolunu iki dəfə qısaltmaqla iqtisadi səmərəliliyi təmin edəcək və regionun çiçəklənməsində əhəmiyyətli rol oynayacaq. Təsadüfi deyil ki, 2021-ci ilin mayında Azərbaycan Respublikası Prezidenti İlham Əliyev video-formatda suallara cavab verərkən işğaldan azad olunmuş rayonların rekonstruksiyasına müharibə zamanı Azər-

baycanın yanında yer almış və logistikanın qurulmasında marağı olan dövlətlərə, əsasən də Çin şirkətlərinə üstünlük veriləcəyini bildirmişdi. Prezident həm də Ələt habının daşıyıcılıq qabiliyyətinin 25 milyon tona çatdırılacağını və elə orda da Beynəlxalq Azad İqtisadi zonanın yaradılacağını bildirmişdi [21].

Çin Böyük Avrasiyanın ikinci nəhəng ölkəsi kimi dəhlizin açılması ilə İYİZ üçün əlavə alternativ tranzit nəqliyyat damarı qazanacaq. Bu kontekstdə və ümumiyyətlə, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi Çin tərəfinin xüsusi maraq dairəsində olmuş və bu istək Azərbaycan ilə Çin arasında ölkə başçıları səviyyəsində imzalanmış ilk dövlətlərarası sənədlərdə təsbit olunmuşdu [15, s. 80]. Təsadüfi deyil ki, 44 günlük müharibə ərəfəsində Azərbaycan Respublikası XİN C.Bayramovla görüşən ÇXR-in Azərbaycanda səfiri Qo Min digər məsələlərin müzakirəsindən əvvəl Çin tərəfinin Azərbaycanın ərazi bütövlüyü və suverenliyi məsələsində qəti mövqeyini bir daha nazirin nəzərinə çatdırmışdı [18]. Qələbə ilə başa çatmış müharibənin sonunda Üçtərəfli sazişin imzalanmasından sonra Zəngəzur dəhlizi açılmasının reallaşması regionda vəziyyətə nəzarət əlindən çıxmış qeyri-region ölkərində canlanmaya səbəb oldu. Elan olunduğu gündən BKBY-yə qarşı olan ATƏT-in daimi həmsədri olan ABŞ və ölkəsinin erməni seçicilərinin səsini qazanmağa çalışan Fransa siyasətçiləri bu istiqamətdə daha da fəallıq nümayiş etdirdilər. Əsas səbəb problemin həllində ATƏT-in Minsk qrupu deyil, Üçtərəfli bəyannamənin qarantı kimi çıxış edən Rusiyanın üstün mövqeyi idi. Lakin Çinlə ticarətdə maraqlı olan digər Avropa ölkələri qismən vəziyyətə təsir etmək səlahiyyətini əllərində saxlamağa çalışdılar. Bu səbəbdən 2021-ci ildə Üçtərəfli sazişin əsas müddəaları (xüsusilə Zəngəzur məsələsi) yüksək səviyyədə Azərbaycan-Rusiya-Ermənistan görüşündə yenidən təsdiqini tapdıqdan sonra 2021-ci ilin dekabrında Azərbaycan Respublikası Prezidenti regionda vəziyyətin müzakirəsi üçün Brüsseldə Avropa İttifaqı (Aİ) Şurasının Prezidenti Ş.Mişel və NATO-nun baş katibi R.Stoltenberqlə görüş keçirdi. Birinci görüşdə prezidentlər arasında regionda kommunikasiyaların açılması məsələsi əsas müzakirə obyekti olsa da [5], ikinci görüşdən sonra keçirilən mətbuat konfransında İlham Əliyev NATO-nun yüksək kürsüsündən "Zəngəzur dəhlizinin hüquqi rejiminə gəlincə, o, Laçın dəhlizinin eynisi olmalıdır. Çünki üçtərəfli Bəyanatda açıq-aydın deyilir ki, Azərbaycan Qarabağla Ermənistan arasında əlaqə üçün təhlükəsizliyi və maneəsiz çıxışı təmin edir və Ermənistan Azərbaycanla Naxçıvan Muxtar Respublikası arasında əlaqələr üçün eyni maneəsiz çıxış və təhlükəsizliyi təmin etməlidir" [6] fikrini söyləməsi məsələnin həllində destruktiv mövqe tutan Avropa ölkələrinə çağırış kimi qiymətləndirilə bilər. Çin də hadisələrə seyrçi qalmayaraq azad olunmuş rayonların bərpası istiqamətində konkret addımlar atmağa üstünlük verdi. 2021-ci ilin iyulunda Azərbaycan Respublikası İqtisadiyyat Naziri M.Cabbarov Çinin Azərbaycan Respublikasında səfiri ilə görüş keçirdi. Görüşün məhz 2021-ci ilin 15 iyununda Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında Müttəfiqlik haqqında Şuşa bəyannaməsinin [2] imzalanmasından 15

gün sonra keçirilməsi fikrimizcə təsadüfi deyildi. Azərbaycanın ərazi bütövlüyünə "Orta dəhliz"in ən vacib həlqəsi olan Türkiyə tərəfindən verilən zəmanət Çinin azad olunmuş rayonlarda fəallaşmasını şərtləndirdi. Əslində Zəngəzur dəhlizini interkontinental müstəvidə araşdıran C.Əhmədli araşdırmalarında Zəngəzurun qitələrarası əhəmiyyətini qabardaraq Çinin son illərdə artan iqtisadi nəqliyyat şəbəkəsinə yeni bir alternativlik kimi dəyərləndirir: "Bu alternativlik Çindən gələn malların Türkiyənin şərq vilayətlərinə, oradan da Aralıq dənizi və ya İstanbul boğazları vasitəsilə Avropaya daşınmasını təklif edir və bu yenilik həm Türkiyənin, həm də Çinin nəqliyyat yollarının diversifikasiya edilməsi strategiyalarına da uyğundur. Beləliklə də, yaxın gələcəkdə Şərq-Qərb nəqliyyat dəhlizinə inteqrasiya edilməsi fonunda Zəngəzur dəhlizi Avropa və Asiya qitələri arasında önəmli ticarət marşrutu kimi çıxış etmək potensialı daşıyır [7]. Güclənən Türkiyə-Azərbaycan əməkdaşlığı Çinin Şərqi Zəngəzur iqtisadi rayonunun bərpasında fəallaşmasını şərtləndirdi ki, bu da M.Cabbarovla Qo Minin danışıqlarının əsas müzakirə obyekti oldu. Nazir ikitərəfli münasibətlərdən danışarkən "Azərbaycanda Çin sərmayəli şirkətlərin fəaliyyət göstərməsi, uğurlu investisiya əməkdaşlığını həyata keçirməsi və sənaye sahəsində Çinlə bir sıra layihələr üzrə danışıqlar aparılmasını" səfirin nəzərinə çatdırdı. Dəhliz məsələsi müzakirə olunan zaman Qo Min "Zəngəzur dəhlizinin Çinin BKBY nəqliyyat layihəsinə töhfə verəcəyinə əminliyini ifadə etmişdi" [12]. Eyni məsələlər iki ay sonra Azərbaycan Respublikası XİN başçısının müavini E.Məmmədovla görüşün də müzakirə obyektinə çevrildi. Danışıqlarda həm də "Bir kəmər – bir yol" təşəbbüsünün imkanları, Ələt Azad İqtisadi Zonasının perspektivləri və Çin şirkətləri tərəfindən Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə investisiya qoyuluşu məsələləri müzakirə edilmişdi [3]. Qeyd olunmalıdır ki, bütün bu görüşlər məsələlər "Zəngəzur dəhlizinin" açılmasını özünün qırmızı xətti elan edən və Çinin Mərkəzi koridorda tərəfdaşı olan İranın Azərbaycan sərhədləri yaxınlığında keçirilən təlimlərin fonunda baş vermişdi. Eyni hadisələr 2022-ci ilin sentyabrında da təkrar olunmuşdu. Azərbaycan Prezidenti İlham Əliyev 2022-ci ilin sentyabrında Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) Səmərqənd sammitinə müşahidəçi statusunda yola düşmə ərəfəsində, İran tərəfindən keçirilən təlimlərlə eyni vaxtda Ermənistan silahlı qüvvələrinin Azərbaycanla bütün sərhəd boyu təxribatı başlanmışdı. Gərgin vəziyyətdə, Azərbaycan ŞƏT-də Müşahidəçi statusunda olmasına baxmayaraq, prezident İlham Əliyev Səmərqənd sammitini təxirə salmadı. Sammitdə keçirdiyi ikitərəfli görüşlərin ən önəmlisi ÇXR-in sədri Si Cinpinin təşəbbüsü ilə keçirilmiş görüş oldu. Danışıqlarda əsas müzakirə obyekti nəqliyyat, logistika, iqtisadi-ticari əlaqələrin inkişafı məsələləri olsa da, əvvəldə Si Cinpin ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini və Azərbaycanın da Çinin ərazi bütövlüyünə və suverenliyinə göstərdiyi dəstəyi yüksək qiymətləndirdiyini qeyd etdi. Azərbaycan Prezidenti "Bir kəmər, bir yol" layihələri çərçivəsində iki ölkə arasında əməkdaşlıq və tərəfdaşlıq üçün böyük perspektivlərin

olduğunu vurğuladı [10]. Erməni təxribatı və 2022-ci ildə Rusiya ilə Ukrayna arasında başlanmış münaqişənin dünya miqyasında qüvvələr balansında etdiyi ciddi dəyişikliklər zəminində Azərbaycanla Çin arasında ölkə başçıları səviyyəsində keçirilmiş bu görüşdə tərəflərin BKBY təşəbbüsü və onun İYİZ layihəsinin reallaşmasında israrlı olmaları regionda vəziyyətin eskalasiyasında marağı olan həm region ölkələrinə, həm də qeyri-region ölkələrinə cavab kimi də qiymətləndirilə bilər. ABŞ rəsmisi N.Pelosinin Səmərqənd sammiti ərəfəsində Tayvanda, sammitin bitməsi tarixində İrəvanda olması ÇİN-Azərbaycan arasında siyasi əlaqələrin daha yüksək səviyyəyə qalxmasını şərtləndirəcək və "Zəngəzur dəhlizinin" işə düşməməsində maraqlı olan dövlətlərin müqavimətinə qarşı sipər rolunu oynayacaq.

Zəngəzur dəhlizinin açılmasında özlərinin xarici havadarlarına söykənərək Ermənistan daxilində 10 noyabr Üçtərəfli sazişi pozmağa çalışan qüvvələrin aktivləşməsinə baxmayaraq Azərbaycanın sülh prosesi istiqamətində təmkinli addımlar ataraq ataraq sülhdə marağı olan tərəflərin vasitəçilik missiyalarından imtina etmir. Rusiya-Ukrayna münaqişəsindən sonra Avropada yaranmış qaz qıtlığı səbəbindən Aİ ilə əməkdaşlığa hazır olmasını əməldə göstərən Azərbaycan 2022-ci ilin avqustunda Aİ Şurasinin prezidenti Ş.Mişelin dəvəti ilə Brüsseldə [16] üçtərəfli görüşdə iştirak etmiş və sülhə beynəlxalq hüquqa zidd olmayan 5 prinsip əsasında hazır olduğunu qarşı tərəfin nəzərinə çatdırmışdı. Yenə 2022-ci ilin 6 oktyabrında Ş.Mişelin və Çexiya Respublikasının prezidentinin dəvəti ilə "Avropa Siyasi Birliyi"nin sammitində iştirak edən İlham Əliyev Brüssel formatını dəstəklədiyini müxtəlif formatlı görüşlərdə qarşı tərəfin nəzərinə çatdırmışdı [9]. Eyni mövqeyi Azərbaycan Prezidenti Rusiya Federasiyasının prezidenti V. Putinin dəvəti ilə Soçidə keçirilən üçtərəfli görüşdə də sərgiləmiş və sülhün imzalanmasında israrlı olduğunu nümayiş etdirmişdi. Görüşdən qabaq V.Putinlə təkbətək görüşdə Azərbaycan Prezidenti "Qarabağ münaqişəsinin artıq iki il əvvəl həll olunduğunu" Rusiya prezidentinin nəzərinə çatdırmış, eyni zamanda Rusiyanın Azərbayca-Ermənistan münasibətlərinin normallaşdırılmasında rolunu yüksək qiymətləndirmişdi [17].

**Nəticə.** Beləliklə, son dekadada baş vermiş proseslər təsdiq edir ki, torpaqların işğaldan azad olunması ilə başa çatan "Vətən müharibəsi"dən sonra Azərbaycan həm də İYİZ-in mərkəzi koridorunun əvəzedilməz tərkib hissəsinə çevrildi. O zamanadək 2017-ci ildən istismara verilən və "Dəmir ipək yolu" adını almış BTQ dəmir yoluna Azərbaycanı Naxçıvanla birləşdirən Zəngəzur dəhlizi də alternativ marşrut kimi əlavə olundu. 2020-ci ilin 8 noyabr Bəyannaməsində əksini tapmış bu maddənin tətbiqi Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasından sonra həyata keçəcəkdir. Zəngəzur dəhlizinin açılması məsələsi ətrafında region dövlətlərinin və super güclərin maraqlarının üst-üstə düşməməsinə baxmayaraq, fikrimizcə Azərbaycanın sülh prosesində israrlı addımları və nəqliyyat dəhlizlərinin açılmasında maraqlı olan Çinin mənəvi dəstəyi yaxın gələcəkdə Sülh müqaviləsinin imzalanmasına gətirib çıxaracaq və region nəqliyyatın bütün

növlərinin işə düşməsi ilə sülh, sabitlik və çiçəklənmə zonasına çevriləcək. "Zəngəzur dəhlizi"nin açılması ilə İlham Əliyevin ŞƏT-in Səmərqənd forumunda ÇXR-in sədri Si Cinpinə söylədiyi kimi, "Azərbaycan Çin ilə Avropa arasında nəqliyyat prosesində mühüm rol" unu [10] bir qədər də gücləndirəcək.

## Ədəbiyyat siyahısı


1. *Azerbaijan, Turkey, Georgia inaugurate newly built Asia-Europe railway // New China. Source: Xinhua. 2017-10-31 // http://news.xinhuanet.com/english/2017-10/31/c_136715937.htm (baxılıb: 14.11.2022)*
2. *Azərbaycan ilə Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi imzalanıb. 15 iyun2021. //https://president.az/az/articles /view/52115 (baxılıb: 14.11.2022)*
3. *Azərbaycan XİN başçısının müavini və Çinin Bakıdakı səfiri Çin şirkətləri tərəfindən Qarabağa investisiya qoyuluşu məsələsini müzakirə ediblər. 02.09.2021. // http://interfax.az/view/843999/az(baxılıb: 14.11.2022)*
4. *Azərbaycanın xarici ticarəti. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin saytı. // https://www.stat.gov.az/source/trade/(baxılıb: 14.11.2022)*
5. *Brüsseldə İlham Əliyev ilə Avropa İttifaqı Şurasının Prezidenti arasında görüş olub. 14 dekabr 2021. //https://president.az/az/articles/view/54620(baxılıb: 14.11.2022)*
6. *Brüsseldə İlham Əliyev ilə NATO-nun Baş katibi Yens Stoltenberqin birgə mətbuat konfransı olub. 14 dekabr 2021. //https://president.az/az/articles /view/54625(baxılıb: 14.11.2022)*
7. *Əhmədxanlı C. Zəngəzur dəhlizinin üç müstəvidə əhəmiyyəti.27.10.2021. (baxılmışdır: 27.10.2022. //https://www.top-center.org/en/expert-opinion/3247/the-importance-of-the-zangezur-corridor-in-three-dimensions ) (baxılıb: 14.11.2022)*
8. *Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Birinci kitab: iyun, 1993 – may, 1994 / bur. məsul R. Mehdiyev. – Bakı: Azərnəşr, 1997, s.-606. http://anl.az/el/alf7/he_me1.pdf (baxılıb: 14.11.2022)*
9. *İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti ilə görüşü olub. 6 oktyabr 2022-ci il. //https://president.az/az/articles/view/57494 (baxılıb: 14.11.2022)*
10. *İlham Əliyevin Səmərqənddə Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə görüşü olub.15 sentyabr 2022-ci il. //https://president.az/az/articles/view/57205 (baxılıb: 14.11.2022)*
11. *İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Cinpinin görüşü olub. 10 dekabr 2015-ci il. //https://president.az/articles/17134 (baxılıb: 14.11.2022)*
12. *İqtisadiyyat naziri Çinin səfiri ilə görüşüb. 1 iyul 2021-ci il. //https://www.taxes.gov.az/az/post/1436)*
13. *İsakov H.V. Azərbaycan Respublikasının "Böyük İpək yolu"nun bərpasında iştirakı (1991-2005-ci illər) Bakı, "Şərq-Qərb" Nəşriyyat evi, 2011, s.- 284. http:// tarixinstitu-tu.az/Web/uploads/books/books/2019/07/BoyukIpekyolucompressed.pdf*
14. *Jin Kai. China's Two-Front Diplomacy: "Go West" and "Leap East" //The Diplomat. // http://thediplomat.com/2014/09/chinas-two-front-diplomacy-go-west-andleap-east/ (baxılıb: 14.11.2022)*
15. *Talıbov R. Asiya ölkələri beynəlxalq münasibətlər sistemində. Bakı, "Elm və təhsil", 2015, 312 s. https://ebooks.az/view/vCrAeRso.pdf (baxılıb: 14.11.2022)*
16. *В Брюсселе прошла встреча Ильхама Алиева с Шарлем Мишелем и Николом Пашиняном 31 августа 2022. //https://report.az/ru/vneshnyaya-politika/nachalas-vstrecha-ilhama-alieva-s-sharlem-mishelem-i-nikolom-pashinyanom/(baxılıb: 14.11.2022)*

17. *Встреча с Президентом Азербайджана Ильхамом Алиевым. 31 октября 2022. //http://kremlin.ru/events/president/news/69723(baxılıb: 14.11.2022)*
18. *Джейхун Байрамов встретился с послом Китая. 19 avqust 2020. //https://media.az/politics/1067787888/dzheyhun-bayramov-vstretilsya-s-poslom-kitaya/(baxılıb: 14.11.2022)*
19. *Звезданович-Лобанова Е., Лобанов М. Инициатива «Один пояс и один путь». Какие цели в действительности преследует Китай? // Свободная мысль. // http://svom.info/entry/765-iniciativa-odin-poyas-i-odin-put-kakie-celi-v-dejs/ (baxılıb: 14.11.2022)*
20. *Зотин А. Один пояс, много тупиков. Зачем Китаю нужен новый Шелковый путь. // https://carnegie.ru/commentary/70057 (baxılıb: 14.11.2022)*
21. *Ильхам Алиев принял участие в обсуждениях в видеоформате на тему «Южный Кавказ: Региональное развитие и перспективы сотрудничества»20 мая 2021 года // https://president.az/articles/51583 (baxılıb: 14.11.2022)*
22. *Китай придает огромное значение географическим преимуществам Азербайджана в важном транспортном узле в Евразии // //https://azertag.az/ru/xeber/Kitai_pridaet_ogromnoe_znachenie_geograficheskim_preimushchestvam_Azerbaidzhana_v_vazhnom_transportnom_uzle_v_Evrazii_VIDEO-1048526 (baxılıb: 14.11.2022)*
23. *«Один пояс, один путь». Основные тезисы речи Си Цзиньпина // Россия сегодня. 17 мая, 2017. // //https://inosmi.ru/politic/20170517/239368854.html (baxılıb: 14.11.2022)*
24. *Железная дорога Баку-Тбилиси-Карс будет введена в эксплуатацию в конце 2022 года. 19/03/2021. //http://kavkasia.net/Azerbaijan/2021/1616203508.php (baxılıb: 14.11.2022)*
25. *Один пояс - один путь": Китай выходит на Европу через Азербайджан 9 ноября 2019. // https://news.day.az/politics/1174071.html (baxılıb: 14.11.2022)*
26. *Совместное исследование о развитии евро-азиатских транспортных связей. ООН. Нью-Йорк и Женева, 2008 год. // https://unece.org /fileadmin/DAM/trans/main/eatl/in_house_study_russe.pdf (baxılıb: 14.11.2022)*
27. *新华社北京3月28日电 国家发展改革委、外交部、商务部28日联合发布了《推动共建丝绸之路经济带和21世纪海上丝绸之路的愿景与行动》。***全文如下***：推动共建丝绸之路经济带和21世纪海上丝绸之路的愿景与行动国家发展改革委 外交部 商务部 （经国务院授权发布）2015年3月// http://www.xinhuanet.com /world/2015-03/28/c_1114793986.htm (baxılıb: 14.11.2022)*

**UOT 94 (479.24)**

# CƏNUBİ QAFQAZDA TƏHLÜKƏSİZLİYİN VƏ SABİTLİYİN YARANMASINDA AZƏRBAYCAN-GÜRCÜSTAN-TÜRKİYƏ ƏMƏKDAŞLIĞI

**MURAD ƏSƏDOV**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, dissertant*
*ORCID İD:0000-0003-1528-2533*
*muradasadov@bsu.edu.az*

*XX əsrdə ikinci dəfə öz müstəqilliklərini yenidən qazanmağı bacaran Azərbaycan və Gürcüstanın beynəlxalq münasibətlər sisteminə daxil olmasını müxtəlif aspektlərdən qiymətləndirmək olar. Azərbaycan və Gürcüstanın hazırkı vəziyyətini düzgün başa düşmək üçün ilk növbədə onların geosiyasəti, geomədəniyyəti və geoiqtisadiyyatına dair məlumatlarını qiymətləndirmək lazımdır. Bu araşdırmada XXI əsrin əvvəllərində Cənubi Qafqaz bölgəsindəki siyasi vəziyyət, bölgə dövlətlərinin ikili və çoxtərəfli müstəvidə inteqrasiya prosesi və bu prosesin həyata keçirilməsi üçün zəruri olan şərtlər hərtərəfli perspektivləri, böyük dövlətlər arasında gedən "Yeni Böyük Oyun" da bölgənin yeri və önəmi təhlil edilmişdir. Məqalədə, həmçinin Cənubi Qafqazdakı çətin məsələlər, perspektivli potensial qarşısında Türkiyə-Rusiya rəqabəti və bu rəqabətin onların regional siyasətindəki yeri və əhəmiyyəti araşdırılmışdır. Türkiyə və Rusiyanın regional siyasətində Ermənistan-Azərbaycan müharibəsinin nəticələri təhlil edilmişdir. Burada qlobal aktyorlarla yanaşı, ciddi rəqabətin olduğu regionun dinamikasını və inkişafını izah edirik.*

***Açar sözlər:*** *Cənubi Qafqaz, Türkiyə, Gürcüstan, "Yeni böyük oyun", geosiyasət*

## *AZERBAIJAN-GEORGIA-TURKEY COOPERATION FOR THE CREATION OF SECURITY AND STABILITY IN THE SOUTH CAUCASUS*

*Azerbaijan and Georgia, which managed to regain their independence for the second time in the 20th century, can be evaluated from different aspects. In order to properly understand the current situation of Azerbaijan and Georgia, first of all, it is necessary to evaluate their geopolitics, geoculture and geoeconomy. In this study, the political situation in the South Caucasus region at the beginning of the 21st century, the integration process of the states of the region at the bilateral and multilateral level and the comprehensive perspectives of the conditions necessary for the implementation of this process, the place and importance of the region in the "New Great Game" between the great powers were analyzed. The article also deals with the difficult issues in the South Caucasus, the Turkish-Russian competition in the face of promising potential, and the place and importance of this competition in their regional policy. The results of the Armenian-Azerbaijani war in the regional politics of Turkey and Russia were analyzed. Here, we explain the dynamics and development of the region, where there is serious competition along with global actors.*

***Keywords:*** *The South Caucasus, Turkey, Georgia, the "New Great Game", geopolicy*

**Giriş.** XX əsrin 90–cı illərinin beynəlxalq münasibətlərinin xüsusiyyətlərindən biri dövlətlər səviyyəsində güc siyasətinin dövlətlərarası münasibətlərdə önə keçməsi idi. Ənənəvi realist yanaşmaya əsasən suveren dövlətlər beynəl-

xalq münasibətlərin mərkəzində əsas aktyorlar kimi qəbul edilirlər. Realist yanaşma baxımından beynəlxalq siyasətdə əsas vahid kimi qəbul edilən dövlətlər eqoistliklə maraqlarını güdürlər və öz hədəflərinə çatmaq üçün istifadə etdikləri ən mühüm təkan maddi gücdür. SSRİ-nin dağılması Cənubi Qafqaz regionu üçün dönüş nöqtəsi olsa da, Xəzər dənizi hövzəsinin zəngin enerji ehtiyatlarının təhlükəsiz yollarla Avropa bazarlarına daşınması məsələsi yenidən bölgəni qarışıq hala gətirmişdi. Bölgədə enerji resurslarının dünya bazarına nəqli məsələsində bölgədə maraqları olan böyük güclər və dövlətlər rəqabətə girmişdilər ki, bu rəqabətdə ən çox ziyan çəkən bölgə dövlətləri olmuşdu. Bölgədə geosiyasi maraqlarını reallaşdırmaq istəyən böyük dövlətlərin buradakı rəqabətlərinin artması fonunda yeni çalarlar ortaya çıxır ki, bu da bölgə dövlətlərinin xarici siyasəti ilə sıx əlaqədardır. Bu dönəmdə Qərb xüsusən ABŞ və Rusiya maraq rəqabətinin güclənməsi nəticəsində bölgədə mürəkkəb və riskli bir mənzərə yaranmışdı. Digər tərəfdən isə bölgənin etnik tərkibinin müxtəlif olması da bu rəqabətdə mühüm rol oynayırdı. ABŞ-da 11 sentyabr 2001-ci il tarixində baş verən terror hadisəsi bölgədə yeni bir oyunun başlaması ilə nəticələndi ki, tarixən Cənubi Qafqazla əlaqəli olan Türkiyənin bu oyundan kənarda qalaraq müşahidəçi olması mümkün görünmürdü.

XX əsrin sonu - XXI əsrin əvvəllərində Türkiyənin Cənubi Qafqaz siyasətini təhlil etsək onun oyundan kənarda qalmamaq üçün bölgə dövlətləri və böyük ölkələrlə əməkdaşlıq imkanlarını neorealist prizmadan qiymətləndirmək lazımdır. Xəzər dənizi hövzəsində enerji qaynaqlarının Avropa bazarlarına daşınması uğrunda böyük dövlətlərin rəqabəti, həmçinin regiondakı qeyri-sabit bir mühit Türkiyənin həm bölgə dövlətləri, həm də bölgəyə qonşu olan Rusiya və İranla əməkdaşlıq etməsini zəruri edirdi. Lakin qonşu olan Rusiya və İranın yanaşması ilə Türkiyənin bölgə siyasətində bəzi məsələlərin tam mənasıyla üçlü münasibətlərin inkişafında maneə yaradırdı. Bu da gələcəkdə bölgədə Türkiyənin bu dövlətlərlə əməkdaşlığının mümkün görünməməsi ilə nəticələnə bilər. Çünki Türkiyə regionda sülh və sabitlik tərəfdarı, bölgə dövlətlərinin iqtisadi inkişafına nail olmağa çalışdığı halda, Rusiya tarixdə qalan "imperiya" fikirləri ilə öz təcavüzkarlıq siyasətini davam etdirməkdədir. Türkiyənin Cənubi Qafqaz bölgəsi ilə tarixi əlaqələri olması onun Sovet Sosialist Respublikaları İttifaqının (SSRİ) dağılmasından sonra Cənubi Qafqaz bölgəsinə və oradan da Xəzər hövzəsi enerji resurslarının təhlükəsiz tranzit yollarla Avropa bazarlarına daşınmasına imkan yaradır. Bu səbəbdən də Türkiyə bölgənin əsas aparıcı dövləti Azərbaycan və geostrateji - geosiyasi cəhətdən maraqlı olan Gürcüstanla əməkdaşlığını genişləndirməyə çalışmışdır.

Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri isə bizim kədərimizdir" və Heydər Əliyevin "Biz bir millət, iki dövlət" fikirləri artıq həm Türkiyədə, həm də Azərbaycanda iki ölkə arasındakı münasibətlərin tarixini, bu gününü və perspektivlərini özündə dəqiq ifadə edən ən mükəmməl istiqamət kimi qəbul edilməkdədir.Ankara ilə Bakı arasında "Bir millət, iki dö-

vlət" şüarı sıx siyasi qarşılıqlı əlaqələrin möhkəmlənməsinə xidmət edir. Lakin Gürcüstan ilə olan ikitərəfli əlaqələrdə isə bunu demək çətindir.

**1. Cənubi Qafqazda böyük dövlətlərin güc rəqabəti Türkiyə-Gürcüstan-Azərbaycan əməkdaşlığı fonunda.** "Avrasiya Balkanları" [12, s. 73-74] adlanan Cənubi Qafqaz regionu dünyanın əsas tranzit ticarət yolu olan Xəzər və Qara dəniz arasında yerləşən geostrateji əhəmiyyətə malik bölgədir. Tarix boyu İngiltərə və Rusiyanın maraq mərkəzində olan bu ticarət bölgəsi SSRİ–nın dağılması ilə üç bölgə dövləti ilə yanaşı beynəlxalq təşkilatlar və dövlətlərin maraq sahəsinə çevrilmişdir. Strateji əhəmiyyətinə görə, bölgə tarix boyu böyük güclərin diqqətində olmuşdur. Hazırda Cənubi Qafqazda öz təsir mexanizmlərini möhkəmləndirməyə çalışan Rusiya bölgədəki dövlətlərin daxili problemlərindən istifadə edərək onların xarici siyasətini şəkilləndirməyə çalışır. Digər tərəfdən, bölgə dövlətləri özləri lider olmaq uğrunda mübarizə aparırlar. Cənubi Qafqaz dövlətləri olan Azərbaycan, Gürcüstan və Ermənistan tarixin heç bir mərhələsində qlobal proseslərin iddialı oyunçuları olmamışdılar. Xüsusilə müasir beynəlxalq münasibətlər sisteminin formalaşdığı mərhələlərdə (II dünya müharibəsindən sonrakı mərhələdə) bir yandan Rusiyanın "iştahası", digər yandan isə bölgə dövlətlərinin və qlobal şəraitin bu "iştahası"nın qarşısını alacaq gücdə olmaması yenidən müstəqilliklərini elan etmiş bölgə dövlətlərinin siyasi və iqtisadi inkişafına təhlükə yaratmışdır. Başqa bir tərəfdən müstəqilliyini qorumağa çalışan bölgə dövlətləri daxili siyasi-hərbi proseslərlə və ondan da vacibi (Azərbaycan və Gürcüstan nümunəsində) ərazi bütövlüyü problemi ilə qarşı-qarşıya qalmışdılar.

Cənubi Qafqaz, Avrasiyanın ürəyi hesab olunur, çünki dünya iqtisadiyyatının ehtiyacı olan enerji qaynaqlarının yerləşdiyi bölgələrdən biri olan Xəzər hövzəsi enerji ehtiyatlarının dünya bazarlarına daşınması baxımından strateji mövqeyi, SSRİ-nin dağılmasından sonra bölgədə öz liderliyini itirməməyə çalışan Rusiya ilə Qərb dövlətləri arasında kritik iqtisadi və strateji əhəmiyyət kəsb edən rəqabət zonasına çevrilmişdir. Bölgə öz geosiyasi və strateji əhəmiyyətinə görə dünya dövlətlərinin xarici siyasətində həmişə ön sırada olması materikə hakim olmaq istəyən güclər tərəfindən tarix boyu gedən siyasi oyunların mərkəzində olmuşdur [12]. SSRİ zamanında Cənubi Qafqaz beynəlxalq gündəmin periferiyasında idi, lakin yeni müstəqil dövlətlərin yaranmasından sonra həm qonşuları, həm də regiondan kənarda olan nüfuzlu aktyorlar üçün daha çox əhəmiyyət kəsb etdi. Digər tərəfdən isə Cənubi Qafqaz Xəzər dənizi enerji ehtiyatlarının təhlükəsiz tranziti ilə yanaşı, Şərqdən Qərbə gedən əsas nəqliyyat-kommunikasiya yollarının da kəsişməsi nöqtəsi olduğu üçün beynəlxalq rəqabəti daha gücləndirirdi. Qərbin əsas məqsədi Cənubi Qafqaz regionunda İran və Rusiyanın təsirini qırmağa çalışmaq idi. Bu məqsədlə də keçən əsrin 90-cı illərində bölgə ilə tarixən əlaqəli olan Türkiyə vasitəsi ilə nüfuz etməyə çalışmışdır. Lakin XXI əsrin əvvəllərində AKP-nin Türkiyədə hakimiyyətə gəlməsi ilə Qərbin bu planı dəyişdi. Çünki bu dövrdə Türkiyənin Şərq və Qərb arasında

mərkəzi ölkə olmaq istəyi Avropa İttifaqının (Aİ) "yaxşı qonşuluq" siyasətinə yenidən baxmağa məcbur etmişdir. Bir tərəfdən SSRİ-nin dağılmasından sonra onun varisi hesab olunan Rusiyanın Müstəqil Dövlətlər Birliyinin (MDB) yaranması hər şeyin köklü şəkildə dəyişəcəyinə ümid edən dövlətlər var idisə, digər tərəf isə bölgədə sülh və sabitliyin yaranmasıni istəyən Türkiyə dayanırdı, Bölgənin əsas problemlərindən biri olan enerji resurslarının təhlükəsiz və tez bir zamanda Qərb bazarlarına daşınması məsələsi olurdu ki, bu da bölgəyə maraqlı olan dövlətlərlə xüsusən, Türkiyə ilə Rusiyanın gərginliyinə gətirib çıxartdı.

Niyə məhz böyük güclərin rəqabətinə Cənubi Qafqaz bölgəsi çevrilmişdir? Çünki Cənubi Qafqaz bölgəsi ABŞ başda olmaqla Qərb dünyası və regiona qonşu olan- Rusiya, Türkiyə və İran üçün strateji məqsədləri istiqamətində böyük əhəmiyyət daşıyır. Ümumiyyətlə, Cənubi Qafqaz regionu müasir dövrdə Qərb, xüsusilə də ABŞ üçün bölgə bir neçə strateji əhəmiyyətə malikdir:

- Təhdid (və təhlükə mənbəyi) olaraq qəbul edilən Rusiyanı çevrələmək (əhatəyə almaq);
- Təhdid mənbəyi olaraq qəbul edilən İranı çevrələmək;
- Bölgədəki təbii ehtiyatlara sahiblənmək, neft-qaz yataqları ilə bağlı müqavilələrdə iştirak etmək (həm strateji maraqlar, həm də iqtisadi və ticari səbəblər);
- Bölgədəki təbii ehtiyatların beynəlxalq bazarlara çıxarılmasını etibarlı bir şəkildə təmin etmək (beləcə həm alternativ təbii ehtiyatlara sahib ola bilmək, həm də bölgə dövlətləri üçün ixrac yolu müxtəlifliyi yaratmaq - siyasi maraqlar);
- Alternativ bazar olaraq istifadə etmək;
- Təhlükəsizlik ("terror əleyhinə fəaliyyətlər") və digər qlobal siyasətlərində əsas, eyni zamanda bu məqsədlər istiqamətində Orta Asiyaya çıxış qismində tranzit bölgə kimi istifadə etmək (belə ki, Orta Asiya bölgəsi Qərbin rəqibləri/düşmənləri olan Rusiyanı cənubdan, İranı şərqdən, Çini şimal-qərbdən çevrələmək baxımından da əhəmiyyət daşımaqdadır. Başqa bir baxış bucağıyla isə Orta Asiya dörd fərqli inancı təmsil edən nüvə dövlətlərinin - Rusiyanın, Çinin, Hindistanın və Pakistanın ortasında yerləşən bölgə olması baxımından ciddi əhəmiyyət daşıyır) [3].

Regionda gedən enerji rəqabətində əsas oyunçulardan biri ABŞ olduğunu nəzərə alsaq onun Cənubi Qafqaz strategiyasının əsasını Xəzər hövzəsindəki enerji qaynaqları və onların təhlükəsiz daşınması məsələsidir. ABŞ administrasiyasını region dövlətlərində hakimiyyətdə kimin olduğu maraqlandırmır. Vaşinqtonu əsas maraqlandıran region dövlətlərin enerji siyasətidir. ABŞ bölgədəki rusiyapərəst bəzi qüvvələri açıq və yaxud gizli dəstək yolu ilə hakimiyyətdən uzaqlaşdıraraq rəsmi Moskvanın Cənubi Qafqaz siyasətinə zərbə vurmaqla Rusiyanın bölgədəki separat siyasətini dəstəkləyən İranı yalnızlaşdırmağa çalışır. Beləliklə Cənubi Qafqaz, xüsusən ABŞ yönümlü siyasəti ilə fərqlənən Gürcüstanın geosiyasəti onu beynəlxalq münasibətlərin dəyişən konyukturasında

daha da vacib edir. Bu mənada SSRİ – də birgə və sülh şəraitində yaşayan Rusiya və Gürcüstan İttifaqın dağılması ilə birdən-birə "düşmən" münasibət bəsləməyə başladılar. Digər tərəfdən, Gürcüstan NATO və Aİ eləcə də ABŞ-ın maraq dairəsində olan ölkədir. Bu, əslində beynəlxalq balansın dəyişməsinin nəticəsidir ki, Qərb xüsusən, ABŞ və Rusiya arasında münaqişənin yeni mərhələsi kimi qiymətləndirmək olar. Çünki Gürcüstanın Rusiya nəzarətindən çıxması onun region siyasətinə daha çox zərər verə bilər [2, s. 110]. Bu məqsədlə ABŞ region ilə əlaqədar strateji məqsədlərini həyata keçirmək üçün müxtəlif yardım proqramları vasitəsilə Rusiya və İranın təsirlərini neytrallaşdırmağa çalışır. ABŞ regionda rəqabətli bazar iqtisadiyyatı qurmaqla, amerikan kapitalının təhlükəsiz daxil olmasına imkan yaratmaqla iqtisadi liberallaşdırma proqramlarını reallaşdırmağa çalışmaqdadır. Bundan başqa, ABŞ dəstəklədiyi müxtəlif layihələrlə narkotik və kütləvi qırğın silahlarının region ölkələrində yayılmasının qarşısını almağa çalışır və region ölkələrinin sərhəd təhlükəsizliyinə töhfə verir. Xüsusilə, 11 sentyabr terror aktlarından sonra ABŞ-ın "Əl-Qaidə" ilə əlaqəsi olduğu iddia edilən çeçen yaraqlılarına qarşı mübarizə məqsədilə Gürcüstanın Pankisi bölgəsinə qoşun yeritməklə, Rusiyanın bölgədəki mümkün əməliyyatlarının qarşısını almışdı [20, s.198]. Bu rəqabətdə Rusiya keçmiş sovet coğrafiyasına daxil olan dövlətləri MDB kimi regional təşkilat çərçivəsində toplamağa çalışırdı. ABŞ isə rəngli inqilablar həyata keçirməklə bu dövlətləri öz nəzarəti altına almaq və Rusiyanın təzyiqlərini azaltmaqla bölgənin enerji resurslarına və tranzit yollarına nəzarəti ələ keçirməyə çalışır. ABŞ-da 11 sentyabr terror hadisəsindən sonra əməkdaşlıq mühitindən və Əfqanıstan əməliyyatının logistik ehtiyaclarından istifadə edərək Rumuniyadan Özbəkistana qədər geniş bir ərazidə bazalar və uçuş hüquqları əldə etdi. Bir tərəfdən ABŞ-ın planlarının əsas yerini tutan enerji daşınması lahiyələrinin uğurla həyata keçirilməsi, digər tərəfdən isə Gürcüstanda, Ukraynada və nəhayət, Qırğızıstanda baş verən dəyişikliklərdən sonra Vaşinqton özünün Avrasiya siyasətinin böyük bir hissəsini həll etmiş oldu.

Bütün ümidverici məqamlara baxmayaraq, tez bir zamanda məlum oldu ki, regiondakı boşluğu doldurmağa çalışan dövlətlər arasındakı rəqabət "dondurulmuş" münaqişələrin genişlənməsində maraqlıdırlar. Gürcüstan hakimiyyəti son 8 ildə Qərblə münasibətləri dərinləşdirmək siyasəti ilə paralel olaraq Rusiya ilə də ehtiyatlı davranmağa çalışır, belə ki rəsmi Moskvanı qıcıqlandıran addımlardan çəkinməsini Gürcüstan xarici siyasətinin əsas elementlərindən hesab olunmalıdır. Bütün bunlarla bərabər, bəzi təhlilçilərə görə Rusiyanın Abxaziya və Cənubi Osetiyanı Gürcüstandan "qoparması" rəsmi Moskvanın Gürcüstana olan geostrateji maraqlarını azaltmışdır. Onların fikrincə, Rusiyanın "müstəqilliyini" tanıdığı Gürcüstan ərazilərini, Cənubi Osetiyanı və Abxaziyada hərbi bazalarını yerləşdirməklə Cənubi Qafqazda hərbi–siyasi vəziyyətini möhkəmləndirə bilər və bununla da Gürcüstanın Qərbə inteqrasiyasını əngəlləyər. Türkiyə nöqteyi-nəzərindən bölgədə İran və ya Rusiyanın separat siyasəti hərbi

qarşıdurma ehtimalı ilə nəticələnə bilər ki, bu da Şərqi Anadolu üçün təhlükədir. Türkiyə İranın bütün Qafqazda müsəlmanlara təsir göstərməyə cəhd edəcəyindən və Tehranın bölgədəki fəal rolunun onun sərhədlərində pantürk hegemonluğu yarada biləcəyindən narahatdır. Beləliklə, Avrasiyanın türk-müsəlman xalqları üçün iki əks siyasi inkişaf modeli: siyasi plüralizmi ilə Türkiyənin dünyəvi modeli və İran tərəfindən dəstəklənən islamçı qruplaşmalar arasında qısa müddətdə rəqabət baş verdi. Bununla belə, tezliklə aydın oldu ki, heç bir ölkənin öz ambisiyalarını dəstəkləmək üçün kifayət qədər siyasi nüfuzu və iqtisadi gücü yoxdur.

2007-ci ildə genişlənmə nəticəsində Cənubi Qafqazın Aİ ilə (Qara dəniz vasitəsilə) sərhəd bölgəsinə çevrilməsi, təbii ki, təşkilatın bölgənin daxili problemlərinə fəal yanaşması ilə nəticələndi. Bununla belə, Cənubi Qafqaz Aİ-nin yeni qonşuluq konsepsiyasında, Amerikanın Yaxın Şərq rolunda və Rusiyanın MDB ölkələrinə inteqrasiyasında "rol modelində" müxtəlif mənalar daşıyır [6]. Bəzi ekspertlər də SSRİ-nin dağılmasından sonra Türkiyə tərəfindən Cənubi Qafqazda Aİ–yə bənzər yeni birliyin yaradılması fikri formalaşmışdır. Ümumiyyətlə Türkiyə, Qara dəniz və Qafqaz bölgəsində azad ticarət zonasının yaradılmasında maraqlıdır. Çünki azad ticarət bölgəsinin yaradılması Türkiyəyə imkan verəcəkdi ki, Cənubi Qafqaz və Mərkəzi Asiyaya tam nəzarət edə bilsin. Amma bu mərhələ üçün Cənubi Qafqazda çürük münaqişələrin tez bir zamanda həlli lazım idi. Rusiya "çətir"inin mütləq əvəzlənməsi lazımdır, amma okeanın o tayından, yaxud Qafqaz dəyərlərinə yad Avropa "çətiri" ilə deyil. Bu "çətir"in qonşu Türkiyənin olması bölgə dövlətləri üçün çox əhəmiyyətli olardı. Bu halda artıq sərhədlərə yenidən baxmağa ehtiyac qalmayacaq və bölgədə yaşayan müxtəlif millətlər arasında separatizm dəstək tapmayacaqdı. Cənubi Qafqazdakı rəqabətin başlıca səbəbi Xəzər enerji qaynaqlarının daşınmasından pay almaq istəyən Aİ, ABŞ və Çin kimi mühüm aktyorların olması bölgədə siyasi vəziyyətin gərginləşməsi ilə nəticələnə bilər ki, bu da buradakı dövlətlərin daxili siyasi vəziyyətini çətinləşdirər.

Türkiyə isə ABŞ və Rusiyanın regiondakı rəqabətindən özü üçün istifadə etməyə çalışır. Ankara, Cənubi Qafqazdakı rəqabətə qarşı region dövlətləri ilə əməkdaşlığa önəm verir və Rusiyanı regiondan uzaqlaşdırmağı istisna etməyən daha realist siyasət yürüdərək rəsmi Moskva ilə münasibətlərini gücləndirməyə çalışır. Rusiya ilə Türkiyə arasında təbii qaz alqı-satqısı, ticarət, turizm və tikinti xidmətləri kimi geniş bir sahədə əməkdaşlıq edirlər. İki ölkə arasında regionda nüfuz qazanmaq uğrunda siyasi mübarizə getsə də, artmaqda olan iqtisadi əməkdaşlıq Ankara və Moskva münasibətlərinə yumşaldıcı xarakter verir. Lakin buna baxmayaraq, Rusiya Türkiyənin Cənubi Qafqazda və Mərkəzi Asiyada siyasi üstünlük qazanmasını NATO-nun Şərqə doğru genişlənməsi kimi qiymətləndirərək bunu özü üçün təhlükə hesab edir. Lakin bunlara baxmayaraq, iki dövlər arasında Cənubi Qafqaza yanaşma fərqli olsa da bəzi nüanslar var ki, əməkdaşlıq etməyə məcburdurlar. 2001-ci il noyabrın 16-da Nyu-York-

da Türkiyə və Rusiya xarici işlər nazirləri arasında "Avrasiyada əməkdaşlıq üzrə Fəaliyyət Planı" imzalanmış və bu barədə Birgə İşçi Qrup yaradılmışdır. 2002-ci il aprelin 9-da Moskvada keçirilən Birgə İşçi Qrupun birinci iclasında Cənubi Qafqaz regionunda sabitliyin təmin edilməsi və münaqişələrin daimi həllinə töhfə vermək məqsədilə Cənubi Qafqaz Alt Qrupu yaradılmışdır. Cənubi Qafqaz Alt Qrupunun birinci iclası və Birgə İşçi Qrupunun ikinci iclası 2002-ci il dekabrın 17-18-də Ankarada keçirilmişdir [8, s. 250].

Türkiyənin Cənubi Qafqaz siyasətinə isə regionda daimi sülhün və təhlükəsizliyin yaranması üzərində qurulmuşdur. Onu da qeyd etmeliyik ki, regionda əvvəllər yalnız marjinal təsirə malik olan Ankara, SSRİ-nın dağılması ilə fəal iştirak etmədiyi regionlarda (Cənubi Qafqaz və Orta Asiya regionlarında) mühüm oyunçulardan birinə çevrildi. Regiondakı iqtisadi və siyasi şəraitin qısa müddət ərzində sabitləşməsi ehtimalı az olsa da, şübhəsiz ki, Ankara ilə region dövlətləri arasında yeni qarşılıqlı asılılıq şəbəkələri yaratmaq üçün səylərini davam etdirəcəklər. Şübhəsiz ki, digər regional oyunçular, xüsusən də Rusiya və İran bu siyasətə şübhə ilə baxmağa və regional problemlər yaratmağa davam edəcəklər. Türkiyə mütləq region dövlətlərinin ideal modelinə çevrilməsə də, onun inkişaf edən bazar münasibətləri, İslama dünyəvi, plüralist yanaşması və demokratiyası regionda öz cazibəsini davam etdirməkdədi. Ümumiyyətlə Türkiyə, Rusiya ilə qurduğu siyasi-iqtisadi münasibətlərindən iki mühüm dərs aldı: Rusiya, Türkiyə üçün mühüm iqtisadi tərəfdaşdı, lakin rəsmi Moskvanın regionda həddindən artıq aqressiv xarici siyasət aparması rəsmi Ankaranı onun ilə birbaşa qarşıdurmaya gətirmək riski ola bilər. Bunu nəzərə alan Türkiyə Rusiyaya qarşı həssas siyasət aparmaqla əməkdaşlığa üstünlük verir.

Beləliklə, aparılan tədqiqatın nəticəsində Rusiya və Türkiyənin Cənubi Qafqazda uzunmüddətli siyasi rəqabətinə baxmayaraq, Moskva hazırda bölgədə Ankara ilə əməkdaşlıq etməyə çalışır. Gürcüstan Qərbə və ABŞ ilə müttəfiqlikdə maraqlı olsa da yaxın qonşusu Türkiyə ilə də ikitərəfli münasibətlərin inkişafına çalışır. Gürcüstan ölkə daxilindəki etnik mənşəli və ərazi münaqişələrini Rusiya ilə deyil, ABŞ və beynəlxalq təşkilatlar - NATO və BMT vasitəsilə həll etməyə meyillidir. Lakin buna baxmayaraq, Gürcüstan "dondurulmuş" münaqişələrin həlli məsələsində istədiyi nəticəni ala bilməmişdir. Bundan başqa, Gürcüstanın NATO-ya daxil olması üçün həyata keçirdiyi hər cür fəaliyyətə ən çox dəstək verən ölkə də Türkiyədir.

**2. Türkiyənin region siyasətində Gürcüstan amili.** Hər bir dövlətin xarici siyasətinin, o cümlədən də müdafiə strategiyasının formalaşmasında əsas rol oynayan faktorların sırasında ölkənin coğrafi mövqeyi, geosiyasi yerləşməsi, ərazi tutumu, əhalisinin sayı, iqtisadi, hərbi, elmi-texniki potensialı mühüm yer tutur. Ümumiyyətlə Xarici siyasət qarışıq bir fenomendir. Müasir dövrdə xarici siyasətin müəyyən edilməsi bir sıra faktorlardan asılıdı. Buraya iqtisadi, etnik, coğrafi və digər faktorlar daxildir. Xarici siyasət bütün bu faktorların bir-birilə qarşılıqlı əlaqədə olması zamanı reallaşır. Dahi şəxsiyyət Bonapart Napoleon-

dan soruşanda ki, qonşular kimdir cavab vermişdir: Qonşular! Qonşuları mən seçirəm [5, s. 3]. Lakin dövlətin xarici siyasətini müəyyən edən faktorların birincisini B.Napoleon unutmuşdur. Çünki onun zamanında müharibə beynəlxalq münasibətlərin müəyyən edilməsində əsas vasitə idi. Müasir dövrdə kiçik dövlətlərin xarici siyasəti, müdafiə strategiyaları ilə bağlı qərarlarını təhlil etməzdən əvvəl hansı ölkələri kiçik dövlət kimi müəyyənləşdirməliyik sualına cavab verilməlidir. Ümumiyyətlə, dövlətlər beynəlxalq münasibətlərdəki roluna görə fərqlənirlər və şərti olaraq bir neçə qrupa bölünürlər: a) fövqəldövlətlər b) böyük dövlətlər c) regional dövlətlər d) kiçik dövlətlər. Tarixən, kiçik dövlətlər o dövlətlər hesab olunurdu ki, onlar böyük güc sayılmırdı, başqa sözlə desək, beynəlxalq düzənə hər hansı fərqlilik gətirmək və yaxud bu düzənin qaydalarını dəyişmək baxımından xeyli zəif qəbul olunurdu.

Cənubi Qafqaz ölkələri haqqında bunu demək bir qədər çətindir. Cənubi Qafqaz dünya xəritəsində kiçik ərazini əhatə etsə də, beynəlxalq təşkilatlar və dövlətlər tərəfindən daim maraq dairəsində olması onun coğrafi əhəmiyyətini artırır. Bölgədə yeni müstəqilliyini qazanan milli dövlətlər öz maraqlarını və siyasi prioritetlərini müəyyən etməyə çalışdığı üçün Cənubi Qafqazın geosiyasi dinamikası gərgin haldadır. Yeni minilliyin başlanğıcında Cənubi Qafqazda nüfuz uğrunda gedən qlobal problemlərə tarixən regionla əlaqəli olan Türkiyənin müşahidəçi qalması mümkün deyildir. Çünki Cənubi Qafqazdakı problemlərin bir hissəsi Ankaranın region siyasətinin reallaşmasına maneə olurdu. Türkiyənin region siyasətinin əsasında buradakı müstəqilliyini yeni qazanmış dövlətlərin reaksiyası idi. Ermənistan istisna olmaqla Azərbaycan və Gürcüstan Türkiyə ilə siyasi və iqtisadi əməkdaşlıqda maraqlı idilər. SSRİ-nin rəsmi olaraq dağılmasından sonra tezliklə Türkiyədə yeni siyasət xətti həyata keçirildi. Beləliklə Türkiyə ilk növbədə Cənubi Qafqazda yeni müstəqil olan dövlətləri tanıdı. Tanındıqdan sonra Türkiyə Ermənistan istisna olmaqla, onların hər biri ilə səfirlər səviyyəsində diplomatik münasibətlərə başlamaq üçün protokollar imzaladı. Türkiyənin əsas məqsədi Xəzər hövzəsində ətrafında yeni müstəqillik qazanan türk dövlətlərinin birliyini yaratmaq idi. Bu Türkiyənin dünyanın maraq dairəsində olan Xəzər hövzəsi enerji ehtiyatlarına nəzarət etmək istəyindən irəli gəlirdi ki, 1992-ci ilin oktyabrında İstanbulda Türk dövlət başçılarının zirvə görüşünə ev sahibliyi etmişdir. Birbaşa hava əlaqələri və peyk yayımı qurulmuş və bu fəaliyyətləri asanlaşdırmaq üçün Ankarada Türk Beynəlxalq Əməkdaşlıq Agentliyi yaradılmışdır [4, s. 39-40]. Cənubi Qafqazda SSRİ-nin dağılması ilə başlayan yeni müstəqil dövlətlərin yaranması bir sıra mühüm siyasi-coğrafi və sosial-iqtisadi proseslərlə müşayiət olundu. Onların arasında həm iqtisadi, həm siyasi, həm də humanitar əlaqələr sisteminin transformasiyası nəticəsində ilk olaraq üç Cənubi Qafqaz ölkəsinin çoxvektorlu siyasi modelinə keçid müşahidə olundu. İki əsirlik Rusiya əsarətinin sona çatması regionun inkişafı üçün pəncərə açmış oldu. Lakin Rusiya yeni ittifaqlar qurmaqla "parçala və hökmranlıq et" siyasətini davam etdirmək niyyətində idi (Avrasiya İqtisadi

İttifaqı və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olan Ermənistan üçün Rusiya ilə yuxarıda qeyd olunan yaxınlıq formallıq forması kimi təqdim olunur) [9, s. 7]. Xüsusən XXI əsrin əvvəllərində Moskvanın qəsibkarlıq siyasəti Cənubi Qafqaz və Mərkəzi Asiyada özünü büruzə verməyə başladı.

Cənubi Qafqazda yeni müstəqillik qazanan dövlətlərdən biri Gürcüstan idi. O, ilk müstəqillik qazanan gündən regionda gedən oyunun mərkəzində olmuşdur. Lakin buna baxmayaraq, Gürcüstanın xarici siyasət strategiyasında ciddi dəyişiklik baş verməmişdir. Bu da ölkə daxilində gedən tənəzzüllə əlaqədar idi. Fikrimizcə bu dövr Gürcüstanın xarici siyasətinə təsir göstərən əsas amillərdən biri də Rusiyanın qəsbkarlıq siyasəti idi. Gürcüstan, SSRİ dağılmasından sonra dünyanın diqqət mərkəzində olan "Avrasiyanın Balkanları" adlanan Cənubi Qafqaz regionunun bir hissəsidir. Ukrayna-Qara dəniz-Azərbaycan-Xəzər-Mərkəzi Asiya xətti, Türkiyə-Rusiya xətti, Rusiya-İran xətti və Türkiyə-Azərbaycan-Xəzər dənizi-Mərkəzi Asiya xətti üzərində yerləşən Gürcüstanın "tranzit" coğrafiyası mövqeyindədir. Rusiyanın maraqlarında olan qara dəniz limanları əsasən yerləşən coğrafi ərazidir [1, s. 107-108].

Fikrimizcə bu məqalədə Gürcüstanın bölgə siyasətini geniş anlamaq üçün bölgənin lider dövləti olan Azərbaycan ilə əməkdaşlığın xüsusən 44 günlük müharibədən sonrakı siyası münasibətlərin araşdırılması vacib şərtdir. Cənubi Qafqazda baş verən son hadisələr, xüsusən Ermənistan – Azərbaycan müharibəsi və sərhəddəki son hadisələr ABŞ-Türkiyə ortaq fəaliyyətini çox zəiflədib. O cümlədən Cənubi Qafqazda bu iki dövlətdən hər hansı birinin fəallaşması, digərinin də fəallaşması demək deyil. Lakin Türkiyə ilə İranın regionun böyük dövlətləri olduğunu, tarixən burada ciddi təsirlərinin mövcudluğunu nəzərə alaraq belə bir vəziyyətin müəyyən riskləri ortaya çıxara biləcəyini təxmin etmək mümkündür. Eyni zamanda, başqa bir faktoru da unutmaq olmaz. Hazırda Cənubi Qafqazda Türkiyə geosiyasi aspektdə Rusiya ilə ortaq fəaliyyət göstərir. Ermənistan - Azərbaycan müharibəsindən sonra iki dövlət münaqişənin həllində sözün həqiqi mənasında ciddi nəticələr əldə ediblər. Hətta o dərəcədə ki, Türkiyə-Rusiya arasındakı regional əməkdaşlığı bir sıra böyük dövlətlər qısqanclıqla yanaşırlar. Son hadisələrdən sonra fikrimizcə, Türkiyə, böyük güclər burada güddükləri maraqlarından hələ vaz keçməməsi onun geosiyasi kursunu dəyişmişdir. ABŞ və Rusiya ilə yanaşı Fransa və Almaniya Cənubi Qafqazda gedən rəqabətdə aktivləşiblər. Onların fonunda regionun iki böyük dövləti İran və Türkiyə bir qədər passiv mövqeyə çəkiliblər. Belə bir vəziyyətdə regionda sülh naminə "3+2" formulu, yəni "ABŞ, Rusiya, Aİ üstəgəl Türkiyə və İran" geosiyasi konfiqurasiyası yarana bilərmi? Bu sualın cavabı məlum deyil. Lakin regionda situasiya istənilən an kəskin dəyişə bilər və təşəbbüs indi meydanda aktiv olmayan dövlətlərin əlinə keçər. Bu ssenari də istisna edilmir [6].

Gürcüstan yeganə Cənubi Qafqaz dövlətidir ki, Qara dənizə birbaşa çıxışı vardır. Bu da Gürcüstanın region geosiyasətinə birbaşa təsir göstərir. Çünki Xəzər hövzəsi enerji ehtiyatlarını təhlükəsiz halda Avropa bazarlarına daşımaq

üçün sabit bir Gürcüstana ehtiyacları var idi. Müasir geosiyasi nəzəriyyələrə görə, dünya ticarətinin əsas qloballaşmalarından birini təşkil edən Qara dəniz böyük güclərin maraqlarının kəsişdiyi mühüm regiondur. Makkinderin "quru hökmranlığı nəzəriyyəsi"nə görə, Qara dəniz "mərkəzi" bölgəyə ən asan çıxışı təmin edəcək tranzit yol, Spykmənə görə isə Avropanı Yaxın Şərq və Asiya ilə birləşdirən təhlükəsiz və qısa yoldur. Mahanın "dənizdə hökmranlıq nəzəriyyəsi"nə görə, Qara dənizdə hökmranlıq edən güc bölgəyə nəzarət etmək üçün coğrafi mövqeyə malik olacaqdı [11, s. 2]. Gürcüstanın xarici siyasət strategiyasında beynəlxalq münasibətlərin 3 vacib aktyoru (NATO, Aİ, ABŞ) ilə münasibətlərin dərinləşdirilməsi prioritet olaraq qəbul edilir və bu istiqamətdə qarşılıqlı olaraq xeyli işlər görülüb. Buna baxmayaraq, Gürcüstan hələ də hər 3 güc mərkəzi ilə münasibətlərində əsas məqsədlərinə çata bilməyib. Belə ki, ölkənin NATO və Aİ üzvlüyü yaxın perspektivdə qeyri – müəyyən görünür, Birləşmiş Ştatlar isə Gürcüstana NATO–dan kənar təhlükəsizlik qarantiyası verməkdə həvəsli görünmür. Bütün bu amillər Gürcüstan ətrafında ilk növbədə təhlükəsizlik risklərini periodik olaraq artırır [14, s. 5].

Rəsmi Tiflisi Türkiyə ilə münasibətlərdə prioritet hesab etdiyi faktorlar ölkənin regional iqtisadi və təhlükəsizlik maraqları ilə bağlıdır. Son illərdə Gürcüstan iqtisadi – ticarət, enerji, təhlükəsizlik – müdafiə sahələrində Türkiyə ilə əməkdaşlığnı xeyli genişləndirib. Xüsusilə enerji və təhlükəsizliklə bağlı yalnız ikitərəfli deyil, üçtərəfli (Azərbaycan – Gürcüstan – Türkiyə) tərəfdaşlıq münasibətlərinin ciddi əsaslarının formalaşdığını qeyd edə bilərik. Məhz bu əməkdaşlığın nəticəsində regionda böyük enerji və nəqliyyat layihələri (BTC, Bakı - Tiflis–Ərzurum qaz kəməri, Cənub Qaz Dəhlizi, Bakı – Tiflis – Qars dəmiryol xətti və s.) həyata keçirilib. 2012–ci ilin iyununda üç ölkənin xarici işlər nazirlərinin birgə imzaladığı Trabzon bəyannaməsi regionda Gürcüstan – Azərbaycan – Türkiyə münasibətlərinin ümumi konturlarını müəyyənləşdirdi. Konseptual yanaşdıqda Gürcüstan, ilk növbədə, Rusiya amilinə görə Türkiyənin Cənubi Qafqazda cərəyan edən proseslərdə fəal iştirakında maraqlıdır. İki ölkə arasında strateji tərəfdaşlıq münasibətlərinə baxmayaraq, son illərdə Gürcüstan – Türkiyə münasibətlərində meydana çıxan bəzi problemləri də nəzərdən qaçırmaq doğru olmazdı. Türkiyənin Osmanlının keçmiş əraziləri olan Acarıstan və Abxaziyada təsirinin artması rəsmi Tiflisi narahat edən əsas məqamlardandır. Xüsusilə Türkiyənin tanınmamış Abxaziya Respublikası ilə qeyri– rəsmi siyasi, iqtisadi, mədəni əlaqələr qurması zaman – zaman Tiflis – Ankara münasibətlərində gərginlik yaradırdı [9, s. 7].

Türkiyənin Gürcüstanla bağlı siyasətinin hərtərəfli tədqiqi aşağıdakı nəticələrə gəlməyə əsas verir: Türkiyə, "Transqafqaz məqsədlərini" həyata keçirməyə, regionda nüfuzunu yaymağa və Gürcüstanda yaranmış boşluğu doldurmağa çalışır. Rusiyanın təsirinin azalması nəticəsində. Türkiyə Gürcüstanın Avro-Atlantik strukturlara inteqrasiya səylərini də dəstəkləyir, xüsusən də Gürcüstanın NATO-ya daxil olması məsələsində Türkiyə ilə daha sıx əlaqələrin

qurulmasını nəzərdə tutur. Türkiyə, Azərbaycan və Gürcüstan arasında əməkdaşlığa əsaslanan regional iqtisadi və hərbi-siyasi birlik yaratmağa çalışır ki, bu da Türkiyənin regionda liderlik etməsi və Ermənistanı regional layihələrdən sıxışdırıb çıxarması deməkdir. Beləliklə Türkiyənin Cənubi Qafqaz siyasətinin əsas məqsədi regiondakı dövlətlərlə (Azərbaycan və Gürcüstan nümunəsində) əməkdaşlıq qurmaqla ticarət yollarına nəzarət etmək və regional oyunda tək oyunçu olmadı. Başqa bir tərəfdən Ankara Rusiya və İranın təzyiqlərinin qarşısını almaqla regionda bufer zona yaratmağa çalışmasıdır.

**3. Azərbaycan-Gürcüstan-Türkiyə əməkdaşlığı və Rusiya amili: problemlər və gələcək perspektivlər.** Regionun lider dövləti olan Azərbaycan Qara dəniz vasitəsilə Avropa ölkələrinə neft ixracı üçün istifadə etdiyi marşrutu Gürcüstan, SSRİ dövründə də olduğu kimi tranzit marşrutu əhəmiyyətini qoruyub saxlamışdır. Avropaya inteqrasiyanı sürətləndirmək üçün Azərbaycan və Gürcüstan iqtisadi inkişafları üçün Qərb bazarlarına daxil olmaları vacib şərtdir. Başqa bir periferiya yanaşmasına görə, Cənubi Qafqazı funksional baxımdan digər regionlar arasında tranzit əhəmiyyəti böyükdür ki, müvafiq olaraq, Cənubi Qafqazın Qərb-Şərq ticarət əlaqələrində periferik xarakter daşıması və istehlak bazarı kimi region Aİ ölkələri üçün mühüm əhəmiyyət kəsb edir. Bu ilk növbədə Xəzər hövzəsi enerji ehtiyatlarının təhlükəsiz daşınması ilə əlaqədardır. Ona görə ki, Xəzər hövzəsi enerji ehtiyatlarının təhlükəsiz daşınması Aİnin Fars körfəzi və Rusiyadan asılılığını azalda bilər [18, s. 165]. Bu da regionda təhlükəsizlik və sabitlik siyasətinin əsasını təşkil edir. Aİ buna nail olmaq üçün ilk növbədə, Cənubi Qafqaz münaqişələrinin həllinə nail olmalıdır. Lakin bu, heç də o demək deyil ki, Cənubi Qafqazda Avropanın iqtisadi və təhlükəsizlik maraqlarına qarışmır. Çünki Xəzər dənizi enerji ehtiyatlarının Qərb bazarına təhlükəsiz daşınması Aİ-nin enerji təhlükəsizliyi sistemində müəyyən yer tutur. Ermənistan-Azərbaycan və Rusiya-Gürcüstan fikir ayrılıqları həqiqətən də Aİ-nin cənub sərhədlərində sabitliyi poza bilər ki, bu da onları Avropanın əsas maraqlarına, xüsusən də Aİ-nin Cənubi Qafqaz siyasətinə təsir göstərir. Bu məqsədlə Aİ Cənubi Qafqaz siyasətini hələ ki, Rusiya ilə münasibətlərinin gərginləşdirməməyə çalışır. Lakin Rusiyanın Ukraynaya hücumu və təcavüzkarlıq siyasəti Aİ–ni Rusiya ilə əməkdaşlıq siyasətinin dəyişməsinə gətirib çıxara bilər. Nəticədə hər iki tərəf iqtisadi böhranla üzləşə bilər.

Rusiyada xüsusən Vladimir Putinin hakimiyyətə gələndən sonra Gürcüstana qarşı münasibətləri rasional siyasət çərçivəsində sovet dövründə olduğu kimi qalırdı. Rusiya çalışırdı ki, regionda enerji resurslarının istehsalı, nəqli və paylanması sahələrində mütləq söz sahibi olsun. Bu siyasət Ermənistan üzərində uğurla həyata keçirilməkdə davam edir və xüsusilə 2008-ci ildə Gürcüstanla müharibədən sonra Moskvanın İrəvan üzərindəki nəzarəti gücləndi. Gürcüstan Rusiya təzyiqlərindən xilas olmaq məqsədi ilə regionda özünə müttəfiqlər axtarırdı, xüsusən də Azərbaycanla əlaqələri inkişaf etdirmək Tiflisin xeyrinə idi. İki ölkə arasında enerji sahəsində Şimal-Cənub təbii qaz kəməri və bir sıra en-

erji əməkdaşlıqları mövcud olmaqda davam edir. Rusiya isə Azərbaycanla münasibətləri gərginləşdirməməyə çalışır, xüsusəndə Moskvanın enerji siyasəti Bakının enerji tarixi ilə iç-içə olduğundan, o, bu ölkəni heç vaxt itirmək istəmir. Bu səbəbdəndi ki, rəsmi Moskva Azərbaycanın enerji layihələrində iştirak etməklə bu bazarda mövcudluğunu davam etdirmək istəyir. Rəsmi Moskva, istər enerji istehsalında, istərsə də nəqliyyat xətlərində mütləq söz sahibi olmaq istəyini daim vurğulayır. Bu vəziyyət Cənubi Qafqaz ölkələrinin daim başqa ölkələrlə əməkdaşlıq etməsində və xarici kapitalın regiona cəlb olunmasında problem ilə üzləşməsinə səbəb olur.

Rusiya-Ukrayna müharibəsi və onun ətrafında cərəyan edən hadisələr Cənubi Qafqazda Rusiya-Türkiyə arasındakı siyasi ziddiyyətləri yumşaltmağa imkan yaratdı. Əslində, son vaxtlar Rusiya diplomatiyasının gücü və ordusunun qüdrəti ilə cənub sərhədlərində yeni geosiyasi ittifaqın yaradılmasına nail olub. Suriyada islamçı terrorçular üzərində qələbə və sonuncunun Rusiya, Türkiyə və İranın məsuliyyət zonalarına bölünməsi regionda güc balansını tamamilə dəyişdi və bu, üç ölkə liderinin Soçidə keçirilən qalib konfransında təsdiqini tapdı. Yaxın Şərqdə cərəyan edən proseslər Cənubi Qafqaz regionunda da mübahisəli məsələlər ətrafında danışıqların yerindən tərpənməsinə təkan oldu. Keçmiş İttifaq ölkələri arasında Rusiya ilə ən çox problem yaşayan ölkə Gürcüstan olub. Abxaziya və Cənubi Osetiya problemləri, neft kəməri marşrutları və s. məsələlər iki ölkə münasibətlərinə təsir göstərən əsas amillərdir. 1992-ci il yanvarın 6-da Gürcüstanda təşkil edilən çevriliş nəticəsində anti-Rusiya siyasəti ilə tanınan Zviad Qamsaxurdiya hökuməti istefaya göndərildi [17, s.601-602]. Lakin yeni hakimiyyət də rusiyapərəs siyasət yürütmək istəmirdi. Belə ki, Gürcüstanın yeni administrasiyasının ölkədəki Rusiya hərbi bazalarının müddətinin uzadılmasına münasibəti və MDB-yə üzv olmaq istəməməsi separatçılarla münaqişələrdə özünü büruzə verdi [13, s.73-74]. Məhz bu səbəbdəndir ki, regionda keçən əsrin sonlarında böyük dövlətlər arasında gedən oyunun ilk qurbanı Gürcüstanın ilk prezidenti Z.Qamsaxurdiya olmuşdur. Rusiyanın dəstəklədiyi Eduard Şevardnadze hakimiyyətə gələndən sonra Tiflisi öz siyasətini dəyişməyərək Qərbə inteqrasiya etməyə üstünlük verdi. Rusiya çalışırdı ki, bölgədəki enerji xətləri Supsa limanından keçsin. Çünki Supsa limanı Rusiyanın nəzarətində idi. E.Şevardnadzenin buna etiraz etməsi 1995-ci ilin avqustunda avtomobil qəzasında yaralanması ilə nəticələndi. Rusiyanın Abxaziya və Cənubi Osetiya bölgələrindəki münaqişələrdə separatçı qüvvələrə dəstək verməsi, E.Şevardnadze hakimiyyətini Rusiya ilə münasibətlərə diqqət yetirməyə məcbur edirdi.

Rusiyanın Cənubi Qafqaz siyasətində əsas yeri Gürcüstan ilə olan münasibətlər tutur. Bu məqsədlə rəsmi Moskva Gürcüstandakı separat əraziləri dəstəkləməklə rəsmi Tiflisi özündən asılı vəziyyətə salmaqla onun Qara dəniz sahilində yerləşən əsas ticarət limanlarına nəzarət etməyə çalışır. Rusiya keçən əsrin 90-cı illərində buna nail olmuşdur. Lakin Gürcüstanda Mixeil Saakaşvilinin hakimiyyətə gəlməsi ilə Türkiyənin və Aİ-nin təsirinin artması Rusiyanın bu pla-

nına narahatçılıqlar yaratdı ki, bu da 2008-ci ilin avqustunda Rusiya-Gürüstan gərginliyi ilə nəticələndi. Xəzər hövzəsi enerji qaynaqlarının, xüsusən də Azərbaycan neft və qazının Qərb bazarlarına nəqli ilə bağlı danışıqlar başlayandan Moskva öz maraqlarını nəzərə almayan hər hansı qərarı qəbul etmək istəmirdi. Səbəblər belə görünürdü ki, Rusiya üçün Xəzər hövzəsi enerji qaynaqlarının nəqli məsələsi artıq deyildiyi kimi, geniş regional təsirə malik olacağı gözlənilən mühüm geosiyasi sualdan daha çox iqtisadi məsələ idi. Buna görə də Moskva artıq mövcud olan Bakı-Qroznı-Novorossiysk boru kəmərinin yenilənməsinə çalışırdı ki, bu kəmər Sovet dövründə Azərbaycan neftinin dünya bazarlarına ixracı üçün əsas marşrut idi [10]. Sonradan tankerlərin Türkiyə boğazları vasitəsilə daşınmasını nəzərdə tutan "Rusiya" marşrutunun reallaşmasının qarşısını almaq üçün Ankara Montrö Boğazlar Konvensiyasının (1936) yenidən baxılmasını tələb etmişdi ki, bu da Ankara və Moskva arasında siyasi gərginliyə səbəb olmuşdur.  Bu müqavilə İstanbul boğazları ticarəti üçün açıq elan olunurdu. Lakin müasir supertankerlərin boğazlardan keçməsinin təhlükəli olduğunu səbəb gətirən Türkiyə bu məsələyə yenidən baxılmasını istədi. Türkiyə bəyan edib ki, konvensiyanın imzalanmasından təxminən altmış il sonra baş verən texnoloji dəyişikliklərə görə, müasir supertankerlərin boğazlardan keçidini məhdudlaşdırmaq lazımdır**.** Moskva dəfələrlə bu səyləri yolverilməz hesab etdiyini bildirsə də, Montrö beynəlxalq müqaviləsinin etibarlılığı birtərəfli qaydada şübhə altına alına bilməzdi. Rusiyanın nöqteyi-nəzərincə, Ankaranın boğazlar vasitəsilə daşıma rejimini müəyyən etmək hüququ yoxdur, çünki "Bosfor sırf siyasi problemdir. Heç bir texniki və ya ekoloji problem yoxdur ki, onu real şəkildə aradan qaldırmaq mümkün olmasın; Türklər sadəcə olaraq neft şirkətlərini "əsas" Azərbaycan neftinin ixracı üçün Bakı-Ceyhan yolunu seçməyə məcbur etmək niyyətindədirlər" [15, s 80-81]. Çünki Türkiyə və Qərbin nüfuz etməsi Rusiyanın Cənubi Qafqaz siyasəti üçün narahatçılıq yaradırdı ki, burada da əsas açar rolu Gürcüstanın üzərinə düşürdü. Buna da səbəb Xəzər hövzəsi enerji resurslarının keçəcəyi marşrutun bu ərazidən keçməsi Gürcüstanı bölgə siyasətində aktual edirdi. Başqa bir tərəfdən Rusiya Gürcüstan ərazisi olan Abxaziyadakı  Qara dəniz sahilində yerləşən Novarossiyski və Tuapse limanlarına nəzarət etməklə, Poti, Supsa və Batumi limanlarına da yaxınlaşması demək idi. 1995-ci ilin avqustunda Rusiya Gürcüstan ərazisində dörd hərbi bazasını yerləşdirməklə əslində buna nail olmuşdu. Rusiya Gürcüstandakı ərazi və etnik mənşəli münaqişələri dəstəkləməklə Azərbaycan və Qazaxıstan neftinin Gürcüstandan keçərək Türkiyəyə Qərb marşrutu [7, s. 5] ilə getməsinə nəzarət etmək istəyindən irəli gəlirdi.

Ermənistan-Azərbaycan arasında müharibədən sonra Türkiyə və Rusiyanın bölgə siyasətini qiymətləndirmək çətindir. Bəzi ekspertlər Ankara və Moskvanın müharibədən sonra bölgədəki əməkdaşlıqlarını mülahizə edərkən Ağdamda hər iki dövlətin mərkəzinin fəaliyyətinin Cənubi Qafqazda sülhün möhkəmləndirilməsində, xüsusən də Moskva ilə Ankara arasında tərəfdaşlıq əlaqələrinin

inkişafında oynayacağı rolu xüsusi olaraq vurğulayırlar. "Moskva-Bakı" agentliyi yazır: "Qarabağ münaqişəsinin həllinə nail olunmasında həm Rusiyanın, həm də Türkiyənin rolunu qiymətləndirmək çətindir. Mütəxəssisləri atəşkəs rejiminə riayət olunmasına nəzarət edən və münaqişələrin qarşısının alınması ilə məşğul olan Rusiya-Türkiyə monitorinq mərkəzi açılıb. Onların təhlükəsizliyini də öz növbəsində Azərbaycan qoşunları təmin edir. Bu, üç ölkə - Rusiya, Türkiyə və Azərbaycan arasında mükəmməl qarşılıqlı fəaliyyətdən xəbər verir" [21]. Bu münasibətləri araşdırdıqda belə nəticəyə gəlmək olar ki, bölgədə formalaşan Ankara-Bakı-Moskva oxunun reallığa çevrilməsi, müharibədən sonra yaranan Rusiya-Türkiyə birgə monitorinq mərkəzi Moskva və Ankaranın gələcəkdə maraqlarının toqquşduğu digər regionlarda da oxşar qarşılıqlı fəaliyyət üçün alqoritm yarada biləcəklərinə işarədir. Onu da qeyd etməliyik ki, bu cür birgə fəaliyyət Liviya və Suriyada olmuşdur. Rusiya və Türkiyə danışıqlar yolu ilə bütün məsələləri həll edə bilmişdilər. Lakin buna baxmayaraq, Qara dəniz və Cənubi Qafqazda hər iki dövlətin maraqları toqquşmaqdadır.

Rusiya, Azərbaycan və Türkiyə dövlətlərinin hər birini qarşılıqlı fəaliyyətə, yaranmış problemi həll etməyə sövq edən addımlar atıb. Azərbaycan regionda sülhün tərəfdarı olduğunu diplomatik gedişi ilə bildirdi. Azərbaycan bölgədəki etnik mənşəli və ərazi münaqişələrini tezliklə region dövlətlərinin ərazi bütövlüyü daxilində həllinin mümkün olduğunu nəinki Rusiya elitasına, hətta dünyanın böyük dövlətlərinə çatdıra bildi. Rusiya, Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanmasında Türkiyə ilə əməkdaşlıq etməklə bölgədəki nüfuzunu itirmək qorxusundan azad olacaqdır. Bunun qarşısını almaq üçün Rusiya Qarabağla bağlı prosesdə fəal iştirak etməyə borclu idi. Rusiya və Türkiyənin münaqişənin nizamlanması ilə bağlı qarşılıqlı fəaliyyətini qiymətləndirərkən belə bir formatın formalaşmasının hansı fonda baş verdiyini anlamaq vacibdir. Rusiyanın Qərblə son dərəcə gərgin münasibətləri onun Ermənistan-Azərbaycan müharibəsi sonrası regionda öz geosiyasi mövqelərini möhkəmləndirməyə məcbur edirdi. İstər Moskva, istərsə də Ankara bölgədə hər hansı siyasi addımı atarkən "Amerika faktorunu" nəzərə almalıdırlar. Lakin Ukraynaya Rusiyanın hücumu rəsmi Vaşiqtonun hələ ki Cənubi Qafqaz siyasətini birqədər ləngitdi. Cənubi Qafqazda Rusiya-Türkiyə əməkdaşlığı asan olmayacaq, lakin hər iki ölkənin bu yolda öz milli mənafelərinə qarışmadan, əksinə, qarşılıqlı fəaliyyəti gücləndirməklə nail olmaq olar.

Ankaranın uğurlu diplomatik gedişi onun Cənubi Qafqazda tərəfdaşı Azərbaycan və Gürcüstan üçün hərbi qələbə qazana bilən güclü oyunçu kimi imicini artırdı. Müharibənin yekunu olaraq üç tərəfli Bəyannamə imzalansa Ermənistan hələ də regionda sülh və sabitlik üçün əsas maneələrdən biri olaraq qalmaqdadır. Onu da qeyd etməliyik ki, bu Bəyannaməyə əsasən beş ildən sonra Rusiya sülhməramlılarının ərazilərimizdən çıxarılmasını tələb etmək üçün hüquqi əsasları olacaq və Qarabağa hərbi güclə tam nəzarəti bərpa edəcəkdir. Bunun nəticəsində Rusiya bölgədə tam nəzarəti itirəcək ki, Kreml üçün xoşagəlməz

dilemma yaradacaqdı. Rusiya çox güman ki, bu dar fürsət çərçivəsindən istifadə edərək diplomatiya yolu ilə bölgədə qalmasını saxlayacaqdır. Hələlik missiyanın qeyri-mümkün olduğu görünür. Döyüş meydanında əhəmiyyətli təsir mövqeyi ələ keşirən rəsmi Bakı danışıqlar masasında da öz üstünlüyünü qorumağa çalışacaq. Belə olan halda İrəvan acınacaqlı reallıqla üzləşməyə məcburdur. Bölgədə Rusiya ilə ABŞ arasındakı münasibətlərin gərginləşməsi və Ukraynadakı hadisələr Cənubi Qafqazı təhlükəli vəziyyətə salır və bu da qarşıda böyük risklərin olduğuna işarə edir.

Cənubi Qafqaz Türkiyənin siyasi, iqtisadi və mədəni əlaqələri ilə təsirini artıra biləcəyi yeni bir ərazidir. Belə şəraitdə Mərkəzi Asiyada baş verən hadisələr Qafqazdakı beynəlxalq vəziyyətdən asılı olaraq dəyişməkdədir. XIX əsrdə başlayan "Böyük oyun" siyasəti sonralar Qafqaz bölgəsinə də aid edilmiş və iki dövlət arasında tarixən gedən bu oyun sonralar bölgə xalqları arasında gərginliyə yol açmışdır. Keçən əsrin sonlarında bölgədə siyasi maraqları olan ABŞ və Aİ tarixən bölgə ilə siyasi və qohumluq əlaqələri olan Türkiyədən istifadə etməyə çalışırdılar. Onların əsas istəyi SSRİ - nın varisi olan Rusiyanın bölgədəki təzyiqlərini azaltmaq və Xəzər enerji resurslarını sərbəst və təhlükəsiz Qərb bazarlarına daşımaq idi. Əsas məqsədlərdən biri Rusiyaya alternativ "cənub enerji dəhlizini" qurmaq idi ki, xüsusən Rusiyada V.Putinin iqtidara gəlməsindən sonra bu məsələ problem olmuşdur. Ankaranı Moskva ilə qarşılaşdırmağa çalışan Qərb dövlətləri müəyyən dərəcədə buna nail olsalar da, regiondakı son hadisələr xüsusən, Ermənistan - Azərbaycan arasındakı müharibədən sonra bölgədə sülhü və sabitliyi yaratmaq məqsədi ilə Türkiyə - Rusiya əməkdaşlığı Qərbin planını puç etdi. Başqa bir tərəfdən bölgə ilə siyasi, iqtisadi və mədəni əlaqədə olan Türkiyə məqsədlərini həyata keçirmək və bəzi həllini gözləyən məsələləri beynəlxalq hüquq daxilində nizama salınmasında köməklik göstərməlidir. Lakin bölgədəki geosiyasi rəqabət xüsusilə də "dondurulmuş" münaqişələrin həllini gələcək zamanlarda belə görsətmir. Lakin Türkiyə regionda bu problemlərin çoxunu həll edə bilməsə də, bəzi məsələlərin həllində köməkçi ola bilər. Türkiyə bölgədə öz mənfəəti üçün sülh və sabitliyi qorumaq məqsədi ilə:

- regionun aparıcı dövlətlərindən olan Gürcüstan və Azərbaycanla yüksək səviyyədə münasibətlər qurub və özünü regionda hər iki dövlər üçün etbarlı müttəfiqi olmalı;
- Azərbaycan və Gürcüstanın xarici siyasətində region qonşuları ilə problemlərinin həllinə kömək etmək və ona hər sahədə dəstək olmalı;
- Cənubi Qafqazda sülh bərqərar olduqdan sonra bu ölkələrlə müdafiə yönümlü təhlükəsizlik əlaqələri qurmalı;
- İqtisadi sistem mübadiləsi və əməkdaşlığının həyata keçirilməsinin bütün aspektlərində kömək etmək və hər cür özəl təşəbbüsləri təşviq (həvəsləndirmək) etməli;
- Türkiyə, region ilə mədəniyyət, iqtisadiyyat və sosial baxımdan yaxınlaşmasına şərait yaratmaqla İranın Rusiyanın dini və iqtisadi təsiri altına düş-

məsinin qarşısını almalı.

**Nəticə.** Azərbaycan dövlətçilik xəttini və iqtisadiyyatını inkişaf etdirərək (xüsusilə enerji sektorunu və nəqliyyat infrastrukturunu) mövcud münaqişələrin həlli mexanizmini dəyişdirərək öz ərazi bütövlüyü çərçivəsində adekvat addımlar atmışdı. Azərbaycan 44 günlük müharibə ilə buna nail olsa da, Gürcüstan hələ ki, ərazisindəki "dondurulmuş" münaqişələrin həllində uğur qazana bilməmişdir. Bir tərəfdən, hər iki dövlət Avropa ilə Qonşuluq Siyasətini uğurla reallaşdırmaqla Qərb regionuna inteqrasiya olunmağa çalışırlar. Onların bu cür siyasəti  Şimal qonşusu Rusiyanın narahatlığı ilə qarşılaşırdı. Nəticədə sülh və sabitlik pozulur ki, bu da regionun iqtisadi inkişafı üçün maneə yaradır və Moskva bölgədəki separatizmdən Qərblə geosiyasi rəqabətdə alət kimi istifadə etməyə çalışır.

Türkiyə, Cənubi Qafqazın ən çox Qərb pərəstişliyi ilə seçilən dövləti Gürcüstan ilə siyasi əlaqələrində ehtiyatlı olmalıdır. Belə ki, Tiflisin Qərbə doğru yönəlməsi xüsusən, rəngli inqilabdan sonra M.Saakaşvilinin hakimiyyətə gəlməsi Gürcüstanda antirus meyillərinin artması Türkiyənin əsas ticarət tərəfdaşı olan Rusiya ilə bölgədə daha həssas davranması ilə nəticələndi. Başqa bir tərəfdən Türkiyənin enerji idxalatçısından ixracatçısına çevrilməsinə imkan yaradan Xəzər dənizi enerji resurslarının təhlükəsiz Gürcüstan üzərindən Qərb bazarlarına nəqli Ankara və Tiflisin ümümi maraqlarıdır. Gürcüstan, Türkiyənin xarici siyasətinin mühüm ekspansiyalarından birinə çevrilən Cənubi Qafqaz və Orta Asiyanın təhlükəsizliyi, Türkiyənin bölgəyə çıxışı üçün qısa müddətdə regional geosiyasətini həyata keçirmək üçün ən mühüm bölgə ölkəsidir. Türkiyə, bölgədə Rusiya və Qərbin təsirini uzaqlaşdırmaqla  bəzi hədəflərə çatmaq niyyətindədir. Türkiyə, ilk növbədə bölgədə təhlükəsizliyi təmin etməklə əsas ticarət tərəfdaşı olan  Rusiya ilə nəqliyyat marşrutları üçün rahat keçid zonası yaratmaq və rəsmi Moskva ilə münasibətləri gərginləşdirmədən bufer zonasına çevirməkdir. Ukraynadakı məlum hadisələr hələ ki, Rusiyanı tam mənasıyla Cənubi Qafqazdakı proseslərə qarışmaq imkanı vermir. Həm də Türkiyəni Ukraynaya yardım etməkdə uzaqlaşdırmaq üçün Rusiya Cənubi Qafqazı Türkiyəyə güzəştə getmək niyyətindədir. İkinci bir tərəfdən isə Türkiyə iqtisadiyyatını gücləndirmək üçün qarşılıqlı maraq prinsipini qorumaq şərti ilə bölgənin iqtisadi potensialından faydalanmaqdı.

Aparılan araşdırma nəticəsində belə qənaətə gəlmək olar ki, Türkiyə, Gürcüstan və Azərbaycan arasında iqtisadi əlaqələrin strateji səviyyəyə çatması üçün hərəkətverici qüvvə olub. Xüsusilə enerji sahəsində əməkdaşlıq hər üç ölkənin iqtisadi kontekstdə birləşdirən enerji xətləri BTC, BTE və TANAP kimi beynəlxalq nəhəng layihələrlə daha da dərinləşdirməkdir.. Bundan əlavə, enerji sahəsində başlayan əməkdaşlıq nəqliyyat və kommunikasiya sahələrində hər üç dövlətin də dəstəklədiyi və Avropa ilə Asiyanı birləşdirəcək "Dəmir İpək Yolu" adlanan BTQ dəmir yolu layihəsi böyük əhəmiyyət kəsb edir. Regional əlaqələrin yüksələn xətt üzrə inkişaf etməsi Azərbaycan, Gürcüstan və Türkiyə arasında Cənubi Qafqazda dərinləşən və artan üçtərəfli əməkdaşlıq olaraq yara-

dılan mexanizm iqtisadiyyatdan tutmuş təhlükəsizliyə qədər müxtəlif sahələrdə üç ölkənin ümumi maraqlarına və gözləntilərinə xidmət edir. Bu şəraitdə Türkiyə Cənubi Qafqazdakı maraqları çərçivəsində Azərbaycan və Gürcüstanla hər sahədə əməkdaşlıq edir və Rusiya ilə "Sülh kəməri" yaratmaqla regional təhlükəsizliyə töhfə verir.

## Ədəbiyyat siyahısı


1. *Arı T. Orta Asya ve Kafkasya. "Rekabetten İşbirliğine" Bursa: MKM Yayıncılık 2010,*
2. *Aslanlı A. Qqlobal Siyasətdə Qafqaz: 22 il əvvəl və indi. 20.05.2013 http://www.qafsam.org/page/469/az*
3. *Aydın M. Turkish Policy Toward the Caucasus. The Quarterly Journal. 2002, No.3 s. 39-47*
4. *B. Napolyon'un 10 Kasım 1804'te Prusya Kralı'na yazdığı mektuplarda. Correspendance de Napoleon (Paris 1862) X60, NO 8170 Esra Diri. Uluslararası İlişkiler Kütüphanesi. s. 3-41*
5. *Cənubi Qafqazın geosiyasi mənzərəsi: mürəkkəblik və risklər fonunda. 29.03.2019. Bakı, 29 mart. AZƏRTAC. https://azertag.az/xeber/Cenubi_Qafqazin_ geosiyasi_menzeresi_murekkeblik_ve_riskler_fonunda-1263163*
6. *Cohen A. The New Game: Oil Politics in the Caucasus and Central Asia. The Thomas A. Roe Institute of Economic Policy Studies. 1996. p.5*
7. *Doğan Ş. P. "Kafkasya'da Türkiye, Azerbaycan ve Gürcistan İttifakının Bölgesel Güvenliğe Etkileri", İstanbul Gelişim Üniversitesi Sosyal Bilimler Dergisi, 6 (2), Ekim 2019, s. 248-265*
8. *İbrahimov A, Mutluer M. Güney Kafkasya' da Türkiye- Rusya etkileşimi. Soğuk Savaş sonrası sosyal, ekonomik ve siyasal gelişmeler bağlamında Güney Kafkasya. İzmir Iksad Publications – 2021, - s.7*
9. *Igolkin A., 2004. Early Lessons of Mutually Beneficial Cooperation, Oil of Russia. Oil of Russia. Available at: http://www.oilru.com/or/17/230/*
10. *Karadeniz Ekonomik İşbirliği ve Türkiye, Harp Akademileri Komutanlığı, İstanbul, Harp Akademileri Basımevi, 1995, s. 2*
11. *Larenkov A. «Большая игра» в Каспийском регионе. Главным инструментом влияния России в соседних государствах должна стать «мягкая сила» 19 декабря 2017 https://svpressa.ru/blogs/article/188970/*
12. *Memmedov A. Güney Kafkasya'da Etnik Çeşitlilik ve Çatışma. Yayımlanmamış Ankara Üniversitesi 2002 Ankara. s. 73-74*
13. *Memmedli M. (2020). Kiçik Dövlətlərin Müdafiə Strategiyasının Müqayisəli Tehlili Güristan ve Ermenistan nümunəsində. Baku: enter of Analyi of international relation. s. 23*
14. *Süleymanov E. Filip Černý. The Southern Caucasus Pipelines and the Caspian "Oil Diplomacy" The issue of transporting Caspian oil and natural gas to world markets. RIPS, Vol. 11, núm. 4, 2012, 77-105.*
15. *Uludağ B. (1999). Sovyetler Birliği ve Sonrası Dönemde Kafkasya'daki Ulusçu Ayrılıkçı Akımlar. Yayınlanmamış Doktora Tezi, Ankara Üniversitesi, Ankara.*
16. *The South Caucasus: a challenge for the EU, Chaillot Papers n°65, December 2003, EU Institute for Security Studies, Paris, p. 164-168,*
17. *Yalçınkaya A. Kafkasya'da Siyasi Gelişmeler: Etnik Düğümden Küresel Kördüğüme, Ankara: Lalezar Kitabevi Yayınları, - 2006,*
18. *Young M. In an interview, Alexander Gabuev discusses the Nagorno-Karabakh conflict and identifies winners and losers. November 12, 2020. https://carnegie-mec.org/diwan/83207*


***Rəyçilər: dosent Rövşən Hətəmov, dosent Səidə Quliyeva***

**UOT 94 (479.24)**

# ABŞ-AZƏRBAYCAN MÜNASİBƏTLƏRİNİ ŞƏRTLƏNDİRƏN AMİLLƏR (1991-2022)

**ƏSGƏR ZEYNALABDİNOV**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, müəllim*
*asgarzeynalabdinov@bsu.edu.az*
*ORCID ID-0000-0001-8835-680X*

*Rəsmi Vaşinqton 1994-cü ildə Əsrin müqaviləsinin imzalanmasından sonra Cənubi Qafqaz regionuna xüsusi əhəmiyyət verməyə başladı. 2020-ci il 27 sentyabr tarixindən başlayan 44 günlük müharibə nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü bərpa edərək regionu erməni faşizmindən xilas etdi. Azərbaycanın uğurlu xarici siyasət strategiyası iri dövlətlərin İkinci Qarabağ müharibəsindən sonra regiona yönəlik siyasətində dəyişikliklərə səbəb oldu. Əlverişli coğrafi mövqeyi, zəngin enerji resursları və balanslaşdırılmış xarici siyasət kursu Azərbaycanın ABŞ-la münasibətlərinin yüksələn xətlə inkişafı ilə nəticələndi. Məqalədə bu dəyişikliklər və ABŞ-Azərbaycan münasibətlərini şərtləndirən amillər təhlil edilir.*
***Açar sözlər**: ABŞ, Azərbaycan, enerji böhranı, erməni faşizmi, diplomatik münasibətlər*

## *FACTORS DETERMINING US-AZERBAIJANI RELATIONS (1991-2022)*

*Official Washington began to attach special importance to the South Caucasus region after the signing of the "Contract of the Century" in 1994. As a result of a 44-day war that began on September 27, 2020, Azerbaijan restored its territorial integrity and saved the region from armenian fascism. Azerbaijan's successful foreign policy strategy led to changes in the policy of orientation of powerful states to the region after the Second Karabakh war. Favorable geographical position, rich energy resources and a balanced foreign policy led to the development of relations between Azerbaijan and the United States in the ascending line.*
***Keywords**: USA, Azerbaijan, energy crisis, armenian fascism, diplomatic relations.*

**Giriş.** İkinci Qarabağ müharibəsi nəticəsində öz ərazi bütövlüyünü bərpa edərək Cənubi Qafqaz regionunda yeni geosiyasi mühit formalaşmasına nail olan Azərbaycan iqtisadi və hərbi cəhətdən daha da qüdrətli dövlətə çevrildi. İlham Əliyevin uğurlu daxili və xarici siyasət kursu Azərbaycanın həm hərbi, həm də siyasi-diplomatik sahədə böyük uğurlar əldə etməsi ilə nəticələndi. Rusiyanın Ukraynaya təcavüzü nəticəsində dünyada meydana gələn enerji böhranı Azərbaycanın qlobal enerji təhlükəsizliyinin təminində rolunu daha da artırdı. Qeyd etdiyimiz bu reallıqlar ABŞ başda olmaqla dünyanın aparıcı dövlətlərinin təkcə Azərbaycana deyil, o cümlədən Cənubi Qafqaz regionuna yönəlik xarici siyasət kursunda dəyişikliklərin olmasına səbəb oldu. Azərbaycanın ərazi bütövlüyünə hörmətlə yanaşan ABŞ rəsmiləri tərəfindən İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan rəhbərliyinə göndərilən məktublarda və səsləndirilən bəyanatlarda bunu açıq şəkildə görmək mümkündür.

20 may 2022-ci ildə ABŞ Prezidenti Jozef Bayden tərəfindən Azərbaycan Prezidenti İlham Əliyevə göndərilən məktubda əks olunan fikirlər yuxarıda

qeyd etdiyimiz reallıqların bariz nümunəsidir: *Azərbaycan Avropa və dünya bazarlarının təhlükəsizliyinin təmin olunması və sabitləşdirilməsində önəmli rol oynayır. Azərbaycanın Ukraynanın suverenliyinə dəstəyi, habelə Ukraynaya göstərdiyi humanitar və enerji sahəsində yardımı vacib ismarış verir.Amerika Birləşmiş Ştatları bütün Qafqaz və Trans-Xəzər regionunun çiçəklənməsinə imkan verəcək Azərbaycan ilə Ermənistan arasında diplomatik təmasların intensivləşdirilməsinə və Azərbaycanın iqtisadi, nəqliyyat və insanlararası əlaqələrinin qurulmasına kömək etməyə hazırdır. Rusiyanın Ukraynaya qarşı müharibə ilə beynəlxalq təhlükəsizliyin əsas sütunlarını sıradan çıxarmağa çalışdığı bu qlobal qeyri-sabitlik dönəmində Amerika Birləşmiş Ştatları Azərbaycanın müstəqilliyi və suverenliyinə öz dəstəyini bir daha təsdiq edir* [3]. ABŞ Prezidenti Jozef Bayden tərəfindən ünvanlanan bu məktubda rəsmi Vaşinqtonun qlobal enerji təhlükəsizliyinin təminində Azərbaycana verdiyi önəm bir daha təsdiqlənir ki, məhz Azərbaycanın enerji ehtiyatları baxımından zənginliyi ABŞ-Azərbaycan münasibətlərini şərtləndirən əsas amillərdən biridir.

**ABŞ-ın Azərbaycan siyasətinin qısa təhlili.** Soyuq müharibənin başa çatması ilə formalaşan yeni dünya düzənində ABŞ digər ərazilərdə olduğu kimi, Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarında da iqtisadi və hərbi-siyasi maraqlarını gücləndirmək üçün ciddi addımlar atmağa başladı. Cənubi Qafqaz dövlətləri ilə qarşılıqlı münasibətlərin qurulması və müxtəlif sferalarda əməkdaşlığın genişləndirilməsi ABŞ üçün prioritet məsələyə çevrildi. Elə bu məntiqlə də rəsmi Vaşinqton Azərbaycanla münasibətlərə də xüsusi önəm verməyə başladı. ABŞ-ın 1991-ci il dekabrın 25-də Azərbaycanın müstəqilliyini tanıması ilə ikitərəfli əlaqələrin qurulması yolunda ilk və mühüm addım atıldı.

1992-ci ildə ABŞ Dövlət Katibi Ceyms Beyker Azərbaycana səfər etdi. Dövlət Katibinin Azərbaycan rəhbərliyi ilə görüşü zamanı rəsmi Vaşinqtonun Azərbaycanla diplomatik münasibətlərin qurulması istiqamətində addımlar atmağa hazır olduğu bildirildi. Səfər çərçivəsində Bakıda keçirdiyi mətbuat konfransında, Ceyms Baker Vaşinqton üçün keçmiş Sovet respublikaları ilə diplomatik münasibətlərin qurulmasından ötrü demokratiya, azad bazar iqtisadiyyatı, insan hüquqları və münaqişələrin sülh yolu ilə həlli kimi prinsiplərin vacib olduğunu bəyan etdi [10, s.5].

ABŞ Dövlət Katibinin müavini StroubTalbot Con Hopkins Universitetində çıxışı zamanı bildirdi ki, ABŞ Buş administrasiyasının operativ və uzaqgörən siyasəti nəticəsində Sovet İttifaqı dağılandan sonra meydana gələn müstəqil dövlətlərdə səfirliklər açan və onlara humanitar yardım göstərən ilk dövlətdir [5, s.66].

İkitərəfli diplomatik münasibətlərin qurulmasına baxmayaraq 1991-1993-cü illərdə ABŞ-Azərbaycan münasibətlərinin yüksələn dinamika ilə inkişafına nail olunmadı. Qeyd etdyimiz bu reallıqlar bir sıra sualların cavablandırılmasını və həmin mövzuların araşdırılmasını labüd edir: Qarşılıqlı münasibətlərin inkişafına mane olan amillər nə oldu? Nəyə görə rəsmi Vaşinqton bəhs edilən dövrdə (1991-1993-cü illər) Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqi-

şəsi ilə bağlı Azərbaycanın haqlı mövqeyini dəstəkləmədi? Nəyə görə təcavüzə məruz qaldığı halda Azərbaycana qarşı erməni lobbisinin təsiri altında Azadlığı Müdafiə Aktının 907-ci maddəsi ilə birbaşa dövlət yardımına qadağa qoydu? və nəhayət 1993-cü ildən ABŞ-Azərbaycan münasibətlərində yeni mərhələnin başlanmasına səbəb nə oldu?

Müstəqilliyin bərpasından sonra Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğal edilməsi zəmnində ölkədə meydana gələn qeyri-stabil vəziyyət fonunda mövcud hakimiyyətin uğursuz daxili və xarici siyasət kursu vəziyyətin daha da ağırlaşmasına səbəb oldu. O zamankı hakimiyyət nə daxildə, nə də xaricdə Azərbaycanın mövqeyini möhkəmləndirməyə nail olmadı. İlk öncə əsasən Rusiya, daha sonra isə Qərb yönümlü xarici siyasət kursu Azərbaycanın mövcud problemlərinin nəinki həllinə səbəb olmadı, hətta onun daha da pisləşməsinə gətirib çıxardı. Torpaqları işğala məruz qaldığı halda ölkə həqiqətlərinin tam dolğunluğu ilə dünya ictimaiyyətinə çatdırılmaması, digər ölkələrin Azərbaycanın haqlı mövqeyinin dəstəklənməsi istiqamətində əməli addımların atılmaması ABŞ-Azərbaycan münasibətlərinin inkişafına mənfi təsir etməklə yanaşı, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ABŞ-ın Azərbaycanın mövqeyini dəstəkləməməsi ilə nəticələndi. Öz növbəsində ABŞ tərəfindən Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşması istiqamətində kifayət qədər işlərin görülməməsi, iqtisadi vəziyyətin ağırlığı və əhatəli iqtisadi proqramın olmaması kimi fikirlərin səslənməsinə [4, s. 31], o cümlədən Azadlığa Müdafiə Aktının 907-ci düzəlişinin qəbul olunmasına səbəb oldu. Bütün bu çətinliklər fonunda köklü dəyişikliklərə nail olmaq olduqca çətin məsələ idi. Olduqca mürəkkəb vəziyyət formalaşmışdı.

Belə ağır vəziyyətdə 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə ABŞ-Azərbaycan münasibətlərində yeni mərhələ başlandı. Heydər Əliyevin uğurlu xarici siyasət kursu rəsmi Vaşinqtonun Ermənistan-Azərbaycan Dağlıq Qarabağ konflikti ilə bağlı strategiyasının dəyişməsinə, o cümlədən ABŞ-ın Azərbaycanın reallaşdırmaq istədiyi meqa həcmli beynəlxalq enerji layihələrinə dəstək verməsi və hətta onun birbaşa iştirakçısına çevrilməsinə səbəb oldu. 1994-cü ildə ABŞ daxil olmaqla dünyanın nəhəng dövlətlərinin nüfuzlu neft şirkətləri ilə "Əsrin müqaviləsi"nin imzalanmasına müvəffəq olan Heydər Əliyev enerji resurslarının dünya bazarına təhlükəsiz daşınması məsələsində də Ağ Evin dəstəyini ala bildi.

Heydər Əliyev siyasi kursunun davamçısı olan İlham Əliyevin hakimiyyətə gəlməsindən sonra da ABŞ-la münasibətlər yüksələn xətlə inkişaf etməyə başladı. İlham Əliyevin ABŞ-a səfərləri çərçivəsində ABŞ-ın yüksək səviyyəli dövlət rəsmiləri ilə görüşləri ikitərəfli münasibətlərin daha da inkişafına səbəb oldu. 2016-cı ildə Azərbaycana səfəri zamanı ABŞ Dövlət katibinin köməkçisinin Avropa və Avrasiya məsələləri üzrə müavini Bridcet Brinki səfərinin əsas qayəsi mövcud əməkdaşlıq əlaqələrinin daha da sıxlaşdırılmasına və möhkəmlənməsinə nail olmaqdan ibarət olduğunu bildirdi. ABŞ prezidentləri Barak Obama, Donald Tramp və Josef Bayden tərəfindən İlham Əliyevə ünvanlanan

məktublarda rəsmi Vaşinqtonun Azərbaycanın ərazi bütövlüyünə hörmət etdiyi, ABŞ-ın Azərbaycanı mühüm tərəfdaş hesab etməsi və qlobal enerji təhlükəsizliyinin təminində rolu xüsusilə vurğulanmışdır. Erməni faşizmini məhv etdikdən sonra ərazi bütövlüyünü bərpa edən Azərbaycan İlham Əliyevin uğurlu, balanslaşdırılmış xarici siyasət strategiyası nəticəsində rəsmi Vaşinqtonun Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması və yekun sülh müqaviləsinin imzalanması prosesində fəal iştirakına nail oldu.

**ABŞ-ın Azərbaycan siyasətini şərtləndirən əsas amillər.** Müstəqilliyin ilk illərində Azərbaycanla ABŞ arasında müxtəlif sahələrdə qarşılıqlı münasibətlərin qurulmasına nail olunmasa da, neft müqavilələrinin imzalanmasından sonra ABŞ üçün Azərbaycanın əhəmiyyəti artmağa başladı.Bu nöqteyi nəzərdən ABŞ-Azərbaycan münasibətlərini şərtləndirən vacib amillər kimi aşağıdakıları qeyd edə bilərik:

Birincisi, Azərbaycanın enerji ehtiyalarının zənginliyi və ABŞ-ın Xəzər dənizi hövzəsində möhkəmlənmək istəyi. XX əsrin 90-cı illərinin ortalarından başlayaraq ABŞ Xəzər neftinə xüsusi önəm verməyə başladı ki, neft üzərində nəzarəti təmin etmək üçün Qafqaz və Xəzərdə Amerika təsir dairəsi yaratsın. Bu dövrdə ABŞ post-sovet məkanına elə də ciddi təsir göstərmək imkanına malik olmadığından, Rusiyanın təsir dairəsinin genişlənməsinin qarşısını almaq üçün üç əsas nöqtədə-Balkanlarda, Cənubi Qafqazda və Orta Asiyada möhkəmlənməyi qarşısına geosiyasi məqsəd qoydu. ABŞ Dövlət Departamentinin iqtisadi işlər üzrə nazir köməkçisi Stüart Eyzenstat 1997-ci ilin 24 oktyabr tarixində çıxışı zamanı ölkəsinin Xəzər nefti və Qafqaza yönəlik xarici siyasətini açıqlamışdı. Buna istinadən ABŞ Qafqazdakı dövlətlərin müstəqilliyini qoruyacaq, demokratiya və iqtisadiyyatlarının inkişafına yardım edəcək. Qafqaz bölgəsində meydana gələn anlaşılmazlıqların həll edilməsinə və bölgədəki enerji ehtiyatlarının istehsalının artırılması ilə daşınma yollarının müəyyən edilməsində dəstək verəcəkdir.

İkincisi, Azərbaycanın əlverişli coğrafi və strateji mövqeyi. Ölkənin mühüm və əlverişli strateji, coğrafi mövqeyi onunla əsaslanır ki, Azərbaycan Avropa və Asiyanın kəsişməsində tarixi İpək yolu üzərində yerləşməklə, həm Orta Asiya, həm də Çin və Hindistana qədər olan ərazilərin əlaqələndirilməsində əsaslı rol oynayır.

Üçüncüsü, Azərbaycanda iqtisadi və siyasi sabitlik. Bu ABŞ-Azərbaycan münasibətlərini şərtləndirən ən əsas amillərdən biridir. Belə ki, XX əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanda bərqərar olan qeyri-iqtisadi və siyasi vəziyyətin mövcudluğu ABŞ-ın Azərbaycan siyasətinə ciddi təsir göstərməsinə səbəb oldu. Elə buna görə də müstəqilliyin bərpasından sonrakı ilk illərdə Azərbaycanla iqtisadi sahədə yalnız bir neçə müqavilə bağlayaraq, ölkəyə investisiyaların yatırılmasına marağı olmayan rəsmi Vaşinqton "Əsrin müqaviləsi"nin imzalanmasından sonra bu sahədə ciddi dəyişikliklər etdi. Düzgün xarici siyasət nəticəsində Azərbaycanda iqtisadi sabitliyin təmini ABŞ-ın ölkəmizə investisiyalar yatırmaq istəklərini formalaşdırdı. Bunun nəticəsində artıq 1997-ci

ilin 1-ci rübünə qədər olan dövrdə Amerika kapitalının iştirakı ilə Azərbaycanda kapital dəyəri 25,4 milyon dollar olan 55 birgə müəssisə yaradılıdı [6, s.82].

Dördüncüsü, Qafqazın neft və qaz ehtiyatarı baxımından zəngin ölkəsi olan Azərbaycanın ABŞ-ın ən mühüm strateji müttəfiqi olan Türkiyə ilə çox sıx, yaxın münasibətdə olması və bu ölkələrin xarici siyasət strategiyalarında bir-birilərinin maraqlarını nəzərə alması. Türkiyənin ABŞ-ın Qafqaz siyasətində mühüm yer tutmasını göstərən faktlardan biri SSRİ-nin dağılmasından sonrakı dövrdə ABŞ-ın xarici işlər naziri Ceyms Beykerin açıq şəkildə bölgədəki ölkələrə İran modelini deyil, Türkiyə modelini əsas götürmələrini tövsiyə etməsi oldu [8, s.124].

**Nəticə.** Ukrayna böhranı zəmnində dünyada meydana gələn siyasi və iqtisadi böhran çərçivəsində müstəqil və uğurlu xarici siyasət kursu yürüdən Azərbaycan qlobal enerji təhlükəsizliyinin təminində aparıcı dövlətlərdən birinə çevrildi. Balanslaşdırılmış xarici siyasət strategiyası əsasında Rusiya ilə münasibətləri nizamda saxlamağı bacaran rəsmi Bakı bu gündə Ukryananın ərazi bütövlüyünü dəstəkləməklə yanaşı, ağır şəraitdə olan ölkəyə humantinar yardım göstərməkdədir. Bu gün Azərbaycan Avropa İttifaqının etibarlı tərəfdaşıdır. Yuxarıda qeyd etdiyimiz amillər əsasında ABŞ xarici siyasət strategiyasında Azərbaycana xüsusi önəm verərək, bütün sferalarda ikitərəfli qarşılıqlı əlaqələrin inkişafında səylərini artırmaqdadır. Bu amillər isə öz növbəsində ABŞ-Azərbaycan münasibətlərində yeni reallıqlara şərait yaratmaqda davam edir.

## Ədəbiyyat siyahısı


1. *Azərbaycan-ABŞ dostluq və tərəfdaşlıq yollarında. Azərbaycan Respublikası Prezidentinin ABŞ-a işğüzar səfəri -Bakı: Nural,-2000 -182 s.*
2. *Alkan, H. Azerbaycan paradoksu: çarpaz baskılar altında Azerbaycanda siyasal sistem ve dış politika /H. Alkan -Ankara: USAK yayınları, -2010. - 256 s.*
3. *Amerika Birləşmiş Ştatlarının Prezidenti Cozef R.Baydendən (https://president.az/az/articles/view/56104) 19.11. 2022*
4. *Building Civil Societes in the former soviet repubics: A baseline assessment//George H.W. Bush Presidential Records, National Security Council, folder № 01487-017, row № 8,section № 9, paper-47*
5. *Дарабади, П.Кавказ и Каспий в мировой истории и геополитике XXI века / П. Дарабади. - Москва: Весь Мир,-2010.-214 с.*
6. *Информация о торгово-экономическом сотрудничестве между Азербайджанской Республикой и Соединными Штатами Америки // Историко-архивное управление Министерства иностранных дел Азербайджанской Республики, Фонд № 26, список №19, дело № 7, лист -195*
7. *Khelashvili G., Macfarlane N.S. The Evolution of US Policy Towards the Southern Caucasus. //-Ankara:Uluslararası ilişkiler,-2010. №26.-p.105-124*
8. *Kasım, K. ABD'nin Kafkasya politikası: enerji, güvenlik ve demokratikleşme denklemi. / K.Kasım. -Ankara: USAK, - 2008.- 322 s.*
9. *Тэльбот рассказывает о подходе США к Кавказу и средней Азии //Историко-архивное управление Министерства иностранных дел Азербайджанской Республики, Фонд № 26, список №19, дело №7, лист -195.*
10. *Thomas, F. Baker opens tour of the Caucasus//New York Times-1992, 12 February.-p.3-5*

**UOT 94 (479.24)**

# TARİXİN TƏDRİSİNDƏ AKTUAL PROBLEMLƏR: İKİNCİ QARABAĞ MÜHARİBƏSİ

**MƏTANƏT MƏMMƏDOVA**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, dosent*
*metanet.memmedova.61@mail.ru*

*Azərbaycan xalqı Zəfər tarixini yaşayır və bu tarix xalqımızın birlik əzmi, Ali Baş Komandanın sərkərdəlik məharəti, şəhidlərimizin qanı ilə əldə edilmişdir. Bu tariximiz tarixin tədrisi metodikasında gənc nəslə çatdırılmalı, onlara əvvəlkindən fərqli olaraq, Qarabağ mövzusunda pessimist ruh yox, qələbə ruhu aşılanmalıdır. Azərbaycan Ordusunun həyata keçirdiyi "Dəmir Yumruq" əməliyyatı ilə irimiqyaslı hərbi əməliyyatlar davam etdirildi və şanlı qələbəmizlə başa çatdı. Gənc nəsil tarixin tədrisi metodikasında bu mövzu ilə əlaqədar olan bir sıra tarixi faktları bilməli, həmin tarixi hadisələri təhlil etmək, naticə çıxarmaq, dəyərləndirmək bacarığına malik olmalıdırlar. Onlarda yeni biliklər və bacarıqlar, vərdişlər formalaşmalıdır. İlk olaraq, dərk edilməlidir ki, düşmənə sarsıdıcı zərbə vuran Azərbaycan ordusu ermənilər tərəfindən uydurulan "məğlubedilməz erməni ordusu" mifini tamamilə məhv etdi. Hər qarış torpaq Azərbaycanın igid şəhid və qazilərinin, zabitlərinin canı, qanı bahasına azad edilirdi. Ölkə başçısının yüksək siyasi məharəti sayəsində Azərbaycan dövləti hərb meydanı ilə yanaşı diplomatik və ideoloji cəbhədə də böyük uğurlar qazandı.Ölkə Prezidenti Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasəti haqqında dünya ictimaiyyətini məlumatlandırırdı. Türkiyə həmişə Azərbaycanın yanında oldu, bizə mənəvi və maddi dəstək verdi və bir neçə başqa ölkə də Azərbaycanın bu müharibədə haqlı tərəf olduğunu dəstəklədi, onun ərazi bütövlüyünü tanıdıqlarını bildirdi Azərbaycanın Zəfər qazanmasını əsaslandıran faktlar tam orta təhsilin bütün səviyyələrində, həmçinin, ali təhsil səviyyəsində tədris edilməlidir, çünki, Qarabağ müharibəsi, Qarabağın yeni infrastrukturunun yaranması, Qafqaz regionundakı reallıqlar, bəzi dövlətlərin ikiüzlü siyasətinin ifşa olunması bunu tələb edir.*

***Açar sözlər:*** *Tarixin tədrisi, Qarabağ müharibəsi, Zəfər tariximiz, Azərbaycan ordusu*

## *THE SECOND KARABAKH WAR AND CURRENT PROBLEMS IN TEACHING HISTORY*

*The people of Azerbaijan live the history of Victory, and this history was achieved by the unity of our people, the leadership of the Supreme Commander-in-Chief, the blood of our martyrs. This history must be passed on to the younger generation in the methodology of teaching history, and, unlike before, they must be instilled with the spirit of victory, not a pessimistic spirit on the subject of Karabakh. Large-scale military operations continued with Operation Iron Fist carried out by the Azerbaijani Army and ended with our glorious victory.The young generation should know a number of historical facts related to this topic in the methodology of teaching history, have the ability to analyze, draw conclusions and evaluate those historical events. They must form new knowledge and skills, competencies. First of all, it should be understood that the Azerbaijani army, which dealt a crushing blow to the enemy, completely destroyed the myth of the "invincible Armenian army" invented by the Armenians. Every inch of land was liberated at the cost of the lives and blood of the brave martyrs and veterans and officers of Azerbaijan. All citizens of the Republic of Azerbaijan have demonstrated ethnic, social and religious integrity, and perfect unity has been established on the front and rear.Thanks to the high political skills of the President, the Azerbaijani state has achieved great success on the*

*military and diplomatic fronts. The President informed the world community about Armenia's policy of aggression against Azerbaijan.Turkey has always stood by Azerbaijan, provided us with moral and material support and several other countries also supported Azerbaijan's rightful side in this war and said they recognized its territorial integrity. The facts justifying Azerbaijan's victory must be taught at all levels of secondary education, as well as at the level of higher education. Because the Karabakh war, the creation of a new infrastructure of Karabakh, the realities in the Caucasus region, the exposure of the hypocritical policies of some countries require it.*

***Keywords:*** *Teaching history, Karabakh war, history of our victory, Azerbaijan army*

**Giriş:** Cəmiyyətdə bir çox hadisələr baş verir, lakin onların hamısı "tarixi hadisə" statusunu ala bilmir. Hər hansı bir hadisənin tarixdə qalması üçün onun tarixi və hüquqi əsası olmalıdır, o, tarixi faktlara və mənbələrə söykənməlidir. Birinci Qarabağ savaşı kimi İkinci Qarabağ savaşı da artıq tarixə qovuşub, hər ikisinin müqayisəli təhlili, analiz və sintez əsasında araşdırılması, tarixin tədrisi metodikasında gənc nəslə çatdırılması aktualllıq kəsb edir. Azərbaycan xalqı müasir tarixini-Zəfər tarixini yaşayır və bu tarix xalqımızın birlik əzmi, Ali Baş Komandanın sərkərdəlik məharəti, şəhidlərimizin qanı ilə əldə edilmişdir. Bu tariximiz tarixin tədrisi metodikasında gənc nəslə tədris edilməli, onlara əvvəlkindən fərqli olaraq, Qarabağ mövzusunda pessimist ruh yox, qələbə ruhu aşılanmalıdır. 30 illik işğalın yekunu, erməni faşizminin çökdürülməsi, İkinci Qarabağ müharibəsində Şanlı ordumuzun müzəffər qələbəsi, şəhid və qazilərimizin canlarını Vətən uğrunda fəda etməsi, Ali baş Komandan-ordu-xalq birliyi, hərb tarixində əldə etdiyimiz yeniliklər dərsliklər vasitəsilə gənc nəslə çatdırılmalıdır. Azərbaycanın Qafqaz Regionunda yaratdığı reallıqlar, Prezident İlham Əliyevin müharibədə atdığı inamlı addımlar, imzaladığı sənədlər, dünya kütləvi informasiya kanallarına verdiyi müsahibələr, 10 noyabr Bəyanatı və onun nəticələri tarix dərslərinin prioritet mövzuları olmalıdır.

Hər bir qələbə birdən-birə təmin edilmir, onun qazanılması əvvəl baş vermiş tarixi hadisələrə və faktlara söykənir, hansı ki, bunlar sonrakı hadisələr üçün zəmin, baza rolu oynayır. 2016-cı ilin Aprel döyüşləri də, atəşkəs rejimi dövründə Azərbaycan və erməni qoşunlarının təmas xəttində baş verən böyük hərbi qarşıdurma da belə hadisələrdəndir. 2018-ci ildə Ermənistanda Nikol Paşinyanın hakimiyyətə gəlişi, 2019-cu ilin martında verilən "yeni torpaqlar üçün yeni müharibə"nin zəruriliyi haqqında bəyanat, N.Paşinyanın 2019-cu ilin avqustunda Xankəndinə etdiyi qanunsuz səfəri zamanı "Qarabağ Ermənistandır və nöqtə" deməsi sülh prosesinə ağır zərbə vurdu, eyni zamanda, müharibənin qaçılmaz olduğunu göstərirdi. İki ay sonra Rusiyada keçirilən "Valday" Beynəlxalq Diskussiya Klubunun illik iclasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev beynəlxalq ictimaiyyət qarşısında Ermənistan baş nazirinin məsuliyyətsiz sözlərinə münasibət bildirdi: "Qarabağ Azərbaycandır və nida işarəsi"deməklə, həqiqətən "Nida işarəsini" qoydu.

**İkinci Qarabağ müharibəsinin reallıqları və onun Vətən tarixində öyrədilməsi:** 2020-ci ilin ortalarından erməni hərbçilərinin təmas xətti boyu

Azərbaycan Ordusuna qarşı təxribatçı hərəkətləri Dağlıq Qarabağ probleminin dinc yolla həll edilməsinin mümkünsüzlüyünü dünya ictimaiyyətinə göstərdi [8]. Sentyabrın 27-də səhər tezdən başlayaraq, təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyinin əmrilə Ermənistan Silahlı Qüvvələri Azərbaycan Ordusunun cəbhə zonasında yerləşən mövqelərini atəşə tutdu. Prezidentin fərmanı ilə 28 sentyabr saat 00:00-dan Azərbaycan Respublikasının bütün ərazisində hərbi vəziyyət və imzalanmış sərəncama görə isə Respublikada qismən səfərbərlik elan edildi [7]. Azərbaycan Ordusunun həyata keçirdiyi "Dəmir Yumruq" əməliyyatı ilə irimiqyaslı hərbi əməliyyatlar davam etdirildi və şanlı qələbəmizlə başa çatdı.

Gənc nəsil tarixin tədrisi metodikasında bu mövzu ilə əlaqədar olan bir sıra tarixi faktları bilməli, həmin tarixi hadisələri təhlil etmək, nəticə çıxarmaq, dəyərləndirmək qabiliyyətlərinə malik olmalıdırlar. Onlarda yeni bilik və bacarıqlar, kompetensiyalar formalaşmalıdır. İlk öncə, dərk edilməlidir ki, düşmənə sarsıdıcı zərbə vuran Azərbaycan ordusu ermənilər tərəfindən uydurulan "məğlubedilməz erməni ordusu" mifini tamamilə məhv etdi. Hər qarış torpaq Azərbaycanın igid şəhid və qazilərinin, zabitlərinin canı, qanı bahasına azad edilirdi. Hər bir müharibə özünün taktika və strategiyası ilə fərqləndiyi kimi, Azərbaycan hərbçiləri də məşhur "aypara" və ya "qurd tələsi" taktikası ilə əks-hücuma keçirdilər. Qəhrəman Azərbaycan ordusu hərbi kitablara daxil ediləcək mürəkkəb əməliyyatlarla bu missiyanı yerinə yetirdi və azad olunan hər yerdə müqəddəs bayrağımız dalğalandı. Bu mövzunun əhəmiyyətindən danışarkən vurğulamaq lazımdır ki, Qarabağ müharibəsi yalnız ön cəbhə ilə məhdudlaşmırdı. Bu müharibə dünya azərbaycanlılarının birliyini bir daha nümayiş etdirdi. Müharibənin gedişində xalq-dövlət-ordu birliyi daha da möhkəmləndi. Azərbaycan Respublikasının bütün vətəndaşları etnik, sosial, dini baxımdan bütövlük nümayiş etdirdi, ön və arxa cəbhədə mükəmməl birlik yarandı. 10 noyabr tarixli Bəyanat İkinci Qarabağ müharibəsi haqqında rəsmi sənəd kimi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin tərəfindən imzalandı [1].

**İkinci Qarabağ müharibəsi dönəmində diplomatik və ideoloji cəbhədə uğurlar:** Ölkə başçısının yüksək siyasi məharəti sayəsində Azərbaycan dövləti hərb meydanı ilə yanaşı diplomatik və ideoloji cəbhədə də böyük uğurlar qazandı. Ölkə Prezidenti Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasəti haqqında dünya ictimaiyyətini məlumatlandırırdı. Müharibənin gedişində müxtəlif nüfuzlu əcnəbi televiziya kanallarına verdiyi müsahibələrdə Ali Baş Komandan beynəlxalq aləmdə Azərbaycan haqqında formalaşmış yanlış təsəvvürləri alt-üst etdi. Azərbaycan II Qarabağ müharibəsində dünya arenasında beynəlxalq əlaqələr məsələsinin növbəti istiqamətlərini müəyyən etdi [10]. Azərbaycan Ordusu müasir döyüş strategiyasında pilotsuz uçuş aparatlarından (dronlardan) yüksək effektlə faydalanmaqla dünya hərb tarixinə öz şanlı adını yazdı və müasir hərbin, döyüşün necə olduğunu göstərdi.

Türkiyə Respublikası və İsraildən alınmış “Bayraktar” və “Harop”, habelə Azərbaycan istehsalı olan “Zərbə” dronları ermənilərin qiyməti milyard dollarla ölçülən hərbi texnikasını, habelə çoxlu miqdarda canlı qüvvəsini məhv etmiş, həm müasir, həm də ənənəvi hərbi strategiya və taktikanı uğurla tətbiq etmişdir. İlham Əliyev, eyni zamanda, Ermənistanın havadarlarına səslənərək bildirirdi: “Biz Ermənistana artmaqda olan silah təchizatından ciddi narahatıq. İyulun 17-dən etibarən sentyabr ayına qədər, biz, hərbi yük təyyarələri ilə Ermənistana min tondan artıq hərbi avadanlığın daşınmasının şahidi olduq. Ermənistanın dünyanın ən yoxsul ölkələrindən biri olduğunu və silahlara milyardlarla dollar xərcləmək imkanına malik olmadığını nəzərə alsaq, silahların ona pulsuz verildiyi qənaətinə gələ bilərik. Etnik təmizləmə aparmış işğalçı ölkənin silahlarla təchiz edilməsi sülh danışıqlarını ciddi şəkildə sarsıdır və işğalçı dövləti yeni hərbi təxribatlara əl atmağa həvəsləndirir. Bu mənada, biz, bütün ölkələri Ermənistana silah təchizatından çəkinməyə çağırırıq”. Prezident İlham Əliyev Moskva görüşündən sonra qeyd etmişdir: “Dağlıq Qarabağ münaqişəsi keçmişdə qalıb və biz gələcək barədə, qonşular kimi birlikdə necə yaşamaq, nəqliyyat arteriyalarının açılması məsələlərini həll etməyə necə çalışmaq və gələcəkdə regional sabitliyi və təhlükəsizliyi möhkəmlətmək haqqında düşünməliyik”.

Sentyabrın 29-da Rossiya 1 telekanalında yayımlanan "60 dəqiqə" proqramında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aparıcıların suallarını cavablandıraraq, öz açıqlamalarında, Türkiyə polemikasına dair: "Hesab edirəm ki, Türkiyənin rolu regionda sabitləşdirici xarakter daşıyır. Türkiyə bizə qardaş ölkə və bizim müttəfiqimizdir. Türkiyə bizə mənəvi dəstək göstərir və biz Türkiyə rəhbərliyinə, Türkiyə Prezidentinə və türk xalqına bizimlə həmrəy olduğuna və bizi dəstəklədiklərinə görə təşəkkür edirik. Guya Türkiyənin münaqişə tərəfi kimi iştirak etməsi barədə erməni tərəfin yaydığı bütün şayiələr təxribat xarakteri daşıyır. Azərbaycan Ordusu öz xalqının və öz ərazisinin müdafiəsini təmin etmək üçün kifayət qədər hazırlıqlıdır." - deyə cavab verib. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan müharibənin ilk günündən bütün çıxışlarında Azərbaycanın yanında olduqlarını vurğulayıb [5]. İkinci Qarabağ müharibəsində Azərbaycanın qələbəsini xüsusi təntənə ilə qeyd edərək, bildirib ki, “Erməni xalqını onları fəlakətə aparan hökumətlərinə və onları bir kukla kimi oynadanlara qarşı çıxmağa, gələcəklərinə sahib çıxmağa dəvət edirəm. Bütün dünyaya işğala və zülmə qarşı verdikləri mübarizədə Azərbaycanın yanında olmağa çağırıram. 30 ilə yaxındır məsələyə etinasız yanaşan ATƏT-in Minsk qrupunun həmsədr ölkələri həll üçün fəaliyyətdən, təəssüf ki, çox uzaqdır. Ermənistan bölgədə sülh və sabitliyin önündəki ən böyük təhdid olduğunu növbəti dəfə göstərib. Türk milləti hər zaman olduğu kimi bu gün də bütün imkanları ilə azərbaycanlı qardaşlarımızın yanındadır". Cənab Rəcəb Tayyib Ərdoğanın qeyd etdiyi kimi: “Qarabağ Zəfərinin Azərbaycana, Qafqaza və dünyaya gətirəcəyi faydaların dəyəri zaman keçdikcə daha yaxşı dərk ediləcək. Bu Zəfərlə

Qarabağın hər yerinə sabitlik, əmin-amanlıq və ümid hakim olub". Qardaş ölkənin Prezidentinin bu sözləri ölkəmiz üçün dəyərli olduğu qədər, dünyanın aparıcı güc mərkəzləri üçün də bir o qədər siyasi mesajları özündə əks etdirir [9].

Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu, həmçinin Ədalət və İnkişaf Partiyası (AKP) sədrinin müavini Numan Kurtulmuş Azərbaycanın Ankaradakı səfirliyini ziyarət edib, Azərbaycanın Türkiyədəki səfiri Xəzər İbrahimlə görüşüblər. Türkiyənin Müdafiə naziri Hulusi Akar ölkəsinin Azərbaycanın tərəfində olduğunu bildirib və Ermənistanın mövqeyinin Qafqazda sülh və sabitliyin ən böyük əngəli olduğunu vurğulayıb. Artıq 2021-ci ilin yanvar ayının axırından etibarən Ağdamda Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzi fəaliyyət göstərməkdədir. Bir sözlə, Qardaş Türkiyə Cümhuriyyəti Vətən müharibəsində birmənalı şəkildə Azərbaycanın yanında olduğunu sözdə və əməldə nümayiş etdirdi. Türkiyə həmişə Azərbaycanın yanında oldu, bizə mənəvi və maddi dəstək verdi. Pakistan, İsrail, Ukrayna, Əfqanıstan, Şimali Kipr Türk Respublikası və bir neçə başqa ölkə də Azərbaycanın bu müharibədə haqlı tərəf olduğunu dəstəklədi, onun ərazi bütövlüyünü tanıdıqlarını bildirdilər.

**Şusa faktoru Vətən müharibəsində qələbəmizin rəmzidir:** Şuşa şəhəri ətrafındakı lokal döyüşlər Azərbaycan hərb tarixində yeniliyin əsasını qoydu, bütün dünyanı heyrətə gətirdi. Azərbaycan ordusunun komandanlığı öz miqyasına, planına və ardıcıllığına görə misli görünməmiş qərar verərək, Şuşaya sıx Qarabağ meşələrindən üç gün ərzində onlarla kilometr uzunluğunda yeni yol açaraq gəldi və tarixə yeni, şanlı bir qələbənin möhürünü vurdu. Noyabrın 8-də Şəhidlər Xiyabanını ziyarət edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Silahlı Qüvvələrinin Şuşa şəhərini işğaldan azad etdiyini elan etdi:"Şuşanın işğaldan azad edilməsi bizim şanlı Qələbəmizdir." Şuşanın azad edilməsindən sonra Ermənistan məğlubiyyəti qəbul etməyə məcbur oldu. Noyabrın 9-dan 10-na keçən gecə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin 9 bənddən ibarət birgə Bəyanat imzaladılar [1]. Bəyanatın imzalanmasından sonra Ağdam, Kəlbəcər və Laçın rayonları boşaldılaraq işğaldan azad edildi. Bu üç rayonun azad edilməsindən sonra Azərbaycan-Ermənistan dövlət sərhədində demarkasiya və delimitasiya işlərinə başlamaq zəruri bir tələb kimi ortaya çıxdı.Mövzunun ideya və aktuallığını, elmi cəhətdən əhəmiyyətini göstərərək,qeyd etmək istərdim ki, Azərbaycan 2020-ci il sentyabrın 27-də başlamış və 44 gün davam etmiş İkinci Qarabağ müharibəsini (Vətən müharibəsini) qlobal pandemiyanın baş verdiyi şəraitdə böyük zəfərlə başa çatdırdı. Son iki yüz illik tarixində Azərbaycan müharibədən ərazi itkisi ilə yox, ərazi bütövlüyünü bərpa edərək çıxdı [11]. Azərbaycanın Zəfər qazanmasını əsaslandıran faktlar tam orta təhsilin bütün səviyyələrində, həmçinin, ali təhsil səviyyəsində tədris edilməli, İkinci Qarabağ müharibəsi şəhidləri və qazilərinin daha yaxından tanıdılması təşkil edilməlidir.

Prezident Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə

əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək üçün "YAŞAT" Fondunun yaradılması haqqında Fərman imzaladı. "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adı, "Zəfər" və "Qarabağ" ordenləri, "Cəsur döyüşçü", "Döyüşdə fərqlənməyə görə", "Suqovuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Ağdamın azad olunmasına görə", "Laçının azad olunmasına görə" və digər medallar təsis edildi [13]. Döyüşlərdə iştirak etmiş minlərlə hərbçi müxtəlif orden, medal və fəxri adlarla təltif edildi. Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakı şəhərində Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyinin yaradılması nəzərdə tutuldu. Dekabrın 10-da Azərbaycanın Vətən müharibəsində möhtəşəm Qələbəsinə həsr olunmuş "Zəfər Paradı"nda ölkə ordusunun şəxsi heyətinin və hərbi texnikasının, habelə müzəffər ordumuzun düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi nümayiş etdirildi. "Zəfər Paradı"nda Şuşaya sancılmış Qələbə Bayrağını Azadlıq meydanına Şuşanın azad edilməsində müstəsna xidmətləri olan, Qarabağ xanlığının, Şuşa qalasının əsasını qoyan Pənahəli xan Cavanşirin nəslindən olan və Şuşa azad olunandan sonra şəhərin ilk komendantı seçilən general-mayor Zaur Məmmədov gətirdi. Paradda qardaş Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və ölkələrimiz arasındakı qardaşlığın rəmzinin bariz nümunəsi kimi Vətən müharibəsində şəhid olan azərbaycanlıların sayı qədər türk əsgərləri iştirak etdilər. İkinci Qarabağ müharibəsindən sonra yaradılan açıq səma altındakı muzey, Şəhidlərimizə aid muzeylər, memorial komplekslər gənclərimizin and yeri, ziyarət ocağı, sinifdənxaric işlər üçün gedəcəkləri tarixi məkan oldu. Belə tarixi ekskursiyalar ümumtəhsil məktəblərində oxuyan bütün şagirdlərdə Vətənpərvərlik hissinin güclənməsində, baş vermiş tarixi hadisələrin, şəhidlərimizin, qazilərimizin, qəhrəmanlarımızın onların qan yaddaşında möhkəmlən-məsində böyük əhəmiyyətə malikdir.

Azərbaycan Respublikasının Prezidenti müharibə bitdikdən sonra işğaldan yenicə azad edilmiş torpaqlara bir neçə dəfə səfərlər etdi, orada yeni layihələrin (Füzuli hava limanı, Şuşaya yeni yol və s.) təməlini qoydu. Bütün dünya tez bir zamanda Füzuli Hava Aeroportunun, Zəngilan Hava Limanının aşılışının, müasir standartlara cavab verən yolların çəkilişinin, Azərenerji tərəfindən Qarabağın işıqlandırılmasının şahidi oldu. Müasir tələblərə cavab verən infrastrukturun yaradılması yüksək sürətlə davam edir. 2021-ci ilin yanvarında "Qarabağ Dirçəliş Fondu" yaradıldı. 2021-ci il yanvarın 11-də Moskvada Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında keçirilən üçtərəfli görüşdən sonra imzalanmış Bəyanat II Qarabağ müharibəsinin nəticəsinə aid olan ikinci rəsmi sənəd oldu. Həmin ilin iyunun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev-

lə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında imzalanmış bir çox sahələri əhatə edən, xüsusilə strareji əməkdaşlıq haqqında Şuşa Bəyənnaməsi mötəbər sənəd kimi tarixə daxil oldu [4].

**"Qarabağ tarixi"nin tədrisi məsələləri və dərsliklər:** Azərbaycanın Zəfər qazanmasını əsaslandıran yuxarıda sadalanan faktlar, tarixi hadisələr tam orta təhsilin bütün səviyyələrində, həmçinin, ali təhsil səviyyəsində tədris edilməli, İkinci Qarabağ müharibəsi şəhidləri və qazilərinin daha yaxından tanıdılması təşkil edilməlidir. Dəyişikliklərdə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması və işğaldan azad olunmuş ərazilər haqqında yeni reallıqların ümumi təhsilin məzmununa daxil edilməsi nəzərdə tutulur. Bu məzmun yeni tarix dərsliklərində işıqlandırılmalı, tarixin tədrisinin aktual problemləri kimi ön plana çəkilməlidir. Çünki İkinci Qarabağ müharibəsi müasir Azərbaycan tarixi fənninin, həmçinin, Ümumi tarix fənninin, tarixi cöğrafiya, demoqrafiya, regionşünaslıq, iqtisadiyyat və digər fənlərin müasir tələblərə uyğun olaraq yazılmasını, yeni dərsliklərin nəşrini şərtləndirir. Dərslik hər bir insanın həyatda ilk dəfə oxuduğu kitabdır, desək, heç də yanılmarıq. İnsanları öyrənməyə, məlumatlanmağa, biliklərə, bacarıq və vərdişlər qazanmağa aparan yol da məhz belə kitablardan - dərsliklərdən başlanır. Görkəmli maarifçi-filosof R.Dekart düşünməyi mövcud olmaq adlandırırdı. Bu mənada təlim prosesində şagirdləri düşünməyə, düşünməklə axtarışlar aparıb, qərarlar qəbul etməyə istiqamətləndirmək ən vacib vəzifələrdəndir. Bu işdə dərsliklər, şübhəsiz, mühüm rol oynamalıdır. Xüsusilə, orta təhsil pilləsi üçün nəzərdə tutulan dərsliklərdə şagirdləri tədqiqatçılığa sövq edən materiallara geniş yer verilməlidir. "Nə üçün", "hansı səbəblərə görə", "hansı yolu seçməli" və sair bu kimi suallar şagirdlərin təfəkkürünü durğunluqdan dinamikliyə yönəltməlidir. Bu tələblərə cavab verə bilməsi üçün yeni nəsil dərsliklərin fənn kurikulumları əsasinda hazırlanmasında bir sira prinsiplərin gözlənilməsi mühüm əhəmiyyətə malikdir. Bunlara düzgünlük, əyanilik, müasirlik, aktuallıq aid edilə bilər. Dərslik təhsil sistemində məzmun və funksiyasına görə əhəmiyyətli resurslardan biridir. Şagird şəxsiyyətinin formalaşmasında dərsliklər mühüm rol oynayır. Şagirdlərin təfəkkürünü inkişaf etdirmək, əqli fəaliyyətin əsas üsullarını formalaşdırmaq üçün dərsliklər ən mühüm etibarlı vəsaitdir. Buna görə də təhsil islahatları çərçivəsində dərsliklərin yaradılmasına xüsusi müstəvidə yanaşılmış, hökümət səviyyəsində dərslik siyasəti sənədi hazırlanaraq təsdiq edilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də dərsliklərin nəşri işinə milli təhsil sisteminin modernləşməsi tədbirlərinin tərkib hissəsi kimi yanaşir. Prezidentin 2013-cü il 24 oktyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Təhsilin inkişafın üzrə Dövlət Strategiyası (Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" [6] strateji sənədin "Strateji hədəf və tədbirlər" bölümündə [2] kurikuluma əsaslanan yeni dərsliklərin yaradılması, şagird və müəllimlərin müvafiq dərslik seçiminin təmin edilməsi" vəzifəsi qoyulur. Dərslik siyasətinin məqsədi məktəbliləri müasir standartlara uyğun bilik,

bacarıq və vərdişlərə yiyələndirmək, Vətəninə, xalqına, onun adət-ənələrinə bələd olan, milli-ümumbəşəri dəyərlər zəminində formalaşan, fiziki və mənəvi cəhətdən sağlam, müstəqil həyata hazır və demokratik düşüncəli vətəndaşlar kimi yetişdirməkdir. Dərslik konkret fənn üzrə tədris planı və proqramı əsasında nəzəri və praktiki biliklərin əsaslarının sistemli və anlaşıqlı şəkildə izah olunduğu əsas vəsaitdir. Dərsliklər ən zəruri informasiyaları, tapşırıq və çalışmaları özündə əks etdirməklə istiqamətverici, yönəldici, düşündürücü funksiyaları daşıyır. Dərslik mahiyyətcə şagird üçün yazılır, lakin məktəb təcrübəsində bərqərar olmuş ənənələr axarında ondan həm şagird, həm də müəllim istifadə edir. Dərslik şagird üçün  bilik mənbəyidir. Müəllim dərsliyə bir mütəxəssis kimi müraciət edir. Dərslik fəal təlim prosesində bir komponent kimi şagirdi idraki fəallığa sövq etməli, onu tədqiqatçılığa və yaradıcılığa istiqamətləndirməlidir. Dərsliklərin yüksək səviyyədə hazırlanması, məzmunca, formaca yeniləşdirilməsi, müasir təhsil standartlarına, milli kurikuluma cavab verməsi şagirdlərin bilik və bacarıqlarının, dünyagörüşünün, yaradıcı təfəkkürünün inkişafı, habelə onların kamil insan, layiqli vətəndaş kimi formalaşması baxımından son dərəcə mühüm amillərdir. Məhz dərslik siyasəti vasitəsilə cəmiyyətin iqtisadi, mədəni və sosial inkişafının həlledici qüvvəsi olan şəxsiyyətin formalaşdırılmasının əsası qoyulur.

**Nəticə:** “Qarabağ” dərsliyinin nəşri və tədrisi haqqında da vaxtilə müxtəlif fikirlər səslənmişdi:”Qarabağ ayrica respublika deyil və bu dövlətin tərkib hissəsidir, onun tarixi nə üçün ayrica tədris edilməlidir?”- deyən bəzi alimlər, elm adamları tərəfindən etirazla qarşılanmışdı. Belə ki, onlar Qarabağ tarixinin ayrıca bir fənn kimi tədris edilməsinin dövləti bölməyə, regionlaşdırmaya xidmət etdiyini qeyd edirdilər. Ancaq 7-ci sinif “Qarabağ tarixi” [3] dərsliyinin müəllifi qeyd edirdi ki,”Qarabağin tarixi dərindən oyrənilməli, təblig edilməlidir. Bilirsiniz ermənilər işgal altında saxladıqları Qarabağın hər daşından, hər dağından, yerindən bir kitab, bir məqalə yazıblar. Biz onlardan yüz dəfə az yazmışıq. Ermənilərin 50-60 il əvvəl yazmaga başladığını biz indi yazırıq” [3]. Mənim fikrimcə, Qarabağ tarixinin ətraflı oyrənilməsi orta məktəbdən, ümumi təhsilin birinci pilləsindən baslanılmalıdır ki, övladlarımız tariximizin Qarabağ səhifəsini yaddaşlarına həkk etsinlər. İkinci Qarabağ müharibəsi bu fikirləri bir daha aktual etdi. Ona görə də, bütün təhsil müəssisələrində Vətən müharibəsində Azərbaycanın qələbəsini təmin edən amillərin təhlil olunması, xüsusi dərslərin təşkil edilməsi planlaşdırılmalıdır. Əlbəttə, bütün dərslikləri qısa müddətdə dəyişdirmək mümkün olmadığından hazırda bu proses elektron dərsliklərdə daha sürətlə aparılır. Dəyişikliklərdə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması və işğaldan azad olunmuş ərazilər haqqında yeni reallıqların ümumi təhsilin məzmununa daxil edilməsi nəzərdə tutulur. Bununla yanaşı, bütün təhsil müəssisələrində Vətən müharibəsində Azərbaycanın qələbəsini təmin edən amillərin təhlil olunması, xüsusi dərslərin təşkil edilməsi planlaşdırılmalıdır. Təhsil Nazirliyinin bildirdiyi kimi, bütün dərslikləri qısa müddətdə dəyişdirmək mümkün olmadığından hazırda bu proses elektron dərslik-

lərdə daha sürətlə aparılır. Bütün məktəblərdə bu mövzulardan nəinki tarix dərslərində, tarix fənninin inteqrasiya etdiyi əsas və köməkçi fənlərdə də istifadə edilməsi məqsədəuyğun və zəruridir, çünki, Qarabağ müharibəsi, Qarabağın yeni infrastrukturunun yaranması, Qafqaz regionundakı reallıqlar, bəzi dövlətlərin ikiüzlü siyasətinin ifşa olunması bunu tələb edir. 9-cu siniflər üçün Yeni tarix dərsliyi olan "Zəfər tarixi" "Zəfər yolu"nun orta məktəbin tarix tədris proqramında və tarixin tədrisində işıqlandırılmasını ehtiva edir. Artıq 2021-2022-ci tədris ilindən ümumi təhsil müəssisələrində "Zəfər tarixi" [12] fənni tədris olunur. Kursun tədrisində əsas məqsəd şagirdlərimizin milli - mənəvi dəyərlərə malik vətənpərvər ruhda yetişdirilməsi və "Zəfər yolu"na gedən yolda Aprel döyüşlərinin əhəmiyyət kəsb etməsinin tədrisdə vurğulanmasıdır. 2020-ci il 44 günlük Vətən müharibəsinin nəticəsində azad olunmuş torpaqlarımız, orada quruculuq işlərinin işıqlandırılması, yeni infrastrukturun yaradılması, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin işğal altında olan torpaqlarımızın azad olunmasında göstərdiyi müstəsna xidmətlərinin tədris proqramlarında öz əksini tapması bugünki təhsilimizin, tariximizin əsas Ana xəttidir.

## Ədəbiyyat siyahısı


1. *Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyanın Prezidentinin bəyanatı. https: //president. az/articles/45924 (10 noyabr 2020)*
2. *"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. http://www.e-qanun.az/framework/27274*
3. *"Azərbaycan tarixi 7 sinif", Bakı, "Təhsil", 2014, 128 səh.*
4. *Şuşa Bəyannaməsi. 11 yanvar 2021/https://president.az/az/articles/view/50070*
5. *Ərdoğan: Türk milləti bütün imkanları ilə Azərbaycanın yanındadır // https://ordu.az/az/news/172169 (27 sentyabr 2020*
6. *Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası https://president.az/articles/9779*
7. *İkinci Qarabağ Müharibəsi: səbəblər və ilkin şərtlər. https://azlogos.eu/ikinci-qarabag-muharibəsi-səbəblər-və-ilkin-sərtlər/*
8. *Dağlıq Qarabağ münaqişəsi və həlli.https://science.gov.az/az/news/open/15054*
9. *İkinci Qarabağ müharibəsi onların bizim qarşımızda heç bir şansının olmadığını göstərdi". https://525.az/news/176912-ikinci-qarabag- muharibesi -onlarin-bizim-qarsimizda-hec-bir-sansinin-olmadigini-gosterdi-ilham-eliyev? fbclid =IwAR32liaju R0r0vKNwonhL0rvMDYIw5W1DuJBr 46WRNC_s lSkGdO 2j0z bEYA*
10. *Hikmet Hajiyev: "Reports that an Armenian Su-25 was shot down by an F-16 are non-sense"". APA.az (İngilizce). 29 Eylül 2020. Erişim tarihi: 29 Eylül 2020*
11. *Zəfər salnaməsi. "IRS Publishing House", Bakı: 2021*
12. *"Zəfər tarixi" 9-cu sinif şagirdləri üçün tarix dərsliyi, Bakı: "Şərq-Qərb"nəşriyyatı, 2021, 108 səh.*
13. *Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun ("YAŞAT" Fondu) yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 8 dekabr tarixli 1203 nömrəli Fərman. https://nk.gov.az/az/document/5014/*

# QAYDALAR

## Məqalənin qəbulu şərtləri:

- Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının elmi nəşrlər qarşısında qoyduğu tələblər əsas götürülür.
- Tələblərə əsasən xaricdə və ya respublikada çap edilmiş eyni adlı və məzmunlu məqalələrin jurnala tədqim edilməsi yolverilməzdir.
- Plagiat aşkar edilən müəlliflərin məqalələri çap edilmir və həmin müəllifə jurnala məqalə təqdim etməyə qadağa qoyulur.
- Məqalələr Azərbaycan, rus və ingilis dillərində qəbul edilir.
- Yalnız Redaksiya heyəti tərəfindən müsbət rəy verilən məqalələr çap olunur.
- Redaksiya heyəti müəlliflərin elmi yaradıcılığında mövqelərini tam ifadə etməsi üçün hər cür şərait yaratmışdır.
- Müəlliflərin və Redaksiya heyətinin mövqeyi uyğun gəlməyə bilər.
- Məqalələr Redaksiya heyəti tərəfindən redaktə olunduqdan sonra çapa təqdim edilir.
- Toplunun materiallarından istifadə edərkən istinad zəruridir.
- Jurnal ildə bir dəfə nəşr edilir.
- Məqalələr müəlliflərin hesabına çap edilir.
- Məqalələr çap və elektron formada Dünya azərbaycanlıları: tarixi demoqrafiya elmi-tədqiqat laboratoriyasına təqdim edilməlidir.
- Jurnal respublikanın əsas kitabxanalarına təqdim edilir.
- Jurnalın elektron versiyası Bakı Dövlət Universitetinin saytında yayımlanır: http://bsu.edu.az

## Məqalənin tərtibi qaydaları:

- Mətn Times New Roman şrifti, 12 öıçü, 1 interval ilə yazılmalıdır;
- Həcm 7-10 səhifə (təqribən 2500-5000 söz);
- Məqalənin adı hamısı böyük hərflərlə tünd rəngdə (Bold) mərkəzdə yazılmalıdır;
- Məqalənın adı 3 sətirdən artıq olmamalıdır.
- Məqalənin adı ilə məzmunu tam uyğun olmalıdır;
- Məqalənin başlığının altında sağ tərəfdə müəllifin adı, soyadı – tünd rəngdə (Bold), fakültəsi, akademik və elektron poçt ünvanı göstərilməlidir;
- İlk səhifədə 100-200 sözdən ibarət 2 dildə (Azərbaycan və ingilis dillərində) xülasə və açaq sözləri verilir. Azərbaycan dilində xülasənin altından məqalənin ingiliscə başlığı, xülasə və açar sözlər verilməlidir. Xülasələrin adı, mətni və açar sözlər eyni olmalıdır;
- Məqalələr struktur olaraq “Xülasə”, "Giriş”, "Əsas hissə” (Başlıqlar), "Nəticə” (yekun, elmi yenilik, təklif), "Ədəbiyyat siyahısı”ndan ibarət olmalı və

məzmun buna uyğun qurulmalıdır;

- Məqalə içindəki yarımbaşlıqlar Birinci hərfi böyük, qalanları kiçik olmaqla verilməlidir. Məsələn, Giriş; Nəticə, Ədəbiyyat siyahısı;
- Məqalədə istifadə edilən ədəbiyyat və internet resursları son 5-10 ilin tədqiqatlarını əhatə etməlidir. Mənbələrin ünvanı isə dəqiq göstərilməlidir (nəşr yeri, ili, nəşriyyat və cəmi səhifəsi);
- Məqalədə istifadə edilən bütün ədəbiyyat və internet resursları məqalənin sonunda əlifba sırası ilə düzülür. Mətndə istinadlar həmin sıraya uyğun kodla verilir. Məsələn [5, səh. 8];
- İnternet resursları göstərilərkən, əvvəlcə istinad olunan məqalənin ya yazının müəllifi, məqalənin ya məlumatın bağlılığı və ondan sonra hiperiqtibas qoyulmalıdır;
- Məqalədə sitatlar məqalənin ümumi həcminin yalnız 30 faizini əhatə edə bilər. Yerdə qalan hissə yeni fikir olmalıdır;
- Cədvəl və şəkil verilərsə, cədvəl 1, cədvəl 2; şəkil 1, şəkil 2 və s. şəklində sıralanmalı və ad verilməlidir. Məsələn, Cədvəl 1. Azərbaycan respublikasının əhalisi (1999-cu il siyahıyaalmasına əsasən);
- İqtibaslar, cədvəllər və cədvəlin mənbəsi cədvəlin aşağısında 10 ölçüdə verilməlidir;
- Məqalədə verilən şəkil və xəritələr ayrıca fayl (GİF, JPEG) kimi də təqdim edilməlidir;
- Məqalələr tam redaktə olunduqdan sonra təqdim edilməlidir.

# DÜNYA AZƏRBAYCANLILARI: TARİX VƏ MÜASİRLİK

**(Elmi-nəzəri toplu)**

**IX BURAXILIŞ**

***Çapa hazırlayanlar**: Ulduz Paşayeva, Səidə Quliyeva, Zəhra İslamova, Hicran Mahmudova, Aygün İsmayılova*

**BAKI - 2022/2023**

Nəşriyyat direktoru: Elnarə Abbasova
Texniki redaktor: Asim Səfərov
Dizayner: İradə Əhmədova
Operator: Həmidə Bağırova

---

Çapa imzalanmışdır: 25.12.2022
Kağız formatı: 70x100 1/8, ş.ç.v. 26,5 ç.v.
Sifariş: 66
Sayı 50 ədəd
"Füyuzat" nəşriyyatında çap edilmişdir.
Ünvan: Bakı şəh., Z.Xəlilov küç., 26
Tel.: 055 850-98-69